Araz Gündüz
Soqrat
Turuz-Tebriz-2011

SOQRAT

ARAZ GÜNDÜZ

Turuz-Tebriz-2011

GİRİŞ

Əski çağların Elladasında(Yunanıstanda) sofist* adı ilə sayqılanan bilgin insanlar vardı. Onlar kosmosdan tutmuş yan-yörəyədək, gözlə görüləsi, əllə toxunulası nə varsa, hamısınacan araşdırar, öyrənər, onlardan insanların necə yararlana bilməsi yollarını göstərərdilər. Sonradan yunanlar bunların içindən yeddi sofisti seçib, onları ən böyük deyə adlandırmışdılar, bu yeddilərin sırasında türk kökənli Anaxarsis də vardı. Deyilənə görə, bu yeddi ən böyük bilgələrdən birincisi sayılan Fales kökəncə finikiyalı olmuşdur, yəni indi Yaxın Doğu(şərq) dediyimiz torpaqlardan gəlib Elladaya çıxmışdır, onun bu sayaq biliklərin "toxumlarını" oralardan gətirdiyi, Yunan ortamında əkib-bəslədiyi də deyilməkdədir. Ancaq bu, olsa-olsa Əski(antik) Yunan kültürü deyilən olayın qaynaqlarından ancaq birisi sayılmalıdır, düzünə qalsa, o çağların yunanları, özlərinin yaratdıqları bilim-inanc-ərdəmlik örnəkləri ilə yanaşı, bir yanı Misirdən tutmuş, Hindistana kimi olan torpaqlarda yaranmış bu sayaq örnəkləri də mənimsəmiş, bunların özülü üstündə, qatı yunanca olduğu danılmaz olan, böyük bir kültürü araya-ərsəyə gətirmişdilər.

Qaynaqlardan bizə gəlib çatan bilgilərə görə, filosof sözünü ilk olaraq işlədən Pifaqor olmuşdu. Filosofun, "biliksevər" anlamı verən bir söz olduğunu çoxlarınız bilirsiniz. Görəsən, bu "yeniliyin" ortaya atılması nə ilə bağlı idi? Pifaqorun bu anlayışı ortaya atmaqla, dini-mifik-mistik baxışlarla, bilim(elm) arasında yenicə qızışmağa başlayan qarşıdurmanı yumşaltmaq istədiyini də düşünmək olar. Necə olursa olsun, bilim adamının bilgə(müdrik) adlanmaqdan çıxıb, "biliksevər" olmasının başlıca yozumu, ancaq tanrıların bilgə ola biləcəyi, insanların isə olsa-olsa onların yol verdikləri ölçülərdə bilik öyrənə biləcəkləri anlamına gəlir. Burada bir də, fəlsəfənin özgürləşə bilməsindən üşənmək, onun ortalıqda olan inancların yerini tuta biləcəyindən qorxuya düşmək də var idi. (Sokratın öyrətməni olduğu deyilən Anaksaqorun məhkəməyə çəkilib

sürgün olunması, onun yazılarının oxunmasına yasaq qoyulması da, sofist Prataoqora ölüm kəsilməsi(o, qaçmaqla ölümdən yaxasını qurtara bilmişdi), onun "Tanrılar" kitabının hamının gözü qabağında yandırılması da, habelə bunun kimi çoxlu olaylar da, görünür elə bununla bağlı olmuşdur.) Bir sözlə, fəlsəfə cızığından çıxmamalı, dini-mistik-mifik inancları anlamaq yolunda ancaq bir körpü olaraq qalmalı idi. Fəlsəfənin "belində" özünün yükünü daşımaq istəyən qolugüclülük, ötədən-bəriyə bütün çağlarda olmuşdur. Yaxın keçmişimizin, izləri sonacan silinib getməmiş totalitar-diktatura dönəmini ansanız, bu günkü toekratik toplumları izləsəniz, "qondarma fəlsəfə doktorlarının", "din ayırd eləməklə" aranı qızışdırmaq istəyən teoloqların yaşamaqda olduğu ölkələrə baxsanız, fəlsəfəni elə indi də, yanlış inancların, ideologiyaların, siyasətlərin qolubağlı quluna çevirmək istəyənlərin çabalarını görə bilərsiniz.

Sokratın uğuruna bir çox nəsnələri ilk olaraq sınamaq düşmüşdü. Sokrat, Afinada doğulan, kökəncə afinalı olan ilk filosofdur; İlk olaraq fəlsəfə araşdırmalarını doğadan(təbiətdən) ayırıb, insanı öyrənməyə o, yönəltmişdir, o çağların fəlsəfə dili ilə desək, fəlsəfəni "fizikadan" ayırıb, "etikaya" qoşmuşdur;(Buradaca deyək, insan konusunu fəlsəfəyə Sokratdan öncə sofistlər gətirmiş, ancaq onların araşdırmaları sonucda bayağılığa(absurda) gedib çıxmışdır.) İlk olaraq, məhkəmə yolu ilə öz baxışlarına görə suçlanıb, öldürülən filosof da Sokrat olmuşdur...

Bu baxımdan, Sokratı İsa Məsihə oxşadanlar da vardır, yəni Sokrat da onun kimi, dövlətin yanında yox, xalqın içində olmağı ilə seçilən, insana yaraşmayan oturuşmuş baxışlarla savaşa atılan, bununla da yeni çağın gəlişinə yol açan, elə buna görə də öldürülən bir kimsə olmuşdur. Sokratın bu sayaq, tanrı elçilərinə oxşadılmasının bir nədəni də var idi. Çoxtanrıçılığın özünə yer elədiyi yunan düşüncəsinin tərsinə olaraq, Sokrat tanrılardan danışanda, onları çoxluqda yox, təklikdə anır, sanasan, təktanrıçılığa inanan birisi kimi danışırdı. Bir də ən önəmlisi, gördüyü işləri, öyrətmələrini, tanrıdan gələn bir səsin ona aşıladığını deməsi də, Sokratı təktanrıçılıq inanclarından tanıdığımız tanrı elçilərinə oxşatmaqdadır.

Sokrat özündən qabaq ortalıqda olan bir fəlsəfə gələnəyinin(ənənəsinin) ardıcılı olaraq da tanınmaqdadır. İş burasındadır, Sokrat öz fəlsəfə öyrətmələrini yazıya almamışdır. Sokrat özü bunu belə anladırdı: "...Yazıya alınan bilik ancaq üzdən öyrənilə bilər, yazıda

danışıqda olan dirilik olmadığından, o konuları dərinliyinə kimi açıqlaya bilmir, ondan nəyisə dönə-dönə "soruşsan" da, qayıdıb sənə ancaq bir söz deyəcəkdir, bunula o, yaşarı olmayan varlıqlara, lap elə deyək, hansısa çəkilmiş şəkilə oxşayır". Bu düşüncənin bir az da dərinləşməsi ilə, biz buddizmdə də üzləşirik. Bizim çağın VI yüzilində, buddizmi Çinə gətirən Bodhidharmanın öyüdlərindən birində deyilirdi: "İnanclarınızı yazılara bağlamayın". Görünür, inancların kitablaşandan sonrakı dəyişilməsinə yasaq qoyulması, bu yönü tutan qavramanın kağızda yazılanları ötüb keçə bilməməsi, daşlaşması(ehkamlaşması), özünə qapanması ilə sonuclandığından, keçmiş çağların bilgələri bu durumdan doğan: anlağın gəlişmələrinin durğunlaşmasını, özgürlüyünü itirməsini qabaqlamaq üçün də bu düşüncələri ortaya atmışlar.

Əski çağlar yunan fəlsəfə okullarında(məktəblərində), uzun illər sürəcində aparılan araşdırmaların hamısının bu okulun yaradıcısı olan filiosofun adına yazılması gələnəyi də olmuşdur. Örnək üçün, hamımızın, düzbucaqlı üçbucaqla bağlı olan, "Pifaqor teoremi" kimi tanıdığımız teoremi də Pifaqorun öyrəncilərinin ərsəyə gətirib, öz öyrətmənlərinin adına yazdıqları ilə bağlı, çox inandırıcı araşdırmalar vardır. Bu dediklərimiz, Sokrat üçün, onun öyrənciləri olmuş Platonla, Ksenofontun yazdıqlarında da özünü göstərməkdədir. Yəni onların Sokratın adından yazdıqları sözlərdən hansılarının doğrudan da Sokratın, hansılarının öz dedikləri olduğunu sonacan ayırd eləmək olmur. Bu gələnək, insan ərdəmliyinə bağlı dəyərlərin üstün tutulmasından doğurdu. Öyrəncilər, onları yolun düzünə çıxarmış, uğura yönəltmiş öyrətmənlərinə sayqılarını belə bilindirirdilər. Görünür, burada bir də, öyrətmələrin (təlimlərin) bütövlüyünü qoruyub saxlamaq, onların taqımlara(təriqətlərə) bölünməsini qabaqlamaq çabaları da vardır.

Sokrat Azərbaycanın geniş oxucu çevrəsinə yaxşı tanış deyil demək, kimdəsə bir dirəniş qırımı da yarada bilər, ancaq məncə, bu elə belədir də var. Burada çoxluğun Sokratdan bildiklərini, iki deyimlə bütünləşdirmək olar. Birincisi, "Sokrat doğruluğun(həqiqətin) söz dartışmasında üzə çıxdığını" demişdir kimi səslənir; İkincisi isə budur, Sokrat deyib: "Bildiyim yalnız odur, mən heç nə bilmirəm". Özlüyündə, birinci deyimdə, Sokratın fəlsəfəyə gətirdiyi bir yenilikdən ötəri söz açılmışdır, Aristotelin dediyi kimi, Sokrat gerçəkliyi məntiqə uyğun olaraq qavramaq üçün,

induksiya yolu ilə getməyin gərəkliyini ilk olaraq ortaya atmışdır, yəni Sokrat hansısa gerçəkliyi bütünlüklə anlamaq üçün(buna gerçəkliyin özlüyünü-mahiyyətini anlamaq da demək olar), onun tək-tək üzləşilən göstəricilərini götür-qoy, sağ-çürük eləməklə, onları ayrıldıqları bütünlüyə qaytarır, sonradan bu bütünlüyü, bənzətmələrin(analoqların) yardımı ilə anlayışlara(terminlərə) çevirib, qavramağa çalışırdı. Göründüyü kimi bu eləcə söz dartışmalarına qapılmaq olmayıb, yolun düzünü tutub, addım-addım doğruya sarı getməkdir. İkinci deyimdə isə, bir yandan az öncə dediyimiz, yalnız tanrıların bilgə(müdrik) olduğu, insanların isə, tanrıların yaratdıqlarını sonacan anlamaq gücündə olmadığı söylənmişdir; başqa yandan, öyrəniləsi biliklərin sonsuzluğu, tükənməzliyi, öyrənə bildiklərimizin isə, bu tükənməzliyin yalnız kiçicik bir əlcəsi olduğu gözə çarpdırılmışdır.

Oxuyacağınız kitabda, ən güvəncli qaynaqlar sayılan, Platonla Ksenofontun, Sokratla bağlı yazdıqları verilmişdir. Bu kitabda, Ksenofontun Sokratla bağlı yazdıqlarının ortalama götürsək, yüzdə doxsanı, Platonun isə ancaq, Sokratın ölümündən bir az öncə baş verən olaylarla bağlı yazdıqları yer almışdır. Platonun az qala bütün yazılarında Sokratın adı keçdiyindən, belə bir seçim eləməli olduq. Bir də Sokratın, ölüm qabağı dilə gətirdiyi bir inancın etkisinə qapıldığımızı da danmırıq, Sokratın deməsinə görə, ölüm yaxınlaşanda insanın uzaqgörənliyi artır, o qat-qat yaxşı anlamağa başlayır, deməli burada Sokratın ölümqabağı dediklərinə bir az artıq önəm verməyimiz yerinə düşür.(Bu inancın kökündə belə bir mistik baxış dururdu: ölümün yaxınlaşması ilə öpöz(ruh) bədəndən ayrılmağa başlayır, bədən ölümlü, öpöz ölümsüz olduğundan, bədən öz düşkünlükləri ilə öpözü doğru yoldan azdırmağa çalışdığından, bədəndən ayrılmaq özgürlüyü, öpözün yetkinliyi sayılmalıdır.)

Sokratla bağlı buçağacan aparılan araşdırmalarla ötəri də olsa tanış ola bilməyiniz üçün, Sokratın görkəmli araşdırıcılarından olan Kessidinin “Sokrat” monoqrafiyasından parçaları da, burada baxışlarınıza çatdırmışıq.

Sokratın bir sıra qaynaqlarda yer alan ünlü sözlərini(aforizmlərini) də toplayıb, burada vermişik.

Sokratla onun oxucuları arasında araçılıq(vasitəçəlik) eləmək düşüncəsindən uzaq olduğumuzdan, qırağa çəkilib, sözü onun özünə veririk, bu kitabda ən başlıca sözləri, Sokratın öz dilindən eşidəcəksiniz. Qarşınızdakı kitab, Sokratı tanımaqda az-çox işinizə yarayacaqsa, bizə ancaq sevinmək qalır.

***Sofist–Sonrakı çağlarda bu söz öz ilkin, "bilgəlik" bildirən anlamını irirmiş, axça alıb bilik öyrədən kimsələrə "sofist" deyilmişdir. Sofistlərlə bağlı bir az sonra oxuyacağınız "Sokrat" monoqrafiyasınadan verilmiş parçalarda geniş bigi alacaqsınız.**

ARAZ GÜNDÜZ.

26 dekabr, 2011-ci il.

Kessidinin ömür yolundan yığcam bilgi.

Feohari Harlampiyeviç Kessidi 13 mart 1920-ci ildə Gürcüstanda yaşayan yunanların arasında doğulmuşdur.

Moskva Dövlət Universitetinin fəlsəfə bölümünü bitirmiş, fəlsəfə elmləri doktoru olmuşdur. Afina elmlər akademiyasının müxbir üzvü olmuş, Yunanıstanın "Qızıl Xaç" ödülünü almışdır. 1970-92-ci illərdə Rusiya elmlər akademiyasının Fəlsəfə institutunda işləmişdir.

Onun elmi araşdırmalarında, əskiçağ Yunan fəlsəfəsinin mifik baxışlardan bilimsəl(elmi) baxışlara doğru gəlişməsi incələnmişdir. Kessidinin "Sokrat" monoqrafiyası, dünya elmi çevrələrində sayılıb seçilən kitablardan olmuş, bir sıra Avropa dillərinə çevrilərək yayınlanmışdır.

1992-ci ildən Yunanıstana köçən Kessidi, 2009-cu ildə Afinada ölmüşdür.

Bu bölmədə Kessidinin "Sokrat" monoqrafiyasından, geniş oxucu çevrəsini ilgiləndirə biləcək çıxarışlar verilmişdir.

SOKRAT

ÖN SÖZ

Fəlsəfənin ilyazısında(tarixində) Sokratcan ünlü sayıla biləcək başqa bir kimsənin adını çəkmək olmur. Sokratın adı, bilgəliyin adaşı(sinonimi), düşüncə ərəni, yenilməz kimlik örnəyi kimi anılaraq, minillikləri adlamış, çağdaş günümüzəcən gəlib çıxmışdır. Sayı bilinməz ədəbiyyat, incəsənət örnəklərində Sokrat konusu başlıca yerlərdən birini tutmuş, Platondan başlamış bu günümüzəcən çoxlu yazarlar, onun kimliyini öz yazılarında yuxarı başa çıxarmış, başlıca olaraq öyünclərlə, təkəm-seyrək biriləri də qınaqlarla anmışlar.

Beləcə, Sokratın kimliyini araşdıran, onun fəlsəfə öyrətmələrini incələyən çoxlu qaynaqlar araya-ərsəyə gəlmişdir. Buna baxmayaraq, elə bu fəlsəfə ilyazısında, deyəsən Sokrat təki kimliyi sonacan anlaşılmaz qalan başqa birisini tapmaq da olmaz. Sokrat öz çağının gələnəklərinə uyaraq, öyrətmələrini yazıya almamışdır. Onun ömür yolunu da, fəlsəfə öyrətmələrini də, biz ancaq Sokratın çağdaşları olmuş öyrəncilərindən, arxadaşlarından (filosof Platon, ilyazıçı(tarixçi) Ksenofont), bununla yanaşı onu gözü götürməyən çağdaşlarından(komediyayazan Aristofan), bir az sonrakı yazarlardan (Aristotel), eləcə də çox sonrakı yazarlardan öyrənməli oluruq, onların da Sokrata

baxışları bir yerlərdə gerçəkliyə, başqa yerlərdə öz anladıqlarına uyğun olmuşdur. Bütün bunlar isə Sokratı sonacan, gerçəkdən tanımaq üçün yetərli görünmür.

Dediyimiz təki, ötən çağlardan başlayaraq, Sokratı dəyərləndirməyə çalışan, biri-birindən seçilib ayrılan çoxlu baxışlar olmuşdur, onların arasında biri-birini büsbütün dananları da gözə çarpmaqdadır. Bu elə, Sokratın çağdaşlarının bir bölüyünün onu qorxunc bir tanrıtanımaz sayaraq, məhkəməyə sürükləyib, ona ölüm kəsməsindən, başqa bir bölüyünün isə bu suçlamaları qarayaxmalar sayaraq, Sokratı qatı tanrıqan(mömin) bir kimsə sanmasınadan da görünməkdədir. Elə bütün başqa çağlarda, lap bugünümüzdə də, Sokratı dəyərləndirməkdə bu sayaq, biri-birinə tərs gələn baxışlar qalmaqdadır. Biriləri üçün o, bütün çağların ən böyük filosoflarından biri olaraq qalır, başqaları üçün o, darıxdırıcı, bezikdirici ərdəmlik(mənəviyyat) öyrətmənidir, üçüncülər üçün o,– "Afinanın qul əməyinə arxalanan demokratiyasını dağıtmağa çalışan", bu sayaq, dövlətə qarşı olan siyasətə qoşulduğu üçün öldürülən devirimçidir(inqilabçıdır), dördüncülər üçün isə–bütün çağlarda insanları, düzgün yaşamağa, ərdəmli olmağa, özgürlüyə çatmağa çağıra bilən, yönəldə bilən, böyük bir düşüncə öndəridir.

Ona görə də, əskidən qalmasına baxmayaraq, yeni görünən bu sorğu, yenə də gündəmdə qalmaqdadır: görəsən, istər Sokrat olsun, istərsə də əski çağların,–lap bugünkü günümüzün də–başqa böyük düşüncə ərənləri olsun, onların gerçək dəyərlərini, öz çağlarında, elə sonrakı çağlarda da, sonacan doğru-düzgün anlamaq olası bir işdirmi? Necə olsa da, onları dəyərləndirməyə çalışanların yozumlarının–yaşadıqları çağların ilyazısı-fəlsəfə bilimlərinin gəlişmələrinə uymasından başqa,–bu araşdırıcıların anlamaq bacarığından, dünyabaxışlarının genişliyindən-darlığından, hansı ideologiya, hansı siyasət axınına uymasından asılılığını da gözdən qaçırmaq olmaz. (Ola bilsin lap kimsə, bilimə(elmə), fəlsəfi baxışlara tərs gələn mifik-mistik inanclarına arxalanaraq da bu konunu araşdırsın.) Bu da kimsəyə gizlin deyil, ayrı-ayrı çağlarda, başqa-başqa yazarlar(lap ola bilsin bir yazar öz yaradıcılığının ayrı-ayrı dönəmlərində də), filosofları, onların öyrətmələrini, bütün fəlsəfə ilyazısını da, biri-birindən seçilib ayırd olunan baxışlarla yozmuşlar. İstənilən bu sayaq yozumlarda, ayrı-ayrı kimsələrin özümlü görüşləri də, o çağın oturuşmuş baxışları da, özünə qapanma deyilən durumdan sonacan qurtula bilmirsə, onda doğru olanı sonacan qavramaq(bizim durumda Sokratı olduğu

kimi qavramaq) baş tutası bir iş sayıla bilərmi? Yoxsa, Sokrat üçün də, onun təki başqa çağların böyük düşüncə ərənləri üçün də yazılanlar, bunları yazanların bağlı olduqları siyasətlərə, fəlsəfələrə, inanclara, habelə bunun kimi başqa axınlara(cərəyanlara) uyğun olaraq yozulduğundan, onlara bel bağlamaq olmaz? Bir sözlə, bu sayaq araşdırmalarda doğruluq axtarmağa dəyərmi? Bu sayaq axtarışlarla doğruluğu tapmaq olarmı? Bu çoxsaylı araşdırmalardan, hansını doğru sanmalıyıq?

Sokratın yaşadığı o uzaq çağlarda, biri-biri ilə toqquşan düşüncələrin savaşı çox kəskin olmuş, bir yerlərdə bu söz döyüşləri qanlı olaylarla sonuclanmışdır. Örnək üçün, Doğruluğun(Həqiqətin) nə olması üzrə konularla bağlı, Sokratın çağdaşları olan sofistlərin öyrətdikləri, yunanların tanrılarla, dünyayla, yaşamla bağlı görüşlərini laxladıb yerindən oynadırdı; Bu baxışların yanlışlığını anlayan Sokrat isə, sofistlərə qarşı barışmaz bir savaşa atılmışdı. Bundan başqa, Sokrat doğanı(təbiəti) öyrənən, "fizik" adlanan filosofların araşdırmalarının, insanın işinə yarayacaq çevrədən qırağa çıxmasını da boş-boşuna çalışmalar sayırdı. Ancaq Sokratı suçlayıb ona ölüm kəsənlər, Sokratı "sofist" kimi də(Prataqor kimi tanrının varlığına danmaqda), "fizik" kimi də(Anaksaqor kimi tanrının işlərinə əl aparmaqda), qaralamaqdan çəkinməmişdilər.

O çağların Yunan toplumunun üzləşdiyi bu fəlsəfə-ideya savaşlarını doğru-düzgün anlamaq üçün də, burada Sokratın öyrətməsinin(təliminin) tutduğu yeri aydınlaşdırmaq, dəyərləndirmək üçün də, Sokratın yaşadığı dönəmdə əski Yunan toplumunun sosial-siyasi, ideya-ərdəmlik(mənəvi) durumunu gözdən keçirmədən dəyərli bir söz demək olası deyildir. Konunun bu sayaq qoyuluşu, mənim görmək istədiyim işin çevrəsini bilindirməkdədir. Yeri gəlmişkən deyim, mənim burada deyəcəklərimin söz dartışması konusu ola biləcəyini də danmıram, eləcə də Sokratla bağlı ortalıqda olan çalpaşıqları biryolluq çözə biləcəyimi düşünməkdən də uzağam. Yanlışlardan qaça bilmək üçün mən, Sokratın öyrətməsinin özətini aydınlaşdırmağa, onun eləyə bildiklərinin özlüyünü(mahiyyətini), öz bacarığıma uyğun olaraq, doğru-düzgün dəyərləndirməyə çalışmışam.

F. H. Kessidi

SOKRAT TAPMACASI

Sokratla bağlı konuların araşdırılmasında ən önəmli olanı, deyilənlərin bir yandan ilyazısının(tarixin) gerçəklərinə arxalanmasında, o biri yandan da bunların bacardıqca inandırıcı qaynaqlardan yararlanmasındadır. Bu deyilənlərə ən çox uyğun gələni, Platonla Ksenofontun Sokratla bağlı yazdıqlarıdır, onlar uzun illər boyunca(elə indinin özündə də), ən güvənilən qaynaqlar sanılmışlar. Yeri düşmüşkən deyim, bu işdə yersiz aşırılığa yol verən elə fəlsəfə araşdırıcıları da–A. Teylor, C. Bernet kimi–olmuşdur, onlar Platonun dialoqlarında, Ksenofonton "Sokratla keçən günlərimdə" yazdıqlarının hamısının ucdantutma, elə doğrudan-doğruya Sokratın dilindən yazıya alındığnı deməkdən belə çəkinməmişlər, habelə bir az da uzağa gedib, Platonun baxışlarının az qala hamısını Sokratın adına çıxmışlar. Ancaq fəlsəfə ilyazıçılarının böyük çoxluğu, Platonla Ksenofonta da, Aristotelə də(lap desən komedioqraf Aristofana da), onların yazılarını araşdırıb-ələşdirmədən güvənməyi yersiz saymışlar. İstər istəməz belə bir sorğu yaranır: görəsən bizə gəlib çatan qaynaqlar üzrə Sokratı olduğu kimi tanıya bilmək, onun özlüyündə kim olduğunu, nə öyrətdiyini sonacan anışdırmaq olarmı? Araşdırıcıların böyük çoxluğu, əlimizdə olan qaynaqlara arxalanmaqla, Sokratın doğruçu kimliyinin anlaşılası görkəmə salına bilinəcəyini demişlərsə də, ancaq onlar da qaynaqlara yanaşmada, onların birilərinə güvənmək, o birilərini danmaq yolunu

tutduqlarından, ortaq bir düşüncəyə gəlib çıxa bilməmişlər. Burada isə, başlıca olaraq, Platonla Ksenofontun Sokrat üçün yazdıqlarının hansının o birindən üstün olduğu konusunda uzun-uzadı söz güləşdirmələri olmuşdur. Bəlli olduğu kimi, qaynaqları bu sayaq kəsinliklə biri-birinə qarşı qoymağın özü yanlışlıq sayılmalıdır. Bu çəkişmələrin sonucu olaraq, Sokratın adı anılan bütün qaynaqların üzərində çox gərgin araşdırmaların aparılmasına gərək duyulmağa başladı. Son yüz ildə bu yöndə çox böyük işlər görüldü. Ancaq bu işlər necə gərəkli olsalar da, onların bir çatışmazlığı vardı, o da qaynaqların araşdırılmasında, onların güvənli olub-olmamasını aydınlaşdırmaqda, yalnız filoloji tutuşdurmalara üstünlük verilməsi idi. Beləliklə də, bu araşdırmaların gedişində Sokratın yaşadığı toplumla ilişkiləri, ondan bilgi verən qaynaqların o çağların ilyazısı qaynaqları ilə uyğunluğunun araşdırılması, Sokratın uzun ömür yolunda keçdiyi yaradıcılıq dönəmlərinin ayırd edilməsi, onun yaşadığı çağlarda ayrı-ayrı fəlsəfə baxışlarının oturuşmuş durumlarının öyrənilməsi gözardı edilmişdir.

Ən başlıcası, bu sayaq biryönlü, dar çevrəyə qapanmış araşdırmalar gözlənilməz bir sonuca gətirib çıxarırdı: Sokratla bağlı bilgilər bir az da artıq qarışıq-dolaşıq biçimə düşür, Sokratın kimliyi isə bir tapmaca konusuna çevrilirdi. Bu azmış kimi, bir çox araşdırıcılar qaynaqların filoloji dəyərləndirmələrinə arxalanaraq, özlüyündə haçansa Sokrat adında birisinin olmadığı, yox birdən belə bir kimsə olubsa da, qaynaqlardakı Sokratla onun ayrı-ayrı adamlar olduğunu deməkdən çəkinməyərək, bizə tanıdılan Sokratın uydurma-mifik yaradıcılıqdan doğma bir kimsə olması düşüncəsini də ortaya atmışlar.

Bu araşdırıcılar Platonun, Ksenofontun, Aristotelin Sokrat üçün yazdıqlarını belə, yalana çıxarmaqdan çəkinməmişlər. Örnək üçün, adlı-sanlı isveçrəli bilimçi(alim) Olof Gigon yazırdı: “Baxmayaraq, əski çağlardan bizə Sokratla bağlı sayagəlməz qaynaqlar gəlib çıxmışdır, ancaq bunlara görə Sokratın doğruçu kimliyini aydınlaşdırmaq başa gələn bir iş deyildir, belə çıxır, bu əski çağların qaynaqlarının biri də, yarandığı çağlarda doğruçu Sokratı olduğu kimi göstərmək amacını güdməmişdir. Bu qaynaqlardakı Sokrat, o çağlarda yaşamış Sokratın özü deyildir. Bunların hamısı, o çağların şairlərinin poetik uydurmalarından doğmuşdur, gerçəkliyi götürüb onun adına bu sayaq poetik uydurmalar qoşmaq özgürlüyü isə şairlərin demək olar hamısında olur. Ona görə də, Sokratla bağlı

günümüzə gəlib çatan qaynaqları ilyazısı bəlgələri(faktları) kimi yox, poetik uydurmalar kimi qavramaq, onları gözəl poetika örnəkləri kimi dəyərləndirmək düzgün sayılmalıdır.” Başqa sözlə desək, Olof Gigon Sokratı gerçək yox, poetik uyduruq bir kimsə olaraq tanımalı olduğumuzu irəli sürür, Sokratla bağlı olan qaynaqları da bir poetik yaradıcılıq örnəkləri olaraq dəyərləndirməyə çağırır. Bu sayaq araşdırıcıların yazdıqlarının çıxarı, ortalama götürsək belə səslənir: Sokratdan soraq verən qaynaqlardan bizə çatan bilgilər qarışıq-dolaşıq olduğuna, biri o birini dandığına görə, onları ilyazısı gerçəkliyi saymaq düzgün deyildir, bizə tanıdlılan Sokrat olsa-olsa bir poetik uydurma ola bilər, buna görə də Sokratı əski Yunan fəlsəfəsində tutduğu yerdən də götürüb qırağa qoymağa dəyər, bununla bu fəlsəfə özlüyündə böyük bir itkiyə də uğramaz.

Bu da hamıya bəllidir, Sokratın ömür yolu, öyrətməsi, gördüyü işlərlə bağlı olan konular qolayca incələnə biləsi deyillər, ona görə də burada biri-birindən seçilən baxışların olması qaçılmazdır. Sokratla bağlı ən çox güvənilən qaynaqlarda, yəni Platonla, Ksenofontun yazdıqlarında Sokratı olduğundan üstün göstərmək çabalarının olduğu da açıq-aydın gözə çarpır. Bundan başqa, Platonla Ksenofontun fəlsfəyə, etikaya, siyasətə baxışlarının biri-birindən büsbütün seçilib ayrılması da, Sokratla bağlı yazdıqlarına öz etkisini(təsirini) göstərmişdir.

Sokrat üçün qurulan bu “yeni məhkəmədə”, yasalara uyğun olaraq, “suçsuzluq keçərliyini”(günahsızlıq prezumpsiyasını) ortaya qoysaq, onda burada Sokratın özünü doğrultmasına gərək duyulmur, öncə onu uyduruq olmaqda suçlayanlar inandırıcı tutarqalarla dediklərinin doğruluğunu göstərməlidirlər, onlar bunu bacarmayana kimi Sokratın “özünü” doğrultmasına da gərək duyulmur. Buna görə də, Sokratın gerçək kimliyini doğruldan istənilən qaynaq, onun yanlışlığı sonacan aydınlaşmayana kimi, güvəncli sayılmalıdır.

Sözsüz, Sokratın “görkəminin” komedioqraf Aristofanın qarayaxmaları ilə “korlanması” bir yana qalsın, ancaq elə Platon da aşırılığa uyaraq, onu olduğundan üstün göstərməyə çalışmaqla, Sokratın “görkəminə” bəzək-düzək vurmaqla, onu bir yerlərdə tanınmaz biçimə salmışdır. Ancaq burada çıxış yolları sonacan bağlanıb qurtarmamışdır, bütün başqa konular üzrə hamının güvəndiyi, danılmaz bir qaynaq–Aristotelin Sokrat

üçün dedikləri ortalıqdadır. Aristotel isə bəlli olduğu kimi, Aristofan təki Sokratı ələ salmaqdan da, Platonla Ksenofont sayağı onu öyməkdən də uzaq olmuşdur. Buradaca Aristotelin necə güclü məntiq yiyəsi, sınanmamış biliklərə önəm verməyən bir kimsə olduğunu ansaq; onun öyrətməninin Sokratın öyrəncisi olmuş Platon olduğunu da göz önündə tutsaq; bununla yanaşı onun yaşadığı çağın gələnəklərini pozaraq, öz öyrətməni Platonun baxışlarını belə danmaqdan çəkinmədiyini də bildiyimizdən, Aristotelin hansısa uydurmalara uyub yoldan çıxarıla bilən kimsə olmadığı da yetərincə bəlli olur.

Sokrat təki, öz öyrətmələrini yazıya köçürməyən bir filosofun kimliyinin doğru-düzgün ayırd olunması sonacan başa gələn bir iş ola da bilməz. O sıradan, hansısa nədəndən başqa bir görkəmli kimsənin elədiklərini birbaşa anladan yazılar bugünümüzə gəlib çıxmayıbsa, onları da belə bir uğraq(tale) gözləyir. Bu konuda görkəmli rus ədəbiyyatçısı Q. D. Qaçevin önəmli bir deyimini burada anmadan keçə bilmirəm: ”Çağdaş ilyazısı bilimi(tarix elmi) ancaq hansısa əldə olan yazılı qaynaqları düzgün saymaq yolunu tutmuşdur. Bu böyük bir yanlışlıq olmaqla ona bənzəyir: çağdaşımız olan bir insanın öz ömrü boyunca gördüyü milyardlarla işlərinin arasında, ancaq onun iş yerindənmi, ya hansısa başqa qurumdanmı gətirdiyi üstü tamğalı(möhürlü) arayışlarla doğruldulan işlərindən başqa, bütün yerdə qalan işlərini doğru saymayasan. Keçmişlərin gerçəklərinin bütöv görünüşlərini yarada bilmək üçün, Tolstoyun dediyi **“gərəkli yalanlardan”** yararlanmadan ötüşmək olmur. Ona qalsa, keçmişlərdən bizə gəlib çatan yazılı qaynaqların bir çoxunun da yanlışlarla dolu olduğu durumlar yetərincədir. Burada da Tolstoyun düşüncələri ilə Aristotelin bu dedikləri üst-üstə düşür: gerçəkliyin bütünlüyünü araşdıranda, **gerçəkdən olanlarla, olması gərəkənləri** birgələşdirmək gərəkliyi yaranır.”

Sokrata yanaşmada özünü göstərən ölçüyəgəlməz danıcılıq(skeptizm), L. Brunsviqin Sokratsayağı dediyi belə bir ironik sonuca gətirib çıxarır: “Sokratdan güvənlikliklə bildiyimiz nəsə varsa, o da ancaq ondan heç nə bilməyimizdir.”

Necə deyərlər, “gördüyün yuxu qorxuncdursa, yenə də Tanrıdan umuncunu üzmə”. Burası da var, yazılı qaynaqlarda tanıdılan Sokratın mif, poetik uyduruq bir kimsə olduğunu deyənlər, Yer üzündə haçansa Sokrat adında böyük bir insanın yaşadığını sonacan dana da bilmirlər. Ancaq bu araşdırıcıların əlləri yerdən-göydən üzüləndə,

cırnayaraq, Sokratın məhkəməyə çəkilib öldürülməsinin, bununla da onun ad-sanının belə göylərə qaldırılmasının, yetərincə inandırıcı olmadığını deməklə ürəklərini soyutmağa çalışırlar. Gəlin görək, afinalılar Sokratı məhkəməyə çəkib öldürmək üçün nədən bu 399-cu ili seçmişdilər? Onları bu qanlı olaya yönəldən nə olmuşdu?

Doğrudan da görəsən, bizim çağdan qabaq 399-cu ildə, Afinada nə baş vermişdi? Sokratın çox ağır itki olan ölümünü saya salmasaq, bu il öz axarı ilə gedən o biri illərdən, üzdən görünüşünə görə, nə iləsə seçilmirdi. Ancaq bundan beş il öncə elə bir önəmli olay baş vermişdi, bunun çox uzun sürədə özünü göstərən sonuclarını saya salmamaq, dəyərləndirməmək olmaz. Bu olay Afinanı da, elə bütün Elladanı(Yunanıstanı) da özünün ağrı-acılılarla dolu, gələcək uğrağına yönəltmişdi. Elə bilirəm, oxucular çox uzun çəkən dağıdıcı, qanlı, Pelopennes savaşlarının qurtardığından danışmaq istədiyimi artıq sezmişlər.

Beləliklə də, Sokratın məhkəməyə çəkilməsinə beş ildən bir az qalmış, Pelopennes savaşı Afinanın bütünlüklə darmadağın olub yenilməsi ilə başa çatmışdı. İndi bizim bir neçə yerinə düşən sorğuların üstündə düşünməyimizə dəyər: afinalılar, onların dövlət görəvliləri, belə bir ağır sonluqla bitən savaşın sonuclarını götür-qoy edirdilərmi? Onlar bu savaşda nədən yenildiklərini düşünüb-daşınırdılarmı? Onlar bu savaşı uduzmaqda kimlərin suçlu olduğunu axtarırdılarmı? Onlar bir az öncələr Aristofanın, “Buludlar”, “Quşlar”, “Qurbağalar” adlı komediyalarında söylədiyi “öncəgörmələri” anırdılarmı?– Aristofan burada, afinalılara haçansa: sofistlərin, o sıradan onların “öndəri” olan Sokratın elədiklərinin, altını çəkəcəklərini dönə-dönə deməmişdimi? Afinalıların bir çoxları, doğma yurdlarının iki ən böyük yağıları olan Alkiviadla Kritiyin, haçansa Sokratın öyrənciləri olduğunu unutmamışdılarsa, onların bu alçaq işdəklərində Sokratın da suçu olduğunu düşünməli deyildilərmi?

Ona görə də, afinalıların çoxluğunun düşüncəsinə görə, Sokratı suçlamağa da, onu məhkəməyə çəkməyə də, yetərincə tutarqalar var idi. Platonun “Sokratın apologiyasında” yazdığı kimi, Sokrat da məhkəmədə ilk olaraq özünün keçmişdə olmuş qarayaxanlarını, o sıradan Aristofanı anır, uzun bir sürədə çoxlu dedi-qoduçuların onun adına olmazın qaralar yaxdıqlarını, onu xalqın gözündən salmağa çalışdıqlarını dilə gətirir.

Gördüyünüz kimi Platonun yazıya aldığı bu durum, o çağların Afinasının gerçək gündəminə bütünlüklə uyğundur. Platon Sokrata qarşı irəli sürülən suçlamaları bütün incəliyinə kimi anlaya bildiyinə görə, onların qaynaqlarını da yerli-yataqlı göstərə bilmişdir.

İndi də gəlin, Sokratla bağlı qaynaqların qarışıq-dolaşıq olduğunu, buna görə də onların, Sokratın gerçək kimliyini anlamaq üçün yetərli olmadığını irəli sürənlərin bir sıra tutarqalarını araşdırmağa çalışaq. Sokratın uyduruq, mifik bir kimsə olduğunu ortaya atanların deməsinə görə, onun gerçək kimliyini aydınlaşdırmaq üçün, əldə olan qaynaqların hamısında üst-üstə düşən bəlgələri götürərək, onları toparlayıb, bütünləşdirmək gərəkdir. Bu düşüncəyə qarşı A. Bonnarın dedikləri məncə çox yerinə düşür: "biri-birindən yaşlarına, iş-güclərinə, anlağına, qılığına görə seçilib ayrılan kimsələrin biri-biriylə tən gələn, oxşar olan sonuclara gəlib çıxması necə ola bilər? Biz ən çox bunun tərsinin baş verəcəyini gözləməli deyilikmi?"

Sokrat Elladanın(Yunanıstanın) öz uğrağında keçid dönəminə gəlib çıxdığı bir çağda yaşamışdı. Bu çağlarda artıq yunan demokratiyası dağılmağa sarı getməkdəydi. Ona görə də Sokratın bütün öyrətmələrinə, onun eləmək istədiklərinə, gündəmdə olan bu olayların içində baxmaq gərəkir. Bu da bəllidir, ilk olaraq sofistlər, ən çox da Sokrat, fəlsəfənin yönünü "fizikadan" antropologiyaya sarı döndərmişdilər–fəlsəfəni doğanı(təbiəti) öyrənməkdən ayırıb, onu insanı öyrənməyə yönəltmişdilər. Ancaq burada Sokratı sofistlərdən ayıran, Aristofanın da, Sokrata qarşı çıxanların çoxunun da anlaya bilmədiyi bir gerçəkliyi gözdən qaçırmaq olmaz, sofistlər öz baxışlarında relyativizmə, subyektivizmə arxalanırdılar, yəni etik dəyərlərin yerinə görə dəyişkənliyini, duruma uyğun gəlib-gəlməməsini, ayrı-ayrı kimsələrin bunlara baxışlarında, biri-birindən seçilən yanaşmaların ola biləcəyini irəli sürüdülər. (Örnək üçün, ünlü sofist Pratoqorun belə bir deyimi vardı: "Yerdə də, Göydə də nə varsa, hamısını dəyərləndirə bilməyin tək bir ölçüsü vardır, o da insandır".) Sokrat isə etik dəyərlərə obyektiv-idealist yöndən yanaşmağa çalışırdı. Bunu Aristotel özünün "Metafizika" kitabında belə aydınlaşdırır: "Fəlsəfədə baş vermiş iki yeniiiyi, Sokratın adına yazmaq düzgün sayılmalıdır: induksiya yolu ilə qavramanı, bir də ayrı-ayrı gerçəklikləri bütünləşdirmək (ümumiləşdirmək) üçün, onların görsənişlərini anlayışlara çevirib adlandırmağı, ilkin

olaraq Sokrat ortaya atmışdır.” Elə buradaca Aristotel, Sokratın Platon təki, ideyaların gerçəkdən var olmasını düşünmədiyini də deyir: “Ancaq Sokrat, nəsnələrin ortaq dəyərlərinin onlardan ayrıcalıqda, ideya kimi var olduğunu deməmişdir.” Bir sözlə, Platonun ideyalarla bağlı teorisi birdən-birə doğulmamış, Sokratın gerçəkliklərə anlayışların yardımı ilə bütünlük biçimi verməsinin ardınca gəlmişdir. Aristotelin yazdıqlarından o da çıxır, Sokratın fəlsəfəsi, sofistlərin fəlsəfəsi ilə Platonun fəlsəfəsi arasınada bir aralıq, keçid dönəmi olmuşdur. Beləliklə də, Aristotelin Sokrat üçün yazdıqları, Sokratın yaşadığı çağların gündəmini doğru-düzgün aydınlaşdırır, Yunan toplumunun keçid dönəmi ilə, Sokratın öyrətmələrinin uyğunluğunu açıqlaya bilir.

Ancaq Sokratın gerçək filosofluğunu danmaq istəyənlər, burada da özləri üçün tutacaq tapırlar, onlardan biri olan İ. D. Rojanski yazır: “Sokratın fəlsəfə ilyazısında birinci olaraq, gerçəklikləri anlayışlara arxalanıb bütünləşdirməyə çalışması ilə bağlı, Aristotelin yazdıqları inandırıcı görünmür. Onun özü, elə buradaca bu işi, “fizik” filosoflardan Demokritin, ondan öncə isə pifaqorçuların görməyə başladığını da yazır, bu da Aristotelin Sokratı gerçək filosof saymayıb, onun üçün yazılmış poetik uydurmalara görə belə dediyini göstərməkdədir”. Belələrinin arxalanmaq istədikləri çıxarışda(sitatda) Aristotel büsbütün başqa sözlər deyir: “Başqa yöndən, Sokrat ərdəmlik(mənəvi) dəyərlərinin araşdırılması üzrə çalışaraq, onlarla bağlı gerçəkləri bütünləşdirməyə ilk olaraq başlamışdır(bundan qabaq fiziklərdən Demokrit bu konuya azacıq toxunmuşdur)... Buna görə də Sokrat, düzgün olaraq nəsnələrin özlüyünü(şeylərin mahiyyətini) araşdırmağa çalışmış, məntiqə arxalanan qavrama sonuclarını axtarmışdır, qavramanın sonucları isə, qavranılan nəsnələrin özlüyündən(mahiyyətindən) qaynaqlanır.” (Aristotel. Metafizika.) Göründüyü kimi, yuxarıda Sokratın danıcıları, Aristotelin sözlərini yanlış yozmağa çalışmışlar. Aristotelin isə demək istədiyi budur: Sokrat fəlsəfədə ilk olaraq nəsnələrin özlüyünü(mahiyyətini), bənzəyişlərə(analoqlara) arxalanmaqla anlayışlara çevirib, ancaq bundan sonra onları qavramağa çalışmışdır. Qaldı Aristotelin Sokratla bağlı yanılmasına, Sokratın öyrəncisi olmuş Platonun fəlsəfi okulu(məktəbi) olan akademiyada 20 il oxuyub öyrənmiş Aristotelin, təkcə elə Platondan yox, Sokratı öz gözləri ilə görmüş çoxlu başqa kimsələrdən də Sokratla bağlı bilgilər ala biləcəyini necə danmaq olar? O da düzdür,

Aristotelin Sokrat üçün dediklərini araşdırıb-ələşdirmədən, öpüb göz üstünə qoymağı da düzgün saymamalıyıq, ancaq bu artıq ayrı bir konudur.

Necə gözlənilməz görünsə də, Sokratın danıcıları, bütün əlimizdə olan qaynaqlarda Sokratın üzdən görünüşü ilə bağlı deyilənlərin, biri-birinə çox oxşadığını boyunlarına alırlar. Buyurun, görün İ. D. Rojanski nə yazır: "Sokratdan yazan çağdaşlarının hamısında onun üzdən görünüşü az qala dəyişməzdir. Onun öyrəncələri(vərdişləri), davranışı, danışıq sayağı(tərzi), ironiyası, öz çağının fəlsəfi öyrətmələrinə baxışları, bütün qaynaqlarda az qala büsbütün üst-üstə düşür".

Bizim çağdan qabaq 399-cu ildə Sokratı məhkəməyə çəkib, ona ölüm kəsdilər. İndi də özgün(orijinal) görünmək üçün, Sokratı öz yazılarında bu sayaq məhkəməyə sürükləmək, onun adını fəlsəfə kitablarından qazıyıb atmaq, bir sözlə onun ad-sanına ölüm kəsmək istəyənlərin olması göz qabağındadır. Burada bircə onu demək qalır, Sokratın gerçək kimliyinin, qaynaqlarda belə biri-birindən seçilib ayrılan biçimlərdə ortaya çıxması, onun kimliyinin böyüklüyündən, tükənməzliyindən, ayrı-ayrı adamlardan ancaq birilərinin qavramına sığışmazlığından doğmuşdur.

Platonun Sokratdan yazdıqları

Sözümüzün bu yerində, Aristotelin bir deyimini anmaq yerinə düşərdi: “Poeziya fəlsəfəylə bir kökdən olduğu üçün, ilyazısından(tarixdən) üstündür... poeziya ən çox nəsnələrin bütünlüyündən, ilyazısı isə onların ayrıcalığından danışır. Burada bütünlük deyəndə, kiminsə davranışında, danışığında gerçəkdən elədikləri ilə, eləyə biləcəklərinin birgəliyi(kombinasiyası) başa düşülür, bununla da poeziya çoxluğun içində sayılıb-seçilən kimsələrin ad-sanını ucaldır, onları yuxarı başa çəkir, gördükləri işlərin özlüyünü (mahiyyətini) anlatmağa çalışır; ilyazısının nəsnələrdəki ayrıcalığı araşdırması isə o deməkdir, örnək üçün, Alkiviad nələri eləyə bildi, onun başına nələr gəldi”. Platonun öz yaradıcılığında, sanasan, ilyazısı ilə poeziya arasındakı bu ayrı-seçkiliyi aradan qaldırdığı ilə üzləşirik. Onun yazılarında, poeziyanın gözüaçıqlığı ilə, ilyazısının yanşaqlığı(ritorikası) biri-birinə qovuşmuş bir durumdadır. Platonun yazdıqları, yalnızca elə, ilyazısı gerçəklərinin sadalanması deyil, gerçək olayların bədii-poetik görünüşləridir, yəni doğru olanlara yaradıcı yanaşmanın örnəkləridir.

Ona görə də Platonun Sokratla bağlı yazdıqlarını, Sokratın danışdıqlarının söz-söz yazıya alınması təki dəyərləndirmək olmaz, burada ancaq, Platonun bu danışıqları araşdırıb, özümləşdirib, qavramasından sonra yazıya alması, düzgün sayılmalıdır. Eləcə də, Platonun gerçəklikdən yayınmasını şişirtməyə də dəyməz, elə Platonun özünün də yazdığı kimi, Sokratın bir çox danışıqlarını onun sağlığında, öyrənciləri olduğu təki yazıya almışdılar, belə olanda, bu öyrəncilərin də oxuyacağı yazılarında, Platon Sokratla bağlı gerçəkləri öz bildiyi kimi dəyişdirməyə qol qoya bilməzdi. Bir sözlə, öyrəşdiyimiz dillə desək, Platon Sokratın fotoşəkilini yox, portretini şəkməyə çalışmışdır, portret çəkməyin, üzünüköçürmə yox, yaradıcılıq olduğunu ansaq, onda Platon öz

yaradıcılığında, Sokratın üstünlüklərini üzə çıxarmağa çalışmış,–bunları qabardaraq ona "bəzək" vurmaq, gözəgəlimli eləmək istəmişdir.

Sözsüz, Platonun dialoqlarından, Sokratın gerçək kimliyini, onun öyrətmələrini kəsinliklə(dəqiqliklə) öyrənmək olmur. Platonun "Yasalar" adlanan dialoqunu çıxsaq, yerdə qalanların hamısında Sokrat bu danışıqlara qatılır, ən azından bu danışıqları yönətir. Platonun yaşlı çağlarında yazdığı dialoqlarında, buradakı danışıqların çoxunun Sokratın dedikləri yox, Platonun öz düşüncələrindən doğan sözlər olduğu da açıq-aydın duyulmaqdadır. Ən önəmlisi, bu dialoqlarda Platonun öz araşdırmalarında keçdiyi gəlişmə-dəyişmə yolunu, Sokrat da Platonla birgə "keçir". Burada Platonun baxışlarının uzun bir sürədə baş vermiş gəlişmələrini(inkişafını) izləməklə, Sokratla Platonun ideyaları arasındakı sınırları(sərhədləri) ayırd etmək də olur. Bu konuda araşdırıcılardan Stentselin dedikləri çox ilginc görünür: "Burada başlıcası o deyil, Sokratın dediklərini Platonun dediklərindən ayırasan, Platonun Sokratın demədiyi nələrisə onun adına yazdıqlarını tapasan, ən önəmlisi, Sokratın hansı ideyalarının Platonu yönəldib, bu sonuclara gətirib çıxardığını arayıb-axtarmaqdır". Bütün bu deyilənlərin çıxarı olaraq, görkəmli araşdırıcı S. A. Jebelevin öztərişinin(təxəyyülünün) gücünə arxalanaraq, Platonun dilindən dediyi bu sözləri anmaq yerinə düşür: "Mənim dialoqlarımda Sokrat üçün yazdıqlarım, bir yandan–mənim yaxından tanıdığım, başqaları ilə necə danışdığını gördüyüm Sokratın, birdən bu durumlarla üzləşsəydi, nə deyəcəyini araşdırmaqdırsa, başqa yandan da Sokratın özünün dediklərinin söz-söz yazılması yox, bu danışıqların özətinin yazıya alınmasıdır".

Onu da unutmaq olmaz, Platon Sokratla ilk tanış olanda 20 yaşlı bir gənc idi, sonrakı 8 ildə, yəni Sokratın ölümünə kimi o, Sokratın ən yaxın öyrənciləri sırasında olmuşdu. Sokratın öyrəncisi olmaqla, Platonun oçağacan olan baxışlarının alt-üst olması, onun ömür yolunda yeni bir dönəmin başlanması, büsbütün yeni baxışlarının biçimlənməsi, bizə gəlib çatan yazılı qaynaqlardan da bəllidir. Ona görə də Platonun, Sokratı gerçəkliyindən ayırıb, onu öz yaradıcılığında ancaq bir poetik uyduruq(xəyali) kimsə olaraq göstərmək istəməsi inandırıcı görünmür, öz ömründə yaratdığı böyük dəyişikliklərə görə, Sokrata bəslədiyi sayqını göstərmək üçün də Platon onu,–öz əlləri ilə tikib-qurduğu fəlsəfə evinin ən istəkli qonağı olaraq, yuxarı başda oturtmuşdur.

Ksenofontun Sokratdan yazdıqları

Ksenofontun “Sokratla bağlı yazılarım” adlanan kitabı da, Sokratla arxadaşlıq eləmiş, uzun bir sürədə Sokratın ən yaxın çevrəsində onun danışıqlarına qulaq asmış bir kimsənin yazdıqları olduğundan, yüksək dəyərləndirilməkdədir. Ksenofontun Sokratla arxadaşlığının 10-12 il də, 2-3 il də çəkdiyini deyənlər vardır. Ancaq kəsinliklə bəlli olan budur, Sokratın öldürülməsindən 3 il öncə, otuz yaşında olan Ksenofont Afinadan çıxıb getmiş, Persiya şahı Kirin yanında qulluğa girmişdir. Üstündən çox uzun illər keçəndən sonra, yşlı çağlarında, Ksenofont Sokratla bağlı bu kitabını yazmışdır.

Ksenofontun Sokratdan yazdıqlarının hamısına ucdantutma güvənmək olmur, bir yerlərdə Sokratın yaşam gerçəkləri ilə səsləşən, başqa yerlərdə inandırıcı görünməyən bəlgələr(faktlar) də gözə dəyməkdədir. Ksenofont da Platon təki, bu yazılarında kəsinliyi sonacan gözləmir, onun özünün düşüncələrini Sokratın adından demək aşırılığına yol verdiyi yerlər də gözə çarpır. Bunlar ən çox, onun “Ev tikməklik” kitabında, bir də Persiya, onun şahları ilə bağlı, Sokratın dili ilə dediklərində aydın duyulmaqdadır.

Ksenofontun yazdıqlarında inandırıcı görünməyən yerlərdən biri də, onun Sokratın yaşamı ilə bağlı dediklərinin, Sokratın məhkəməyə çəkilib öldürülməsi ilə uzlaşmamasıdır. Ksenofontun yazdıqlarından belə çıxır, Sokrat toplumda qıcıq doğura biləcək ən kiçik addımlar belə atmamış, necə deyərlər, “palaza bürünüb ellə sürünərək” yaşamışdır. Onda Sokratın nə üçün öldürüldüyü özü bir tapmacaya çevrilir, oxucu üçün anlaşılmaz olaraq qalır. Bütün bunlar, bir sıra araşdırıcıların yazdığı kimi, Ksenofontun yazıçılıq bacarığının olmamasından doğmamışdır, onun özünün baxışlarındakı qarışıq-dolaşıq durumla bağlı olmuşdur. Ksenofontun uzun illər yüksək dövlət görəvlərində işləməsi, o çağın savaşlarına qoşun böyüklərindən biri olaraq qatılması, bir siyasətçi,

dirilikçi(təsərrüfatçı) olaraq yaşam gerçəklərini araşdırmağa, dəyərləndirməyə, fəlsəfə ilə bağlı amacların ardınca qoşmaqdan artıq önəm verməsinə gətirib çıxarmaya bilməzdi. Bu da onun, ilyazısından tutmuş, əkin-biçinlə, fəlsəfə ilə, at saxlamaqla, gimnastika ilə bağlı düşüncələrinin biri-birinə qatışıb, yayğınlaşmasında özünü göstərməkdədir. Bir sözlə, Ksenofont ideya adamı olmaqdan çox, gerçək durumları qavramağa, onlara uyğun yaşamağa yönəlik bir kimsə olmuşdur.

Ksenofontun, fəlsəfəni yaşamın(həyatın) qulluqçusuna çevirmək çabaları yanlış olsa da, ancaq Sokratla bağlı bu dedikləri gerçək Sokrata çox oxşayır: "Onun araşdırmalarında bunlar başlıca yer tutmaqdaydı: tanrıqanlıq(möminlik) nə, tanrıtanımazlıq nədir; gözəllik nə, suyumsuzluq(çirkinlik) nədir; düzgünlük nə, əyrilik nədir; anlaqlıq nə anlaqsızlıq nədir; igidlik nə, qorxaqlıq nədir; habelə bunun kimi." Burada Tsiseronun dediyi kimi, "Sokratın fəlsəfəni göylərdən yerə endirməsini" Ksenofont düzgün dəyərləndirir, ancaq bunun ardınca o, bir az da uzağa gedib, fəlsəfəni yerin tozuna-torpağına bulaşdırır. Ksenofont oracan aşırılığa qapılır, Sokratın "gözəlliklə yararlılığı bir tutduğunu" deməkdən belə çəkinmir. Bir çox yerlərdə Ksenofontun bizə tanıtmaq istədiyi Sokrat, bezdirici götür-qoyçuluğu ilə ən kiçik cılızlıqlaracan varan, darıxdırıcı qanacaq öyrətməni kimi oxucununu yorur.

Ksenofontun tanıtdığı Sokratı, Platonun danışdığı Sokratla tutuşduranda, birincidə atmacanın(ironikliyin), gözlənilməzliyin(paradoksallığın) çox az olduğu gözə dəyir. İroniyasız, paradokssuz Sokrat isə, olduğundan çox sönük görünür, bildiyimiz kimi elə Sokratın məhkəməyə çəkliməsində onun bu ironiyalarının, paradoksallığının böyük etkisi(təsiri) olmuşdu. Ona görə də, çox yerlərdə Platonun tanıtdığı Sokrat, Ksenofontun tanıtdığından dolğun, güvəncli görünsə də, ancaq bu o demək deyil Ksenofontun yazdıqlarını, Sokratla bağlı bir qaynaq kimi gözardı etmək olar. Belə demək olarsa, Ksenofont haradasa Platonun baxışlarından yayınanları yazıya almaqla, Sokratın gerçək kimliyinin "ətə-qana dolub" bitkinləşməsinə yarayan bilgilər verməklə, Sokratı öyrənmək istəyənlərin işinə yaramaqdadır.

SOKRATIN ÖMÜR YOLUNDAN BIZƏ GƏLIB ÇATAN BILGILƏR

Bir anlığına, bizim çağdan qabaq, beşinci yüzilin Afinasını göz önünə gətirək. Burada ilk olaraq gözə çarpan, aqora adlanan bazar ortamıdır(meydanıdır). Aqoranın yan-yörəsində dövlət tikililəri, onlara bitişik dar, əyri-üyrü dalanlarda isə əlyerilər(emalatxanalar), kiçik alver alaçıqları, kitabsatanlar... Şəhərin istənilən yerindən Akropolda yerləşən Parfenon görünməkdədir. **(Akropol Afinanın ən hündür yerindəki təpəliyə deyilmişdir, şəhər bu təpədə tikilən qaladan başlayaraq böyümüşdür. Burada, yunanların inancına görə baş tanrı sayılan Zevsin qızı Afinanın, Parfenon adlanan Ocaq Evi(məbədi) olmuşdur. A. G.)**

Dan yeri açılandan axşamacan aqorada, ona bitişik küçələrdə adam əlindən tərpənmək olmur. Dedi-qodulardan tutmuş, gerçək soraqlara kimi nə gəldi, acgözlüklə öyrənmək istəyən afinalılar, orda-burda topalaşaraq, səs-küylə bu yenilikləri öz aralarında bölüşürlər. Burada dövlət işlərindən tutmuş, kimlərinsə özəl yaşamlarınacan, qonşu şəhərlərdən tutmuş, uzaq dövlətlərəcən, çoxlu yeni bilgilər öyrənmək olar.

O çağların Afinasında, bütün gün uzunu şəhərin dalanlarında gəzib-dolaşan, qarşısına kim çıxırsa-çıxsın, onun qabağını kəsib danışığa tuan bir kimsə gözə dəyirdi. Onu bazar ortamında, alver alaçıqlarının yanında, bir sözlə adamların toplaşdıqları, onlarla danışmaq olan bütün yerlərdə görmək olardı. Ancaq nədənsə onun, nə Xalq Yığıncaqlarına, nə də başqa dövlət qurumlarına gəldiyini, onlarda çıxış elədiyini kimsə görməmişdi. Bu gəzərgi filosof, Safroniksin oğlu Sokrat idi.

Sokratı Afinada az qala hamı tanıyırdı: görkəmi, davranışı, başqalarından seçilən yaşamı, gördüyü işləri, ən başlıcası öyrətmələri(təlimi) ilə. Gözəl geyim-kecimli, başqalarından axça alıb bilik öyrədən sofistlərdən seçilib ayrılan Sokrat, yoxsul geyimdə olardı, ayaqyalın gəzərdi. İnsan bədəninin gözəlliyini yüksək dəyərləndirən yunanların baxışlarına görə, Sokrat görkəmcə çox suyumsuz(eybəcər) idi: alçaq boylu, donqar, sallaq iri qarınlı, böyük daz başlı, irəli çıxmış qabarıq alınlı birisi idi. Onun bu sadalanan çatışmazlıqlarını, gözəl yerişi, tərpənişindəki ürəyatımlı diribaşlıq, azacıq da olsa ört-basdır eləyə bilmirdi.

Yunanların baxışlarına görə, gözəl insanın üzü düzgün quruluşlu, burnu düz, gözləri böyük, işıqlı olmalı idi. Sokratda isə bunların biri də yox idi: burnu yastı, burun dəlikləri geniş, dodaqları qalın, gözləri bir az bərəlmiş idi, adamlara baxanda isə gözlərini qıyıb, alnının altından yanakı baxardı. Bir sözlə Sokratın görkəmi yunanların gözəllik ülgülərinə uyğun deyildi, onların düşüncəsinə görə o, az qala bir karikaturaya bənzəyirdi. Ancaq Sokrat danışmağa başladımı, onun elə bir ürəkçəkici görünüşü olurdu, dinləyicilərində ona qarşı bir vurğunluq yaranırdı.

Platonun “Pir” adlanan dialoqunda, “gözəl” ayamalı Alkiviad Sokratı yunan mifolojisindəki suyumsuz varlıqlara(yarı insan-yarı keçi olan satirlərə) oxşadır, ancaq elə oradaca da deyir, bu suyumsuz qabığın altında nələrin olduğuna baxsanız, oradakı gözəlliyə vurğunluğunuzdan yerinizdəcə donub qalacaqsınız. Alkiviad deyir: “Mən Sokratı dinlədikcə, ürəyim elə bərkdən döyünür, deyirsən köksümə sığmayıb pırtlayıb dışarı çıxacaq, elə kövrəlir-duyğulanıram, göz yaşlarımı saxlaya bilmirəm, tək mən belə deyiləm, onun danışıqlarına qulaq asanların hamısı mənim günümdədir. Perikl olsun, yoxsa başqa bacarıqlı sözçülər(oratorlar), onların çox gözəl danışmaqlarına sözüm yoxdur, ancaq onların danışığına qulaq asanda məndə belə coşqun duyğular yaranmayıb, onların danışığına qulaq asanda, öpözümün(ruhumun) bir qul kimi yaşadığım bu ömrümə qarşı şaşqınlığı, dirənişi də olmayıb. Ancaq Sokrata qulaq asanda, dönə-dönə düşünməli olmuşam, mən indi yaşadığım kimi yox, büsbütün başqa sayaq yaşamalıyam”. Üzdən çox gözəgəlimli olduğuna görə, ömrünün çoxunu pozğunluqlar içində keçirmiş Alkiviad, özünün arsızlığını da boynuna alıb, ardınca deyir, mən ancaq Sokratın qarşısında, istər-istəməz utanıb-qızarmaqdan özümü saxlaya bilmirəm: “Bir

sözlə, mən özüm də indiyəcən Sokratdan yaxşı baş açа bilmirəm. Bilmək istəsiniz, onun üçün başlıcası kiminsə üzdən gözəlmi, suyumsuzmu, dolanışıqca yoxsulmu, varlımı olması deyil,–bir sözlə çoxluğun gözə soxmağı sevdiyi bütün nəsnələrin onun üçün azacıq da olsa belə dəyəri yoxdur. Sokrat, bütün bu sayaq dəyərləri gözardı eləyib, bunlarla öz yaramazlığını ört-basdır eləyənlərin iç üzünü açır, onların bir insan olaraq necə də dəyərsiz olduqlarını göstərməyi bacarır, bunun üçünsə o, öncə özünü biliksiz olan birisi kimi göstərməklə, adamları oyuna çəkir, sonunda onlara öz yerlərini göstərir".

Alkiviad bunun ardınca, Sokratın ironiyasına, paradoksallığına him vurub deyir: "Onun danışığına qulaq asanlara elə gələ bilər, o çox saya danışır, yük eşşəklərindən, dəmirçilərdən, çəkməçilərdən, dabbaqlardan, habelə bunun kimi anlamsız nəsnələrdən söz açır, özü də sanasan, evirib-çevirib elə bir sözü deyir, ona görə də uzaqgörən olmayan kimsələr onun danışığının gülməli olduğunu düşünə bilərlər. Ancaq araxadşım, Aqafon, bu sözümü unutma, onunla danışanda ayıq-sayıq ol, yoxsa onun qurduğu tora düşüb, oradan çıxa bilməzsən". Alkiviadın deməsinə görə, Sokratın qurama sayalığı(avamlığı) da, başaldatdı ürəyiaçıqlığı da, Alkiviadın gözü qabağında baş vermiş: Sokratın yağı ilə döyüşlərdə göstərdiyi ölçüyəgəlməz igidliyi ilə dözümlüyü də, çox dərin anlağı da, ona çöçün görünmür. Belə bacarıqlar başqalarında da ola bilər. Alkiviada çöçün gəlib, onu şaşırdan Sokratın kimliyində olan bənzərsizlik, özümlük, özgünlük(orijinallıq), qavranılmaz bir gizlinlik, anlaşılmazlıq, dərinlikdir: "...Məni şaşırdan, onun nə keçmişlərdə, nə də indi yaşayan böyük kimsələrdən birinə də bənzəməməsidir. Axillesi Brasidə, Perikli Nestora bənzətmək olar, habelə bu sayaq böyüklərdən kimi desən, onunla tutuşdurula biləcək başqasını da tapmaq olar. Ancaq Sokrat özünün davranışları, danışığı ilə, oracan özgündür, nə keçmişdə, nə indi yaşayan böyük kimsələrin içində onun oxşarını tapmaq olmur. Onu başqa insanlarla yox, ancaq miflərlə tutuşdurmaq olar". Alkiviadın belə danışdıran Platondur, burada ola bilsin bir az şişirtmə də var, ancaq bu şişirtmənin arxasında, Platon təki böyük bir düşüncə ərənini belə coşdura bilən, gerçək Sokratın özü dayanır.

Sokratın yaşadığı çağlarda, yunanlar arasında kiminsə ömürlüyünü (bioqrafiyasını) yazmaq öyrəncəsi yox idi. Onlar yalnız, insanların toplumda, dövlətdə gördüyü

gözəçarpan işlərdən danışanda onun adını çəkərdilər, A. Şveytserin sözləri ilə desək, “əski yunanlar özlərini, insan olmaqdan çox, yurddaş(vətəndaş) sayırdılar”.

Ola bilsin, Sokratı məhkəməyə çəkib, ölüm kəsməsəydilər, onun ömür yolundan bugünümüzə çox az bilgilər gəlib çatacaqdı. Ancaq bu qanlı olay, sokratsevərlərin də, onu gözügötürməyənlərin də arasında barışmaz söz dartışmalarına gətirib çıxarmış, bu isə Sokratın ömür yolu ilə bağlı bilgilərin də ortaya qoyulmasına öz etkisini göstərmişdir. Bunları yazıya alanlardan ən başlıcaları isə, Platonla Ksenofont olmuşdur. Yuxarıda dediyimiz kimi, onlar Sokratın ömür yolunu da öz anlaya bildikləri kimi yozmuşlar, ancaq onların Sokratın ömür yolu ilə bağlı dediklərində özlərindən nəyisə uydurub artırmaq gərəksələri də olmamışdır.

İlyazısı qaynaqlarının hamısı, Sokratın bizim çağdan qabaq, 399-cu ildə, 70 yaşında öldürüldüyünü yazırlar, deməli Sokrat 469-cu ildə doğulmuşdur. Sokrat Afinadan ayaqla yarım saatlıq yolu olan(ortalama götürsək, bu 3 kilometrə yaxın bir uzunluğu bildirir), Alopek ilçəsində(rayonunda) doğulmuşdu. Sokratın atası Sofroniks adlı-sanlı daşyonan(heykəltaraş) olmuşdur. Anası Fenareta isə əbəçilik(mamaçalıq) edərmiş, anasının iş-gücünün əbəçilik olmasına him vuran Sokrat, öz danışıqlarında söz dartışmaları ilə doğruluğun doğulmasına çalışmasını, onda anasından keçmə bir bacarıq olduğunu dilə gətirmişdir. Deyilənə görə Sokrat da ilk gəncliyində atasının yanında daşyonan olaraq işləmiş, bu işdə öz bacarığını göstərə bilmişdir, onun yonduğu bir neçə heykəlin Afina Akropolunun önündə qoyulduğunu deyənlər də vardır.

Sokratın oxuyub-öyrənməyə başlaması da, Afinalıların hamısı təki ilkin okuldan başlamışdır. Burada isə öyrəncilərə saymanı(hesabla həndəsəni), ədəbiyyatla musiqini, bununla yanaşı gimnastikanı(qaçış, disk, süngü(nizə) atmaq, güləş, habelə bunun kimi bacarıqlar) öyrədirdilər. O çağların Afinasında yurddaşların yaxşı oxuyub-öyrənməsi ilə yanaşı, onların sağlamlığına da qayğı göstərilirdi. Bu bir yandan, dövlətin yurddaşların sağlam yaşamasına qayğısı ilə bağlı idisə, o biri yandan da o çağlarda istənilən anda başlaya biləcək savaşlara, yurddaşların yaxşı döyüşçü olaraq qatıla bilməsinə görə idi. Yunanların baxışına görə, insanın yetkinliyi–onun sağlam, gözəl bədəninin olmasına, yetərincə oxuyub yazmanı bilməsinə, özünü yaxşılıqsevər, igid, ölçü-biçi gözləyən kimsə olaraq yetişdirməsinə bağlı idi. Eləcə də Sokrat, öz çağının biliklərinə dərindən

yiyələnmiş, sağlam bədənli, ölçü gözləməkdə örnək olacaq bir kimsə olaraq yetişə bilmişdi. Burada da Sokrata qara yaxmaq istəyənlər yersiz dedi-qodular yaymaqdan çəkinməmişlər, onların birilərinin deməsinə görə, Sokrat yarımçıq, yarıtmaz oxuyub öyrənən birisi olmuş, kitabı höccələyib oxuyurmış, güclə yaza bilirmiş.

Sokratın çox yoxsul bir dolanışığı olduğunu, demək olar bütün qaynaqlar bir səslə deməkdədir. Örnək üçün, Ksenofontun "Ev tikməklik" kitabında Sokrat özünün daşınar, daşınmaz yatırını, danışdığı Kritobulun var yatırı ilə tutuşduranda bəlli olur, Sokratın əlində olanların dəyəri beş min(150 qızıl manat), Kritobolun əlində olanların dəyəri isə 500 mindir. Özünün çox yoxsul olduğunu Sokrat ona qurulan məhkəmədə də dilə gətirmişdir. O, bunu dolanışıqla bağlı işlərini başlı-başına buraxıb, bütün gücünü fəlsəfəyə yönəltməsi ilə yozur.

Sokrat çox gec, qırx yaşını keçəndən sonra evlənmişdi. Sokratın xanımı Ksantippa ilə keçinəcəyi, çox əskilərdən dedi-qodu konusuna çevrilmiş, Ksantippanın adı dalaşqan, dözülməz bir qadın olaraq çox keçmişlərdə belə tanınmışdır. Onun adını türlü qara boyalarla bulaşdırsalar da, gəlin biz, ona qarşı düzgün davranmağa çalışaq. Ola bilsin Ksantippa, Sokrat təki bütün gününü Afinanı gəzib dolaşan, fəlsəfə çalışmalarından başı ayılmayan, birdən evə gəlib çıxmağı da unudan, bütün dirilik(təsərrüfat) qayğılarını, uşaqların böyüdülməsini xanımının üstünə atan birisinin yox, başqa, sıradan bir afinalının xanımı olsaydı, bu sayaq acıqlı-hikkəli olmazdı da. Ksantippa Sokratın gördüyü işləri, gününü boş-boşuna keçirmək sayır, onun "boşboğazlıq eləyən, işsiz-gücsüz, yarıtmaz birisi" olduğunu düşünürdü. Buna görə də o, Sokratla yola getməz, onu söyər, arxadaşlarını evdən qovar, habelə bunun kimi qabalıqlar eləyərdi. Ancaq bunlardan başqa, Ksantippanın uşaqlarının qayğısını çəkən, onları ürəkdən sevən bir ana olduğu da qaynaqlardan bəllidir. Qaynaqlarda yazıldığına görə, filosof Antisfen, Sokratın qadınlarla kişilərin anlaqca bir olduğunu deyib, nədən Ksantippanı yetkinləşdirə bilmədiyini, onun az qala yer üzündə ən dalaşqan, dözülməz qadın olduğunu soruşanda Sokrat demişdi: "Yaxşı minicilər, ən dəlisoy atları götürüb onları öyrətməklə özlərinin bacarıqlarını artırmağa çalışırlar, mən də Ksantippanın şıltaqlarına dözməklə, başqa adamların dözülməzliyini yola verməyə özümü öyrədirəm". Bunu

yazan Ksenofont, oradaca Antisfenin özünün də çox dalaşqan, dözülməz bir adam olduğundan, Sokratın bu sözləri, bir də onu qandırmaq üçün dediyini də yazır.

Özünün çox götürqoylu, ölçü gözləyən, özünə yiyəlik eləməyi bacaran bir kimsə olmasına baxmayaraq, düzünə qalsa Sokratın, doğuluşundan çox çılğın bir adam olduğunu da deyirlər. Tsiseron özünün "Tuslanda danışıqlar" yazısında belə bir olayı danışır. Zopir adında bir fizionomist(adamların görkəmlərinə baxıb davranışlarını söyləyən bilici) Sokratın üzünə baxıb, onda doğuluşundan çoxlu yaramazlıqların, düşkünlüklərin olduğunu deyəndə, Sokratı tanıyanlar bu adamı ələ salıb gülməyə başlamışdılar. Ancaq onda, Sokrat qayıdıb onun düzgün danışdığını demiş, özündə haçansa bu deyilənlərin olduğunu boynuna almış, onları öz istəminin(iradəsinin) gücü ilə aradan qaldırdığını demişdi.

Sokrat hansısa bir ideyadan beyni dumanlandığına, hansısa amaca gözübağlı qapıldığına görə ölümə getməmişdi, inanclı bir bilgə, fəlsəfə araşdırmalarını öz amacına çevirən bir düşüncə ərəni olaraq, gözüaçıqılıqla, özgürcə, ölümlə yaşam arasınada öz seçimini eləmişdi. O, yalanla doğrunun biri-birinə qısılıb yaşaya biləcəyinə inanmırdı, ona görə də uzaqgörənliklə ona ölüm kəsən hakimlərə son sözündə belə demişdi: "siz başqalarının ağzını yummağa çalışmaqdansa, özünüzü dəyişin, yaxşı olmağa çalışın".

Sokratın ölümündən uzun illər keçəndən sonra, xalq arasında onun ölümündə suçlu olanlar üçün, çoxlu başagəldilər danışılmağa başlamış, bunların çoxu qaynaqlarda bugünümüzə gəlib çıxmışdır. Bu xalq yaradıcılığı örnəklərində, Sokratı suçlayanların çoxunun sonradan öldürüldüyü, birilərinin isə xalqın qınaqlarından bezib özlərini öldürdüklərindən danışılır. Bütün bu deyilənlər gerçəkdən belə olmasa da, ancaq bunlar xalqın,–özünün düzgünlük istəklərini doğrultmaq üçün "qurduğu" məhkəmə ilə, Sokratı suçu olmadan öldürənləri yazıqlamaq(cəzalandırmaq) umdularından doğmuşdu. Afinalıların dövlət görəvliləri Sokratı öldürməklə demokratiyanı gücləndirəcəklərini, tanrılara sayğısızlığı aradan qaldıracaqlarını, toplumda ərdəmlik dəyərlərini qoruyacaqlarını düşünürdülər. Əlimizə çatan, güvəncli bir qaynağa görə, Sokratın ölümündə əli olan başlıca kimsələrdən biri Anit, Sokratın ölümündən 12 il sonra Afinada ən başlıca görəvlərdən birini tutmaqdaydı, o, çörək alış-verişinə başçılıq eləyirdi.

Sokrat üçün qurulan qondarma məhkəmə, onda da, elə indi də, insanlarda acı duyğular oyatmaqdadır, bu bir də ona görədir, o çağlarda Sokratın savaş açdığı yamanlıqlar, bu günümüzə də gəlib çıxa bilmişdir.

O çağların yasalarına görə, Sokrat məhkəməyə gəlməkdən boyun qaçıra, məhkəmədə özünün Afinadan sürgün olunmasında dirənə, görkoldu(cərimə) ödəyərək ölümdən qurtula bilərdi. Bundan başqa, arxadaşlarının yardımı ilə qazamatdan qaça da bilərdi. Onda nədən, Sokrat bunların birini də eləmək istəmir, sanasan, özünü dirigözlü ölümün ağzına atır? Bu ilk baxışda anlaşılmaz görünsə də, özlüyündə Sokrat üçün ölümdən yaxasını qurtarmağa çalışmaq, öz dediklərinin üstündən cızıq çəkmək, onun özü-özünü danması demək idi. Hegelin yazdığı kimi: "Sokrata ölüm kəsən afinalılar, gerçək gələnəklərə, işləyən yasalara arxalandıqlarından onları doğru saymalıyıq, ancaq yeni bir dönəmə(epoxaya) yol açan Sokrat da doğru yolda idi, burada toplumu yeniləmək istəyən ərənlə, bunu istəməyən çoxluq arasında baş verən anlaşılmazlıqdan belə bir ağrı-acılı durum doğulur".

Sokratın ölümqabağı danışıqlarında, baş verənlərlə bağlı açıqlamaları, bu konuya aydınlıq gətirməkdədir. Sokratın deməsinə görə, "çoxluq özü-özlüyündə bir kimsəyə nə böyük yamanlıqlar, nə böyük yaxşılıqlar eləyə bilməz, bir də yaxşı adamın başına, öz sağlığında da, ölümündən sonra da pis bir iş gələ bilməz".

Sokrat özünə qurulan məhkəmədə deyirdi, ilyazısı(tarix) bizə keçmişlərdə baş verənləri doğru-düzgün çatdırmağı bacarır, suçum olmadan öldürülməyimin də gələcəyə doğru-düzgün çatdırılacağına inanıram. Bu sözlərin doğruluğunu bilindirən bir olayı burada anmaq yerinə düşərdi. Sokratın çağdaşlarından onun ömür yolunu sayqılarla yazıya alan Platonla Ksenofontun Sokratdan yazdıqlarının hamısı, bugünümüzə gəlib çıxmışdır. Sokratı ələ salmağa, qaralamağa yönəlmiş yazılardan biri də bütövlüklə bugünümüzə gəlib çatmamışdır, onlardan yalnız başqalarının kitablarında, ötəri anılan kiçik parçalar qorunub saxlanmışdır. Bunlardan yalnız Aristofanın "Buludlar" komediyası günümüzə gəlib çıxa bilmişdir. Bu komediya, Sokratın sağlığında, Afinada teatr yarışmalarında baxışa çıxarılmış, burada sonuncu yeri tutmuşdur. Bundan sonra, Aristofan bu komediyanı yenidən işləmiş, ancaq bir də teatrda baxışa çıxara bilməmişdir. Sanasan, ilyazısı da özü-özlüyündə Sokratdan yazılanları sağ-çürük eləyərək, onlardan doğru

olanlarını bugünümüzə gətirib çıxarmış, Sokratın böyüklüyünü, ölümsüzlüyünü doğrulda bilmişdir.

SOKRATIN ÜNLÜ SÖZLƏRİ.

Danış,–səni görə bilim.**(Burada danışanın öz iç üzünü açmasına him vurulur.)**

Yeməyi ən yaxşı, aclıq dada gətirir.

Öpözü(ruhu) sağaltmadan bədəni sağaltmaq olmaz.

Bildiyim yalnız odur, mən heç nə bilmirəm. **(Sokratın bu sözü, biliyi ilə öyünənlərə qarşı yönəlmişdir, yəni öyrənə bildiklərimiz, sonsuz bilik dənizindən ancaq bir damladır.)**

Ən yüksək bilgəlik(müdriklik) yaxşını yamandan ayırmağı bacarmaqdır.

Yaxşı öyüd verəninin olması, varlı olmağından irəlidir.

Doğru sözün ağrıtmadığı adamı, çomaqla döyməyə dəyməz.

Alçalıb yaşamaqdansa, kişi təki ölmək yaxşıdır.

Evlənsən də, evlənməsən də, ikisinin də sonunda yanıldığını düşünürsən.

İçkili olmaq adamı yaramaz eləmir, içki adamda olan yaramazlıqların üstünü açır.

Alovu külək alışdırır, insanları yaxınlıq.

Mən yaşaya bilmək üçün yeyirəm, başqaları yeyə bilmək üçün yaşayırlar.

İnsanların hamısının ürəyində bir Günəş vardır. Onu üzə çıxarmağı bacaran gərək.

İnsanlar dillərində közü saxlamağı, gizlin sözü saxlamaqdan yaxşı bacarırlar.

Pis adam, bundan bir qazancı olmayanda da, başqasına yamanlıq eləyir.

Varlı olmaq, adlı-sanlı ocaqda doğulmaq, insanın üstünlüyü sayıla bilməz.

İnsanlar arasında arxadaşlıq yaratmayan ilişkilərin dəyəri yoxdur.

Bazarı gəzib dolaşdıqca düşünürəm: burada mənə gərək olmayan nə çox nəsnələr satılır.

Ölümdən sonra bizi nə gözlədiyini bilmədiyimizdən, ondan qorxmağımız anlamazlıqdır.

Mənim bildiyim bir yaxşılıq var–bilik, bir yamanlıq var–biliksizlik.

Hamının gözünə işıq verən, onları istədiklərini görmək bacarığına çatdıran Günəşin bir çatışmazlığı var: o özünü görə bilmir.

Özünü yetkinləşdirməyə çalışmaqla keçən ömürdən yaxşısı ola bilməz.

İnsan gərəkli olanı deməkdən-eləməkdən çəkinməsə, qorxulasını(təhlükəni) adlamağa çox yollar vardır.

Nə olursa olsun, evlən. Xanımın yaxşı olsa, tək-tük ağgünlü adamlardan biri, pis olsa–filosof olarsan.

Qadının sevgisi kişinin acığından qat-qat qorxuncdur. Bu, insana çox dadlı gələn bir ağu olduğu üçün də qorxuludur.

Mənim elədiklərim kimliyimdən doğmur, elədiklərim kimliyimi doğurur.

Doğuluşumuzdan bizim iki qulağımız, iki gözümüz olur, dilimiz isə bircə dənədir, bu: çox görüb-götürməyimiz, çox eşidib-öyrənməyimiz, ancaq az dillənib-danışmağımız üçün deyilmi?

Öz sağlamlığını gərəyincə qoruyan insan, onun sağlamlığına nələrin yaradığını ən bacarıqlı həkimdən də yaxşı bilir.

Kimsə öz torpağında əkib-yetişdiryinə, bir başqası–öz atını yaxşı böyüdüb-bəslədiyinə görə sevinir, mən isə gündən günə bir az da çox yetkinləşə bildiyimə görə sevinirəm.

Əyləncələrə, geyim-gecimə gərək duyursunuz, bunları ələ gətirməyi ağgünlük sayırsınız, ancaq nəyəsə gərək duymadan var olan tanrını undursunuz,–dolanışıqdan ən az asılılığı olanlar, tanrıya ən yaxın olanlardır.

Dünyanı yerindən oynatmaq istəyən kimsə, ilk öncə özünü yerindən tərpətməkdən başlamalıdır.

Gözəllik xanımağalıqdır(kraliçalıqdır), ancaq onun bu xanımlığı çox az sürür.

Kim azla keçinə bilirsə, o hamıdan varlı sayılmalıdır, yoxsa, onun özünə az götürməsini ayrı necə yozmaq olar?

Yaxşı başlanğıc kiçik iş olmasa da, ancaq o elə kiçik işlərdən də başlayır.

Tiranın öpözünə(ruhuna) baxa bilsəydik, onun qara-qançırlarla, yaralarla örtüldüyünü görərdik,–tiranın qaniçənliyi, azğınlığı, alçaq işdəkləri, öpözünü qamçılayıb, yaman günə qoyur.

Bilgəlik özünü şaşırmaqdan(heyrətdən) başlayır.

Birisi naxırçıdırsa, onun otardığı naxırda inəklər arıqlayır, azalırsa, ona pis naxırçı deyirlər, o da bunu bonuna almalı olur; Ancaq nədənsə dövlətin başında dayanan adamın yönətimində, yurddaşların dolanışığı pisləşir, onların sayı azalırsa, o yenə də özünü yaxşı dövlət başçısı sayır, bunu dilə gətirməkdən utanıb qızarmır.

Yamanlıqlar, doğru olanları bilməməkdən doğur.

Birdən qarşınızda bu ikisindən birini seçmək dursaydı: əyriliyin əlində ölməyimi, yoxsa əyrilik eləməyimi üstün tutardınız?

Düzgün yaşamağı öyrənmədən, yaşamağın dəyəri yoxdur.

İstənilən kimsədən neçə qoyunu olduğunu soruşsan, çaşmadan onların sayını deyə bilər, ancaq çoxusu neçə arxadaşı olduğunu soruşanda çaşıb qalır, elə bil arxadaş qoyundan dəyərsizdir.

Yaxşılıq eləmək, içində özünün də yaxşı olmağı bacardığın işi görməkdir.

PLATONUN ÖMÜR YOLUNDAN YIĞCAM BILGI.

Platonun bizim çağdan qabaq 428-427-ci illərdə, Afinada doğulduğu deyilir. Platonun ata-anası Afinanın çox adlı-sanlı ocaqlarından(ailələrindən) olmuşlar, atası–deyilənə görə Attikanın əski çağlar çarlarının soyundan, anası isə, görkəmli afinalı, çox bitkin yasalar yaratması ilə tanınmış Solonun soyundan olmuşlar.

Laertli Diogenin deməsinə görə, Platonun öz adı, "ən ünlü kimsə" anlamında olan–Aristokl olmuş, "geniş çiyinli" anlamında olan Platon ayamasını ona, gövdəsinin qollu-budaqlı olmasına görə vermişlər.

Sokratla tanışlığa kimi, Platon başqa öyrətmənlərin yanında olub, öz çağının biliklərini dərindən mənimsəmiş, gözəl şeirlər yazmış, yaxşı rəssamlıq bacarığı da olmuşdur. Bizim çağdan qabaq 407-ci ildə Sokratla tanış olduqdan sonra, Platon bütün qalan ömrünü fəlsəfi çalışmalara bağlamışdır. Platonun bütün fəlsəfi yaradıcılığı, birilərində doğrudan da olmuş, o birilərində özünün uydurduğu kimsələr arasında baş verən dialoqlar kimi yazıya alınmışdır, özü də bunların demək olar hamısına Sokrat da qatılır.

Deyilənə görə, Sokratın ölümündən bərk sarsılan Platon uzun bir sürədə yorğan-döşəyə düşmüş, sağalandan sonra Afinadan köçüb Meqaraya, oradan Misirə, sonra da İtaliyaya getmiş, yalnız 12 ildən sonra, 387-ci ildə Afinaya qayıdıb, özünün fəlsəfə okulunu–Platon Akademiyasını yaratmışdır.

Əski qaynaqların yazdığına görə Platon, bizim çağdan qabaq 347-ci ildə, öz səksəninci ad günündə ölmüşdür.

PLATON

SOKRATIN APOLOGİYASI
(Sokratın məhkəmədə özünü doğrultma çıxışları)
1.Üzünə duranların suçlamalrını eşidəndən sonra Sokratın dedikləri

Ay afinanın kişiləri, sözün düzü, bu qarayaxanların sizləri mənə qarşı necə qaldırdıqlarından, özüm də yaxşı baş açа bilmirəm; onlar bu yalanlarını elə gözqırpmadan danışırlar, qulaq asdıqca, mən az qala özüm özümü tanıya bilmirəm. Açığını desəm, onların danışdıqlarında bir dənə də olsun doğru söz yoxdur. Ancaq sözün düzü, burada mənə ən çox çöçün gələni, bu yalançıların sizləri, mənim gözəl danışmaq bacarığıma uyub, yoldan çıxmamağa çağırmaları oldu; indi mənim dediklərimdən özünüz də anlayacaqsınız, mən gəlişigözəl sözlər danışmağı bacarmıram, ona görə də mənim üçün dedikləri bu sözləri onların utanmazlığına yozuram, bir də sözün düzünü deməyi onlar gözəl danışmaq bacarığı sayırlarsa, məndən bundan başqasını gözləməsinlər də; yox, onlar utanmadan yalanlar üyüdüb tökməyi söz danışmaq bacarığı

sayırlarsa, onda qoy qulaqlarını açıb eşitsinlər: bu işdə mən özümü onlara tay tutmaram. Dediyim kimi, onların danışığında bir dənə də olsun düz söz yoxdur, doğrusunu bilmək istəyirsinizsə, qulaq asın, mən deyim. Ancaq and olsun Zevsə, afinalılar, məndən bu yalançılardan eşitdiyiniz sayaq: don geydirilmiş, bəzək vurulmuş sözlər eşitməyəcəksiniz, ürəyimdə nələr varsa, dilimdə də onlar olacaq. Sizə dediklərimə özüm də inanıram, ona görə də məndən doğrudan başqa bir söz gözləməyinizə dəyməz; bu yaşımda, hansısa, özünü göstərmək üçün dediklərini qabaqcadan düşünüb-daşınan bir gənc sayağı danışmaq, mənim saçıma-saqqalıma yaraşmaz. Sizlərdən isə yalnız bir umacağım var, ay afinanın kişiləri, mənim özümü doğrultmaq çıxışımı, öyrəncəm üzrə, xalq içində, bazar ağzında, şəhər ortamında söylədiyim təki, loru dillə danışmağıma baxıb, hay-küy qaldırmayasınız. Yetmiş illik ömrümdə mən birinci dönə məhkəməyə gələsi oldum; açığını deyim, buradakı danışıq dili mənə çox yad gəlir, sizlərin də, mənim danışığımı bir yadellinin dilindən çıxan sözlərə oxşatsanız belə, bunun üstündən keçməyinizi, mənə uşaqlıqdan alışdığım təki danışmağa yol verməyinizi, mənim sözlərimin gözəlliyinə yox, doğru olub-olmadığına önəm verməyinizi umuram; hakimlərin işi düzgünlüyü üzə çıxarmaq, sözçünün(oratorun) işi isə sözün düzünü deməkdir. Elə bilirəm, ən yaxşısı o olardı, öncə ötən çağlarda məni suçlayanların yalanlarını üzə çıxardım, sonra isə indiki qarayaxaların dediklərinin puçluğunu göstərim. Bildiyiniz kimi, uzun illər boyu, mənə qara yaxmaq istəyənlər az olmayıb, ancaq onlardan biri də düznəqulu kimsələr olmayıb; düzünü desəm, bu Anitlə onun yandaşlarından çox, mən o keçmiş yalançılardan xoflanıram. Bunlar da qorxuludurlar, ancaq onlara baxanda bunlar toyagetməlidirlər! Uşaqlıq çağlarınızdan başlamış, mənim bu keçmiş qarayaxanlarım, sizləri mənə qarşı yönəltmiş, mənim adıma olmazın suçlar uydurmuşlar, dediklərindən isə belə çıxırdı: Sokrat adında bir bilici vardır, işi-gücü yerin altını, üstünü araşdırıb, özündən nələrsə uydurmaq, sonra da bunları doğru adı ilə adamlara sırımaqdır. O adamların yaydıqları dedi-qodular, bunlarınkından ona görə qorxuludur, onların dediyi işlərə baş qoşan adamların (yəni onların deməsinə görə, mən də beləymişəm) tanrıtanımazlar olduğu hamıya bəllidir. Bundan başqa da, məni gözü götürməyən bu adamlar yetərincə çox olmaqla yanaşı, bir də sizin uşaqlıq-gənclik çağlarınızda küncdə-bucaqda danışılan dedi-qodulara qolayca inanmağınızı

bildiklərindən, məni elə bu yolla da sizlərin gözündən salmağa çalışmışlar, ən başlıcası, bunu ancaq mənimlə üz-üzə gəlmədikləri yerlərdə, daldalarda eləmişlər. Mənim dalımca danışan bu adamların adları indi unudulub, ancaq onların adıma qoşduqları, qulaqlarınıza doldurduqları qaravəllilər buçağacan da unudulmayıb. Özlərinin gözügötürməzliyindən, qarnı qurdlu olmaqlarından, sizləri mənə qarşı yönəldən bu adamları, indi bura gətirmək olmur, mən sanasan kölgə ilə döyüşməli oluram, onlar ortalıqda olmaya-olmaya, mən onlarla deyişib, özümü doğrultmalı, onların uydurmalarını yalana çıxarmalı oluram. Elə bilirəm, sizlər də bu sözümü danmazsınız, mənim iki sayaq qarayaxanlarım olub: biriləri indikilər, o biriləri keçmişdəkilər, məncə sizlər mənim öncə bu keçmiş qarayaxanların dediklərinin uydurma olduğunu göstərməyimə qarşı çıxmazsınız, indicə dediyim kimi, onlar sizin qarşınızda məni indikilərdən qat-qat artıq suçlamışlar. Beləliklə, ay afinanın kişiləri, çox az bir sürədə, mən gərək uzun illər sizlərin arasında yayılmış dedi-qoduların yalan olduğunu anladam. Çox istərdim, mən özümü elə doğrulda biləm, bu təkcə mənim yox, sizlərin də işinə yarasın. Bunun necə ağır bir iş olduğunu da bilirəm, mən hara gəldiyimi də, necə bir qurğuyla üz-üzə durduğumu da yaxşı anlayıram. Görünür bu da tanrıların istəmi ilə baş verən bir sınaqdır, ancaq mən gərək yasaya uyğun olaraq, özümü doğrultmaq üçün danışım. Öncə mənim adıma deyilən dedi-qoduları anıb, baxaq görək, keçmişlərdə məni nələrdə suçlayırdılar, indi bu Melet də onların dediklərinə qoşulub, məni bu indiki məhkəməyə çəkir. O keçmiş yalançıların sözlərinin özəti nə idi? Onlar məni bunlarda suçlayırdılar: Sokrat yasaları pozaraq, boş yerə, yerin altında, göy üzündə olanları araşdırmağa baş qoşur, özünün uydurmalarını doğru adına başqalarına da sırımaq istəyir. Habelə bunun kimi boş-boş sözlər. Siz hamınız Aristofanın komediyasına* baxmısınız, orada hansısa bir Sokrat səbətin içində oturub, üyüdüb tökür, göylərdə gəzməyindən söz açır, nə bilim belə-belə mənim yuxuma da girməyən əttökən sözlər danışır. Bu sayaq bilimlər üzrə çalışanları, bu işlərin bilicilərini qınamaq, onlara qarşı çıxmaq mənlik olmasa da(görəsən, Melet məni buna görə də suçlamaq istəməz?), ancaq bu deyilənlərin mənə qarışacağı olmadığını da sizlərə deməliyəm. Bu sözümün doğruluğuna tanıq durmağa isə sizlərin özünüzücə çağırıram, sizlərin çoxu mənim danışıqlarıma qulaq asmısınız, indi mən də sizlərə qarşı dirənirəm: öz aranızda götür-qoy edib, mənə deyin

görək, hansı biriniz, harada, haçan məndən bu sayaq sözlər eşitmisiniz? Di, soruşun biri-birinizdən, kim məndən belə sözlər eşidib, bax bircə elə bunu araşdırsanız, onda özünüz mənim adıma yazılan bu qara-qura sözlərin yalan olduğunu anlayacaqsınız. Kimsə sizlərə deyibsə, mən adamları öyrənci olaraq yörəmə toplayır, onlardan axça alıb sonra nəsə öyrədirəm, bunun da ağ yalan olduğunu biləsiniz; baxmayaraq mən bu işdə bir pislik də görmürəm, deyək, leontinli Gorgiy, keoslu Prodik, elidli Hippiy təki, axça alıb adamlara dəyərli biliklər öyrətməyin nəyi pisdir? Bu bilicilər şəhər-şəhər gəzib gəncləri özlərinin öyrənciləri olmağa inandırır, bu gənclər də -işə baxın ha!- onlara axçasız öyüdlər verən yurddaşlarına arxa çevirib, bu bilgələrdən öyrənməyə qoşurlar, onlara axça ödəyir, üstəlik böyük sayğılar göstərirlər. Bugünlərdə eşitmişəm, Parosdan bir bilici kişi də gəlib, axça alıb adamlara bilik öyrədir. O günləri Hipponikin oğlu Kalliy qarşıma çıxıb, özü mənə danışır, bu biliciləri tapana kimi, sofistlər onun başını tovlayıb, saysız axçasını əlindən çıxarıblar; Mən ona belə bir söz dedim(yeri gəlmişkən onun iki oğlu var): “ Kalliy! Birdən, sənin oğulların dayça, ya da buzov olaraq doğulsaydılar, onda onları öyrətmək üçün gərək birincidə yaxşı atminən, ikincidə isə xışçı-əkinçi axtarıb tapaydıq; indi onlar insan kimi doğulublarsa, onları öyrətmək üçün kimi tutmaq istəyirsən? Görəsən, onlara yaxşı insan, yurddaş olmağı kim öyrədə bilər? Elə bilirəm, sən oğullarını əkib-tökməzdən öncə bunları düşünüb daşınmısan? De görək, bu iş üçün kimisə tapmısan, yoxsa yox?” “Tapmışam—o, qayıdıb mənə deyir.” “Deməzsən, kimdir o?—mən ondan soruşuram.—Haralardandır, öyrətməyə neçə buçuq axça götürür?” “Adı Evendir,- o, deyir,- Parosludur, öyrənçilərindən ayına beş min* axça alır”. Sözün düzü, o Evenin (tanrılar dayağı olsun), biliciliyi üçün deyilənlər düzdürsə, öyrənçilərindən də lap az axça götürür. Ola bilsin belə bir işi özümə sığışdırsaydım, mən də başımı dik tutub gəzərdim, ancaq neyləyəsən, bu iş mənlik deyil!

Ola bilsin, sizlərdən birisi dirənib, soruşsun: “Yaxşı, ay Sokrat, onda de görək sənin işinin adı nədir? Sənin adına deyilən bu dedi-qodular haradandır? Sən başqalarının elədiklərindən seçilib ayrılan bir iş tutmasan, adına da belə çoxlu sözlər deyilməzdi. Bunuca bizə başa sal, biz də başımızı ağrıdıb sənin yamanlığına düşünməyək.” Danışıqlarımızı buradan başlasaq, lap düzgün olardı, mən də elə sizlərə adımın nədən dilə-ağıza düşdüyünü də, bu yalanların haradan pırtlayıb çıxdığını da

anlatmaq üçün buradayam. Di, qulaq asın. Ola bilsin, birilərinizə elə gələr, mən burada sözü gülməyə salıram, and olsun inandığınıza, mən ancaq sözün düzünü deməyə çalışıram. Mənim adımın belə dillərə düşməyi, mənim hansısa biliciliyimin ucbatından oldu. Nə bilicilikdir, bu belə? Yəni, bunun insana bağlı olan bir bilicilik olması sözsüzdür. Bu, adıma yazılan bilicilik, məndə doğrudan da var; ancaq burada mənim adıma yazmaq istədikləri: insanlıq bilgəliyi, yoxsa insanlıqdan üstün bilgəlik,- düzü özüm də bilmirəm bunun adını nə qoyum,- bunların nə olduğu mənə bəlli deyil; kimsə məni bunlara qatmaq istəyirsə də, bunu mənə qara yaxmaq üçün eləyir, ağ yalan danışır. Gəlin belə səs-küy salmayın, mənim özümü öydüyümü düşünsəniz belə, qulaq asın, ay afinalılar; mən indi öz sözümü yox, sizin inanmalı olduğunuz birisinin sözünü burada deyəcəyəm. Mənim bilgəliyimə(düzü bilmirəm buna bilgəlik demək olarmı?), tanıqlıq eləyən Delf tanrısının* özüdür, biləsiniz! Herefontu tanımayanız yoxdur. Herefont gəncliyindən mənim də, sizlərin də yoldaşınız olmuş, Afinada tiranlar at oynadanda, çoxlarınızın könüllü olaraq getdiyi sürgün illərində sizinlə getmiş, sizinlə də qayıdıb gəlmişdi. Onun necə bir kimsə olduğunu da unutmuş olmazsınız, onu eləmək istədiyindən daşındırmaq olmazdı, bunu da bilməmiş deyilsiniz. Günlərin bir günü o, Delfə gedib çıxır, üzünə salıb orakuldan görün nə soruşur. A kişilər, mən sizlərə dedim axı, hay-küy salmayın, qoyun danışım! Bax belə, o tanrıdan, məndən də artıq bilgə olan birisinin olub-olmadığını soruşur, Pifiya da deyir, tanrının deməsinə görə, yer üzündə Sokratdan artıq bilgə olan birisi yoxdur. Baxmayaraq indi Herefont ölüb gedib, ancaq qardaşı sağdır, bu dediklərimin düzgünlüyünə tanıqlıq eləyə bilər. İndi deyim, bunları nə üçün sizlərə danışıram; bununla mən sizlərə, adıma çıxarılan bu yalanların kökünü göstərmək istəyirəm. Herefont mənə bunları danışandan sonra, mən uzun-uzadı düşüncələrə daldım: bu sözlərlə tanrı nə demək istəyirmiş, onun bu sözlərini necə anlamalı? Mənə qalsa, özümü azacıq da olsa belə, bilgə saymıram; onda tanrı nədən mənim hamıdan artıq bilgə olduğumu deyir? Tanrı yalan danışmaz, bu hamıya gün kimi aydındır. Çox uzun bir sürə, tanrının nə demək istədiyi mənə qaranlıq qaldı; sonradan bütün gücümü toplayıb, bu konunu çözməyin belə bir yolunu düşündüm: mən bilgəliyi ilə ad-san qazanmış birisinin yanına gedib, bu öncəgörmənin çin çıxmayacağına arxayın olmaq istədim, onun məndən artıq bilgə olmağını anlamağım

yetərdi də orakulaya deyim, bax bu adam məndən artıq bilgədir, sən görünür tanrının sözünü düzgün anlamamısan. Ancaq mən bu bilgə sayılan adamnan tanışlıqdan sonra, doğrudan doğruya sarsıldım–onun adını burada çəkməyə gərək duymasam da, deyim biləsiniz, bu sizlərə başçılıq eləyən dövlət qulluqçularından biri idi,–mən onunla bir az danışandan sonra anladım, bu adam çoxlarına bilgə görünsə də, onda bilgəliyin izi-tozu belə yoxmuş; mən onun üzünə bu düşündüklərimi deyib, özünü bilgə saymasına baxmayaraq, özlüyündə belə olmadığını ona anlatmağa çalışdım. Mənim bu danışığımdan sonra, onun da, yörəsində mənim dediklərimi eşidən bir çox yandaşlarının da, məni görməyə gözləri olmadı. Mən o adamın yanından gedəndə anlayıb bildiyim bu oldu: mən ondan artıq bilgəyəm, ona görə, nə onun, nə də mənim bitkin biliklərimiz olmasa da, o, bilmədiklərini bildiyini düşünür, mən isə bimədiklərimi bilmədiyimi anlayıram. Belə çıxmırmı, məndə ona baxanda azacıq da olsa bilgəlik var, necə olsa da, mən bilmədiyim nələrisə bildiyimi sanmıram. Onun yanından, ondan artıq bilgə saydıqları başqasının yanına gedib, onun da yaman gündə, bilgəlikdən çox uzaq olduğunu gördüm; biliksizliyini üzə çıxardığım üçün, o da yandaşları ilə birgə məndən yanıqlı oldular.

Bunlara baxmayaraq, mən ardıcıllıqla, toplumda bilgə saydıqları bütün kimsələrin yanına gedib, onların bilgəliyini sınamağa çalışdım. Bunları elədikcə, özümə yağı qazandığımı duysam da,–sözün düzü, bundan çəkinsəm də,– ancaq tanrı sözünü uca tutmaqdan özümü saxlaya bilmirdim. Beləliklə də tanrı sözünü anlamaq üçün, mənə elə gəldi, gərək bilgəlikləri dilə-ağıza düşən bütün adamları yoluxub, yoxlayam. And olsun köpəyə*, afinanın kişiləri, sizə açıq ürəklə demək istəyirəm, mən bu adamları sınadıqca nə görsəm yaxşıdır: bigəlikdə ad çıxarmış kimsələrin çox biliksiz, dayaz adamlar olduğunu, əksinə özünü bilgə saymayanların çoxunun onlardan qat-qat üstün olduqlarını gördüm. Mən bu adamların arasında necə gəzib dolandığımı, hansı əməklərə qatlaşmağımı gərək sizlərə danışam, sizlər də mənim tanrı sözünün doğruluğunu necə araşdırdığımı biləsiniz. Dövlət qulluqçularının ardınca mən şairlərin yanına getdim, onların ağı(faciə) üstündə də, öyünclə də şeir yazanlarını yoluxdum, özümün onlardan biliksiz olacağımı görmək umdusu ilə onları bir-bir sınaqdan keçirdim. Mən onların yaradıcılığından, ən yaxşı sayılan parçaları seçib, onlardan öyrənmək amacı ilə, bu

parçalarda yazdıqları ilə nə demək istədiklərini özlərindən soruşdum. Düzü gördüklərimi olduğu kimi sizlərə danışmağa utanıram, ancaq yeri gəldiyi üçün gərək deyəm. Anladığım təkcə o oldu, bu şairlərin şeirlərini, oxucuları özlərindən qat-qat yaxşı incələyə bilirlərmiş. Bununla da çox qısa bir sürədə, şairlər üzrə bunları öyrənə bildim: onların yaradıcılığı hansısa bilgəlikdən qaynaqlanmır, dedikləri sözlər anadangəlmə bir vergidən, bununla bağlı olan bir coşqunluqdan doğulur, onlar da gələcəyi deyən baxıcılar, falçılar kimidirlər; belələri də elə çoxlu yaxşı soraqlar verirlər, ancaq bunu haradan bildiklərini özləri də anlamırlar. Şairlər də bax buna oxşar olan bir duyumla yazıb, yaradırlar; ancaq ən acınacaqlısı bu da deyil, onların bu vergilərinə güvənib, özlərini bütün işlərdə başqa insanlardan üstün sanmalarıdır. Mən, dövlət qulluqçuları ilə olduğu təki, bu şairlərdən də anlaqca yüksəkdə dayandığımı bilincə, onlardan aralandım. Lap sonda mən uzmanların(sənətkarların) yanına gələsi oldum. Onların işlərinə gəlincə, mənim bu işlərdən baş açmadığım özümə də gün təki aydın idi, ancaq onlardan çoxlu yaxşı bilgilər öyrənə biləcəyimə də inanırdım. Mən ilk baxışda yanılmadığımı gördüm, onlar doğrudan da mənim bilmədiyim çoxlu nəsnələri bilirdilər. Ancaq bir az da dərinə getdikcə, onların da elə şairlər sayağı, yanlışa qapıldıqlarını gördüm: onlar anadangəlmə aldıqları yaradıcılıq bacarıqları ilə öyünüb özlərindən çıxır, bütün qalan işlərdə də hamıdan üstün bilikləri olduğunu düşünür, bununla da bilgəlik anlayışını kiçildib, dəyərsizləşdirirdilər; bundan sonra mən bir də tanrının dediyi sözün üstünə qayıdıb, özümdən soruşdum: mən nə etməliyəm?—mən necə varamsa, eləcə də qalmalıyammı, yəni onların bilgəliyinə oxşamayan bu bilgəliyimlə, onların anlamazlığına bənzəməyən bu anlamazlığımla, baş-başa verməliyəmmi, yoxsa onlar təki olmağa çalışmalıyam? Onda özümə də, orakula da dedim: mən necə varamsa, eləcə də qalmağı üstün tuturam.

Bax, mənim bu araşdırmalarım, ay afinalı kişilər, bir yandan mənə qarşı çoxlu acıqlı, yanıqlı adamları ortaya çıxardı, elə buradan da bu yalanlar törəyib artmağa başladı, başqa yandan da mənə bu bilgə adını yapışdırmağa başladılar, mənim kimlərinsə bilgələyini danmağımı görənlər, onlarda dandığım bilgiləri özümün bildiyimi sanırdılar. Özlüyündə isə, a kişilər, gerçəklikdə tanrıdan başqa bir bilgə ola da bilməz, tanrı isə, mənim adıma dedikləri ilə ancaq bunu açıqlamaq istəmişdi: insan bilgəliyi olduqca kiçik, az qala dəyərsiz bir nəsnədir,- Sokratı isə bir örnək olaraq göstərməklə,

adamlara bunu anlatmaq istəmişdi: sizlərdən Sokrat sayağı düşünənlərə, “o yana getmə, bəri gəl”, bilgə demək olarsa da, bu ancaq onun öz bilgəliyinin dəyərsizliyini anladığı üçündür. Mənə gəlincə, elə bu gün də axtarıb-arayıb tanrı sözünün doğruluğunu adamlara anlatmağa çalışmaqdayam, gözümə bilgə təki görünən kiminləsə, istər bizlərdən, istərsə yadelli olsun, üzləşdimmi, o andaca tanrı sözünün doğruluğunu göstərmək üçün, bu adamın bilgə olmadığını, onun özünə də, yörəsindəkilərə də anladıram. Bax bu işlərlə çalışmaqla da mən, nə şəhərimiz üçün, nə də öz ev-eşiyim üçün önəmli bir iş görməyi çatdıra bilmirəm, tanrıya ürəkdən göstərdiyim bu qulluğumla da, gördüyünüz kimi, ən yoxsul bir dolanışıqla yaşamaqdayam.

Bundan başqa, öz istəkləri ilə mənim başıma yığışan gənclər, dolanışıq korluğu çəkməyən, özü də varlı kişilərin oğulları ola-ola, mənim adamların bilgəliyini necə sınadığıma baxmaqdan doymurlar, sonra da məni yamsılayaraq, özləri də başqalarını bu sayaq sınaqdan keçirirlər; mənə elə gəlir, onlar da mənim elədiyim təki, özlərini bilgə sayan kimsələrə özlüyündə belə olmadıqlarını göstərə bilirlər. Onların bilgə olmadıqlarını göstərdikləri adamlar isə, özlərindən inciməkdən, məni qınayırlar, sonra da belə bir söz çıxarmağa başlayırlar, deməyəsən Sokrat adında birisi, gəncləri pis yollara çəkir. Birdən onlardan soruşan olsa: “bu Sokrat nə işin yiyəsidir, nə öyrədir?”—onda bunların deməyə bir sözləri olmadığından, sudan quru çıxmaq üçün, bütün çağlarda bilgələrin dalınca deyilmiş dedi-qoduları dilə gətirirlər: Sokrat, yerin altında, göy üzündə olan işlərə baş qoşur, bununla tanrıların işinə qarışıb, onlara sayğısızlıq göstərir, öz yalanlarını doğru adına adamlara sırıyır. Bu adamlar sözün düzünü deməkdən ona görə çəkinirlər, birdən onların nəyisə bilməyə-bilməyə özlərini bu işin bilcisi kimi göstərməklərinin üstü açıla bilər. Mən bilən bu adamlar, çoxsaylı olmaqları ilə də, yersiz ötkəmlikləri ilə də, varlı olmaqları ilə də, bir yandan da öz aralarında anlaşıb, ara vermədən mənim adıma olmazın yalanlar uydurmaqları ilə də, sizlərin qulağını doldura bilmişlər. Bax bu mənim üzümə keçən, Melet, Anit, Likon da onların əlaltılarıdır: Melet—incik düşmüş şairlərin, Anit—uzmanların, Likon isə, sözçülərin(ritorların, oratorların) acığını məndən çıxmağa çalışırlar. Ona görə də sözümün başlanğıcında sizlərə, belə az bir sürədə, bu böyük yalanların üstünü açmağın ağırlığından gileylənmişdim. Sözün düzünü bilmək istərsəniz, bu dediklərimdən başqa

söz axtarmayın da, necə görürsünüz, mən sizlərə nə varsa hamısını, olduğu təki, gizlətmədən, gərəklisindən tutmuş önəmsizinə kimi, bircə-bircə danışmaqdayam. Bilirəm, bu danışıqlarımı da çoxlarınız bəyənməyəcək, ancaq elə bu da, yəni çəkinmədən sözün düzünü deməyim, mənim yox, onların: məni qaralamaq istəyənlərin yalan danışdığını açıb ağartmaq üçündür. Siz haçansa, istər indi, istərsə gələcəkdə, bu işləri araşdırsanız, bunun elə belə də olduğunu tapacaqsınız. Beləliklə də məni ilkin olaraq suçlayanların yalanlarının üstünü açmaq üçün dediklərimi, elə bilirəm, yetərli saymaq olar; indi isə mən, dediyinə görə bizim şəhərimizi ürəkdən sevən bu Meletlə, onun çiyin yoldaşlarının dediklərini yalana çıxarmağa çalışacağam. Qoy belə də olsun, onların mənə qarşı irəli sürdükləri bu suçlamanın, məni istəməyənlərin hamısının sözü bir yerə qoyması demək olduğu bəllidir. Bunların dediklərinin özəti belədir: Sokrat gəncləri düzgün yoldan sapdırıb, pozğunluqlara çəkməklə yasaları pozur, şəhərimizin tapındığı tanrıları tanımır, onların yerinə başqa tanrıları qoymaq istəyir. Bax, belə bir suçlama sırası; indi gəlin bu sıradan ayrı-ayrı sözləri seçib görək, bunlar nə demək istəyirlər. Melet durub deyir, mən yasaları pozaraq, gəncləri düz yoldan sapdırıram, ancaq mən isə deyirəm, Meletin özü yasaları lağa qoymaqla onları pozur, onun üçün önəmli olmayan işlərdən ürəyiyanan adamlar təki danışıb, ikiüzlülük eləyir, adamları boş yerə məhkəmə qurmağa çağırır; gəlin, bunun belə olduğunu sizlərə göstərim.

-Melet, bir mənə de görüm, sən şəhərimizin gənclərinin yaxşılığını ürəkdən istəyirsən, eləmi?

-Sözsüz, mən bunu istəyirəm.

-Onda mənə de görüm, onların yaxşılığı üçün çalışan kimlərdir? Sən onların yaxşılığına çalışan birisi olaraq, bunu bilməmiş olmazsan. Onların pisliyini istəyəni tanıyırsan: ona görə də məni bunda suçlayıb bu məhkəməyə çəkib gətirmisən; indi də onları yaxşılığını istəyənlər kimlərdir, onu de. Bax görürsən, Melet, sən susub, nə deyəcəyini kəsdirə bilmirsən. Sənin doğrudanmı utanan üzün yoxdur? Sənin susqunluğun, bu işlərin sənin üçün azacıq da olsa önəmi olmadığından soraq vermirmi? Ancaq susma, danış: kimlərdir gənclərin yaxşılığını istəyən?

-Yasalar.

-Ay gözümün işığı, mən səndən bunu soruşmuram, gənclərin yaxşılığını istəyən bu yasaları kimlərin bildiyini, yerinə yetirdiyini soruşuram.

-Bax onlar, Sokrat,- buradakı hakimlər.

-Nə danışdığındır, Melet! Doğrudanmı bu adamlar gənclərə düz yol göstərib, onları yaxşı olmağa yönəltməyi bacarırlar?

-Çox gözəl də bacarırlar.

-Onların hamısı? Yoxsa biriləri bacarır, o biriləri yox?

-Hamısı bacarır.

-And olsun Heraya, çox yaxşı danışırsan, gör bir başqalarının işinə yarayan nə çox adamlar var imiş! Yaxşı, bu qulaq asan adamlar necə, onlar da gəncləri yaxşı olmağa öyrədirlər, yoxsa yox?

-Onlar da.

-Gənəşik toplantısından olanlar necə?

-Onlar da.

-Melet, sən bilərsən, Xalq Yığıncağında toplaşanlar, gəncləri korlayıb eləmirlər? Yoxsa onlar da hamısı, gənclərimizi yaxşı olmağa öyrədir?

-Onların da hamısı, gənclərin yaxşılığını istəyənlərdir .

-Belə çıxır, bütün afinalılar gənclərimizin yaxşılıqsevər, gözəl insanlar kimi yetişməsinə çalışır, təkcə mən onları korlayıram. Sən bunumu demək istəyirsən?

-Elədir, bunu deyirəm.

-Ancaq mənim adıma, deyəsən, olmazın qaralar yaxırsan a! Onda mənə de görüm: atlarla belə bir iş olurmu, hamı onları yaxşı öyrətməyə çalışır, özü də bunu bacarır, ancaq birisi onları korlamaq istəyir? Yoxsa tərsinədir, hansısa birisi, ola bilsin də bir-ikisi onları yaxşı öyrətməyi bacarır, deyək miniciliyi yaxşı bilənlər, ancaq yerindən duran, bunu bacarmayan çoxları, bu işə baş qoşanda atları korlayırlar? Melet, elə başqa ələ öyrədilən heyvanlarla da belə olmurmu? Bilmirəm, indi sən Anitlə birgə, bunu da danacaqsınız yoxsa yox, bu doğrudan doğruya gəncliyin çox böyük uğuru olardı da, hamı onları yaxşılığa öyrətsin, yalnız bir adam onları korlamaq istəsin. Melet, məncə sən gənclərin işlərinə qayğı göstərmədiyini, bu işlərin sənin üçün önəmi olmadığını yetərincə göstərdin: məni məhkəməyə çəkib suçladığın bu işlərdən sənin nə başın çıxır,

nə də onların sənə bir isti-soyuğu da yoxdur. Melet, and verirəm Zevsin adına, bir bizə de görək: yaxşı yurddaşların arasında yaşamaq gözəldir, yoxsa pis? Niyə susursan, dillənsənə! Mən burada səndən tapmaca soruşmuram, nədən belə gözünü döyürsən? De görək, pislər—özləri ilə oturub duranlara yamanlıq eləyirmi, yaxşılar—öz yörəsindəkilərə yaxşılıq eləyirmi?

-Sözsüz, eləyirlər.

-Yaxşı, de görək elə birisi olarmı, öz yaxınlarından yarar yox, korluq görmək istəsin? Niyə susursan, yaxşı adam, sən yasaya görə mənim sorğularımı yanıtlamaqdan boyun qaçıra bilməzsən! Belə bir adam varmı, özünün korluğunu(ziyanını) istəsin?

-Mən bilən beləsi ola bilməz.

-Yaxşı. Onda de görək, sən məni məhkəməyə verəndə, mənim gəncləri bilərəkdən korladığımı düşünürsən, yoxsa bilməyərəkdən?

-Düşünürəm, sən onları bilərəkdən korlayırsan.

-Bu necə olur, Melet? Sən belə gənc ola-ola, məndən artıq bilgə də olursan, pislərin öz yaxınlarına yamanlıq, yaxşıların öz içkinlərinə yaxşılıq elədiklərini də bilirsən, ancaq mən bu qoca yaşımda oracan anlamaz oluram da, öz yaxınlarıma yamanlıq eləyib, onların da mənə bunu eləyəcəklərini qanmıram, sənin deməyinə görə, mən könüllü olaraq özümə qarşı belə bir böyük pisliyə qol qoyuram! Bax bu sözünə mən inanmıram, Melet, elə bilirəm, başqaları da inanmazlar. Mən bir kimsənin qanacağını korlamağa çalışmıram, yox korlayıramsa da, deməli bunu bilməyərəkdən eləyirəm; bunların ikisi də sənin yalanını üzə çıxarmaqdadır. Mən onları bilməyərəkdən korlayıramsa, onda yasalara görə, mənə öyüd verilməli, bu yoldan çəkindirməlidirlər, məhkəməyə vermək yox; bununla da mən bilməyərəkdən elədiklərimdən əl çəkməli oluram. Sən məndən uzaq gəzib bunları mənə öyrətmirsən, sonra da məni dartıb bu məhkəməyə gətirirsən, məni düz yola qaytarmaqdansa, ölümə sürükləyirsən.

Ay afinanın kişiləri, yəni doğrudanmı sizlərə aydın deyil, mən dediyim kimi, Melet üçün bu danışdığı sözlərin haçansa bir quruşluq da dəyəri olmayıb; yaxşı, onda, ay Melet, de görək mən bu gəncləri nə sayaq korlayıram? Sənin məhkəməyə yazdığın suçlamandan belə çıxmırmı, mən onlara şəhərimizin tapındığı tanrılara sayğısızlıq

göstərməyi, başqa tanrılara tapınmağı aşılayıram? Mənim öz öyrətmələrimlə adamları korladığımı ortaya atanda, sən bunumu demək istəyirsən?

-Düzdür, bunu demək istəyirəm.

-Onda elə o tanrıların adı üçün, Melet, demək istədiklərini, mənim üçün də, bura toplaşanlar üçün də bir az aydın, geniş danışsana. İş burasındadır, mən sənin nə demək istədiyini anlaya bilmirəm: deyəsən mən bir sıra tanrıları tanıyırmışam, demək tanrıtanımaz deyilmişəm, ancaq mənim suçum bu imiş, sən demə mən şəhərimizin tanıdığı tanrıları yox, ayrılarını tanıyırmışam; yoxsa sən demək istəyirsən, mən tanrıları bütünlüklə tanımıram, başqalarına da bunu öyrədirəm?

-Elədir, sən tanrıları büsbütün tanımırsan!

-Gülməli adamsan sən, Melet! Niyə belə saçmalayırsan? Demək mən başqaları təki, nə Günəşi, nə də Ayı tanrılar olaraq tanımıram?

-Yoxsa belə deyil?—sayğılı hakimlər, bax bu Sokrat deyir, Günəş-daş parçası, Ay isə torpaq topasıdır.

-Sən burda məni yox, Anaksaqoru suçlayırsan, Melet, bu hakimləri də qanmaz yerinə qoymaq istəyirsən! Yoxsa düşünürsən, bu hakimlər, sənin bu dediklərinin Klazomenli Anaksaqorun kitabında yazıldığını da bilmirlər? Gənclər isə, bunları sən demə məndən öyrənirmişlər, onlar sonra gedib bunları Anaksaqorun yazdığını öyrənsələr, bu sözləri öz adıma çıxdığım üçün məni çoxdan hoydu-hoyduya götürməzdilərmi? Səni and verirəm Zevsin adına, de görək, səncə, yəni doğrudanmı mən tanrıları lap azacıq da olsa belə tanımılram?

-Azacıq da olsa belə tanımırsan!

-Bu lap ağ oldu, Melet, mənə elə gəlir sən özün də öz dediklərinə inanmırsan. Ay afinalılar, mənə elə gəlir, bu adam bir yandan çox sırtıq, çox da yaramaz olduğundan, o biri yandan gənclik anlamazlığından, məni bu məhkəməyə çəkib, qara yaxmağa çalışır. Görünür, bu oturub belə bir tapmaca düşünüb, indi onu ortaya atıb yoxlamaq istəyir: Görəsən bizim bilgəmiz Sokrat, mənim şuxluq elədiyimi, öz sözümü özümün də danmağımı anlaya biləcək, yoxsa mən onu da, bura yığışanları da yanılda biləcəyəm? Məncə, sizlərə də gün təki aydındır, bunun mənə qarşı dediyi suçlamada, sözünün başı ilə ayağı düz gəlmir: Sokrat yasaları pozub, tanrıları tanımır, ancaq onları tanıyır. Bu,

bizi güldürmək üçün deyilməyibmi? Baxın da, onun bayaqdan dediklərindən bu çıxmırmı? Di dillənsənə, dəyərli Melet, sizlər də səs-küyü yığışdırın, bundan qabaq sizlərə demişdim də, mənim öyrəşdiyim kimi danışmağıma dözməli olacaqsınız. Melet, bir mənə de görüm, bu yer üzündə elə birisi tapılarmı, insanların gördükləri işləri tanısın, ancaq onların varlığını dansın? Ay kişilər, belə hay-küy salmaqdansa, bu adamcığaza deyin mənim sorğumu yanıtlasın da! Yer üzündə eləsi tapılarmı, atların varlığını dansın, ancaq atla görülən işlərin olduğunu danmasın? Fleyta çalanın ola biləcəyini dansın, ancaq fleyta çalğısının ola biləcəyini danmasın? Gözümün işığı, beləsinin olmadığını hamı, o sıradan sən də bilirsən! Görürəm, danışmağa dilin yoxdur, ancaq mən sənə də, bu toplaşanlara da, öz sözümü demədən keçən deyiləm. Ancaq sən gərək ən azından bu sorğumu yanıtlayasan: yer üzündə elə bir adam varmı, tanrıları tanıyır, ancaq tanrıcaları* tanımır?

-Yox, beləsi ola bilməz

-Belə de! Nə yaxşı, bunlar səni danışdıra bildilər! Demək, sən bynusa da danmırsan, mən tanrının varlığını tanıyıram, bunu başqalarına da öyrədirəm,- burda mən tanıdığım tanrıların, sən deyən sayaq "yeni" olmasını indilikdə bir qırağa qoyaq,- sən bu məhkəmədə sözün düzünü deyəcəyinə and içmisən, indicə də dedin, mən tanrıların varlığını danmıram; tanrıların varlığını danmıramsa, onda tanrıcaların da varlığını dana bilmərəm, elə deyilmi? Bu, sözsüz belədir. Sən susub dillənmirsən, ona görə belə deyirəm. Yaxşı, onda de görək, biz bu tanrıcaların da,— tanrımı, tanrıların törəmələrimi olduğunu sanmırıqmı? Dillən görək də: həmi deyirsən, yoxmu?

-Elədir, sən deyən kimidir.

-Mən tanrıcaları danmıramsa, bunu sən də deyirsən, tanrıcalar da özlüyündə elə tanrı sayaq varlıqlardırsa, onda belə çıxır, sən bura toplaşan adamları ələ salırsan, onlarla tap-tapmaca oynayırsan, deyirsən, mən tanrıları danıram, ancaq onları tanıyıram, axı mən tanrıcaları tanıyırımsa, bu belədir. Başqa yandan, tanrıcalar, deyək bu nimfalar təki, tanrıların uşaqlarıdırsa, onda o hansı adamdır, tanrının uşaqlarının varlığını tanıyır, ancaq tanrıları tanımır? Bu bilirsənmi necə bir qanmazlıq olardı?—kimsə qatırın eşşəklə atdan törəndiyini danmır, ancaq eşşəklə, atın ola biləcəyinə də inanmır! Yox, Melet, birincisi, sən burada bizləri barmağına dolayırsan, ikincisi də, bilmirsən məni nədə

suçlayasan, ürəyin soyusun. Sən, lap azacıq anlağı olan kimisə necə inandıra bilərsən, birisi tanrıları, tanrıcaları danır, ancaq elə onlara da inanır. Beləliklə də ay afinanın kişiləri, Meletin dediklərinin ağ yalan olduğu da, mənim suçsuz olmağım da, burada dediklərimdən açıq-aydın görünməkdədir. Mən danışığımın başlanğıcında adamların birilərinin məndən niyə yanıqlı olduğunu da sizlərə anlatdım, bu sözlərimin doğru olduğuna güvənə bilərsiniz. Mənim evimi yıxsa, elə bu dediyim, məndən yanıqlı olan adamların yaydıqları yalanlar yıxacaq, bu Melet, Anit kimilər yox; belə yalanlar neçə-neçə yaxşı adamların evini yıxıb, görünür bundan sonra da çox yıxacaqdır. Siz də elə düşünməyin, bu işə düşənlərdən sonuncusu mən olacağam!

Ola bilər, sizlərdən biri qayıdıb desin: Sokrat, sən belə işlərə baş qoşduğuna görə utanmırsanmı, bax elə buna görə də, indi səni öldürmək istəyirlər? Mən isə qayıdıb bu adama belə deyərdim: ay mənim istəkli arxadaşım, bütün elədiklərində ancaq düzgün olmağa çalışan; özünü insana yaraşmayan ömür yolundan çəkindirməkdə yorulub-usanmayan; habelə bunun kimi yanlışlardan, yaramazlıqlardan, büsbütün qaçmağa çalışan, seçdiyi bu ömür yolunda ölümü də gözünün altına alıb, ondan qorxusu olmayan, beləliklə də lap azacıq da olsa belə, yararlı işlər görməyə çalışan adamı sən düzgün dəyərləndirə bilmirsən. Sənin deməyindən belə çıxır, Troyada qorxub çəkinmədən özlərini dirigözlü ölümə atan yarımtanrılar da yaxşı iş görməyiblər, yoxsa unutmusan, Fetidanın oğlu*, ad-sanını qorumaq üçün ölümdən qorxub çəkinməyəndə, onun tanrıca olan anası demişdi: “İstəkli oğlum, sən arxadaşın Patroklun öcünü almaq üçün Hektoru öldürsən, özün də ölməli olacaqsan; Tanrılar, Priamın oğlunun ölümündən bir az sonranı sənin ölüm çağın olaraq seçmişlər”—bunları bilə-bilə, o yenə də ölümdən çəkinmədi, arxadaşının ölümünə görə yağıdan öc almağı bacarmayan birisi kimi tanınmağı özünə sığışdırmadı, bu da onun sözüdür: ”Yağımı öldürən anda özüm də ölsəm sevinərəm, yoxsa bu aypara biçimli gəmilərin yanında qalıb, adamların gözündə gülünc görünmək, torpağa ağır yük olmaqdansa, ölüm yaxşıdır”. Bu anda onun nə üçün, nə ölümdən, nə də baş verə biləcək qorxulasılardan çəkinmədiyini düşünüb-daşındınızmı? Ay Afinalılar, sizlərin seçdiyiniz qoşun böyüklərinin buyuruğu ilə mən Potideydə, Amfipolda, Deliydə, yurd uğrunda savaşlarda ölümün gözünə dik baxıb, döyüşlərdən qaçmamışamsa, indi tanrının buyuruğu ilə apardığım fəlsəfə çalışmalarından da, nə ölüm qorxusu, nə də ayrı

bir nədənlə geri çəkilən deyiləm, mən bundan qorxub qaçsaydım, bax onda məni məhkəməyə çəkib, tanrıları tanımamaqda suçlaya bilərdiniz, belədə mən ölüm qorxusundan, orakulun dediklərinə qulaq asmaqdan boyun qaçırmış olardım, özümü yalandan sizlərə bilgə olaraq göstərmək istərdim, bir də düzünə qalsa, ölümün nə olduğunu bilmədən ondan qorxmaq da elə yalançı bilgəlikdir, belədə özünü, bilmədiyini bilən təki aparırsan. Bir kimsə ölümün nə olduğunu bilmir, onun insan üçün yaxşılıqmı, yamanlıqmı gətirəcəyini də bilən yoxdur, ancaq hamı ondan qorxur, sanasan onun insana yamanlıq gətirəcəyini artıq bilirlər. Bilmədiyin nəyisə bildiyini düşünməkdən də böyük qanmazlıq ola bilərmi? Mənə gəlincə, çoxlarından ancaq bununla seçilirəm: mənim bilgələyim ondan bilinir, Aidi* gedib görməyənəcən, onun necə bir yer olduğunu bilmədiyimi düşünürəm. Yasanı pozub, məndən üstün olanı eşitməmək, bu istər tanrı, istərsə insan olsun,- bax bunun yaramazlıq, utanmazlıq olduğunu mən yaxşı bilirəm. Ona görə də, bəri başdan yamanlıqdan çox yaxşılıq gətirə biləcəyini düşündüyüm nələrdənsə qorxub çəkinməyi anlağıma belə sığışdırmıram. Anit deyir, mən gərək bura gəlməyəydim, gəlmişəmsə gərək mənə ölüm kəsilsin, yoxsa məni sağ buraxsanız, sizlərin bütün oğullarınızın hamısını düz yoldan azdıracağam, indi birdən bu yaramazın dediklərinə inanmayıb məni buraxsanız, üstəlik də desəniz: Sokrat, biz bu dönə Anitin dediklərinə baxmayıb, səni buraxırıq, ancaq sən gərək bu araşdırmalarından, fəlsəfə öyrətməyindən əl çəkəsən, bu işlərə görə bir də ilişsən sənə ölüm kəsəcəyik,- onda mən də sizlərə bunları deyərdim: “Mən sizlərə tanrıdan yaxşılıqlar diləsəm də, sayğı bəsləsəm də, sizlərin yox, tanrının sözünü tutacağam, ona görə də, yaşadıqca filosofluğumdan da əl çəkməyəcəyəm, qarşıma çıxanları dilə tutub, inandırıb, yenə də dedikcə deyəcəyəm: ay gücü ilə, bilgəliyi ilə ad çıxarmış, Afinanın sayğılı kişisi, sən nədən belə utanıb-qızarmadan, axça qazanmaq üçün gecə-gündüz əlləşib vuruşursan, ancaq ad-san qazanmağının, anlaqlı olmağının, düzgünlüyünün, öpözünün(ruhunun), qayğısına qalmırsan, onları artırmağa çalışmırsan?” Birdən sizlərdən biri durub desə, o belələrindən deyil, onda mən onun yaxasından yapışıb, oçağacan sorğuya tutacağam, sınağa çəkəcəyəm, danacağam, öyrənib bilim, o doğrudanmı dediyi təkidir, yoxsa, yox; görsəm o özündə olmayan üstünlükləri yalandan öz adına çıxmaq istəyir, onu qınayıb deyəcəyəm, nəyə görə o, yaxşını yamandan ayırd eləməyi öyrənməyib, yamanlığı

yaxşılıqdan artıq dəyərləndirir. Qarşıma çıxan kim olur olsun: qoca, gənc, yadelli, mən bunu onlara deməkdən çəkinməyəcəyəm, ancaq ən başlıcası sizlərdən yapışıb əl çəkməyəcəyəm, axı sizlər mənim qandaşlarımsınız. İnanın, mən bununla ancaq tanrıların buyuruqlarını yerinə yetirməkdəyəm, onu da biləsiniz, bizim şəhərdə mənim tanrılara göstərdiyim bu qulluqdan da gərəkli, önəmli bir iş görən yoxdur, ola da bilməz. Mən bütün günü sizlərin qocanızı, gəncinizi yaxalayıb hey deyirəm, gücünüzü öncə öz bədəninizi, axçanızı yaxşılaşdırmağa yönəltməyin, birinci öpözünüzün yaxşılığına çalışın: axça qazanmaqdan ərənlik törəmir, ancaq istər tək-tək adamlar olsun, istərsə də toplum,–ərənlik qazananların axçası da, başqa gərəkli nəsnələri də olur. Mən gəncləri yoldan azdırmışamsa, onlara ancaq bu sözləri demişəm, bu sözlər isə kimisə yaramazlığa öyrətmək üçün deyilə bilməz. Kimsə mənim bunlardan başqa bir söz danışdığımı deyirsə, demək onun başı yaxşı işləmir. Ona görə də, afinalılar, budur sizə deyirəm: bilmirəm, sizlər bu Anitə qulaq asacaqsınız, yoxsa məni sağ buraxacaqsınız— mən indiyəcən nə eləyirdimsə, onu da eləyəcəyəm, buna görə məni dönə-dönə öldürsəniz belə.

Bu nə hay-küydür salmısınız, ay afinalılar, mən öncədən sizlərə dedim, qoyun sözümü sonacan danışım; elə bilirəm, qulaq asmağınızın sizə yararı da olmamış deyil. Mən indi başqa sözlər də deyəcəyəm, sizlər yenə də buna görə qışqırmaq istəyəcəksiniz, ancaq gəlin belə eləməyin. Arxayın ola bilərsiniz, sizlər məni belə olduğuma görə öldürsəniz, özünüzə məndən çox yamanlıq edəcəksiniz. Bu Meletin, Anitin mənə yamanlıq eləməyə gücləri çatmaz, mənim ürəkdən inandığım belə bir gerçəklik var: pislər yaxşılara yamanlıq eləyə bilməzlər. Ola bilsin onlar, yaxşını öldürə, yurdundan qova, incidə bilərlər. Ola bilsin pislər, bununla böyük yamanlıqlar eləyə bildiklərini düşünürlər, ancaq mən belə saymıram; bax onların indi eləmək istədikləri, sizlərin əli ilə məhkəmə qurmaları, insanı suçu olmadan ölümə sürükləmələri, buna yamanlıq demək olar. Ona görə də, ay afinalılar, elə düşünməyin mən burada ancaq özümü doğrultmaq üçün danışıram, mənim çalışdığım sizlər üçündür, dediyim odur, mənə ölüm kəsib, tanrıların sizlərə verdiyi girəvəni əldən buraxmayasanız. Doğrudan da, sizlər məni öldürsəniz, mənim təki birisini tapmağınız qolay olmayacaq, gülməli çıxsa da deyim, mənim sizin şəhərdəki işimi mozalanın(atmilçəyinin) elədiyinə də oxşatmaq olar: bu

yekə, yaxşı soylu, iş-güc bacaran, ancaq yeyib-yatıb ərincəkləmiş varlığın, onu sancan, incidib yerindən tərpədən bir nəsnəyə gərəyi vardır. Özlüyündə, mənə elə gəlir, tanrılar məni şəhərimizə belə bir iş üçün göndəriblər, mən gərək bütün günü gəzib dolanam, hara gərəksə, ora da qonub, sizləri oyadam, dilə tutam, qınayam, sancam. Bu işi mənim kimi görə biləcək başqasını tapmaq qolay deyil, a kişilər, dediklərimə inanırsınızsa məni, bu işimi görə bilmək üçün sağ buraxa bilərsiniz. Çox ola bilər, yuxudan diksinib kal duranlar sayağı, yarıxulu olduğunuzdan, anlamazlıqdan, məni vurub öldürə də bilərsiniz, yəni bu Anitin dediyini eləyərsiniz, onda sonradan tanrılar sizin gününüzə acıyıb bir başqasını göndərənə kimi, bütün qalan ömrünüzü də yuxuda keçirəcəksiniz. Məni isə elə bil tanrılar sizlərə bir ərməğan olaraq veriblər, bunu nədən belə dediyimə gəlin özünüz də baxın: sizlər öz aranızdan elə birisini tapa bilərsinizmi, mənim təki, bütün dolanışığını bir qırağa atıb, illər uzunu ev-eşiyinin diriliyinin dağılmasına dözür, ancaq sizlərin işlərinizə qayğı göstərməkdən bir an olsa belə yaxasını qırağa çəkmir, sizlərə bir-bir–atalıq, böyük qardaşlıq qayğısı ilə yanaşıb, yaxşıların sırasına qoşulmağa çağırır, buna inandırmağa çalışır. Bu gördüyüm işlərdən mənim hansısa qazancım olsaydı, verdiyim öyüdlərə görə axça alsaydım, onda məni nədəsə sorunlu saya bilərdiniz, ancaq özünüz də görürüsünüz, qızıl-qırmızı üzümə keçib, məni olmazın işlərdə suçlayan bu arsızlar belə, mənim öyrətdiklərimə görə kimdənsə axça götürdüyümü, nəsə istədiyimi, burada dilə gətirə bilmədilər; mənim isə bu dediklərimə sizləri inandıra biəcək bircə tanığım var—bu mənim gördüyünüz, göz önündə olan, yoxsulluğumdur! Ola bilsin də, sizlərə çöçün görünə bilər, mən nədən bu öyüdlərimi tək-tək adamlara, başıma toplaşanlara deyirəm, ancaq Xalq yığıncaqlarına qatılıb, bütün şəhər adamlarının hamısına birdən, bunları çatdırmıram. Bunu nədən belə elədiyimi mən sizlərə dönə-dönə anlatmışam, düzünü bilmək istəsəniz, məni bütün bu işlərə yönəldən tanrılardan gələn bir səsdir; axı bu Melet də elə mənim bu durumumu öz suçlamasında ələ salmaq istəmişdir. Bu məndə uşaqlıq çağlarımdan başlamışdı: birdən durduğum yerdə, hansısa səs eşidirəm, bu səs məni görmək istədiyim hansısa işdən çəkindirir, ancaq deyim, bu səsin məni hansısa bir işə yönəltməsi də olmur. Bax elə bu səs də, məni dövlət işlərinə qoşulmağa qoymur. Sizləri inandırıram, afinalılar, mən dövlət işlərinə baş qoşsaydım, çoxdan başımı yemişdilər, onda mənim, nə özümə, nə də sizlərə bir yararım

dəyərdi. Gəlin məndən inciməyin, mən sizlərə sözün düzünü deyəcəyəm: dövlətin işlərində baş verən əyrilikləri, yasa pozuntuluqlarını açıq-aydın deyib, bununla da sizlərə, başqa hansısa çoxluğa qarşı çıxmaq istəyən birisi, toplumda uzun sürə sağ qala bilməz. Yox, kimsə düzgünlük uğrunda çarpışırsa, bununla belə, qısa bir sürədə sağ qala bilirsə, o da gərək öz işini təkbaşına görməyə çalışsın, dövlət işlərinə qatılmasın. Dediklərimin doğruluğunu göstərmək üçün sizlərə düşündüklərimi yox, çoxunuzun artıq eşitdiyi bir olayı—yəni öz başıma gələnləri danışmaq istəyirəm. Gəlin qulaq asın, onda görəcəksiniz, başıma nələr gəlmiş, mən ölüm qorxusu altında belə, dövlətin görmək istədiyi əyri işlərə qol qoymamışam. Mənim indi danışmaq istədiyim olay, sizlərə üzücü, darıxdırıcı da görünə bilər, ancaq bunlar doğrudan da elə danışdığım kimi olubdur. Afinalılar, mən bizim şəhərdə haçansa bir dövlət qulluğunda işləməmişəm, ancaq yasalara uyğun olaraq, bir ara Gənəşik toplantısında işləməli olmuşam. Gənəşik toplantasının yığıncaqlarına başçılıq eləmək sırası bizim Antioxid uruğuna(tayfasına) çatanda, sizlər onda bir neçə strateqi, onların yaxınları ilə birlikdə məhkəməyə vermək, onlara ölüm kəsmək istəyirdiniz, onları dəniz döyüşündən sonra yaralıları, dənizə tökülmüş döyüşçüləri atıb qaçmaqda suçlayırdınız,- bu isə büsbütün yasanı pozmaq demək idi, sonradan sizlər də bunun belə olduğunu boynunuza aldınız. Oradakı görəvlilərdən təkcə mən bunun yasaları pozmaq olduğunu deyib, sizlərin istəminə qarşı çıxdım, onda Xalq Yığıncağının sözçüləri məni tutuqlamağa çağırdılar, elə sizlər də çığır-bağır salıb, məni damlatmaq istəyirdiniz,- mən onda düşünüb-daşındım, bildiyiniz kimi, sizlərə qoşulub yasaları pozmaqdansa,-damlanmağı, öldürülməyi, üstün tutdum. Bu, şəhəri xalqın özünün yönətdiyi çağlar idi, sonra oliqarxların Otuzlar deyilən yığnağının şəhərimizi yönətməyə başladığı çağlarda, onların görəvliləri mənimlə birgə dörd adamı da yanlarına çağırıb, Salaminə gedib oradan Leontu öldürmək üçün, tutub gətirməyi tapşırdılar. Bilirsiniz, onlar çoxlarına belə tapşırıqlar verib, bacardıqca adamların gözünün odunu almağa çalışırdılar. Mən onda da, sözlə yox, işdə göstərdim, loru dillə desək, ölüm mənim üçün boş bir sözdür, mənim üçün önəmli olanı, yasanı pozmağa yol verməmək, tanrıtanımazlığa qarşı dirənməkdir. Bu hakimiyyət necə güclü, qaniçən olsa belə, məni əyrilik eləməyə sürükləyə bilmədi, biz onların yanından çıxandan sonra, o dörd adam Salaminə yollanıb Leontu tutub gətirdilər, mən isə onların

buyuruğuna qol qoymadan çıxıb evimə getdim. Bu hakimiyyət bir azdan yıxılmasaydı, buna görə məni öldürəcəkdilər. Sizin aranızda bu dediklərimin düzgünlüyünə tanıq olacaq çoxlu adamlar vardır.

Belə olayların baş verdiyi toplumda mənim dövlət qulluğunda işləyib, uzun illər yaşaya biləcəyimə inanardınızmı, özü də mən bu illərdə yaşadığım təki, ərdəmli bir ömür sürüb, düzgünlüyü qorumağa çalışsaydım, bunu ən başlıca işim saysaydım, sizcə məni sağ qoyardılarmı? Bu olası iş deyil, afinalı kişilər! Tək mənim üçün yox, elə başqaları üçün də bu olası deyil. Mənim isə bütün ömrüm boyu ancaq bir üzüm olub, istər qarışmadığım dövlət işləri olsun, istərsə özəl işlərim, mən düzgün olmayan bir dənə də işə qol qoymamışam, başqalarını da buna çağırmışam(indi bu başqalarını, mənim öyrənçilərim adlandırır bu yalançılar). Mən haçansa, kiminsə öyrətməni olmamışam, ancaq istər gənc olsun, istərsə də qoca, mənə qulaq asmaq istəyənləri, gördüyüm işləri izləmək umdusuna düşənləri, öz yanımdan qovmamışam da. Mən bu danışdıqlarım üçün bir kimsədən axça almamışam, yanıma gələnlərin: yoxsulu da, varlısı da, məndən nəsə soruşublarsa, onlara bildiklərimi demişəm, kimsə mənimlə söz deyişməsinə çıxmaq istəyibsə, onlarla da anlaşmışam. İndi bu yanıma gələn adamlar, yaxşımı olublar, pismi olublar, sözün düzü mən bunu bilmirəm, ancaq onu deyə bilərəm, bir kimsə də deyə bilməz, mən ona haçansa, nəsə öyrədəcəyimi boyun olmuşam. İndi kimlərsə durub deyirsə, mən onları nələrisə öyrətmək üçün yanıma çağırmışam, yoxsa onları məni dinləmək üçün dilə tutmuşam, biləsiniz, bunların hamısı ağ yalandır. Onda soruşa bilərsiniz: nədən ötrü, bir çoxları mənim başıma toplaşıb, uzun bir sürədə danışıqlarıma qulaq asmaq istəyirlər? Bunu da mən sizlərə danışmışam; mən bu işin düzünü sizlərə söyləmişəm: bu yalnız ona görədir, onlar mənim, bilgə olmayıb, ancaq özünü belə göstərmək istəyənlərin iç üzünü açıb göstərməyimə baxmağı sevirlər. Görünür, mənim gördüyüm bu işdə adamların ürəyinə yatan nəsə vardır. Bunları eləməyi isə mənə tanrılar aşılayır, öncəgörmə, yuxugörmə təki görüntülərlə mənə anladırlar. Mən çox qolayca, sizləri bu dediklərimin doğruluğuna inandıra bilərəm. Yəni, mən doğrudan da gəncləri yoldan azdırıramsa, onlardan keçmişdə yoldan azdırdıqlarım artıq yaşa dolublar, indi gərək mənim onları gəncliyində düz yoldan sapdırdığımı anlamış olsunlar, gəlib burada mənim üzümə keçsinlər, ancaq gördüyünüz kimi beləsi burada sizlərin

qarşısınıza çıxmadı. Özləri gəlmirsə, onda onların doğmaları: ataları, qardaşları, qandaşları,–yaxın adamlarını yoldan azdırıb korladığım üçün, nədən ortaya çıxıb, mənim üzümə durmurlar? Mən burada onların çoxunu görməkdəyəm: budur Kriton, mənim yaşıdım, özü də bizim dalanda yaşayır, onun atası Kritobul; sonra sifettili Lisaniy, onun atası Esxin; Epigenin atası kefisiyli Antifon; sizlərin yaxşı tanıdığınız qardaşları anıram,—Feozoditin oğlu Nikosstratla onun qardaşı Feodot; Feodot artıq ölüb, demək qardaşı mənə qarşı danışmaq istəsə, onu bundan çəkindirə bilməz; budur, Demedokun oğlu, Feaqın qardaşı Parad; Aristonun oğlu, Platonun qardaşı Adimant ilə Eantador, sonra Apollodor qardaşlarını görürəm. Mən burada olanların çoxunun adlarını sadalaya bilərəm, Melet düz adamdırsa, gərək öz danışığında onları tanıq olaraq göstərəydi; yox, o bunu unutqanlıqdan eləməyibsə, mən buna qarşı çıxmıram, qoy bunu indi eləsin, özü istədiyi kimsəni çağırsın. Siz burada onun dediklərinin tərsini görürsünüz, a kişilər, baxın görün, Meletlə Anitin deməsinə görə mənim "korladığım" bu adamlar, mənə yardım göstərmək üçün necə əldə-ayaqdadırlar. Mənim yoldan çıxardıqlarımın məni qorumaq istəməsi anlaşılandırsa, onda mənə yardımçı olmağa gəlmiş onların doğmalarına nə deyirsiniz, mən onların qandaşlarına yamanlıq eləmişəmsə, onlar nədən mənə yaxşılıq eləmək istəyirlər?—onların bu elədikləri, düzgün olan kimsənin yanında olmaq, ona arxa durmaq istəklərindən doğur, bu isə mənim düz, Meletin isə ağ yalan danışdığını göstərməkdədir. Kişilər, elə bilirəm bu konuda danışmaq yetər! Bax mənim özümü doğrultmaq üçün demək istədiklərimin özəti bunlardır. Ola bilsin, burada sizlərdən kimsə, indi öz keçmişinin ağrı-acılarını anır: haçansa mənimkindən yüngül olan bir işlə bu məhkəməyə düşüb, hakimləri necə dilə tutduğunu, onlara yalvarıb-yaxardığını, göz yaşı axıtdığını, onların ürəyini yumşaltsın deyə, uşaqlarını, doğmalarını, arxadaşlarını, yığıb bura tökdüyünü, gözünün önünə gətirir, ancaq mən qat-qat qorxulası duruma düşsəm də, görürsünüz, bunları eləmirəm. Ola bilər, elə buna görə də, buradakı hakimlərdən kimlərsə, mənə qarşı əyrilik eləyəcəklərindən utanmasınlar, yoxsa tərsinə, onların arasında kimlərsə, bunu saymazyanalıq sanıb, buna görə məndən incisinlər, səsvermədə də bunu ürəklərinə salsınlar. Mən bilmirəm, sizlərin arasında belə düşünənlər var, yoxsa yox, ancaq belə sananlarınız varsa, mən onlara yenə də sözün düzünü deyəcəyəm: ağrınızı alım, mənim də doğmalarım vardır; mən Homerin dediyi

sayaq, palıd ağacından, daşdan-qayadan doğulanlardan deyiləm, insandan törəmişəm; mənim qandaşlarım da var, üç oğlum da var, afinalılar, biri artıq gəncdir, ikisi körpədirlər; ancaq mən onları bura gətirib, sizlərin ürəyini yumşaltmağa çalışmayacağam. Bilirsinizmi mən niyə belə eləyirəm? Bu mənim sizlərdən incik düşməyimdən, sizlərə sayğısızlığımdan deyil. Mənim ölümdən qorxub-qorxmamağımı da gəlin, bir qırağa qoyaq, düzünü bilmək istəsəniz, mən belə bir iş tutmağı, nə öz adıma, nə də sizlərin adına yaraşdırıram, bunun şəhərimizin də adına əskiklik gətirəcəyini düşünürəm, üstəlik belə davranmağım, nə mənim adıma qoşulan bu bilgə ayaması ilə, nə də mənim yaşımla düz gəlir. Necə olsa da, sizin aranızda belə bir söz gəzir: bu Sokrat başqalarına oxşamır; elə sizlərin içindən, bilgəliyi, igidliyi, ərdəmliyi ilə seçilən birisi də, birdən durub belə bir iş tutsaydı, bununla öz adını batırmazdımı? Mən ömrümdə, neçə-neçə adlı-sanlı adamların məhkəmə qarşısında necə acınacaqlı durumlara düşdüyünü görmüşəm, onlar nədənsə ölüm deyilən bu sonluğun çox qorxunc olduğunu düşünürlər; az qala düşünməli olursan, yoxsa bunları öldürməsələr, haçansa ölməyəsi,–ölümsüzmü olasıdırlar?! Mənə elə gəlir, belələri bizim şəhərimizin adını batırırlar, bir yadelli bunları görsə, belə düşünməzmi: baxma bu afinalıların igid adamlar olduğunu deyirlər, nə olsun bunlar dövlət başçısını, başqa qulluq yiyələrini özləri seçirlər, ancaq iş bərkə düşəndə, özlərini qadın kimi qorxaqcasına aparırlar. Bax buna görə də, ay afinanın kişiləri, bunu nəinki bizim kimi anlayışlı kimsələr belə etməməlidir, sizlər özünüz də kiminsə belə etməsinə yol verməməlisiniz, tərsinə, bu sayaq ağlaşma qurub, şəhərimizin adını batıranlarla, özünü toxdaq aparan suçlulardan da, qat-qat artıq qaba davranmalısınız. Ad-sanını qorumaq bir yana qalsın, durub hakimlərdən yalvar-yapışla suçundan keçmələrini diləməyin özü düzgün yol deyil, düzgün olan,–üstünə qoymaq istədikləri suçda sorunlu olmadığını tutarlı sözlərlə danışıb, eşidənləri inandırmaqdır. Düzünə qalsa, bu hakimlər də ona görə seçilməyiblər, kimi istəsələr suçunun üstündən keçsinlər, onlar doğrunu üzə çıxara bilmək üçün seçiliblər; onlar hakim seçiləndə and içib demirlər, kimi istəsələr suçunu bağışlayacaqlar, tərsinə, yasaya uyğun işləyəcəklərinə and içirlər. Ona görə də, nə bizlər sizləri yasanı pozmaq üçün dilə tutmalı, nə də sizlər buna yol verməlisiniz, yoxsa ellikcə hamımız ufutsuz olub gedərik. Ay afinalı kişilər, bir yandan sizlər mənə,–yaxşı olmayanı, düzgün olmayanı, tanrıların

bəyənmədiklərini eləməməyi buyurursunuz, mən də sizlərin buyurduqlarınızı eləyəndə, o biri yandan, bu Melet böyürdən çıxıb, məni ufutsuzluqda suçlayıb, məhkəməyə sürükləyir! Mənim indi sizləri dilə tutub, öz andınızı unutmağa, yasaları pozmağa çağırmağım, elə sizləri, tanrıları danmağa çağırmağım demək olardı, bununla da özümü doğrultmaq yerinə, özümün tanrıtanımazın birisi olduğumu göstərmiş olardım. Özlüyündə isə iş büsbütün başqa sayaqdır; mənim doğruçu tanrıqanlığımı, bu məni suçlayan yaramazların taxma "tanrıqanlıqlarına" tay tutmaq olmaz, ona görə də, ay afinalılar, sizlərdən, tanrıları unutmadan, mənim üstümə atılan bu suçları elə araşdırmağınızı istərdim, burada, sizlər üçün də, mənim üçün də ən yaxşı olan üzə çıxsın.

2.Məhkəmə Onu Suçlu Çıxarandan Sonra Sokratın Çıxışı.

Elə indicə baş verən bu olaydan darılmamağa çoxlu tutarqalarım var mənim, ay afinanın kişiləri, sizlər məni suçlu saydınız, düzü bu mənim üçün çox da elə gözlənilməz olmadı. Mənə çöçün gələn, burada səslərin bu sayaq bölünməsi oldu*. Mənə elə gəlirdi, bundan qat-qat artıq çox səslə məni suçlu çıxaracaqsınız, ancaq belə azacıq səs üstünlüyü ilə suçlanacağımı gözləmirdim. Vur-tut otuzbir daşı, bu yandan götürüb o yana qoya bilsək, mən suçlu sayılmaram. Demək artıq bu Meletin üzünü görməkdən yaxamı qurtara bildim; bundan başqa görünən bir də bu oldu: birdən bu Anitlə, Likon bunun sözünü tutub bura gəlməsəydilər, Melet səs çoxluğu qazana bilmədiyindən min drahm* görkoldu ödəməli olacaqdı.

Məni suçlu bildiyiniz bu işə görə, Melet bu anda yasanın ona verdiyi girəvəyə arxalanıb, sizləri mənə ölüm kəsməyə çağırır. Çox yaxşı. İndi də yasaya görə mən deməliyəm, suçumun altını necə çəkməyi istəyirəm. Altını çəkməyimlə, adıma yazılan suç biri-birinə uyğun olmalı deyilmi? Ancaq bu uyğunluğu necə tapaq? Mənim özəl işlərimi bir qırağa tullayıb, özümə dinclik vermədən, böyük bir çoxluğun, az qala hamının getdiyi yaşam yolunu tutmamağımın: axça qazanmağa girişməməyimin, özümə yaxşı ev-eşik qurmamağımın, strateq olmağa çalışmamağımın, xalqa başçılıq eləmək istəyindən daşınmağımın; öz qazancımı güdmək üçün dövlət qulluğuna soxulmaqdan, pusqulardan(qəsdlərdən), devirimlərdən(qiyamlardan), bizim şəhərdə az qala bir

öyrəncəyə dönmüş bu sayaq davranışlardan uzaq gəzməyimin, bütün bunları öz ərdəmliyimə yaraşdırmamağımın; özümün də, sizlərin də işinə korluq verə biləcək bir yol tutmaq istəməyib, arayıb-axtarıb işinizə yaxşı yarayacaq bir yol tutmağımın,-sizlərin yaxasından yapışıb, öz dolanışığınızdan öncə öpözünüzü düşünməyinizi, özünüzün indinizdən artıq anlaqlı, üstün kimsələr olmağı sizlərə aşılamağımın, şəhərimizin insanlıq ad-sanını ucaltmağın, onu yenidən tikib qurmaqdan üstün olduğunu anlatmağımın, habelə bu sayaq çoxlu "suçlarımın" altını necə çəkməyimi düzgün sayırsınız?—yoxsa, yasaya görə, suçumun üstündən keçəsiniz deyə mən indi sizlərə neçə buçuqsa axça boyun olmalıyam? Ay afinanın kişiləri, nə olar, elə bir yaxşı yol tapın, bu mənim elədiklərimin ödənci olsun, bu gün sizlər də mənə yaraşan bir yaxşılıq eləyə biləsiniz. Sizlərin insan olaraq yetkinləşməyiniz üçün əməklər çəkmiş, yoxsul, yardımlara gərək duyan, mənim kimi birisinə, nə yaraşır, sizcə? Mənə elə gəlir, beləsinə ən çox uyğun gələni, dövlətin öz axçası ilə verdiyi günorta yeməyi alması olardı, bu günorta yeməyinə qatılanlardan: Olimpiya yarışlarında at sürməkdə, nə bilim başqa gimnastika yarışlarında üstünlük qazananlardan, onun nəyi əskikdir?—bu adam sizlərin ağgünlüyünüz üçün öz əməyini qızırqanmırsa, indi də sizlər onun yararı üçün bir iş görsəniz pismi olar? Siz məndən suçlarımın altını necə çəkmək istədiyimi soruşursunuz, mən də deyirəm, özümə bu axçasız verilən günorta yeməyinə qatılmağı kəsirəm. Sizlərə elə gəlməsin, mən bayaq burada tökülən göz yaşlarından, yalvar-yapışlardan, dizin-dizin sürünməklərdən danışdığımdan, indi də özümü dartmaq istəyirəm; yox, ay afinalılar, belə deyil, iş burasındadır: burada az bir sürədə, sizləri bir kimsəni bilərəkdən incitmədiyimə inandıra bilməsəm də, ancaq özüm buna ürəkdən inanıram, mən kimsəni bilərəkdən incitməmişəm; başqa şəhərlərdə olduğu sayaq, ölüm kəsilməsini bir gün yox, bir neçə gün çəkən məhkəmədə versəydiniz, sizləri də inandıra biləcəyimə arxayınam; indi mən neyləyim, kiçik bir sürədə, belə böyük yalanların üstünü açıb, doğrunu ortaya qoymaq baş tutmayan bir işə çevrilir. Ona görə də, mən öyrəncəm üzrə, indiyə kimi bilərəkdən bir kimsəni incitməmişəmsə, onda özümü də incitməyəcəm, o üzdən də, nə eləmədiyim hansısa bir suçu boynuma götürəcək, nə də özümün hansısa olmayan bir suçumun altını çəkməli olduğumu dilə gətirəcəyəm. Mən bunu nə üçün eləməliyəm? Meletin məhkəməni mənə ölüm kəsməyə çağırdığından qorxduğuma görəmi, yoxsa,

yaxşımı, pismi olduğunu bir kimsənin bilmədiyi bu ölümdən üşəndiyimə görəmi? Bunları bilə-bilə, mənim necə əlim gələr, özümə yaxşı olmayan nələrisə yaraşdırım? Ömürlük dustaqlığımı? İki-üç gündən bir dəyişilən bu yaramazların hakimiyyətinin qulu olaraq qazamatda yaşamağı mən özümə sığışdırmaram! Ora salınıb, görkolma axçasını ödəyənə kimi qalmaq, bu da mənlik deyil! Bu elə mənim üçün ömürlük dustaqlıq deməkdir, bilirsiniz, mənim görkoldu üçün verməyə axçam yoxdur, olmayacaq da.

Yoxsa mən özümün Afinadan qovulmağımı sizlərdən diləməliyəm? Ola bilsin, elə sizlər də indi bunu dilə gətirməyimi çox istərdiniz. Ancaq mən onda gərək necə bir qorxaq olaydım, ölüm qarşısında ürəyimin üzülməyindən başımı itirib, bunusa da anlaya bilməyəydim: sizlər, öz doğma yurddaşlarım, mənim aranızda yaşamağıma dözə bilmədiniz, mənim sözlərim sizlərə oracan ağır, yolverilməz göründü, indi durub baş sınırıb, məndən yaxanızı qurtarmağa yollar axtarmaqdasınız; getdiyim başqa bir şəhərdə də mənə belə yanaşmayacaqlarmı? Belə bir iş olmayacaq, ay afinalılar. Mənim saçımın-saqqalımın ağardığı bu çağımda, şəhər-şəhər gəzib bir qaçqın ömrü yaşamağıma dəyərmi? Mən bunu əlimin içi kimi bilirəm, hara getdimsə, gənclər mənim başıma toplaşıb, burada olduğu kimi mənə qulaq asmaq istəyəcəklər; mən onları başımdan dağıtmaq istəsəm, onlar böyüklərini dilə tutub məni şəhərdən qovduracaqlar, mən onları qovmasam, onların böyükləri, onlarla danışdığıma görə məni qovacaqlar. Bu yerdə birilərriniz durub soruşa bilər: “Sokrat, bizim yanımızdan qovulandan sonra, sən dilini dinc saxlayıb, səssiz-küysüz yaşaya bilməzsənmi?” Bax elə mənə, bunu sizlərə anlatmaqdan da ağır gələn bir iş yoxdur. İndi mən durub desəm, bu mənim tanrıların sözünə qulaq asmamağım olardı, tanrılara qulaq asmadan isə dinc yaşamaq olmaz, onda sizlər mənə inanmayacaqsınız, mənim sözü gülməyə saldığımı düşünəcəksiniz; yox qayıdıb desəm, gündə-gündə ərdəmlikdən söz açmaq, habelə bu kimi insanlıq dəyərlərindən danışmaq, bir sözlə sizlərin arasında elədiyim təki, özümə də, başqalarına da dinclik vermədən, hamını yaxşılığa çağırmadan, bu sayaq araşdırmalar aparmadan, mənim üçün yaşamağın dəyəri yoxdur, onda mənə lap az inanacaqsınız. Ancaq sözün düzü elə budur da var, ay kişilər, ancaq neyləyəsən, sizləri buna inandırmaq da qolay bir iş deyildir. Bundan başqa da, mən özümə yaraşdırmadığım nəyisə boynuma götürməyə

də öyrəşməmişəm. Axçam olsaydı, suçlanmaqdan qurtulmaq üçün ayırardım, bundan ötrü ürəyimi sıxmazdım da, ancaq neyləyəsən, o da yoxumdur, gücüm şatan axçanı verməyə sözünüz yoxsa, onu verə bilərəm. Mən sizlərə bir min gümüş ödəyə bilərəm, istəyirsinizsə bunu sizə verə bilərəm. Baxın, ay afinanın kişiləri,- Platon, Kriton, Kritobul, Apollodor- mənə deyirlər, otuz min ödəməyi boynuma götürüm, onlar mənə sayışçı(zamin) durmağı da boyun olurlar; mənim sayışçılarıma güvənirsinizsə, otuz min ödəməyə də tablaşaram.

3. Məhkəmə ona ölüm kəsəndən sonra Sokratın çıxışı

Bir azca gözləməyə tablaşmadınız, ay afinalı kişilər, insanlar arasında adınızın yamanlığa çəkilməsinə qol qoydunuz, şəhərimizi ələ salmaq istəyənlərə: siz ünlü bilgə Sokratı öldürən adamlar deyilmisiniz?—deməyə tutarqa vermiş oldunuz. Sizlərə ilişmək istəyənlər, mən bilgə olmasam da, belə deyib, sizləri qınayacaq, aşağılayacaqlar. Ancaq sizlər bir az tablasaydınız, mən elə özüm ölüb gedəcəkdim; mənim yaşıma baxın, onsuz da ölməyimə elə də çox qalmamışdı. Mən bunu sizlərin hamısına yox, ölümümə səs verənlərə deyirəm. Bu adamlara bir sözüm də var: ay kişilər, ola bilsin sizlər düşünürsünüz, mənə ölüm kəsilməsinin nədəni o oldu, mən özümü doğrultmaq, sizlərin ürəyini yumşaltmaq üçün yetərli olacaq sözləri burada tapıb deyə bilmədim. Belə olmadığını biləsiniz. Yetərli olmayan mənim sözlərim deyil, yetərli olmayan məndə sırtıqlığın, utanmazlığın olmamasıdır, bir də məndə, özümü sizlərə bəyəndirmək umdusunun olmamasıdır, sizlər çox istərdiniz, məni öz qarşınızda hönkürüb ağlayan, yalvarıb yaxaran, bir sözlə alçalmış bir durumda görəsiniz, başqalarını belə görüb, buna alışmısınız. Mən isə belə qorxulası durumlarla üzləşəndə, özümü qul sayağı alçaqlığa salmaq istəmədim, özümü doğrultmaq üçün burada elədiyim çıxışlarımdan da oxsınmıram, özümü sizlər istəyən sayaq doğrultmaqdansa, ölməyi üstün tuturam. Məhkəmədə də, döyüşdə də, ölümdən qorunmaq gərəkir. Deyək, döyüşdə yarağını atıb

qaçmaqla, səni öldürmək istəyənə yalvarmaqla da, ölümdən qurtulmaq olar; ancaq bir çox durumlarda ölümdən qorunmağın başqa yolları da var, bunun üçün qorxub çəkinmədən sözün düzünü deyirsən. Ölümdən qaçmaq ağır deyil, ay kişilər, bundan qat-qat ağırı üzüqaralıqdan qaçmaqdır, o isə, ölümdən də artıq bir yeyinliklə adamın üstünə gəlir. Ona görə də indi məni,–qoca, üzü ölümə sarı gedən birisini,–qarşıdan gələn ölüm yavaş-yavaş özünü yetirib, yaxalayırsa da, ancaq məni suçlayan bu güclü, başıboş adamları onların üstünə yeriyən, bundan da qat-qat yeyin gələn üzüqaralıq yaxalayacaqdır. Mən onların istəmiylə, ölümə qovuşmağa gedirəm, onlar isə düzgünlüyün istəmi ilə, əyriliklərinə, yamanlıqlarına qovuşacaqlar; artıq nə mənim, nə də onların uğrağını(taleyini) dəyişmək olası deyil. Görünür, bu olasıların başa gəlməsi də düzgünlüyün ortaya çıxması üçündür.

İndi isə, ay məni suçlayanlar, bundan sonra başınıza nələr gələcəyini sizlərə söyləmək istəyirəm. Mən indi elə anlarımı yaşayıram, deyilənə görə ölümdən öncə yaşanan bu anlarda, insanların gələcəyi görmə duyğusu qat-qat güclənir. İndi ay kişilər, mən sizlərə dərin bir inamla deyirəm, məni öldürəndən sonra, çox keçmədən, sizlərdən bunun öcü alınacaq, özü də bu öc sizlər üçün, mənim ölümdən duyacağım acılardan qat-qat ağır olacaq. Məni öldürməklə, sizləri ömrünüzü istədiyiniz kimi boş-boşuna yaşamaqdan çəkindirən birini aradan götürmək istədiniz, ancaq bu istəyiniz doğrulmayacaq: bundan belə, sizin bu ölüvay dincliyinizi pozacaq çoxlu adamlar üzə çıxacaq, onları mən indiyə kimi toxdaq saxlamışdım, onlar biri-birindən gənc, biri-birindən artıq dözümsüz olacaqlar, sizin yaşamınızı ağuya döndərəcəklər. Elə düşünürsünüzsə, sizin düzgün yaşamadığınızı açıb ağardan, üzünüzə vuran adamları öldürməklə, sizi gözləyən qorxulu gələcəkdən yayına bilərsiniz, bərk yanılırsınız. Bu sayaq özünü qorumaq olası da deyil, yaxşı da deyil, ən qolayı, ən yaxşısı o olardı, sizlər düz danışanların ağızlarını yummaqdansa, qapıldığınız bu yamanlıqlardan əl çəkəydiniz. Mənə ölüm kəsən sizləri nələrin gözlədiyini deyib, çıxıb gedirəm. Ancaq indilikdə şəhərimizin ağalarının başlarının iş-gücdən ayılıb, məni öldürüləcəyim yerə göndərməsindən öncə, mənim ölümümə səs verməyən hakimlərlə qalıb, bir azca, burada baş verənlərdən danışmaq istərdim. Mənim ölümümü istəməyən kişilər, başıma yığışın! İndi artıq bizə danışmağı kimsə yasaq eləyə bilməz. Mən siz arxadaşlarıma, indi

burada nə baş verdiyini anlatmaq istəyirəm. Ay hakim kişilər,-məncə, sizlərə burada tutduğunuz doğru yola görə hakim demək olar- burada keçirilən məhkəmədən öncə də, onun bütün gedişi boyu da, mənim başıma gələn çox anlaşılmaz olaylardan sizə danışmaq istəyirəm. İndicə burada da dediyim kimi, bütün ömrüm boyunca, ara vermədən tanrıdan gələn bir səs, məni görmək istədiyim gərəksiz, düzgün olmayan işlərdən çəkindirmişdir; ancaq indi burada mənim başıma özümün də gözləmədiyim bir iş gəldi, bilmirəm buna pislikmi deyim, yoxsa yaxşılıqmı, mən biləsi, belə işlərə adamlar yaxşılıq da demirlər; ancaq bu tanrıdan gələn səs, ertədən evdən çıxanda da, bu məhkəmənin qapısından içəri girəndə də, buradakı bütün çıxışlarım boyu da, bir yol da olsun, məni bunlardan çəkindirmədi. Axı qabaqlar, gərəksiz bir söz demək istəyəndə, sözümü ağzımda qoyub, məni saxlayan bu səs, indi məni nə elədiklərimdən, nə də danışdıqlarımdan çəkindirmək istədi. Bunu necə anlamalı? Qulaq asın, deyim: belə çıxır, bu məhkəmədə baş verənlər mənim yaxşılığım üçünmüş, deməli buçağacan, bizim ölümün insana qarşı baş verən bir yamanlıq olduğunu düşünməyimiz də yanlış imiş. Mən indi buna ürəkdən inanıram, bütün ömrüm boyu, haçansa yaxşılıqla qurtarmayacaq bir yolu tutmaq istəyəndə, tanrıdan gələn səs məni o andaca saxlayıb, bunu eləməyə qoymayıbsa, demək indi, bu baş verənlərin bundan ayrı bir yozumu ola da bilməz.

Gəlin bunu araşdırmağa çalışaq, ölümdə hansısa yaxşılığın olmasına umunc yeri varmı? Düzgün yanaşmağa çalışsaq, onda ölüm bu iki nəsnədən biri olmalıdır: birincidə bu, ola bilsin, öz diriliyindən bir yolluq ayrılmaqdır, belədirsə, onda ölümdən sonra nə baş verirsə biz onları duyası deyilik, ikincisi də, ola bilsin bu, öpözün(ruhun) yerdəyişməsi, onun buradan başqa bir yerə köçməsidir, adamların çoxluğunun danışdığına inansaq, bu elə belədir də var. Ölümdən sonra insan artıq nəsə duymursa, bu lap yuxu görmədən, yatmağa bənzəyir, oysa bu çox gözəl bir uğracaqdır. Mən bu konu üzrə belə düşünürəm, birdən birisi yuxu görmədən yatdığı bir gecəni götürüb, onu ömrünün bütün qalan gecələri, gündüzləri ilə tutuşdursa, bu günlərinin o yuxu görmədən yatdığı gecədən nə ilə üstün olduğunu düşünüb-daşınsa,- hansısa sıradan bir adammı, böyük bir xaqanmı olsa belə,- bunların arasında böyük bir ayırd olunası nəsnə tapa bilməzdi. Ölüm bu deməksə, o doğrudan da bir gözəl tapıntıdır, bütün ömrümüz— yaşadığımız gündüzlərlə, yatdığımız gecələrin sıralanmalarının toplusudursa, yuxu

görmədən yatdığımız o gecələr də ömrümüzün bir parçası sayılırsa, ömrümüzün qalan parçalarının ondan bir üstünlüyü yox imişsə, ölüm də elə ancaq yuxu görmədən yatdığımız gecələrimizə oxşayır. Başqa yandan, ölüm öpözümüzün buradan başqa yerə köçməsidirsə, deyilənlər düzdürsə, yəni bütün ölənlər oradadırsa, onda bundan yaxşı nə ola bilər, ay hakim kişilər? Doğrudan da, bu doğru yoldan azmış,–üzdəniraq hakim deyilən kimsələrdən yaxa qurtarıb, Aidə* gedib çıxsan, orada ən yaxşı hakimlərlə– Minosla, Radamantla, Eakla, Triptolemlə qarşılaşacaqsan; elədirsə, yaşamlarında düzgünlükləri ilə ad çıxarmış bütün yarımtanrıların olduğu bir yerə köç etməkdən də gözəl bir iş olarmı? Sizlərdən hansı biriniz, Orfeylə, Museylə, Hesiodla, Homerlə görüşə bilmək üçün, nələrindən keçməzdi! Ölüm budursa, onda mən bir yol yox, dönə-dönə ölmək istərdim; başqasını bilmirəm, mənə qalsa, orada yanlış qurulmuş məhkəmələrlə öldürülmüş: Palamedlə, Telamonun oğlu Ayaksla görüşüb danışar , öz uğrağımı(taleyimi), onlarınkı ilə tutuşdurub bir toxdaqlıq da tapardım. Bundan başqa da, oralara gedib çatınca, burada olduğu kimi, orada olan adamları da yaxından tanımaq, anlamaq, onlardan hansılarının doğrudan bilgə olduqlarını, hansılarının ancaq belə görünmək istəyib, özlüyündə bilgə olmadıqlarını araşdırmaq da mənim üçün çox gözəl bir iş olacaqdır; ay hakim kişilər, istənilən adam nələrindən keçməzdi, Troyaya o böyüklükdə qoşun çəkməyi bacaran adamı görsün, Odisseyi, Sizifi, bu kimi çoxlu adlı-sanlı kişiləri, qadınları, yaxından tanısın; onlarla danışmaq, bir yerdə yaşamaq, tanrıdan gələn ən böyük bir ərməğan olardı. Bir də mən ona arxayınam, orada belə danışıqlara görə adamları öldürmürlər, axı deyilənə görə oradakı adamların hamısı ölümsüz olurlar.

Ona görə də, ay hakim kişilər, sizlər də ölümdən pislik gözləməyin; deyilənlərə inansaq, yaxşı insanlara nə öz ömründə, nə də ölümündən sonra tanrılar yamanlıq eləmirlər, tərsinə, onlardan öz qayğılarını əsirgəmirlər; baxın, elə mənim uğrağım(taleyim) da özbaşına belə olmadı, görünür indi ölüb, qocalıqdan duymalı olacağım çoxlu sarsıntılardan qurtulmağım, elə ən yaxşı yol sayılmalıdır. Bax elə buna görə də, tanrıdan gələsi səs məni burada elədiklərimdən çəkindirmədi, elə mən özüm də, sözün düzü, mənə ölüm kəsən bu hakimlərdən çox da incimirəm. Onlar mənim yaxşılığımı istəmədən, mənə korluq vermək üçün, ölüm kəsiblər; ancaq özləri də bilmədən mənə yaxşılıq eləyiblər. Mənim onlardan da, sizlərdən də, bir kiçicik diləyim

də var: ay kişilər, birdən görsəniz, mənim oğullarım yaşa dolduqdan sonra, öz ərdəmliklərindən çox, axça qazanmaq üçün əlləşirlər, onlardan bunun öcünü alın, elə mən elədiyim təki, onları danlayıb-dansayıb dinclik verməyin; görsəniz düşkünlüyə qapılaraq, ancaq özlərini düşünürlər, onların sıxıb suyunu çıxarın, mən də elə sizlərin içində üzləşdiyim, özünü tanımaqdan yayınanların, özünün düşkünləklərinə boyaq vurub, üstünlük kimi gözə soxanların, beləcə sıxıb suyunu çaxaradım. Belə olarsa, onda sizlərin düzgün olaraq, mənim oğullarıma suçlarına görə kəsdiklərinizdən, elə mənə də pay düşəcəkdir. Bax indi buradan getməli olduğum an gəlib çatdı, sizlərin yaşamalı, mənim isə ölüb getməli olduğumuz çağlar başlayır, indi başladığımız bu yolla— bizlərdən hansımız yaxşılığa çatmağa doğru gedirik, bunu tanrılardan başqa bir kimsə bilmir.

DUYDURMALAR(şərhlər).

1. “Aristofanın komediyası”—Burada, bizim çağdan qabaq, 444-387-ci illərdə yaşamış yunan komediya yazarı, gerilikçi gələnəklərin qızğın qorucusu kimi tanınmış Aristofanın, “Buludlar” komediyasından söz açılır, Aristofan bu komediyasında Sokratı yanlış olaraq “sofist” kimi göstərmişdir.

2. Min—Əski çağlarda yunanıstanda 280 qramlıq çəkini bildirmişdir, bununla axçanı da ölçmüşlər, bir min axça, 280 qram gümüşün dəyərini bildirmişdir.

3. Delf tanrısı— Delf, Yunanıstanın Fokide bölgəsində şəhər olmuş, burada yunanların ellikcə tapındığı Apollonun Tanrı evi olmuşdur. Delf tanrısı adlandırılan Apollonun Tanrı evinin orakulu(öncəgörəni-fala baxanı), yunanlar arasında çox sayğılı kimsə sayılmış, o çağların insanları çox önəmli işlərini ona gənəşib, Apollonun istəmini öyrənərək başlamışlar.

4. “And olsun körəyə”—Əski çağlarda yunanlarda bütün durumlara görə tanrıların adına and içmək yolverilməz sayıldığından, sözarası, az önəmli işlərdən danışanda, bu sayaq and içmişlər.

5. Tanrıca—Yunan mifolojisində, birincidə tanrıların öz aralarında, ikincidə onların insanlarla sevişməsindən törəyən, tanrılardan bir basamaq(pillə) aşağıda duran, çoxlu ölməz tanrıcalar da olmuşdur.

6. “Fetidanın oğlu”—Burada Troya savaşının başlıca ərənlərindən olmuş Axillesdən söz açılır. Yunan mifolojisinə görə, Axilles ölləri insan—Mirmidon çarı Peleylə, ölməz dəniz tanrıcası Fetidanın sevişməsindən doğulmuşdur. Anası Axillesi də ölməzliyə qovuşdurmaq üçün, onu yeraltı dünyada axan Stiks çayında çimizdirəndə, topuqlarını əlinin içində saxladığından, onlar qutsal suya toxunmamış, Axillesin topuğu onun öldürülə biləcəyi tək yer olaraq qalmışdır, sonradan onu Troya savaşında topuğundan oxla vurub öldürmüşlər.

7. Aid—Yunan mifolojisində, ölənlərin öpözlərinin(ruhlarının) köçüb getdiyi yeraltı dünya, buranın yönətimçisi də Aid adında tanrı sayılmışdır.

8. “Səslərin bu sayaq bolünməsi”—Sokratın məhkəməsində 501 andlı hakim olmuş, onlardan 280-i onun öldürülməsinə, 221-i isə ölümünə qarşı səs vermişdilər.

9. Drahm—Əski çağlar Yunnanıstanında, 4-7 qram arasında olan çəkini bildirmək üçün işlənmişdir, bir drahm axça, bu çəkidə olan gümüşün dəyərində sayılımışdır.

KRİTON

SOKTAT, KRITON

S o k r a t. Niyə belə ertədən gəlmisən, Kriton? Yoxsa artıq gün qalxıb?

K r i t o n. Yox, mən bu gün çox ertə gəlmişəm.

S o k r a t. Günün hansı çağıdır?

K r i t o n. Yenicə işıqlanmağa başlayır.

S o k r a t. Anlamıram, keşikçi səni necə buraxıb?

K r i t o n. O məni yaxşı tanıyır, Sokrat, mən sənin yanına çox gəlib-gedirəm, bir də aradabir ona görüm-baxım da eləyirəm.

S o k r a t. Sən indicə gəlmisən, yoxsa çoxdan buradasan?

K r i t o n. Sözün düzü, çoxdandır buradayam.

S o k r a t. Nədən, məni gələn kimi oyatmamısan, dinməz-söyləməz oturub qalmısan?

K r i t o n. Zevs məni qorusun, Sokrat! Düzü, səni dara düşdüyün belə bir günündə yuxusuz qoymağa ürəyim gəlmədi. Açığını deyim, sənin bu günündə belə dadlı-dadlı yatmağına quruyub qalmışam, oyatmağa qıymadım, yuxudasa bir az qayğılardan uzaq olasan deyə. Açığı, səni tanıdığım gündən ərdəmliyində məni bəbək(məətəl) qoyan çox nəsnələr görmüşəm, ancaq indi bu ən ağır günlərini, beləcə oxsınmadan, toxdaqlıqla qarşılamağına baxıb, lap şaşıb qalmışam.

S o k r a t. Kriton, mənim yaşımda, ölüm çağım gəldi deyə söyüb-söylənmək çox böyük anlamazlıq olardı.

K r i t o n. Sokrat, başqaları da yaşlı çağlarında ölümlə üzləşirlər, ancaq, mən çox görmüşəm, onlar necə ara vermədən söyüb-söylənirlər.

S o k r a t. Bunu düz deyirsən. Yaxşı, di de görək, nədən belə ertə gəlmisən?

K r i t o n. Mən pis bir soraqla gəlmişəm, Sokrat, çox qüssəli, çox da ağır bir soraqla,– düzü sənə baxıram, onun ağırlığını saya salana oxşamırsan,–ancaq mənim üçün, başqa arxadaşların üçün, bu elə bir qara qayğıdır, onu necə çəkəcəyimizi anışdırıb, bir yana çıxara da bilmirik.

S o k r a t. Nə baş verib? Yoxsa, məni öldürmək üçün Delosdan qayıtmağını gözlədikləri gəmi artıq gəlib çıxıb?

K r i t o n. İndilikdə gəlib çıxmayıb, ancaq onu Sunidə gördüklərini deyən adamların sözlərinə inansaq, gəmi bu gün gəlib çatasıdır. Onların deməsinə görə, bu gəlişlə gəmi bu gün, lap uzağı yarın(sabah) burada olacaq, Sokrat, bununla da sənin ömrün sona yetəcək.

S o k r a t. O günə də alqış, Kriton! Qoy tanrılar necə istəyirlərsə, elə də olsun. Ancaq mən belə bilirəm, gəmi bu gün gəlməyəcək.

K r i t o n. Nədən bilirsən?

S o k r a t. İndi deyərəm. Axı məni gəmi gələndən bir gün sonra öldürəcəklər.

K r i t o n. Buyuruq yiyələrinin dediyindən belə çıxır.

S o k r a t. Belədirsə, onda məncə, gəmi bu gün yox, yarın gəlməlidir. Bunu bu gecə gördüyüm bir yuxuya görə deyirəm, yaxşı oldu məni oyatmadın, elə oyanmazdan azca qabaq yuxu görürdüm.

K r i t o n. Nə yuxu görmüsən?

S o k r a t. Yuxuda gördüm, çox gözəl, ucaboylu, başdan ayağa ağ geyinmiş bir qadın yaxınlaşdı, məni çağırıb dedi: “Sokrat, birisigün sən sözsüz, Fessalıiyanın dağlarına gedib çıxacaqsan”.

K r i t o n. Nə yaman anlaşılmaz bir yuxu görmüsən, Sokrat!

S o k r a t. Ancaq deyəsən bu yuxunun yozumu açıq-aydın bəllidir, Kriton.

K r i t o n. Mənə də elə gəlir. Ancaq istəkli arxadaşım Sokrat, indi qulaq as, gör nə deyirəm: mən də, bütün arxadaşların da istəyirik, sözümüzü yerə salmayasan, səni bu dustaqlıqdan qurtarmağımıza qol qoyasan. Sənin ölümün mənim üçün ancaq bir arxadaş itirmək deyil: mənim bir də haçansa sənin təki arxadaş tapa bilməyəcəyim bir yana qalsın, sənin ölümündən sonra bizi yaxından tanıyanların qınağı da məni yandırıb

yaxacaqdır, onlar isə sözsüz,–mənim varlı olmağıma baxmayaraq, axçama qızırqanıb səni ölümdən qurtarmağa çalışmadığımı düşünəcəklər. Axçasını arxadaşından üstün tutan adam təki tanınmaqdan da artıq əskiklik olarmı? Bizim çalışıb-vuruşmağımıza baxmayaraq, sənin özünün buradan qurtulmaq istəmədiyinə, çoxları inanmayacaq.

S o k r a t. Bir məni başa sal görüm, biz nə üçün bu çoxlarının baxışlarından yana darıxmalıyıq, istəkli arxadaşım Kriton? Qanacaqlı adamlar onsuz da nə baş verdiyini düzgün anlayacaqlar.

K r i t o n. Kim də olmasa, sən gərək anlayasan, Sokrat, yeri gələndə çoxluğun da baxışlarını saya salmaq gərəkir. Bu elə sənin bugünündən də, açıq-aydın görünür, çoxluğun gözündən düşən kimsəyə, bu çoxluq kiçik yox, lap böyük yamanlıqlar eləyə bilir.

S o k r a t. Eh Kriton, Kriton, sən bilmirsənmi yəni, çoxluğun əlindən böyük yaxşılıqlar eləmək gəlmədiyi kimi, böyük yamanlıqlar da gəlmir! Bunu bacarsaydılar, mən ancaq sevinərdim! O nə bunu, nə də onu bacarır: çoxluq ona qatılanları öz içində itirib-batıra bilir, ancaq onları nə anlaqlı, nə də anlaqsız eləyə bilmir, bir sözlə çoxluğun özünün yetirdiyi nəsə olmur, o əlinə nə keçdisə, onu da süpürləyib aparır.

K r i t o n. Tutalım bu belədir, Sokrat, onda mənə bunu de görüm: yoxsa qorxursan, birdən səni buradan qaçırsaq, çuğullar bunu yerinə çatdırıb bizə korluq verərlər, bizim axçamız, ev-eşiyimiz əlimizdən çıxar, kim bilir, başımıza başqa nələr gələr? Bundan çəkinirsənsə, burax başını, axı ən düzgün iş o olardı, biz səni qurtarmaq üçün bu qorxulasılardan çəkinməyək, bundan da ağır durumlara dözə bilək. Ona görə də, sən gəl mənim sözümü yerə salma.

S o k r a t. Məni qorxudan tək bu olsaydı, nə vardı, Kriton, bundan başqaları da var.

K r i t o n. Sən gəl, boş yerə qorxub çəkinmə. Açığı, səni buradan qaçırmaq üçün elə çox axça da istəmirlər. Qaldı bu çuğullara, özün yaxşı bilirsən, onlar özlərini necə dəyər-dəyməzinə satırlar, onları da bir az axça verib susdurarıq, qutarıb gedər. Mənim nəyim varsa, özününkü bil, düşünürəm, əlimdə olanlar bu işləri görməyə artıqlaması ilə çatar. Birdən mənim var-yoxumun əlimdən çıxacağını düşünüb, bu işə ürək eləmirsənsə, onda bunu da biləsən, sənin yadelli arxadaşların bu işə çatası axçanı ödəmək üçün ayaqdadırlar; Fivanlı Simmiy isə artıq bu işə yetəsi axçanı gətirib ortaya qoyubdur.

Kebet də, elə bir çox başqaları da, gərəkən axçanı ödəməyi ürəkdən istəyirlər. Yenə də deyirəm, qorxub çəkinmə, səni qurtarmağımıza qarşı dirəşməyi boşla getsin; məhkəmədəki sözündən,- buradan başqa yerə gedib dolana bilməyəcəyini deməyindən də, sıxılıb eləmə: mən yaxşı bilirəm, sən hara getsən səni sevib, sayğı göstərəcəklər. Birdən sən Fessaliyaya getmək istəsən, ən yaxşısı elə bu olardı, orada mənim çox dəyərli arxadaşlarım var, onlar sənə gərəyincə sayqı göstərəcək, səni qoruyacaq, bir kimsənin səni incitməsinə yol verməyəcəklər. Bundan başqa, Sokrat, mənə elə gəlir, qurtulmağa yol olan yerdə yaxanı ələ verməklə, sən düz iş görmürsən. Bununla sən yağılarının dəyirmanına su tökürsən, onlar onsuz da sənə bacardıqları nə yamanlıq varsa eləyiblər, qalıb bircə səni öldürmək ləri, yoxsa bunumu istəyirsən? Bu azmış kimi, sən öz oğlanlarına qarşı da dönüklük eləyirsən, onların başına nələrin gələ biləcəyinə göz yumursan, buradan qurtulsan, onları dolandıra, yaxşı insan olaraq böyüdə bilərsən, yoxsa onlar öksüzlüyün(yetimliyin) bütün ağrı-acılarını dadmalı olacaqlar. Doğrudan da, gərək bu uşaqları necə gəldi, əkib tökməyəsən, bunu eləmisənsə, onları dolandırmalı, boya başa çatdırmalı, düzgün böyütməlisən, sən isə onları bu sayaq atıb getməklə, yolun ən yararsızını, ən yüngülünü seçirsən; sən bütün ömrünü yaxşılıq eləməyə çalışmaqda keçirdiyini deyirsənsə, onda bu işdə də ərdəmli, kişi adamların yolunu tutub, uşaqlarını özgə əllərdə qoymamalısan. Mənə gəlincə, sənə görə də, sənin arxadaşların olan bizlərə görə də, başıaşağı olacağımdan utanıram, səni ölümdən qurtarmasaq, hamı deyəcək, bu işlər bizim qorxaqlığımızdan olub: işinin məhkəməyə düşməyi də, gəlib-gəlməməyin özündən asılı olsa da məhkəməyə varmağın da, elə məhkəmənin gedişində baş verənlər də, bu sonuncu olaylar—səni qurtarmağa yol olsa da bunu etməməyimiz də(sənin bunu istəməməyinə baxmayaraq), bunların hamısını bizim qorxaqlığımıza, yaramazlığımıza yozacaqlar. İndi bax gör, Sokrat, bütün bunlar bizim işlərimizi korlamaqla qalmayacaq, bizim də, sənin də, adımızı batıracaqdır. Bir özün də düşün-daşın; doğrusu, artıq düşünməkdən də keçib, sözdən işə keçmək çağı yetişib, ertəsi günün gecəsi bunu eləməsək, artıq iş-işdən keçəcək. Yalvarıram sənə, Sokrat, mənim sözümü yerə salma, bu yersiz tərsliyini burax getsin.

S o k r a t. Sevimli Kriton, sənin bu istəklərinin yönü düzgün olsaydı, nəyə desən dəyərdi, ancaq indi onlar, mənim işimə yaramaqdan artıq, sanasan, çiynimə ağır bir yük

təki düşməkdədir. Ona görə də, sənin dediklərini eləyib-eləməyi araşdırmağa dəyər. Mən təkcə indi yox, bütün ömrüm boyu, gördüyüm işlərdə gəlişigözəl sözlərə yox, ürəkdən inandığım tutarqalara arxalanıb iş görmüşəm, bunu mən hamısından üstün saymışam. Bundan qabaq ürəkdən inanıb dediyim sözləri, indi mənim başıma bu uğursuzluq gəlib deyə, ancaq elə buna görə, dana bilmərəm; tərsinə, onlara mən qabaqlarda olduğu təki, yenə də ürəkdən inanmaqdayam, indi biz,- məni inandıra biləcək, onlardan yaxşı olanı tapa bilməsək, sənlə anlaşa bilməyəcəyimizdən arxayın ola bilərsən, qoy lap hamı bir yerə yığışıb, kiçik cocuqların ürəyini üzən sayağı, bizi indikindən də qat-qat artıq qorxutmağa çalışsınlar, qandallasınlar, öldürsünlər, var-yatırımızı tutub əlimizdən alsınlar. İndi bu sən dediklərini nə sayaq araşdırmağa başlayaq? Gəlsənə bir az geriyə qayıdıb, insanların baxışlarını araşdırdığımız yerdən başlayaq, biz onda düzgünmü deyirdik, birilərinin baxışlarına qulaq asmağa dəyər, o birilərinkinə yox?—yoxsa bu dediyimiz onda, mən ölümlə üz-üzə dayanmayan çağlarda bizim işimizə yarayırdı, indi durum dəyişən təki biz gördük, sən demə bunları biz eləcə gəlişigözəllik üçün demişik, özlüyündə bu dediklərimiz boş-boş sözlər imiş? Mənə gəlincə, Kriton, mən çox istərdim sənlə birgə araşdırıb görəm, mən indiki uğursuzluğuma düşəndən sonra, bu sözlər mənə başqa sayaq görünür, yoxsa onlar dəyişməz qalıblar, qabaqlarda olduğu kimi görünürlər, biz indi onları danmaqmı, yoxsa öncələrdə olduğu təki, onlara inanmaqmı istəyirik? Məncə, bildiklərini danışan kimsələrin dönə-dönə dediyi bu söz düzgün sayılmalıdır: adamların arasında yer alan baxışların birilərini tutmaq, o birilərini boşlamaq gərəkir. Tanrıların adı üçün, de görək Kriton, bu söz olduqca yerində deyilməyibmi? Axı səni yarın öldürməyəcəklər, nə də elə ağır durumda deyilsən, başını itirəsən; insanların hamısının baxışlarına yox, yalnız ayrı-ayrı insanların baxışlarına sayğı göstərməyi deyənlər, düzmü deyirlər? Yoxsa onlar yanılırlar, bunu deyəndə?

K r i t o n. Məncə onlar düzünü deyirlər.

S o k r a t. Deməli, düzgün baxışları saya saymalı, düzgün olmayanları saymamalıyıq, eləmi?

K r i t o n. Elədir.

S o k r a t. Düzgün baxışlar anlaqlı adamların, düzgün olmayanlar anlaqsızlarındır, deyilmi?

K r i t o n. Başqa sayaq ola da bilməz!

S o k r a t. Onda belə bir konunu necə çözməli: gimnastika üzrə çalışan birisi, onu öyənlərin, danlayanların, hamısınınmı baxışlarını saya salıb, onlara qulaq asır, yoxsa ancaq həkimlə, gimnastika öyrətməninin?

K r i t o n. Ancaq bu sonuncu dediklərinə qulaq asır.

S o k r a t. Deməli, o ancaq bunların danlağından alınmalı, öyünclərindən sevinməlidir, hamının yox, deyilmi?

K r i t o n. Elədir.

S o k r a t. Deməli, o bədənini çalışdırmaqda da, öz yemək-içməyini gözləməkdə də, ancaq birinin dediklərini tutmalı, qalanlarını saya salmamalıdır.

K r i t o n. Düzü elədir.

S o k r a t. Yaxşı. Birdən o bu işin bilicilərinin baxışlarını saymayıb, başqalarının, yəni bu işlərdən başı çıxmayanların sözünü tutdu, onun bundan nəsə bir korluğu ola bilərmi?

K r i t o n. Sözsüz, olar.

S o k r a t. Necə bir korluq? Bu, nədə özünü göstərəcək?

K r i t o n. Bu ilk olaraq onun bədənində özünü göstərəcək, bu yanlış sözlərə uymaqla sağlamlığını itirəcək.

S o k r a t. Sən nə yaxşı danışırsan, Kriton. Gəlsənə, başqa konularda da baş verəsiləri belə ardıcıllıqla sadalamağı sınayasan. Bax indi, düzgünlüklə əyriliyə, suyumsuzluqla gözəlliyə, yaxşılıqla yamanlığa yanaşanda,- indi yanaşdığımız təki, biz çoxluğunmu baxışlarına uymalıyıq, yoxsa, birinin,–sözsüz bu birisi işin kökünü bilirsə; biz çoxluqdanmı qorxmalı, çəkinməliyik, yoxsa bu birisindən? Biz bu birisinin dediyini tutmasaq, öncələr də dediyimiz kimi, düzgünlüyün ortadan çıxmasına, yəni onun yoxluğuna yol açmış oluruq. Yoxsa, belə deyil?

K r i t o n. Sən dediyin kimidir, Sokrat.

S o k r a t. Biz hansısa anlamazların sözlərinə qulaq asanda, sağlamlıqla yaxşılaşanı, ağrınmaqla pisləşəni,—mən bədənimizi deyirəm—korlamış olmuruqmu, onu korlayandan sonra yaşamağın dəyəri qalırmı?

K r i t o n. Qalmır, məncə.

S o k r a t. Deməli, sağlamlığı büsbütün pozulmuş bədənlə yaşamağın dəyəri yoxdur, eləmi?

K r i t o n. Sözsüz, sağlamlığını itirib yaşamaqdan da pisi ola bilməz.

S o k r a t. Onda "nəyinsə" düzgünlükdən yarıdığını, əyrilikdən korlandığını bilə-bilə, "onu" əyriliyə uğratmağa dəyərmi? Yoxsa düzgünlüyün qurduğu, əyriliyin uçurduğu nəsnələrin dəyəri, bədənimizdən azdır?

K r i t o n. Sözsüz, az deyil.

S o k r a t. Desən, qat-qat da dəyərlidir, eləmi?

K r i t o n. Sözsüz.

S o k r a t. Ona görə də, istəkli arxadaşım, bizə: "görəsən çoxluq bizə nə deyər?" kimi düşüncələrə qapılıb sarsılmaq yaraşmaz, çəkinəcəyimiz isə yalnız, düzlüklə əyriliyi dəyərləndirməyi bacaranların deyəcəklərindən olmalıdır,–sözün doğrusu budur. Onda indicə dediyin: çoxluğun baxışlarına güvənib düzgünlüyü, gözəlliyi, yaxşılığı dəyərləndirmək olar—sözün də, eləcə də bunların tərsi olan anlayışlarda çoxluğun baxışlarına uymağın da, sənin birinci yanlışındır. "Ay aman, bu çoxluq,- bunu deyə bilər,- bunu eləyə bilər,- bizi öldürə bilər!"— kimi düşüncələrə qapılmaq isə küyə getməkdir.

K r i t o n. Bu sayaq düşünənlər var, özü də belələri çoxdur, Sokrat.

S o k r a t. İstəkli arxadaşım, səni bilmirəm, ancaq bu sayaq sözlərə mən bu gün də elə dünən yanaşdığım təki yanaşmaqdayam. Gəlsənə bu konuları bir də gözdən keçirək: görək, biz o çağlar dediklərimizin üstündə durmuşuq, yoxsa yox, yəni biz ömrümüzü olduğu kimi, necə gəldi yox, ancaq insana yaraşan kimi yaşamağı, yenədəmi düzgün saymaqdayıq?

K r i t o n. Sözsüz, biz bu yoldan çəkilməmişik.

S o k r a t. Elədirsə, onda öncələrdə anlaşdığımız təki: yaxşılığın, gözəlliyin, düzgünlüyün, hamısının elə bir anlayış demək olduğuna inanmağımız da öz yerindədir, eləmi?

K r i t o n. Elədir.

S o k r a t. Onda gəl, bizim bu ortaq olan, öz aramızda anlaşdığımız anlayışlara arxalanıb, baxaq görək, afinalıların istəmini saya salmayıb, mənim bu dustaqlıqdan getməyim düzgünlükmü, əyrilikmi sayılmalıdır, düzgünlüksə–gəl bunu eləyək, əyrilikdirsə–bundan yan keçək. Qaldı sənin,– mənim qurtuluşuma axça qoymaqdır, çoxluğun bu işə necə baxmağıdır, uşaqlarımı başsız qoymağımdır,—bu sayaq sözlərinə, düzünü desəm, Kriton, sənin bu dediklərin bayaqdan danışdığımız o çoxluğun baxışlarından başqası deyil, öncə kimisə suçu olmadan öldürüb, sonradan başı ayılanda onu diriltmək də istəyən, nə elədiyini, nədən elədiyini ayırd etməyən çoxluq da belə düşünmürmü? İndi biz sənlə gəlib ora çıxmışıq, gərək ancaq bunusa da ayırd eləyək: bizim kiməsə axça verməkləmi, yoxsa öz gücümüzləmi, buradan çıxıb getməyimiz, düzgünlükmü, əyrilikmi sayılmalıdır?—bu iş əyrilikdirsə, onda mənim oturub ölümü gözləməyimi söz eləyib, başımızı ağrıtmayaq, biz öncədən sənlə anlaşdığımıza görə, nə olursa olsun, düzgün olmayan yolu tutmağı özümüzə sığışdırmamalıyıq.

K r i t o n. Mənə elə gəlir, sən danışmağına çox da yaxşı danışırsan, ancaq aydınlaşdır görək, bizlər, sənin arxadaşların indi nə etməliyik?

S o k r a t. Gəl bunu birgə aydınlaşdıraq, istəkli arxadaşım, ancaq mənim dediklərimlə anlaşmasan, sözünü de, dediklərini düz saysam, mən də sən deyən təki eləyim; yox deməyə sözün olmasa, onda bu danışığı çox da uzatma, qulağımı doldurmaqdan əl çək, mənim buradan qaçmağımın gərəkliyini dilə gətirməkdən sakın, sözün düzü, sən mənim üçün yoldan ötən birisi yox, sevimli arxadaşım olduğundan, çox istərdim, bu konuda sənlə anlaşa bilim, ürəyini qırmayım. Görürəm, indiyəcən apardığımız araşdırmalarda mənimlə anlaşdığın sezilir, ancaq bundan belə də ürəyindən keçənləri gizlətmə, sözünü açıq de.

K r i t o n. Söz verirəm, belə də eləyəcəyəm.

S o k r a t. Gəl baxaq, görək, düzgünllük sayılan durumu könüllü olaraq pozmağı, biz yanlış sayırıqmı, yoxsa yerinə görə onu, pozmaq da, pozmamaq da olar? Yoxsa, biz artıq biryolluq bilirik, düzgünlüyü pozmaq, necə baş verirsə-versin, hamısında, yaxşılğa, qanacağa yaraşan iş deyil, unutmamısansa, biz keçmişlərdə bu konudakı danışıqlarımızın çoxunda sənlə anlaşardıq? Olmaya, demək istəyirsən, bizim keçmişdəki bütün anlaşmalarımız bu son günlərdə buxarlanıb göyə çəkilib, biz sənlə

artıq yaşa dolmuş adamlar olsaq da, ancaq bizim anlağımız da, davranışımız da elə uşaqlığımızda olduğu dəymədüşərliyində ilişib qalıb? Yoxsa tərsinə, biz indi də onda danışdıqlarımızın üstündə durmaqdayıq?—buna çoxluğun necə yanaşması da, bundan ağrı-acılar çəkəcəyimiz də bizi qorxutmur, biz düzgünlüyü pozmağı: utanmazlıq, yaramazlıq saymışıq, elə indi də saymaqdayıq; De görək, biz indi də belə düşünürük, yoxsa yox?

K r i t o n. Belə düşünürük.

S o k r a t. Deməli, düzgünlüyü pozmağı doğruldan bir durum ola bilməz?

K r i t o n. Yox, ola bilməz.

S o k r a t. Deməli, çoxluğun baxışlarına uyub, əyriliyə qarşı əyrilik eləməyə yuvarlanmaq da olmaz, nə olur olsun, düzgünlükdən əl çəkmək də olmaz.

K r i t on. Mən də belə düşünürəm.

S o k r a t. Onda mənə bunu de görüm, Kriton, haçansa, necəsə, yamanlıq eləməyə gərək var, yoxsa yox?

K r i t o n. Məncə yamanlığı nə iləsə doğrultmaq olası deyil.

S o k r a t. Çoxlarının düşündüyü kimi, yamanlığa qarşı yamanlıq eləmək düzgündürmü?

K r i t o n. Yox, nə olursa olsun, yamanlıq eləmək düzgün sayıla bilməz.

S o k r a t. Ona görə də biz adamlara yamanlıq eləməyi, elə düzgünlüyü pozmaqla bir tutmalıyıq.

K r i t o n. Düz deyirsən.

S o k r a t. Belə çıxır, əyriliyin qarşısına əyriliklə çıxmamalıyıq, adamlardan hansı yamanlığı görməyimizdən asılı olmayaraq, onlara yamanlıq etməməliyik. Ancaq, Kriton, bunu da unutma, sən bu deyilənlərlə anlaşanda çoxluğun baxışlarını danmış olursan, kim də olmasa mən bilirəm, çox az adamlar bu indi dediyim baxışları bölüşür. Bu da var, biriləri bir, o biriləri başqa sayaq düşünəndə, ellikcə anlaşma baş tutmur, hamı biri-birinə başqa sayaq düşüncə yiyəsi olduğuna görə, yanakı baxmağa başlayır. Eləcə də sən, bu deyilənlərə dərindən yanaş, mənim dediklərimi bölüşürsənmi, mənim doğru saydıqlarım sənin üçün də doğrudurmu, yəni bu gənəşiyimizi ondan başlaya bilərikmi,- düzgünlüyü pozmaq, əyriliyə qarşı əyrilik etmək, uğraşdığımız yamanlığın qarşısına

yamanlıqla çıxmaq, hansı durumda baş verməsinə baxmayaraq, düzgünlük sayıla bilməz? Yoxsa, sən geri çəkilib, bu ilkin anlaşmamazı pozursan? Mənə gəlincə, qabaqlarda bunu necə anlayırdımsa indi də eləcədir, sənin baxışların ayrıdırsa, onda buyur: danış da, öyrət də. Yox, anlaşmamızı pozmursansa, onda ardına qulaq as.

K r i t o n. Mən anlaşmamızın üstündə dururam, sən sözünü danış.

S o k r a t. Beladirsə, onda səndən soruşmaq istəyirəm: düzgün saydığın işi, gecikdirmədən, sonraya saxlamadan, elə o andaca yerinə yetirməyi gərəkli sayırsanmı?

K r i t o n. Sayıram.

S o k r a t. İndi mənə qulaq as: məni dustaqlıqdan qaçırmaqla, biz kiməsə yamanlıq eləyirikmi, eləyiriksə, onda bunu yamanlığı yaraşdırdığımız kimsəyə qarşımı eləyirik? Bir də mənim bu sayaq qurtuluşum düzgünlük sayılmalıdır, yoxsa yox?

K r i t o n. Sənin bu sorğunun qabağında deyəsi sözüm yoxdur, Sokrat, mən bu dediklərini sonacan anlaya bilmirəm.

S o k r a t. Onda gəl belə bir durumu göz önünə gətirək: mən buradan qaçıb aradan çıxmaq istəyəndə,- düzü bilmirəm, başqa sayaq bunu necə deyirlər,- birdən o anda Yasalarla, Dövlət bura gəlirlər, mənim yolumu kəsib soruşurlar: “Sokrat, bizə de görək, sən nə eləmək istəyirsən? Sən indi əlinə girəvə düşüb deyə, bizlərin,—Yasalar ilə Dövlətin başını batırmağamı çalışırsan? Yoxsa elə düşünürsən, bizlərin varlığını, bütünlüyünü korlamadan, məhkəmə buyuruqlarını saya salmamaq da olar, onları ayrı-ayrı adamlar, öz istəmlərinə görə, doğru saymaya, ayaqlayıb üstündən keçə də bilərlər?” Bax bu sayaq sorğuların qabağında bizlər nə deməliyik, Kriton? Bizim pozmaq istədiyimiz bu yasaların qorunmasının yararlarından yanşaqlar(ritorlar) belə uzun-uzadı danışa bilirlərsə, özümüzü onlardan qat-qat anlaqlı sayan bizlər, necə olur, onu saymırıq, üstəlik məhkəmə buyuruqlarına qarşı özbaşınalıq eləyib, onları yerinə yetirməkdən boyun da qaçırırıq? Yoxsa, özümüzü doğrultmaq üçün, biz onlara bunu deməliyik: bu şəhər bizimlə düzgün davranmır, məhkəmədə bizə kəsilən iş düz deyil? Bunumu deməliyik, səncə?

K r i t o n. Belə demək yerinə düşərdi.

S o k r a t. “Bu necə ola bilər,- Yasalar belə deyərlər,- Sokrat, bizim sənlə ancaq bir anlaşmamız var, o da budur: şəhərin məhkəməsi nə buyuruq versə, ona sözsüz boyun

əyməlisən!” Sözlərinin mənim üçün anlaşılmaz olduğunu görüncə, onlar bunu da deyərdilər: ”Sözümüz sənə çöçün gəlməsin, Sokrat, dillən görək sözün nədir? - biz sənlə elə öz dilində danışırıq, - adamları sorğuya çəkib, sonra da onları dilindən tutmaq deyildimi, sənin işin-gücün? İndi də sən gəl, bizim sorğumuzu yanıtla görək: hansı suçumuza görə, bizləri də, Dövləti də, aşağılamaq, üstəlik bizlərin başımızı batırmaq da istəyirsən? Sən bizim törəməmiz olduğunu bilmirsənmi, bizim göstərdiyimiz yolu tutaraq, atan ananla evlənib, səni bu yer üzünə gətirməyibmi? Yoxsa sən, bizim adamların evlənməsini düzənləyən yasamıza qarşı da çıxırsan ?” “Yox, mən buna qarşı deyiləm”,- bunu mən onlara deyirəm. “Olmaya, sən doğulan uşaqların böyüdülməsini, oxudulmasını düzənləyən yasalara qarşısan? Birdən, bizim buyuruğumuza görə, atanın səni gimnastika çalımalarına, başqa bütün yararlı bilikləri oxuyub öyrənməyə göndərməsini bəyənməzsən?” “Yox, çox da bəyənirəm!”- mən deyərdim. “Belə. Bizim qoyduğumuz yasalara görə doğulmusansa, böyüdülmüsənsə, oxudulmusansa, onda necə deyə bilərsən, sən bizdən törənməmisən, bizim qulluğumuzda deyilsən, üstəlik sənin ata-babaların da belə olmayıblarmı? Bu belədirsə, onda sən nəyə arxalanıb, öz girəvəni bizimlə bir tutursan? Bizim sənə qarşı eləmək istədiklərimizə, düzgünlüyü gözləməklə qarşı qoya biləcəyin nəsə varmı? Yoxsa düşünürsən, səndən üstün girəvəsi olan atanınmı, ağanınmı, elədiklərinə dözməlisən, onların söyüşünə, söyüşlə, əl qaldırmasına, əl qaldırmaqla qarşı çıxmamalısan, bir sözlə, sənlə bu sayaq davranışlarına üzüyolalıqla tablaşmalısan, ancaq Dövlətə, Yasalara qarşı tablaşmalı deyilsən, demək biz indi bunu düzgün sayaraq, səni öldürmək istəyiriksə, sən də bacardığın kimi bizim başımızı batırmağa çalışacaqsan, sonra bu elədiklərinin düzgün olduğunu deyəcəksən, özünü də bundan sonra yaxşı adam sayacaqsan? Yoxsa sən bu boynuna götürdüyün bilgəliyinlə indiyəcən bunu da bilmirsən, Yurdunun dəyəri,- sənin ata-anandan da, bütün ulu babalarından da artıqdır, O, qutsaldır, toxunulmazdır, ona tanrılar da, anlaqlı insanlar da bu gözlə baxıb, böyük sayğılar göstərirlər, birdən Yurdun səndən inciyibsə, ondan atandan artıq qorxmalı, çəkinməli, könlünü almalısan, onu dilə tutub yola gətirməyi bacarmasan, onda buyurduğu kimi də eləməlisən, sənə necə ağır görünsə də, onun buyuruqlarını dinməz-söyləməz yerinə yetirməlisən, sürgünəmi, dustaqlığamı, savaşamı, ölüm-itiməmi

göndərir, bunların hamısını düzgün sanıb etməlisən, necə savaşda yağı qabağından qaçmağı, ona tutuqlanmağı özünə sığışdırmırsan, eləcə də, onun məhkəməsi olsun, yoxsa başqa buyuruqları,- Yurdun necə deyirsə, elə də eləməlisən, ən azı, buyuruqlarından düzgün saymadıqlarını yerində deyib, onlarla gənəşməlisən, bir sözlə öz doğma ata-anana qarşı qolugüclülük göstərməyin alçaqlıq sayılırsa, Yurduna qarşı bu sayaq davranmağın bundan da qat-qat artıq alçaqlıq deyilmi?" Bu sözlərin qabağında nə deyək, Kriton? Yasaların bu dedikləri, düzgündür, yoxsa yox?

K r i t o n. Mənə elə gəlir, bütünlüklə düzgündür.

S o k r a t. "İndi bax, Sokrat,- Yasalar ardınca deyəcəklər,- sənin bizimlə büsbütün yanlış davranmaq istədiyini biz düzgünmü deyirik? Özlüyündə səni biz törətmişiksə, dolandırmışıqsa, böyütmüşüksə, başqa yurddaşların təki, sənə çatası bütün nəsnələri vermişiksə,- onda bunu da bilməmiş deyilsən, bizim bütün afinalılarla, onlar biz Yasalardan, dövlət işlərindən baş açmağa başlayan gündən, yurddaşlar sırasına(vətəndaşlıq siyahısına) yazılmazdan öncə, belə bir anlaşmamız olur: birdən onlar gördükləri,- bizim qoyduğumuz bu düzənləri bəyənmirlərsə, öz var-yatırlarını da götürüb, hara istəslər gedə bilərlər, Yasalar bunu etmək istəyənlərin yolunu kəsmir, onları bundan çəkindirmir. Ancaq kim qalırsa, artıq bilir, biz adamlara necə məhkəmə qururuq, bütün başqa düzənlərimiz necədir, onu da bilir, qalırsa bunlara boyun əyməlidir; yox, birdən o qalırsa, bununla yanaşı bunlardan boyun da qaçırırsa, biz onun düzgünlüyü üçqat artıq pozduğunu sanırıq: birinci, o bizə,–özünü törədənə saymazlıq eləyir, ikinci, o bizım–öz böyüyünün, öyüdverəninin üzünə ağ olur, sonuncu, biz nəyisə düz eləməyəndə, o bizimlə dil tapıb bundan çəkindirməyə çalışmır, biz onu güclə dediyimizi eləməyə sürükləmirik, onun qarşısında seçə biləcəyi iki yol olur: o, bizim buyuruqlarımızın yanlışını bizə anlatmaq üçün bizimlə dil tapmalı, yoxsa da, dediyimizi sözsüz yerinə yetirməlidir,- bu isə nə onu, nə də bunu eləmək istəmir.

Sən indi başında dolaşan yanlış düşüncələrə qapılıb, bu görmək istədiyin işi tutsan, biz səni də bu sayaq suçlayacayıq, sənə qarşı başqa afinalılardan da artıq amansız olacağıq". Mən soruşsam:"Nədən belə eləyəcəksiniz?", onda onlar düzgün olaraq deyəcəklər, bizim bildiyimizə görə, sən başqa afinalılardan qat-qat artıq bizimlə anlaşmısan. Ardınca isə bunu deyəcəklər: "Bizim əlimizdə danılmaz bəlgələr var Sokrat,

sən bizləri də, bizim Dövləti də hamıdan, bütün afinalılardan qat-qat artıq sevirsən, bildiyin kimi, elə bir afinalı tapılmaz da, sənin təki bu şəhərdən qırağa çıxmaq istəməsin; sən nə bayramlara baxmaq üçün, nə də ayrı bir iş üçün başqa şəhərlərə gedirsən, Afinadan vur-tut bir yol, onda da Yurd uğrunda savaşmaq üçün çıxıb, İstmə getmisən; sən başqa adamlar kimi uzaq ellərə getmək, yolçuluq eləmək istəməmisən, başqa şəhərlərin görkəminə, yasalarına gedib baxmağa da önəm verməmisən, biz Yasalarla, bizim Dövlətdə yaşamaq sənin ürəyincə olub,–bax sən buracan bizə sayğılı olmusan, bütünlüklə, bizim buyuruqlarımızla yaşamağa alışmısan; bu harasıdır, öz uşaqlarını burada əkib-tökməyin də, ancaq şəhərimizi ürəkdən sevməyinə görədir. Bundan başqa sən istəsəydin məhkəmədə, şəhərdən sürgün olunmağın üçün dirənə bilərdin, şəhərlə anlaşıb bu işi tutardın, onda indiki kimi özbaşınalıq eləmək də könlündən keçməzdi. Ancaq onda sən ad-san qazanmaq üçün, özünü elə göstərdin, sanasan ölüm kəsilməsi səni qorxutmur, qayıdıb bunu da demişdin, sürgün olunmaqdansa, ölümü üstün tutursan, indi isə bu sözlərindən utanmırsan, bizdən, Yasalardan da çəkinmirsən, bizim başımızı batırmaq istəyirsən, mənliyini alçaldıb, ən yaramaz bir qul sayağı davranmaq istəyirsən, bizimlə olan bütün anlaşmalarını, eləyəsilərini pozub, bizim yönətimimizdə yaşayacağını boyun olduğunu danıb, qaçmaq istəyirsən. Öncə gəl bizim bu sorğumuzu yanıtla görək: biz sənin ancaq sözdə deyil, işdə də bizmlə anlaşdığını deyəndə düzmü danışırıq, yalanmı?” Bu sözlərin qabağında biz nə deməliyik, istəkli Kriton? Deyilənlərlə anlaşmalıyıqmı?

K r i t o n. Bu deyilənləri danmaq olmaz.

S o k r a t. “Belə olanda,-Yasalar deyə bilər,- sən boynuna götürdüyün eləyəsiləri də, bizimlə anlaşmalarını da pozmuş olmursanmı, sən bizə onları yerinə yetirəcəyinə söz verəndə, sənə qarşı güc işlədən olmayıb, aldadan olmayıb, nə də qısa bir sürədə səni qısnayıb onlara qol qoymağa da sürükləməyiblər, sənin düz yetmiş yaşınacan bunlardan boyun qaçırmağa girəvən olub, sən bu sürədə bizləri düzgün saymayırdınsa, çıxıb gedə bilərdin. Sən Yasalarını, Dövlət düzənini öyməkdən yorulmadığın Lakedemona, Kritə, eləcə də başqa bir ellin(yunan) şəhərinə çıxıb getmək istəmədin, bu şəhərdən axsaqların, korların, başqa salxaqların(şikəstlərin) gedə bildikləri yerlərəcən belə çıxıb uzaqlaşmadın,- deməli afinalılardan bizim şəhərimizi, biz Yasaları ən çox bəyənən elə

sən özünsən. İndisə sən öz sözündən qaçmaqmı istəyirsən, Sokrat?! Bizim sözümüzə qulaq as Sokrat, şəhərdən çıxıb getməklə adamları özünə güldürmə!

Bir dərindən düşün: verdiyin sözü danmaqla, üstünə bu suçu götürməklə, sən özünə də, doğmalarına da yamanlıq eləmirsənmi? Bu elədiklərinə görə, sənin yaxınlarını şəhərdən sürgün eləyə bilərlər, onlar doğma yurdlarından qaçqın düşə, var-yatırları əllərindən çıxa bilər. Özünə gəlincə, sən bura yaxın şəhərlərdən, tutalım, Fivayamı, Meqaramı qaçsan, Sokrat, bunu biləsən, onların ikisi də də çox yaxşı yasalarla yönətilir, sən oralara gedincə onların dövlət quruluşlarının yağısına çevriləcəksən, öz şəhərini sevənlərin hamısı sənə yanakı baxacaq, səni Yasaları pozan birisi kimi barmaqla göstərəcəklər, buradakı hakimlərin sənə kəsdikləri ölümün də düzgün olduğunu düşünəcəklər, sənə qarşı sürülən suçları da doğru sanacaqlar, bunu hamı bilir, yasanı pozan birisi, gəncləri pis yola çəkə də bilər, desən başqa yamanlıqlar da törədə bilər. Yoxsa sən buradan, yaxşı yasaların işlədiyi, ufutlu adamların yaşadığı şəhərlərə qaçmaq istəmirsən? Beladirsə, sənin sonrakı ömrün nəyə gərəkdir? Yoxsa sən utanıb-qızarmadan bu ufutlu adamlarla doğmalaşıb, onları da öncələr olduğu kimi danışığa çəkməkmi istəyəcəksən? Onlarla nədən danışacaqsan, Sokrat? Yoxsa burada dediyin kimi, onlara da: insanlara ən gərəkli olan qorxmazlıqdır, düzgünlükdür deyəcəksən, onda özünün nədən belə ola bilmədiyini necə anladacaqsan, Sokrat? Tutalım, sən bir az da uzaqlara, Fessaliyaya, Kritonun arxadaşlarının yanına gedib çıxdın; bu düzənsiz, başlı başına buraxılmış ölkədə, səni qarşılayanlar ilk olaraq sənin dustaqdan qaçmaq üçün necə üz-gözünü, əyin-başını dəyişdiyini, keçi dərisinə bürünüb necə aradan çıxdığını soruşub, sonra da danışdıqlarına qulaq asıb, uğunub gedəcəklər. Yoxsa elə düşünürsən, sənin təki, ömrünün çoxu gedib lap azı qalmış bir qocanın belə quşürəkli olduğunu sezməyəcəklər? Ola bilsin sezməsinlər də, bilib üzünə vurmasınlar da, ancaq Sokrat, birini incitdinmi, sənə bütün ömrün boyu eşitmədiyin söyünclər deyəcəklər. Bax beləcə qulağı dinc yaşamaq istəsən, sən çoxlarına yarınıb, yaltaqlanmalı olacaqsan, sənə qalan təkcə yediyin yeməklərdən duyduğun dadlar olacaq, sən doğrudan da Fessaliyaya qarın otarmağa getmək istəyirsənsə, orada bunu tapa biləcəksən. Sənin düzgünlüklə, başqa ərdəmliklərlə bağlı danışıqların isə bir kimsəyə gərək olmayacaq. Ola bilsin, sən uşaqlarını dolandırmaq, böyütmək üçün yaşamaq istəyirsən? Ancaq bunu necə

eləyəcəksən? Tutalım, onları Fessaliyaya aparıb, orada dolandıracaq, böyüdəcəksən, ancaq bununla yanaşı onları yadelli də eləyəcəksən! Yoxsa belə eləmək istəmirsən, düşünürsən onlar sənin sağlığında, səndən uzaqlarda düzgün böyüyüb, boya-başa çata biləcəklər? Olmaya elə düşünürsən, Fesalliyaya köçsən, sənin doğmaların onların qayğılarını çəkəcəklər, Aidə(o dünyaya) köçsən yox? Onlarda bunu eləmək qanacağı varsa, onda elə sənin ölümündən sonra da bunu eləyəcəklər.

Yox Sokrat, sən gəl bizim öyüdlərimizi eşit, düzgünlükdən üstün ola biləsi bir nəsnə axtarma,- nə uşaqlarını, nə yaşamağını, nə də başqa nələrisə düzgünlüyə tay tutma, yoxsa Aidə gedəndə oranın hakimlərinə, özünü doğrultmaq üçün deməyə sözün olmaz. Sən bu yaramaz düşüncələri başından çıxarmayıb, onların aşıladığı yolu tutsan, nə özün, nə də yaxınların üçün bu iş yaxşı bitəcək,- tutduğun iş də nə düzgün, nə də tanrıların istəminə uyğun olacaq, ölümdən sonra da səni yaxşı bir nəsə gözləməyəcək; ancaq indi sən düzgünlüyü tutub, ölümdən sonra getməli olduğun yerlərə köçsən, bunu da biləsən, səni incidən biz Yasalar deyilik, yalnızca adamlardır bunu eləyən. İndi dustaqlıqdan qaçası olsan, onda utanmadan,- yamanlığa, əyriliyə qarşı savaşını,- bizimlə anlaşmalarını pozmaqda, boynuna düşən yurddaşlıq görəvlərini tapdamaqda görəcəksən, sənin ölümündə ən az suçu olanların: özünün, arxadaşlarının, Yurdunun, biz Yasaların işlərini korlayacaqsan, biz Yasalar sən sağ ikən səndən yanıqlı olacağıq, ölümündən sonra isə Bizim Aiddəki qardaşlarımız–oranın Yasaları,–sənin əlinə girəvə düşən kimi, Yasaların başını batırdığını bildiklərindən, üzünə pis baxıb, səni soyuq qarşılayacaqlar. Ancaq sözün düzü, Ktitona inanıb, bizlərə qarşı çıxacağına da inanmağımız gəlmir”.

İstəkli arxadaşım Kriton, mənə elə gəlir, bayaqdan sənə bu dediklərimi, bütün aydınlığı ilə eşitməkdəyəm, necə çılğınlaşıb bayılanların qulağına fleyta səsləri gəlir, bu danışıqlar da mənim qulağımda cingildəyib, bundan başqa bir səsi eşitməyə də qoymur. Ona görə də dedim biləsən,- mən indi bunları düşünürəm,- sənin məni düşündüklərimdən daşındırmaq istəməyin özünü boş-boşuna yormaqdan başqa bir işə yaramayacaq. Mənim düşüncələrimi sarsıdacaq, məni bunlardan daşındıracaq, nəsə güclü bir sözün varsa, danış, qulağım səndədir.

K r i t o n. Mənim artıq deməyə bir sözüm yoxdur, Sokrat.

S o k r a t. Kriton, gəl bunları qatlayıb bir qırağa qoyaq, tanrının göstərdiyi yolu tutub gedək.

FEDON

EXEKRAT, FEDON

E x e k r a t. Fedon, de görüm, Sokrat qazamatda ağu içəndə sən də onun yanında idin, yoxsa bu deyilənləri başqalarından eşitmisən?

F e d o n. Yox, Exekrat, mən özüm orada idim.

E x e k r a t. Ölümündən qabaq o nə danışırdı? Ölümünü necə qarşıladı? Bax bunları çox bilmək istərdim. Bilirsən də, bizim fliuntlular Afinaya ayaqüstü dəyib qayıdırlar, oradakı arxadaşlarımızdan da son çağlar buralara kim gəlibsə, baş verənlərdən bitkin bir soraq verə bilmir, bildikləri ancaq budur: Sokrat ağu içib öldü.

F e d o n. Yoxsa sizlərin, Sokratın məhkəməsindən, orada baş verənlərdən də bilginiz yoxdur?

E x e k r a t. Yox, məhkəmədə baş verənləri bizə yerli-yataqlı danışıblar. Düzü, bizim üçün anlaşılmaz qaldı, nədən Sokratı məhkəmə qurtarandan çox sonra öldürüblər? Bilmirsən, bu necə olub, Fedon?

F e d o n. Yerinə düşən bir gözlənilməzlikdən! Məhkəmədən bir az öncə, afinalılar Delosa göndərəcəkləri gəmini çiçək tutamları(əklilləri) ilə bəzəmişdilər.

E x e k r a t. O nə gəmidir elə?

F e d o n. Afinalıların deməsinə görə, bu gəmi ilə keçmiş çağlarda Tesey, bəlli yeddi qoşa(cüt) gənci* Kritə aparıbmış. Onları ölümdən qurtarıb, özü də sağ qalıbmış. Bizə keçmişlərdən gəlib çatan bilgilərə görə, onda afinalıların Apollonla belə bir bağlaşmaları olub: Teseylə gedənlər sağ qalsalar, afinalılar da ildə bir yol bu gəmi ilə qutsal bir elçilik

düzəldib, Delosa—Apollonun Tanrı Evini sayğılamağa gələcəklərərinə söz veriblər. O çağdan indiyəcən, onlar ara vermədən ildə bir yol, bu gəmini bəzəyib ora göndərirlər. Yasaların buyuruğuna görə, Elçiliyin yola çıxmağa əl-ayaq elədiyi gündən başlamış, gəmi Delosa gedib qayıdana kimi, şəhərin arılığını(təmizliyini) pozan bir iş də tutulmamalı, o sıradan kimsə öldürülməməlidir. Ora gedib qayıtmaq isə, birdən çox uzun da çəkə bilər, bu dəniz küləklərinin hansı yönə əsməsindən asılı olaraq, bir aydan az da, çox da, sürə bilər. Qutsal elçiliyin başlaması isə, Apollonun qulluqçusunun gəmini çiçəklərlə bəzədiyi gündən sayılır. Bu da, gözlənilmədən, Sokratın məhkəməsindən bir-iki gün qabaq baş vermişdi. Ona görə də, məhkəmənin kəsdiyi ölüm buyuruğunun yerinə yetirilməsi belə uzanmışdı.

E x e k r a t. Danış görək, onun ölümü necə baş verdi? O ölməzdən qabaq nə dedi? Özünü toxdaq tuta bildimi? Onun yaxınlarından yanında kimlər vardı? Yoxsa dövlət bu anda onun yanına kimsəni buraxmamış, o da ölümü təklikdə qarşılamışdı?

F e d o n. Sən nə danışırsan, ölüm anında onun yanında olduqca çoxlu arxadaşları vardı.

E x e k r a t. Onda nə olar, indi qaçaraq bir işin yoxsa da, orada baş verənləri bizə olduğu kimi, yerli-yataqlı danışsana.

F e d o n. Yox, indi əlimdə bir işim yoxdur, çalışaram, orada gördüklərimi necə varsa, sizlərə danışam. Sözün düzü, mənim üçün indi,–istər özümün, istər başqalarının danışıqlarında olsun,–Sokratı anmaqdan da çox ürəkaçan bir iş ola bilməz.

E x e k r a t. Elə bilirəm, sənin dinləyicilərin olan bizlər də bu işdə səndən geri qalmarıq, Fedon! Ona görə də çalış, görüb-eşitdiklərini bizə yerli-yataqlı, olduğu kimi danışasan!

F e d o n. Yaxşı. Bax belə, mən orada lap Sokratın yanında oturmuşdum, özü də ürəyimi,–nəsə oçağacan üzləşmədiyim, dillə deməyi bacarmayacağım,– anlaşılmaz duyğular çulğalamışdı. Gözümün önündə mənim ən yaxın arxadaşım ölürdü, ancaq bilmirəm nədənsə, mən ona acımırdım,–o mənə bu anlarında, sanasan, ağ günlərə çıxmış birisi kimi görünürdü, inanırsanmı Exekrat, o, davranışında da, danışığında da, özünü bütünlüklə ağgünlü bir kimsə təki aparırdı! Oracan qorxusuz, oracan açıq ürəklə ölümü qarşılayırdı, bu anlarda mənə elə gəlirdi, tanrıların onun Aidə gedəcəyi yolu açdıqlarını

da, orada özünə yaraşan uca bir yer tutacağını da, o artıq qabaqcadan bilirdi. Bax elə buna görə də, bu sayaq ayrılıq anlarında ürəklərə dolub, hamını kövrəldən acımaq duyğusu məndən uzaq düşmüşdü, bir də ölümqabağı onun fəlsəfədən danışdıqları da(ondakı söz-sovumuz demək olar ancaq fəlsəfədən olmuşdu), mənə alışmadığım, bütünlüklə ayrı bir duyğular aşılayırdı. Bu nə isə, öncələrdə yaşamadığım, sevinclə qüssənin anlaşılmaz qatışığından yoğrulmuş duyğular idi, bu duyğuların qaynağı isə, onun bir azdan ölüb, bizdən ayrılacağı ilə bağlı düşüncələrim idi. Təkcə mən bu duyğuları yaşamırdım, o anda orada olan arxadaşların hamısı mənim günümdə idi, onlar birdən gülüşür, bir azdan hönkürüb ağlayırdılar, arxadaşlarımızdan Apollodor isə ovunmaq bilmədən elə hey ağlamaqda idi. Sən onun necə yuxa ürəkli bir adam olduğunu bilməmiş olmazsan?

E x e k r a t. Çox yaxşı bilirəm!

F e d o n. O bütünlüklə başını itirib, nə edəcəyini bilmirdi, sözün düzü mən də, başqa arxadaşlarımız da çaşqınlıq içindəydik.

E x e k r a t. Fedon, orada səndən başqa, ayrı kimlər var idi?

F e d o n. Afinalılardan—bu dediyim Apollodor, Kritobul atasıyla bir yerdə, Hermogen, Epigen, Esxin, Antisfen. Sonra, peanlı Ktesipp, Meneksen, yenə bir çoxları, Plaron məncə ağrındığına görə gələ bilməmişdi*.

E x e k r a t. Yadellilərdən başqa kimlər var idi?

F e d o n. Fivanlı Simmiy, Kebet, Fedond, Meqardan—Evklidlə Terpsion.

E x e k r a t. Kleombrotla Aristipp orada deyildilərmi?

F e d o n. Onlar o çağda orada ola bilməzdilər, deyilənə görə, onda Afinadan uzaqlarda, Egində imişlər.

E x e k r a t. Başqa da kimlərsə vardımı?

F e d o n. Məncə elə bunlardılar.

E x e k r a t. Yaxşı, sonra! Deyirsən, nəsə danışıqlarınız da olmuşdu, eləmi?

F e d o n. Çalışacağam, baş verənləri sənə başdan danışam.

Bizlər o günə kimi də, gündə-gündə Sokratı yoluxardıq, Sokratı məhkəmənin yanındakı qazamatda saxlayırdılar, biz də ertədən orada yığışıb, birlikdə onun görüşünə gedirdik. Qazamatın qapısı açılana kimi, arxadaşlarla oradan-buradan danışıb

gözləyirdik, qapıları isə elə də erkən açmazdılar. Qapılar açılan kimi biz Sokratın başına yığışar, bütün günümüzü onunla keçirərdik. O gün biz qazamatın önünə çox ertə gəlmişdik, dünən Sokratdan ayrılanda bizə demişdilər, Delosa gedən gəmi artıq qayıdıb. Ona görə də biz arxadaşlarla ertəsi gün lap ertədən toplaşmağı anlaşmışdıq. Bir az keçmiş gözətçi çıxıb bizə dedi: bir az gözləyin, mən özüm sizi çağıracağam.

-Onbirlər*- o dedi,- Sokratın qandallarını çıxarırlar, onun ölümü ilə bağlı tapşırıqlarını verirlər. Sokratı bu gün öldürəcəklər.

O bir azdan qayıdıb, bizi içəri buraxdı.

İçəri keçib, biz elə indicə qandallarını çıxardıqları Sokratı gördük, yanında Ksantippa* oturmuşdu–sən onu tanıyırsan məncə–qucağında körpəsini tutmuşdu.

Bizi görən Ksantippa, qadınların öyrəncəsi üzrə, çığır-bağır salıb hönkürməyə, ağlayıb-sıtqamağa başladı:

-Ah, Sokrat, yazıqlar olsun,–bu sənin arxadaşlarınla sonuncu görüşün, sonuncu danışığındır!

Sokrat Kritona sarı dönüb dedi:

-Kriton, tapşır onu evə aparsınlar.

Kritonun qulluqçuları Ksantippanı apardılar, o isə yenə bərkdən qışqırır, köksünü yumruqlayırdı.

Sokrat yataq taxtının üstündə oturdu, ayaqlarını qatlayıb altına yığdı, sonra onları ovuşdurmağa başladı. Ara vermədən ayaqlarını ovuşdura-ovuşdura da dilləndi:

-Arxadaşlar, adamların bu toxtamaq dedikləri durumda, doğrudan da nə isə bir anlaşılmazlıq varmış! Onun özünə bütünlüklə tərs olanla—ağrımaqla, gizlin bir ilişiyi də var! Onlar ikisi də birdən insan bədəninə sığışmırlar, ancaq onlardan birinin dalınca düşüb gedən, ona çatınca, özü də istəmədən, ikinci ilə də üzləşməli olur: onlardan biri qurtaranda, o birisi başlayır, onlar sanasan, qurtaracaqlarında biri-biri ilə çulğaşıblar. Mənə elə gəlir,–o, sözünün ardını dedi,–Ezop bu konunu düşünsəydi, belə bir eşitdirmə(təmsil) də yazardı: tanrılar bu iki qarşılıqlı tərs olanları barışdıra bilmədiklərindən, onların yağılığına son qoymaq üçün, ikisinin də başlarını biri-birinə qovuşdurmuşlar. Ona görə də, onlardan biri harasa gəlib çıxan kimi, ardınca o biri də

gəlib özünü ora yetirir. Lap elə mənimlə olduğu kimi, bundan qabaq qandallar məni ağrıdırdı, onları çıxaran kimi, bütün bədənimi çulğalayan bir toxdaqlıq tapdım.

Burada Kebet onun sözünü yarımçıq kəsdi:

-And olsun Zevsə, Sokrat, sən nə yaxşı, indi Ezopun adını çəkdin! Məndən artıq bir neçəsi, sənin burada Ezopun pritçalarına, bir də Apollonun ad-sanına qoşduğun şeirləri soruşublar, - Even isə lap özünü şaşırıb, deyir, necə oldu Sokrat qazamata düşəndən sonra şeir qoşmağa başladı, onun qabaqlar haçansa şeir yazmağı olmayıb! İndi istəyirsən Even mənim yaxamı buraxsın,- o sözsüz məni görən kimi, bunu yenidən soruşacaq,- onda məni başa sal görək, ona nə deyim.

-Ona sözün düzünü deyərsən, Kebet, -Sokrat dilləndi,- deyərsən mən şairlikdə onunla yarışa girmək düşüncəsindən çox uzağam, bu işdə onunla ayaq-ayağa verməyin necə ağır bir iş olduğunu da bilirəm,- mən bu yazdığım şeirlərlə öz içimi arıtlamaq istədim, bir də sözün düzü, lap çoxdan, dönə-dönə gördüyüm bir yuxunun çin çıxıb-çıxmayacağını yoxlamaq üçün bunu etdim: bilmək istədim, görən bu yuxular mənə şeir yazmağımı aşılamaq istəyirlər? Qoyun o yuxumu danışım, qulaq asın, görün mən yanılıram, yoxsa yox.

Bütün ömrüm boyunca mən, dönə-dönə bir yuxu görürdüm. Düzdür, bu gördüyüm yuxular biri-birinə oxşamırdı, ancaq bu yuxuların hamısında bir söz eşidirdim: “Sokrat, Muzaların* dediklərinə qulaq as, onların dediyi yaradıcılıq yolunu tutmaqdan çəkinmə”. Mən də bunun elə gördüyüm işlə bağlı olduğunu düşünüb, baş qoşmurdum. Necə görürsən, izləyicilər çəpik çalıb qaçışçıları ürəkləndirirlər, mən də elə bilirdim, bu yuxular mənə gördüyüm işdən əl çəkməməyi, bir az da artıq çalışmağı aşılayırlar,– Muzaların dediyini eləmək, coşqun duyğulara qapılıb, gözəl yaradıcılıq örnəkləri yaratmaqdırsa,–mən də elə fəlsəfə üzrə çalışmaqla, bu işi görməkdəydim. Ancaq indi, məhkəməmdən sonra, tanrı sayğısı üçün keçirilən bayrama görə mənim ölümüm gecikən bu çağda, mən birdən düşünüb, özüm özümə dedim, yoxsa bu yuxugörməm mənə şeir yazmağı aşılamaq istəyirmiş, gəlsənə onun çağırışına hay verim: mən indi poetik yaradıcılıqla öpözümün arınmasına çalışsam, bunula ola bilsin, gördüyüm yuxuları yanlış yozmaqdan da qaçına bilərəm. İlk olaraq, mənim ölümümün gecikməsinə nədən olmuş bayramın yiyəsi olan tanrıya,—Apollona şeir qoşdum, tanrını sayğılamaq üçün bu

şeiri qoşanda isə anladığım bu oldu: gərək doğruçu şair, öz yaradıcılığında mif yaratmağı bacarsın, yoxsa özünün gündəlik duyğularını, düşüncələrini yazıya almaqla gün keçirməsin. Anadangəlmə coşqum(ilhamım), özdərişim(təxəyyülüm) olmadığından, mən çox yaxşı bildiyim şeirlərə üz tutdum,–ilk andığım isə, Ezopun eşitdirmələri(təmsilləri) oldu. Onların, demək olar hamısı bilcəyimdə(yadımda) qaldığı üçün, bu şeirləri bir-bir götürüb, anlaya bildiyim yozumlarına görə, onlara özümdən şeirlər qoşmağa başladım. Evenə elə belə də deyərsən, Kebet, bir də məndən ona, "sağlıqla qal" deyib, bunu da çatdırarsan: o özünü sağlam düşüncəli kimsə sayırsa, geçikmədən mənim ardımca gəlsin. Mən gördüyünüz kimi afinalıların istəyinə görə bu gün çıxıb gedirəm.

Burada Simmiy danışığa qoşuldu:

-Eveni necə yola gətirək, Sokrat? Mən onunla çox görüşüb danışmışam, o mən tanıdığım adamdırsa, öz istəyiylə sənin öyüdünə qulaq asan deyil.

-Nədən belə düşünürsən? Even filosof deyilmi?

-Mən onu filosof sayıram,- Simmiy dedi.

-Onda o mənim sözümü tutacaq,- təkcə o yox, kim fəlsəfəni düzgün anlayırsa, onun öyrətdiklərinə sayğı ilə yanaşıb, ürəkdən inanırsa, mənimlə anlaşar. Düzdür, mən onun özünə əl qaldırmasını istəmirəm: bunu yolverilməz sayıram.

Bu sözləri deyəndən sonra, Sokrat ayaqlarını döşəməyə salladı, danışığımızın sonuna kimi beləcə oturdu.

Kebet soruşdu:

-Sənin bu dediklərini necə anlayaq, Sokrat, bir yandan deyirsən özünə əl qaldırmaq olmaz, o biri yandan da deyirsən, filosof ölənin ardınca getməkdən boyun qaçırmaz?

-Burada anlaşılmaz nə var? Yoxsa, Filolay* sənlə Simmiyə bundan danışmayıb?

-Yox. Sözün düzü, ondan bu konuda kəsərli bir söz eşitməmişik.

-Düzdür, bu konuda mən də öz sözümü yox, başqalarından eşitdiklərimi danışa bilərəm, qoy olsun, mən bunları sizin üçün yenələyirəm(təkrarlayıram). Sözün düzü, bunları eşitmək bir də ona görə ilgincdir, onsuz da geci-tezi hamının yolu ölümdən o yandakı yerlərə sarıdır, onun üçün də bu konuda deyilənləri öyrənməyə, ölümdən sonra

keçilən yolun sonunda nə olduğunu bilməyə dəyər. Bir də, onsuz da gərək, günbatan çağına kimi başımızı nə iləsə qataq!

-Yaxşı, Sokrat, bir anlat görək, nədən özünü öldürmək yolverilməz sayılır? Düzünü desəm, Filolay bizdə yaşayan çağlar mən ondan bu konuda eşitmişdim, -bayaq sən də bunu soruşurdun,- elə başqalarından da nələrisə eşitmişəm. Ancaq sözün düzü, bir kimsədən, bunu açıq-aydın anladan, açıqlayan bir söz eşitməmişəm.

-Bundan ötrü darıxmağa dəyməz,- Sokrat dedi,- ola bilsin, haçansa bir anlaşıqlı söz eşidə bildin. Ancaq bəri başdan deyim, özünü bərk tut, indi eşitdiklərin sənə çöçün gələcək: başqalarına baxanda bu oracan yüngül anlaşılan, başqa yozumları olmayan bir konudur, ayrı konuları araşdıranda beləsi ilə çox az üzləşirsən. Çoxlu elə kimsələr var, onların bu yer üzündə yaşamağındansa ölməyi yaxşıdır,- indi sən deyəcəksən, yaxşı olmazdımı, onlar özlərini öldürsünlər, buna nədən yol verilmir, onlar nədən durub bir başqasının onlara belə bir "yaxşılıq" eləyəcəyini gözləməlidirlər.

Kebet qımışıb, dilləndi:

-Zevs tanıq olsun, elə bil ürəyimdən keçənləri oxuyursan!

Bu sözləri o fivanlı ağzı ilə(ləhcəsi ilə) dedi.

-Düzdür, bu çox anlaşılmaz görünə bilər,- Sokrat sözünün ardını gətirdi,- ancaq mənə elə gəlir, burada düzgün olan yozumu tapmaq olar. Ululardan bizə gəlib çatmış bilgilərə görə, bizim üstümüzdə göz olan, qayğımıza qalan, keşiyimizi çəkən vardır, özü də, bizim öz istəyimizlə ondan yayınmağımız, qaçmağımız yasaqdır,- məncə bu bilgilərdə çox böyük, çox dərin bir anlam vardır. Bax bir, Kebet, gör necə də gözəl deyilmişdir: tanrılar bizim bütün qayğılarımızı çəkir, bizlərdən göz-qulaq olurlar, axı biz adamlar,- onların tükənməz saxlancının bir parçasıyıq. Bu dediklərimlə anlaşırsan, yoxsa yox?

-Bütünlüklə anlaşıram,- Kebet dedi.

-Sənin qullarından biri özünü öldürərsə, tutalım, cənin də əlindən, onu ölümündən sonra yazıqlamaq(cəzalandırmaq) gələrsə, sən öfkələnib buna görə onu yazıqlamazdınmı?

-Sözsüz, mən belə də eləyərdim! – Kebet çımxırdı.

-Onda belə çıxır, insanın özünü öldürməsi büsbütün yolverilməzdir, o, tanrının göndərəcəyi ölümü gözləməlidir, lap elə, bu gün mənimlə olduğu kimi.

-Elədir, dediklərin düzdür, - Kebet dedi.- Ancaq bir az öncə dediklərin,- filosof öz ölümünə qolayca tablaşmalıdır sözün, nəsə anlaşılmaz görünür, Sokrat, biz indicə çox düzgün olaraq dedik, tanrı bizim keşiyimizdədir, bizlər onun çox dəyərli saxlancından sayılırıq. Onda bunu necə başa düşmək olar: insanların arasında ən anlaqlı kimsələr sayılan filosoflar, özlərinin ən yaxşı qorucusu olan tanrıların qulluğundan yayınmaqmı istəyirlər? Onlar tanrılardan olan asılılıqdan qurtulmanın gətirdiyi özgürlüklərində, bundan yaxşı yaşayacaqlarına inana bilməzlər. Başqa insanları desən yeri var, onlardan öz yiyəsini atıb qaçmaq kimi qanacağı gözləmək olar. Onun başına da batmır, gərək haracan bacarırsan, yaxşının yanında qalasan, ondan qaçmağı başından çıxarıb atasan. Bu sayaq qaçmaq dəlilik sayılmalıdır, sağlam düşüncəsi olan bir kimsə də, özünün yaxşı keçindiyi yerdən, özünə qarşı ən yaxşı davranan birisindən uzaqlaşmaq istəməz. Bu deyilənlərlə, sənin anlatdıqların bütünlüklə biri-birinin tərsidir, Sokrat, məncə, anlaqlı adam ölümü sevinclə qarşılamaz, bunu ancaq qanmaz adam eləyər.

Sokrat Kebetə qulaq asdıqca, sanasan onun bu konuda belə baş sındırmasına sevinirmiş kimi görünürdü. Sonra bizi baxışları ilə süzüb, dilləndi:

-Kebet belədir də, nəsə dedinmi, o andaca gərək buna qarşı olan bir söz düşünüb tapsın, onun deyilənlə dirəşmədən, anlaşdığı olmur.

Onda Simmiy də danışığa qoşuldu:

-Elədir, Sokrat, ancaq mənə elə gəlir, Kebetin dedikləri yerindədir. Bu elə mənim üçün də anlaşılmazdır, nədən, bilgə sayılan adam, özündən qat-qat yaxşı olan, onu qoruyan, dolandıran yiyəsinin yanından qaçmalıdır, bu azmış kimi, bundan bir sevinc də duymalıdır? Bir də mənə elə gəlir, Kebet bu sözləri birbaşa sənə eşitdirir. Sən də elə bil, yaxınlaşan bu ayrılığı toxdaqlıqla, az qala sevinc içində qarşılayırsan, sanasan, bizdən də, özünün dediyin kimi, ən yaxşı yiyələrindən—tanrılardan da ayrılmağın, lap ürəyincədir.

-Düzdür,- Sokrat dedi,- mən sizləri lap yaxşı başa düşürəm, belə çıxır, biz indi burada yeni bir məhkəmə qururuq, siz məni suçlayırsınız, mən isə özümü doğrulduram.

-Düz tapmısan! – deyə Simmiy dilləndi.

-Nə olar, görüm sizin qarşınızda özümü, Afinalıların mənə ölüm kəsdikləri məhkəmədən yaxşı doğrulda biləcəyəmmi? Simmiylə, Kebet, sizin sorğunuz yerindədir, ancaq burada bir iş də var: birincisi, mən buradakı tanrılardan ayrılıb, elə onlar təki bilgə, yaxşı olan başqa tanrıların yanına getdiyimi düşünməsəydim, ikincisi isə, ölümə qovuşmağın bu yer üzündə yaşamaqdan üstün olduğuna inanmasaydım, onda öz ölümümü belə toxdaqlıqla qarşılamağım düzgün olmazdı. İstərdim, bu dediklərimi biləsiniz, özü də unutmayasınız, mən buradakılardan da yaxşı olan adamların yanına gedəcəyimi ummaqdayam, baxmayaraq, bunun mən deyən təki olacağına sonacan güvənə də bilmirəm. Ancaq insanlara ən yaxşı yiyəlik eləməyi bacaran tanrıların qulluğuna getdiyimə büsbütün inanmaqdayam, bunu biləsiniz də, unutmayasınız da, mən buna öz varlığım kimi güvənməkdəyəm! Ona görə də, mən ölümümə görə, azca da olsa qanımı qaraltmıram, tərsinə, ölümdən sonra olan gələcəyə bütünlüklə inanıram, bu gələcəkdən, ulların dediyi təki, pislər yaxşı nəsə gözləməsinlər, ancaq yaxşı insanları orada bu yaşamdan qat-qat artıq gözəl olan bir gələcək gözləyir.

-İndi nə deyirsən, Sokrat? – Simmiy soruşdu.- Sən bu bilgilərini özünlə aparmaq istəyirsən, yoxsa onları bizimlə bölüşəcəksən? Mənə elə gəlir, sənin bu gərəkli biliklərindən pay almaq istəməyimizin yeri var. Üstəlik, bizi dediklərinə gərəyincə inandıra bilsən, qurduğumuz bu “məhkəmədə” özünü doğrultmuş da olarsan.

-Yaxşı, çalışaram,- Sokrat dilləndi.- Ancaq öncə gəlin görək, bizm Kriton niyə qurcalanır: məncə, o çoxdan nəsə demək istəyir.

-Ancaq bircə söz, Sokrat,- Kriton dedi.- Sənə ağu verəcək qulluqçu, bayaqdan dönə-dönə mənə deyir, sənə çatdırım, bacardıqca az danışasan: onun deməsinə görə, uzun sürən danışıq adamı qızğınlaşdırır, bu sayaq qızğınlıq isə ağunun etkisini azaldır. Özünü bundan gözləməyənlər, ağunu iki, birdən lap üç bardaq içməli olurlar.

Sokrat ona dedi:

-Boşla getsin onu! Ağu öz işini görsün deyə, lap iki, gərəkərsə üç bardaq da içərəm.

-Mən elə belə də deyəcəyini gözləyirdim,- Kriton dilləndi,- ancaq neynim, bu adam bayaqdan məni hey bir ucdan dümsükləyir.

-Boşla onu,- Sokrat bir də dedi.- Sizə isə, ay mənim hakimlərim, indi açıqlamaq istəyirəm, mənim baxışlarıma görə, öz ömrünü bütünlüklə fəlsəfəyə vermiş adamlar, nədən ölümqabağı belə qıvraq görünürlər, özü də ölümdən sonra buradakından qat-qat yaxşı bir gələcək olduğunu düşünürlər. Simmiylə, Kebet, bunun necə baş verdiyini indi sizlərə aydınlaşdırmağa çalışacağam. Kimlər doğrudan da bütün ömürlərini fəlsəfəyə vermişlər, onlar özlüyündə ancaq bir iş görməyə,—bu yer üzündəki ömürlərini bitirib, ölümə qovuşmağa çalışırlar. Onların ömründə başlıca yer tutan bu nəsnəni adamlar gözdən qaçırırlar, ancaq bu doğrudan da belədirsə, bütün ömrün boyu çatmaq üçün əlləşdiyin o an gəlib çıxanda, karıxmaq da böyük saçmalıq olardı!

Bu yerdə Simmiy gülümsədi.

-And olsun Zevsə, Sokrat,- o dedi,- mən indi gülmək hayında deyiləm, ancaq sən məni güldürürsən. Düşünürəm, adamların çoxu sənin bu sözlərini eşitsələr, düşünəcəklər elə düz eləyib filosofların üstünə basqın eləyirlər, bizim yurddaşlarımız da böyük coşqunluqla onlara qoşulub deyəcəklər: biz neyləyək, filosoflar elə özləri ölmək istəyirlər, görünür bu onlara yaraşan bir uğraqdır(taledir) da var.

-Onlar bunu düzgün saysalar da, Simmiy, ancaq elə bunun özü, onların yanlışı sayılmalıdır. Onlar doğruçu filosofun nədən ölmək istədiyini də, hansı özünə yaraşan ölümü umduğunu da, anlayıb duymaqdan çox uzaqdırlar. Ona görə də, biz öz aramızda bu konunu çözməyi yetərli sayıb, çoxluğun başını buraxaq getsin. De görək, biz öz araşdırmamızda ölümü gerçəklik sayırıqmı?

-Sözsüz, o bir gerçəklikdir də var,- Simmiy dedi.

-Bu, öpözün(ruhun) bədəndən ayrılmasıdır, deyilmi? Elə isə, “ölüb getmək”: öpözün ayrıldığı bədənin–özü üçün, eləcə də, bədəndən ayrılmış öpözün də,–ayrıca özü üçün, var olması deyilmi? Yoxsa, ölüm buna deyilmir?

-Yox, elə budur da var,- Simmiy dedi.

-İndi bax, arxadaşım, gör mənim bu baxışlarımı bölüşə bilirsənmi? Mən düşünürəm, biz bu indi deyəcəyimdən başlasaq, öz araşdırmamızda bir addım irəli atarıq. Necə düşünürsən, filosofda, bədənə qulluq eləmək deyilən bu düşkünlüklərə, tutalım, yeməyəmi, içməyəmi, bağlılıq ola bilərmi?

-Bu, filiosofluqla bir araya sığan iş deyil, ay Sokrat,- Simmiy dedi.

-Qadın düşkünlüyü necə?

-Bu da onun kimi!

-Başqa, bədəni oxşayan, onu dirçəldən, nəsnələr necə? Necə bilirsən, bunlar, filosofu özünə çəkə bilərmi? Tutalım, şıq görünüşlü ayaqqabılar, bürüncəklər, paltarlar, habelə başqa bu kimi, bədəni bəzəyən nəsnələr olsun,–o, belə nəsnələrə çoxmu dəyər verir, yoxsa onlardan ən gərəkənləri ilə keçinməyi üstün tutur? Necə düşünürsən?

-Mənə elə gəlir, o doğruçu filiosofdursa, belə nəsnələrə dəyər vermir.

-Deməli, sən də onun bütün qayğılarının bədənə yönəlik olmadığını düşünürsən, yəni doğruçu filosof, haracan bacarırsa bədənindən ayrılır, var gücü ilə öpözü üçün çalışır, deyilmi?

-Məncə, belədir.

-Bu üzdən də, filosof öpözünü,–başqalarının qavraya bilməyəcəyi, ölçüyəgəlməz bir uzaqlığa kimi,–bədənindən ayırmağı bacarmaqla tanınır, elə bununla da, bütün başqa adamlardan seçilir, deyilmi?

-Doğrudan da elədir.

-Simmiy, sən bunu bilməmiş olmazsan, adamların çoxluğunun düşüncəsinə görə, bədəni oxşayan nəsnələrdən duyğulanmayan, onlardan pay ummayan kimsənin yaşamında bir anlam yoxdur. Çoxluğun düşüncəsinə görə, insanın bədənini oxşayacaq sevincləri qalmayıbsa, o, artıq ölümə gedən yolun sonuna gəlib çatmışdır.

-Bunu çox düz deyirsən, fəlsəfəni anlamayanlar belə düşünürlər.

-İndi baxaq görək, biz qavramaq bacarığını necə əldə eləyirik. Bədənimizi fəlsəfi araşdırmalarımızda yol yoldaşı olaraq götürmək, onun dediyi ilə oturub-durmaq, bizi düzgün yoldan azdırırmı, yoxsa yox? Nə demək istədiyimi bir az da dərindən aydınlaşdırım. Adamlar nəyisə qavramaq istəyəndə, görmə, eşitmə, duyğularına arxalana bilərlərmi? Bildiyimiz kimi, elə şairlər də hey bir ucdan deyirlər, nə gördüklərimizin, nə də eşitdiklərimizin sonacan doğru olduğuna bel bağlamaq olmaz. İndi baxdığımız bu iki,–bədənə bağlı duyğularımız da, özlərinin kəsinliyi(dəqiqliyi), aydınlığı ilə seçilmirlərsə, özü də deyilənə görə, bunlar başqa duyğularımızdan artıq güvənclidir, yerdə qalan duyğularımız bunlardan gücsüzdür də, aşağıdır da, onda səncə, buradan

bədənə bağlı duyğularla qavradıqlarımızın sonacan doğru olmadığı çıxmırmı? Yoxsa sən belə düşünmürsən?

-Yox, nə danışırsan!

-Onda öpözün gerçəkliklə qovuşması, yəni onu qavraması,- Sokrat sözünün ardını dedi,- necə baş verə bilər? O, bədənlə birgə apardığı axtarışlarında, ən azından, bədənin yanılmasına görə, yanlışa qapılmaqdan qaça bilməyəcəkdir, eləmi?

-Sən düz deyirsən.

-Belə çıxır, yalnız düşüncələrin yardımına arxalanan öpöz, gerçəkliyi doğru-düzgün qavraya bilər!

-Elədir.

-Öpözün düzgün düşünmək bacarığı, gerçəkliyi olduğu kimi qavraya bilməsi isə, onu indi danışdığımız duyğular yanıldıb, azdırmayanda baş tutur,–nə eşitməyə, nə görməyə, nə bədəni üzən ağrılara, nə bədəni çılğınlaşdıran istəklərə uymayanda, bir sözlə, öpözün bədənlə bağlılığının ən az olduğu anlarda o, gerçək varlığa yovuşa bilir, yəni onu qavraya bilir.

-Düzdür.

-Demək, burada da filosofun öpözü, bədəninə saymazlıq göstərir, ondan qaçmağa çalışır, özü ilə təkbaşına qalmaq istəyir!

-Bunun belə olduğu aydındır.

-İndi isə belə bir sorğu, Simmiy. Biz düzgünlüyün, başqa nələrdənsə asılı olmayaraq, özü-özlüyündə var olduğuna inanırıq, yoxsa yox?

-Elə bilirəm, buna inanırıq, and olsun Zevsə.

-Gözəlliklə, yaxşılığın necə, özü-özlüyündə var olmasına inanırıqmı?

-Buna inanmamaq olmaz!

-Sən bu dediklərimizi, ömründə bircə yol olsa belə, öz gözlərinlə görmüsənmi?

-Yox, görməmişəm,- Simmiy dedi.

-Belə çıxır, görmədən, eşitmədən, toxunmadan, bunların varlığını bilirsənsə, onda sən bunları bədəninin başqa duyğuları ilə qavramısan? Mən indi bunlardan başqa da bu sayaq nəsnələrdən birilərini sadalamaq istəyirəm—ululuq, sağlamlıq, güclülük, habelə bunun kimilərini,—bir sözlə, özünün özlüyünə(mahiyyətinə) çatan gerçəklikləri

deyirəm. Yoxsa biz onları, bədənimizdə olan duyğularımıza arxalanıb, üzə çıxarırıq? Olmaya, tərsinədir, yəni bizlərdən kimsə: bütünlüklə, sürəkli olaraq, bunların üzərində düşünməyə özünü alışdıra bilirsə, elə o da gerçək qavramaya ən çox yaxınlaşa bilir?

-Məncə, ancaq belələri bunu bacararlar.

-Onda belə çıxır, bu işi bitkin olaraq ancaq o adamlar görə bilirlər, onlar bütün nəsnələrə ancaq təkcə öpözün doğurduğu düşüncələri ilə yanaşırlar(sözsüz, bunu haracan bacarırlarsa), özü də bu düşüncələrində, görmə, eşitmə, habelə bu sayaq duyğularından yararlanmırlar, onlardan birini də öz anlaqlarına yardımçı olaraq qoşmurlar, kimsə gerçəkliyin özü-özlüyündə var olan nəsnələrini, olduğu kimi, özünün bütün arılığı-duruluğu ilə görmək istəyirsə, o gərək özü-özlüyündə var olan düşüncə ilə də yaraqlansın, bu düşüncə də gərək gözdən, qulaqdan, bir sözlə bədəndən büsbütün arınmış, ayrılmış olsun, yoxsa bədən bu işə qoşuldumu, öpözü yanıldır, ona nə doğrunu tapmağa, nə də gerçəkliyi düzgün qavramağa yol verir. Simmiy, sən bilən, dediyimiz təki araşdırmalar aparan kimsə, gerçəkliyi qavramaqda qat-qat artıq uğur qazanmayacaqmı?

-Sənin bu dediklərinin hamısı, Sokrat,- Simmiy dedi,- büsbütün doğrudur.

-Hə,- Sokrat sözünün ardını dedi,- kəsəsi, doğruçu filiosofların hamısında, bu dediyimiz sayaq bir inam olmalı, onların biri-birinə deyəsi belə bir yığcam sözü də olmalıdır: “Biz bədənimizlə bir olduqca, öpözümüzü bu yamanlıqdan ayırmadıqca, sanasan, dar bir cığırla düşüncələrimizə yaxınlaşa bilirik, bu üzdən də, araşdırdığımız konunu öz istəyimizcə anlaya bilmirik. Dediyimiz bu konunun adı isə doğruluqdur(həqiqətdir). Doğrudan da bədənimiz bizlərə, minlərlə sıxıntılar yaratmaqla qurtarmır—onu yedirmək də gərəkir!—üstəlik, çoxlu sızıltıları, ağrıları ilə o, gerçəkliyin özlüyünü(mahiyyətini) anlamaq işimizdə başımızı qatır, bizi düzgün yoldan sapdırır. Bədənimiz haracan bacarırsa, könlümüzü elə türlü diləklərlə, istəklərlə, qorxularla, başqa bu sayaq saçma-sapan qara-quralarla basa-təpə doldurur, inanın mənə, onların ucbatından yaranmış bu basabasda, nəsə gərəkli bir nəsnəni düşünməyə yer də qalmır! İnsanlar arasındakı bu, baş verən savaşların, didişmələrin, çəkişmələrin hamısı, bədənin, onun acgöz istəklərinin ucbatından olmurmu? Baş verən bütün savaşlar, var-yatır əldə etməkdən yana törəyir, bu isə birbaşa bədənin istəyidir, biz də bir qul sayağı, onun bu

istəyi üçün əlləşib-vuruşuruq. Bax bütün bunlara görə də,- yəni, bədənin ucbatından- bizim fəlsəfəni öyrənməyə boş vaxtımız belə qalmır.

Bundan da pisi: biz hansısa sürədə, bədənin bu istəklərindən qurtulub, öz araşdırmalarımıza, düşüncələrimizə girişmək istəyiriksə də, bədən aman vermədən bizi qorxutmağa, yanıltmağa, yayındırmağa, karıxdırmağa başlayır, bununla da doğru olanı görüb duymağımıza yol vermir. Bunun tərsi olan, danılmaz doğruluq isə budur: arınmış-durulmuş bilikləri qazanmaq üçün, tək çıxış yolu—bədəndən ayrıla bilməkdən, özü-özlüyündə var olan nəsnələrə, özü-özlüyündə var olan öpözümüzlə baxa bilməkdən keçir. Buradan belə çıxır, bizim bu sayaq vurğunluqla çatmaq istədiyimiz, yəni doğruçu anlaq dedyimiz nəsnə, bizdə ancaq ölümdən sonra ola biləcəkdir, bizim bayaqdan apardığımız araşdırmaların sonucu budur,–diriliyimizdə biz buna çatası deyilik. Bədəndən ayrılmadıqca arınmış biliklər qazanmaq olmursa, onda ikisindən biridir: gerçəkliyi qavramaq olası iş deyil; yoxsa da, onu ancaq ölümdən sonra qavramaq olar. Ölümdən öncə, öpözün buna sarı gedən yolunu bədənimiz addımbaşı kəsir, onu yanıldır, yavaşıdır, ancaq ölümdən sonra, yalnız onda, öpözümüz özü-özlüyündə var olanda, bu baş tuta bilər. Haçağacan biz diriyik, o çağlarımızda bu biliyə ən yaxın olmaq üçün tək bir yol qalır: haracan bacarırıqsa bədənimizlə ilişiyimizi azaldırıq, onun düşkünlüklərinə yoluxmuruq,–tanrının bizə göndərəcəyi ölümlə, öpözümüzü bu asılılıqdan qurtaracağı anacan,–ara vemədən, özümüzü arıtlamaqdan əl götürmürük. Bu sayaq arınmaqla, bədənimizin doğurduğu anlaqsızlıqlardan qorunmaqla biz, özü-özlüyündə var olan, yəni bütünlüklə arınıb özlüyünə(mahiyyətinə) çatmış gerçəklikləri, artıq öz gücümüzlə də qavraya bilərik, bu yolla qavradıqlarımız isə, ölümdən öncə anlaya bildiyimiz doğruluğun özü deməkdir. İnsanlar arasında yer alan davranış düzənlərinə görə, kirli əllərlə arınmış nəsnəyə toxunmaq yolverilməz sayılır, buna oxşar olaraq da, özü-özlüyündə var olana, arınmamış öpözlə qovuşmaq yasaqlanıb, o kir götürmədiyi üçün, kirli olanı özünə yaxın buraxmır”. Bax belə, Simmiy, mənə elə gəlir, doğruçu biliklərə çatmaq istəyənlərin hamısının, biri-birinə deyəcəkləri söz bu olmalıdır, onlar bu baxışlarının üstündə dayanıb durmalıdırlar. Sən bu dediklərimlə anlaşırsanmı?

-Bütünlüklə anlaşıram, Sokrat.

-Bu dediklərim düzgündürsə, arxadaşım,- Sokrat sözünün ardını gətirdi,- onda qalır bircə ona güvənmək, mənim indi yola düşəcəyim yerdə, yalnız orada, bütün ömrümüz boyu ağır əməklərə qatlaşıb axtardıqlarımızın hamısını tapa biləcəyik, ona görə də, uğraşdığım bu yolçuluğa böyük umdularla başlayıram, öz anlağını arıtdığına, onu gərəyincə yetişdirdiyinə inananların hamısı təki, bu yolun sonunda yaxşılığa çatacağıma güvənirəm.

-Mən də elə sən dediyin kimi düşünürəm,- Simmiy dilləndi.

-Arınmaq isə - o demək deyilmi(öncə dediyimiz təki), öpözümüzü haracan bacarırıqsa bədənimizdən ayırırıq, özümüzü ancaq öpözümüzün aşıladığı, özümüzə yaraşanlardan qurub yaratmağa alışdırırıq, özümüzü haracan bacarırıqsa oracan, özümlüyünə(mahiyyətinə) toparlanıb yaşamağa yönəldirik,- indi də, gələcəkdə də, ancaq özümüz olaraq qalmağa, bədənin istəkləri adlanan qandallardan qurtulmağa, bir sözlə öpözümüzü(ruhumuzu) özünün özgürlüyünə çatdırmağa çalışırıq!

-Düz sözə nə deyəsən,- Simmiy səsləndi.

-Bax ölüm deyilən də, elə budur da var—öpözün bədəndən ayrılması, ondan qurtulması!

-Bu sözününü qabağında deyiləsi, başqa bir söz ola da bilməz.

-Öpözün, bu sayaq qurtuluşunu isə,- bizim inandığımıza görə,- ara verməyən bir sürəkliklə, ancaq doğruçu filosoflar umurlar, onların fəlsəfədə görmək istədikləri işin adı elə budur da var—öpözü bədəndən ayırmaq, onun basqılarından qurtarmaq. Belədir, yoxsa yox?

-Görünən budur, belə də olmalıdır.

-Onda mənə bircə o qalır, öncə dediklərimi bir də yenələyim: hansısa insan bütün ömrü boyu özünü elə yaşamağa öyrədirsə də, bacardıqca öz ölümünə yaxınlaşa bilsin, onda ölüm gəlib çıxanda, onun karıxması, başını itirməsi, gülünc deyilimi?

-Sözsüz bu, olduqca gülünc görünərdi.

-Bu doğrudan da belədir, Simmiy,- Sokrat sözünün ardını dedi,- doğruçu filosoflar ölümü çox götür-qoy eləyirlər, bu yer üzündə onlar kimi ölümdən qorxmayan da tapılmaz. Özün başına vur. Onlar ara vermədən öz bədənləri ilə çəkişirlərsə, öpözlərini bacardıqca ondan ayırmaq istəyirlərsə, sonra da ölüm gəlincə, yəni öpözlərinin

bədənlərindən bütünlüklə ayrılmaq anı çatınca, necə qorxa, karıxa bilərlər,- bu başdan-ayağa bir qanmazlıq olmazdımı?! Necə ola bilər, bundan sevinc duymayasan, sən indi bütün ömrün boyu sevə-sevə axtardığını tapacağın yerə yola düşəcəksən,- gerçəkliyi düzgün olaraq qavramağı sevən sən deyildinmi?- ən başlıcası isə, sənlə çoxdan yağılıq eləyən bədənindən ayrılmağa girəvə tapmısan! Çoxlu elə insanlar olmuş, Aidə onlardan qabaq getmiş sevimli kimsələrini tapmaq yanğısı ilə, oraya sevinc içərisində qoşmuşlar, tutalım, öz xanımı ilə, oğlu ilə orada görüşə biləcəklərindən ürəkləri atlanmışdır; onlar öz istəkliləri ilə orada qovuşa bilmək, onlardan bir də ayrılmamaq umdusu ilə ora çapuq getməyi istəmişlər. Onda, anlaqlı olmağı ürəkdən istəyən insan, özü də bunun yalnız öpözünün bədənindən ayrılıb Aidə köçməsi ilə bütünlüklə gerçəkləşə biləcəyinə güvənən kimsə,- ölüm çağı gəlib yetişəndə, bundan yasa batmalı, qara qayğılar çəkməlidirmi?!

Bax bizim düşüncələrimiz belə yönlənməlidir, arxadaşım Simmiy, biz doğruçu filosofdan danışırıqsa, o, anlağının büsbütün arınmış durumuna yetəcəyi yeri orada– Aiddə tapacağına ürəkdən inanmalıdır. Sözümü bir də yenələyirəm, belə bir kimsənin ölümdən qorxması, büsbütün bir qanmazlıq sayılmazmı?

-Elədir, bu doğrudan da böyük qanmazlıq olardı, and olsun Zevsə,- Simmiy dilləndi.

-Birdən ölümün yaxınlaşmasından başını itirən birini görürsənsə, bu onun fəlsəfəni yox, öz bədənini sevməsini göstərmirmi? Bu da ola bilər, o, var-yatırınmı, boş ad-sanınmı, habelə bu sayaq nələrinsə düşkünü olsun.

-Sənin dediklərini danmaq olmaz,- Simmiy dedi.

-İndi isə səndən soruşuram, Simmiy: bizim filosof deyə andığımız bu adamların yaşamlarının başlıca dəyəri, başdan-ayağa bir kişi ömrü yaşamalarında deyilmi?

-Sözsüz elədir.

-Qanacaqlılıq necə,–bilirsən də bunu, çoxluq o adamlara deyir, onlar: düşkünlüklərə qapılmırlar, istəklərinə ölçü-biçili yanaşa bilirlər, özlərini aşırılıqlardan çəkindirə bilirlər,–bizim baxışımıza görə bu, özünü başqalarından qat-qat artıq, onların bacarmadıqları bir ölçüdə, bədəninin istəklərindən çəkindirə bilən, yalnız fəlsəfə ilə yaşayan adamlarda olmurmu?

-Başqa sayaq ola da bilməz.

-Yaxşı,- Sokrat sözünün ardını gətirdi.- Sən birdən, bir azca əməyə qatlaşıb dərindən düşünsən, fəlsəfə ilə yaşamayan adamlarda da olduğu deyilən bu, kişilik, qanacaqlılıq dəyərlərini araşdırsan, burada nə isə bir uyğunsuzluq olduğunu görəcəksən.

-Bu necə olur, Sokrat?

-Sən axı bilirsən, toplumdakı çoxluq ölümü ən böyük bir yamanlıq sayır.

-Elədir!

-Birdən, bu çoxluğun içindən kimlərinsə, ölümü kişi kimi qarşılamağı, onların ölümdən qat-qat böyük saydıqları başqa bir yamanlıqdan qorxduqlarına görə deyilmi?

-Düzdür.

-Belə çıxır, filosoflardan başqa yerdə qalan hamının, yeri gələndə göstərdiyi kişilik, hansısa qorxudan-ürküdən qaynaqlanır. Ancaq çəkingənlikdən, qorxudan yaranan kişilikdə, nəsə bir uyğunsuzluq da vardır!

-Elədir.

-İndi isə gəlin çoxluğun içində üzləşdiyimiz, ölçü gözləyən adamlara baxaq. Filosoflardan başqası ölçü gözləyəndirsə, burada da bayaq dediyimiz kimidir: onların bu "qanacağı", bağlı olduqları hansısa başqa bir aşırılıqdan doğmuşdur. "Bu ola bilməz!"- deyə kimlərsə buna qarşı çıxa da bilər, ancaq duruma dərindən yanaşsaq, burada doğrudan da yan-yörəyə "qanacaq" adıyla sırınan bir qanacaqsızlığın olduğunu görəcəyik. Bu sayaq "qanacağı" olan, özünü hansısa düşkünlüyündən ancaq ona görə çəkindirir, birdən başqa bir düşkün istəyini yerinə yetirmək əlindən çıxa bilər, böyük bir qızğınlıqla bu düşkünlüyünə qovuşmağa çalışır, anında-sonunda bunu başqalarının üzərində ağalıq eləməkdə də tapır. Baxmayaraq, düşkünlük elə özünün aşırı istəklərinə qul olmaq deməkdir, ancaq bu adamlar bir düşkünlüyə qapılaraq, o birisini üstələyirlər. Buradan da elə indicə dediyimiz sözlərin doğruluğu görünməkdədir: bu adamların ölçü gözləmələri, onların düşkünlüklərinə bağlıdır.

-Məncə, belədir.

-Ancaq, istəkli Simmiy, biz buna ərdəmlilik baxımından yanaşsaq, bu aldəyişi(mübadiləni) düzgün saymaq olarmı—bir əyləncəni başqasına dəyişmək, bir düşgünlüyün yerinə başqasını qoymaq, bir qorxudan çıxıb o birinə düşmək, bütövü

götürüb, parçalamaq, bu lap, bir böyük axçanı kiçiklərinə dəyişməyə oxşamırmı? Yox, ancaq bircə düzgün axça ola bilər–qanacaq!–onun qarşılığında isə, mənliyinin bir neçə parçasını yox, onun hamısını vermək gərəkir; ancaq belə olanda, kişilik, qanacaq, düzgünlük, tikələnməyəcək, bütöv olacaq,—bir sözlə, ortaya doğruçu ərdəmlik çıxacaq: o, bütöv, özü-özlüyündə var olan qanacaqla qovuşacaq, burada hansısa əyləncəyə, qorxuya, habelə bu sayaq düşkünlüklərə də yer qalmayacaqdır. Yox birdən, biz bu deyilənləri qanacaqdan ayırıb, onları biri-biri ilə dəyişməyə başlasaq, onda boş görüntüdən başqa bir nəsnə olmayan qondarma "ərdəmlik" ortaya çıxacaq, bu da ancaq qullara, naxırçılara, əyri adamlara yaraşan bir "üstünlük" olacaqdır. Buna görə də, öpözün doğruluğu(həqiqəti)—bədənin bütün istəklərindən sonacan arınmaqdır, anlaqlılıq, düzgünlük, kişilik, qanacaq isə—bu arınmanın yardımçılarıdır. Elə buna görə də, ulularımız, bizə gəlib çatan, gizlinləri açıqlayan bilgilərini, elə-belə, gəlişigözəllik üçün yazıb qoymamışlar, onların yazdıqlarına görə: arınıb-durulmadan Aidə düşənlər, çamurun içində ağnamaqla günlərini keçirəcəklər, arınmışlar, aydınlaşmışlar isə Aidddən keçib, tanrıların arasında yaşamaq üstünlüyü qazanacaqlar. Görünür, keçmişlərdən qalma gizlin bilgiləri düzgün yozanların: aramızda "çoxlu tirsonosların*, azacıq vakxantların* olmasını" demələri də boşuna deyil, burada anılan "vakxantlar" isə məncə, bir başqası yox, doğruçu filosoflardır da var. Mən də onlardan biri olmaq istədim, - bütün ömrüm boyu, var gücümlə, bir anımı da boş buraxmadan, bunun üçün çalışdım. Mən düzgünmü yol tutmuşam, istəyimə çata bilmişəmmi, doğrusunu Aidə gedib çatandan sonra, tanrıların istəmindən asılı olaraq, biləcəyəm. Bildiyimə görə, bunu çox da gözləməyə gərək olmayacaq.

Bu da mənim özümü doğrultma çıxışım, Simmiylə, Kebet; bax elə buna görə də mən qanıqara deyiləm, özümü belə toxdaq tuturam: mən indi sizlərdən,–öz arxadaşlarımdan, burada mənim uğrağıma(taleyimə) yiyəlik eləyənlərdən,– tanrılardan ayrılarkən, gedəcəyim yerdə də, burada olduğu təki, mənim uğrağıma yaxşı yiyəlik eləyənlər, o sıradan yaxşı arxadaşlar tapacağıma ürəkdən inanmaqdayam. Mənim bu danışdıqlarım sizlərə, afina hakimlərini inandıra bilmədiyim o danışıqlarımdan inandırıcı görünürsə, onda mənə ancaq buna görə sevinmək qalır.

Sokrat danışığını bitirən kimi Kebet dilləndi:

-Bax bunları - mənim düşüncəmə görə - olduqca gözəl incələdin, ancaq birisindən başqa: sənin insan öpözü(ruhu) üçün dediklərinə adamların çoxu inanmır. Onlar bundan qorxurlar, birdən, insan bədənindən ayrılmış öpöz, başqa bir yerə köçüb orada varlığını sürdürə bilməz, onların düşüncəsinə görə, insan ölən kimi, öpöz də o andaca dağılıb, yox olur. Bədəndən ayrılınca, ondan çıxınca, o da nəfəsimiz kimi, tutalım, elə tüstü kimi əriyib yox olur, uçub dağılır, bir sözlə yoxluğa kömülür. Düzdür, öpöz doğrudan da haradasa toparlanıb, özü-özlüyündə var ola bilərdisə, üstəlik də sənin indicə sadaladığın bütün yamanlıqlardan arınardısa, onda Sokrat, bu olay çox böyük, çox da gözəl olan umduların qaynağı olardı, eləcə də sənin bununla bağlı olaraq dediklərini də büsbütün doğru saymaq olardı. Ancaq öləndən sonra da, adamın öpözünün var olması, üstəlik onun düşünmək bacarığını saxlaması,- məncə bu indilikdə, yaxşı bir doğrultmaya, geniş bir başasalmaya gərək duyulan, sonacan araşdırılmayan bir konu olaraq qalır.

-Düz deyirsən, Kebet,- Sokrat onunla anlaşdı.- Ancaq biz indi necə eləyək? Sən bunun belə olub olmayacağını araşdırmaqmı istəyirsən?

-Çox istəyirəm,- Kebet dedi.- Sənin bu deyilənlər üzrə nə düşündüyünü bilmək mənim üçün çox ilgincdir.

-Yaxşı,- Sokrat dilləndi.- Mənə elə gəlir, indi ən komik şair belə, deyə bilməzdi, sanasan, mən burada boş-boşuna dilimi sürüyürəm, eləcə mənim özümə toxunmayan nələrdənsə üyüdüb tökürəm. Bu danışdıqlarımız sənin ürəyindən hay verirsə, qalan arxadaşlarımızı bezdirməyibsə, onda gəl araşdırmamıza başlayaq.

İlk öncə belə bir sorğuya baxaq: ölən adamların öpözləri Aidə gedib çıxaraq, orada qalırlarmı? Keçmişlərdən qalma bilgilərə görə,–biz onları bir az öncə anmışdıq,– buradan köçən öpözlər orada qalırlar, sonra ölülərin arasından çıxıb yenidən buraya qayıdırlar. Bu belədirsə, yəni dirilər ölülərdən törəyirlərsə, onda belə çıxır, bizim öpözlərimiz gərək Aiddə olsunlar, elə deyilmi? Birdən, onlar orada olmasaydılar, yenidən ortaya çıxa da bilməzdilər; buna görə də, indi biz bütün aydınlığı ilə göstərə bilsək, dirilər ölülərdən törəyirlər, bunun başqa yolu yoxdur, onda hamını öz sözlərimizin doğruluğuna da inandıra bilərik. Bu belə deyilsə, onda ayrı tutarqalar axtarmalı olacağıq.

-Çox gözəl,- Kebet dilləndi.

-Onda, - Sokrat sözünün ardını dedi,- bunları bir az da qolay anlamaq üçün, ancaq adamların çevrəsində qapanıb qalmayaq, konuya bir az da geniş çevrədə baxmağa çalışaq, bütün heyvanlara da, bitkilərə də baxaq,—bir sözlə, özlüyündə(mahiyyətində) yaradılma-törəmə dayanan nə varsa, hamısını götürüb araşdıraq, ondan sonra düşünək, bunların hamısı bir sayaq yaranmırmı?—qarşılıqlı olaraq biri-birinə tərs olanlardan törəmirlərmi bunlar?—istənilən duruma baxsan, orada biri-birinin tərsi olan qarşıdurmalar görünür. Örnək üçün, götür elə, gözəlliklə suyumsuzluğu, düzgünlüklə əyriliyi, bir sözlə minlərlə bunun təki biri-birinin tərsi olanları. İndi isə özümüzdən soruşaq: biri-birini danan, biri-birinin tərsi olan bu nəsnələrin olması, onların istənilən birinin, özünün tərsi olan nəsnədən törəndiyini göstərmirmi? Tutalım, bir nəsnə böyüyübsə, bu o demək deyilmi, o qaçılmaz olaraq, öncə kiçik olmalı, sonra bu kiçikliyindən artaraq, böyük olmalıydı?

-Məncə belədir.

-Buna uyğun olaraq da, o kiçilibsə, öz böyüklüyünün azalmasından kiçilib, eləmi?

-Sözsüz,- Kebet bununla da anlaşdığını dilə gətirdi.

-Demək bunun kimi də, gücsüzlük güclülükdən, yeyinlik də yavaşgəllikdən törəmişdir?

-Başqa sayaq ola da bilməz!

-Sənə yenədəmi örnək göstərim? Nə isə korlanıbsa, bu yaxşı olanın aşınmasından olmayıbmı? Kiminsə düzgün olmağı, onun əyrilikdən ayrılmağından yaranmayıbmı?

-Başqa necə ola bilərdi?

-Demək biz artıq buna yetərincə inanırıq: bütün nəsnələr belə yaranır—birinin tərsi olanlar, özlərinə tərs olanlardan da yaranırlar.

-Məncə bu konuda deyilənlər büsbütün inandırıcıdır.

-Onda gəl ardına baxaq. İstənilən biri-birinə tərs olan nəsnələrin ikisinin aralığında olan nəsnələr də varmı? Biri-birinə tərs olanlar ikidirsə, onda burada iki keçid olacaqdır—bu tərs olandan, o birinə, o birindən də buna. Örnək üçün, böyüklə kiçiyi götürsək, burada birində artım, o birində azalma vardır, birinə biz deyirik, o böyüyür, o birinə isə əskilir deyirik.

-Düz deyirsən,- Kebet dedi.

-Eləcə də, birləşməklə ayrılmağın, soyuma ilə qızmağın, habelə bütün başqa durumların hamısında belədir; biz bu durumların hamısına uyğun gələn sözlər tapa bilməsək belə, ancaq özlüyündə bu ancaq belədir də var: tərs olanların biri o birindən törəyir, buradakı birindən o birinə keçidin olması da qarşılıqlıdır.

-Bu dediklərinin doğruluğuna söz ola bilməz,- Kebet dedi.

-İndi isə mənə de görüm, insan diribaşlığının tərsi olan yuxudursa, onda insan yaşamının(həyatının) tərsi olan da varmı?

-Sözsüz, vardır.

-Bunun nə olduğunu deyə bilərsənmi?

-Ölüm,- deyə Kebet dilləndi.

-Demək, onlar biri-birinin tərsidirlərsə, onda biri-birindən törəyirlər, bununla yanaşı, bu iki tərs olanın arasında birinin o birinə keçməsi üçün də iki keçid olmalıdır.

-Bu, sözsüz belədir!

-Onda mən sənə indicə andığımız, biri-biriylə tərs gələn iki qoşa nəsnəni deyəcəyəm,- Sokrat dedi,- sonra onların biri-birinə keçidlərinin adını çəkəcəyəm, sən isə başqasını örnək gətirərsən. Mən deyirəm: yuxu ilə diribaşlıq, yuxudan diribaşlıq yaranır, diribaşlıqdan isə yuxu, bunların biri-birinə keçidləri isə: yatmaqla oyanmaq deyə adlanır. Dediyimi yetərli sayırsanmı?

-Büsbütün yetərlidir.

-İndi sən də mən dediyim sayağı, yaşamla, ölümdən danış. Sən yaşamın ölümün tərsi olduğuna inanırsanmı?

-İnanıram.

-Onların birinin o birindən törəməsinə necə?

-Ona da inanıram.

-Onda, diridən nə törənir?

-Ölü,- Kebet dilləndi.

-Onda ölüdən nə törənməlidir? – Sokrat soruşdu.

-Elə isə, ondan da dirilmənin törəndiyinə inanmalıyıq.

-Beləliklə də, Kebet, dirilik də, dirilər də, ölümdənmi törənirlər?

-Belə görünür.

-Deməli, bizim öpözümüzün Aiddə gedib çıxması düzdür?

-Oxşayır, belədir də var.

-Bu biri-birinə tərs olan qoşalığı bağlayan keçidlərdən, birisinin varlığı bütünlüklə göz qabağındadır, deyilmi? Axı ölüm—bizim gözümüzün önündə baş verir, buna nə deyirsən?

-Mən sənlə anlaşıram.

-Yaxşı, onda biz indi necə eləyək? Biz durub burada yalnız bir keçidin olduğunu deyib, ona tərs olan keçidin də ola biləcəyini dansaq, dəngəni(tarazlığı) pozmarıqmı, onda təbiət bir ayağı ilə axsamağa başlayıb, səntirləməzmi? Yoxsa, biz gərək, nə olur olsun, ölümün tərsi olan keçidi tapıb, buradakı dayanıqlığın pozulmasının qarşısını alaq?

-Biz bundan boyun qaçırmalı deyilik.

-Onda ölümün tərsi, səncə nə olur?

-Dirilmə.

-Oysa, bu dirilmə doğrudan da varsa,- Sokrat sözünün ardını gətirdi,- onda bu dirilmə necə baş verir? Ölümdən diriliyə keçidlə, deyilmi?

-Sözsüz, elədir.

-Deməli, biz indicə sənlə bunu anlaşa bildik: ölüm dirilikdən törənidiyi təki, dirilik də ölümdən törənir. Bu belədirsə, onda bizim danılmaz bir tutarqamız olur: ölənlərin öpözləri harasa köçüb orada qalmalı, sonra oradan da yenidən yaşama qayıdıb gəlməlidir.

-Elədir, Sokrat, mənə də elə gəlir - bu sənlə indiyə kimi anlaşdıqlarımızdan çıxan qaçılmaz bir sonucdur,- Kebet dilləndi.

-İndi isə bax, Kebet, bizim sənlə anlaşmamızın yerində olduğunu göstərən başqa bir tutarqa da var. Birdən, biri-birindən törənən tərsliklər ara vermədən biri-birini dəngələməsələrdi(tarazlmasaydılar), bu sayaq irəliləyişləri ilə qapalı bir çevrə cızmasaydılar, yəni törənmə bir düz xətt boyunca baş versəydi, bir yönü tutub gedərək, geriyə dönüb qayıtmasaydı,- sən başa düşürsənmi onda, törənənlərin hamısı anında-sonunda bir biçimə, bir görünüşə, bir qılığa(xasiyyətə) gəlib çatardı, bununla da törəyiş bitib qurtarar, kəsilərdi.

-Yox, mən bunu anlamadım. Bu necə olur? – Kebet soruşdu.

-Çox da qolayca! – Sokrat dedi.- Bir anlıq öz-özünə düşünsənə, tutalım ancaq yatmaq var, onu dəngələyən(tarazlaşdıran) oyanmaq isə yoxdur, - sən onda qolayca anlayarsan Endimion* üçün deyilənlər o andaca bir saçmalıq kimi görünər, öz anlamını itirərdi, onda Yer üzündə olanların hamısı da biryolluq yuxuya dalardı. Tutalım, nəsnələrin hamısı ancaq birləşsəydi, onların biri-birindən ayrılması dayansaydı, onda çox böyük bir yeyinliklə Anaksaqorun sözü doğrulmuş olardı: "Bütün nəsnələr bir bütövlüyün içindədir". Elə bunun kimi də, arxadaşım Kebet, birdən bütün yaşamdakılar ölə-ölə gedib, ölü də qalsaydılar, yenidən dirilməsəydilər,- bu yəni büsbütün aydın deyilmi, anında-sonunda bütün varlıqlar ölüb qurtarar, yaşam da yox olub getməzdimi? Tutalım, lap elə dirilik ölümdən yox, başqa bir nəsnədən törənib, sonradan ölsəydi belə, onda varlıqların hamısının ölüb getməsinin, tükənməsinin qarşısını necə almaq olardı?

-Belə olsaydı, mənin anladığıma görə, bunun qarşısını almaq olmazdı, Sokrat,- Kebet dedi.- Sənə gəlincə isə, mənə elə gəlir bu konunu çox düzgün araşdırırsan.

-Mənə də elə gəlir, Kebet, bu konunu ancaq bu yöndə araşdırmağa dəyər, başqa yönlər burada işimizə yaramayacaqdır,- Sokrat dilləndi,- özü də biz buradakı qarşılıqlı anlaşmamızda, öz-özümüzü azacıq da olsa belə aldatmırıq. Doğrudan doğruya, dirilmə–yaşarıların ölümdən törənməsi, bir gerçəklikdir. O sıradan ölənlərin öpözləri də gerçəkdən vardırlar, onların yaxşılarına yaxşılıq payı, yamanlarına yamanlıq payı çatır.

-Dayan görüm, Sokrat,- Kebet onun sözünü kəsdi,- sənin bu dediklərinin doğruluğunu göstərən bir tutarqa da vardır, unutmamasınsa, sən ötənlərdə dönə-dönə bunu deyərdin, yəni bilik, bizim özü-özlüyündə haçansa bilib unutduqlarımızın anılmasından(xatırlanmasından) başqa bir nəsnə deyil: biz indiki yaşamımızda nələrisə anıb, onlara görə hansısa biliklər qazana biliriksə də, demək onları keçmişlərdə, haçansa da bilməliydik,- bax bu tutarqa da sənin dediklərinin düzgünlüyünü göstərir. Bunun belə olması isə, ancaq ondan qaynaqlana bilərdi: gərək onda öpözümüz, bizim insan görkəmimizdə doğulmazdan qabaq da haradasa var olaydı. Elə buradan da, öpözün ölməzliyinin doğruluğu görünməkdədir.

(Dilmancdan: Buradakı danışıqlarda biliyin, keçmişlərdə bildiklərimizin anılması kimi yozulması, mifik-mistik görüşlərlə bağlıdır. İnsanın düşünmək bacarığının necə yaranmasını sonacan anlaya bilməyən keçmiş insanlar ayrı-ayrı yozumlar

düşünüb tapmağa çalışırdılar. Örnək üçün, Demokritə görə, insanın düşünməsi, onun yan-yörəsində gəzib-dolaşan ayrı-ayrı kabusların, bunları ona aşılamasından(pıçıldamasından) yaranır. Türkcəmizdə də bunun, bügünə gəlib çıxan izləri qalmaqdadır. Baxın, nəyisə öyrənməyə: anlamaq, nəyisə xatırlamağa isə: anmaq deməyimiz, eyni kökdən yaranan: "anmaqla", "anlamaq" deyimlərinin ortada olması, bunu göstərmirmi?)

-Bunun doğruluğunu necə göstərmək olar, Kebet? – Simmiy danışığa qoşuldu – mən nəsə bunu unutmuşam, anlatsana bir.

-Bunun doğruluğu ən yaxşı onda görünür, - Kebet dedi,- birisindən nəyisə onun anlayacağı bir dildə soruşsan, bu sorğunu, yəni ondan nə istənildiyini düzgün olaraq çatdıra bilsən, onda o da istənilən sorğuya düzgün cavab tapıb deyə bilir. Oysa, öncədən bu kimsələrin qabında bilik də, onlardan soruşulanı düzgün anlamaq bacarığı da olmasaydı, onda sözün düzünü tapıb deyə də bilməzdilər. Bundan başqa, kimisə hansısa bir cızımın(çertyojun), habelə bunun təki başqa bir cızıqla yön göstərən bir nəsnənin qarşısına qoyub, onun bunları necə qavramasına göz yetirsən, bunun elə dediyimiz kimi olduğunu başa düşəcəksən.

-Bu deyilənlər sənin üçün yetərli deyilsə, Simmiy,- Sokrat dedi,- bax gör, indi mənim deyəcəyim başqa bir açıqlama başına batacaqmı? Sən, bilik deyilənin, anmaq deyiləndən törəndiyinə inanmaq istəmirsən, elə deyilmi?

-Yox, mən buna büsbütün inanıram, - Simmiy bu sözlə barışmadı.- Məni indi başlıca olaraq, bu anmaqla bağlı olan konu düşündürür. Kebet ağzını açıb bundan danışmağa başlayan təki, mən bu konudakı bildiklərimi andım da, sizinlə büsbütün anlaşıram da. Ancaq buna baxmayaraq, mənim üçün, sənin bu konuya necə yanaşmağını, onu necə araşdırmağını bilmək qat-qat önəmlidir.

-Mənimmi? İndi deyərəm,- Sokrat dedi.- Məncə burada, bizim anlaşa bildiyimiz ortaq bir düşüncəmiz vardır: yəni, insan nəyisə indi ana bilirsə, deməli o bunu qabaqcadan bilməli idi.

-Elədir.

-Onda gəlin yoxlayaq görək, biz başqa yönlərdə də ortaq düşüncəyə gələ bilərikmi, yəni, bilik—ancaq indi mən deyəcəyim kimi törənirsə, onda öyrəndiyimiz

biliyə: öncədən bildiklərimizin anılması demək olarmı? İnsan birdən nəyisə görəndə, eşidəndə, habelə başqa duyğuları ilə qavrayanda, təkcə bu araşdırdığı nəsnəni tanımaqla qalmayıb, bunun ardınca başqa nəsnələrlə bağlı bildiklərini də anmağa başlayırsa, onda onun düşüncələrinin bu andakı anılarından(xatirələrindən) doğduğunu deyə bilərikmi?

-Bu necə ola bilər?

-Sənə bir örnək göstərim. İnsanı tanımaqla, liranı* tanımaq—bunlar başqa-başqa biliklər deyilmi?

-Sözsüz, belədir.

-Elə bilirəm, bu sənə artıq bəllidir, vurğunu olduğu kimsənin lirasını, bürüncəyini, habelə hansısa başqa bir andacını(yadigarını) görəndə, sevənlər hansı duyğuları yaşayırlar: onlar bu liranı tanıyan anda, gözlərinin qabağına bu liranın yiyəsinin görkəmi gəlir. Biz burada bayaqdan, öncədən bildiyini **anmaqdan** danışanda, elə bunu demək istəyirdik. Elə bunun kimi də, Simmiyi görənlər, o andaca Kebeti anırlar. Yəni, minlərcə belə uyğunluqlar tapıb, göstərmək olar.

-And olsun Zevsə, düz deyirsən, belə uyğunluqlar minlərcədir!- Simmiy dedi.

-Belə çıxır, bu sayaq durumların hamısı elə anmaqla bağlıdır,- Sokrat sözünün ardını dedi.- Ancaq mənə elə gəlir, burada ən başlıcası, artıq unutduğumuz, yoxsa da çoxdan görmədiyimiz nələrinsə anılmasıdır, buna nə deyirsən?

-Sənin dediklərin başdan ayağa düzdür.

-İndi isə mənə de görüm, atınmı, liranınmı çəkilmiş rəsminə baxıb, birdən hansısa insanı anmaq olurmu? Tutalım, Simmiyin rəsmini görüb, Kebeti anmaq ola bilərmi?

-Niyə də olmasın, ola bilər.

-Eləcə də, Simmiyin rəsminə baxıb, Simmiyin özünü də anmaq olur, deyilmi?

-Sözsüz, belə də olur.

-Bu dediklərimizdən o çıxmırmı, bir nəsnəyə baxıb, başqa nəsnəni anmaq, oxşarlıqdan da, oxşamazlıqdan da törənə bilər?

-Elədir.

-Oysa, biz nəyəsə oxşatdığımız bir nəsnəyə görə, başqa bir nəsnəni andığımızda, özümüzdən soruşmalı olmuruqmu: oxşatdığımız bu nəsnə, andığımıza bütünlükləmi, yoxsa tərsinə, yarımçıqmı oxşayır?

-Belə bir an olur.

-Onda bax gör, mən indi ardını düzmü araşdıracağam? Biz burada hansısa, özüylə tən gəldyinə inandığımız bir nəsnənin olduğunu deyirik, - mən burada hansısa dirəyin başqa bir dirəklə tən gəlməsindən, bir daşın o biri daşla tən gəlməsindən, habelə bu sayaq tay-tuşluqdan danışmıram,- mən nəyinsə, özü-özüylə tən gəlməsindən danışıram. Belə bir durumun olduğuna, biz inanırıq, yoxsa yox?

(Dilmancdan: Burada deyilən özü-özüylə tən gəlmə, nəsnənin özlüyünə(mahiyyətinə) çatması kimi anlaşılmalıdır, örnək üçün, deyilən hansısa söz: a)yalan ola bilər; b) yanlış ola bilər, yəni bütünlüklə yox, yarımçıq doğru ola bilər; c)bütünlüklə doğru ola bilər; Buradakı üçüncü deyilişə, sözün özü-özüylə tən gəlməsi demək olar.)

-And olsun Zevsə, inanırıq, buna necə inanmamaq olar?- Simmiy dilləndi.

-Biz bunun nədən belə olduğunu da bilirikmi?

-Çox gözəlcə, bilirik.

-Bu biliyi biz haradan alırıq? Bir az öncə dediyimiz nəsnələrdənmi? Tutuşduranda biri-birinə tən gələn dirəklər olsun, daşlar olsun, habelə başqa nəsnələr, biz onlara baxırıq, ancaq bu bizi hansısa başqa nəsnələri qavramağa yönəldir. Yoxsa, bu başqası dediyimizi sən burada seçib, ayıra bilmirsən? Onda gəl, bu duruma belə yanaşaq: biri-biriylə tən gələn dirəklər də, daşlar da, dəyişməz qaldıqları yerdəcə, birisinə onların biri-biriylə tən gəldiyi, başqa birisinə isə bunun belə olmadığı görünə bilərmi?

-Sözsüz, belə ola bilər.

-Onda özü-özüylə tən gələn nəsnə ilə necə,–sənə birdən elə gəlibmi, o, özü-özüylə tən deyil, yəni buradakı tən gəlmənin birdən sənə tən gəlməzlik kimi göründüyü olubmu?

-Belə bir çaşqınlığa düşdüyüm olmayıb, Sokrat!

-Demək belə çıxır,- Sokrat dedi,- nələrinsə öz aralarında biri-biriylə tən gəlməsi ilə, onların özünün özüylə tən gəlməsi ayrı-ayrı durumlardır.

-Yox, məncə, bu ola bilməz.

-Ancaq buna baxmayaraq, sən iki nəsnənin öz aralarında biri-biriylə tən gəlib gəlmədiyini ayırd eləmək üçün, onları bir-bir götürüb, özü-özüylə tən gəldiyi danılmaz olanla tutuşdurmalı olursan, düzdürmü?

-Bunu düz deyirsən,- Simmiy dedi.

-Özü də, tən gəlib-gəlməmələrini ayırd eləmək üçün tutuşdurduğumuz bu nəsnələr, biri-biriylə tən gələ də, gəlməyə də bilər, eləmi?

-Elədir.

-Bu elə də önəmli deyil,- Sokrat dilləndi.- Burada başlıcası odur, bir nəsnənin görünüşü sənə başqa nəsnəni andırırsa, bu onunla uyğunluğu olan da, olmayan da ola bilər,- bax biz öncədən bildiyimizi anmaqla, nələrisə qavrayırıq deyəndə, bu başa düşülməlidir.

-Sözsüz, elədir.

-Onda de görək,- Sokrat sözünün ardını gətirdi,- bu dediklərimiz: direklərlə, habelə bu sayaq başqa biri-biriylə tən gələn nəsnələrlə də, beləmi olur? Yəni, onlar öncə özü-özləri ilə tən gəldiklərinə görəmi, biz də onları biri-birinə tən sayırıq, yoxsa onların özü-özləriylə tən gəlməsində nəsə çatmadığından, başqası ilə bu sayaq tənləşməsinə gərək duyulur?

-Mənə elə gəlir, elə bu da çatışmır, özü də yetərincə,- Simmiy hay verdi.

-Onda bir anlığına gözünün önünə gətirsənə, birisi hansısa nəsnəyə baxıb, düşünür: “Mənim indicə gördüyüm bu nəsnə, tanıdığım başqa bir gercəkdən var olan nəsnəyə bənzəməyə çalışır, ancaq onunla tən deyil, ondan çox-çox geri qalır”. Onda biz belə düşünən adamın, indi gördüyü nəsnədən üstün olan o biri nəsnəni öncədən tanıdığına inanmalı deyilikmi?

-Sözsüz inanmaqdan başqa yolumuz qalmır.

-Çox gözəl. Elə isə, biri-biri ilə tən gələn nəsnələrə baxıb, özü-özüylə tən gələn nəsnələri anmağımız da, buna oxşamırmı?

-Doğrudan da belədir!

-Oysa, belə çıxır, biz öncədən, özü-özüylə tən gələn nəsnənin varlığını kəsinliklə(qəti olaraq) bildiyimizdən, sonradan, biri-biriylə tən gələn nəsnələrə baxanda

belə bir düşüncəyə qapılırıq: bu nəsnələr ikisi də, özüylə tən gələn nəsnə təki olmağa çalışırlar, ancaq buna bütünlüklə çatmağı bacarmırlar.

-Düzdür.

-Ancaq biz elə buradaca, bununla da anlaşırıq, yəni belə düşüncəyə dalmağımız: görmə, toxunma kimi duyğularımızın yardımı ilə törənir. Mənim bu dediklərim, elə bütün başqa duyğularımız üçün də doğrudur.

-Elədir, bu dediklərin bütün duyğularımızda özünü göstərməkdədir, Sokrat. Ən azı, biz araşdırdığımız konunu özümüz öz baxışlarımızdan yayındırmayana kimi bu belə də olur.

-Beləliklə də, bizim duyğularımız belə bir düşüncəyə yol açır: yan-yörəmizdə ancaq duyğularımıza arxalanıb qavradıqlarımızın hamısı, özü-özüylə tənləşməyə çalışır, ancaq bu istəyinə sonacan çata bilmir, eləmi? Biz beləmi sayırıq, yoxsa yox?

-Belə saymaq düzgündür, başqa sayaq yox!

-Onda belə çıxmırmı yəni, biz görməyə, eşitməyə, bir sözlə duymağa başlamazdan qabaq, gərək necəsə də bu özü-özüylə tən gələnin varlığını biləydik—onun varlığını bilmədən, biz onunla tənləşmək istəyənlərin də nə istədiyini duya bilməzdik: indicə dediyimiz kimi, biz onların hamısının onunla tənləşmək istəyib, ancaq buna çata bilmədiklərini artıq bilirik.

-Elədir, Sokrat, dediklərimizdən elə bu da çıxır.

-Biz yer üzünə gəldiyimiz-doğulduğumuz anlardan başlayaraq, görə, eşidə, bir sözlə yan-yörəmizdəkiləri duya bilirikmi?

-Sözsüz bilirik.

-Onda belə çıxır, özüylə tən gəlməni, biz doğulmazdan öncə bilməliydik,- bu belə deyilmi yəni?

-Belə çıxır.

-Bu dediklərimi doğulana kimi də bilirdiksə, onları bilə-bilə bu yer üzünə gəlmişiksə, onda belə çıxır,- doğulana kimi, o sıradan elə doğulan andan başlayaraq- biz elə, nəsnələrin biri-biriylə tən gəlməsini, böyük, ya kiçik olmasını bilməklə yanaşı, başqa çoxlu biliklərimizin hamısını da bilə-bilə doğulmamışıqmı? Bu dediklərimizin doğruluğu təkcə tənləşmə üçün qalmayıb, eləcə də, özü-özlüyündə gözəl olan, özü-

özlüyündə yaxşı olan, o sıradan: düzgünlük, qutsallıq(müqəddəslik) üçün də doğrudur, bir sözlə, bu doğruluğuna inandığımız sözlər, indiyəcən araşdırdığımız, soraqlayıb axtardığımız, “özü-özlüyündə gerçəklik” deyə “damğaladığımız” anlayışların hamısı üçün də yerinə düşür, özünü doğruldur. Ona görə də bunları bizim doğulmazdan öncə bildiyimizə söz belə ola bilməz.

-Doğrudur.

-Oysa biz, bir öyrəndiyimizi, artıq bir də unutmuruqsa, onda biz dönə-dönə doğulduğumuzda, bu biliklərlə doğulmalı, onları ömrümüzün sonuna kimi unutmamalıyıq da. “Bilmək” nə deməkdir? Bu, biliyi qazanmaq, onu sonacan itirməməkdir. Unutmaq deyəndə isə, yanılmıramsa, Simmiy, biz biliyin itirilməsini başa düşürük.

-Elədir, Sokrat, düz deyirsən,- Simmiy dedi.

-Elə isə, biz doğulanda, doğulana kimi bildiklərimizi unuduruqsa, sonradan duyğularımızın yardımı ilə, öncədən bildiklərimizi yenidən tapırıqsa, onda “öyrənmək”, məncə elə, öncədən bizim olmuş biliklərimizi geri qaytarmaqdan başqası deyil. Bunu isə, “anmaq” deyə adlandırmaqla biz ən düzgün olan sözü tapıb, işlətməkdəyik.

-Məncə də elədir.

-Elədir, buradan aydın olan bir də odur, insanın elə bir durumla üzləşməsi ola bilər, o, nəyisə görəndəmi, eşidəndəmi, habelə başqa duyğuları ilə qavrayandamı, bunun ardınca da bütünlüklə başqa bir nəsnəni düşünməyə başlasın, bu iki nəsnələrin oxşarlığına, yoxsa oxşamazlığına görə, öz unutqanlağını üstələyə bilsin. Beləliklə, yenidən bir də deyirəm, burada ikisindən biridir: birincisi, ola bilsin, biz hamımız özü-özlüyündə var olan nəsnələrin nə olduğunu doğulduğumuz gündəncə bilirik də, bu biliyimizi ömrümüzün sonuna kimi unutmuruq da, ikincisi, indi dediyimiz kimi, bunları ancaq anmaqla qavrayırıq, belə olanda isə öyrənmək demək, elə anmaq deməkdir də var.

-Doğru deyirsən, elə belədir də var, Sokrat.

-Sən bunlardan hansını seçərdin, Simmiy? Biz doğulduğumuz andan biliklərlə doğuluruq, yoxsa biz onları sonradan qazanırıq, yəni keçmişlərdə bildiklərimizi anmaq yolu ilə öyrənirik?

-Sözün düzü, bunlardan hansını seçəcəyimi anışdıra bilmirəm, Sokrat.

-Onda səndən bir söz soruşum, de görək, insan nəyisə bilirsə də, öz bildiyini sözə çevirib deməyi bacarır, ya yox?

-Sözsüz, o bunu bacarar, Sokrat,- Simmiy dedi.

-Demək, sən düşünürsən, bizim indi danışdıqlarımızı, elə hamı danışa da, açıqlaya da bilər, eləmi?

-Belə olduğunu düşünmək istərdim,- Simmiy duruxdu,- ancaq çox qorxuram, yarın(sabah) buçağ, yer üzündə, bunu hamıdan yaxşı bacaran kimsə, artıq bizim aramızda olmasın.

-Deməli, Simmiy, sən bunu hamının bacardığını düşünmürsən?

-Elədir, bu hamının bacaracağı bir iş deyil.

-Deməli adamlar, ancaq haçansa bildiklərini, ana bilərlər?

-Elədir.

-Yaxşı, onda bizim öpözümüzdəki bu biliklər haçan doğulur? Bu bizim insan görkəmində doğulmağımızdan sonramı olur?

-Sözsüz, yox!

-Demək, bundan öncə olur.

-Elədir.

-Belə çıxır, Simmiy, bizim öpözümüz, insan görkəmində üzə çıxmazdan öncə də, bədənimizdən ayrıca var olmuş, eləcə də bu çağlarında onun anlağı da olmuşdur.

-Elədir, ancaq bu da ola bilər, bu bilikləri biz doğulan anda, ıldırım kimi çaxıb keçən qısa bir sürədə alırıq, sənə elə gəlmirmi, Sokrat, bax biz indiyənəcən bu sürəc(zaman) deyiləni gözdən qaçırmışıq, onu bu götür-qoylarımızda, saya salmağı unutmuşuq.

-Qoy sən deyən təki olsun, arxadaş, onda de görək, biz onları hansı anda itiririk? Axı biz indicə sənlə, bu biliklərlə doğulmadığımızı anlaşdıq. Ola bilərmi, biz onları elə qazandığımız andaca da itirək? Yoxsa bunun, hansısa başqa bir anda baş verdiyini göstərə bilərsən?

-Yox, Sokrat, göstərə bilmərəm. Mən indicə çox boş bir söz dediyimi anladım.

-Onda, Simmiy, indi biz sənlə apardığımız araşdırmalarımızda belə bir yerə gəlib çıxmışıq: elə nəsnələr varsa da, sürəkli olaraq(həmişəlik) bizim dilimizin

ucundadır, - mən, gözəllik, ərdəmlik, başqa bu sayaq,–duyğularımızın gücü ilə anladığımız gerçəkləri deyirəm, üstəlik bunların hamısının olduğunu biz doğulduğumuz andan biliriksə,- bu doğrudan da belədirsə, deməli, bu gerçəkliklər necə qaçılmaz(zəruri) olaraq vardırlarsa, öpözümüz də bu sayaq qaçılmazlıqla, bizim doğuluşumuzdan öncə var olur. Onların bu ilişkisi gerçəkdən, dediyimiz təki olmasaydı, onda bizim araşdırmamız da büsbütün başqa yöndə olmalı deyildimi? Demək, bu elə belədir də var, sadaladığımız gerçəkliklərin özü-özlüyündə varlığı ilə, öpözümüzün biz doğulmadan öncəki varlığı, biri-biriylə qırılmaz bağlı olan qaçılmazlıqlardır(zərurətlərdir), bunlardan biri olmasa, o birisi necə olardı?

-Mənə də elə gəlir, bunun belə olması doğrudan da bir qaçılmazlıqdır, Sokrat,- Simmiy dedi.- Bir də bizim qavramaq bacarığımız(mühakiməmiz), burada özünə nə gözəl sığınacaq tapmış olur: deməyəsən, sənin dediyin bu, özü-özlüyündə var olan gerçəkliklər də, öpözümüzün biz doğulmazdan öncə var olması da, biri-birindən beləcə asılı imiş! Məni deyirsənsə, artıq bunları bütün aydınlığı ilə anlamaqdayam: elədir, sənin dediyin bu nəsnələr,- gözəllik də, ərdəmlik də, elə başqaları da, nədənsə asılı olmadan, danılmaz olaraq, gerçəkdən vardırlar. Mənə bundan artıq tutarqalar gətirməyə gərək yoxdur.

-Onda Kebetlə necə olsun?- Sokrat soruşdu.- Biz onu da inandırmalı deyilikmi?

-Mən elə bilirəm, bu deyilənlər, onun üçün də yetərli olar,- Simmiy dedi,- ancaq deyəsən bu yer üzündə ondan tərsi, ondan sözəyatmazı da tapılmaz. Buna baxmayaraq, mən düşünürəm, o da bizim öpözümüzün doğuluşumuzdan qabaq var olduğuna inanasıdır. Ancaq biz öləndən sonra da, o var olacaq, yoxsa yox,- o sözünün ardını dedi,- Sokrat, sözün düzü, mən özüm də bunun doğruluğuna sonacan güvənmirəm. Bu konuda çoxluğun anışdıra bilmədiklərini dilə gətirən Kebetin də dediyi kimi, ölümdən sonra öpözümüzün yörəyə yayılıb yox olmayacağı, mənə elə gəlir, indiyənəcən də danılmaz tutarqalarla sonacan aydınlaşdırılmayıb. Özlüyündə, qoy lap öpözümüz, başqa bir yerdə yaransın da, biçimlənsin də, insan bədəninə yoluxmazdan qabaq var olsun da,- bütün bunlar, insan öləndən sonra, öpözün bədəndən ayrılıb yox olmasının, dağılmasının, yolunumu bağlayır?

-Sən düz deyirsən, Simmiy,- Kebet də onun sözünə qoşuldu. – Mən isə belə deyərdim: doğruluğuna inandırmaq istədiyimiz konunu, ancaq yarısınacan doğrulda bilmişik, yəni öpözümüzün biz doğulmazdan qabaq var olduğuna inanmaqdayıq. İndi qalır, onun bizim ölümümüzdən sonra da var olacağına inanmağımız, yəni onun doğulmazdan öncə var olduğuna indi necə inanırıqsa, ölümdən sonra da var olacağına, o sayaq inanmalıyıq, arxayın olmalıyıq. Yoxsa, inanmaq istədiyimiz doğru, yarımçıq qalacaq, bütünlüklə doğrulmayacaqdır.

-Onun bütünlüklə doğru olduğu elə indi də göz qabağındadır, ay Simmiy, ay Kebet,- Sokrat dedi,- bir az öncə anlaşdıqlarımızdan, bunların ikisinin də doğruluğu görünür, yəni bütün dirilərin, ölülərdən törəndiyini deməyimizdən elə bu çıxır. Bizim öpözümüz öncədən var olub, sonradan yaşama gəlmək üçün doğulursa, onda anlaşdığımıza görə, o qaçılmaz olaraq, ölümdən, ölümlüdən törənməlidir. Belə olanda o kəsinliklə, ölümdən sonra da var olmalıdır: yoxsa o bir də yenidən necə doğula bilərdi, onda diriliyin ölümlüdən törənməsi necə baş verə bilərdi? Deməli, sizin indi çək-çevirə saldığınız konunun doğruluğu artıq göstərilib. Ona görə də, mənə elə gəlir, sənin də, Simmiyin də, göz önündə olan doğruya göz yumub, dirəşməyiniz də, ancaq bununla bağlı ola bilər: sizin ürəyinizdə uşaqlarda olan təki bir qorxu vardır, sanasan, öpözümüz bədənimizdən ayrılanda külək onu alıb apara, səpib-dağıdıb-yox eləyə bilərmiş, - elə bil insan küləksiz gündə ölərsə, bu onun tufanlı gündə ölməyindən qorxusuz olacaqmış.

Kebet Sokratın bu sözlərini eşidəndə gülümsədi.

-Nə olar, Sokrat,- o dedi,- sən də bu qorxaqları toxtatmağa çalışsana. Öz aramızdır, deyəsən biz özümüz qorxaq deyilik, içimizdə bir kiçicik çağa oturub – bütün bunlardan qorxan da biz yox, odur. İndi sən də çalış, o çağanı inandıra biləsən, o da lap ağcaqayın ölümdən qorxan təki*, ölümdən üşənməsin, ürəyi üzülməsin.

-Mən bilən, onun bu qorxuluğunu götürmək üçün, gərək uzun-uzadı çalışıb, öpözünə yoluxmuş o çoru(yaman ruhu) qovub çıxarasan, - Sokrat dilləndi.

-İndi biz bunu bacaran o bilicini haradan tapaq, ay Sokrat, sən də bu gün bizdən ayrılıb gedirsən?

-Yunan Ölkəsi çox böyükdür, Kebet, bunu məndən başqa da bacaran kimsələr tapılar. Bundan başqa, yunanlardan özgə də neçə-neçə xalqlar var bu yer üzündə!

Görünür, bunu bacaran o bilicini tapa bilmək üçün, sizlərə onların hamısına baş vurmaq gərəkəcək, bu yolda axçanıza, əməyinizə qızırqanmayın, axça yatırmağa bundan da çox yarayan nəyinsə olduğunu düşünməyin. O bilici kimsəni elə öz aranızda da axtarın: mənə elə gəlir, anında-sonunda bu işi sizin özünüzdən yaxşı bacaracaq birisini tapa bilməyəcəksiniz də.

-Biz elə sən dediyin kimi də eləyərik, Sokrat, - Kebet dedi.- Ancaq indilikdə bu sənin ürəyincə olacaqsa, onda gəlsənə bu konunu araşdıranda harada dayanmışdıqsa, oradan başlayıb, ardını danışaq.

-Niyə də ürəyimcə olmasın, gəl danışaq.

-Çox gözəl.

-Məncə, indi bizim öz qarşımızda belə bir sorğu qoymağımız çox da yerinə düşərdi,- Sokrat dedi.- Nəsnələrin dağılması, yox olması, tükənməsi, onlardan hansılarının uğrağında(taleyində) vardır, yəni dağılmaq deyilən olay, hansı nəsnələri tükəndirə, yoxluğa sürükləyə bilir, hansı nəsnələrin isə bundan qorxub-çəkinəcəyi yoxdur? Bundan sonra isə, öpözümüzün bu nəsnələrdən hansılarının sırasına qatıldığını öyrənib, özümüz üçün bunu aydınlaşdırmağa çalışmalıyıq: öpözümüzün uğrağından yana qorxmağa dəyər, yoxsa onun gələcəyinə arxayınlıqla baxa bilərik.

-Elədir, məncə, sən araşdırmalarımızı düzgün yönəldirsən.

-Dağılmağa uğrayan bütün nəsnələrin öz yaranışlarına görə, birləşik(üzvi), qarmaşıq(mürəkkəb) olduqlarını düzgün saymaq olarmı, yəni, onlar yaranışlarında nələrdən qurulmuşdularsa, dağılanda da elə onlara ayrılırlar, elə deyilmi? Hansısa nəsnənin bu uğraqdan qaça bilməsinin ancaq bir yolu var: gərək bu nəsnə birləşik(üzvi) quruluşlu olmasın, eləmi?

-Elədir, məncə, burada sən dedyindən başqa bir yol yoxdur,- Kebet dilləndi.

-Belə düşünmək olar, birləşik olmayan nəsnələr—haçansa dəyişməyən, pozulmayan, əskilməyənlərdir, ancaq hansısa sürəcdə dəyişən, özlüyünü olduğu kimi saxlaya bilməyən nəsnələr isə,- birləşik olanlardır.

-Məncə də elədir.

-Onda gəl, bir az öncə dediklərimizin üstünə qayıdaq. Bizim indi araşdırdığımız gerçəkliklər özlükcə(mahiyyətcə)—hansısa sürədə dəyişirlər, yoxsa onlar sürəkli olaraq

dəyişməz qalırlar? Özü-özüylə tən gələn, özü-özülüyündə gözəl olan, bir sözlə özü-özlüyündə var olan gerçəkliklərin hamısı, hansısa dəyişikliyə uğrayırlarmı? Yoxsa bu gerçəkliklərdən istənilən birisinin ancaq bircə görünüşü olur, yəni özü-özlüyündə var olmaqlarıyla, sürəkli olaraq dəyişməz qalırlar, bir görkəmdə gözə çarpırlar, haçansa, hansısa duruma görə, ən kiçik dəyişikliyə belə uğramırlar?

-Onlar dəyişməz də, bir görkəmli də olmalıdırlar, Sokrat,- Kebet dedi.

-Onda biz bu yaşamda üzləşdiyimiz çoxsaylı, gözəl sayılan nəsnələrə necə yanaşmalıyıq, tutalım, gözəl insanlar, gözəl atlar, geyimlər təki, gözəlliyə tən gəldiyi, eləcə gözəl olduğu deyilən, qısaca desək, özü-özlüyündə var olan gerçəkliklə tutuşdurulan bu nəsnələrə nə ad verməliyik? Onlardamı dəyişməzdirlər, yoxsa tərsinə, istər özü-özlüyündə var olan gerçəkliklərlə, istərsə də biri-biriylə tutuşdurulanda, onların bir anlığına belə, dəyişməz olmadıqları üzə çıxır?

-Sən burada da sözün düzünü deyirsən,- Kebet dedi,- onlar bircə anlığına da dəyişməz qalmırlar.

-İndi isə mənə de görüm, biz bu dəyişən nəsnələrə əlimizlə toxunur, onları gözümüzlə görür, habelə başqa duyğularımızın yardımı ilə onları duymağı bacarırıqsa, dəyişməz olanları isə ancaq düşüncələrimizlə qavraya biliriksə,—onda bu ikincilərin, gözəgörünməz, biçimsiz(formasız) olduqları üçün belə olmurmu?

-Bütünlüklə doğru deyirsən!

-Beləliklə də biz sənlə anlaşıb, iki türlü varlığın olduğunu tapırıq: gözlə görünən, bir də gözəgörünməz.

-Sözünə qoşuluram.

-Gözəgörünməz, bütünlüklə dəyişməz, gözlə görünən isə, ara vermədən dəyişəndirmi?

-Buna da qoşuluram.

-Ardına baxaq,- Sokrat dedi.- bizim varlığımızda yer tutanlar–bədənimizlə, öpözümüz də, bu iki varlıq türlərinin içindədirmi?

-Sözsüz, belədir.

-Bədənimiz bunlardan hansına yaxındır?

-Bunu bilməyən bilsin, sözsüz, gözlə görünənə.

-Öpözümüz necə? O, gözlə görünəndir, yoxsa gözəgörünməz?

-Gözəgörünməzdir, ən azından insanlar üçün belədir.

-Biz bayaqdan, sürəkli olaraq, insan üçün nələrinsə gözlə görünən, nələrinsə gözəgörünməz olduğunu danışmaqdayıq! Yoxsa sən bu gözlə görünənlə, gözəgörünməzin, insandan ayrı bir varlıq üçün belə olduğundan danışırsan?

-Yox, mən bunların ancaq insan üçün belə olduğunu deyirəm.

-Onda öpöz üçün nə deyə bilərik? Onu görmək olar, yoxsa yox?

-Olmaz.

-Demək, onun görkəmi(şəkli) yoxdur?

-Elədir.

-Deməli, bədənlə tutuşduranda öpöz görükməyəndir, öpözlə tutuşduranda isə bədən—görükəndir, eləmi?

-Sözsüz, elədir.

-Biz demirdikmi, öpöz bədəndən yararlanmaqla, yəni görməyə, eşitməyə, habelə bu kimi duyğulara arxalanmaqla, nəyisə araşdıranda(bədənin gücü ilə araşdırmaq, elə duyğuların gücü ilə araşdırmaq deməkdir), onda bədən öpözü ara vermədən dəyişən nəsnələrə sarı çəkir, bunlarla uğraşanda isə öpöz düz yoldan çıxır, azır, özünü itirir, dəngəsi(tarazlığı) pozulub, içkili adamlar sayağı addımlayır.

-Düzdür, biz bunlardan danışmışdıq.

-Ancaq öpöz haçan bu araşdırmalarını, özü-özlüyündə var olmasına, yəni özlüyünə(mahiyyətinə) arxalanıb aparırsa, bütün nəsnələrin arılı-durulu, sonsuz, ölümsüz, dəyişməz olduğu yerə sarı yönəlir, o, özü-özünə qapanmaqla, yolunu bağlayan bədən çəpərini adlayıb, özü kimi olanlara,–özü-özlüyündə var olan gerçəkliklərə sarı irəliləyir. Bu baş tutunca, öpöz öz çaşqınlıqlarından qurtulur, onun,–dayanıqlı, dəyişməz nəsnələrlə sürəkli qovuşması başlayır, bu andan başlayaraq onun özünün də elə, qovuşduqları ilə birliyi, tənləşməsi başlayır. Onun bu durumunu biz qavrama adlandırırıq, düzdürmü?

-Çox düz deyirsən, Sokrat! Düzü, sən olduqca gözəl danışırsan!

-Onda gəl, bir də geri qayıdıb baxaq: öpöz hansı türlü gerçəkliyə ən yaxındır, ötənlərdə dediyklərimizin üstünə indi dediklərimizi də gəlib araşdırsan nə alınır?

-Mənə elə gəlir, Sokrat,- Kebet hay verdi,- istənilən kimsə, deyərdim lap ən geridə qalmış başıboş birisi belə, bu yolla getsə, ona da aydın olmalıdır, öpöz sözsüz, dəyişənə yox, dəyişməz olana qatılır.

-Bədən necə?

-Bədən dəyişilənə qatılır.

-İndi gəl, bu konuya başqa bir yöndən yanaşaq. Öpözlə bədənin bir yerdə olduğu sürədə, təbiət bədənə,–öpözə boyun əyib, ona qulluq eləməyi tapşırır, öpözə isə–bədənə buyuruq verib, onun üstündə böyüklük eləmək bacarığı verir. Bax bunu anlayandan sonra, indi de görək, burada onlardan hansı tanrıların ölümsüzlüyünə, hansı dirilərin ölümlüyünə yaxın olur? Sənə elə gəlmirmi, tanrısallıq(ilahilik), buyuruqlar vermək, böyüklük eləmək üçündür, ölümlülük isə, boyun əymək, qulluq göstərmək üçün yaradılıb?

-Məncə, elədir.

-Yaxşı, öpöz bunlardan hansına uyğundur?

-Aydındır, Sokrat: öpöz tanrısallığa, bədən isə ölümlüyə uyğundur.

-Gəlsənə, bir anlıq bu konunun üstündə düşünəsən, Kebet, indiyənəcən araşdırdıqlarımızdan belə bir sonucun çıxdığını demək düzgün olardımı: tanrısallığı(ilahiliyi), ölümsüzlüyü, bitkin anlaqlığı, görünüşsüzlüyü(şəkilsizliyi), dağılmazlığı, dayanıqlığı, dəyişməzliyi ilə, öpözümüz—özü-özlüyündə var olanlara büsbütün uyğundur, bunun tərsinə olaraq, insansallığı(insaniliyi), ölümlüyü, yarıtmaz anlaqlığı, çoxgörünüşlüyü, dağılanlığı, çürüyənliyi, dayanıqsızlığı, dəyişkənliyi ilə, bədənimiz—özü-özlüyündə var olanlara büsbütün uyğun gəlmir. Buna qarşı deyiləcək bir sözümüz varmı, istəkli Kebet?

-Yox, belə bir sözümüz yoxdur.

-Bu belədirsə, onda bədənimizin dağılıb gedənlə, öpözümüzün isə dağılmazlıqla bağlı olduğu ortaya çıxmırmı?

-Elədir, başqa necə ola bilər?

-Elə bilirəm, bu da sənin gözündən yayınmayıb, insan öləndən sonra onun görünən kəsiminin—bədəninin, gözəgörünənlərə uyğun olanının, bir sözlə onun ölüsünün, dağılması, çürüməsi, yox olması, bir anın içində baş vermir, insanın ölümü

bədəni üzülməmişdən, bir də ilin yaxşı bir çağında baş vermişsə də, onun ölüsü də olduqca uzun bir sürədə saxlana bilir. Bundan başqa, yaxşıca qaxac edilmiş, habelə Misirlilər sayağı mumyalanmış insan ölüsü, az qala sonsuza kimi qorunub saxlana bilir. Eləcə də, bədən çürüyəndə—sümüklər, vətərlər habelə bunun təki bir sıra üyələri(üzvləri), çox uzun sürədə aşınmırlar. Düzdürmü?

-Elədir.

-Onda gözəgörünməz olan bu öpöz,- adıuca, arınmış, gözəgörünməz yerlərə gedib çıxmaq diləyi ilə yola çıxırsa, bütün yaxşılıqların qaynağı, o sıradan ən böyük bilgə olan, Aid deyilən bir tanrının yanına üz tutursa,- tanrının istəminə görə, mənim də öpözüm, yaxınlarda ora getməli olacaq,- yəni bir az öncə necə yüksək bir varlıq olduğunu anışdırdığımız bu öpöz, bədəndən ayrılan kimi, doğrudanmı, çoxlarının inandığı təki, bir andaca dağılıb, yox olub gedə bilər? Yox, arxadaşlarım, Kebetlə, Simmiy, bu belə olası deyil, gəlin mən sizə deyim, bu necə olur. Tutalım, öpöz bədəndən ayrılanda ondan bütünlüklə arınmışdır, özü ilə bədənlə bağlı olan nəsə götürməmişdir, yəni bütün ömrü boyu, bilərəkdən, bədənlə ilişkilərdən qaçınmış, özünü onlardan qorumuş, bir sözlə özü-özünə toparlanmış, sürəkli olaraq bunun üçün çalışıb-çabalamışdır, başqa sözlə desək, doğruçu fəlsəfə yoluna qoşulub, ölümü yüngüllüklə, toxdaqlıqla qarşılamaq üstünlüyünə çatmışdır. Yoxsa, sizcə buna, özünü ölüm üçün yetişdirmək demək olmaz?

-Sözsüz, demək olar.

-Belə öpöz, onun özü təki, gözəgörünməz, tanrısal, ölümsüz, gerçək olan yerlərə gəlib çıxınca, burada ağgünlüyə çatır, sapqınlıqdan, qanacaqsızlıqdan, qorxudan, qaba istəklərdən, insanda ola biləsi bütün yamanlıqlardan biryolluq qurtulur,- gizlin bilgilərdən soraq verənlərin deməsinə görə,- sonsuzlara kimi tanrıların arasında yurd salır. Biz indicə anışdırdığımızı beləmi deməliyik, Kebet, yoxsa yox?

-And olsun Zevsə, elə belə də deyilməlidir,- Kebet dedi.

-Onu da düşünürəm, birdən öpöz bədəndən ayrılmazdan öncə alçalmışsa, pozğunlaşmışsa, yəni sürəkli olaraq bədənlə ilişkidə olmuşsa, onun istəklərinə uymuşsa, onun vurğunu olmuşsa, büsbütün onun düşkünlüklərinə qapılıb, artıq bədənlə bağlı olmayan bütün nəsnələri yalan sayırsa, - yəni, duymaq, görmək, içmək, yemək, qadınla yaxınlıq eləmək kimi nəsnələri doğru sanıb, gözəgörünməz, biçimsiz(şəkilsiz), ancaq

anlaqla, fəlsəfə ilə qavrana biləsi nəsnələri isə sevmirsə, onlardan qorxursa, ürkürsə,- necə bilirsən, belə bir öpöz bədəndən,–arınaraq, özünə yiyəlik eləmək bacarığı qazanaraq, ayrıla bilərmi?

-Yox, bu olası deyil!

-Mən düşünürəm, bu öpöz bütünlüklə, bədəni özünə hopdurmuş bir durumda olacaq: bədənlə ara verməyən bağlılıq, ilişkilər, sürəkli olaraq onun qayğılarını çəkmək, bu öpözü bədənlə büsbütün qaynayıb-qarışdırmışdır.

-Düzdür.

-Bədən isə, arxadaşım, əti-qanı, ağırlığı, torpağa bağlılığı, görünüşü olan varlıqdır. Buradan aydın deyilmi, öpöz də bədənlə qaynayıb qarışanda ağırlaşacaq, bu ağırlaşma onu yenidən geriyə, görünən varlıqların sırasına çəkib aparacaqdır. Aid deyilən gözəgörünməzlikdən qorxub-çəkincəkliyin doğurduğu bir çaşqınlıqla da bu öpöz, gorda da dinclik tapa bilmir, gor evlərinin(qəbirlərin) arasında döyükə-döyükə sülənir,—bir də onda görürsən oradan keçənlər, hansısa kölgələri, qarabasmaları gördüklərindən danışmağa başlayırlar. Bu qarabasmalar elə bədənlərindən arınmamış ayrılan öpözlərdir də var; onlar gözəgörünməzliyə qovuşa bilmədiklərindən də onları gözlə görmək olur.

-Elədir, Sokrat, oxşayır, elə sən deyən kimidir.

-Oxşayır yox, çox oxşayır, Kebet. Sözsüz bu öpözlər yaxşıların yox, yaman adamlarınkıdır: onlar keçmişdəki öz alçaq yaşamlarına görə də, gor evlərinin arasında beləcə azıb-tezib sülənməyə uğraşıblar, onların bu süləncəkliyi isə, ayrılmaq istəmədikləri keçmiş oynaşlarına–bədənlərinə qayıdıb, yenidən onlarda qandallanmaqla bitəcəkdir. Bu qandallar isə görünür, onların ötən ömürlərində alışdıqları öyrəncələrindən—düşkünlüklərindən düzəldilmişdir.

-Sən hansı öyrəncələri deyirsən, Sokrat?

-Bax, tutalım, kimsə qarınqululuğa, qadın düşkünlüyünə, içkiyə qurşanıb, özünü bunlardan qorumayıbsa, onun öpözü çox ola bilsin, eşşəyə, habelə bunun kimi heyvanların birinə keçsin. Yoxsa, sənə belə gəlmir?

-Elə bilirəm, bu ola bilər.

-Kimsə öz ömrünü, əyriliklə, yaramazlıqla, yırtıcılıqla keçirib, onun öpözü çox ola bilsin, qurda, qırğıya, ya da elə quzğuna keçsin. Yoxsa belə öpözlərin başqa bədənlərə keçəcəyini sanmalıyıq?

-Nə danışırsan!- Kebet dedi.- Sözsüz elə sən sadaladıqlarına da keçməlidir.

-Onda mənə elə gəlir, artıq büsbütün aydın olur, kim öz ömrünü necə yaşayıbsa, ölümündən sonra da buna uyğun olan payını alacaqdır.

-Bundan da aydın nə ola bilər!

-Onların arasında ən ağgünlüləri isə, ən yaxşı yerlərə köçüb gedəcəklər,- bunlar öz yurdu, eli üçün, yaxşılıqlar eləməyi bacaranlardır: onların gördükləri işlərinin adı isə, qanacaqlılıq, düzgünlükdür, ancaq bir iş də var, onların bu üstünlüyü, fəlsəfənin yardımı olmadan, yalnızca törələrin(adət-ənənələrin), ata-babadan qalma öyrəncələrin(vərdişlərin) yerinə yetirilməsindən doğmuşdur.

-Bu adamları nədən belə ağgünlü sayırsan?

-Deyim biləsən, onların öpözləri, ola bilsin yenidən, ellikcə əməyə qatlaşan, dinclik, barış içində yaşayan bir soya: arılara, qarışqalara köçsünlər, çox da ola bilər, yenidən insan soyuna qayıdıb, ölçü-biçi gözləməyi bacaran adamların sayını artırsınlar.

-Bu da ola bilər.

-Ancaq, filosof olmayan, sonacan arınmayan, öyrənməyə, anlamağa çalışmayan kimsələrdən biri də, tanrıların soyuna qoşulmaq uğrağına yetə bilməyəcəkdir. Ona görə də, istəkli arxadaşlarım, Simmiylə Kebet, doğruçu filosoflar bədənin bütün istəklərindən əl çəkirlər, bərk dayanıb, bu istəklərin onların üstünə ayaq almasına yol vermirlər, ancaq öz qazanclarını güdən çoxluq kimi yaşamağı özlərinə sığışdırmırlar, yəni yaşamın ağırlıqlarından, yoxsulluqdan qorxub çəkinmirlər, onlar hamıya ağalıq eləyə bilmək düşkünlüyünə, özünəvurğunluq yekəbaşlığına qapılanlar təki, adlarını batıracaqlarından, saya salınmayacaqlarından da qorxub çəkinmirlər, bu da onların, bütün yanlış, yaramaz umdulardan qoruna bilmələrinə görədir.

-Axı başqa bir yaşam onlara yaraşmazdı da, Sokrat!- Kebet hayqırdı.

-Elədir, yaraşmazdı, and olsun Zevsə. Kim öpözünün qayğısına qalır, ancaq bədənini yemləməklə ömrünü sovuşdurmur, o da bu düşkünlüklərdən qurtula bilir. Başqaları hara getdiklərini bilmədən yürüyürlər, ancaq fəlsəfəylə uğraşanların öz yolları

olur: onlar artıq fəlsəfəyə sayğısız yanaşmağın yolverilməzliyini anlamışlar, onun çağırdığı, özüylə tənləşib özgürlük qazanmaq, arınmaq yolunu tutub gedirlər, bu yolun hara aparıb çıxaracağı da onları qorxutmur.

-Bu necə olur, Sokrat?

-İndi deyərəm, bilərsən. Doğru olanı anlamağa çalışan adamlara yaxşı bəlli olan bax budur: onların öpözlərinin fəlsəfəyə sığındığı ilk çağlarda, bu öpöz bədənlə qırılmaz tellərlə bağlı olub, ona yapışıb, ayrıla bilməyəcək bir durumda olur, ona görə də öpöz bu anlarında varlığı özü-özlüyündə yox, ancaq bədənin yol verdiyi kimi qavraya bilir, sanasan, yan-yörəsinə, qazamatın barmaqlıqları arasından baxır, ona görə də qanmazlıq bataqlığında çabalayaraq, onun kirinə-pasağına bulaşır. Bu qazamatın yaratdığı qorxunc sıxıntını fəlsəfə belə görür: öz düşkünlüklərinin tutqusunda olan kimsə, istənilən qoruqçudan da qat-qat artıq ayıq-sayıqla, özünün bu dustaqlığının keşiyini çəkir. Beləliklə də fəlsəfəyə sığınan, doğruluğu anlamağa yönələn adam, öz öpözünün hansı durumda olduğunu çox yaxşı bilir, bunu bildiyindən də, öpözünü bədəninin dustaqlığından qurtarıb özgürlüyə yönəldən öyüdlərə qulaq kəsilir, bununla yanaşı, gözlə gördüklərinin, qulaqla eşitdiklərinin, eləcə də başqa duyğuları ilə qavradıqlarının, aldanışlarla dolu olduğunu açıq-aydın bilir, onlardan haracan bacarırsa ayrılmağa, onların göstərdikləri qulluqdan qaçmağa çalışır, özü-özünə toparlanıb, özümləşmiş öpözünün yönətimi ilə, ancaq özünə inanmaq yolunu tutur, yəni, özü-özlüyündə var olanların doğruluğuna inanır, özü də yalnız özü-özüylə tənləşəndə, - özümlü olduğu çağlarında, qavradıqlarını doğru sayır, öpözünün anlatdığı gözəgörünməzlikləri gerçək sayıb, bütün başqa araşdırmalarla, yəni, duymaqla, görməklə qavranılanları isə doğru saymır. Bax doğruçu filosof, könüllü olaraq uğraşdığı bu özgürlüyə qovuşmaq üçün də, bütün insanca olan sevinclərdən, umdulardan, diləklərdən, qüssələrdən, qorxulardan, gücü çatanacan qurtulmağa çalışır, o artıq bütün dərinliyi ilə anlayıb bilir: kimsə çox bərk sevinirsə, qüssələnirsə, qorxursa, habelə hansısa düşkün istəklərə qapılırsa, o, gözlənilən, olağan(adi) bir yamanlıqlarla üzləşir,- örnək üçün, ağrınır(azarlayır), özünün yaramaz istəklərinin düşkünü olur, habelə bunun kimi,- ancaq bundan da qat-qat pisi, bu dediyimiz duyğulara qapılan anlarında, onun özünün də baş açа bilmədiyi, çox böyük bir yamanlıqla üzləşməsidir.

-O hansı yamanlıqdır, Sokrat? – Kebet soruşdu.

-Bax beləsi: elə bir kimsə tapılmaz, onun öpözü güclü sevincəmi, qüssəyəmi qapılanda, o, bu durumunu doğuran olayı bütün aydınlığı, bütün dolğunluğu ilə anladığını düşünməsin, özlüyündə isə, belə deyil. Məncə, sən mənimlə anlaşarsan, bu sayaq çox qatı duyğuları doğuran olaylar gözəgörünəndir, yəni yarımçıqdır.

-Lap artıqlaması ilə, anlaşıram.

-Bununla necə, anlaşırsanmı: bax elə bu durumda da bədən öpözü bərk-bərk özünə çəkib, bağlayır?

-Anlamadım, bu necə olur?

-Bax beləcənə: istənilən qatı bir sevinc də, qüssə də, sanasan bir çüy(mismar) kimidir, buna görə də öpözü dəlib keçir, bədənə bərkidir, onunla birləşdirib, bədənin doğru saydıqlarına inanmağa sürükləyir. Bədənin baxışına, seçiminə(zövqünə) uyğunlaşan öpöz isə, mənə elə gəlir, onun yönümünə, öyrəncələrinə də bağlanmış olur, Aidə yollananda da bədəndən arına(təmizlənə) bilmir—bədənin ağır yükü onu arxaya dartır, o da geri dönüb, yenidən hansısa başqa bir bədənə köçür, əkilmiş taxıl sayağı yenidən cücərməyə başlayır. Beləliklə də o, özünün tanrısallıq, arınmaq, özüylə tənləşmək uğrağına(taleyinə) yetişə bilmir.

-Düzdür, Sokrat, çox düz deyirsən,- Kebet dedi.

-Buna görə də, Kebet, özünə yiyəlik eləmək də, kişilik də, insanlığa yaraşan bir anlağa çatmaq üçün əməyə qatlaşan kimsələrin payına düşür, yoxsa bu, çoxluğun gözə soxmağı sevdiyi birilərinin deyil. Yoxsa sən belə düşünmürsən?

-Yox, nə danışırsan!

-Hə bax, filosofun öpözü də indi biz dediyimiz təki anlamaq yolunu tutub gedir, ancaq elə fəlsəfəni quruca oxuyub öyrənməyin onun öpözünü özgürləşdirəcəyini sanmır, fəlsəfəni biləndən sonra, Penelopanın* toxunduqca qurtarmaq bilməyən parçası təki, bitib tükənmək biməyən insanlıq sevinclərinə, qüssələrinə, istəklərinə qapılıb, yenidən özünü qandallamır. Dərin bir toxdaqlıq içində, ara vermədən, öz anlağının yönətimində olan, doğruluğu, tanrısallığı(ilahiliyə), dəyişməzliyi əkib bəsləyən, onları öz yeməyinə çevirən öpöz, yaşadığı bədən diri olduqca yalnız belə yaşamağa üstünlük verir, o ələndən sonra isə özünə doğma bildiyi soydaşlarının yanına köçüb, insan

qaragünlüyündən biryolluq qurtulur. Belə yeməklər yeyib, belə bir ömür sürə bildiyinə görə də, ay Simmiylə, Kebet, onun hansısa yaramazlıqla, gözlənilməzliklə üzləşəcəyindən qorxub çəkinəcəyi olmur, o sıradan bədəndən ayrılandan sonra, yerlə bir olmaqdan, küləklə dağılmaqdan, gedər-gəlməzə yollanıb, biryolluq yoxluğa kömülməkdən də üşənmir.

Sokratın bu sözlərindən sonra ortalığı çox uzun sürən bir susqunluq qapladı. Bizim çoxumuzun da, elə onun özünün də indicə deyilmiş sözlərin üstündə dərin düşüncələrə daldığı açıq-aydın görünürdü. Çox sonra, Kebetlə Simmiyin öz aralarında yavaşdan nəsə pıçıldaşdıqları eşidilməyə başladı. Sokrat bunu sezib, onlara üz tutdu:

-Nə olub yenə? Siz doğrudanmı bu deyilənləri yetərli saymırsınız? Sözsüz, bu dediklərmizə başdan ayağa, bir də dərindən-dərinə baxsaq, yenə də az inandırıcı görünən, ağır qavranılan yerlər tapmaq olar. Yox, sizin danışığınız bütünlüklə ayrı bir konudadırsa, deyəcək bir sözüm yoxdur. Birdən, anlaşılmazlığınız bizim konuya görədirsə, onda utanmayın, öz baxışlarınızı açıb-töküb ortaya qoyun, demək istədiklərinizin inandırıcı olduğunu düşünürsünüzsə, məni də bu danışığınıza qoşun, ola bilsin, mənim yardımımla demək istədiklərinizi bir az da yaxşı araşdıra bilərik.

Onda Simmiy dilə gəldi:

-Sokrat, nə düşündüyümüzü olduğu kimi sənə deyəcəyəm. Biz lap çoxdan bir çaşqınlıq içindəyik, ancaq bunu səndən soruşmağı biri-birimizin üstünə atırıq, qorxuruq birdən sözümüz sənin könlünə toxuna,–sözün düzü, bu ağır günündə sənin ürəyini yaralayacağımızdan çəkinirik.

Sokrat yüngülcə gülümsünüb dedi:

-Ah, Simmiy, Simmiy! İndi düşdüyüm durumu qaragünlük saymadığıma özgələrini inandırmağın necə ağır bir iş olduğunu bilirdim, ancaq mən deyəsən siz arxadaşlarımı da buna inandıra bilməmişəm, ona görə də sizə elə gəlir, sanasan, mənim bugünkü günüm, qalan bütün ömrüm boyu yaşadığım günlərimdən ağır imiş! Siz doğrudanmı mənim Qu quşundan da az uzaqgörən olduğumu düşünürsünüz, bu quşların ölümün yaxınlaşdığını duyan kimi, ömrü boyu oxumadıqları çox gözəl bir şərqi qoşub, uca səslə oxuduqlarını bilirsiniz: onlar qulluğunda olduqları tanrının byuruğuna gedəcəklərinə görə, belə ürəkdən sevinirlər. İnsanlar isə özləri ölümdən bərk

qorxduqlarına görə, Qu quşlarının adına uydurma söz çıxarırlar, onların deməsinə görə, sanasan, Qu quşları öz ölümlərinə ağı deyirlər, sən demə ölümqabağı onların ürəyini sıxan qüssədən sarsılıb, bu şərqini qoşurlar. Bu yarımçıq anlaqlı adamlar bunusada başa düşmürlər, yer üzündə bir quş da olsa belə, aclıqdan, soyuqdan, habelə bunun təki sıxıntılardan şərqi oxumurlar,- nə bülbül, nə qaranquş, nə də hop-hop, sıxıntılı duruma düşəndə səslərini başlarına atıb ötmürlər, baxmayaraq biriləri, onların da oxumağının dara düşdüklərindən yana olduğunu deyirlər. Ancaq mənə elə gəlir, onlar üçün də, Qu quşu üçün də, bu deyilənlər boş uydurmalardır. Qu quşları bütün yaşamları boyu, Apollonun qulluğundadırlar, ona görə də, onlarda uzaqgörənlik vergisi vardır,- Qu quşları Aiddə onları gözləyən ağgünlü uğraqlarını(talelərini) öncədən gördüklərindən, yer üzündə yaşadıqları bu son gündən, belə sevinc dolu şərqilərlə ayrılırlar. Mən də özümü, Qu quşları təki, onların tanrısının qulluğunda sanıram, ona görə də, başımın ağası olan o tanrı, mənə də Qu quşlarından nə az, nə də çox olmayan bir uzaqgörənlik vermişdir, onun üçün də mən onlardan da qat-qat artıq, bu yaşamdan ayrılmaq istəyiylə alışıb-yanıram.

-Nə olar, çox gözəl,- Simmiy sözə başladı,- onda indi sənə bu danışıqlardan mənə qaranlıq qalan yerləri anladım, sonra da elə bilirəm, Kebet də səninlə nələrdə anlaşmadığını açıqlayar. Mənim düşüncəmə görə, Sokrat, –ola bilsin sən də belə düşünürsən,– bizim yaşamımızda, bu danışdığımız konular üzrə yetərincə bilgilər almaq baş tutası iş deyil, bu konuları araşdırmaq olduqca ağır, baş çatlatmaq gərəkən bir iş olsa da, ancaq əlimizin altında olanlardan sonacan yararlanmadan, bu konuda olan bütün baxışları sınayıb, sağ-çürük eləyib yoxlamadan, onları haracan bacarırıqsa araşdırmadan geri çəkilmək də, utancverici bir dardüşüncəlik olardı. Deməli, burada iki yoldan birini tutmalıyıq: birincisi, bu konunu doğru incələməyi bacaran varsa, ondan öyrənməliyik, ikincisi, beləsi yoxdursa, onda bu doğru incələmə yolunu özümüz axtarıb tapmalıyıq, nə birinci, nə də ikinci baş tutursa, onda insanlığın bu konu üzrə, buçağacan öyrəndiklərindən ən yaxşısını, ən güvənə biləcəyimizi, doğru saymalıyıq, sonra isə bu doğrunu, sanasan, bir sal sayağı, yaşamın axarına salıb axıdaraq, bütün ömrümüzü üzüb keçməliyik, əlimizin altında bundan da güvənli(etibarlı) gəmimiz—hansısa tanrısal(ilahi) bir öyrətmə yoxsa da, bizim bundan başqa yolumuz qalmır. Ona görə də,

mən ürəklənib,- sən özün də bunu istədiyin üçün,- indi bunları səndən soruşuram, bir də sözün düzü, indi susub səndən öyrənə bilmək girəvəsini əldən verdyimə görə, sonradan özüm-özümü qınamaq da istəmirəm. Bax belə, Sokrat, mən özüm də sənin sözləriniin üstündə düşündükcə, Kebetlə də onları götür-qoy elədikcə, onlar mənə sonacan inandırıcı görünmür!

Sokrat ona üz tutub dedi:

-Çox ola bilsin sən düzgün olmayaraq belə sanırsan, arxadaşım, ancaq bir mənə anlat görüm, bu "sonacan inandırıcı görünmür" açıqlamanla sən nə demək istəyirsən?

-Qulaq as, deyim: bayaqdan sənin apardığın araşdırma yolunu götürüb, onunla liraya da yanaşmaq olar, onun telləri(simləri) ilə, çıxardığı səs uyumluğuna(harmoniyasına) da elə bu yönümdən baxmaq olar. Düzünə qalsa, düzgün köklənmiş liranın səs uyumluğu(harmoniyası) da—gözə görünməz, biçimsiz(formasız), gözəl, tanrısaldır(ilahidir), eləcə də lira ilə onun tellərini—bədənə oxşatmaq olar, yəni onlar biçimli, qarmaşıq(mürəkkəb), yerə bağlı, bir sözlə ölümlüdürlər. İndi bir anlıq düşün, birdən bu liranı sındırırlar, kəsib doğrayırlar, tellərini isə qırıb tökürlər,—sənin yuxarıda ortaya qoyduğun tutarqaları əldə bayraq edən bir kimsə də durub, başqalarını buna inandırmaq istəyir: liranın çıxara bildiyi səs uyumluğu itib-batmayıb, o lira dağılandan sonra da öz varlığını saxlamaqdadır. "Bu ola bilməz",–bu adam belə deyəcək, sınmış lira, onun qırılmış telləri, ölümlü olsalar da, onların qalıqları gözümüzün önündə öz varlıqlarını saxlamaqdadırlar, onda demək, səs uyumu deyilən, tanrısallıqla, ölümsüzlüklə bağlı olan da qalmaqdadır, o, ölümlü olandan qabaq dağıla, yox ola bilməz. Sözün düzünə qalsa, Sokrat, mənə elə gəlir, sən özün də bunu çox gözəl başa düşürsən, öpözlə bağlı çoxluğun düşüncəsi belədir: bizim bədənimizin sağlığını törədən, onu diri saxlayan, bədənimizin yarandığı–istilik, soyuqluq, quruluq, sululuq, habelə bunun təki ilkin başlanğıcların birgəliyi, biri-biriylə qırılmaz tellərlə bağlılığıdır, bizim öpözümüz isə, bu ilkin başlanğıcların biri-biriylə, düzgün, gərəkən ölçülərdə qarışmasından törənənir, yəni öpözümüz, bu ilkin başlanğıcların birgəliyinin(kombinasiyasının), uyumluğudur(harmoniyasıdır). Öpöz uyumluqdursa, onda bədənimiz, ağrınmaqdanmı, habelə nəsə başqa bir üzgünlükdənmi, gücsüzləşəndə, tükənəndə,—öpözümüz də özünün bütün tanrısallığına baxmayaraq, bayaq dediyimiz

səs uyumluğu sayağı dağılıb getməlidir, elə başqa durumlara uyğun uyumluqlar da belə olmalıdır; ancaq bədənin qalıqları isə uzun bir sürədə, onları yanğın, çürümə yox eləyənə kimi, qala bilər. İndi buyur, düşün, kimsə bizə öpözün, bədənə quruluş verən ilkin özdəklərin(materialların) törəməsi, onların birgəliyindən yaranan uyumluq olduğunu deyərsə, ardınca da öpözün bədəndən asılı olduğu üçün, ölüm anında bədəndən öncə ölməli olduğunda dirənərsə, biz onun bu tutarqalarının qarşılığında nə deyə bilərik?

Sokrat özünün çoxdankı öyrəncəsinə uyğun olaraq, oturanların hamısını baxışları ilə süzdü, gülümsədi, sonra dilləndi:

-Simmiy lap baltanı kökündən vurur. Özünü məndən çoxbilmiş sayanınız varsa, onun sözünü yanıtlasın. Mənə elə gəlir, Simmiy bizim bu araşdırmamızı çox yerində, yenidən qızışdırmaq istəyir. Ancaq elə bilirəm, onun sözünü yanıtlamaqdan qabaq, Kebetin nə dediyini bilmək də yaxşı olardı, görək o bizim tutarqalarımıza qarşı nə deyir, o danışana kimi də biz nə deyəcəyimizi düşünüb-daşınarıq. Onların ikisinə də qulaq asandan sonra, görsək onlar çalğını düz tutublar, səslərini çalğıya uyğunlaşdırıb, yerində oxuyurlar, onda onların dedikləri ilə anlaşacağıq, belə deyilsə - onda öz dediyiklərimizin üstündə durmalı olacağıq. Haydı Kebet, sıra sənə gəldi: de görək, bayaqdan danışdıqlarımızda nə anlaşılmazlıq görürsən.

-Yaxşı, Sokrat, indi deyərəm,- Kebet dilləndi.- Mənə elə gəlir, bu araşdırmalırımız bizi dayandığımız yerdən irəli apara bilmədi, bu konu ilə bağlı öncədən anlaşa bilmədiklərimiz, elə indi də anlaşılmaz olaraq qalmaqdadır. Bizim öpözümüzün, indiki görkəmimizə girməmişdən öncə var olduğuna qarşı deyəcək bir sözüm yoxdur, bunu mən də doğru sayıram, bunun düzgünlüyünə bizi inandırmaq üçün dediklərinin olduqca yerində, çox da inandırıcı olduğunu danmıram. Ancaq öpözümüzün bizim ölümümüzdən sonra da haralarasa gedib, orada var olması, mənə çox az inandırıcı görünür. Düzdür, Simmiyin dediklərini, yəni, öpöz bədəndən gücsüzdür, ondan az yaşayır təki düşüncələrini də, paylaşmıram. Tərsinə, mənim düşüncəmə görə, öpözün bədəndən qat-qat artıq olan üstünlükləri vardır. “Bunu necə başa düşək?—məndən soruşula bilər.—İnsan öləndən sonra onun bədəninin ən kövrək olan yerləri belə, o andaca yox olub getmirsə, bir sürədə var olursa, onda sənin öpözə qarşı olan bu güvənsizliyinə(şübhənə)

nə ad vermək olar? Sənə elə gəlmirmi, bədəndən üstün olan, ölümdən sonra ondan da artıq bir sürədə özünün bütünlüyünü qoruyub saxlamalıdır?” İndi isə, bax gör, bu dirənişə qarşı deyəcəklərim bir işə yarayırmı? Sözsüz, burada mən də Simmiy təki, dediklərimi anlatmaq üçün, hansısa bənzətmələrdən yararlanacağam.

Bu sayaq araşdırma, məncə ona oxşayır, durub deyəsən, hansısa ölmüş qoca paltar toxucusu, sağdır, haradasa, uzaqlarda başı-gözü ağrımadan yaşamqdadır, buna inandırmaq üçün isə, qocanın özü üçün toxuduğu bürüncəyi göstərəsən: bürüncək bütündür, ona nə isə olmayıb, o korlanmadan gözümüzün önündə durur. Birdən kimsə buna qarşı çıxsa, biz onu küncə qısnayıb, yaşayan insanınmı, geyilən bürüncəyinmi uzunömürlü olduğunu soruşuruq, o da istər-istəməz: “İnsan bürüncəkdən artıq yaşayır” deməli olur,- biz də onu dilindən tutub deyirik, bürüncək təki uzunömürlü olmayan ortalıqdadırsa, cırılıb, korlanıb, çürüyüb, yox olmayıbsa, ondan qat-qat artıq uzunömürlü olan bürüncəyin yiyəsi də, yəni qoca toxucu da sağ olmalıdır, qurtardı getdi.

Sənə deyim, Simmiy, mənə bayaqdan elə gəlir, bu konunun çözülməsinə, sən deyən təki yox, büsbütün başqa sayaq yanaşılmalıdır. Mən indi sözümü deyəcəyəm, sən də anışdır, gör nə üçün belə deyirəm. İndicə deyəcəyim təki araşdırma aparmaq isə, bir az öncə Sokratın apardığı araşdırmanı yamsılamaqdır, bunu mən, bilərəkdən, ona görə eləyirəm, bu sayaq araşdırmanın yanlışlığını göstərə biləm,—nədən belə danışmağım da, qoy kimsə üçün qaranlıq qalmasın. Tutalım, qoca toxucu bütün ömrü boyunca, özü üçün çoxlu bürüncəklər toxumuş, onların hamısını geyib dağıtmış, ancaq axırıncı toxuduğunu geyib korlamağa ömrü yetməmişdir, məncə buna baxaraq, insanın bürüncəkdən gücsüz, kövrək olduğunu demək olmaz.

Elə bu sayaq da, bu bənzətmə ilə, bədənlə bağlı olan öpözə də yanaşmaq olar, onda öpözü toxucuya, bürüncəyi bədənə bənzədən kimsənin, toxucu ilə, bürüncək üçün bu dedikləri də düzgün sayılmalıdır: o, öncə, öpözün uzunömürlü, bədənin yaşadıqca üzülən, qısa ömürlü olduğunu deyəcəkdir; sonra, bu dediklərini bir az da gücləndirib, bunun ardınca, istənilən öpözün uzun bir sürədə çoxlu bədənləri geyib, üzüb-dağıdacağını deyəcəkdir, yəni bədən insanın sağlığında üzülüb gedir, sonra da ölür, dağılıb yox olur, öpöz isə özünə yeni-yeni bədənlər “toxuyub”, dağıtdığı bədənin yerinə yenisini geyinir. Çoxlu belə bədənlər dəyişən öpöz, özü də günləri birində öləndə, onun

sonuncu büründəyi(bədəni) gözümüzün önündə üzülməmiş, dağılmamış qalır—onun öpözdən artıq yaşadığı görünür. Buna görə də, öpözün tükənib, yox olmasından sonra, bədən də özünün yaranışındakı gücsüzlüyü anlamış olur, az bir sürədə çürüyüb gedir. Deməli, bizim bu tutarqamıza arxalanıb, ancaq bunu demək olar: biz öləndən sonra öpözümüzün haradasa var olacağına, çox da bel bağlamaq olmaz.

Bu harasıdır, mənə durub bunu da deyə bilərlər, tutalım, bu tutarqalara arxalananlara mən səndən çox əl yeri qoyuram, yəni mənim dediyimdən belə çıxır, öpözümüz bizim doğulmağımızdan öncə var olduğu kimi, bir sıra öpözlər də var, onlar bizim ölümümüzdən sonra da var olacaqlar, dönə-dönə doğulub, yenidən öləcəklər: öpöz öz yaranışından oracan güclü, yenilməzdir, çoxlu belə doğulmalara tablaşa bilər. Tutalım, biz öpözün çoxlu doğuluşlarında korlanmadığını, üzülmədiyini, ölümlərin birində isə, özünün də dağılıb yox olduğunu düzgün sayırıq,- elə isə, kim döşünə döyüb deyə bilər, öpözün "geyindiyi" sonuncu bədənin ölümündən sonra, onun özünün də dağılıb yox olacağından nəsə bilir, bundan başı çıxır?– görünən isə budur: bunları qavraya bilmək bizim əlimizdən gələsi iş deyil. Bu belədirsə, onda bizim ölümqabağı toxdaqlığımız, qorxmazlığımız da yerinə düşmür; bu durumumuzda bir anlaqsızlıq özünü göstərməkdədir, öpözümüzün tükənməzliyini, ölümsüzlüyünü kimsə sonacan bilmir, bilə də bilməz. Bunu bilmiriksə, istər-istəməz hamı ölənlər öz öpözlərinin gələcəyinə görə qorxu keçirəcəklər, onun bədəndən ayrılandan sonra yox ola biləcəyindən üşənəcəklər.

Simmiylə Kebetin danışdıqlarına qulaq asdıqca, bizim hamımızın qaş-qabağı tutulurdu. Biz Sokratın bir az öncə dediklərinə ürəkdən inanmışdıq, indi isə, Simmiylə Kebetin danışdıqlarından sonra, birdən-birə çaş-baş qalmışdıq, Sokratın dediklərinəmi, yoxsa bu son deyilənlərəmi, inanıb-inanmayacağımızı kəsdirə bilmirdik. Olmaya, bizim başımız bu sayaq dərin konuları araşdırmağa, anışdırmağa yaramır, onun buna gücü çatmır? Yoxsa, bu konunun özü, onu sonacan anlamağa yol qoymamışdır?

E x e k r a t. And olsun tanrılara, Fedon, mən sizin düşdüyünüz durumu çox yaxşı anlayıram. Bayaqdan sənə qulaq asıram, sonra da az qala özüm-özümdən soruşmaq istəyirəm: "Sokratın dedikləri elə inandırıcı idi, sanasan, onları danmağa yer qoymamışdı, ancaq indicə deyilənlər, onun dediklərini laxladıb, yerindən oynatmırmı?"

İndiyənəcən öpözün uyumluğa(harmoniyaya) bənzədilməsi mənim lap ürəyimdən soraq verirdi. Bundan danışılanda bir anlıq mənim özümün də, çoxdan elə beləcə düşndüyümü də anmışdım, ancaq budur, indi məni, öpözün bədənlə bir yerdə ölmədiyinə inandırmaq üçün, gərək kimsə ortaya büsbütün başqa bir tutarqalar qoysun. Səni and verirəm Zevsin adına, ardını danış! Sokrat dediklərinin doğruluğunu göstərmək üçün bundan sonra nə demişdi? Onundamı sizlər təki, bu deyilənlərdən qanı bərk qaralmışdı, yoxsa özünü tox tutub, araşdırmalarının ardını danışmağa başlamışdı? Onun bu dönə dedikləri yerinə düşürdü, yoxsa yox? Nə olar, bunları bizə bir yerli-yataqlı danışsana!

F e d o n. Bilirsən, Exekrat, mənim Sokratın danışıqlarına vurğunluqla qulaq asmağım çox olub, ancaq bu anlarda onun dediklərindən duyduğum vurğunluq bir başqa, sözlə deyiləsi deyildi. O, bundan qabaq deyilənlərin yanlış olduğuna bizi inandıran ən gərəkli cözləri tapıb deməyi bacardı, düzü burada bir gözlənilməzlik də yox idi. Ancaq mənim o anlarda aşıb-daşan vurğunluğum büsbütün başqa bir nədəndən oldu, birincisi o, gənc arxadaşlarının onun dediklərinə qarşı çıxıb dirənmələrini, bilsən necə də bir sevinclə, açıqürəkliklə, deyərdim lap coşqunluqla, qarşılayırdı, sonrası, onların dediklərindən bizim başımızı itirib sarsıldığımızı da, dərindən-dərinə anlayıb duyurdu, sonuncusu isə, o gözgörəti, bizi bütün bu şaşqınlığımızdan necə də bir zirəkliklə çıxara bilirdi. Biz savaşda yenilib, başını götürüb qaçan döyüşçülərə bənzəyirdik, o isə bizi saxlayıb, ürəkləndirib, yenidən savaşa qatılmaq üçün geri qaytarırdı, biz də onunla birgə, onun öndərliyi ilə, lap başlanğıcdan başlayıb, deyilənlərin hamısını yenidən araşdırmağa başlayırdıq.

E x e k r a t. Bu necə oldu?

F e d o n. İndi aydınlaşdıraram. İş belə gətirmişdi, mənə Sokratın sağında, kiçik bir oturacaq çatmışdı, ona görə də mən onun yanında, ondan çox aşağıda oturmuşdum. Sokrat da danışığımız boyunca, əlini mənim başımda gəzdirib, saçlarımı oxşayırdı, birdən o, əlini boynumun ardından çiynimə sarı tökülən tellərimə çəkib, dedi:

-Yarın(sabah), Fedon, sən bu qıvrım saçlarını qırxdıracaqsan*, deyilmi?

-Qorxuram, belə də ola, Sokrat,- mən dedim.

-Mənə qulaq assan, ola bilsin, bunları elə bu gün qırxdırdın.

-Nəyə görə?- mən soruşdum.

-Bilirsənmi nəyə görə, gəl biz ikimiz sözümüzü bir yerə qoyaq: mən indi sözümün doğruluğuna buradakıları inandıra bilməsəm, onda sənlə birgə, elə bu gün, ikimiz də saçımızı qırxdırırıq. Birdən bunun doğruluğunu göstərə bilmək girəvəsi mənim əlimdən sürüşüb çıxsa, onda sən, mənim ölümüdən sonra, bu dartışmada Simmiylə Kebeti yenməyənə kimi, arqoslular sayağı, saç saxlamayacağına and da içirsən.

- Deyirlər, iki adama qarşı Herakl belə duruş gətirə bilmir,- mən dedim.

-Onda məni harayına çağır,—gün sovulana kimi mən sənin İolayın* ola bilərəm.

-Sözsüz, çağıraram, ancaq tərsinə: mən İolay, sən Herakl olsan yaxşıdır.

-Belə də olar,- Sokrat dedi.- Ancaq burada bir qorxulası var, gərək özümüzü ondan gözləyək.

-O nə qorxulasıdır elə?- mən soruşdum.

-Sözlərə qarşı acıqlanıb, özündən çıxmağı deyirəm, insana acıqlanan təki, sözə qarşı da acıqlanmaq olur, deyilən sözə görə acıqlanmaqdan, buna görə kimdənsə yanıqlı olmaqdan da böyük yamanlıq isə ola bilməz. Bu acıq da elə, insana acıqlanmağa bənzəyir. Bunun yaranması isə belə olur, biz birdən qızışıb, araşdırma aparmadan, kiminsə sözünə inanırıq, yəni onu düzgün, sağlam düşüncəli, güvənli sanırıq, bir az keçməmiş isə, bu adamın yalançı, fırıldaqçı, habelə bunlardan da aşağı birisi olduğu bəlli olur. Kiminsə qarşısına dönə-dönə bunun kimiləri çıxırsa, birdən beləsi ilə özünə arxadaş saydığı kimsələrin arasında da üzləşirsə, onda bu incikliklərinə görə, hamını biri-birinə qatıb kin bəsləyir, yer üzündə sağlam düşüncəli, güvəniləsi bir kimsənin olmadığına, biryolluq özünü inandırır. Sənin belə bir olayla üzləşdiyin olubmu?

-Çox olub,- mən dedim.

-Səncə, bu utanmazlıq deyilmi?- Sokrat sözünün ardını dedi.- Bu, insanları tanımaq bacarığımız olmadan, onlara yanaşmağımızdan doğmurmu? Kimdə bu bacarıq varsa, o da yaxşı bilir, toplumda çox yaxşı, çox pis adamlar olduqca azdır, ancaq ortada qalanlar haracan desən çoxdurlar.

-Necə yəni?- mən soruşdum.

-Çox kiçik olanla, çox böyük olanın az olduğu təki. Çox böyük, çox kiçik olası insanlarlamı, itlərləmi, təkəm seyrək üzləşmirikmi? Götürək elə, çox yeyinlə çox yavaşı,

gözəllə suyumsuzu, ağla qaranı! Sən sezməmiş olmazsan, burada biri-birindən kəskin ayrılanlar seyrək olur, ancaq az-maz seçilib ayrılanlarla sıx-sıx üzləşirik.

-Bunu sezmişəm,- mən dilləndim.

-İndi birdən durub yaramazlıq yarışı keçirsək, lap alçaq olan adamlar çox az tapılar, deyilmi?

-Deyəsən, belədir də var,- mən dedim.

-Elədir,- Sokrat da mənim dediyimə qoşulduğunu bildirdi.- Hansısa konunu incələməklə, insanları tanıya bilmək arasındakı bu bənzəyişdən danışanda – mən sənin hara gedib çıxacağını izləmək istəyirdim,—birdən elə də olur, biz nəyinsə doğruluğu üzrə deyilənlərə qulaq asıb, bunun belə olduğuna inanırıq(baxmayaraq, nəyinsə doğru-olub olmadığını incələmək bacarığımız yoxdur), ancaq bir az keçmədən inandığımızı danırıq—bunlardan isə doğru çıxanı da, çıxmayanı da olur, özü də görürsən, bu dönə-dönə baş verir. Sən də bilməmiş olmazsan, bu ən çox o adamlarda olur, onlar istənilən deyilmiş sözə qarşı, necə olursa olsun, onun tərsi ola biləcək bir söz tapıb deməkdən ötrü əldən-ayaqdan gedirlər: anında-sonunda onlara elə gəlir, sanasan, bunu bacarmaq elə bilgəlikdir(müdriklikdir), yəni təkcə onların bildiyi belə bir “doğru” var: insanın qavradıqlarının hamısı, ucdantutma, sonacan sağlam düşüncəyə uyğun gələ, güvəncli ola bilməz, bütün doğrular da Okeanın suları təki dayanmadan qabarma-çəkilməyə uğrayırlar, bir an da olsa belə bir yerdə qalıb, dayanıqlı olmurlar.

-Dediklərinin hamısı çox düzdür.

-Necə bilirsən, Fedon, belə bir duruma düşmək dözülməz olduğu kimi üzücü də olmazdımı?–yəni birdən, doğru, güvəncli, anlaşıqlı olan biliklərə gətirib çıxaran bir incələməyə inandığımız yerdə, ona oxşar olan başqa bir incələməni də eşidib, çaşbaş qalırıq: onların sıra ilə, öncə birini, sonra da o birisini yalan saymağa başlayırıq, bunun ardınca isə, özümüzü belə bir yanlışa qapıldığımız üçün qınamaq yerinə, bu yersiz vurnuxmalarımızdan bezikib, öz suçumuzu bu incələmələrin üstünə atıb, onların hamısını yanlış sayırıq, bunula da yerdə qalan bütün ömrümüzdə, gerçək bilikləri öyrənmək yolunu üzümüzə qapayırıq.

-Elədir, and olsun Zevsə,- mən dedim,- bu doğrudan da çox üzücü, sıxıntılı bir durum olardı.

-Beləliklə də indi,- o sözünün ardını gətirdi,- öncə özümüzü bu qorxulası durumdan qorumağa çalışacağıq, bundan sonra isə, doğrunu üzə çıxarmaq üçün olan incələmələrin sağlam bir qavrayışa arxalana bilməyəcəyi kimi yanlış düşüncələri özümüzdən uzaqlaşdıracağıq, eləcə də, bu durumda ancaq özümüzün sağlam düşüncədən uzaq düşdüyümüzü anladığımızdan, ən ağır əməklərə qatlaşıb, işimizə yarayacaq sağlam düşüncəni arayıb-axtarmağa çalışacağıq: sizlərə bunu eləmək—gələcək yaşamınız üçün, mənə isə—öz ölümümü qarşılamaq üçün gərəkdir. Bizim danışıqlarımız o yerə gəlib çıxıb, mən indi durumdan düzgün baş açа bilməsəm, sizlərə filosof kimi yox, tərsliyinə salıb öz yanlışını doğruya çıxarmaq istəyən birisi kimi də görünə bilərəm, bu isə artıq büsbütün qanmaz adamların tutduğu bir yoldur. Onlar, hansısa konuda anlaşa bilməyəndə, onun dediyindən seçilən başqa bir düşüncəylə üzləşəndə, durumun özlüyündə necə olduğunun qayğısına qalmırlar; necə olur-olsun, öz dediklərini qarşısındakıların başına yeritməyə çalışırlar—onların anladıqları buracandır. İndiki durumda, məni onlardan seçib-ayıran təkcə budur, mən buradakıları öz sözlərimin doğruluğuna inandırmaq üçün dəridən-qabıqdan çıxmıram - öz aramızdır, bunun belə olduğu aydınca görünür,- mən sizlərdən çox özümü, bu dediklərimə inandırmaq istəyiylə danışıram. Bax mənim istəyim ancaq budur, istəkli arxadaşım, görürsən də burada, mənim özümü başqalarından çox saya salmağım da vardır: birdən mənim dediklərim doğru çıxsa, bunlara inanmağımda qalasıyam, yox, birdən ölən kimsəni, ölümündən sonra bir nəsnə gözləmirsə, onda bu ölümqabağı anlarımda öz gileylərimlə sizi bezikdirməyəcəyəm, mənim bu uydurmalarım da indi bir az başımızı qatıb, qüssəmizi dağıtmağa yarayacaq, mənim ölümümdən sonra isə unudulub gedəcək.

Bax belə, Simmiylə, Kebet, mən sözlərimin doğruluğunu anlatmaq üçün bu yolu tutmuşam. Siz isə gəlin, mənə qulaq asanda çalışın Sokrata yox, doğruya önəm verəsiniz; doğru dediyimi düşünsəniz, mənimlə anlaşın, yoxsa—haracan bacarırsınızsa, mənimlə diraşməyə çalışın. Baxışlarınızdan yayınmasın—mən birdən yanlışa qapılıb, özümü də, sizləri də aldadaram, sonra da sancdığı yarada öz tikanını qoyub uçan arı kimi uçub gedərəm.

Haydı, irəli! Öncə, birdən nəyisə unutmayım deyə - gəlin, dediklərinizi birgə yenələyək. Simmiy, yanılmıramsa, öpözü səs uyumluğuna(harmoniyasına) bənzədib,

öpözün bədəndən gözəl, tanrısal olmasına baxmayaraq, ölüm çağında onun bədəndən öncə tükənə biləcəyindən, yox ola biləcəyindən qorxduğunu dilə gətirmişdi. Kebet isə, öpözün uzunömürlü olması ilə bağlı mənim dediklərimlə anlaşır, ancaq deyirdi, kim deyə bilər, öpöz çoxlu bədənlərə girib onlardan çıxandan sonra əskilmir, üzülmür, bunun ardınca isə, bədənlərdən birini də dəyişəndə öpözün özünün də tükənəcəyini, yox ola biləcəyini deyirdi; ölümün elə öpözün tükənməsi, dağılması demək olduğunu, bu baş verəndən sonra isə bədənin də öldüyünü, bir yolluq yoxluğa kömüldüyünü dilə gətirirdi. Biz indi bunlarımı araşdırmalıyıq, yoxsa başqa bir sözünüz də var, ay Kebetlə, Simmiy?

Onların ikisi də, bunu demək istədiklərini bildirdilər.

-Mənə deyin bir,- Sokrat sözünün ardını dedi,- siz indi bundan öncə gətirdiyimiz tutarqaların(dəlilllərin) hamısınımı danırsınız, yoxsa birilərini danıb, o birilərini düzgün sayırsınız?

-Birilərini düzgün, o birilərini yanlış sayırıq,- onlar dedilər.

-Onda, öncə anlaşdığımız—biliyin, keçmişdə bildiklərimizin anılması demək olduğunu, buna görə də öpözümüzün bədəndə qandallanmazdan qabaq haradasa var olduğunu da, danırsınızmı?

-Mən,- Kebet dilləndi,- onda bu deyilənlərin doğruluğuna ürəkdən inanmışdım, yenə də sözümün üstündə durmuşam.

-Mən də bunu doğru sayıram,-Simmiy dedi,- özü də inanmıram kimsə məni bundan daşındıra bilsin.

Onda Sokrat dedi:

-Öz aramızdır, fivanlı arxadaşım, belə getsə, çox çəkmədən, sən bu dediyin sözdən daşınmalı olacaqsan, sənin, uyumluğun(harmoniyanın) birləşik(mürəkkəb) quruluşlu olduğunu deməyin, ardınca öpözü—uyumluqla bir sayıb, onun kökünün bədənə bağlı olduğuna inandığını dilə gətirməyindən ortaya çıxan elə budur da var. Sən öpözün bədəndən qabaq var olduğunu deyəndə, uyumluğun da onu törədən liradan qabaq yarandığını demiş olursan. Yoxsa sən belə düşünmürsən?

-Mən belə düşünmürəm, Sokrat!- Simmiy hayqırdı.

-Ancaq görürsən, sən özün istəmədən də elə bunu deyirsən! Sən bir yandan deyirsən, öpöz bədəndən törəmişdir, o biri yandan da deyirsən, o, insan görkəmində

doğulmazdan öncə də olub, bu isə o deməkdir, öpöz, özü doğulmamışdan qabaq var olmayan bir nəsnədən törənibdir. Burada sənin uyumluqla bağlı dediklərin, onu bənzətdiyin nəsnələrə azacıq da olsa oxşamır: tərsinə, birinci lira, onun telləri, çalğı səsləri doğulur, düzdür bu səslər doğulduqları anda uyumsuz olurlar, sonra uyumluq gəlib, uyumsuzluğu aradan qaldırır, onu yox eləyir. Sənin öncə dediklərinlə, sonradan dediklərini necə uyuşdurmaq olar?

-Bunlar biri-biriylə uyuşası deyil,- Simmiy dedi.

-Sənin dediklərini uyuşdurmaq üçün, biz gərək istər-istəməz uyumluq üçün dediklərinin doğruluğuna inanaq, deyilmi?

-Sözsüz, elədir,- Simmiy dilləndi.

-Burada birinci dediyinlə, ikinci dediyin uyuşmursa,- Sokrat dedi,- sən indi de görək, bu iki dediyin sözdən hansını tutursan: biliyin—öncədən bildiklərimizin anılması(xatırlanması) olduğunumu, yoxsa öpözün—uyumluq olduğunumu?

-Birincini, Sokrat, ancaq birincini. İkincini isə mən dərindən araşdırıb, incələmədən demişdim, məni çaşdıran onun doğruya çox oxşması, gəlişigözəlliyi olmuşdu, sən də bilirsən, bu adamların çoxluğunun qapıldığı bir yanlışlıqdır. Ancaq mən bunu da çox gözəl bilirəm, nəyisə, nəyəsə bənzətməklə sözünün doğruluğuna inandırmağa çalışmaq da, elə yalandan döşünə döyməkdir, burada ayıq-sayıq olmasan, bu bənzəyişlər adamı aldadıb, gülünc durumlara sala bilər. Bu yerölçmədə(həndəsədə) də, bütün başqa bilimlərdə də belədir. O başqa sözdür—burada biliklə, anmağın ilişkisi üçün deyilənlər: büsbütün güvənilə bilən tutarqalara arxalanıb deyildiyindən, doğru sayılmalıdır. Yanılmıramsa, biz demişdik, öpözün hansısa bədənə köçənə kimi var olması, onun gerçəkləşməsinə, özümlüyünə(mahiyyətinə) uyğun olan bir qaçılmazlıqdır. Bunun doğruluğuna mən bütünlüklə inanıram, onu danmaq düşüncəsindən də uzağam. Bu belədirsə, onda mənim öpözü uyumluğa bənzətməyim də büsbütün yanlışdır, bunu mənmi deyirəm, başqasımı belə deyir, bu yanılmaqdır, qurtardı-getdi.

-Yaxşı, indi necə olsun, Simmiy? Necə düşünürsən, tutalım, uyumluqmu, habelə başqa bu sayaq birləşik(üzvi) nəsnəmi olsun, onların davranışı—qurulduğu ilkin başlanğıcların yönətiminə uyğun olmayacaqmı?

-Sözsüz, belə də olacaq.

-Ona görə də, mən belə düşünürəm, yəni bu ilkin qurucu başlanğıcların istəyi nə olacaqsa, onların yaratdığı birləşik(üzvi) nəsnənin də elədiyi buna uyğun olacaqdır, deyilmi?

Simmiy bu sözlərlə anlaşdığını bildirdi.

-Onda belə çıxır,- Sokrat dedi,- uyumluq(harmoniya) onu törədən ilkin başlanğıcları yönətə bilməz, ancaq onların ardınca düşüb gedə bilər, eləmi?

Simmiy bununla da anlaşdığını bildirdi.

-Yəni, onların tərpənişi olmadan, o da tərpənə bilməz, onlar titrəməsə, o da səslənməz, bir sözlə onlara qarşı nə isə eləyə bilməz?

-Elədir, o özbaşına nəsə eləyə bilməz.

-Ardına baxaq. Bütün uyumluqlar, doğuluşundan, onu törədənlərin necə köklənməsindən asılı olmurmu?

-Bunu anlamadım.

-Yəni, liranı örnək götürüb desək, yaxşı, bitkin, yerində köklənmiş liranın çalğısından da elə gözəl, bitkin bir uyumluq alınacaq, yox lira yaxşı köklənməyibsə, onda bu uyumluq yox, yarımçıq, pozuq, qarmaqarışıq bir küy– uyumsuzluq olacaq.

-Bunu düz deyirsən.

-Belə bir tutuşdurma ilə öpözlərə də yanaşa bilərikmi, yəni onları yalnız öpöz olaraq götürüb, bir öpözün bütöv, böyük, o birisinin isə yarımçıq, kiçik olduğunu deyə bilərikmi?

-Yox, belə bir tutuşdurma yerində deyil!

-Onda ulu Zevsin adını anıb, ardına baxaq. Öpözlər üçün belə deyirlər, onlardan birisi anlaqlı, ərdəmlidir, buna görə də yaxşıdır, o birisi isə, anlaqsız, yaramazdır, onun üçün də pisdir. Bunu düzmü deyirlər, yanlışmı?

-Düz deyirlər.

-Birdən, öpözü götürüb uyumluq saysaq, ondakı ərdəmliklə, yaramazlığı necə açıqlamaq olardı? Özü artıq uyumluq olan öpözün, başqa bir—ərdəmlik adlanan uyumluğu da olduğunu, yaramazlığı olan uyumsuz öpözün isə yaramazlıq adında bir uyumsuzluğu(disharmoniyası) da olduğunumu deməliyik? Yəni, yaxşı olan öpöz üçün

deməliyik, o uyumludur, özü də onun uyumluğunda başqa bir uyumluq da vardır, o biri isə–uyumsuzdur, onun uyumsuzluğunda başqa bir uyumsuzluğu da vardır, eləmi?

-Açığı mən düzünü bilmirəm,- Simmiy dilləndi.- Ancaq onu bilirəm: biz belə bir tutuşdurma aparmışıqsa, buna oxşar bir nəsnə alınacaqdır.

-Biz indicə dedik,- Sokrat sözünün ardını gətirdi,- öpözlər gözəgörünməz, ölçüzüz olduqlarına görə, bir öpöz o birisindən nə böyük, nə də kiçik ola bilər, onda belə çıxmırmı: bir uyumluğun da, o birindən bütövmü, yarımçıqmı, güclümü, gücsüzmü olduğunu da demək olmaz?

-Belə çıxır.

-Bir uyumluq o birisindən bütöv, yaxşı ola bilməzsə, deməli onların törəndiyi köklənmələrin də yaxşısı-pisi ola bilməz, düzdürmü?

-Düzdür.

-Oysa, köklənmənin yaxşısı-pisi yoxdursa, onda uyumluğun da biri o birindən ayırd olunmayacaq, onların da yaxşısı-pisi olmayacaq, hamısı elə biri-birinə tən gəlməyəcəkmi?

-Elədirsə, onlar doğrudan da tənləşəcəklər.

-Deməli, öpöz dəyişməzdirsə, ancaq özü olaraq qalırsa, nə də başqa öpözlərlə tutuşduranda birindən böyük, o birindən kiçik sayıla bilməzsə, onda o, köklənmə dediyimizin, böyüklük-kiçiklik ölçülərinə də sığışmayacaq, deyilmi?

-Düzdür.

-Dediklərimiz doğrudursa, onda hansısa bir öpözün uyumluğu, habelə uyumsuzluğu, başqa bir öpözün bu göstəricilərindən nə artıq, nə də əskik ola bilməz, düzdürmü?

-Belə çıxır.

-Bir də soruşuram, tutalım, biz yaramazlığın—uyumsuzluq, yaxşılığın—uyumluluq olduğuna artıq inanırıq, onda hansısa öpözün yaramazlığımı, yaxşılığımı, başqa öpözdəkindən artıq ola bilərmi?

-Belə görünür, öpözlər arasında bu ayrı-seçkilik ola bilməz.

-Bir az da qabağa getsək,- sözsüz, bu ardıcıllığı gözləməklə- onda belə çıxır, Simmiy, öpözlərin bircəsinin də yaramaz olmadığını düzgün saymalıyıq: öpöz—

uyumluq deməkdirsə, uyumluq da dayanıqlıq deməkdirsə, özü olaraq qalmaqdırsa, deməli, o öz tərsinə, yəni uyumsuzluğa çevrilə bilməz.

-Elədir.

-Buradan aydın olur, öpöz də dəyişməz olduğundan, ancaq özü olaraq qaldığından, yaramazlığın daşıyıcısına çevrilə bilməz.

-Sokrat, doğrudanmı, indiyə kimi dediklərimizdən belə bir sonuc alınır?

-Bizim bayaqdan, sənin sözlərinə görə apardığımız araşdırmalardan elə bu da alınır, yəni diri olan bütün varlıqların öpözlərinin hamısı biri-biri ilə tən olub, elə hamısı da ancaq yaxşıdırlar, axı öpöz öz başlanğıcından yaxşılıq-pislik ölçülərinə sığışmayırsa, özünün uyumluğu ilə yaxşılığa uymuşsa, özü də necə varsa elə də qalaraq, dəyişmirsə, başqa necə ola bilər?

-Mənə elə gəlir, bu belədir də var, Sokrat.

-Onda de görək, indi gəlib çıxdığımız bu sonucu doğru sayırsanmı? Sənə elə gəlmirmi, biz öncədən, öpözlə uyumluğu tənləşdirməsəydik, belə bir yanlış sonuca da gəlib çıxmazdıq?

-Düzdür, gəlib çıxa bilməzdik!

-Bir az da irəli gedək,- Sokrat sözünün ardını dedi.- İnsanın bütün davranışlarını yönətən nədir?–sözsüz, bu öpözdür, yönətimin düzgün olub-olmaması isə bu öpözün anlaqlı olub-olmamasından asılıdır, yoxsa səncə, davranışımızı başqa bir nəsnəmi yönətir?

-Yox, mən də düşünürəm, bunu eləyən öpözümüzdür.

-Öpözümüz bu yönətimində bədənin istəklərinə uyur, yoxsa onlara qarşı çıxır? Mən bunu demək istəyirəm: tutalım, sənin qızdırman var, özü də acmısan, susuzluqdan da yanırsan, ancaq öpözün düzgün olaraq, bu durumunda səni su içməkdən, yeməkdən çəkindirir, habelə buna oxşar başqa çoxlu örnəkləri götürmək olar. Belə olur, yoxsa yox?

-Olur.

-Onda biz öpözün uyumluq olduğunu anlaşırıqsa da, onun öz quruluşu ilə uyuşduğuna da inanmalı deyilikmi, yəni onun, - qurulduğu ilkin başlanğıcların gərilməsindən, boşalmasından, səslənməsindən, yerləşməsindən, düzülüşündən bütünlüklə asılı olduğuna görə də, uyumluğa çata bildiyini sanmalı deyilikmi? Bu

anlaşmamızla biz, öpözün onlardan asılı olduğunu, onları yönətə bilməyəcəyini demirikmi?

-Elədir,-Simmiy dedi,- bizim indiki anlaşmamızdan elə bu da çıxır.

-Onda nə baş verir? Bizim doğruluğuna büsbütün inandığımız baxışlarımız bununla tərs gəlmirmi?—lap sənin dediyin təki, qoy öpöz bədənin quruluşundan törəsin, o, yenə də bədənin üzərində ağalıq eləmirmi, bədən yaşadıqca, onun bütün davranışlarını yönətmirmi, onu yanlışlarına görə, yazıqlamırmı(cəzalandırmırmı), onu həkimin yazdıqları otları içməyə, gimnastika öyrəncisinin tapşırdığı ağır çalışmaları yerinə yetirməyə sürükləmirmi, birdən onun durumuna acıyıb, birdən də onu qorxutmurmu, birdən ona öyüdlər verib, birdən də düşkünlüklərinə görə üstünə qara-qorxuyla, öfkəli bir basqıyla gəlmirmi? Bu, lap Homerin Odissey üçün yazdığı bir şeiri andırır:

Yumruqlayıb köksünü o, dedi incik ürəyinə:
Bundan artıq iyrəncliyə dözməyə də gücün çatar.

Səncə, o öpözün uyumluq demək olduğunu düşündüyündənmi, bədənin onu yönətdiyinə inanmaqdanmı, yoxsa tərsinə, öpözün—bədənə yiyəlik elədiyini, onu yönətdiyini düşündüyündənmi, onun istənilən tanrısal(ilahi) uyumluqdan qat-qat üstün olduğuna inandığındanmı, belə bir şeir qoşmuşdu? Necə bilirsən?

-And olsun Zevsə, Sokrat, sən doğru deyirsən, Homer öpözü uyumluq saya bilməzdi!

-Onda, sevimli arxadaşım, biz öpözün uyumluq olduğunu deməkdən daşınmalı olacağıq: gəl nə tanrısal Homerlə, nə də biri-birimizlə çəkişməyək, barışıb aralaşaq.

-Doğrudur, ən yaxşısı elə budur da var,- Simmiy dedi.

-Çox gözəl,- Sokrat dedi.- Fivanın bu coşqun Uyumluğunu ipə-sapa yatıra bildik. İndi sıra Kadmaya, Kebetə gəlib çatdı. Görəsən onu yola gətirmək üçün söz tapa biləcəyikmi?

-Mənə elə gəlir, sən taparsan,- Kebet səsləndi.- Düzünü desəm, sənin uyumluqla bağlı dediyin sözlərə vurğunluqla qulaq asdım—onlar doğrudan-doğruya, mənim üçün çox gözlənilməz idi. Simmiy səndən öncə, öz düşüncələrini mənimlə bölüşəndə, mən

özümdən soruşmuşdum: görəsən onun dediklərinin yanlış olduğunu göstərə biləcək kimsə tapılarmı? Burada mənim üçün ən böyük gözlənilməzlik, onun—sənin birinci saldırına belə dözə bilməməsi oldu. Ona görə də çox ola bilər, belə bir uğraqla(tale ilə) mən, Kadmalı da üzləşəm.

-Ah, gözümün işığı,- Sokrat dedi,- bu gurultulu sözlər nəyə gərəkdir? – gəl bununla, öz araşdırmalarımızı başlamazdan öncə korlamayaq. Bu işlər onsuz da, bizdən yox, tanrıların istəmindən asılıdır, biz isə gəl, sənlə homersayağı düşünməyə çalışaq, baxaq görək, sənin dediklərinin özəti nədir.

Gəl birlikdə baxaq, görək, burada sənin üçün qaranlıq qalan nədir? Yanılmıramsa, indi deyəcəklərim olmalıdır. Sən indi bizi küncə qısnayıb,—öpözün ölümsüz, tükənməz olduğunu göstərən danılmaz tutarqalar gətirməyimizi istəyirsən; sənin deməyinə görə, bunu göstərə bilməsək: onda filosofun ölüm qarşısında qorxmazlığı, toxdaqlığı, üzügülərliyi də; ölümdən qabaqkı bütün ömrünü də hamı kimi yox, başqa sayaq yaşaması da; bir sözlə, onun ölümdən sonra, yer üzündə keçən ömründən qat-qat yaxşı bir yaşama qatıla bilmək umdusuna bağlı olanların hamısı da, anlamsızlıqdır, anlaqsızlıqdır, bunlar boş istəklərə qapılmaqdır. Tutalım, biz öpözün güclü, tanrısal olduğunu bilirik, onun bizim doğuluşumuzdan öncə var olduğuna da inanırıq, - ancaq sənin deməyinə görə, bütün bunlar da öpözün ölümsüzlüyünə inanmaq üçün yetərli deyil, bunlara arxalanıb, olsa-olsa, öpözün keçmiş çağlarda ölçüyəgəlməz uzun bir sürədə var olduğunu, olduqca çoxlu biliklər qavradığını, bir də çoxlu bədənlərdən keçib gəldiyini demək olar. Bütün bunlar isə, yenə də sənin deməyinə görə, öpözün ölümsüz olmasına nədən(səbəb) ola bilməz, tərsinə, insan bədəninə köçməsi onun sanasan hansısa ağrınmağa(xəstəliyə) yoluxması deməkdir, bu da onun üzülməsinə, əskilməsinə, sonucda isə dağılıb yox olmasına gətirib çıxarır. Elə buna görə də, öpözün ölümdən üşənməyi, bədənə də ölümdən qorxmaq duyğusunu aşılayır, sonunda onun bu qorxusu çin çıxır, ölüm gəlib onların ikisini də yoxluğa kömür. Sənin deməyinə görə, iş onda da deyil, tutalım, öpöz birmi, bir neçəmi bədənə keçir, bu bizi qorxularımızdan qurtara bilmir: anlağı olan istənilən insan ölümdən qorxur, öpözün ölümsüz olduğuna inandıracaq doğru-düzgün bilikər ortalıqda olmadığından başqa sayaq ola da bilməz. Bax, məncə sənin dediklərinin özəti bunlar idi, Kebet. Mən sənin dediklərini bilə-bilə,

yenidən ona görə danışıram, nəyisə unutmuşumsa deyə biləsən, kəsəsi, danışdıqlarımı artırıb-əskiltmək üçün nəsə bir sözün varsa buyur, de.

Kebet çək-çevir eləmədən dedi:

-Yox, Sokrat, bu dediklərindən nəyisə artırıb-əskiltməyə gərək duymuram. Sən mənim danışdıqlarımı necə var eləcə də dedin.

Sokrat olduqca dərin bir düşüncəyə dalıb, çox uzun sürən bir susqunluğa qapıldı. Sonra isə belə başladı:

-Sözün düzü, çox baş çatladan bir konu atmısan ortaya, ay Kebet. Bundan baş açmaq üçün, biz indi gərək, doğuluşla ölümün nədənini(səbəbini) başdan ayağacan araşdıraq. Səni ilgiləndirsə, mənim keçmişlərdə belə araşdırmalar apararkən üzləşdiyim başagəldilərimi burada danışardım. Mənim bu deyəcəklərimdən işinə yarayan nəsə tapa bilsən, ola bilsin, dediyinin üstündə bir az da bərk dayana bildin.

-Danış, Sokrat, sözsüz, sənin deyəcəklərin mənim üçün çox önəmlidir, - Kebet dilləndi.

-Onda qulaq as. Gənclik illərimdə, Kebet, məndə filosofların, doğanı(təbiəti) qavramaq dedikləri bilgəliyə çatmaq üçün qarşısıalınmaz bir istək var idi. Mənə elə gəlirdi, yan-yörəmizdəki olayların nədən baş verdiyini bilmək, nəsə bir ucalığa, üstünlüyə çatmaq deməkdir, yəni: gördüyümüz gerçəklər, nədən doğulurlar, nədən var olurlar, nədən ölürlər? Mənim bu konular üzrə düşüncələrim, necə deyərlər, bu başdan vurub, o biri başdan çıxırdı, bunula yanaşı mən sayı bilinməz sorğuların üstündə baş sındırırdım: doğrudanmı, birilərinin dediyi kimi, isti ilə soyuğun etkisindən(təsirindən) doğan çürümədən varlıqlar dirilik qazanırlar? Biz nə ilə düşünürük—qanımızla, hava ilə, yoxsa istiliklə? Yoxsa bunların biri ilə də yox, ancaq beynimizin doğurduğu, eşitmə, görmə, duyma kimi duyğularımızın yardımı ilə düşünürük, bunun gedişindən isə anlağımız törəyir, sonradan, anlağımızla qavradığımız anlayışlarımız dayanıqlılıq qazananda bilcəyimiz(yaddaşımız) yaranır, bax beləcə də biliklərimizi qazanırıq?

Mən varlığın ölüb getməsi, yerdə, göydə baş verən dəyişikliklər, habelə bunun təki çoxlu konuları araşdırıb, sonunda anlağımın bunları incələmək üçün büsbütün yararsız olduğu sonucuna gəlib çıxmışdım. Mən indi sənə yetərincə yaxşı örnəklər gətirəcəyəm. O çağacan mənim açıq-aydın bildiyim hansısa biliklərim var idi,- bu mənə

də belə gəlirdi, başqaları da belə deyirdi,- ancaq bu araşdırmalarıma başlayandan sonra, mən sanasan kor olmuşdum, iş o yerə gəlib çatmışdı, öncədən bildiklərim də biri-birinə qarışıb, mənim üçün anlaşılmaz olmağa başlamışdı,- örnək üçün, öncələrdə bildiyim, insanın boyunun nədən artması, indi mənim üçün anlaşılmaz olmuşdu. Tutalım, mən bu olayın hamıya açıq-aydın bəlli olduğunu düşünürdüm: insan yeyib-içdiyinə görə də onun boyu artır. Yəni, yeyib-içdiklərindən, ət onun ətinin üstünə gəlir, sümük—sümüyün, habelə bunun kimi, yeyəcək-içəcəyin bütün kəsimləri, özünə doğma olan bədən kəsimlərinin üstünə gəlir, buna görə də kiçik olandan böyük olan yaranır, insanın boy-buxunu artır. Bununla da, kiçik boy-boxunlu insan gövdəli, qollu-budaqlı olur. Mən öncə belə düşünürdüm, səncə bu doğrudur, ya yox?

-Məncə, doğrudur,- Kebet dedi.

-Olsun, belə bir durum. Tutalım, boyca hündür olan birisi, alçaq boylu başqası ilə yanaşı dayananda ondan bir baş uca görünürdüsə, bu məndə güvəncsizlik yaratmırdı. Eləcə də iki at yanaşı dayananda da, bunun təki. Bir az da artıq gözəçarpan örnək: mənə elə gəlirdi, səkkizin üstünə iki gələndə on alındığı üçün də, on səkkizdən böyükdür, habelə iki qulac uzunluğu olan nəsnə, bir qulac uzunluğu olandan, iki qat uzun olduğuna görə də, böyükdür.

-Çox yaxşı, yoxsa, indi belə düşünmürsən?

-İndi, and olsun Zevsə,- Sokrat dilləndi,- mən bunların nədən belə olduğundan doğru-düzgün baş açа bilmirəm. Mən indi, birin üstünə bir gələndə nə alınacağını da yaxşı qavraya bilmirəm, - ha çalışıram, anışdıra bilmirəm, bunların toplanmasından iki necə yaranır? – sonrakı biri, öncədəki birin üstünə gələndəmi, bu öncədən olan birmi ikiyə çevrilir, yoxsa bu toplanan birlər, biri o birinin üstünə gəldiyindən, onlar biri-biriylə birləşdiyindənmi, iki olurlar? Onlar biri-birindən ayrı olanda, ortada bu iki də yox idi, bax budur, onlar yovuşdular, onda mən özümdən soruşmağa başlayırdım: görəsən bu ayrılıqda olan birlərin yaxınlaşıb, görüşməsindənmi iki törənir? Sonradan bu ikini, yarıya bölüb, yenidən biri-birindən ayrılan birlər alanda, məndə ikinin törənməsi üzrə öncə düşündüklərimə qarşı güvənsizlik yaranırdı, sanasan ikinin törənməsi, onun varlığına bütünlüklə tərs olan bir nədənlə baş verirdi, bir az öncə biz ayrı-ayrı birlərin qovuşub, biri-birinin üstünə gəlməsindən iki alındığını deyirdik, indi isə deyirik, onlar

bu ikinin içində biri o birindən ayrıdır, onların hansını istəsək ayırıb götürə bilərik! Bununla yanaşı olaraq, mən birin özünün necə yarandığını güvənliklə(yəqinliklə) anlaya bilmirəm—o nədən törənir, necə var olur, nə üçün yox olur? Kəsəsi, burada bütünlüklə inandığın, doğru bir yol tapa bilmirsən, gəlişigözəl tutarqalardan birini buraxıb, o birini tutmalı olursan.

Günlərin bir günü, kimsə mənə Anaksaqorun kitabından oxuduqlarını danışdı, onun dediyinə görə Anaksaqor dünyanın düzənli olub, birgəlik-bütünlükdə qalmasının da, bütün olayların nədəninin də **Anlaqla(şüurla)** bağlı olduğunu deyirmiş; bu sözlər ilk andaca mənim başıma batdı, **Anlağın**–yaranışın, varlığın, başlıca nədəni olması mənim döşümə yatırdı, mən bununla da insanın, gerçəkliyi qavramaqda üzləşdiyi çoxsaylı anlaşılmazlıqlardan çox doğru çıxış yolunun tapıldığını düşünürdüm. Mənə elə gəlirdi, bu deyilənlər doğrudursa, onda bu qurucu-**Anlaq** gerçəkliklərin hamısını ən yaxşı olaraq düzənləyir, onları ən gərəkli olduqları yerlərə düzüb sıralayır. Ona görə də, kimsə varlıqların doğuluşinun, yaşamının, ölümünün nədən baş verdiyini öyrənmək istəyirsə də, o, bu düzənə baxıb, onlar üçün doğulmağınmı, var olmağınmı, nəsə eləməyinmi, ölməyinmi ən yaxşı olduğunu da yanılmadan ayırd eləyə bilər. Bu kimi incələmədən bir də o çıxırdı, insanın nə özü-özünü, nə yan-yörəsindəki gerçəklikləri araşdırmasına gərək yoxdur, onun ən bitkin, ən yaxşı olan gerçəkləri götürüb araşdırması, bunların hamısından baş açması üçün yetərlidir. Sözsüz, o ən yaxşının nə olduğunu bilmək üçün ən pis olanı da öyrənməlidir, bunlardan birini bilmədən o birisini də bilmək olmaz. Mən, Anaksaqor adında yaxşı bir öyrətmən(müəllim) tapdığımı düşünüb, bərk sevinirdim, onun, varlığın nədən yarandığını, mənim anladığım dildə danışacağını sanırdım, hamısından öncə, ondan Yerin yastımı, yumrumu olduğunu öyrənmək istəyirdim, düşünürdüm o bunu doğru-düzgün anladacaq, bununla yanaşı, Yerin nədən başqa türlü yox, ancaq yumru olmasının, onun üçün ən yaxşı, ən gərəkli durum olduğunu da mənə başa salacaqdır. Birdən o desə, Yer dünyanın ortasındadır, o andaca başa da salacaq, nədən onun bu ortada olması ən yaxşısıdır. O, bu dediklərimin hamısını bütün aydınlığı ilə mənə anlatsa, başqa nədənlər axtarmağa gərək də qalmayacaqdı. Mən ondan Günəşdən, Aydan, ulduzlardan da soruşmaq istəyirdim—onların biri-birindən hansı yeyinliklə uzaqlaşdığını, onların fırlanmasından, habelə bu

kimi baş verən başqa nəsnələri də öyrənmək istəyirdim: onların tərpənişləri özbaşınamı olur, yoxsa onları yerindən oynadan bir gücmü vardır? Mən bir anlıq da olsa, belə bir düşüncəni özümə yaxın buraxmaq istəmirdim, birdən Anaksaqor onların hamısının qurucusunun, düzənləyicisinin **Anlaq** olduğunu deyib, sonradan başqa bir nədən də axtarmağa başlasın, mənə elə gəlirdi, o elə bu tutarqasınaca arxalanıb, onların harada, necə, ən yaxşı yerləşməli olduqlarını da aydınlaşdırmalıdır. Mən elə sanırdım, onların nədən ayrı-ayrılıqda var olduqlarını, sonra isə nədən birliyə qovuşduqlarını, açıb ağardandan sonra, Anaksaqor onların ayrıcalıqda da, birlikdə də, ən yaxşı sayıla biləcək durumlarına necə uğraşacaqlarını da açıqlayacaqdır. Mən inanmırdım, bu yer üzündə elə bir dəyərli nəsnə tapıla, onu verib, mənim bu umuncumu əlimdən ala bilsinlər. Çox böyük bir coşqunluqla, Anaksaqorun kitabını oxumağa girişdim, düşünürdüm, ondan nəyin ən yaxşı, nəyin ən pis olduğunu öyrənə biləcəyəm.

Ancaq çox keçmədən, bu umuncumun ucalığından başaşağı yuvarlanmalı oldum, arxadaşım Kebet!–Anaksaqorun kitabını oxuduqca, onun öncədən bütün olayların nədəni olaraq, əldə bayraq elədiyi bu **Anlağı** bir qırağa qoyub, büsbütün ayrı nədənlər axtarmağa girişdiyini gördüm, düzünə qalsa bunlara nədən(səbəb) də demək olmazdı, gerçəkliyin yaradılışı—havaya, efirə, suya, çoxlu başqa nəsnələrə bağlanır, bunun nədən belə olduğu isə, açıqlanmırdı, büsbütün qaranlıq qalırdı. Mənim düşüncəmə görə, bu ən azından ona oxşayır, kimsə öncə Sokratın bütün elədiklərinin, öz **Anlağının** buyuruqlarını yerinə yetirməsi olduğunu deyir, sonra Sokratın ayrı-ayrı elədiklərinin nədən baş verdiyini belə aydınlaşdırmağa başlayır: “Sokratın indi burada oturmağının nədəni, onun bədəninin sümüklə, sinirlərdən(vətərlərdən) qurulmasıdır, onun sümükləri bərkdir, biri o birindən ayrı olan üyələrə(üzvlərə) ayrılmışdır, sinirlər isə yığılıb açıla bilirlər, ətlə, dəri ilə birləşib, sümüklərin üstünü örtmüşlər. Beləliklə də, sümüklər öz oynaqlarında fırlanıb, tərpənə bildiklərindən, sinirlər yığılıb-açılaraq Sokratın əl-ayağını açıb-bükməsinə yarayır. Bax elə buna görə də, Sokrat indi burada bükülərək oturub”. Bunun təki, bizim indi nədən, biri-birimizlə danışdığımızı da “aydınlaşdırmaq” olar—səs, hava, eşitmə, habelə bunun kimi minlərlə gerçəklikdən uzaq olan nədənlər düşünüb tapmaq olar—burada artıq mənim özlüyündə nə üçün burada olduğumu araşdırmağa da gərək duyulmur, yəni afinalıların məni suçlu çıxarıb qazamata salmalarını, mənim də

bundan boyun qaçırmayıb, burada oturub qalmağı, onların məni öldürəcəkləri günü gözləməyi düzgün saymağımı, saya salmamaq da olar. And olsun köpəyə, mənim **Anlağım** yaxşını pisdən ayırmağı bacarmasaydı, üstünlüyü ən yaxşı olana yox, ən pis olana versəydi, bu sinirlər, bu sümüklər indi çoxdan Meqara, ya da Beotiyaya gedib çıxmışdılar, mən öz **Anlağımla** yalanı doğrudan ayıra bilməsəydim, qaçıb gizlənməməyi, dövlətin mənim adıma yazdığı suçun altını çəkməyi, ən düzgün, ən gözəl bir iş saymasaydım, bu elə belə də olacaqdı.

Yox, bu sayaq nəsnələri nədən olaraq ortaya atmaq, büsbütün anlamazlıqdır. Düzdür, birdən biri durub desəydi, bunlarsız—sümüklərim, sinirlərim olmadan, mən istədiyim işləri görə bilməzdim, o sözsüz doğrusunu demiş olacaqdı. Ancaq bunun mənim bütün gördüklərim işlərin tək bir nədəni olduğunu deyəndən sonra, bununla yanaşı, durub, mənim bütün elədiklərimdə **Anlağın** buyuruqlarını yerinə yetirdiyimi də demək, sağlam düşüncəyə sığası deyil. Bunun özü, elə doğru olan nədənlə, bu nədənin olmasından yana törənən nədənləri biri-birinə qatıb-qarışdırmaq, onları biri-birindən ayıra bilməmək deməkdir. Bu az qala, bir bölük adamın basırığa salıb, itələşə-itələşə, yumru bir nəsnəni qatı qaranlıqda əllə yoxlayıb, sonra da onun nə olması üzrə kimin ağzına nə gəlirsə demələrinə, elə buna görə də onun doğru-düzgün adını tapa bilməyib, özgə adlarla çağırmalarına bənzəyir. Budur, belə yanaşmanın çıxarı: biri deyir, Yer yumrusu göydə tərpənməz durub, yan-yörəsini isə bir burulğan qaplamışdır, başqa birisinə görə o, bir kiçik çuxur olaraq havanın üstündə dayanıb durur, ancaq onlardan biri də, Yeri yaradıb-quran, onu olduğu təki saxlayan gücləri saya salmağa, arayıb-axtarmağa, araşdırmağa gərək duymurlar, sözsüz, ortada olan—bunlara nədən olan tanrısal bir gücün varlığı onların yuxularına belə girmir. Onlar çox da uzağa getməyib, əlaltından bir Atlant* düşünüb tapırlar, ona ölümsüzlük, yenilməz bir güc də “verirlər”, sonra isə Yer yumrusunu dayanıqlı eləmək üçün, kosmosu onun belinə yükləyirlər, bir anlığına da olsa düşünmək belə istəmirlər, gerçəklikdəki bu bütünlüyü, onun dayanıqlığını yaradan gözəlliklə, doğruluqdur. Mən özüm bu nədənləri yetərincə aydınlaşdıra biləcək kimsənin öyrəncisi olmağı ürəkdən istərdim. Ancaq beləsi nə mənim qarşıma çıxırdı, nə onu özüm axtarıb tapa bilirdim, nə də başqası mənə onun

yerini göstərirdi, onda mən özüm təkbaşına bu nədənlərin axtarışına çıxdım. Mənim bu yolçuluğumda, başıma nələr gəldiyini eşitmək istərdinmi, Kebet?

-Çox istərdim!- Kebet dedi.

-Bundan sonra,- Sokrat sözünü ardını dedi,- mən gerçəkliyi araşdırmağın başını buraxdım, bir də, ayıq-sayıq olmaq gərəkliyini anladım, elə eləmək istəyirdim, Günəş tutulmalarını izləyənlərin uğraşdıqları yanlışlar mənim də başıma gəlməsin. Onların biriləri anlamazlıqdan, Günəşin görünüşünü suda, buna oxşar olan başqa nəsnədə izləməkdənsə, başlarını qaldırıb, ona birbaşa baxırlar, bununla da gözlərini bərk qamaşdırıb, korlayırlar,- mən də bunu anıb, qorxu içində düşünürdüm, birdən elə olmasın, mən də onlar təki, nəsnələrə gözümlə baxıb, onları başqa duyğularımla qavramağa çalışıb, öpözümü kor eləməyim. Onda mən çıxış yolunu, varlığın özlüyünü(mahiyyətini) üzə çıxaran ayrı-ayrı anlayışlara üz tutmaqda, onları ayırd etməkdə görməyə başladım, onlardan yararlanıb, gerçəkliyin özlüyünü(mahiyyətini) anlamağa çalışdım, burada, bənzətmələrə arxalanmaqla araşdırma aparmağın, qaçılmaz olaraq bəlli itkilərə gətirib çıxara biləcəyini də anlayırdım. Düzdür, mən gerçəkliyi ancaq anlayışlar çevrəsində qapayıb, qavramaq istəyənlərin də sırasına qatılmaq istəmirdim, varlığı–üzə çıxan solğun görüntülərinə baxmaqla qavramağa çalışmaqdansa, onu bənzəyişlərlə(analoqlarla) qavramaq düzgün sayılmalıdır. Qoy nə olacaqsa-olsun deyib, bu yönü tutub irəli addımlamağa başladım, burada addımlamaq deyəndə mən, ən güvənli sayıla biləcək anlayışlara arxalanıb araşdırma aparmağı deyirəm; bundan sonra hansı nəsnələr bu anlayışlarla çalpaşıq(zidd) deyilsə, onları doğru sayır,—burada söz konusu olaraq nədən(səbəb) götürülür, yoxsa başqası, bu önəmli deyil,—hansılar bu anlayışlarla çalpaşıqdırsa(ziddirsə), onları yalan sayırdım. Mən indi istəyirəm, bu dediklərimi bir az da geniş açıqlayam. Mənə elə gəlir, sən indilikdə məni yaxşı başa düşmürsən.

-Elədir, and olsun Zevsə,- Kebet dedi.- Danışığında mənim üçün qaranlıq qalan yerlər çoxdur.

-Mən indi yeni bir söz demirəm burada, öncələr dediklərimi yenidən deyirəm—bunları qabaqlar da sizlərlə danışmışıq. Mən sənə bir az qabaq araşdırdığımız nədənlərdən(səbəblərdən) söz açıram, elə az qala yüz yol eşitdiklərindən başlayıram,

yəni bizim dediyimiz o, özü-özlüyündə gözəl olanın, yaxşı olanın, böyük olanın, habelə bunun kimilərin varlığını yenidən dilə gətirirəm. Sən indi mənimlə anlaşsan, bunların olduğuna inandığını dilə gətirsən, onda mən də sənə öpözün ölümsüzlüyünün nədənini anladacağıma arxayınam.

-Mənim bu konuda sənlə anlaşdığıma güvənə bilərsən, sən də gəl amacına(məqsədinə) sarı gedəcəyin yolu kəsə elə,- Kebet dilləndi.

-Elə isə bax gör, bu deyilənlərdən çıxan sonuclarla da anlaşacaqsanmı? Özü-özlüyündə gözəl olandan başqa, bir də gözəl dediyimiz ayrı-ayrı nəsnələrin də olduğunu deyiriksə, onları ancaq bu özü-özlüyündə gözəl olanla ilişkiləri olduğuna görə gözəl sayırıq, onlar, bundan ayrı bir nədəndən gözəl ola bilməzdilər. Bütün başqa özü-özlüyündə var olanlar üçün də bunun doğru olduğunu düşünürəm. Sən dediyim bu nədəni, doğru sayırsan, yoxsa yox?

-Sayıram.

-Onda mən burada ortalığa atılası başqa nədənləri yersiz sanıram, yəni biri çoxbilmişlik eləyib mənə deyəndə, hansısa nəsnə özünün parlaq boyasına görəmi, nə bilim ölçülərinə görəmi, habelə başqa bu sayaq nədənlərə görə çox gözəldir, mən onun dediklərini saya salmıram, onların məni yanılda biləcəyindən çəkinirəm. Mən burada çox da kəskin olmayan, ola bilsin lap loru bir açıqlamaya arxalanıram: hansısa nəsnənin gözəlliyi, onun özəyində özü-özlüyündə gözəllikdən gəlmə hansısa payın olmasından, onların arasında hansısa ilişkilərin varlığından başqa bir nədəndən törənə bilməz. Mən bu dediklərimi, geniş açıb-ağartmağa gərək duymuram, ancaq bunun üstündə dayanıb-dirənib də deyirəm, bütün gözəl adlanan nəsnələr ancaq özü-özlüyündə gözəl olana bənzədilməklə gözəl sayılırlar. Məncə, nə özünə, nə də başqasına bundan da inandırıcı olan bir söz tapıb demək olmaz. Mən artıq büsbütün bu sözə arxalanıram, bu inamımdan bir addım belə geri çəkilən deyiləm. Mən indi özümü gözlənilən qorxulasılardan gərəyincə qoruyuram, bunun nədəni isə mənim özümü də, başqalarını da bu doğruya inandıra bilməyimdədir, yəni gözəl adlanan nəsnələrin varlığı, ancaq özü-özlüyündə gözəl olanın olmasından yanadır. Sənə necə, belə gəlirmi?

-Mən də sənin kimi düşünməkdəyəm.

-Belə çıxır, böyük deyilən nəsnələr də özü-özlüyündə böyük olanlara görə böyük sayılır, kiçik nəsnələr isə - özü-özlüyündə kiçik olana görə, eləmi?

-Elədir.

-Deməli, kimsə durub desə, biri o birisindən boyca bir baş böükdür, o birisi isə bundan boyca bir baş kiçikdir, sən bu deyiləni doğru saymayıb, üzünü bozardıb deməlisən: "Mən ancaq onu deyə bilərəm—hansısa nəsnənin o birindən böyük olması, bu nəsnələrdən artıq olan bir böyüklüyün; kiçik olması isə bunlardan əskik olan bir kiçikliyin varlığına görədir". Sən birdən, birinin o birindən boyca bir baş böyük, deməli bu başqasının da birincidən bir baş kiçik olması ilə anlaşsan, onda kimlərinsə sənin bu düşüncənə qarşı çıxa biləcəklərindən çəkinməli olardın: sən bir yandan deyirsən, böyük olmaqla, kiçik olmağın nədəni böyüklüklə, kiçiklikdir, bir yandan da böyüklüyün kiçiklikdən yarandığını deyirsən—sən demirsənmi biri o birindən bir baş böyükdür—"bir baş"la ölçülən uzunluq isə böyüklük yox, kiçiklik ölçüsü sayıla bilər. Onda kiçik olana görə, nəyinsə böyük sayılmasını ortaya atmaq saçmalıq deyil də nədir! Belə bir dirənişlə üzləşəcəyindən çəkinərdinmi?

-Çəkinərdim,- Kebet gülə-gülə dedi.

-Belə çıxır,- Sokrat dedi,- sən, "on, səkkizdən iki dənə böyük olduğuna görə də böyükdür" deməkdən çəkinib, deməliydin, on–səkkizi saya görə ötür, ona görə də sayca ondan sonra gəlir, deyilmi? Eləcə də, iki qulac uzunluğu olan nəsnənin, öz yarısıycan olan bir qulac uğunluğu olandan böyüklüyünü də dilə gətirməkdən çəkinərdin? Burada da yuxarıda dediyimiz kimi bir anlaşılmazlıqla üzləşə bilərdik.

-Düz deyirsən.

-Ardına baxaq. Sən onda, ikinin, birin üstünə bir gəlinməsindən, birin isə, ikinin yarıya bölünməsindən törəndiyini deməkdən də çəkinməzdinmi? Sən bütün nəsnələrin törənməsinin ancaq bir yolu olduğunu bildiyini var səsinlə qışqırmazdınmı, yəni nəyinsə törənmə nədəninin, başqa bir, özü-özlüyündə var olan hansısa gerçəklikdən asılı olmasından, ona bağlanmasından yana olduğunu deyib, bunun üstündə durardın, örnəyimizdə, ikinin nədən törənməsinə gəlincə, bunun da ikilik adlanan özü-özlüyündə var olandan törəndiyini deyərdin. İki ilə ilgili bütün olayların hamısı bu ikilik deyilən, birlə ilgili olanlar isə birlik deyilən özü-özlüyündə var olandan asılı olaraq baş verir.

Bütün bu, üstə gəlmələr, bölmələr, habelə buna bənzər incəliklərə baş qoşmaq isə sənlik deyil. Qoy belə konuların üzərində özünü səndən bilikli sayanlar baş sındırsınlar, sən isə, necə deyərlər, öz kölgəndən hürkərək, anlamaz görünməkdən çəkinərək, bu güvəndiyin, düzgün saydığın yoldan qırağa çıxma, nə soruşsalar tutduğun yoldan qırağa çıxmadan da öz sözünü de. Birdən kimsə elə sənin yolunu tutub, nəsə soruşmağa başlasa, sən özünü toxdaq tut, öncə onun sənin yolunu tutub dediklərini araşdır, gör bundan hansı sonuclar alınır, onun dediklərinin sənin bildiklərinə uyğun gəldiyinə arxayın olmayana kimi, nəsə deməkdən özünü çəkindir. Haçansa, sənin araşdırma üçün tutduğun başlıca yolun özünü də doğrultmağa gərək duyulsa, bunu da belə eləmək olar—bu başlıca yolun yerinə, sıra ilə biri-birindən uğurlu saydığın başqa yolları qoymağa başlayırsan, haçan ən uğurlusunu tapdığını sansan, onu da götürüb, öncə işlətdiyinin yerinə qoyursan. Ancaq çalış, burada anlayışları biri-birinin üstünə qalaqlamayasan, yəni yersiz söz güləşdirməyə qapılanların yolunu tutub, başlanğıcda götürdüyün anlayışla, onun araşdırılmasından ortaya çıxan başqa anlayışları biri-birinə qatışdırıb, özünü dolaşdırmayasan: sən gerçək varlıqları axtarıb tapmaq istəyirsən, yersiz söz güləşdirənlərin isə, necə olur-olsun, yanlış olsa da belə, öz sözlərini doğruya çıxarmaqdan başqa bir qayğıları yoxdur. Özlərinin yekəbaşlığı ilə, onlar bütün anlayışları qarışdırmağa, yanlış yozmağa gəlib çıxsalar da, bundan alınmırlar, tərsinə, bunu özlərinin üstünlüyü sanıb, öyünürlər də. Ancaq sən filosof olduğun üçün, mənim dediyim yolu tutacağına inanıram.

-Dediklərin büsbütün doğrudur,- Simmiylə Kebet ikisi də bir ağızdan səsləndilər.

E x e k r a t. And olsun Zevsə, Fedon, mən elə bunu da gözləyirdim! Mənə elə gəlir Sokrat elə gözəl, aydın danışıb, ən dardüşüncəli birisi belə onun bu dediklərini anlamalı idi.

F e d o n. Elədir, Exekrat, onun başına yığışanların hamısı elə, belə də düşünürdülər.

E x e k r a t. Biz də elə sizin təki, oarada olmasaq da, bu sözləri indi səndən eşitsək də, deyilənlərlə bütünlüklə anlaşırıq. Yaxşı, bundan sonra nə danışdınız?

F e d o n. Simmiylə Kebet Sokratın dediyi: “Bütün nəsnələr, öncədən var olan ideyalara bağlandıqları üçün, daşıdıqları anlamlara uyğun olaraq adlanırlar” söyləmi(hökmü) ilə anlaşandan sonra, Sokrat üzünü Kebetə tutub, soruşdu:

-Birdən sən durub desən, Simmiy boyca Sokratdan böyük, Fedondan kiçikdir, onda Simmiyin özü-özlüyündə böyük olandan da, kiçik olandan da asılılığı olduğunu, özü də bunların ikisinin də onda bir yerdə ola biləcəyinə inandığını dilə gətirirsən, düzdürmü?

-Düzdür.

-Ancaq sən “Simmiy Sokratdan hündürdür” deyiminin bütünlüklə doğru olduğuna inanmırsan, eləmi? Düzünə qalsa, Simmiyin burada hündür olması, onun adının Simmiy olmasından, onun necə doğulmasından yox, ona—böyüklük deyiləndən nəyinsə çatmasındadır. Onun Sokratdan böyük olması, Sokratın adının Sokrat olmasına görə də deyil, öncə Sokrata—kiçiklik deyiləndən nəsə çatmasındandır, bundan sonra isə ondakı bu kiçiklik Simmiydə olan böyüklükdən əskik olduğundan, Sokrat Simmiydən boyca alçaq olmuşdur.

-Doğrudur.

-Simmiyin Fedondan boyca alçaq olması da, Fedonun adının Fedon olmasından yana deyil, böyüklük deyiləndən Fedona çatanın,- Simmiyə çatan böyüklüdən artıq olmasına görədir. Elədirmi?

-Elədir.

-Onda belə çıxır, Simmiydə biri-birindən ayırd olunan iki nəsnə - böyüklüklə kiçiklik birgələşib, birləşir: birində olan böyüklüklə o öz kiçikliyini, başqasında olan kiçikliklə o öz böyüklüyünü ortaya çıxarır.

Bunu deyəndən sonra Sokrat gülümsündü, sonra araya söz atdı:

-Sizə elə gəlmir, sanasan, mən nəsə bir yazını üzündən oxumaqdayam. Necə görünürsə görünsün, ancaq mən danışdıqca, konumuzun yavaş-yavaş çözüldüyünü də duyuram.

Kebet bununla anlaşdığını bildirdi.

-Mənim amacım(məqsədim) odur,- Sokrat ardınca dedi,- sən mənim dediklərimlə anlaşasan. Mənə elə gəlir, böyük olan, özünün haçansa bir anın içində böyük də, kiçik də

ola bilməsinə yol verməyəcəkdir, bundan da artığı, o haçansa kiçiklik deyiləni nə özünə yaxın buraxacaq, nə də başqasından kiçik görünməyi istəyəcəkdir. Belə olanda, ikisindən biridir: ən azından onun tərsi olan yaxınlaşanda o, geri çəklir, qaçır, ən çoxu, onun tərsi olan lap yaxına gəlib ona çatan anda o dağılıb, yox olur. Yoxsa olduğu yerdəcə qalıb, kiçiklə yovuşmaqla o, özlüyünü itirib, başqalaşmalıdır, o isə nə olursa olsun, bunu istəmir. Bax, tutalım, mən kiçikliyi boynuma götürdüm, ona yovuşdum, ancaq yenə özüm olaraq qaldım—mən elə öncələrdəki Sokratam, yəni kiçiyəm, bunun təki də böyüklüyü olan bir nəsnə, kiçikliyi boynuna götürməyə ürək eləmir, öz böyüklüyünü sonacan qoruyub saxlamağa çalışır. Eləcə də bunun təki, bizdə olan kiçiklik də nə böyüklüyə çevrilməyi, nə də böyük olmağı istəmir, bir sözlə biri-birinin tərsi olan nəsnələr hamısı özü kimi qalmağı əldən vermək istəmir, özünün tərsinə çevrilməyi, onun təki olmağı, boynuna götürmür, belə bir dəyişiklik baş verəndə isə, ən azı aradan çıxır, aşağası da yox olub gedir.

-Mənə elə gəlir, belədir də var,- Kebet dilləndi.

Bunu eşidəndə, oradakılardan birisi—düzü, indi onun kim olduğunu unutmuşam,—dedi:

-And olsun tanrıların adına, biz bir az öncə, indi bu dediklərimizlə büsbütün tərs olan sözlər danışıb, onların doğru olduğunu deyirdik! Biz bundan qabaq, kiçikliyin böyüklükdən, böyüklüyün kiçiklikdən törəndiyini, eləcə də biri-biri ilə tərs olan bütün nəsnələrin birinin o birindən törəndiyini danışıb, anlaşmadıqmı? İndi isə, mənim başa düşdüyümə görə, bunu danmağa başlamışıq!

Sokrat ona sarı dönüb, qulaq kəsildi, sonra dedi:

-Görürəm, sən düşündüyünü deməkdən çəkinən adam deyilsən! Ancaq o da görünür, sən indi danışılanlarla onda dediklərimizi biri-birindən yaxşı ayırd eləyə bilmirsən. Biz onda bunu demişdik də, biri-birinə tərs olan nəsnələrin biri o birisindən törənir, indi isə,–istər bizdə, istərsə doğada(təbiətdə) olsun, başqasına tərs olan nəsnənin yenidən doğulub, özünün tərsi olan bu başqa nəsnəyə çevrilə bilməyəcəyini deyirik. Onda, arxadaş, biz biri o birisinə tərs olan anlamlar daşıyan nəsnələri götürüb, onları daşıdıqları bu tərsliklərə görə də adlandırırdıq, indi isə tərslik daşıyıcılarının özlərini

ayrılıqda götürüb, onları daşıdıqları bu anlamlara görə adlandırırıq: bu nəsnələrdən də birinin o birisinə çevrilmək istəyinin ola bilməyəcəyini dilə gətiririk.

Burada o Kebetə sarı baxıb, soruşdu:

-Olmaya bu arxadaşımızın dedikləri səndə də nəsə bir çaşqınlıq yaradır?

-Yox,- Kebet qayıdıb dedi,- onun dedikləri məndə azacıq da olsa çaşqınlıq yaratmır. Ancaq boynuma alıram, sənin danışıqlarında, mənim özümün də sonacan anlaya bilmədiyim çoxlu nəsnələr olmamış deyil.

-Demək, biz mız qoyub eləmədən, hansısa bir tərsliyin daşıyıcısı olan nəsnənin, özü-özünün tərsinə çevrilə bilməyəcəyi konusunda anlaşdıqmı?

-Elədir, buna söz də ola bilməz.

-Onda bax gör, indi deyəcəyim konuda da mənimlə anlaşırsanmı. Sən nəsnələrə yanaşanda, onlardan birinin soyuq, o birisinin isti olduğunu deyirsənmi?

-Deyirəm.

-Bu sözlərin yerinə: “qar”, “alov” demək, səncə, doğru olardımı?

-And olsun Zevsə, bu doğru olmazdı!

-Deməli, isti—alov demək deyil, başqa bir nəsnədir, soyuq da—qar deyil, başqa bir nəsnədir, eləmi?

-Elədir.

-Mənə elə gəlir sən bunu başa düşürsən də(indicə bundan danışmışdıq), qar isti ilə qovuşanda, artıq özü olmayacaq, eləcə də qar haçansa isti də olmayacaq: isti ona yaxınlaşanda o, ən azından geri çəkiləcək, aşağısı əriyib yox olacaqdır.

-Büsbütün doğrudur.

-Elə bunun kimi də, mən bilən dediklərimizdən bu da sənin üçün aydın olmalıdır, soyuq yaxınlaşanda alov ən azı onun gəldiyi yoldan çəkilir, bunu bacarmayanda isə, sönüb, yox olur: o soyuğa qovuşmağı nə istəyir, nə də buna gücü çatır, soyuğa qovuşsaydı o özü olaraq qala bilməzdi,- alov olmaqla yanaşı soyuq da olmaq baş tutası bir olay deyil.

-Elədir, bu olası deyil.

-Deməli, belə çıxır, hansısa nəsnənin aldığı bir adın, yəni daşıdığı anlamın, sonsuzlara kimi dəyişməz qalması, təkcə onun daşıdığı ideyaya görə deyilmiş, burada

ideyadan başqa, onun donuna(formasına) girib gerçəkləşmək də var imiş. İndi, inanmaq istərdim, sən məni bir az da yaxşı başa düşəcəksən. Sayılanların(ədədlərin) tutduqları yeri bildirmək üçün işlənən **təklik** anlayışı, öz adını haçansa dəyişə bilərmi, yoxsa o sonsuzlara kimi bu adı daşıyacaqdır?

-Sözsüz, sonsuzlara kimi bu adla çağrılacaqdır.

-Elə isə, gerçəkliklərdən təkcə omu belədir - səndən soruşmaq istəyirəm,- yoxsa onun təki olan başqaları da var: ola bilsin bu başqası sayılanların içində təklik üçün ayrılan yerdə dayanmır, ancaq öz doğuluşuna(təbiətinə) görə, təkliklə bir olur? Mənim indi dediyimə uyğun gələn çoxlu örnəklər vardır, o sıradan burada, sayılanlardan "üçü" deyə bilərəm. Bir anlıq düşüncələrini toparlayıb "üç" sayılanını araşdır. Sənə elə gəlmirmi, biz ona, öz adı ilə "üç" deməkdən savayı, onun təkliklə tənləşdiyini də anlaşmalıyıq, baxmayaraq təklik deyilən anlayış üç sayı ilə sonacan üst-üstə düşə bilmirlər? Neyləmək olar, görünür üç də, beş də, az qala sayılanların yarısı da öz doğuluşlarından belədirlər, yəni onların hamısı təkdirlər, bununla yanaşı olaraq sonacan, təklik anlayışı ilə üst-üstə düşə bilmirlər. Uyğun olaraq da iki, dörd, bu sayaq sıralanan sayılanlar da qoşa(cüt) sayılırlar, ancaq qoşalıq anlayışı ilə sonacan üst-üstə düşə bilmirlər. Dediklərimlə anlaşırsanmı?

-Necə də anlaşmayasan!- Kebet dedi.

-Onda indi aydınlaşdırmaq istədiklərimi, ayıq-sayıq izləməyə çalış. Beləliklə də, necə görürsünüz, burada təkcə elə biri-biriylə tərs olanların öz aralarında biri o birisini danmasıyla iş qurtarmır, bütün yerdə qalan biri-biriylə tərs olmayanlar da özlərində biri-birinə tərs olan ideyalar daşıyırlar, ona görə də qarşılıqlı olaraq biri o birisinin daşımaqda olduğu, tərs olan ideyanı danmağa başlayır, birdən bu tərslik lap yaxına gəlib çıxsa, geri çəkilə də, yox ola da bilərlər. Biz indicə dedik də, "üç" sayılanı yox da olar, nəyə desən qatlaşar da, təki üç ola-ola qoşalıqla qovuşmasın!

-Başqa sayaq ola da bilməzdi,- Kebet dilləndi.

-Ancaq, öz aramızdır, iki ilə üçü biri-birinə tərs saymamaq da olar, düzdürmü?

-Elədir.

-Belə çıxır, təkcə biri-biriylə tərs olan ideyalar biri-birini sıxışdırmırlar, elə bunun kimi də, tərs olan ideyaların gerçək daşıyıcıları da, nədənsə biri o birinə yaxınlaşa bilmir.

-Düz deyirsən.

-Gəl görək, bunun nədən belə olduğunu tapa bilirikmi?

-Çox yaxşı, baxaq.

-Yoxsa buna görəmi, Kebet, hansısa nəsnəyə yiyələnən ideya, onu özünə boyun əydirsə də, ancaq özünün yiyələnə bilməyəcəyi, özünə tərs olan ideyaya sonacan tərs olmağa sürükləyə bilmir?

-Bu necə olur?

-İndicə dediyimiz təki. Sanıram, üçlük ideyasının daşıyıcısı olan nəsnənin, üç olmaqdan başqa bir də tək olduğunu unutmamısan?

-Yox, unutmamışam.

-Biz bir də bunu deyirik, belə bir nəsnəyə onun ölçüsünə tərs olan ölçüləri yaradan ideya yaxınlaşa, onunla qovuşa bilməz.

-Dqğrudur.

-Onu bu ölçüyə salan təklik ideyası deyilmi?

-Elədir.

-Onunla tərs olan ideya qoşalıqdırmı?

-Doğrudur.

-Belə çıxır, qoşalıq(cütlük) ideyası, nə olursa olsun, üçə yaxınlaşa bilməz.

-Elədir, bu olası deyil.

-Üçdə, biz belə deyirik, qoşalıqdan gəlmə nəsə ola bilməz.

-Doğrudur, ola bilməzş

-Belə çıxır, üç qoşalığa yoluxa bilməz.

-Elədir.

-Mən demişdim də, biz hansısa nəsnənin o birisi ilə tərs olmaya-olmaya, ancaq nədənsə onu özünə tərs saydığı durumları ayırd etməyi bacarmalıyıq. Buna örnək üçü göstərə bilərik: özlüyündə o, qoşalığa(cütlüyə) sonacan tərs də deyil, ancaq qoşalıq ideyasını daşımaq istəmir, qoşalıqla tərs olan təklik ideyasının donuna(formasına)

bürünərək ortaya çıxır. Buna oxşar olaraq, iki sayılanı da təkliyə tərs olan biçimlərdə üzə çıxır, alov-soyuğa qarşı belə olur, habelə bunun kimi. İndi bax gör, belə söyləsək(hökm versək), düzmü olacaq: Təkcə elə biri-birinə tərs olan ideyalar biri-birini yaxına qoymamaqla iş qurtarmır, biri o birinə tərs olan ideyalardan don geyən nəsnələrdən biri o birinə yaxınlaşıb bu daşıdığı ideyanı ona çatdırmaq istəyəndə də elə bu baş verir, yəni onlar da biri o birini öz yaxınına buraxmır. Haydı, öncə dediyimizi bir də anaq(bir sözü dönə-dönə deməkdən korluq(ziyan) görməzsən): sayılanlardan(ədədlərdən) beş, qoşalığa yovuşmur, ancaq iki qat artıq olan beş, yəni on, artıq təkliyə yovuşmaz olur. Belə görünür, on özlüyündə təkliyə tərs olmayanlardan törəndiyindən, təkliklə tərs olmamalıydı, ancaq göründüyü kimi o təklik ideyasını özünə yaxın buraxmır. Bunun kimi də, biryarım olsun, eləcə də başqa kəsirlərin hamısı: bütövlüyü(tamlığı) özlərinə yaxın buraxmırlar—üçdəbiri, başqa bunun təki kəsirləri götürüb baxsan, bunun belə olduğunu görərsən. Dediklərimi, çatdırıb qavradığına, mənim baxışlarımla anlaşdığına güvənə bilərəmmi?

-Elədir, sənlə lap böyük bir vurğunluqla anlaşmaqdayam!- Kebet dedi.

-Onda gəl öncə dediklərimizə qayıdaq. Ancaq səndən bir umacağım var, bacarsan, mənim sorğularımı birbaşa yox, məni yamsılayaraq yanıtlamağa çalış. Bunu ona görə deyirəm, bayaqdan apardığımız araşdırmaların gedişində biz artıq, bundan qabaq bildiyimiz sorğuları doğru yanıtlamaq yolumuzdan bir az da ötə güvənilə biləcək başqa bir yola düşmüşük. Birdən sən məndən soruşsan, bədənin qızması üçün onda nəyin olması gərəkir, mən indi sənə keçmişdə olduğu təki, doğruluğu bəlli, ancaq qaba(avamyana) dillə: bunun üçün bədəndə istilik olmalıdır, deməzdim, artıq bu yeni araşdırmalarımızda alışdığım təki, çox incə bir dillə deyərdim, bunun üçün bədəndə alov olmalıdır. Sonra məndən soruşsaydın, bədən nədən ağrınır, mən onda, soyuqdəymədən yox, qızdırmadan ağrınır deyərdim. Bunun kimi də, sayılanın tək olması üçün onda nə baş verməlidir sorğuna, o ikiyə bölünməməlidir yox, o özündə tək sayda iki sayılanı(ədədi) saxlayır, deyərdim. Habelə bunun kimi. İndi mənim səndən nə istədiyimi aydın başa düşürsənmi?

-Bütün aydınlığı ilə anlayıram.

-Onda de görüm, bədənin dirilik qazanması üçün, onda nə olmalıdır?

-Öpöz,- Kebet dedi.

-Ancaq onun gəlişi iləmi, dirilik yaranır?

-Başqa necə ola bilər?

-Deməli, öpöz nəyə yiyələnirsə, bunun qarşılığında ona dirilik verir, eləmi?

-Doğrudur.

-Diriliyin tərsi olan nəsə varmı?

-Var.

-O nədir elə?

-Ölüm.

-Ancaq,–biz indicə anlaşdığımız təki–öpöz, öz gətirdiyi ideyaya tərs olan ideyanı daşıyan nəsnə ilə yovuşmur, deyilmi?

-Sözsüz, belədir.

-Buradan nə çıxır? Qoşalıqla(cütlüklə) yovuşmayanı biz indicə necə adlandırmışdıq?

-Təklik.

-Onda düzgünlüklə, zirəkliklə, yovuşmayanlar necə adlanır?

-Biri–əyri, o biri–bacarıqsız.

-Çox gözəl. Ölümlə yovuşmayanı biz necə adlandırırıq?

-Ölümsüz.

-Öpöz ölümlə yovuşurmu?

-Yox.

-Deməli, öpöz ölümsüzdür?

-Ölümsüzdür,- Kebet dedi.

-Çox yaxşı. Demək, bunun doğruluğunu göstərə bildik, eləmi? Yoxsa sən belə düşünmürsən?

-Yox, mən düşünürəm öpözün ölümsüzlüyü bütünlüklə doğrulur.

-Onda ardına baxaq, Kebet. Birdən təklik deyilən anlayışın yox ola bilməyəcəyi bəllidirsə, onda sözsüz, üç sayılanının da yox olmayacağını demək olar, eləmi?

-Elədir.

-Belə çıxır, soyuqluq da yox olmayan nəsnə olsaydı, onda istilik yaxınlaşanda qar da bütünlüyü pozulmadan geri çəkilərdi, əriyib-eləməzdi, doğrudurmu? O bir yandan, yox ola bilməzdi, o biri yandan da özü olaraq qala-qala istiliyə yovuşa bilməzdi.

-Doğrudur,- Kebet dedi.

-Elə bunun təki də, mənə belə gəlir, birdən istilik yox olan nəsnə olmasaydı, onda alova hansısa soyuq olan bir nəsnə yaxınlaşanda, o nə sönər, nə də yox olardı, itkisiz olaraq, geri çəkilərdi.

-Sözsüz belə olmalıydı.

-Biz ölümsüzlüyü də, elə bu sayaq araşdırmalı deyilikmi? Oysa, ölümsüzlük yox olmamaqdırsa, ölüm yaxınlaşanda öpöz də yox olmamalıdır: bu indicə dediklərimizdən belə çıxır, o nə ölümlə yovuşa bilər, nə də ölə bilər! Yenə də bunun təki, üç–qoşa(cüt) olmayacaq, təklik–qoşalığa çevrilməyəcək, alov, onun istisi də, soyuq ola bilməyəcəkdir! “Görən, təklik deyiləni nə tutub-saxlayır,–kimsə soruşa bilər,–qoşalıq ona yaxınlaşanda, onunla yovuşub qoşa olmağa qoymur, qoşalıq ona yaxınlaşanda o, nədən geri çəkilməli, yox olmalıdır?” Biz burada təkliyin yox olmayacağını deyib, bunun üstündə dayana bilmirik,- təkliyin ölümsüz olmadığını bidiyimizdən, burada dirənməyə yer qalmır. Birdən, tutalım, təkliyin ölümsüzlüyü danılmaz bir doğruluq olsaydı, biz də çəkinib eləmədən, qoşalıq təkliyin üstünə saldıranda, üç sayılanının yox olmadığını, qaçıb qurtulduğunu deyə bilərdik. Bunun kimi də, alovu, istiliyi, biri-biriylə tən gələnlərin asılılığını, habelə başqalarını da doğrulda bilərdik. Doğrudurmu?

-Büsbütün doğrudur.

-İndi də ölümsüzlüyə baxaq. Onun yox olmayacağı doğrudursa, onda öpöz ancaq ölümsüz deyil, bir də yox olmayandır. O birdən belə olmasa, onda yeni bir araşdırmaya gərək duyulur.

-Yox, yox, - Kebet dilləndi,- buna görə başqa bir araşdırma aparmağa gərək yoxdur. Ölümdən qaça bilən, ölümsüz olduğu kimi, sonrasız da olur, bu onun başlıca göstəricisidir.

-Mənə elə gəlir,- Sokrat ardını dedi,- tanrı da, dirilik ideyası da, habelə bunun kimi, başqa ölümsüz olanlar da, yox ola bilməzlər,- bu hamının inandığı bir gerçəklikdir.

-Elədir, bunu doğru sanmayan kimsənin ola biləcəyinə inanmıram, tanrılara gəlincə isə burada ayrı bir söz də ola bilməz.

-Beləliklə də, ölümsüz olan, yox olub gedə bilməz, onda öpöz ölümsüzdürsə, bu elə onun yox olub gedə bilməməsi də deməkdir.

-Buna söz ola bilməz.

-Haçan insanın ömrü sona çatır, onun ölümlü kəsimi—bədəni ölür, yox olub gedir, ölümsüz kəsimi—öpözü isə ondan ayrılıb, öz bütünlüyünü saxlayır, korlanmır, ölümdən qurtulur.

-Görünür, belədir də var.

-Demək, Kebet, öpözün ölümsüzlüyünə, tükənməzliyinə azca da olsa güvənsizlik ola bilməz. Ona görə də bizim öpözümüz, sözsüz Aidə gedib çıxmalıdır.

-Mənə gəlincə, Sokrat, burada sənin sözünə qarşı çıxıb, deyəsi bir sözüm yoxdur, bu konunu doğrultmaq üçün dediklərinə də bütünlüklə inanıram. Yoxsa birdən, Simmiyin, başqa birisinin soruşmağa sözləri varsa, düşündüklərini gizlətməsinlər: bunu sonraya saxlasalar, səni bir də haradan tapıb, söz soruşacaqlar.

-Mən də elə,- Simmiy dilləndi,- dediklərinin hamısını doğru sanıram. Ancaq bu konunun olduqca böyüklüyü, bir də insanın bu konunu sonacan anlaya biləcəyinə olan inamsızlığıma görə, aradabir ürəyimin dərinliyində nəsə bir güvənsizlik də baş qaldırır.

-Təkcə elə bu deyil, Simmiy,- Sokrat dedi,- sənin bu sözlərin yenidən, bayaq danışdığımız o birinci yola qayıtmaqdan qaynaqlanır. Siz, görünür, o yola bağlılıqdan qurtula bilməyib, onun doğruluğuna güvənməkdəsiniz, ancaq yenə də, mən sizləri bu güvəndiklərinizə bir az da dərindən baxmağa çağırıram. Siz konuya bacardıqca dərindən yanaşa bilsəniz, insanın qavraya bilcəyi yerəcən araşdırmalar aparmağı bacarsanız, danışdığımız sonucların doğruluğunu da anlaya biləcəksiniz. O an gəlincə, bu konu bütün aydınlığı ilə sizlərə bəlli olacaq, axtarışlarınızı dayandıracaqsınız .

-Doğrudur,- Simmiy Sokratla anlaşdığını bildirdi.

-İndi isə, arxadaşlar, - Sokrat sözünün ardını dedi,- bir konununu üzərində də düşünməyə dəyər. Öpözümüz ölümsüzdürsə, biz ona–bədənimizdə olduğu sürədən başqa, bir də qalan bütün çağlarına da yetə biləcək bir qayğı göstərməyə çalışmalıyıq, kimsə öpözünə bu qayğını əsirgəyirsə, bunun gələcəkdə onun üçün çox qorxulu bir

sonluqla bitəcəyini sanmalıyıq. Ölüm bizim uğrağımızın(taleyimizin) sonu olsaydı, onda o, yaramaz adamların işinə çox yarayardı, ölməklə onlar biryolluq: bədənlərindən, onunla yanaşı öpözlərindən də, elə öz yaramazlıqlarından da qurtula bilərdilər. İndi artıq öpözün ölümsüzlüyü açıq-aydın bəllidirsə, onda onun öz qaragünlüyündən qurtulması, özünə sığınacaq tapa bilməsi üçün tək bir yolu qalır: haracan bacarırsa, yaxşılığa, ərdəmliyə çata bilmək. Öpöz özü ilə Aidə, qanacaqdan, gör-götürdən(tərbiyədən) başqa nəsə apara bilmirsə, onda bunların yaxşımı, pismi durumda olmasından çox nəsnələr asılı olmalıdır, yəni ölümdən sonrakı çağlara, yaxşılıqlarla keçən öpöz–uğura, yamanlıqlarla keçən öpöz isə–uğursuzluğa çatacaq.

Bunun, bax belə baş verdiyini deyirlər. İnsan öləndən sonra, onun öz ömründə qazana bildiyi uzaqgörənliyi(intuisiya), öpözünü, ölənlər üçün ayrılmış bir yer var, ora aparıb çıxarır, orada öpözlər onlar üçün qurulmuş məhkəmədən keçirlər, sonra məhkəmə buyuruğu ilə taqımlara(dəstələrə) bölünüb, məhkəmənin onlar üçün ayırdığı başçıların yönətimi ilə Aidə yollanırlar. Aiddə onları gözləyən uğraqlarına(talelərinə) qovuşub, yer üzündə yaşayanda elədikləri suçların altını gərəyincə çəkdikdən sonra, başqa bir başçının yönətimi ilə geriyə, yer üzünə qayıdıb gəlir, insan bədənlərində yenidən doğulurlar, bu çox üzün çəkən bir sürədə, dönə-dönə baş verir. Onların Aidə gedən bu yolu, Esxilin yazılarında adı keçən Telefin danışdığı təki deyildir. Onun deməyinə görə, Aidə gedən yol, düz bir yoldur, kim onu tutub gedirsə, Aidə uğraşır, ancaq mənim anladığıma görə bu yol, nə ancaq bir tək, nə də düz deyil: belə olsaydı, onda öpözləri yönətən başçılara gərək duyulmazdı, yol birdirsə, düz ora gedirsə, burada azmaq da olmaz. Yox, oxşayır, burada yol bir deyil, üstəlik yolçunu çaşdıra biləcək çoxlu yolayrıcları da var: mən bunu bizim eldə keçirilən ölüm törənlərinə(mərasimlərinə), törələrə(adət-ənənələrə) görə deyirəm.

Öpöz—bədəndə yaşadığı sürədə, özünü ölçü gözləyən, qanacaqlı olaraq yetirə bilibsə, üzüyolalıqla başçının ardınca düşüb gedir, keçdiyi bu yol da ona tanış gəlir. Bədənin düşkün istəklərinə qapılmış öpöz isə, çox uzun bir sürədə bədəninin yan-yörəsində vurnuxur, tərsliyinə salıb ondan uzaqlaşmaq istəmir, beləcə uzun-uzadı ağrı-acılar içində qovrulur, sonunda, bayaq dediyimiz uzaqgörənliyi, onu güclə sürükləyib buradan uzaqlaşdırır. Ancaq başqa öpözlər, onu görüncə üzlərini çevirib uzaqlaşır, onu

öz aralarına buraxmırlar, onunla yol yoldaşı olmaq da istəmirlər, elə yolbaşılar da onu öz taqımına buraxmır, onunla yola çıxmaq istəmirlər, bu ən çox o öpözlərlə olur, onlar yaşamlarında qaniçən olmuşlar, əlləri suçsuz kimsələrin qanına batmışdır, habelə bunun kimi alçaq işlər görmüşlər. O beləcə təkbaşına azıb, çoxlu gərəksələrin, sıxıntıların içində qalır, çox uzun çəkən bu sarsıntılardan sonra, onu öz yaramazlıqlarının acısını dadmalı olduğu yerə sürüyüb atırlar. Özünü düşkün istəklərdən arıdan, ölçü gözləməyi bacaran öpözlər isə, başqa öpözlərdən özlərinə yol yoldaşları, tanrıların içindən onlara yiyəlik, böyüklük eləyənlərini tapıb, özlərinə yaraşan yerlərdə ağırlanıb(hörmətlə) yaşayırlar. Sən demə yaşadığımız Yer üzündə,–məni buna inandırıblar,–bizim tanımadığımız, bizi bəbək qoya*(təəcübləndirə) biləcək çoxlu başqa bölgələr də varmış, Yerin özü də bizim bildiklərimizdən, düşündüklərimizdən, büsbütün ayrı ölçülərdə, başqa quruluşda imiş.

Burada Simmiy onun sözünü kəsdi:

-Bu necə ola bilər, Sokrat? Mən də Yerin necə olması üzrə çoxlu danışıqlar eşitmişəm, səni başqa nəyə inandırıblar, bax bu yenilikləri mən də bilmək istərdim.

-Bilirsənmi, Simmiy, mənim bu eşitdiklərimi danışmaq üçün Qlavk* kimi dildən iti olmağa gərək yoxdur, ancaq bu deyəcəklərimin doğru olduğuna inandırmaq üçün, məncə Qlavkın da bacarığı yetməz, gücü çatmazdı. Ona görə də, indi bu danışacaqlarımın doğruluğuna sizləri inandırmağı, mən də boynuma götürmürəm, bunu bacarsaydım belə, onsuz da, mənim indi yaxınlaşan ölüm anıma kimi, belə bir uzun-uzadı danışığı çatdırıb, qurtara da bilməzdim. Ancaq istəsəniz, Yerin görünüşü, quruluşu üzrə öyrəndiyim, ürəkdən inandığım bu bilgiləri sizə qısaca danışa bilərəm: bunu demək üçün yol açıqdır.

-Çox gözəl!- Simmiy hayqırdı.- Bizim üçün elə bu da yetər!

-Mən nələrə inanmışam, deyim. Birincisi, Yer yumrudursa(kürədirsə), Göyün ortasında dayanırsa, onda havanınmı, başqa bir gücünmü, bir sözlə onu yıxılmağa qoymayacaq nəyinsə olmasına gərək qalmır,- bunun üçün göyün dəyişməz bir sıxlıqda olması, bir də Yerin dəngəsinin(tarazlığının) pozulmaması yetərlidir, yəni sıxlığı dəyişməyən bir ortamda duran nəsnənin dəngəsi pozulmursa, o, harayasa

yönəlməyəcəkdir, bu sıxlığın içində tərpənməz qalacaqdır. Bax mən birinci, buna inandım.

-Düz də eləmisən,- Simmiy dedi.

-Bundan sonra, mən Yerin bizim düşündüyümüzdən qat-qat böyük olduğuna inandım, yəni bizlərin, Fasisdən tutmuş Herakl dirəklərinə kimi tutduğumuz torpaqlar onun çox kiçik bir bölgəsidir; biz sanasan, qarışqalar, qurbağalar bataqlığın yan-yörəsinə sığındıqları təki, bizi çevrələyən dənizlərə sıxılıb ondan qırağa çıxa bilməyəcək bi durumda yaşamaqdayıq, elə başqa xalqlar da bizim təki hansısa torpaqlara qapanıb qalıblar. Mənim öyrəndiyimə görə, Yer üzündə çoxlu, biri-birindən görünüşünə, ölçüsünə görə seçilən böyük çökəkliklər vardır, su, duman, hava axıb bunları doldurmuşdur. Ancaq Yerin özü aparı(tərtəmiz), ulduzlu göydə tərpənməz olaraq uyumaqdadır—bu göyü araşdıranlar onu efir* adlandırırlar. Bu efirin çöküntüləri: dumana, suya, havaya dönüb yerə enir. Biz belə bir çökəkliyin dibində yaşamağımıza baxmayaraq, bunu anışdıra bilmirik, Yerin ən üst qatında yaşadığımızı düşünürük, bu bilirsiniz nəyə oxşayır: kimsə dənizin dibində yaşasaydı, elə o da bizim kimi düşünərdi, başının üstündə qalan dəniz suyundan baxıb, Günəşi, ulduzları görüb, dənizin üst qatının Göy olduğunu sanardı. Birdən o, özünün ərincəkliyindən, gücsüzlüyündən daşınıb, dənizin üst qatınacan qalxıb, başını qaldıraraq, bizim yaşadığımız yerlərə baxsaydı, buraların necə də arı(təmiz), gözəl bir yerlər olduğunu görər, özünün yaşadığı dəniz dibindən çimçəşərdi, ancaq indi öz gözü ilə gördüklərini, başqasından eşitsəydi, onun dediklərinə inanmazdı da.

Bax biz də elə, buna oxşar olan bir durumda yaşamaqdayıq: biz yerin bu dərin çökəklərindən birində yaşamaqdayıq, ancaq elə bilirik, yerin ən üst qatındayıq, başımızın üstündəki havanı göy sanmaqdayıq, onun arxasında tərpənişən ulduzların olduğuna inanmaqdayıq. Bunların hamısı bizim gücsüzlüyümüzdən, yavaşgəlliyimizdən havanın üst qatına çatıb, ondan yuxarıdakıları görə bilməməyimizdəndir. Birdən kimsə, havanın üstünə qalxa bilsəydi, tutalım, qanad bağlayıb o ucalığa uçsaydı, balığın sudan başını çıxarıb, bizim yaşadığımız yerləri gördüyü təki, o da qalxdığı ucalıqda büsbütün başqa bir Yeri görə bilərdi. Ora ucalan kimsənin yaradılışı, onun bu gördüklərinə sarsılmadan baxa bilmək dözümlüyü verə bilsəydi, onda o, ilk dönə, gerçək göyü, gerçək

işığı, gerçək Yeri görə biləcəkdi. Bizim yaşadığımız yerlər, onun daşı-torpağı,–dənizin dibini duzlu suların yuyub aşındırdığı kimi—yuyulub-sürtülmüş, yeyilib-ovulmuşdur. Bilirsiniz də, dənizdə önəmli nəsnələr yarana bilmir, oradakılar yetkinləşə bilmirlər, onun dibindəki torpaq isə–çılpaq qayalıqlar, ucsuz-bucaqsız qum, çamur, palçıq yığınları ilə örtülüb—bir sözlə orada bizim yaşadığımız torpaqla yanaşı qoyula biləsi bir gözəllik tapmazsan. Yerin bizdən yuxarıdakı qatındakı torpaqlarda olan yaşam da, sanıram, bizimkindən beləcə seçilib ayrılır, qat-qat gözəldir! Düzü bilmirəm, Yerin ən uca qatlarında nələr olduğunu anladan mifi indi danışmağın yeridir, yoxsa yox.

-Çox da yerinə düşərdi, Sokrat,- Simmiy dedi,- bu mifi eşitmək, elə bilirəm, hamımızın ürəyindən olardı.

-Beləliklə, arxadaşlar, deyilənə görə, oradakı Yerə yuxarıdan baxanda o, on iki parlaq boyalı dəri parçalarından tikilmiş topa bənzəyir. Bizim Yerdə bəzəkçilərin işlətdikləri boyalar, oradakı parlaq boyaların solğun örnəkləridir, orada bütün Yer üzü bu parlaq boyaların çalarları ilə göz oxşayır, onlardan bizim anışdıra bilməyəcəyimiz bir arılıq-duruluq, işıq saçılmaqdadır. Bir yerdə bu boyalar al qırmızı bir çalarla göz oxşayır, başqasında qızılı, üçüncüdə qardan da, kirəcdən də qat-qat üstün ağappaq bir çalarla gözə çarpır; başqa boyalar da elə bunlar təki, ürəkçəkici çalarları ilə göz oxşayırlar, ancaq bu boyaların sayı, bizdə olanlardan artıqdır da, bizdəki boyalardan qat-qat gözəldir də. Oradakı yerin çuxurları da, suyla, havayla dolduğuna baxmayaraq, çox parlaq boyalarla örtülüb, bu ürəkaçan alabəzəklik, dördbir yana işıq saçmaqdadır, bir sözlə oraların üzdən görünüşündə birgəlik, bütünlük, bununla yanaşı, seçilib-ayrılan sonsuz çalarlar vardır.

Bax oralar belədir, üstəlik orada, bayaqdan danışdıqlarımıza uyğun, seçilib-ayrılan bir özəlliklə, ağaclar, otlar, çiçəklər bitir, yemişlər(meyvələr) yetişir, dağları da bizimkilərdən ayırd olunur, daşları—ütülü(hamar), dupduru(şəffaf), gözəl boyaqlıdır. Bu daşların bizim yerlərə tökülən qırıntılarına biz burada çox yüksək dəyər veririk: inci, yaqut, zümrüd, almas kimi daşları deyirəm. Orada isə bütün daşlar belədir, bundan da yaxşıdır. Oradakı daşlar bizimkilər kimi kirlənmiş, aşınmış, korlanmış deyillər—bizdəki daşları, yaşadığımız çökəkliyə bizdən yuxarıdakı Yerdən tökülən çöküntülərdən-

çüründülərdən yaranan, duz, pas bu günə qoyur: elə bu çöküntülər də daşları, torpağı, bütün varlıqları yoluxdurub, aşındırır, suyumsuz(eybəcər) eləyir.

Oradakı Yer bax belə gözəlliklərlə bəzənmişdir, üstəlik də, orada qızıl, gümüş, habelə bunlar kimi çox dəyərli metallar boldur. Onlar göz qabağında, gen-bol, ayaq altında, dördbir yana səpələniblər, bizlərdən birimiz oralara uğraşarsa, bu görünüşləri izləyə bilərsə, onda doğruçu ağgünlüyün ancaq oralarda olduğunu anlayacağını, bir başqasının onu bu düşüncələrindən daşındıra bilməyəcəyini sanıram.

Oradakı varlıqların arasında insanlar da yaşamaqdadır: onlardan biriləri oradakı Yerin çökəkliyində, başqaları—havaya çox yaxın, bizim dənizin qırağında yaşadığımız təki, üçüncüləri—dörd yandan havanın çevrələdiyi adalarda yerləşmişlər. Sözün qısası, bizim yaşamımızda su nədirsə, onlar üçün hava onun yerini tutur, bizim üçün hava nəyə yarayırsa, onlar bunun üçün efirdən yararlanırlar. Btün il boyu, isti ilə soyuğun qarışığından törəyən ilıq bir iqlimdə yaşadıqları üçün onlar ağrınmağın(xəstəliyin) nə demək olduğunu bilməzlər, bizdən qat-qat uzun bir ömür sürərlər. Görmə, eşitmə, anlaq, habelə bütün başqa bu sayaq dəyərlərə görə, onların bizdən üstünlüyü, öz arılığına görə havanın sudan, efirin havadan üstünlüyü təkidir. Oralarda Tanrı Evləri(Məbədlər) də, tanrıların yaşadığı qutsal ormanlar da vardır, tanrılar doğrudan da bu ormanlıqlarda yaşayır, görkəzmələrlə, duydurmalarla, ürəyədammalarla, oradakı insanlara yol göstərirlər. Oradakı kimsələr Günəşi, Ayı, ulduzları, onlar necə varsa,—olduğu kimi də görürlər. Onların bütün ömrü belə bir ağgünlüklər, yaxşılıqlar içində keçir.

Bax o yuxarıdakı Yerin doğası(təbiəti), onu çevrələyən nəsnələr belə yerləşibdir. Ancaq bu Yer dediyimizi özünün bütünlüyü ilə götürsək, onda bizim yaşadığımızdan da aşağıda, qat-qat dərinliklərdə, çox-çox geniş olan çökəkliklər də vardır, bu dərinliklərə düşüləsi yol, bizim çökəkliyə gələn çox dar olan bir keçidin o üzündədir. Bizimkindən bir azca dərinlikdə olan, ancaq çox geniş olan çökəkliklər də vardır. Bütün bu çökəkliklər, biriləri dar, başqaları geniş olan yeraltı keçidlərlə biri-biriylə bağlıdır, bu keçidlər ayrı-ayrı yönlərə sarı uzanıb gedir, bollu sular da, bir bardaqdan axıb o birinə tökülən sayaq, bu çökəkliklərin birindən axıb o birinə tökülür, beləcə Yerin altında bitib-tükənməz, göz işlədikcə qıraqları görünməyən, çox enli çaylar axıb gedir—bunlardan birilərinin suyu soyuq, o birilərininki qaynardır. Yerin altında bolluca alov da vardır, o,

bir yerdə odlu çaylar kimi axıb gedirsə, başqa yerlərdə yolunun üstündəki palçığın durusuna da, qatısına da qarışıb axır, bu isə birincidə Siciliyadakı palçıq sellərinə, ikincidə, vulkan püskürməsindəki üzə çıxan lavaya çox oxşayır. Bu çaylar qarşılarına çıxan çuxurları doldura-doldura axıb gedirlər, yolda başqa özləri təki sulu, alovlu çayların axınına qoşulub birdən axıb, Yerin üstünə çıxır, sonradan geriyə, dərinliklərə axıb qayıdırlar, elə bil Yerin çəyirdəyində(nüvəsində) arasıkəsilməz dalğalar yaranıb, irəliyə cumub, sonra geriyə çəkilirlər. Bu dalğalanmanın nədən yaranmasını belə başa düşmək olar. Yerin altına uzanan keçidlərdən biri o birilərindən çox böyükdür; bu keçid, Yeri bu üzündən dəlib, o biri üzündən çıxan uçurumun ağzıdır, bunu keçmişlərdə Homer də yazmışdır:

Çox-çox uzaqlarda, Yeri dəlib keçən, dibsiz uçurum var.

Homer də, başqa şairlər də bu uçurumu Tartar adlandırırlar. Yer üzünün bütün çayları sonunda hamısı bu uçuruma axıb tökülürlər, elə öz başlanğıclarını da ondan götürürlər, onlar sonradan axıb keçdikləri torpaqları özlərində əridib sularına qatır, buna görə də onların suları boyalarına görə ayırd olunur. Onların hamısının Tartara axmasının nədəni onların axıb tökküldüyü bütün çuxurların dibsiz olmasındandır, bu suların dayanıb dura biləcəyi belə bir yer yoxdur, ona görə də o dayanmadan beləcə dalğalanır—qalxıb enir, onun ardınca düşüb gələn havadan isə küləklər doğulur: sular hara axırsa—istər Yerin uzaqda qalan üzünə, istərsə yaxındakı üzünə, hava da ara vermədən onu izləməkdədir. Biz nəfəs alıb-verəndə, havanı içəri alıb, sonra çölə üfürdüyümüz təki, havanın bu yerdəyişməsindən törənib əsən küləklər də, suların arxasınca düşüb dərinliklərə gedir, sonra oradan qorxunc bir tufan qopararaq, Yer üzünə qayıdırlar.

Bu sular Yerin altına axıb tökülləndə, yeraltı çaylara qovuşub, onları doldururlar, bu lap suvarma arxlarının, yenidən qayıdıb ayrıldıqları çaylara axmasına oxşayır; yeraltı çaylardan ayrılıb, Yerin üzünə axıb gələndə isə onlar buradakı çayların suyunu artırır, axıb gölləri, dənizləri yaradırlar, onların da bir çoxu başqa çayların, bulaqların qaynağı olur. Beləcə onlar yenidən Yerin dərinliklərinə sarı axıb, Tartara tökülürlər: bunun üçün bu çayların biriləri, uzaq-uzaq ölkələrdən keçib getməli olur, biriləri isə kəsə bir yolla axıb ona çatırlar. Burada çayların ağzı(tökküldüyü yer), onun qaynağından aşağıda olur,

bir yerlərdə o çox aşağıda, başqa yerlərdə azacıq əynəmli olur. Çayların ağızları ilə qaynaqlarının, Yerin biri-birinə tərs olan üzlərində yerləşməsi də, Yerin altında isə, onun bir üzündə yerləşməsi də ola bilir. Elə axınlar da var, bizdən yuxarıdakı Yerin yörəsinə bir yol, ola bilsin bir necə yol ilan sayağı sarınır, sonra da ən dərin çuxurlaracan, oradan da Tartaracan axıb gedirlər. Bu çaylar Yerin hansı üzündən axmasına baxmayaraq, onun ortasına kimi axa bilirlər, oradan o yana keçə bilmirlər, bu ona görə belədir, Yerin bir üzündən axıb onun ortasına çatan çayın, ortadan o yana keçməsi üçün, o gərək dik yoxuşa qalxmalıydı, bu isə olası bir iş deyildir.

Bu çayların sayı olduqca çoxdur, onlar biri-birindən seçilirlər, çox da böyükdürlər, ancaq onlardan dördü özəlliklə ayırd olunur. Onların hamısından böyüyü, Yerin ortasından uzaq fırlanıb, axıb keçəni Okean adlanır. Yerin o biri üzündən Okeana qarşı axıb gələn, Yerin ortasına o biri yandan yaxınlaşan çayın adı Axerontdur. O, çox uzun bir yol keçir, çoxlu qumluq yerlərdən, ən çox da Yerin altı ilə axıb, Axerusiad gölünə tökülür. Ölənlərin öpözlərinin çoxu bu gölə gəlirlər, burada öz uğraqlarının(talelərinin) necə gətirəcəyini gözləyirlər—kimi az, kimi çox bir sürədə burada qalaraq—yenidən Yer üzünə qayıdır, varlıqlardan hansı bir türününsə bədəninə köçüb, ona dirilik verirlər.

Üçüncü çay öz başlanğıcını öncə dediyimiz bu iki çayın arasında olan bir yerdən götürür, bir az axıb, qızmar istidən qovrulan geniş bir yerə çatır, orada bizim qırağında yaşadığımız dənizdən də böyük olan bir göl yaradır, bu gölün bulanıq, lilli suları qaynayıb daşır. Onun bu gölü aşıb keçən bulanıq, lilli suları bizdən yuxarıdakı Yerin yörəsinə fırlanıb, Axerusiad gölünün qırağına tökülür, ancaq onun sularına qarışmayayaraq, ötüb keçir. Yerin altında bir neçə çevrə cızandan sonra o, Tartarın qurtaracağına yaxın bir yerdə ona qovuşur. Bu çayın adı—Pirifleqetontdur, o Yerin altında çevrə cızarkən, üst qatlara yaxınlaşanda özünün qaynar, bulanıq sularını Yerin üstünə fışqırıb keçir.

Ona qarşılıqlı tərs olan yöndən dördüncü çay başlanğıcını götürür, deyilənə görə insan ayağı dəyməmiş, çox qorxulu olan yerlərdən, özünün göyümtül-qaramtıl bulanıq suları ilə axıb keçir, bu yerləri Stiqiy ölkəsi deyə adlandırırlar, bu çayın burada yaratdığı gölə isə Stiks deyirlər. Stiksə töküləndən sonra, bu çayın suları qorxunc bir güclə çağlamağa başlayır, gölü ötüb keçəndən sonra bu çay, Yerin altında Pirifleqont çayının

axdığı yönün tərsinə sarı bir çevrə cızır, Axerusiad gölünə–Pirifleqontun bu gölə töküldüyü yerə bütünlüklə tərs olan, qarşı yöndən–axıb tökülür. Onun suları bu gölün sularına qarışmayaraq, ötüb keçir, sonra Yerin yörəsinə çevrə cızaraq yenə də Pirifleqontun Tartara töküldüyü yerə tərs olan yöndən axıb, Tartara tökülür. Keçmiş çağların şairlərinin deməsinə görə, bu çayın adı Kokitdir.

Bax bunlar hamısı beləcə qurulmuşdur.

Ölənlərin yaşamda qazandıqları uzaqgörənliyinin öz öpözlərini gətirib çıxardığı yerdə, onlar hamısı ilk olaraq məhkəmə qarşısında dayanmalı olurlar—öz ömürlərini yaxşılıqlarla, ərdəmliklə yaşayanlar da, belə yaşamayanlar da, bu məhkəmədən keçməli olurlar. Kimlərinsə, yaşamlarında orta bir yol tutduqları, suçları ilə yaxşılıqlarının biri-birini dəngələdiyi(tarazlaşdırdığı) bəlli olursa, onlar Axeronta yollanırlar, orada onları gözləyən qayıqlarla üzüb gölə gəlib çıxırlar. Onlar orada yaşayır, ömürlərində yol verdikləri suçlarından arınırlar, bu suçların altını çəkirlər, beləliklə də bu öpözlər, ötənlərdə qapıldıqları düşkünlüklərdən qurtularaq özgürləşirlər, yaşamlarında gördükləri yaxşı işlərinə görə isə, bu işlərin dəyərinə uyğun ödüllər(mükafatlar) də alırlar.

Kimlərinsə, nə olursa olsun, öz suçlarından arına bilməyəcəyi, öz yaramazlıqlarından əl çəkməyəcəyi, açıq-aydın bilinirsə(bunlar tanrıtanımazlar, Tanrı Evindən(Məbəddən) oğurluq, çapqınçılıq eləyənlər, düzgünlüyü, yasaları pozaraq, çoxlu suçsuz kimsələri öldürənlər, bir sözlə bunun kimi yaramaz işlər törədənlərdir),–onları öz uğraqları(taleləri) Tartarın sularının dərinliklərinə çəkərək batırır, oradan haçansa çıxıb, qurtulmaları da biryolluq yasaqlanır.

Birdən kiminsə çox ağır suçu olduğu üzə çıxarsa, ancaq bunun üstündən necəsə keçməyə də yol varsa, örnək üçün, acıqdan başını itirib, çılğınlaşıb, atasınamı, anasınamı əl qaldırmışsa, sonra bütün ömrü boyu buna görə özünü danlayıb-dansamışsa, elədiyinə görə ürəkdən ağrı-acılar çəkmişsə, bir başqası buna uyğun bir durumda adam öldürüb, sonradan bütün qalan ömrünü bunun sarsıntıları altında yaşamışsa,–onları da Tartarın sularına atırlar, ancaq bir il keçəndən sonra bu adam öldürənləri, dalğalar vurub Kokit çayına gətirib çıxarırlar, atasını, anasını öldürənləri isə, dalğalar Pirifliqetont çayına gətirib çıxarırlar. Çayların axarı ilə gəlib Axerusiad gölünün qırağına(sahilinə)

yaxınlaşanda onlar qışqırıb, çığır-bağır salırlar, biriləri—öldürdükləri kimsələrə, başqaları—böyük yamanlıqlar elədiklərinə üz tutub, yalvarıb-yaxarırlar, göldən çıxıb onların yanına gələ bilmələri üçün, suçlarının üstündən keçmələrini diləyirlər. Qarşısında suçlu olduqları kimsələr yumşalıb, suçlarının üstündən keçərsə, onların qara günləri bitir, düşdükləri bu dardan qurtulurlar, yox, birdən bağışlamasalar dalğalar onları götürüb yenidən Tartara sürükləyib aparır, orada başqa bir çayın axarı onları süpürləyib aparır, suçları bağışlanmayana kimi beləcə sarsıntılar, ağrı-acılar içində yaşamalı olurlar: yolun başlanğıcında düşdükləri məhkəmədə, hakimlər suçlarının altını çəkmələri üçün, onları belə bir uzun-uzadı sürən yazıqlığa tuş etmişlər. Sonuncusu, kimlərinsə öz ömürlərini doğru-düzgün yaşadıqları bəlli olursa: onları Yeraltı dustaqlıqdan çıxarıb, bayaq danışdığımız ən üstdəki Yerdən də yuxarıda yerləşən, suyu-torpağı-havası aparı-dupduru olan bir ölkəyə gətirib orada yerləşdirirlər. Fəlsəfənin köməyi ilə sonacan bədənindən arına bilmiş kimsələr, artıq bədənə qayıdıb yenidən onda dustaq olmaq uğrağından biryolluq qurtarırlar, onların ölümdən sonra düşəcəkləri Yurd da başqalarının köçəcəkləri yerlərdən qat-qat gözəl olur, ancaq indi sizinlə ayrılmalı olduğum ana çox az bir sürə qaldığından, bunlardan bir az da geniş danışmağı çatdıra bilmərik.

Bax indi bu danışdıqlarımızın uğrunda, Simmiy, bütün ömrümüz boyu yaxşılıqlar etməyə, anlaqlı olmağa, var gücümüzlə çalışmağa dəyər, belə yaşamağı bacaranların, bu yola böyük umunclarla çıxması da buna görədir, gördüyünüz kimi, onların qarşıda alacaqları çox gözəl ödüllər vardır!

Düzdür, sağlam düşüncəsi olan birisi üçün, mənim danışdıqlarımın hamısının yalnız belə olduğunu deyib dirənməyə də dəyməz. Ancaq ən azından bizim öpözümüzü belə bir uğrağın gözlədiyini, onun danışdığımıza oxşar olan yerlərə köçüb gedəcəyini, orada öz ölümsüzlüyünə qovuşacağını, inamla, ürəklə deyə bilərik. Bunlara ürəkdən inanmaq isə, gözəldir də, insana yaraşandır da—bu inamla biz, sanasan, özümüzə keçəcəyimiz yolu uğurla başa vurmaq üçün güc, coşqunluq aşılayırıq. Bax elə buna görə də, öpözümüzün ölümdən sonra keçəcəyi yollarla bağlı, ulularımızdan bizə gəlib çatan bilgiləri, mən sizə belə geniş, yerli-yataqlı danışası oldum.

Necə olursa olsun, indi danışdıqlarımızda özündən arxayın olan kimsələri yanıldacaq, sarsıdacaq bir söz belə yoxdur: onlar bütün ömürləri boyunca özlərini bədənin aşılamaq istədiyi sayı bilinməz düşkünlüklərindən qorumuşlar, geyim-kecimə, bəzək-düzəyə uymağın, onların dalınca düşməyin, insana yaraşmayan, onu korlayan gərəksiz işlər olduğunu anlamışlar, onlar öpözlərini ona yad olanlarla yox, doğma olanlarla bəzəməyə çalışmışlar—ölçü-biçi gözləmiş, düzgünlüyə, kişiliyə, özgürlüyə, doğruluğa çatmaq üçün əlləşib-vuruşmuşlar, onlar gərəkən anda, uğraqlarının çağırışı ilə yola düşüb, Aidə gedib çıxmaq üçün ayaqdadırlar.

Siz də, Simmiylə, Kebet, bütün burada olanların hamısı da, gərəkən anda bu yolu tutacaqsınız, məni isə elə indicə "uğrağım çağırmaqdadır"—məncə bizim acılı(faciə) dramlarımızın başda duranı(baş qəhrəmanı) bu yerdə belə deyərdi. Mən indi gərək gecikmədən, yuyunam da: mənə elə gəlir, ağunu çimib-arınandan sonra içsəm yaxşıdır, qadınlar da artıq əməyə qatlaşmazlar,—ölmüş bədəni yumaqdan qurtularlar.

Bura çatanda Kriton özünü saxlaya bilmədi.

-Yaxşı, Sokrat,- o dilləndi,- buradakı arxadaşlarına, elə mənim özümə də, uşaqlarınla, yoxsa bir başqa görüləsi işlərlə bağlı deyəcək sözün, tapşırığın varmı? Biz hamımız, sənin istənilən buyuruğunu yerinə yetirməyə ürəkdən sevinərdik.

-Yeni bir söz deyə biməyəcəyəm, Kriton,- Sokrat dedi,- indiyənəcən nə demişdimsə onların üstündə də qalıram: düşünün, özünüz-özünüzü bişkinləşdirin, bax onda nə eləsəniz, bu mənə də, mənim doğmalarıma da, elə özünüzə də elədiyiniz ən böyük yaxşılıqlar olacaq, bununla sizlər mənim qarşımda boynunuza nəsə götürüb eləmirsiniz də. Ancaq sizlər özünüzü düşünməsəniz, yəni bizim indi də, keçmişlərdə də araşdırdıqlarımızı öyrənib anlamağa çalışmasanız, bonunuza ən böyük işlər görəcəyinizi götürsəniz belə, nə əlinizdən nəsə gələcək, nə də bir uğur qazana biləcəksiniz.

-Elədir, Sokrat,- Kriton dedi,- biz sənin dediklərini yerinə yetirmək üçün var gücümüzlə çalışacağıq. İndi de görək, səni necə basdırmağımızı istərdin?

-Necə istərsəniz, elə də basdırarsınız,- Sokrat dilləndi,- mən aradan çıxıb, əlinizdən qaça bilməsəm, məni tuta bilsəniz, ürəyiniz necə istəyir elə də torpağa tapşırarsınız.

O bir anlıq dayanıb yavaşdan güldü, sonra bizə sarı dönüb, sözünün ardını dedi:

-Arxadaşlarım, mənim bu Kritonu başa salmağa gücüm çatmır—o mənim ancaq, yenə də ancaq, indi sizinlə danışan, dediyi sözlərin yiyəsi olan Sokrat olmağıma inanmaq istəmir. Ona elə gəlir, sanasan mən,—onun bir azdan görəcəyi o ölü olacağam, ona görə də, məni necə basdıracağını soruşur! Bizim bu uzun-uzadı danışığımızı, mənim ağu içəndən sonra sizlərdən ayrılıb, yaxşılıqlarla dolu bir yerə çıxıb gedəcəyimi, o, boş-boşuna yanşamaq sayır, elə düşünür, bu sözləri mən ancaq, sizləri də, özümü də toxdatmaq, ürək-dirək vermək üçün danışmaqdayam. İndi çox istərdim sizlər, Kritonun qarşısında mənə sayışçı(zamin) durasınız, ancaq elə eləyin, bu, onun mənə ölüm kəsən hakimlər qarşısındakı sayışçılığının tərsinə olsun: Kriton mənim qazamatdan qaçmayıb burada qalacağıma sayışçı durmuşdu, siz isə, mənim öləndən sonra çıxıb gedəcəyimə, burada qalmayacağıma sayışçı durun. Onda mənim bədənimi yandırsalar da, torpağa basdırsalar da, Kriton buna qolayca dözə biləcək, bədənimi yandıranda, torpağa basdıranda mənim bundan ağrı-acılar çəkmədiyimi anlayıb, üzülməyəcəkdir. Gəl mənim bu dediklərimi unutma, istəkli arxadaşım Kriton: sən doğru danışa bilməyəndə, bunun təkcə öz yanılmağınla qurtaracağını düşünmə, bununla sən, öpözünü də korlayırsan, ona da yamanlıq eləyirsən. Ona görə də, kişi kimi dayan, onu da biləsən, sən mənim ancaq bədənimi basdıra bilərsən, bunu da özün bilən, ürəyin istəyən kimi, törələrə(adətlərə) uyğun olaraq eləyərsən.

Bu sözləri deyəndən sonra o, yerindən qalxıb, yuyunmaq üçün qonşu otağa keçdi. Kriton da onun ardınca gedib, bizə gözləməyi tapşırdı. Biz onun qayıtmağını gözləyə-gözləyə indicə eşitdiklərimizin üzərində düşünür, öz aramızda danışırdıq, ancaq sözümüz hey hərlənib-fırlanıb necə ağır bir itkiylə üzləşdiyimizin üstünə gəlib-çıxırdı: biz demək olar, atasını itirib öksüz(yetim) qalan uşaqların günündə idik. Sokrat yuyunub qurtarandan sonra, onun üç oğlunu qonşu otağa, görüşünə gətirdilər, onlardan biri yeniyetmə, ikisi körpə idi; Sokratın qandaşı olan bir-neçə qadın da onunla ayrılıq görüşünə gəlmişdilər, Sokrat Kritonun yanında onlarla bir az danışdı, nəsə tapşırıqlar verdi, sonra qadınlara uşaqları da götürüb evə getməyi buyurdu, özü isə bizim yanımıza qayıtdı.

Günün batmağına lap az qalırdı: Sokratın yuyunmağı da çox çəkmişdi. Yuyunub qayıdandan sonra, o yerinə keçib oturdu, bizimlə demək olar danışmadı da. Bir az keçmiş Onbirlərin qulluqçusu içəri girdi, Sokratın önündə dayanıb dilləndi:

-Sokrat, görünür mənim səndən bir incikliyim olmayacaq, bura düşən başqaları, onlara ağu içmək çağının yetişdiyini deyəndə, elə quduzlaşırlar, mənə ağızlarına gələn söyüşləri deyir, qarğışlar yağdırırlar. Mən səni bu Qazamatda gördüyüm az bir sürədə, bura indiyəcən düşənlərdən, ən yüksək soylu, ən toxdaq, ən yaxşı bir kimsə olaraq tanımışam. İndi də mənim bu gəlişimə görə, acığın tutmayacağına inanıram. Anlayıb, bilməmiş olmazsan, mən indi hansı soraqla sənin yanına gəlmişəm. Beləliklə, arxadaşlarınla sağollaş, bir də çalış, bu üstünə gələn qaçılmaz ağrı-acılara bacardıqca qolay dözə biləsən.

Bu sözləri deyərkən o, hönkürüb ağladı, sonra qapıya sarı yönəldi. Sokrat bir anlıq, onu baxışları ilə süzüb, dilləndi:

-Sən də sağlıqla qal. Bu işi bacardıqca yaxşı görməyə çalışaram.—Sonra bizə sarı dönüb, danışmağa başladı: -Bilsəniz, bu necə də yaxşı bir insandır! O, demək olar gündə məni yoluxurdu, oturub oxsınlaşırdıq(dərdləşirdik), burada işləməyinə baxmayın, onun çox gözəl ürəyi vardır! Özünüz də indicə gördünüz, mənim üçün necə də ürəkdən ağlayırdı. Ancaq, Kriton, gəl onun sözünə qulaq asaq—ağunu düzəldiblərsə, qoy gətirsinlər. Düzəltməyiblərsə, onda başlasınlar.

Kriton qayıdıb dedi:

-Mən bilən, Günəş dağların üstündən görünməkdədir, sonacan batıb qurtarmayıb. Mən çoxlarını tanıyırdım, ağunu onlara buyurandan çox-çox sonra içmişdilər, axşam yeməklərini yeyib, ürəkləri istəyənəcən içki içəndən sonra, biriləri isə lap ağını çıxarıb, ölməmişdən qabaq qadınla yaxınlıq da eləmişdilər. Ona görə də, bu işi görməyi gecikdirə, bir az da uzada bilərik.

Sokrat ona üz tutub dedi:

-Sənin tanıdığın o adamların nədən belə elədikləri başa düşüləndir, Kriton. Onlar bu süründürməçilikdən qazandıqları anlarla ömürlərini bir az da artırmaq istəmişlər. Mənim isə nədən belə eləməməyim, bundan da artıq başa düşüləndir. Mən ağunu içməyi gecikdirib, bir az sonraya saxlamaqda nəsə bir qazanc görmürəm, yaşamın son

qalıqlarından dördəlli yapışmaq mənə çox gülünc görünür. Yox, sən gəl dirəşmə, necə deyirəm, elə də elə.

Onda Kriton yaxınlıqda duran qulu dümsüklədi. Qul otaqdan çıxdı, üstündən çox uzun bir sürə keçmiş, başqa birisi ilə qayıdıb gəldi, o birinin əlində Sokratın içməli olduğu ağu dolu bardaq vardı. Sokrat ona üzünü tutub, soruşdu:

-Çox gözəl, ay yaxşı adam. Sən bu işin incəliklərini bilərsən—de görək, mən indi nə eləməliyəm?

-Burada anlaşılmaz bir nəsnə yoxdur,- o adam dedi,- ağunu içib, addımlayarsan, onda gördün ayaqlarında ağırlıq duyursan, uzanarsan. Ağu yavaş-yavaş öz işini görəcək.

Bu sözləri deyərək, o ağu dolu bardağı Sokrata verdi. Sokrat bardağı olduqca toxdaqdıqla əlinə aldı, Exekrat, mən gözümü ona zilləmişdim: onun nə əlləri əsdi, nə üzü ağardı, bir sözlə tükü belə tərpənmədi, ancaq özünün öyrəncəsi üzrə, qaşlarının üstündən ağu gətirən adamı süzüb soruşdu:

-Sən bilərsən, bu içkidən tanrıları anmaq üçün, bir az yerə çiləmək olarmı?

-Yox, Sokrat, bu bardaqdakı ağu nə az, nə də çox, bir adamı öldürə bilməyə ancaq yetər.

-Başa düşürəm,-Sokrat dedi.- Ancaq hansı iş olursa olsun, tanrılara alqış demədən başlamaq olmaz—qoy onlar öpözümüzün Aidə gedən yolunu açıq eləsinlər. Mən onlardan bunu diləyirəm, qoy, tanrılar diləyimi yerinə yetirsinlər.

Bu sözləri deyərək, o bardağı dodağına yapışdırdı, ağunu toxdaqlıqla, qolayca, sonacan içib qurtardı.

Buçağacan çoxlarımız göz yaşlarımızı saxlaya bilirdik, ancaq onun ağunu içib qurtardığını görüncə özümüzü saxlaya bilmədik. Mən özümü necə bərk tutmaq istəsəm də, göz yaşlarım yanaqlarımdan ara vermədən, az qala bir bulaq təki axıb getməkdəydi. Mən bürüncəyimi başıma çəkib, özüm öz günümə ağlamağa başladım,–elədir!–mən ondan çox özümə ağlayırdım—mən bir də tapa bilməyəcəyim, yerini kimsənin tuta bilməyəcəyi, belə böyük bir arxadaşımı itirirdim! Kriton məndən də öncə, göz yaşları içində boğularaq yerindən qalxıb, başını itirmiş təki, vurnuxurdu. Apollodor isə, onsuz da çoxdan ağlamağa başlamışdı, indi isə, elə bərkdən hönkürüb ağlamağa, haray

qoparmağa başladı, onun hıçqırıqlarından, Sokratdan başqa hamımızın, ürəyi parçalanırdı. Sokrat isə, toxdaq bir səslə bizə üz tutub dedi:

-Bu nə arsızlıqdır, siz törədirsiniz, ay çığırqanlar! Mən qadınları ona görə burada qalmağa qoymadım, ağlayıb-sıtqayıb, başağrısı verməsinlər,–mənə isə belə öyrədiblər, gərək ölümü toxdaq, sayğılı bir susqunluqla qarşılayasan. Di, susun, toxtayın görək!

Biz onun bu sözlərindən utanaraq, ağlamağımızı kəsib, susduq.

Sokrat öncə otaqda var-gəl elədi, bir azdan ayaqlarının ağırlaşmağa başladığını deyib, ağu verən adamın dediyi kimi, arxası üstə uzandı. Sokrat uzanandan sonra bu adam onun ayaqlarını, baldırını əlləri ilə yoxladı, bir az keçmiş bunu bir də yenələdi(təkrar etdi). Sonra onun ayaqlarını var gücü ilə sıxcalayıb, ağrı duyub-duymadığını soruşdu. Sokrat ayaqlarının ağrımadığını dedi. Bundan sonra, o yenidən Sokratın baldırlarını əlləşdirdi, əlini bir az yuxarı aparıb onun bədəninin necə yavaş-yavaş soyuduğunu bizə anlatdı. Sonuncu yoxlamasından sonra, bu soyuqluğun ürəyinə çatanda, Sokratın öləcəyini dedi.

Soyuqluq artıq qarnına çatanda, başını basdırıb uzanmış Sokrat, birdən üzünü açıb dedi(bu onun sonuncu sözləri oldu):

-Kriton, unutmamısan, biz Askelepə xoruz qurbanı boyun almışdıq.* Onun qurbanını verməyi unutmayasan.

-Unutmaram, Sokrat,-Kriton dilləndi.- Ayrı bir sözün, tapşırığın da varmı?

Kritonun bu sorğusuna Sokrat hay vermədi. Bir az keçmiş, onun bədəni diksinibmiş kimi bərk titrədi, qulluqçu onun üzünü açdı: Sokratın baxışları donub qalmışdı. Bunu görən Kriton onun açıq qalmış ağzı ilə gözlərini qapadı.

Bax belə, Exekrat, bizim arxadaşımızın sonu çatdı, o bir insan kimi,–bunu çəkinmədən demək olar,–bizim öz çağımızda tanıdıqlarımızın arasında ən yaxşısı idi, eləcə də ən bilgəsi, ən düzgünü idi.

DUYDURMALAR:

Exekrat, Fedon–Elidalı Fedon, Sokratın öyrəncilərindən biri olmuş, Sokratın ölümündən sonra Afinadan çıxıb getmiş, Elida fəlsəfə oxulunu(məktəbini) yaratmışdır, bir ara Fliunt şəhərində yaşamışdır. Fliuntlu Exekrat, pifaqorçu filosof Filolayın öyrəncisi olmuşdur.

Tesey bəlli yeddi qoşa gənci–Burada yarımifik yunan ərəni Teseyin yeddi oğlanla, yeddi qızı Minotavra qurban vermək üçün aparması, ancaq onları ölümdən qurtara bilməsinə him vurulur.

Pllaton məncə ağrındığına görə gələ bilməmişdi–Platon bilərəkdən, özünün burada olmadığını deməklə, yazısının etkisini artırmaq istəmişdir, özlüyündə isə, Sokrat ağu içəndə Platon onun yanında olmuşdur.

Onbirlər–O çağlar, Afinanın Xalq yığıncağında onbir kimsəni seçib, Qazamatlarla bağlı bütün işləri yönətməyi onlara tapşırırdılar.

Ksantippa–Sokratın xanımı, onun Sokratla yola getmədiyi, gündəlik dava-dalaş saldığı danışılmaqdadır.

Muzalar–Yunan mifolojisinə görə, Zevslə, tanrıça Mnemosinin qızlarıdır, elmin, incəsənətin qoruyucuları olaraq, insanlara yaradıcılıq bacarığını onların verdikləri sanılırdı.

Filolay–Pifaqorçu filosof olmuşdur, Simmiylə Kebet onun öyrənciləri olmuşlar.

"Çoxlu tirsonosların, azacıq vakxantların olmasını"–Bu sözlər İncildəki:"Çağırılanlar çoxdur, ancaq onların arasından seçilənlər azdır" deyiminə uyğundur, yəni çağırışa qoşulanlar çox, ancaq çağırılan yolu tutub gedənlər isə azdır.

Endimion–Yunan mifolojisinə görə, Tanrıça(ilahə) Selenanın dəlicəsinə vurulduğu gözəl bir gənc olmuş, öz yanında saxlamaq üçün Selena bu gənci sonsuz yuxuya daldırmışdır.

Lira–Boyunduruğa(xomuta) oxşar, telli(simli) çalğı aləti.

Ağcaqayın ölümdən qorxan təki–Burada ağcaqayının "ağlağan" olmasına, yəni gövdəsini yaralayan kimi, ondan su axmasına him vurulur.

Penelopa–Odisseyin xanımı olmuş, onun yalançı ölüm sorağından sonra elçi düşüb onunla evlənmək istəyənlərin başını aldatmaq üçün, əlində toxuduğu parçanı qurtarmayana kimi ərə getməyəcəyini demiş, gündüzlər toxuduqlarını gecələr sökərək bu işi uzatmağa çalışmışdır.

Saçlarını qırxdıracaqsan–Yunanların yaxın adamlarının ölümünə görə, saçlarını qırxdırmalarına him vurulur.

İolay–Heraklın qardaşı oğlu, yaxın köməkçisi olduğu deyilir.

Atlant–Yunan mifoloyisinə görə, göyü çiyinlərində saxlayıb, onu yerdən ayıran birisi olmuşdur.

Təklik deyilən anlayış üç sayı ilə sonacan üst-üstə düşə bilmirlər–Burada sayılanların qoşulmalı olduğu bir düzənin pozulması anılır, sayılanlar tək olsalar da, onların bir neçə böləni olur, üç isə yalnız bir ilə özünə bölünür.

Bəbək qoymaq(qalmaq)–Azərbaycan türkcəsinin bir çox ağızlarında işlənən bu söz, "heyrətlənmək, təəcüblənmək" anlamındadır, bu deyim–insanın gözlənilməz bir durumla üzləşəndə göz bəbəklərinin geniş açılmasına uyğun olaraq yaranmışdır.

Qlavk–Qlavk–uyumlu(harmoniyalı) səslər çıxaran mis yuxaları(diskləri) düzəltməklə tanınırdı.

Efir–Əski çağlarda, yunanların düşüncəsinə görə, havadan yüngül, çox incə bir özdək(materiya) olaraq, kosmosun bütün boşluqlarını doldurmaqdadır.

Askelepə xoruz qurbanı boyun almışdıq–Askelep yunanların sağlamlıq tanrısı olmuşdur. Sokrat ölümə öpözün sağalması kimi yanaşdığından belə deyir.

AFINALI KSENOFONTUN ÖMÜR YOLUNDAN YIĞCAM BILGI.

Ksenofont bizim çağdan qabaq 444-356-cı illərdə yaşamışdır. Yazıçı, tarixçi kimi çoxlu kitabları günümüzə gəlib çatmışdır.

Bundan başqa o, siyasətçi, qoşun başçısı kimi də tanınmışdır.

Sokratın ölümündən üç il öncə, Afinadan getmiş, Persiya şahı Kirin yanında qulluğa girmişdir. Kirin ölümündən sonra Spartaya gəlmiş, Spartalıların apardıqları bir çox savaşlara,–o sıradan onların Afinaya qarşı apardıqları savaşlara da–qatılmış, spartalıların arasında böyük ad-san qazanmış, sayılan kimsə olmuşdur. Afina ilə Sparta arasında qanlı-bıçaqlıq olduğuna görə, Afina dövləti Ksenofontu yağıya satılmış birisi kimi suçlamış, onun Afinada olan bütün var-yatırını əlindən almışlar. Ksenofont bütün qalan ömrünü sürgündə keçirməli olmuşdur. Ömrünün sonlarına yaxın Afina dövləti onun bütün suçlarının üstündən keçsə də, o Afinaya qayıtmamışdı.

Laertli Diogen Ksenofontun Sokratla tanışlığını belə danışır: Afinanın dar dalanlarının birində Ksenofontla üzləşən Sokrat əl ağacı ilə onun yolunu bağlayıb, yaxınlıqda haradan yemək-içmək, əyin-baş üçün yarayacaq nəsnələri tapmaq olduğunu soruşur. Ksenofont Sokrata bunların harada yerləşdiyini yerli yataqlı danışandan sonra, Sokrat ondan soruşur: Buralarda, insanın gözəllik, yaxşılıq tapa biləcəyi bir yer tanımırsan? Ksenofont belə bir yer tanımadığını deyincə, Sokrat ona: Ardımca gəl, mən sənə o yeri tanıdım, deyir. Deyilənə görə o gündən sonra Ksenofont Sokratın öyrəncisi olur.

Ksenofontun Sokratdan yazdığı üç böyük kitabı günümüzə gəlib çıxmışdır: “Sokratla keçən günlərim”, “Ev tikməklik”(bu kitabda Sokratın ev diriliyi (təsərrüfatı) ilə bağlı

görüşlərindən danışılır), “Qonaqlıqda”(Burada Sokratın varlı bir Afinalının düzəltdiyi qonaqlıqda, arxadaşları ilə başına gələnlər, onların çoxlu konularda danışıqlarından yazılmışdır).

Bu bölmədə, Sokratın fəlsəfə üzrə baxışlarının yer aldığı, “Sokratla keçən günlərim” kitabını oxuya biləcəksiniz.

AFINALI KSENOFONT

SOKRATLA KEÇƏN GÜNLƏRIM

BIRINCI KITAB

I BAŞLIQ

{Sokratın üstünə atılan birinci suç ağ yalan idi: Sokrat tanrıları danmırdı.}

Sokratın üzünə duran, afinanalıları onun suçlu olduğuna inandıran, sonra isə yurddaşlarının ölüm kəsdiyi məhkəməyəcən sürükləyən yaramazların, onun adına necə qara yaxdıqlarını, ağa qara deyib, yalandan üzünə keçdiklərini andıqca,-üstündən uzun bir sürə keçməsinə baxmayaraq - indinin ozündə belə bu gen-geniş Yer-göy gözümdə daralır, özümə yer tapa bilmirəm. Onların məhkəməyə yazdıqları suçlamanın özəti belə

idi: “Sokrat dövlətimizin tapındığı tanrıları danır, onların yerinə başqa tanrıları qoyur; bununla yanaşı o, gəncləri pis yollara çəkir”.

Onun üstünə atmaq istədikləri lap birinci suçu, yəni dövlətin tapındığı tanrıları danmasını, Sokratın boynuna qoymaq üçün deyə biləcəkləri bircə dənə də olsun tutarlı sözləri vardımı? Sokrat Tanrı yolunda, istər öz evində, istərsə dövlətin ayırdığı yerlərdə çoxlu qurbanlar verərdi: bunu hamı görürdü; Tanrı sözündən hay verən falları öyrənməkdən yaxasını qırağa çəkmədiyi də kimsədən gizlin deyildi. Ancaq... bütün şəhərdə belə bir söz yayılmışdı, deməzsənmi, Tanrıdan gələn bir səs Sokrata buyuruqlar verir..., məncə elə buna görə də onu özündən yeni tanrılar uydurmaqda suçlayırdılar. Özlüyündə isə o, tanrılara sayqı göstərməkdə başqalarından nə iləsə seçilmirdi: başqaları gələcəkdə baş verəcək olayları necəsə,–quşların uçuşundan, yan-yörəni dinşəyib eşitdikləri səslərdən, qarşılarına çıxan kimsələrin görkəmindən ayırd edib, Tanrının onların uğuruna yazdıqlarını öyrənməyə çalışırdılarsa, elə Sokratın tanrıların istəmini öyrənmək üçün tutduğu yol da bunlara uyğun idi. Ürəyədammalara inanan adamların deməsinə görə, quşlarmı, qarşılarına çıxan kimsələrmi, onları nəyəsə yönəldir, onlara baxaraq, dinşəyərək sezdikləri, sonradan çin olur; Sokrat isə bir az başqa sayaq düşünüb, Tanrıdan gələn səsin ona buyuruqlar verdiyini deyirdi. O, Tanrıdan gələn səslərdən anlayıb-duyduqlarına görə, arxadaşlarının bir çoxuna öncədən, nəyin eləyəsi, nəyin eləməyəsi olduğunu demiş, ən önəmlisi isə, onun sözünə qulaq asanlar uğur qazanmış, qulaqardına vuranlarınsa oxu daşa dəymişdi. Onun arxadaşlarının yanında saçmaladığını, özünü öydüyünü deməyə kimin dili gələr? Tanrı buyuruqları adı ilə arxadaşlarına danışdıqları sonradan çin çıxmazdısa, o, sonucda öz saçmalığını, yekəbaşlığını ortaya qoyan bir yalançı təki, gülünc günlərə qallmazdımı? Sokratı tanıyanlar yaxşı bilir, o, doğru olduğuna inanmadığı sözləri dilinə alıb danışmazdı da. Gələcəkdə nə baş verəcəyini öyrənmək üçün, Tanrıdan başqa da kimə üz tutmaq, kimə inanmaq olar? O, tanrılara inanıb bu sözləri deyirdisə də, onda tanrıları necə dana bilərdi? Arxadaşları ona nəyisə gənəşəndə, gərəkən işin yaxşı görüləsini öz bildiyi kimi öyrədərdi, ancaq bu işdən yaxşı baş açmayanda deyərdi, orakula* gənəşin, görün bu işi görməyə dəyər, yoxsa yox? Kimsə öz diriliyiyində(təsərüffatında) uğurla bitəcək bir iş görməyi, yoxsa dövlət

(*-Üstü ulduzla kərtilənmiş sözlərin yozumu kitabın sonunda verilmişdir.)

qulluğuna getməyi umardısa, Sokrat onlara deyəsiydi, gedin fal açdırın, sonra işə başlayın. Düzdür, yaxşı doğramaçılığı(dülgərliyi), dəmirçiliyi, əkinçiliyi, yönətimçiliyi(idarəçiliyi), sayıcılığı(hesabdarlığı), yığımcıllığı(iqtisadçılığı), qoşun başçısılığını, habelə bunun təki bir çox işləri, insanın çalışmaqla öyrənə biləcəyini sansa da, ancaq bunu da deyəsiydi: bu işlərdə tanrıların gizlin saxladığı, insan bilməyəsi çoxlu incəliklər də var. Bu sözünə aydınlıq gətirmək üçün deyərdi: görürsən, birisi say-seçmə yemiş(meyvə) ağacları əkir, ancaq bilmir onların yemişini kim dərib yeyəcək; birisi özünə gözəl ev-eşik qurur, bilmir onda kim yaşayacaq; strateqliyi* bütün incəliklərinə kimi öyrənən bilmir, bu biliklər yeri gələndə onun işinə yarayacaqmı; dövləti yönətmək işini beş barmağı kimi öyrənən bilmir, dövlət başçısı olsa, özünün sonu nə olacaq; gözəl-göycək bir qızla evlənməyin sevincindən ürəyi atlanan bilmir, onun əlindən hansı acılar yeyəcək; şəhərin adlı-sanlı adamlarından qız aldığı ilə öyünən bilmir, haçansa özünə doğma sayıb arxalandığı bu adamların ucbatından ata-baba ocağını atıb qaça bilər. Sokrat onu da deyərdi, bu işlərin baş verməsinin tanrılardan deyil, yalnız insanın özünün bacarığından asılı olmasını düşünmək dəlilikdir; araba sürməyi: bu işi bacarana, yoxsa bacarmayana tapşırmağı; gəmini yönətməyi: bu işin bilicisinə, yoxsa başı çıxmayana verməyi, bir sözlə bu sayaq: sayılmaqla, ölçüylə, çəkiylə öyrəniləsi işləri, gedib orakuldan soruşmağı da dəlilik sayar, tanrıları bu işlərə qatmağın yersiz olduğunu deyərdi. Sokrat çoxsaylı dinləyicilərinə belə öyüdlər verməyi sevərdi: tanrılar,– insanların anlayası, əlindən gələsi üçün yaratdıqlarını, onların özbaşına öyrənə bilməsi üçün yollar qoymuşlar; ancaq onların insanlardan gizlin saxladıqlarını öyrənmək üçün, fal açıb tanrıların istəmini(iradəsini) öyrənmək gərəkdir: tanrılar ürək qızdırdıqları tanrıqan(mömin) kimsələrə yolun düzünü göstərirlər.

Sokratın ömrü-günü hamının gözü qarşısında keçirdi: ertədən durub gəzişər, gimnasiyaya(gimnastika salonuna) gedər, şəhər ortamı(meydanı) adamlarla dolanda ora gələr; elə günün başqa çağlarını da adamların çox toplaşdığı yerlərdə keçirər; bir sözlə, özünə dinləyici tapa biləcəyi yerləri arayıb-axtaradı. Ancaq inanmıram, onun danışıb-söyləşdiyi bu çoxsaylı adamlardan kimsə, haçansa, Sokratın ağzından tanrıları danmağa çağıran, onlara inamsızlıq aşılayan bir söz eşitdiyini desin.

O, başqalarının,–bildi-bilmədi, yeri gəldi-gəlmədi danışmağı sevdiyi, varlığın yaradılışı ilə bağlı araşdırmalar aparmaz, filosofların “kosmos” dediyi gerçəkliyin necə yaranması, qurulması ilə bağlı konulara baş qoşmazdı; göydə baş verən olayların hansı qaçılmaz düzənlərə bağlı olduğunu öyrənmək üçün baş sındırmazdı. Belə araşdırmalar aparmağı anlamazlığa yozardı.

Belələri ilə qarşılaşanda soruşardı: insana gərəkən bütün bilikləri öyrənib qurtardıqları üçünmü, indi də kosmosu öyrənməyə başlayıblar, yoxsa insanlıqla bağlı öyrənəsiləri bir qırağa atıb, ancaq tanrıların işinə qarışmaq istədiklərindən, bu yolu tutublar? Onları qınayıb deyərdi: “Bunlar niyə başa düşmək istəmirlər, insan anlağının belə işləri qavramağa gücü çata bilməz; Onların içində, bu işlərdən ən yaxşı baş açdığı ilə öyünənlərə baxsanız, öz aralarında belə dil tapa bilmədiklərini görərsiniz, ortaq bir düşüncəyə gəlib, anlaşa bilmədiklərindən də biri-birilərini dəli sayarlar. Dəlilərin davranışını izləsəniz görəcəksiniz: onların biriləri ən qorxulasından belə çəkinməzlər, başqa biriləri qorxusuz olan bir nəsnəni görəndə baş götürüb qaçarlar; biriləri adam içində də qanacaqsız danışmaqdan, davranmaqdan çəkinməz, o biriləri adamlarla üzləşəndə qaçıb gizlənərlər; biriləri Tanrı Evinə(məbədə), tanrılara sayğısızdırlar, başqa biriləri daşdan, ağacdan, heyvandan özlərinə “tanrı” düzəldirlər. Bunun təki də, varlığın yaranışının nədənini araşdıranlar, baxın görün, neçə yerə bölünüblər: birilərinə elə gəlir, varlıq bir bütövlükdür, başqaları üçün o, başıpozuq bir çoxluqdur; birilərinə elə gəlir, o dayanmadan yerdəyişmədədir, başqaları üçün o yerindən tərpənə bilməz; birilərinə elə gəlir, o ara vermədən doğulmaqda, ölməkdədir, başqaları üçün o, nə doğula, nə də ölə bilər”. Onlar üçün bir də belə deyərdi: “İnsanlıqla bağlı işləri öyrənənlər, bu biliklərindən özləri üçün də yararlanır, ürəkləri istəyəndə başqalarının da işinə əl yetirirlər; Görəsən, tanrıların işlərinə qarışanlar, göydəki olayların necə baş verdiyini anlayandan sonra, yel əsdirməyi, yağış yağdırmağı, ilin çağlarını(fəsillərini) dəyişməyi, habelə bu sayaq işləri görməyi bacaracaqlarını düşünürlər, yoxsa onlar üçün önəmli olan yalnız elə, bunların necə baş verdiyini anlamaqdır?” Bu sayaq işlərlə günlərini keçirənlərə onun baxışı belə idi, özü isə ara vermədən, yalnız insanlıqla bağlı işlərdən danışardı: inanclıqla inancsızlıqdan, gözəlliklə suyumsuzluqdan, düzlüklə əyrilikdən, biliklə biliksizlikdən, igidliklə qorxaqlıqdan, dövlətlə dövləti yönətənlərdən, insanlara

başçılıq etməklə bunu bacaran insanlardan, habelə bunun təki çoxlu konulardan danışar, bu konuların üzərində çalışıb onlardan baş çıxaranları yüksək soylu, bunu anlamayanları isə başqalarına qul olmaq üçün doğulmuş kimsələr adlandırardı.

Onun ölümünə qol qoyan məhkəmə hakimlərinin, Sokratın öyrətdiklərinin bir yerlərini bimədiklərindən yanlışa qapıldıqlarını düşünüb, bu suçlarının üstündən keçmək olar; ancaq işlərinin adı düzgünlüyü qorumaq, doğrunu üzə çıxarmaq olan bu adamların, Sokratın dediklərindən hamıya bəlli olanlara nədən önəm vermədikləri, istər-istəməz çaşqınlıq doğurur. Ötən çağlarda, Gənəşik Toplantısına seçilib, hamının gözü qabağında yasaları(qanunları) pozmayacağına and içəndən sonra, Sokrat bir ara Xalq Yığınçağına başçılıq etməli olmuşdu. Günlərin bir günü, acıqdan başını itirmiş xalq kütləsi, yasanı pozaraq, bir səslə, strateqlər Frasilla ilə Erasinidaya, onların bütün yoldaşları ilə birgə ölüm kəsmək istəyəndə, Sokrat bu qaldırılan sorğunu səsverməyə buraxmamışdı, baxmayaraq bu, kütlənin ona acığını coşdurmuş, çoxlu sayılıb seçilən adamlar da onu öldürəcəkləri ilə qara-qorxu gəlmişdilər: ancaq içdiyi andı pozub, düzgün olmayan yol tutub, kütlənin qılığına girməkdənsə, Sokrat onda, ölümlə üz-üzə dayanmağı üstün tutmuşdu. Düzdür, onun tanrıların insanların ömür yoluna qarışması ilə bağlı baxışları, çoxluğun baxışlarından seçilirdi, adamların çoxu bu konu ilə bağlı belə düşünürlər: tanrılar insanın başına gələsilərdən nəyisə bilirlər, nəyisə yox; Sokratın isə inancı belə idi: tanrıların sözdə də, işdə də bilmədiyi, onlardan gizli qalası, nələrsə olmur, onların qarışmadığı, yönətmədiyi bir iş belə yoxdur, insanlar arasında nə baş verirsə, hamısında adamlar onların buyuruqlarını yerinə yetirirlər.

Bütün bunlar gün təki aydın ikən, afinalıların beləcə yersiz olaraq, Sokratın tanrılara qarşı yanlış düşüncələrə qapılmasına inanması, adamın əlini-ayağını yerdən-göydən üzür,- Sokrat tanrıları aşağılayan bircə söz belə deməmişdisə, onlara sayğısızlıq göstərməmişdisə, özlüyündə onların sayğısı üçün elə böyük sözlər deyib, gözəl işlər görmüşdüsə, bu sayaq davranan başqa birisi, ən yüksək tanrıqan(mömin) kimsə sayılardısa,- onda afinalıların Sokrata qarşı elədikləri bu amansız davranışa nə ad vermək olar?

II BAŞLIQ

{Sokratın üstünə atılan ikinci suç da ağ yalan idi: o gəncliyi pis yollara çəkmirdi}

Sokratın gəncliyi pis yollara çəkməsi üzrə danışılan uydurmalara, bir çoxlarının necə inandığını düşünəndə, büsbütün çaşıb qalıram,- Sokrat, onun yuxarıda sadaladığım yetkinliklərindən başqa, qadınlarla yaxınlıq etməkdə, yeyib-içməkdə, bir sözlə bu sayaq bütün istəklərində, hamıdan artıq özünü saxlamağı bacarırdı, bundan başqa da, soyuğa, istiyə, ağır əməklərə çox dözümlü idi, özünü də dolanışığında elə ölçü-biçili olmağa öyrətmişdi, əlində olan azacıq axça ilə də qolayca keçinə bilirdi. O özü belə bir ömür sürürdüsə, başqalarını necə tanrıları danmağa, yasaları pozmağa yönəldə, qadın düşkünlüyünə, harınlığa, iş-gücdən yayınmaq kimi yaramazlıqlara öyrədə bilərdi? Oysa, o çoxlarını bu yaramazlıqlardan çəkindirər, yetkin olmağa alışdırardı, bir sözlə onları ərdəmli kimsələr olmağın gərəkliyinə inandıradı. Burada o, kimsəni danlaq-dansaqla, uzun-uzadı öyüdlərlə yola gətirməyə çalışmazdı, öz kimliyini bir örnək olaraq, necə vardısa, qarşısındakına tanıtmağa çalışardı, onun mənliyində bütün aydınlığı ilə gözə

çarpan, bu yetkinlikləri görüb duyduqdan sonra, dinləyiciləri Sokratın öyüdlərini eşitsələr, onun dediyi yolu tutsalar, özlərinin də belə bir insanlıq ucalığına çata biləcəklərinə ürəkdən inanardılar.

O, öz sağlamlığını bərk qoruyardı, kim öz sağlamlığına qayğı göstərməzsə onu qınayıb, bu yoldan çəkindirərdi. Yeyib-içməkdə qarınqululuq eləyənləri bəyənməzdi, ağızda dadı qalan, mədəni gücə salmayan yeməyi yararlı sayardı: bu sayaq yemək yeməyi o, sağlamlığa yarayan, insanın könlünü düşkün istəklərlə yormayan, gərəkli bir iş sayardı. Bununla yanaşı, geyimdə, ayaqqabıda, habelə bunun kimi, əyin-başla, yaşamla bağlı işlərdə, varlı görünmək istəyənləri, özünü gözə soxanları da sevməzdi.

Ancaq öz qazancını güdən adamları tutduqları yoldan daşındırmağa çalışar, onları bu düşkünlükdən çəkindirərdi, özü də yanına bilik öyrənmək üçün gələn dinləyicilərindən axça götürməzdi. Başqasından qazanc güdməməyi, insan özgürlüyünü qorumağın başlıca yolu sanardı; bilik öyrətdiyi üçün axça alanları qınayar, bunlar özləri özlərini qul yerinə satırlar, deyərdi. O belələrinin yanlışa qapıldıqlarını düşünərdi: özlərinə, yaxşılıq eləməyin öyrətmənləri deyən bu adamlar, necə olur buna görə axça alır, yaxşılıq eləməyi öyrətdikləri adamları özlərinə arxadaş eləyə bilməyin qazancını görmürlər, yoxsa, ərdəmlik öyrətdikləri bu adamların əmək itirəcəyindən, verdiklərinin qarşılığını qaytarmayacağındanmı qorxurlar? Sokrat öncədən kiməsə, nəyisə öyrədəcəyini boynuna götürməzdi, eləcə onun dediklərinə inanan kimsələrlə, biryolluq arxadaş olmağa çalışar, bunu özünün qazancı sayardı. Belə bir kimsənin, gəncləri pis yola çəkdiyini necə dilə gətirmək olar? Yox, onlara yaxşılıq eləməyi öyrətmək pis yola çəkməkdirsə, onda mənim deyiləsi başqa sözüm yoxdur!

Məhkəmədə, Sokratı suçlayanlardan biri demişdi: -And olsun Zevsə, Sokrat öz dinləyicilərinə, qoyulmuş yasalara sayğısız yanaşmağı öyrədir: “Onun deməsinə görə, dövlət qulluğuna götürülən adamları, çöp atmaqla(püşk atmaqla) seçmək saçmalıqdır, kim görüb, gəmi yönətimçisini, doğramaçını(dülgəri), fleyta çalanı, yoxsa başqa bir iş yiyəsini bu sayaq seçələr, baxmayaraq, onların yanlışından törəyə biləcək sıxıntıları, dövlət qulluqçularının yanlışından törəyən ağrı-acılarla yanaşı belə qoymaq olmaz; belə danışıqları ilə o, oturuşmuş dövlət quruluşunu gənclərin gözündən salır, onları dövlət quruluşunu güc işlədərək yıxmağa yönəldir”.

Mən isə belə düşünürəm, bilgəlik ucalığına çatan, başqalarına düz yol göstərməyi bacaran kimsələrin hamısı, toplumda nəyisə güc işlətməklə yoluna qoymağa qarşı çıxırlar: güclə baş verəcək dəyişikliklərin adamlar arasında yağılıqlar, qırğınlar törədəcəyini anlayır, bundansa adamları gərəkən dəyişikləkləri dinc yolla aparmağa inandırır, onları biri-birini sevməyə, qarşılıqlı anlaşma içində yaşamağa çağırırlar; kiməsə qarşı güc işlədəndə, o bundan yana, istər-istəməz yanıqlı olur, ona elə gəlir, sanasan əlindən nəyinisə alıblar, ancaq kimisə görülən işin düzgünlüyünə inandıranda, onda bu işə sevgi yaranır, ona düz yol göstərdiklərini, yaxşılıq elədiklərini düşünür. Ona görə də, bilgə adamlar başqalarına qarşı güc işlətməzlər, bu sayaq davranış, qolunun gücü olan, ancaq anlağı olmayan adamlardan törəyir. Bundan başqa, gücə arxalanıb iş görmək istəyən adamın gərək çoxlu yoldaşları da olsun; ancaq insanlara nəyisə aşılamağı, sözlə bacaran kimsə, öz işini tək də görə biləcəyindən arxayındır. Belələrinin kimisə öldürmək istəməsini düşünmək belə yersizdir: kiminsə, ona qulaq asan, görmək istədiyi gərəkli işə yaraya bilən adamı öldürmək istəməsi, açıq-aydın bir dəlilik olmazdımı?

Sokratı suçlamağa çalışanlar deyirdilər: “Ancaq, Sokratın Kritiylə Alkiviad adında iki keçmiş arxadaşları, bizim yurdumuza sayagəlməz yamanlıqlar eləyiblər. Oliqarxların hakimiyyəti dönəmində Kritiy, öz qazancını güdməkdə, başqalarına qarşı yeri gəldi, gəlmədi güc işlətməkdə, qaniçənlikdə ad çıxarmışdı, Alkiviad isə, demokratların dönəmində, özünün pozğunluğu, yekəbaşlığı, qol gücünə arxalanmağı ilə hamını bezdirmişdi”.

Bu deyilən kimsələrin yurdumuza qarşı yamanlıqlar elədiyi hamıya bəlli olduğundan, mən də onları sudan quru çıxarmaq istəmirəm, ancaq onların Sokratla olmuş ilişkilərinə aydınlıq gətirmək istəyirəm. Bunu Afinada artıq hamı bilir, bunların ikisi də, öz qılıqlarına görə, ad-san qazanmaq düşkünü idilər, onlar başqalarına ağalıq eləmək, hamıdan üstün görünmək üçün, dəridən-qabıqdan çıxırdılar. Onlar bunu da bilirdilər, Sokrat çox azacıq axça ilə öz gərəksələrini ödəyir, əyləncələrdən uzaq gəzir, ancaq onunla söz güləşdirmək istəyənləri də yerində oturtmağı hamıdan yaxşı bacarır. İndi yuxarıda sizlərə kim olduqlarını tanıtdığım adamların, Sokratın yanına gəlməkdə amacları, onun kimi yaşamağı, onun kimi öz qazancını güdməməyi öyrənmək ola

bilərdimi? Yoxsa onlar, Sokratdan yaxşı danışmaq bacarığını, bir də görəsi işlərində gözüaçıq olmağı öyrənmək istəyirdilər? Mənim inamıma görə, birdən tanrılar onlara, ya bütün ömürlərini Sokrat kimi yaşamağı, ya da ölümü seçməyi buyursaydılar, onlar ölməyi üstün tutardılar. Bu onların davranışlarından da bəlli idi: toplum içrə olan işlərdə, öz arxadaşlarını üstələyə biləcəklərini duyan kimi, Sokratdan aralanıb, dövlət qulluğuna cumdular, onların nə istədikləri də hamıya bəlli oldu. Bununla bağlı onu deyə bilərəm, Sokrat öz dinləyicilərinə siyasi biliklər verməzdən öncə, onlara öz duyğularına, istəminə yiyəlik eləməyi öyrədərdi. Buna qarşı deyəcək bir sözüm yoxdur. Ancaq, mənim bildiyimə görə, bütün oyrətmənlər, başqalarına öyrətdiklərini özləri də öz yaşamlarında büsbütün yerinə yetirəndə, dedikləri sözlərin kəsəri qat-qat artıq olur. Sokrat üçün ancaq bunu deyə bilərəm, o özünün gündəlik yaşamı ilə arxadaşlarına çox yaxşı örnək olmaqdan başqa, insanların çiyninə düşən daşıyası yüklərdən, başqalarına yaxşılıq eləməyin gərəyindən çox gözəl danışmağı da bacarırdı. Onlar da Sokratın yanında olduqca, özlərinə yiyəlik eləməyi bacarırdılar, bunu Sokratdan qorxduqlarına, yoxsa onun özlərinə əl qaldıra biləcəyindən çəkindiklərinə görə yox, belə yaşamağın insana yaraşdığını düşündüklərindən edirdilər.

Özünü filosof adlandıranların bir çoxu deyirlər: düzə qulluq edən əyri yola getməz, özünə yiyəlik eləyən yaramazlıq eləməz, nəyisə öyrənməyi bacaran adam biliksiz kimsələrə qoşulmaz. Mən isə başqa sayaq düşünməkdəyəm: sağlamlığını qorumayan kimsə, yaxşı işləməyi bacarmadığı təki, öz könlünü yetkinləşdirməyin qayğısına qalmayan adam da, ürəkaçan işlər görə bilməz, belə bir yolsuzluqda azan kimsə, nəyi eləməyi, nədən çəkinməyi, düzgün ayırd eləyə bilmir. Buna görə də oğlunu yaxşı insan olaraq böyütmək istəyən atalar, onları yaramaz adamlara qoşulşmağa qoymurlar, onlar uşaqlarının—yaxşı adamlarla oturub durarsa, yaxşılıq öyrənəcəyini, pis adamlara qoşularsa, yaman günlərə qalacağını anlayırlar. Bu konuda şairlərin örnək ola biləsi sözləri də var, onlardan biri belə deyir:

Doğru yol tutanlarla, yoldaş olub dolansan,–yaxşılıq qazanarsan,
Əyri yol gedənlərə, qoşulsan itirərsən,–az-çox yaxşı nəyin var!

bir başqası isə deyir:

Yetkin saydığın kimsə, birdən yanıla biər, bunu gözdən qaçırma.

Şairlərin dediklərinin düzgünlüyünə inanıram: onları da dönə-dönə oxumayanda unudursan, öyrətmənin də sözü, qulaqardına vurulanda beləcə unudulur. Öyüdü unudursansa, onun sənə aşıladıqlarını da yadırğayırsan; bunların ardınca, öpözünün(ruhunun) səni yaxşılıqlara çağıran səsini də eşitməz olursan. Mən bunu çox görmüşəm, içkiyəmi, qadın düşkünlüyünəmi yuvarlanan kimsələr, eləyəsi ilə eləməyəsini ayırd eləmək bacarıqlarını itirirlər: buçağacan axçalarını əllərində saxlamağı yaxşı bacaranlar, belə düşkünlüklərə qapılandan sonra, olan-qalanları büsbütün əllərindən çıxır; əliboş qalanda isə, öncələr özlərinə sığışdırmadıqları ən alçaq yollarla belə, axça qazanmaqdan çəkinmirlər. Yoxsa belə çıxır, qabaqlar mənlikli olan adamın sonradan dönüb qanacaqsız olmasi, düzlüksevər kimsənin birdən də əyriliyə uyması, habelə bunun kimi olayların baş verməsi, ucdantutma bütün insanların qanında vardır? Bu konuda anladığımı, doğru sandığımı sizlərə demək istəyirəm: biryolluq yaxşı, qanacaqlı bir kimsə ola bilmək üçün, çox uzun sürədə, ara vermədən çalışıb, özünü buna alışdırmalısan. Bəlli olduğu üzrə, bu elə bədənin yaradılışından doğan bi gerçəklikdir,— onda bir yandan arılı-durulu duyğularla dolu olan könül vardırsa, başqa yandan, lap elə bu könülün qonşuluğunda yer alan, kirli duyğulardan törəyən düşkünlüklər də vardır, bax bu ikincisinin insanın istəmini üstələməsindən yana, adamlar düz yoldan azırlar, bu da onları, könüllərinin uca diləklərinə çatmaq üçün çalışmaqdansa, bədənlərinin yaramaz istəklərində ilişib qalmağa, onların dustaqlığında ömürlərini sovmağa sürükləyir.

Ona görə də, Kritiylə Alkiviad Sokratın yanında olduqca, onunla arxadaşlıq etdikcə, öz alçaq istəklərini üstələyə bilirdilər. Sokratdan uzaqlaşandan sonra, Kritiy Fessaliyaya qaçdı, orada düz yolda olmayan adamların arasında dolaşmağa başladı. Alkiviad isə üzdən çox gözəgəlimli olduğundan, toplumun yüksək qatlarından olan qadınlar onu öz torlarına salmağa başladılar(onun bir çox varlı kişilərlə yatağa girdiyini deyənlər də vardır), belə alçaq işdəklərlə də o, doğma şəhərdə, qonşu şəhərlərdə tanınmaq üçün ona yardım edən çoxlu adlı-sanlı adamlar tapa bildi, belə iyrənc yollarla xalqın sayğısını qazanan Alkiviad, özünü yetkinləşdirməyin daşını atdı, sözün düzü, onun bu sayaq davranışını mən, lap elə qoşulduğu ilk gimnastika yarışmasında uğur qazanıb özündən çıxan, öz bacarığını artırmaq üçün çalışmağı başlı-başına buraxan

atletin saçmalığına da bənzədirəm. Bax elə bu sadaladıqlarım nədənlərdən,–yüksək soydan olmasına arxalanıb, pul-parası ilə öyünüb, yüngül yolla qazandığı ad-sana uyub yekəbaşlıq eləyən, özü-özünü korlayan bu adamların,–Sokratdan ayrılandan sonra belə alçaq kimsələrə çevriləcəyi gözlənilən deyildimi? Bütün bunların baş verməsində Sokratın da suçu olduğunu demək olarmı? Sokrat onları gənclik dəliqanlığı çağlarında, yanlışlardan çəkindirəndə, onların könlünü yaxşılıqlara kökləyəndə, onda bu indiki "suç qarayaxaları" nədən ağızlarına su almışdılar, nədən onda gəlib, Sokratı öymürdülər? Yaşamda baş verən dolaşıq işləri, bir kimsə bu sayaq ayırd eləmir. Hansı fleytaçı, kifaraçı, ya başqa bir öyrətmən olsun, öz öyrəncisini yetkincə öyrədəndən sonra, onun başqa bir öyrətmənin yanına gedib, onun yanında yanlışa qapılıb, korlanmasına görə sorunlu ola bilər? Kiminsə oğlu yaxşı adamların arasında dolanıb, özünü qanacaqlı aparırsa, sonradan başqalarına qoşulub, yaramaz birisinə çevrilirsə, buna görə atası, onun ilkin tanışlarınımı qınamalıdır? Bu ata, ikincilərlə tanışlıqdan sonra oğlunun korlandığını görüb, onun birinci tanışlarına bir az da artıq alqışlar deməzdimi? Bunu hamı birsəslə demirmi, törəyə uyğun yaşayan atalar, öz oğullarının yanlışına görə suçlu sayıla biməzlər? Düzgünlük budursa, onda Sokrata da belə yanaşılmalı idi: o hansısa saçmalıq eləmişdisə, buna görə onu yaramaz adam saymaq olardı; onun bütün ömrünü ərdəmli yaşadığı bəllidirsə, onda nədən başqalarının suçu ondan sorulmalıdır?

O, özü pis iş tutmayıb, ancaq başqa birinin yaramazlığını bəyəndiyini desəydi belə, buna görə onu ancaq qınamaq olardı. Keçmişdə, Sokrat Kritiyin Evtidem adında gənc bir oğlana pis gözlə baxaraq, onu öz yatağına sürükləmək istədiyini sezmiş, Kritiyi bu işdən çəkindirməyə çalışmışdı. Sokrat ona belə bir öyüd vermişdi: sevimli saydığın insana yalvar-yaxar eləyib, ondan özünün alçaq bir istəyini yerinə yetirməyi dilənməkdən də iyrənc bir iş ola bilməz. Kritiy bundan sonra da pis yoldan çəkilməyəndə, Sokrat hamının yanında(Evtidem də ordaydı), açıqca demişdi: məncə Kritiyin qanında donuzluq var, donuz özünü daşa sürtməyi sevdiyi təki, o da Evtidemə sürtünmək istəyir. O gündən sonra Kritiyin Sokratı görməyə gözü yox idi, "Otuzlar" deyilən yığnaq hakimiyyəti ələ keçirəndə Kritiy da onların arasında idi, sonra Harikllə birgə yasavericilik bölümünə başçılıq eləyəndə bunu Sokratın üzünə vurmuş, ona başqalarına söz incələməyi öyrətməyi yasaq eləmişdilər. O, necə olursa olsun, Sokrata

yamanlıq eləmək istəyirdi, ancaq bilmirdi bunu necə eləsin, əli boşa çıxanda, qara kütlənin filiosofları hoydu-hoyduya götürməyi sevdikləri yollara əl atmağa başladı, Sokratın adından uydurma sözlər qoşub, onu gözdən salmağa çalışdı: nə mən, nə də başqaları Sokratdan, onun adına çıxılan belə sözləri eşitməmişdik. Sonra baş verənlər də elə bunu göstərdi: "Otuzlar", suçu olmayan çoxlu yaxşı adamları öldürdülər, bir çoxlarını da güclə yasanı pozan işlərə sürüklədilər, bütün bunları görən Sokrat, o günlərdə belə bir söz demişdi: "Naxırda inəklər sınıxırsa, onların sayı azalırsa, üstəlik naxırçı da öz işini bacarmadığını boynuna almırsa, bu bizdə istər-istəməz acı bir gülüş doğurardı; bundan da gülüncü odur, birisi dövlətin başında ola-ola insanların dolanışığı günü-gündən pisləşə, onların sayı ildən ilə azala, ancaq bu adam utanıb-qızarmadan, ağızdolusu, özünün yaxşı dövlət başçısı olduğunu deyə". Çuğullar Sokratın bu sözlərini Kritiylə Hariklə çatdıranda, onlar Sokratı çağırıb bəlli yasanı göstərdilər, ona gənclərlə danışmağı yasaqladılar. Onda Sokrat, bu yasada ona qaranlıq qalan yerləri öyrənmək üçün, onlardan söz soruşmaq istədiyini dedi, onlar boyun qaçırmadılar.

-Yaxşı, - deyə Sokrat sözə başladı, - mən bu yasanı pozmayacağıma söz verirəm; ancaq bilməyərəkdən, anlamazlıqdan yasanı pozmayım deyə, sizdən göstəriş almaq istərdim: Niyə görə siz, söz danışmağın incəliklərini öyrənməyi yasaqlayırsınız, sizcə bu yasa, düz danışmağı, yoxsa yalan danışmağı yasaqlayır? Bu yasa, düz danışmağı yasaqlayırsa, onda gərək bundan sonra, Afinada hamı düz danışmaqdan çəkinsin, yalan danışmağı öyrənsin; yox, bu yasa, yalan danışmağı yasaqlayırsa, onda gərək hamı düz danışmağı öyrənməyə çalışsın, eləmi?

Harikl çımxırdı:

-Sokrat, sənə dediklərimizi başa düşmürsənsə, onda bir az da anlaşıqlı deyirəm: sənə gənclərlə danışmaq büsbütün yasaqdır.

Onda Sokrat soruşdu:

-Anlaşılmazlıq olmasın deyə, məni başa salın, adamları neçə yaşına kimi gənc saymaq olar?

Harikl dedi:

-Onların dəliqanlı çağı, Gənəşik Toplantısına qatıla bilməyən dönəmi; yəni, sən otuz yaşa çatmamış adamlarla danışa bilməzsən.

-Birdən mən nəsə almaq istəyirəm, satıcının da yaşı otuzdan azdır, ondan almaq istədiyim nəsnəni neçəyə satdığını da soruşmamalıyam? - Sokrat dedi.

-Belə sözləri soruşmaq olar,- deyə Harikl dilləndi. - Ancaq Sokrat, görürəm, sən bildiyin sözləri soruşursan; gəlsənə, bəlli olan sözləri soruşmaqla bizə başağrısı verməyəsən.

-Birdən bir gənc məndən bildiyim bir sözü soruşsa, örnək üçün: Harikl harada yaşayır, ya da Kritiyi hardan tapmaq olar? - onda dillənə bilərəmmi?

-Belə sözləri demək olar, - Harikl dedi.

Bu yerdə Kritiy dedi:

-Bax Sokrat, sən bu çəkməçilərdən, doğramaçılardan, dəmirçilərdən əl çəkməlisən, onların adını ara vermədən dilə gətirməkdən yazıqlar lap üzülüb gediblər.

-Deməli,- Sokrat dedi,- bu adamların işinə yarayan: düzlükdən, inancdan, habelə bu kimi konulardan da danışmaq olmaz?

-And olsun Zevsə, elədir, - Harikl dilləndi, - çobanlardan da danışma; yoxsa bir də gördün inəklərin sayı azalıb.

Beləliklə də çuğulların, Sokratın inəklərlə bağlı dediyi sözləri onlara çatdırdıqları bəlli oldu, Sokratdan nə üçün yanıqlı olduqları da üzə çıxdı.

Beləliklə də, Sokratla Kritiyin necə tanış olmasından, onların aralarında nə baş verməsindən danışıldı. Sizə düzgünlüyünü sınayıb yoxladığım bir söz də deyim: kimliyindən asılı olmayaraq, bir kimsəni, bəyənmədiyi adamdan nəyisə öyrənməyə sürükləmək baş tutası bir iş deyil. Kritiylə Alkiviad, Sokratı bəyəndiklərinə görə onun yanına gəlməmişdilər, onlar qabaqcadan qarşılarına dövlətə başçılıq eləmək amacı qoymuşdular. Sokratın yanında olduqları çağlarda da, onların,–görkəmli dövlət qulluqçularının çənəsinin altını kəsdirməyi, başqaları ilə danışmaqdan qat-qat üstün tutduqları gözə çarpmaqdaydı. Belə deyirlər, Alkiviad iyirmi yaşına çatmamışdan, ona ağsaqqallıq eləyən, o çağın dövlət başçısı olan Perikllə* aralarında, yasalarla(qanunlarla) bağlı belə bir danışıq olmuşdu.

-Perikl, de görək, - Alkiviad belə başlamışdı, - yasaların nə demək olduğunu mənə başa sala bilərsənmi?

-Çalışaram, - Perikl demişdi.

-Səni and verirəm tanrılara, mənə bunun niyəsini başa sal, - Alkiviad demişdi, - elə bir ucdan eşidirəm, hey deyirlər, yasaları gözləmək adamlara baş ucalığı gətirir, bunu da çox görmüşəm, birini öyüb deyirlər, o yasaları gözləyən adamdır, elə isə mən ola bilər, yasaların nə olduğunu bilməzlikdən adamlara gərəyincə sayqı göstərmərəm, eşidib-bilən mənə nə deyər?

-Sən yasaların nə demək olduğunumu bilmək istəyirsən, Alkiviad?- Perikl soruşmuşdu.- Onda qulaq as deyim: yasalar—xalqın bir yerə yığışıb səs çoxluğu ilə bəyəndiyi, yazıya aldığı, toplumda nəyin eləyəsi, nəyin eləməyəsi olduğunu anladan, bütün göstərişlərdir.

-Xalq bununla yaxşılığımı, yoxsa yamanlığımı, gündəmə gətirmək istəyir?

-Ancaq yaxşılığı, yamanlığı yox, oğlum, - Perikl dedi.

-Birdən xalq yox, deyək oliqarxların hakimiyyətində olduğu kimi, bir bölük adam yığışıb, nəyi necə eləyəsini yazırlar,- onda bu nədir?

-Dövləti yönətən adamların öz aralarında gənəşib, nəyi etmək olar deyə verdiyi göstərişlərin hamısı da elə yasa adlanır.

-Birdən dövlətin başında duran tiran, yurddaşları üçün nəyi etmək olar deyə bir göstərişlər yazırsa, budamı yasa sayılır?

-Elədir, hakimiyyət tiranın əlində olduqca, onun bu sayaq yazdıqları da yasa sayılır,- Perikl dilləndi.

-Gücü çatdığına görə özbaşınalıq eləmək necə, - Alkiviad soruşdu, - bu nə adlanır, Perikli? Bu, güclünün gücsüzə basqısı,–onun eləmək istəmədiyini qarşılıqlı anlaşma yolu ilə yox, qolgücünə elətdirməsi deyilmi?

-Məncə belədir, - Perikl dedi.

-Deməli, yurddaşlarının eləmək istəmədiyi nələrisə yazıb, sonra da bunu onlara qolgücünə elətdirən tiran özbaşınalıq eləyir, eləmi?

-Bunu düz deyirsən, - Perikl dedi. - Mən sözümü geri götürürəm, tiranın yurddaşlarının ürəyincə olmayan yazdıqları yasa sayıla bilməz.

-Azlıqda olan bir bölük adamın, çoxluqda qalan bölümün ürəyincə olmayan nələrisə yazması, hakimiyyətindən yararlanıb onlara güclə bunu elətdirməsi, qolugüclülükmü, yoxsa nəmi adlanmalıdır?

-Mənə elə gəlir, - Perikl dedi, - kimsə başqasına, onun ürəyincə omayan nəyisə elətdirirsə, bunu yazıb yazmamasından asılı olmayaraq, bu qolugüclülükdür, yasa yox.

-Belə çıxır, xalqın çoxluğunun anlaşıb yazdığı, bununla da öz üstünlüyündən yarınıb, varlı adamların istəmədiyi nələrisə onlara elətdirməsi də qolugüclülük adlanmalıdır, yasa yox?

-Elədir, Alkiviad, - Perikl dillənmişdi, - sənin yaşında olanda biz də belə konularda danışmağı yaxşı bacarardıq, belə sorğuların üstündə baş sındırardıq, görünür, indi də bunlara baş qoşmaq sırası sənindir.

Alkiviad isə ona belə demişdi:

-Ah, nə yaxşı olardı, Perikl, sənin bu işlərdə öz-özünü üstələməyi bacardığın o günlərində, mən də sənin yanında ola bilsəydim!

Beləliklə də, onlar başqa dövlət qulluqçuları üzərində üstünlüklərini duyunca, Sokratın yanına gəlməyin daşını atdılar: onsuz da onlar Sokratın yanına gəl-get eləyəndə də onu bəyənmirdilər, Sokratın, onların yanlışlarını birbaşa üzlərinə deməsi döşlərinə yatmırdı. Onlar, ancaq dövlət qulluğunda başqalarından üstün ola bilmək üçün, bir ara Sokrtatın yanına gəlib, ondan öyrənmişdilər.

Ancaq Kriton, Herefont, Herekrat, Hermogen, Simmiy, Kebet, Fedon kimiləri, Sokratın yanına hansısa dövlət görəvi tutmağı öyrənməkdən yana yox, yetkin insan olmaq üçün nə etməyi, insan olaraq görəsi olduqlarını necə yaxşı yerinə yetirməyi anlamaq üçün; evindəkilərlə, doğmalarla, arxadaşlarla, yurddaşlarla nə sayaq düzgünlüklə davranmağı öyrənməyə görə gəlirdilər. Onlardan biri də, nə gəncliyində, nə yaşa dolanda, saçma-sapan davranmamışlar, onları kimsə nədəsə suçlamayıb da.

-Ancaq Sokrat, - bunu məhkəmədə onu suçlayanlardan biri deyirdi, - oğullara atalarının üzünə ağ olmağı öyrədir: o, dinləyicilərinə, onun öyüdlərinə qulaq asarlarsa, öz atalarından üstün olub, onların öyüdlərinə qulaq asmadan da keçinə biləcəklərini aşılayır, başı çatmayan ataları qandallamaq gərək olduğunu deyir, bununla da, elə bilikli adamın, oxumamışları qandallamasının düzgün olduğunu ortaya atır.

Özlüyündə isə, Sokratın bu konuda dediklərinin özəti belə idi: başqalarından çox bildiyi üçün onları qandallamaq istəyən adam, bundan ən azı ona görə çəkinməlidir, birdən ondan artıq biliyi olan başqaları, bu sayaq davranışı görüb, onu düzgün sayarlar,

beləliklə də başqasına qarşı elədiyi yamanlıq qayıdıb özünün də başına gələr. Buna görə də o, dəliliklə, qanmazlığı biri-birindən ayırd etmək üçün araşdırmalar aparırdı: dəliləri özü-özlərinə qarşı da, başqalarına qarşı da yamanlıq törədə biləcəklərinə görə, qandallamaq gərək olduğunu söyləyirdi, qanmazlıq eləyənləri isə, necə olursa olsun, bilənlərdən öyrənməyə yönəltməyi, onları bunun üçün çalışdırmağı, görüləsi ən gərəkli işlərdən biri sayırdı.

-Sokrat, - yenə də onu suçlayanlardan bir başqası deyir, - nəinki oğullara atalarına qarşı sayğısızlıq göstərməyi aşılayır, onlara başqa doğmalarına da saymazlıq göstərməyi öyrədir: buna inandırmaq üçünsə durub deyir, adam nə ağrınanda, nə də məhkəməyə düşəndə,–doğmaları onu çəkdiyi ağrı-acılardan, düşdüyü dardan qurtara bilmir, birincidə yaxşı həkim, ikincidə bacarıqlı araçı(vəkil) ona yardım eləyir.

Onun adına qara yaxmaq üçün əldən-ayaqdan gedənlərin söylədiklərindən belə çıxır, sanasan Sokrat deyirmiş, yeri düşəndə öz yaxınlarına yardım göstərə bilməyən doğmaların, toplumda tutduqları yüksək görəvləri qara quruşa də dəyməzmiş; deməyəsən Sokrat, dinləyicəlirinə belə yanlış düşüncələr də aşılayıb deyirmiş, ancaq yeri gələndə nə eləyəcəyini bilən, bildiyini sözə çevirib deməyi, dediklərini isə işə keçirməyi bacaran kimsələrə sayğı göstərməyə dəyər, bütün yerdə qalanları isə saya salmamaq da olar. Bunların deməsinə görə, Sokrat gənclərə özünün hamıdan çox bildiyini, istərsə, başqalarını da özü təki çox bilikli bir kimsələrə çevirə biləcəyini aşılamaqla yanaşı, bir də istəyirmiş onlar Sokratdan başqa, bir kimsəyə sayqı göstərməsinlər. Kim də olmasa mən bilirəm, o, atalarla, doğmalarla, arxadaşlarla bağlı nələr danışırdı; bax onun belə bir söz dediyini eşitmişdim: “İnsan öləndə, ona düşünmək bacarığı verən öpözü(ruhu) bədənindən çıxır, bundan sonra isə o, necə doğma bir kimsə olursa olsun, ölən kimsənin bədənini evdə saxlamırlar, aparıb basdırırlar. Yaşayanda da özümüzü necə çox istəsək də, özümüz öz bədənimizdə gərəksiz saydığımız nələrisə kəsib atırıq, bunu başqalarının yardımı ilə elədiyimiz də olur. Tutalım, dırnaqlarımızı, saçımızı, qabarlarımızı özümüz kəsib atırıq, ancaq həkimə də gedib başqa çox ağrılı olan nələrisə kəsdiririk də, dağladırıq da, necə ağrısaq da, incisək də bunu eləyirik, üstəlik buna görə, kiməsə axça da ödəyirik; Ağız suyunu bacardıqca uzağa tüpürməyə çalışırıq, onun ağzımızda qalmasının bir yararı yoxdur, tüpürməsək, ola bilsin, nəyisə korlaya da

bilər”. Sokratın belə sözlər danışdığı olub, ancaq onun öz dinləyicilərini, atalarını diri-diri basdırmağa, öz bədənlərini tikə-tikə doğramağa çağırdığını deyənlər, ağ yalan danışırlar; yuxarıda örnək olaraq göstərdiyim sözləri ilə də o, dinləyicilərinə bunları aşılamaq istəyirdi: mənliyində insanlığa yaraşmayan nə varsa onlardan əl çəkməlisən; başqalarından yardım gözləyirsənsə, sən də başqalarının işinə yarımalısan; zirək, gözüaçıq olmağa çalışmalısan; atan, qardaşın, doğmaların sayğılı adamlardısa, onların görəvi, ad-sanı sənin iş-gücünə yarayırsa, buna arxayınlaşıb əl-qolunu yanına salıb durmamalısan, sən də onların ad-sanını ucaldan işlər görməyə çalışmalısan.

Məhkəmədə Sokratı bir də onda suçlayırdılar, sanasan o, tanınmış şairlərin şeirlərindən ən yaramaz yerlərini seçib dinləyicilərinə oxumaqla, bu şairlərin ad-sanı ilə özünün yaramaz düşüncələrini doğrultmağa çalışarmış, yan-yörəsindəki dinləyicələrini quldurluğa çağırarmış, tiranlığa qulluq göstərməyə öyrədərmiş. Örnək olaraq Sokratın, Hesioddan bu sözləri oxuduğunu göstərmişdilər:

Qara işdə çalışmaqla üz qaralmaz, işsiz dolanmaqdır üz qaralığı!

Bunların deməsinə görə, Sokrat bu şeiri oxumaqla dinləyicilərinə, yaramaz, utancverici işlər görməkdən çəkinməməyi, qazanc gətirən ən alçaq işlərdən də boyun qaçırmamağı aşılayırmış. Özlüyündə isə, Sokratın bu şeirlə dinləyicilərinə aşılamaq istədiyi bu idi: insan üçün ən yararlısı, ən gərəklisi, əməyə qatlaşıb işləməkdir, işsiz-gücsüz gəzmək insanı korlayır, yaramaz eləyir; yaxşı, gərəkli bir əməyə qatlaşmağın işləmək demək olduğunu; zər atıb qumar oynamağın, habelə bunun kimi pis öyrəncələrə qapılmağın isə işsizlik demək olduğunu anlatmaq üçün də, elə bu şeir parçasını oxuyurdu:

Qara işdə çalışmaqla üz qaralmaz, işsiz dolanmaqdır üz qaralığı.

Məhkəmədə Sokratı, Homerin Odisseylə bağlı dediyi bu şeir parçasını oxumaqla da, dinləyicilərini pis yola çəkməkdə suçlayırdılar:

Çarla gəlsə üz-üzə, soy-köküylə öyünən, bir döyüşçü görərsə,
Kəsib qarşılarını, gözlərinin içinə, qaba sözlər deyərdi:
“Siz ey boş ad-sanıyla, öyünüb ürəyində, qorxub tir-tir əsənlər,
El içinə çıxmayın, arınıza qısılın, girin dalda bucağa”.
Xalq içində səsini, başına atıb kimsə, çığır-bağır salanda
Əl ağacıyla onu, döyüb qısnardı küncə, üstünə kükrəyərdi:

“Otur, tərpənmə, dinmə, yamanlıq dağarcığı, gör başqası nə deyir!
Dinlə, səndən çox bilən, yurd yolunda savaşan, iş bacaran ərləri,
Nə yurd üçün savaşda, nə xalq gənəşiyində, bir işə yaramırsan”.

Bunların deməsinə görə, Sokrat bu şeiri örnək gətirməklə, Homerin yoxsulları, qara kütləni, əzişdirməyə çağırdığını deyirmiş, dinləyicilərinə də belə yaramaz düşüncələr aşılayırmış. Sokrat belə bir sözü ən azından ona görə deyə bilməzdi, adamları ancaq yoxsul olduğuna görə döyən olsaydı, onun özü də yoxsul olduğu üçün, onlarla bir yerdə döyülməli olacaqdı, Sokrat, özünü döydürməyə çağıracaq kimi gülünc olan birisi deyildi; onun demək istədiyi isə ancaq bu idi: xalqa sözüylə, işiylə yaxşılığı keçməyən, gərək olanda orduya, dövlətə, yurddaşlarına yardım göstərməyən, bundan başqa, durub bir yandan da azğınlıq eləyən kimsələr, ad-sanlı soydan, varlı olmasından asılı olmayaraq, cilovlanmalıdırlar. Sokratın öz xalqına sayğısını, yurddaşlarına sevgisini hamı bilirdi, bunu bir kimsə də dana bilməz. Neçələri, istər Afinadan, istər yurddışından olsun, onun danışıqlarına qulaq asmaq üçün əldən gedərdilər, ancaq o, bu danışıqlarına görə kimsədən axça götürməzdi, öz bildiklərini qızırqanmadan hamıyla bölərdi; elələri də tapılırdı, ondan axça ödəmədən öyrəndikləri biliyi, gedib başqalarına çoxlu axça almaqla öyrədirdilər, axça ödəməyənlərlə danışmaq belə istəmirdilər. Sokrat öz doğma şəhərinin bəzəyi idi, onun adı ilə Afina dünyada tanınırdı,- Sokratın öz şəhərinə göstərdiyi qulluq Lixin Sparta üçün elədiklərindən də artıq idi. Lix yadellilərə Himnoped bayramı günlərində qonaqlıq verməsi ilə ad çıxarmışdı, Sokrat isə bütün ömrü boyu ara vermədən, yanına gələnlərə öz varını - bildiklərini verməkdən usanmazdı, onun yanına gələnlər Sokratın öyrətdiyi gərəkli biliklərdən yüklərini tutub gedərdilər.

Ona görə də, mənim düşüncəmə görə, Sokrat belə yüksək insanlıq dəyərlərinin daşıyıcısı olan bir kimsə olduğundan, yurddaşları, öldürmək nədir, ona ən yüksək sayğılar göstərməliydilər. Elə yasalar baxımından yanaşanda da bu belə olmalı idi. Yasalara görə: oğurluq, quldurluq eləyən, cibə girən, ev yaran, adamları qul eləyib satan, tanrılara sayğısızlıq göstərən kimsələrə ölüm kəsilməlidir; Sokrat isə belə işlərdən çox uzaq olan birisi idi. Bundan başqa, onun yurdu qarşısında: nə bir uduzulmuş savaşda, nə dövlətə qarşı qalxışmada, nə satqınlıqda, nə də başqa bir uğursuzluqda əli olmamışdı. Gündəlik ömründə də başqasının malını əlindən almaq, kiminsə evini yıxmaq təki işlər

əlindən gəlməzdi; çoxluğun gündəlik yaşamlarında uyduğu yaramazlıqların birində də onu suçlamaq olmazdı. Mən bilmirəm, onu nə adla suçlayıb məhkəməyə çəkmişdilər? Tanrıları tanımamaq nədir, onlara hamıdan artıq tapınardı; gəncliyi pis yollara çəkməyimi yazmaq istəyirdilər adına, yaramaz istəklərə uyan arxadaşlarını bundan çəkindirmək üçün əlindən gələni etdiyini hamı görmürdümü? – onlara, gözəl, yüksək duyğular aşılayıb yaxşılıqlara yönəldən o deyildimi, bununla o, insanların da, onların ocaqlarının da, dövlətin də, çiçəklənməsi üçün var gücü ilə çalışmırdımı? Bu sayaq əməklərinə görə o, yurddaşlarının böyük sayğılarını qazanmalı deyildimi?

III BAŞLIQ

{Sokrat öyrəncilərinin işinə: örnək olaraq da, bilik öyrədərək də yarıyardı}

Sokrat arxadaşlarının işlərinə necə yarıyardı, onlara necə dəyərli sözlər danışardı, bununla da onun bilginliyi necə üzə çıxardı, indi bunlardan, bir para unutmadıqlarımı sizlərə danışmaq istəyirəm.

Tanrılara gəlincə, onun işi də, sözü də,- bu hamıya bəlli idi, - Pifiyin* dediklərinə uyğun idi, onun: necə qurban vermək, ululari necə anmaq, habelə bunun təki bütün göstərişlərini sözsüz yerinə yetirərdi. Pifiyin deməsinə görə, kim doğma şəhərinin gələnəklərinə uyğun olaraq davranır, o düz yoldadır. Sokrat da onun dediyi kimi eləyər, başqalarını da buna çağırardı, kimsə bu deyilənləri qulaqardına vurub, başqa yol tutardısa, onları saçmalıq eləyən, yolunu azmış kimsələr sayardı.

Dilək diləyəndə, tanrılardan özü üçün nəsə istəməzdi, hamıya yaxşılıqlar göndərməyi diləyərdi, kimin üçün nəyin yaxşı olacağını, tanrıların hamıdan yaxşı bildiyini düşünərdi; tanrılardan qızıl-gümüş ummağı, onlara—ağalığa çatmaq üçün yalvarmağı, bir sözlə əl açıb, onlardan nə isə dilənməyi, qumar oyununa, döyüşü udmaq istəyinə oxşadardı, bu sayaq işlərin sonu öncədən bilinməz deyərdi.

Verdiyi qurban, əlində olana uyğun, az-azacıq olardı, ancaq çox varlı olan birisinin böyük qurbanlar verməsindən də qısılmazdı. Tanrıların böyüklüyünü, onların böyük qurbana kiçik qurbandan çox dəyər verməsində axtarmaq qanmazlıqdır,–belə

olsaydı, gərək onlar, yaramaz yollarla varlanmış adamların böyük qurbanlarını, yaxşı adamların verdiyi kiçik qurbanlardan çox bəyənmiş olaydılar, deyərdi. O, tanrıların,– ürəkdən tapınan kimsələrin sayğılarına, onlara– elgözünə sayğı göstərənlərdən, qat-qat artıq dəyər verdiklərinə inanardı. Aşağıdakı şeir parçasını oxumağı çox sevərdi:

Ölməz tanrılara qurbanlığını, əlində olandan versən yaxşıdır.

Arxadaşlarına da: kiməsə əl tutanda, yadelliləri qonaqlayanda, başqa yerinə düşən durumlarda, "olanından verməyin" ən düzgün yol olduğunu aşılayardı.

Birdən Sokrata elə gəlsəydi, tanrılar ona nəsə buyururlar, onu bu buyuruqları yerinə yetirməkdən çəkindirmək olmazdı, ola bilsin, tanımadığı uzaq yola çıxan hansısa adamı, gözüaçıq, yolu tanıyan kimsəylə yox, kor ilə, yolu tanımayan birisiylə yola çıxmağa tablaşdırmaq olardı, ancaq Sokratı tanrıların buyuruqlarını yerinə yetirməkdən daşındırmaq olmazdı. Adamlar arasında adının pis çıxacağından qorxub, tanrıların buyuruqlarını yerinə yetirməkdən çəkinməyi anlamazlıq sayardı; tanrıların göstərdiyi yolu tutanda, buna başqalarının necə baxacaqlarına, nə deyəcəklərinə, azacıq da olsa önəm verməzdi.

O, bədənini də, öpözünü(ruhunu) də, özünün seçdiyi ömür yoluna elə alışdırmışdı, olduqca toxdaq, qorxusuz, arxayın yaşayırdı, tanrılardan gələn gözlənilməz, ağır bir duruma düşərdisə, bunlardan da çox qolayca qurtula bilirdi. Dolanışıq ona elə ucuz başa gəlirdi, mən özüm də deyə bilmirəm, Sokratın dolanışığına çatacaq boyda axça ilə necə keçinmək olardı? Yeməyi, ağız dadı ilə yeyə bilənəcən yeyərdi, aclığının yeməyi dada gətirməsini gözləyərdi, susamadan içməzdi, ona görə nə içsəydi də döşünə yatardı. Onu günorta yeməyinə çağırsalar, o da birdən yox deməzsə, burada da özünü çox yeməkdən qolayca saxlaya bilirdi, ancaq başqaları, qonaqlıqdır deyin bunu bacarmır, acgözlük eləyirlər. Kiminsə özünü çox yeməkdən saxlaya bilmədiyini görsə, onu yeməyi dada gətirən qatqılar tökülmüş bişmişləri yeməkdən çəkinməyə çağırardı, aclığı olmadan yeməyə, susuzluğu olmadan içməyə yeriklədən qatqıların gücünə qarınqululuq eləyənlərin, mədələrini də, başlarını da, öpözlərini də korladıqlarını söyləyərdi. Şuxluğa salıb, Kirkanın* da belə qatqıların gücünə adamların başını aldadıb, onları donuza çevirmək üçün tıx deyənəcən yedirib-içirdə bildiyini deyirdi;

Görürsünüzmü, Odissey Hermesin öyüdünə qulaq verib, yeyib-içməyinin ölçüsünü gözlədiyindən, donuza dönməmişdi,- deyirdi. “Sözün düzünü şuxluqla deyərlər”,- deyiminə uyğun olaraq, Sokrat bu sayaq sözləriylə də, dinləyicilərini düz yola yönəltməyə çalışardı.

Sokrat öz dinləyicilərini insan bədəninin gözəlliklərinə dəlicəsinə vurğunluqdan çəkindirməyə çalışardı: gözəl bədənə toxunanda, istər-istəməz başını itirirsən, deyərdi. Bir gün, Kritonun oğlu Kritobulun, Alkiviadın üzdən çox gözəl olan oğluna vurulub, onu öpdüyünü eşidəndə, Kritobulun yanındaca, Ksenofontdan soruşdu:

-Ksenofont, sən doğrudanmı Kritobulu arsız, azğın, çılğın olan birisi təki yox, ağıryana, götürqoylu bir kimsə sayırsan?

-Düzünə qalsa, mən onu götür-qoylu bir kimsə saymaqdayam, - Ksenofont dedi.

-Bundan sonra sən onu, arsız, azğın, özünə yiyəlik eləməyi bacarmayan birisi saya bilərsən, o özünü boş yerə, qılınca çarpan, oda ata bilən kimsədir.

-Sən onun davranışından nəsə sezmisən, yoxsa bu sözləri özündən çıxarırsan?

-Bilmirsənmi, o, bu yaxınlarda, Alkiviadın gün parçasi kimi göyçək oğlunu öpməklə böyük bir igidlik eləyib?

-Bu, qorxmazlıq sayılırsa, onda mən də bunu eləyə bilərəm!

-Ay qaragünlü, sən yəni doğrudanmı, gözəl olan birisini öpəndə səni nə gözlədiyini anlamırsan? Sən indi büsbütün özgür olan bir kimsə, bu işi tutunca düşkün istəklərinin quluna çevriləcəyini, necə bir uçuruma yıxılacağını, doğrudanmı başa düşmürsən? Bu sayaq alçaq əyləncələrə qapılmaq, səni yoxluğa sürükləyib aparmayacaqmı? Sənin bundan sonra gərəkli bir iş görməyə macalın olacaqmı? Belədə, sən dəlilərin də özünə yaraşdırmadığı bir işə girişmirsənmi?

-Herakla and olsun, Sokrat, sən bu öpüşməyə, çox yersiz olaraq, belə qapqara boyaq vurursan!

-Mənim sözüm sənə çöçünmü gəlir?–Sokrat dilləndi,- yoxsa, qara quruşdan də kiçik olan tarantulanın(ağulu hörümçəyin) ağzını toxundurduğu kimsələri necə ağrı-acılara saldığını, onların başlarını necə pozduğunu da bimirsən?

-And olsun Zevsə, düz deyirsən, - Ksenofont dilləndi,- ancaq bu tarantula sancanda ağzından nəsə damızdırır da.

-Anlamaz!- deyə Sokrat səsləndi.- Gözəllərin də öz öpüşləriylə, insanı başdan çıxaran nəyisə damızdırdıqlarını buçağacan bilmirsənmi? Doğrudanmı yəni bilmirsən, “gənclik çağlarının gözəlliyi” adlanan bu yırtıcı varlıq, tarantuladan da qorxuludur, tarantula yenə ağusunu ancaq sancanda buraxa bilir, bu “gözəl” deyilənlər isə, uzaqdan-uzağa adamın üstünə nə buraxırlarsa, onların huşunu başından çıxarırlar! (Yoxsa, elə buna görə, Erota* oxatan deyirlər, axı gözəllər adamı uzaqdan da yaralaya bilirlər.) Mənim sözümü eşit, Ksenofont, belə gözəlləri görəndə, oradan arxana baxmadan qaçıb uzaqlaş. Sən isə, Kritobul, ən yaxşısı uzun bir sürədə buradan uzaqlaşıb get, öpözünü necə ağır bi düşkünlüyə yoluxdursan da, ola bilsin uzaq yolların yolçuluğu səni sağalda bildi.

Beləliklə də Sokrat sevgiylə bağlı əyləncələrdə, adamlara, bunun törədə biləcəyi qarğaşadan uzaq gəzməyi aşılayır, bədən ilə öpözün(ruhun) üzüləcəyi ölçülərdə bu işə baş qoşmamağa çağırırdı. Özünü isə elə kökləyə bilmişdi, başqalarının ən suyumsuz adamdan uzaq qaçdığı kimi, o da belə gözəllərdən yan gəzərdi.

Yeməyə, içkiyə, qadınla yaxınlığa qarşı da, özünü ölçü-biçi gözləməyə beləcə alışdıra bilmişdi, bununla yanaşı, Sokrat özünü bu düşkünlüklərdən qoruya bilməkdən elə böyük sevinclər duyardı, bu düşkünlüklərə qapılmaqdan tapılan, ucuz, üzücü toxtamışlığa(komforta), gözünün ucu ilə baxmağı belə özünə sığışdırmazdı.

IV BAŞLIQ

{Aristodemlə, tanrıların insanlara necə yanaşması konusunda danışıq}

Ola bilər kimlərsə,–hansısa cızmaqaralara, ortalıqda gəzən dedi-qodulara inanıb,–Sokratın dinləyicilərini yaxşılıq eləməyə yönəldə bildiyini, ancaq yaxşılıq eləməyin yollarını, onlara öyrədə bilmədiyini düşünsünlər; məncə belə düşünən kimsələr, Sokratın,–özünü çoxbilmiş kimi göstərən adamları, çoxlu sorğularla dilləndirib, bununla da onların özlüyündə çox biliksiz olduqlarını ortaya qoyduğu danışıqlarından başqa,–arxadaşları ilə apardığı gündəlik danışıqlarını da öyrənsələr, onda bilərlər, o, adamlara yol göstərməyi bacarırdı, yoxsa yox.

Bunun doğruluğunu anlatmaq üçün, mən ilk olaraq, onun "Kiçik" ayamalı Aristodem ilə tanrılarla bağlı apardığı danışığını, sizlər üçün burada açıqlamaq istəyirəm.

Aristodemin tanrılara qurban vermədiyini, onlardan dilək diləmədiyini, tanrı buyuruqlarını anladan fal açdırmağa getmədiyini, bu azmış kimi, belə iş görənləri ələ saldığını eşidən Sokrat ondan soruşdu:

-Aristodem, bir mənə de görüm, elə kimsələr varmı, sən onların yaradıcılığının vurğunu olasan?

-Var, - Aristodem dedi.

-Onların adlarını sadala, görək kimlərdir.

-Epik poeziyada ən çox sevdiyim Homerdir, gözəlliyi öyməkdə,–Melanippid, insanın ağrı-acılarından danışanda,–Sofokl, heykəl yapmaqda– Poliklet, rəssamlıqda,–Zevksid.

-Səncə, kimə artıq vurulmağa dəyər, varlıqları—tərpənməz, lal-dinməz, donuq görünüşləri ilə kağıza köçürənəmi, yoxsa diri, danışan, anlayan, tərpənişli varlıqlar yaradanamı?

-And olsun Zevsə, birdən bu dediyin varlıqları kimsə yaratmayıbsa, bir söz deyə bilmərəm, ancaq doğrudan da onları kimsə düşünərək belə yaradıbsa, onda ona qat-qat artıq vurğunluq olmalıdır.

-Sən nələrin yaradılmadığını, gözlənilmədən törəndiyini, düşünürsən?- sonra bunu da de görək, kimsə düşünüb nəsə yaradırsa, bunu boş-boşunamı eləyir, yoxsa nəyəsə yaramaq üçünmü?

-Nəyəsə yarayan nəsnələrin, sözsüz olaraq, öncədən düşünülüb, götür-qoy edilib, yaradıldığını sanmalıyıq.

-Sənə elə gəlmirmi, insanları kim yaradıbsa, onların bədən üyələrini(üzvlərini) qabaqcadan elə düşünüb yaradıb, bu onların işinə bütünlüklə yaraya bilsin, yəni insanlar yan-yörələrində olanları, baş verənləri, büsbütün anlayıb, duya bilsinlər: gözlər gərək olanı görmək, qulaqlar gərək olanı eşitmək üçün yaradılmayıbmı? Qoxular bizim nəyimizə gərək olardı, burnumuz onu duymaq üçün yaradılmasaydı? Acını, sucuğu(şirini), ayırd eləyə, bütün yerdə qalanları dadıb, onlardan bəyəndiklərimizi seçib ayıra bilərdikmi, birdən bunların “bilicisi olan” dilimiz olmasaydı? Bundan başqa, sənə elə gəlmirmi, bax indi deyəcəyim gerçəklik, ancaq düşünülüb yaradıla bilərdi: gözlərin necə kövrək olduğunu bilirsən, göz qapaqlarının onu qorumaq gərək olanda qırpılıb, qapı kimi örtüldüyünü, yuxuya gedəndə kilidləndiyini görəndə, bunun qabaqcadan düşünülüb, belə yaradıldığını necə danmaq olar? Gözlərimizi küləkdən, tozdan qorumaq üçün ələyə oxşar olaraq yaradılan kipriklərə bax; qaşlara,–gözə gölgə salmaq üçün onun üstündə yer ayrılmayıbmı, özü də onlar elə yerləşiblər, başdan süzülən təri gözə tökülüb onu acışdırmağa da qoymurlar. Qulağımıza sayı bilinməz səslər dolur, ancaq o dolub daşdanırmı? Görürsənmi, bütün varlıqların qabaq dişləri, tapdıqları yeməyi parçalamağa, arxa dişləri çeynəməyə yarayır. İnsanın içəri ötürdüyü yemək-içməyin

keçdiyi ağızı, tanrılar, gözlə buruna yaxın yerləşdirib; ancaq insanın içində yığılıb, sonradan bayıra tökdüyü pis qoxulu nə varsa, bizi iyrəndirməsin deyə, onların çıxış yolunu gözdən, burundan uzaqda qoyub. Varlıq belə dərindən-dərinə götür-qoy edilərək yaradılıbsa, sən bunları görməməzliyə vurub, onun hansısa gözlənilməzlikdən yaranmadığını, düşünülüb yaradıldığını deməyə, yenədəmi qol qoymaq istəmirsən?

-Yox, and olsun Zevsə, - Aristodem dilləndi,- sən deyən kimi yanaşanda varlıq,- çox bilikli, onu sevə-sevə yaradan birisinin əl işinə oxşayır.

-Onun varlığa doğub törəmək istəyi verməsinə, bundan doğan başqa nəsnələrə: ananın körpəsini əmizdirmək yanğısına, doğulanların hamısının sonsuz yaşamaq sevgisinə, ölümdən bərk qorxmasına, özünü ondan qorumasına, nə deyirsən?

-Bu dediklərin, sanasan, varlığa yaşamaq bacarığı verməyi düşünüb-daşınmış birisinin, yaradıcılığına oxşayır.

-Sən özündə, anlaq deyilən nəyinsə varlığını duya bilirsənmi?

-Sən bir az kəsəsini soruş, mən deyim.

-Bizdə anlaq deyilən bu nəsnə vardırsa, onda bizdən başqa da, hansısa anlaqlı varlığın ola biləcəyini düşünməyə dəyər, yoxsa yox? Bizim bədənimizin yaranmasında ucsuz-bucaqsız torpaqdan kiçicik bir əlcə, sonsuz sulardan bircə ovuc işlənibsə, bununla belə bizim anlağımız da vardırsa, onda kosmosda bizdən başqa da anlaqlı bir varlığın ola biləcəyini düşünmək yerində deyilmi? Bütün bunları biləndən sonra, durub necə demək olar: yer üzündə olanlarin hamısından bizim bədənimizdə kiçicik bir pay vardır, ancaq bircə bizdə olan anlağı biz özümüz qazanmışıq, o ancaq bizdə var, onun hamısı ancaq bizə çatıb, o başqa bir yerdə yoxdur, bu bitib-tükənməz çoxluqları qapsayan, ucsuz-bucaqsız kosmosun yetkin düzəni isə, onun anlaqsızlığından yaranıb?!

-And olsun Zevsə, sənin bu dediklərin doğrudrsa, onda istər-istəməz belə bir sorğu da yaranır: biz işimizə yarayan nələrinsə gözümüzün qabağında, insan əlləri ilə, necə tikilib-qurulduğunu görə biliriksə, onda nədən, dünyanı tikib-quran bir uzmanın(sənətkarın) olduğunu görə bilmirik?

-Sən öpözünün(ruhunun) olduğunu bilsən də, ancaq onu görə bilmirsən, buna baxmayaraq, sənin bədəninə yiyəlik eləyən odur: ona qalsa, sən özünün elədiklərini də,

gözəgörünməz öpözünün yönətdiyi anlağınla yox, necə gəldi, başıpozuq gözlənilməzliklərin aşıladıqlarına görə, elədiyini deməlisən.

Onda Aristodem dedi:

-Yox, Sokrat, mən doğrudan tanrılara sayğısız deyiləm, mən eləcə düşünürəm, onlar elə uca, elə uludurlarsa, mənim sayğım onların nəyinə gərəkdir?

-Onda, - Sokrat ona qınaqla baxdı,- belə böyük, güclü, olmaqlarına baxmayaraq, tanrılar sənə göz yetirir, qayğını çəkir, yardım göstərirlərsə, sən də ən azı onlara sayğı göstərməli deyilmisən?

-Sən məndən arxayın ol,- Aristodem dilləndi,- mən tanrıların insanlara lap azacıq belə qayğı göstərdiyinə inansam, onlara saymazyanalıq eləmərəm.

-Sən yəni, doğrudanmı, onların insanlara qayğı göstərmədiyini düşünürsən? Birincisi, yaşayan bütün varlıqlardan ancaq insana boyunu dik tutub dayana bilmək bacarığını onlar vermişlər, insan dik dayanmaqla qat-qat uzaqları görə bilir, yuxarıda, başı üstündə olanlara da, qolayca göz yetirə bilir, buna görə də özünü başqa varlıqlara baxmış, qat-qat yaxşı qoruya bilir. Tanrılar bütün varlıqlara yerimək üçün ayaq vermişlər, insana isə üstəlik bütün ağır-yüngül işləri görməyi bacaran əllər də verilmişdir, buna görə də o bütün varlıqlardan yaxşı keçinir. Bu azmış kimi, bütün varlıqların dili olduğuna baxmayaraq, tanrılar ancaq insana dilini ağzında dolandırıb, istədiyi sözü demək, düşündüklərini biri-birinə anlatmaq bacarığı vermişdir. Ardınca, erkək-dişilər arasında biri-biriylə yaxınlıq eləmək istəyinin oyanmasını, tanrılar başqa varlıqlara ancaq ilin hansısa bir çağında, qısa bir sürədə vermişlər, bizə isə qoca yaşlarımıza kimi, bütün il boyu, haçan istəsək, bunu eləyə bilmək bacarığını vermişlər. Ancaq tanrılar təkcə bizim bədənimizə qayğı göstərməklə qalmamışlar, bundan da önəmlisi: insanın bədənində çox yetkin olan bir öpöz də yerləşdirmişlər. Elə bircə onu götür, bizdən başqa hansı bir varlıq, yaşadığımız bu gözəl, böyük dünyanı yaradan tanrıların varlığını bilir? İnsandan başqa hansı varlıq, tanrılara tapına bilir? İnsandan başqa hansı varlığın belə anlağı var da, aclığın, susuzluğun, istinin, soyuğun qarşısını almaq üçün qabaqcadan düşünüb daşına, onlardan qoruna bilir, öz ağrılarını sağalda bilir, özünü çalışdırmaqla gücünü artıra bilir, nəyisə incələyib-araşdırıb öyrənə bilir, eşitdiyi, gördüyü, öyrəndiyi nə varsa unutmur. Doğrudanmı sənə aydın deyil, başqa

varlıqlarla tutuşduranda insanlar az qala tanrılar kimi yaşayırlar, özlərinin bədənlərinin, öpözlərinin yetkinliyi ilə hamını üstələyirlər? Birdən insan, bədəncə öküz, anlaqca özü olsaydı, o istədiklərini eləməyi bacarmazdı; ya da başqa bir varlığın insan kimi əlləri olub, ancaq insanca anlağı olmasaydı, bundan nə qazanardı? Sən belə dəyərli ərməğanları ala-ala da, tanrıların sənə qayğı göstərmədiyini düşünürsən? Onlar bundan artıq nə eləsinlər də, sən onların qayğısını anlayasan?

-Mən tanrılara onda sayğı duyaram, sənin təki onların səslərini eşidə biləm, sənə öyrətdikləri kimi: eləyəsini, eləməyəsini, mənə də özləri anladalar.

-Tanrılar afinalılara, gələcəyi öyrənmək üçün, onların adını anıb açdıqları fallarda düz yol tapmağa yardım edirlərsə, ellinlərə, elə başqa xalqlara da, görkəzmələrlə(möcüzələrlə) öncəgörmələrlə, onların öyrənmək istədiklərini anladırlarsa, təkcə sənəmi belə işlərdə qayğı göstərmirlər? Tanrılar insanları, yaxşılığı da pisliyi də eləmək bacarığının öz əllərində olduğuna inandıra biliblərsə, bu onların gücünü göstərmirmi? Belə olmasaydı, bu uzun illər sürəsində insanlar onların yalan dediklərini anlamazdılarmı? Sən yəni, görmürsənmi, insanların ən yetkin, uzunömürlü birlikləri olan dövlətlərlə xalqlar, - tanrılara sayğını ən başlıca, ən gərəkli iş sayırlar, elə insanların yaşa dolub yetkinləşdikcə, tanrılara qat-qat artıq tapınmaları da buna görə deyilmi?

Dəyərli arxadaşım, - Sokrat sözünün ardını dedi,- bunu başa düşməyə nə var: sənin anlağın bədənində olduqca, onunla öz istədiyi kimi davranır. Buna uyğun olaraq da düşünsək, deməli, dünyanın anlağı da onu, öz istəyinə uyğun, özünə yarayan kimi qurur: yoxsa elə düşünürsən, sənin baxışların oracan itidir də, uzaqları əlinin içi kimi görə bilirsən, ancaq tanrıların baxışları elə işıqsızdır, bütün olanları baxıb, birdən görə bilmir, sənin anlağın bir anın içində, buradakı, misirdəki, siciliyadakı işlərlə bağlı düşünüb-daşına bilir, ancaq tanrıların anlağı bütün varlıqlarla bağlı işləri bir anda düşünüb, yoluna qoymaq gücündə deyil. Adamlara qulluq göstərməyincə, bilmirsən, kim sənə bunun qarşılığında nə verə bilər; adamlara yaxşılıq eləməyincə, onlardan hansılarının yaxşılıq eləməyi bacardığını ayırd eləyə bilmirsən; onlara hansısa konunu gənəşməyincə, kimin bu işdən yaxşı baş açdığını öyrənə bilmirsən. Elə bunun kimi də, sən öncə tanrılara qulluq göstərib, sonra da onlardan görmək istədiyin işlərdə, adamları tanımaqda, sənə yardımçı olmalarını diləsən, onda bilərsən, tanrılar oracan güclü, oracan

bilgədirlər, istənilən anda: olanların hamısını görürlər də, eşidirlər də, onların olmadığı bir yer yoxdur, bütün olacaqlar onların qayğısı altındadır.

Belə danışıqları ilə Sokrat, öz arxadaşlarının düşüncələrini oracan dəyişər, mənliklərini elə yetkinləşdirərdi, onlar bütün yaramaz, əyri, alçaq, iyrənc işlərdən - təkcə adam içində olanda yox,- onları bir kimsə görməyəndə belə çəkinərdilər, onlar gördükləri işlərin birinin də tanrılardan gizli qalmayacağına ürəkdən inanardılar.

V BAŞLIQ

{Sokrat öyrəncilərinə, gözü-könlü tox olmağı aşılayardı}

Gözü-könlü toxluq, yüksək insanlıq dəyəri sayıldığından, gəlin, baxaq görək, Sokrat bu konuda nə deyirdi:

-Arxadaşlar! Bir anlıq elə düşünəyin, savaş başlayıb, biz də döyüşmək üçün özümüzə elə bir başçı seçmək istəyirik, onun yönətimi ilə yağıları yenə bilək, sizcə biz, - qarınqulu, içki-qadın-yuxu düşkünü olan birisini özümüzə başçı seçərdikmi? Onun yağılara üstün gəlib, bizi qurtaracağına inanardıqmı? Tutalım, biz ölüm ayağında olanda, azyaşlı oğullarımızı boya-başa çatdırmağı, qızlarımızın namusunu qorumağı, var-yatırımızı qoruyub, saxlamağı, kiməsə tapşırmaq istəyirik: belə bir acgöz adama ürək qızdırardıqmı? Alçaq istəklərinin düşkünü olan qulumuza,- mal-qara saxlamağı, sursatımızı qorumağı, hansısa işimizə görüm-baxım eləməyi tapşırardıqmı? Beləsini, evimizin qulluğunu tutmağa buraxardıqmı, gərəksələrimizi alıb gətirsin deyə, alış-veriş eləməyə göndərərdikmi? Belə bir acgöz, düşkün qılıqlı kimsəni, qul yerinə işlətməyi belə özümüzə yaraşdırmırıqsa, onda bu sayaq öyrəncələrə(vərdişlərə) qapılmaqdan

özümüzü də qorumalı deyilikmi? Əldəgöz(təmənnalı) kimsə, başqasının axçasını əlindən çıxarıb varlanmaq istəyir; ancaq acgöz kimsənin başqasına yamanlıq eləyəndə, öz yaxşılığına çalışdığını da demək olmaz: yox, o, başqalarına bir yamanlıq eləyəndə, özünə beşqat artıq yamanlıq eləyir - təkcə öz evini yıxmaqla qalmır, öz bədənini, öpözünü də yaman günə salır. Arxadaşları ilə yeyib-içmək yığıncağında olanda, dadlı yeməkləri, içkiləri görüncə, bunlara ac qurd təki soxulub, başqalarına aman verməyən kimsə ilə; qadınla əylənməyə axça dağıtmağı, arxadaşlarına əl tutmaqdan üstün sayan birisi ilə, kim oturub-durmaq istəyər? Yaxşılıqların kökündə, gözü-könlü toxluğun dayandığına ürəkdən inanmaq, ona könül vermək yetkinlik deyilmi? Kim, özünü düşkün istəklərdən qorumadan, gərəkli bilikləri öyrənə, özünü gözəl öyrəncələrə alışdıra bilmişdir? Əyləncələrin, kirli duyğuların düşkünü olan qul, sonucda öz bədəni ilə öpözünü gözdən də, əldən-dildən də salmırmı? And olsun Heraya, bir özgür kimsə də belə bir qulu almaq istəməzdi, əyləncə düşkünü olan qula isə ancaq tanrılara yalvarmaq qalır, ona bir yaxşı ağa yetirsinlər, ola bisin, ona düzgün yiyəlik eləyib, qapılıb qaldığı düşkünlüklərində batıb getməyə qoymasın.

Sokrat dinləyicilərinə belə sözlər deyərdi; ancaq özünün gördüyü işlərdə dediyindən də qat-qat artıq gözü-könlü toxluq örnəkləri göstərərdi: o təkcə əyləncə düşkünü olmaqdan yox, axça düşkünü olmaqdan da özünü çəkindirə bilmişdi, onun düşüncəsinə görə, bilik öyrədəcəyin kimsədən axça alınca, onu özünə ağa eləyirsən, onun quluna çevrilirsən, bununla da özünü alçaldırsan.

VI BAŞLIQ

{Sokratın sofist Antifontla sözləşməsi}

Sokratın sofist* Antifontla olmuş danışığını sizlərə açıqlamaq istəyirəm.

Günlərin bir günü, Antifont Sokrata yaxınlaşıb, onun dinləyicilərinin başını qatmaq, danışıqdan yayındırmaq üçün, ortaya söz atdı:

-Ay Sokrat! Mən elə düşünürdüm, fəlsəfə yolunda çalışan kimsələr ağ günlərə çıxırlar, ancaq deyəsən bu işdən sənin payına, eləcə ağrı-acıları dadmaq düşüb. Elə gündə yaşayırsan, qul belə bu sayaq dolanışığa dözməyib, ağasının yanından baş götürüb qaçardı: yeyib içməyində ac-yalavacsan; bürüncəyinin yamaq-yırtıqlı olması bir yana, yayda da, qışda da, ancaq onu geyirsən, başqası yoxundur; il uzunu ayaqyalın, köynəksiz gəzirsən. Bir yandan da kimsədən axça götürmürsən, baxmayaraq, axça olmadan adamın işləri yoluna düşmür, axçan varsa, genbol yaşayırsan, dadlı bir ömür sürürsən. Öyrətmənin(müəllimin) bilik öyrətməsində, bir də öyrəncilərinə özünü yamsılamağı aşılamaq anı da var: sən, öyrəncilərinə də özünə oxşamağı aşılayırsansa, deməli, onlara özü özlərinə yamanlıq eləməyi öyrətmədəsən.

Sokrat ona üz tutub dedi:

-Antifont, mənə elə gəlir, sən mənim yaşamımı elə ağır, elə ağrı-acılı sanırsan, belə yaşamaqdansa, ölməyi üstün tutardın. Yaxşı, gəl baxaq görək, sən məni niyə belə qaragünlü sayırsan? Ona görəmi, mən axça götürmədiyimdən ürəyim istəməyən

kimsəylə danışmıram, ancaq axça götürüb, qarşılığında nəsə öyrətməyi boyun olan öyrətmən, aldığı axçaya görə, könlü istədi-istəmədi, başqasının qulluğunu gətirməlidir? Yoxsa, sən mənim yeməyimi ələ salıb, düşünürsən, sənin yediyin yemək, mənim yediyimdən artıq bədəninə yarayır? Yoxsa, sən öz yeməyinə çoxlu axça ödəməklə onun, mənim daşdan çıxan çörəyimdən üstün olduğunu düşünürsən? Yoxsa, elə düşünürsən, sən bu çox axça tutan yeməyini yeyərkən, mənim ucuzlu yeməyimdən duyduğumdan artıq ağız dadı duyursan? Sən yəni bilmirsənmi, kim yeməyinə aclığını yavanlıq eləyib, onu ağız dadı ilə yeyirsə, ona aş qazanına acı-ucu(ədviyyat) tökmək də gərək deyil, elə bunun kimi də, kiməsə sussuzluğunu yatırmaq gərəksə, əlinin altında nə varsa onu da içir? Qaldı, mənim bu günü getmiş büründəyim, deyim biləsən: adamlar paltarlarını istiyə-soyuğa görə dəyişirlər, ayaqqabını da ona görə geyirlər, yolun daş-kəsəyi ayaqlarını əzməsin; sən bir yol da olsa görmüsənmi, mən soyuqdur deyə evdə oturub, bayıra çıxmayam, istidə kimisə kölgələndiyi yerdən sıxışdırıb, onun yerini tutmaq istəyəm, ayaqqabım yoxdur deyə, ürəyim istəyən yerə getməyəm? Sən yəni bilmirsənmi, insanlar öz yaradılışlarından dözümsüz olsalar da, ancaq onlar öz üzərində çalışmaqla, güclərini artıra, istənilən ağırlığa dözə bilirlər? Mənə gəlincə, görünür sən bunu da bilmirsən, mən uzun illər çalışmaqla öz bədənimi istənilən ağırlığa, ağrı-acıya dözməyə alışdırmışam, indi mənim, sənin kimi özünü bərkə-boşa salmamış adamdan, niyə üstün olduğumu anlaya bilirsən, yoxsa yox? Mən qarınqulu deyiləmsə, yuxu, qadın düşkünlüyüm yoxdursa, sən bunu anlaya bilirsənmi, demək mənim bunlardan qat-qat üstün sandığım öyrəncələrim vardır, mənim bu üstün öyrəncələrim bədənimi üzüb əldən salmadığından, uzun illər boyunca onlardan duyduğum sevinclərlə baş-başa yaşayacağımı necə, anlaya bilirsənmi? Mən bilirəm, sən də bunu bilməmiş deyilsən, ağır əməklərə qatlaşmağa dözmədiklərindən, işləri düz gətirməyən kimsələr, sonucda qaragünlü olub yasa batırlar; əmək çəkib, işlərində uğur qazananlar isə, - əkinçilər, dənizçilər, habelə başqaları,- özlərini ağ günlərə çıxarıb, sevinc içində yaşayırlar. Bax beləcə, mənim bu dediklərimi anlaya bilmirsənsə, onda insanın, özünü də yetkinləşdirib, arxadaşlarını da buna yönəldə bilməsindən, hansı sevinclər duyduğunu hardan biləsən? (Bilmək istəsən, mən bütün olaylara, ancaq bu gözlə baxmaqdayam.) Arxadaşlara yardım eləyəndə, yurdu qorumaq üçün döyüşlərdə, kimlər sürəkli olaraq duruş gətirə

bilər,- mənim kimi yaşayan birisi, yoxsa sənin o ağgünlü dediyin, gününü əyləncələrə sovuranlar? Savaşa yürüyəndə, genbol yemək-içməksiz yaşaya bilməyənlər dözümlü olur, yoxsa nə varsa onunla keçinməyi bacaranlar? Düşmənin dörd bir yandan qapsayıb, aclıqla sınağa çəkdiyi düşərgədə, kim qolayca yağıya yenilir,- yaxşı yeməklər olmadan keçinə bilməyənlər, yoxsa əl altında olanla dolana bilənlər? Oxşayır, Antifont, sən genbol, varlı yaşamağı ağgünlülük sayırsan; ancaq mənim anladığıma görə, nəyəsə gərək duymadan yaşamaq ancaq tanrılarda olur, demək az bir nəsnələrlə keçinə bilmək- tanrılara yaxın olmaq deməkdir; tanrılar yetkinliyə çatmışlardırsa, onda tanrılara bu sayaq yaxınlıq da yetkinliyə çox yaxın olmaq sayılmalıdır.

Başqa bir gün Antifont yenə Sokrata ilişdi:

-Ay Sokrat! Mən səni düzgün adam saymaqdayam, ancaq sənə anlaqlı deməyə dilim gəlmir; mənə elə gəlir, sən özün də bunu bilirsən: yəni sənin öz öyrətdiklərinə görə axça almamağın da buna görədir. Öz aramızdır, sən öz büründəyini, evini, başqa bir gərəkli nəyinisə götürüb başqasına elə-belə verməzsən, onları dəyərindən ucuz da satmazsan, onların axça ilə ölçülən hansısa dəyərinin olduğunu bildiyin üçün də bunu eləməzsən. Buradan da aydın olur, sən öz danışıqlarının dəyəri olduğunu bilsəydin, dinləyicilərindən onların dəyərincə axça da alardın. Elə buna görə də, səni düzgün adam saymaq olar, sən öz dinləyicilərindən, öyrətdiyin dəyərsiz biliklərə görə axça almırsan, deməli onları aldatmırsan da, ancaq sənin onlara öyrətdiyin biliklər bir quruşa dəymirsə, onda sənə nə adla anlaqlı demək olar?

Sokrat onun sözünün qabağında bunları dedi:

-Antifont! Bizim aramızda, hamının qavradığı belə bir düşüncə var: gözəllik ilə bilikdən, yaxşılq üçün də, yamanlıq üçün də yararlanmaq olar. Öz gözəlliyini axça verən kimsələrə satanlara pozğun deyərlər; ancaq yaxşı, ürəyidüz adamın sevgisinə könül verənləri namuslu sayarlar. Bunun kimi də, öz biliyini axça alıb kimə gəldi satana da, sofist kimi əskik bir ad verərlər; kim isə başqa birisində yüksək insanlıq dəyərləri olduğunu duyub, ondan qazanc güdmədən, bildiklərini ona öyrədirsə, onu yaxşılıq eləməyə yönəldirsə, bununla da onu özünə arxadaş eləyirsə, ona yaxşı adam, sayqılı

yurddaş deyərlər. Antifont, bunu da bilsən yaxşıdır, başqaları, yaxşı atımı, itimi, quşumu sevdikləri kimi, mənim də onlarınkından qat-qat üstün olan öz sevgim vardır, mən: yaxşı arxadaşlarımın çox olmasını, bildiyim bütün yaxşı nə varsa, onlara öyrətməyi, bundan başqa, onları gərəkli biliklər öyrənə biləcəkləri başqa kimsələrlə də tanış eləməyi sevirəm. Eləcə də keçmiş bilgələrin bizim üçün yazıb qoyduqları kitablarında yer alan çox dəyərli biliklərini, arxadaşlarımla birgə oxuyub incələməyi sevirəm, orada bizə gərəkən nəsə tapırıqsa, bu biliyi öz aramızda bölüşürük, biri-birimiz üçün bir az da artıq gərəkli kimsələr oluruq.

Sokratın belə danışıqlarını eşidəndə mənə elə gəlirdi, iş-gücünün ancaq öz dinləyicilərini yetkinləşdirməyə çalışmaq olmasından o, ölçüyəgəlməz sevinclər duyurdu.

Başqa bir gün isə, Antifont onu çaşdırmaq üçün soruşmuşdu, nəyə görə o dövlət işindən yaxşı baş açdığını düşünərək, başqalarına dövlət qulluğuna yarayacaq bilikləri öyrədir, onları bu iş üçün yetişdirir, ancaq özü dövlət qulluğunda işləməkdən boyun qaçırır.

Onda Sokrat belə demişdi:

-Deyə bilərsənmi, Antifont, mən tək özüm gedib dövlət qulluğunda işləsəm dövlətə çox qulluq göstərərəm, yoxsa bunu bacaran çoxlu adamlar yetişdirib dövlət qulluğuna göndərsəm?

VII BAŞLIQ

{Sokratın özünü öyənlər üçün dedikləri}

Gəlin, baxaq görək, Sokrat öz dinləyicilərini yetkinliyə çağıranda, onları özünü öyməkdən necə çəkindirərdi.

Onun çox sevdiyi belə bir sözü də vardı, deyərdi, ad-san qazanmağa gedən ən düzgün yol, içində özünün də yaxşı adam olmağı bacardığın yaxşılığı eləməkdir. Bu tezisin doğruluğunu belə bilindirərdi.

-Gəlin, belə bir duruma baxaq, yxşı fleyta çala bilməyən birisinin, özünü bu işin bilicisi kimi tanıtması üçün o nə eləyəsidir? Onun ilk olaraq görüb-götürdüyü: adlı-sanlı bir fleytaçının, gözə çarpan öyrəncələrini(vərdişlərini) yamsılamaq olmayacaqmı? Adlı-sanlı fleytaçılar gözəl paltarlar geyinirlər, onların ardınca bir yığın qulluqçuları düşüb gəlirlər, deməli özünü yalandan fleytaçı kimi göstərməyə çalışan da bu işdə özünü onlara oxşatmalıdır. Sonrası, yaxşı fleytaçıların yanında, onların adını göylərə qaldıran bir yığın çığır-bağırçılar olur, deməli bu da, belə hay-küyçülər tapıb, özünü dilə-ağıza salmağa çalışmalıdır. Ancaq bacardıqca fleyta çalmaqdan yayınmalıdır: yoxsa o andaca gülünc bir duruma düşərdi, hamı da onun fleyta çalmağı bacarmadığı bir yana, üstəlik özünü öyən bir gopçu olduğunu da bilərdi. Beləliklə də o, çoxlu axçalar dağıdıb, bu işdən qazanc götürməyəcəksə, üstəlik adını da batıracaqsa, sonucda onun yaşamı ağrı-acılar, korluqlar içində keçib, üstəlik el içində də gülünc olmayacaqmı? Bunun kimi də,

tutalım, özünü yaxşı qoşun başçısı, habelə gəmi yönətimçisi kimi tanıdan, ancaq özlüyündə belə olmayan adam, işin üstü açılanda necə acınacaqlı görünərdi. Birdən o, bacarmadağı işi görə biləcəyinə başqalarını inandıra bilməsə, özü hansı acıları yaşayar, yox birdən adamları inandırıb bu işə girişsə, başqalarının başına nə oyunlar açardı? Sözsüz, gəmini yönətməyimi, qoşuna başçılıq eləməyimi boynuna götürüb, ancaq bunu bacarmayan birisi, özü də istəmədən çoxlu adamların ölümündə suçlu olardı, özü birdən necəsə ölümdən qurtulub, sağ qalsa belə, ömrünün sonuna kimi üzü qara gəzər, ağrı-acıların içində yaşayardı.

Sokratın deməsinə görə,–özünün varlı, qorxmaz, güclü olduğunu göstərməyə çalışıb, özlüyündə isə belə olmayanlar, ən çox özlərinə yamanlıq eləyirlər: özünü olduğundan artıq göstərib, buna başqalarını da inandıranda, günlərin birində bu adamlardan boyunlarına götürdükləri, ancaq gücləri çatmayacaq işlər sorulur, bayaqdan döşünə döyüb dediklərini, indi eləyə bilmədiyi üzə çıxandan sonra, bir kimsə də onları adam yerinə saymır.

Sokrat təkcə, kimdənsə axçamı, başqa bir nəsnəmi alıb, sonra qaytarmayanlara fırıldaqçı deməzdi; ən böyük fırıldaqçılıq odur, deyərdi, əlindən nəsə gəlməyən birisi adamların başını aldadıb, dövlətə başçılıq eləməyi ələ keçirsin.

Bax belə danışıqları ilə də o, adamları özünü yersiz şişirtməkdən, öyməkdən çəkindirərdi.

İKİNCİ KİTAB

I BAŞLIQ

{Aristipp ilə ölçü-biçi gözləməklə bağlı danışıq. Prodikin Herakldan danışdıqları}

Məncə, indi sizlərə söyləmək istədiyim bu danışıqları ilə də Sokrat dinləyicilərinə, yeməkdə, içməkdə, qadınlarla yaxınlıqda, yuxuda, isti-soyuğa, ağır əməklərə dözməkdə, ölçü-biçi gözləməyi aşılayır, onların, belə işlərdə özlərini,–yerinə düşən ülgülərə öyrəşdirməsinə çalışırdı.

Onun dinləyicilərindən birinin, belə işlərdə azacıq da olsa ölçü-biçi gözləmədiyini bilincə, Sokrat ona üz tutub dedi:

-Aristipp, mənə de görüm, birdən sənin iki gənc öyrəncin olsaydı, onlardan birinin dövlət qulluğuna yaraya biləcək kimsə, başqasının isə bütünlüklə dövlət qulluğuna yaramayacaq birisi olması üçün, nə edərdin, onlara nəyi, necə öyrədərdin? İstəyirsən, bu konuya birlikdə baxaq, gəl elə yeməkdən başlayaq, demək olar, lap əlifbadan.

Aristipp dedi:

-Düz deyirsən, biz ilk olaraq yeməyi öyrənirik, yemək yemədən yaşamaq olmaz.

-Demək, acanda bu gənclərin ikisi də yemək istəyəcək eləmi?- Sokrat soruşdu.

-Elədir,- Aristipp dedi.

-İndi mənə de görüm, onlardan hansını, əlindəki işi yarımçıq buraxıb, qarnını doyurmağa cummaqdan çəkinməyə öyrədəcəyik?

-Sözsüz, dövlət qulluğuna öyrətdiyimizi, o gərək dövlət işini, yarımçıq-yarıtmaz görməsin.

-Demək, onu sussuzluğa dözümlü olmağa da öyrətməliyik eləmi?

-Başqa necə ola bilər?

-Bəs yatmaqda ölçü gözləməyi, onlardan hansına öyrətməliyik, yəni o, gec yatıb, ertə oyanmağa öyrəncəli olsun, gərək olanda lap yatmasın da?

-Sözsüz, dövlət qulluğuna alışdırmaq istədiyimizə.

-Qadınlarla əylənməkdə ölçü gözləməyi kimə öyrətməliyik, yəni bu, onu boynuna düşən işləri görməkdən yayındıra bilməsin?

-Yenə də birinciyə.

-Kimə, işdən-gücdən qorxmamağı, onlara ürəklə girişib, yorulmaq bilmədən çalışmağı öyrətməli?

-Yenə də ona.

-Kimə, dövlətin yağılarını necə yenmək yollarını öyrətməli?

-Sözsüz, dövlət qulluğu üçün yetirdiyimizə, bunsuz onun bütün başqa öyrəndikləri də bir işə yaramayacaq.

-Deməli, belə bir biliyi olan kimsə, qanmaz heyvanlar sayağı, yaxasının yağı əlinə qolayca keçməsindən qaçına biləcək, deyilmi? Bilirsən də, heyvanların birilərini onların gödənlərinə uymaqlarına görə ələ keçirirlər: baxmayaraq onlar çox qorxaq olurlar, ancaq acgözlükdən yalançı yemə uyub ilişirlər; başqa birilərini isə su içəndə sayıqlığını itirdiyindən, aldadıb tuturlar.

-Elədir.

-Başqa anlaqsız varlıqlar da var, dişilərə uymaqla ilişirlər, sığırçınlar, turaclar dişilərin sevgi çağırışlarını eşitcək, başılovlu onlarla qovuşmağa cumur, sayıqlığnı itirib, ələ keçmirlərmi?

Aristippin deyilən sözlərlə anlaşdığını görən Sokrat dedi:

-Özlərinin alçaq istəklərinə uyub ilişən kimsələr də, anlaqsız varlıqların tayı deyillərmi? Bax, başqalarının qadınlarını yoldan çıxaran pozğunlar, bu işdə ilişərək yasaya görə suçlana biləcəklərindən başqa, tutulan anda başlarına pis oyunlar açıla biləcəyini bilə-bilə, yenə də öz düşkünlüklərindən çəkinmirlər. Belə alçalmaqdansa, yasaya görə də suçlanıb, işgəncələrə düşməkdənsə,–ellik qadınlarının yanına gedib, qolayca, qorxusuz-ürküsüz yolla, qadınla yaxınlıq eləmək istəyini ödəmək olursa,- onda bu adamların elədiklərinə qanmazlıqdan başqa nə ad vermək olar?

-Mən də elə düşünürəm,- Aristipp dedi.

-Baxmayaraq, insanların gününün çoxu,–əkinçilikdəmi, döyüş sınaqlarındamı, habelə bu sayaq başqa işlərdəmi,- açıq göy altında keçir, ancaq onların çoxu nədənsə öz bədənlərini istiyə-soyuğa öyrətmək üçün çalışmırlar, səncə, bu böyük bir yanlışlıq deyilmi?

Aristipp bu sözlərlə də barışdığını bildirdi.

-Deməli, gələcəkdə dövlətə başçılıq eləyəcək kimsə, özünü ən ağır sınaqlara dözməyə, qabaqcadan alışdırmalıdır, eləmi?

-Sözsüz, bu belə də olmalıdır.

-Belə çıxır, özünü yüngül əyləncələrdən çəkindirməyi bacaran kimsəni biz dövlət qulluğuna yarayanların sırasına, bunları bacarmayanı isə bu iş üçün yararsız olanların sırasına yazmalıyıq, eləmi?

Aristipp bu sözlərlə də barışdığını dedi.

-İndi nə deyirsən? Sən artıq adamları dövlət qulluğuna yararlığına görə seçib ayıra bilirsənsə, onda, özünün bunlardan hansına uyğun gəldiyini, bizə deyə bilərsənmi?

-Elədir, - deyə Aristipp dilləndi,- mən, sözsüz, özümü dövlət qulluğunda işləyəcək kimsənin yerində qoymaq istəməzdim. Mənim düşüncəmə görə, öz dolanışığını yetərincə qura bilməyin özü ağır bir işdir; Kimsə durub öz dolanışığını da qurur, üstəlik dövlətdə yaşayan yurddaşlarının dolanışığı üçün də gərəkli olanları tapıb onlara verməyi boynuna götürüsə, bu açıq-aydın dəlilik sayılmalıdır. Belə olanda, bu adam özünü çoxlu istəklərindən çəkindirir, üstəlik dövlətin başında dayandığı üçün, başqalarının istəklərini yerinə yetirməyə çalışır, bu azmış kimi, bütün yurddaşlarının istəklərini ödəyə bilməyəndə, onu suçlayıb tutuqlayırlar da: bu səncə dəlilik deyilmi?

Dövlət öz işçilərinə buyuruqlar verir, lap mən öz qulluqçularıma buyuruq verdiyim sayaq: tutalım, mən düşünürəm, qulluqçularım mənim yeyib-içib doymağım üçün bol-bol azuq gətirməli, ancaq özləri ona toxunmamalıdırlar, elə xalq da bunun kimi düşünür, sanasan, dövlət qulluqçuları onlara gərək olan nə varsa, hamısını yerli-yerində, bolluca tapıb verməli, özləri isə, bunlardan yararlanmamalıdırlar. Ona görə, özünə də, başqalarına da başağrısı verməyi istəyən adamları, mən dövlət qulluğuna yaramaq üçün çalışdırar; özüm isə, özgürcə yaşayan, ömrünü dadlı əyləncələrlə keçirənlərin sırasına qoşulardım.

Onda Sokrat dedi:

-İstəyirsən gəl, bu konunu da araşdıraq, görək dövlətə başçılq eləyən böyüklərinmi, yoxsa onların dediyinə boyun əyməli olan kiçiklərinmi günü yaxşı keçir?

-Yaxşı, de görək, qulağım səndədir, - Aristipp dedi.

-Gəl onda öncə, bizə bəlli olan xalqlara baxaq, Asiyaya parslar böyüklük eləyir, suriyalılar, frigiylilər, lidiyalılar onların kiçiyidirlər; Avropaya skiflər böyüklük eləyir, meotlar onların kiçiyidirlər; Afrikaya karfagenlilər böyüklük eləyir, afrikalalılar hamılıqla onların kiçiyidirlər. İndi de görək, onlardan hansıları: böyüklük eləyənlərmi, yoxsa kiçiklik eləməyə dözənlərmi, yaxşı yaşamaqdadır? İstərsən, öz elimizə baxaq: ellinləri götürək, onlardan başqalarına böyüklük eləyənlərmi, yoxsa kiçiklik eləyənlərmi yaxşı yaşayır?

-Yox, deyəsən sən məni düzgün başa düşmədin, - Aristipp dedi,- mən özümü qul kimi yaşayanların sırasına da qatmıram, mənə elə gəlir, ağa olmaqla qul olmağın arasında bir orta yol da var, mən o yolu tutmuşam, bu yolda isə: nə ağalıq eləməyə çalışırsan, nə də səni qul eləməyə yol verirsən, özgürcə, özün üçün yaşayırsan, düşünürəm ağgünlü yaşamaq elə budur da var.

-Elədir,- bunu Sokrat dedi,- dediyin bu, nə ağalıqdan, nə qulluqdan keçməyən yol, adamların da arasından keçməsə, onda sənin dediklərin büsbütün doğru olardı; yox, sən adamların arasında, nə ağalıq eləmədən, nə də kiməsə qul olmadan yaşamaq istəsən, onda çox keçmədən görəcəksən, güclülər bütöv bir toplumu da, ayrı-ayrı kimsələri də, necə bacarıqla özlərinə qulluq eləməyə sürükləyə bilirlər. Yoxsa sən, birinin əkdiyi taxılı onun əlindən alıb başqasının biçdiyini, birinin əkdiyi ağacı başqasını baltaladığını,

qolugüclülərin gücsüzləri necə ara vermədən sıxışdırıb, əzib, onları güclüylə savaşmaqdansa, qul kimi yaşamağı üstün tutanacan alçaltıqlarını görməmisən? Öz yaşamında görüb öyrənməmisənmi, qorxmaz, güclü adamlar, gücsüz, qorxaq adamları necə özlərinə qul eləyib, onların sıxıb suyunu çıxarırlar?

-Düzdür, - Aristipp dedi.- Elə buna görə də, mən bir ölkənin də yurddaşlığını üstümə götürmürəm, bütün yaşadığım yerlərdə yadelli sayılaraq qalmağı üstün tuturam.

-Nə yaman zirək imişsən! Demək istəyirsən, Sinis*, Skiron*, Prokrust* aradan götürüləndən sonra, yadellilərə bir kimsə də basqın eləmir? Öz doğma şəhərində yaşayan adamlar, özlərini basqılardan qoruyan yasalar verməkdən başqa, qandaşlarının, arxadaşlarının yardımına da arxalanırlar, buna da ürək qızdırmayıb, şəhərin yörəsində hündür qalalar qururlar, basqıdan qorunmaq üçün yaraq-yasaq alıb yığırlar, bu da azmış kimi, yeri düşəndə yardım ala bilmək üçün, başqa şəhərlərin adamları ilə də birlik üçün anlaşırlar. Bütün bunlar əllərində ola-ola, onlar basqılardan yayına, itkilər verməkdən qaçına bilmirlər. Səndə bu qoruyucu üstünlüklərdən biri də yoxkən, ömrünün çoxu da adamların ən çox basqınlarla üzləşdiyi yollarda keçirkən, istənilən şəhərdə oranın yurddaşı sayılmadığından yasalarla hamıdan az qorunurkən, üstəlik bu sayaq arxasız kimsələrə basqın etməyi sevən "ovçuların" da qaynaşdığı bir toplumda yaşayırkən, sən bircə an da olsa belə, özünü arın-arxayın saya bilərsənmi? Bütün bunlar varkən, sən bir yadelli olaraq, özünü basqınlardan qorunmuşmu sayırsan? Yoxsa sən, dövlətin onun torpaqlarına gələnlərin, ondan gedənlərin toxunulmazlığını boynuna götürdüyünəmi arxayınsan? Yoxsa düşünürsən, səni tutub qul eləsələr, əlindən bir iş gəlmədiyini görüb, açıb buraxacaqlar? Ancaq bir yandan baxanda, kim işləməkdən yayınan, ancaq yeyib-içmək, əylənmək istəyən birisini evində saxlamaq istərdi? Bilmək istəyirsənmi, belə qulluqçularla yiyələri necə davranırlar? Onun yaramaz öyrəncələrini ac-susuz saxlamaqla qanından çıxarmırlarmı? Oğurlamasın deyə, onu qapısı bağlı bir yerdə qapamırlarmı? Qaçmasın deyə, ona qandal vurmurlarmı? Ərincəkliyini döyə-döyə sağaltmırlarmı? Sən özün də, yöndəmsiz qulluqçularınla belə davranmırsanmı?

-Mən belələrini, yaxşı qulluq eləməyi öyrənənə kimi, amansızlıqla döyüb incidirəm,- Aristipp dedi. - Ancaq sənin bu ağgünlülük saydığın, böyüklük eləmək bacarığına yiyələnənlər, gərəkəndə: aclığa, susuzluğa, istiyə, soyuğa, yuxusuzluğa,

başqa ağrı-acılara qatlaşanlar, görəsən bunu könüllümü eləyirlər? Mən bircə bunu anlaya bilmirəm, tutalım, kiminsə dərisini, soruşub-eləmədən, qamçılayıb qara-qançır eləyirlər, bu sözsüz, uğursuzluq, işi düz gətirməməkdir; ancaq bir də var, kimsə bədənini öz istəyiylə, başqası isə istəmədən ağrı-acılara tuş eləyir: burada, ağrı-acılarla istəmədən üzləşənə uğursuz kimsə demək olarsa da, ancaq özünü bu üzücü duruma könüllü olaraq tuş eləyənə, uğursuzdan başqa, anlamaz da deməyin yeri var.

-Bu necə ola bilər, Aristipp? - Sokrat dedi.- Sən yəni, bu durumları bir-birindən ayırd eləyib anlamırsanmı, özünü könüllü olaraq bu ağrğ-acılara tuş eləyənlə, özü istəmədən bunlarla üzləşəni nə ayırır?- Könüllü olaraq aclığa qatlaşan, haçan istəsə yeyə bilər, könüllü susuzluğa qatlaşan, istəyəndə su içə bilər, habelə bunun kimi; ancaq bu acılarla özü istəmədən üzləşən, onlardan haçan istəsə qurtula bilərmi? Bundan başqa, kimsə bu ağrı-acılara könüllü dözürsə, bunun sonunda uğur qazanacağını düşünüb özünü toxdadır, deyək lap ovçuların uğurlu ov əldə eləmək üçün bütün ağırlıqlara dözdüyü sayaq. Ovçular sayağı dözümlülük göstərəndə, ola bilsin ələ keçirdiyin ov, çəkdiyin əməyə dəyməsin; ancaq kimsə özünə arxadaş qazanmaq üçünmü, yağıları yenmək üçünmü, öz bədəni ilə öpözünü yenilməz eləmək üçünmü, özünə ev-eşik qurmaq, arxadaşlarının işinə yarımaq, yurduna qulluq eləmək üçünmü, çalışırsa, – onda necə düşünmək olar, onların gördüyü bu işlərdən ürəkləri açılmır, sevinmirlər, bu durumlarda onlar,– özlərinin üstünlüyünü duya bilirlərsə, hamı onları öyürsə, onlara vurğunluqla baxırlarsa, başqa necə ola bilər? Bundan başqa, gününü boşuna keçirmək, bircə anlığına duyğulana bilmək üçün, yüngül əyləncələrə qapılmaq, sağlamlığı bərkitmir, gimnastika öyrətmənlərinin də dediyi kimi, adamın öpözü də bundan nəsə qazanmır; ancaq bu işlərdən yaxşı baş açanların deməsinə görə, sürəkli əmək qoyulan çalışmalar, adamları böyük uğurlara çatdırır. Hesiodun şeirlərinin birində dediyi kimi:

İstəsən mənliyini, gen-bol yamanlıq ilə, qolayca doldurarsan:
Onlara gedən yollar, daşsız-kəsəksiz olur, ikicə addımlıqda.
Yaxşılığa gedən yol, tər tökməklə keçilir, deyib ölməz tanrılar:
Yoxuşlara dirənən, dar cığırlardan keçib, uzaqlara gedirsən,
Bu enişli-yoxuşlu, yollar səni gətirib, ona çatdıran anda,
Anlayırsan, yaxşılıq eləməkdən də qolay, bir iş olmadığını.

Epixarmın da buna uyğun bir şeiri var:

Tanrılar yaxşılığı, axçalara satmazlar, insanın qatlaşdığı əməklərə verərlər.

O, başqa bir şeirindəsə deyir:

İş ağırdır, işsizlik yüngüllükdür deyənin, qanmaz olduğu bəlli!

Böyük bilgə Prodik* Herakldan yazdığı, çoxsaylı toplantılarda oxumağı sevdiyi yazılarında da, yaxşılığa çatmaq yollarını buna oxşar olaraq göstərir; onun yazdıqlarından unutmadığım yerləri, indi yerinə düşdüyü üçün, sizlərə danışmaq istəyirəm.

Onun deməsinə görə, Herakl uşaqlıqdan gəncliyə keçid yaşına çatıbmış, bəlli olduğu kimi, bu çağlarında yeni-yeni özlərini tanımağa başlayan gənclər, özləri üçün özgür bir ömür yolu seçmək istəyirlər - yaxşılığamı, yaramazlığamı sarı getməyi düşünüb daşınırlar,- Herakl da ıssız bir çöllüyə gedib oturdu, hansı yolu seçmək üzərində baş sındırmağa başladı. Birdən Herakl baxıb gördü, iki ucaboylu qadın ona sarı yaxınlaşırlar,- onlardan birinin üzündən gözəllik yağır, sanasan anadangəlmə yaxşılıq eləmək üçün doğulduğu duyulurdu; onun bəzəyi, gözəl boy-buxunu, gözlərindən yağan utancaqlıq, görkəmindəki ağıryanalıq, bir də ağappaq donu idi; o biri qadın dalğın, dolubədənli, gözüdağınıq görünürdü; özünü dartıb elə qurutmuşdu, boyu özlüyündə olduğundan artıq dik görünürdü; gözləri bərələcək kimi geniş açılmışdı; paltarı açıq-saçıq olub, bədəninin gizlin yerlərini gözə çarpdırırdı; O elə hey dönüb bir özünə, bir də o yan bu yanına baxır, kimsənin ona baxıb baxmadığını bilmək istəyiylə döyükür, ən gülməlisi, ara vermədən, dönüb öz kölgəsinə də baxmaqdan qalmırdı.

Onlar Herakla yaxınlaşanda, birinci qadın öz yerişini dəyişmədən addımlayırdı, ikinci qadın isə onu qabaqlayıb, Herakla öncə çatmaq üçün addımlarını yeyinlətdi, çatan kimi də danışmağa başladı:

-Herakl, görürəm, sən özünə necə bir ömür yolu seçmək üstündə baş sındırmaqdasan. Məni özünə könül yoldaşı eləsən, səni ən yüngül, ən dadlı duyğular içində yaşayacağın yola yönəldərəm; ömrün boyu yaşamın bütün sevinclərini dadarsan, onun ağrı-acılarından, ağır yüklərindən uzaq olarsan. Birincisi, sən nə savaşlara qatılmağın, nə də başqa bu sayaq ağır işlərin qayğısını çəkəcəksən, bütün ömrün boyu ancaq onu düşünəcəksən, hansı dadlı yeməyi, içkini dadasan, işin gücün ancaq

baxışlarını oxşayan, qulaqlarını toxdadan, yaxşı iylər duyacağın nəsnələri axtarıb tapmaq olacaq; başını qatıb, anlağını yoracaq düşüncələrin isə, ancaq bunlar olacaq: bədəninin istəklərini çılğınlaşdırmaq üçün onu kimə, necə əlləşdirib, oxşadasan, hansı göyçək oğlan uşağına yaxınlıq eləyib, istəyini soyudasan, hansı yollarla yuxunun bal dadına uzun-uzadı dalasan, bir sözlə necə eləyəsən, azacıq çalışmaqla bunları ələ gətirəsən. Birdən bu sayaq istəklərinə çatmağa yollar bağlansa, axçan çatmasa, mən qoymaram, sən buna görə ağır əməklərə qatlaşasan, ürəyini sıxasan, mən sənə başqalarının əlində olanı necə qapıb almağı öyrədəcəyəm, haradan, necə, nə yolla axça qazanmaq olarsa, arına qısılmadan onu ələ keçirəcəksən: mən öz arxadaşlarıma utanıb çəkinmədən, əllərinə keçən nə varsa, hamısından qazanc güdmək özgürlüyü verə bilirəm.

Herakl ona qulaq asıb, soruşdu:

-Ay qadın, de görək sənin adın nədir?

-Arxadaşlarım məni Ağgünlü deyə çağırırlar, ancaq gözü götürməyənlər məni Sapqın adlandırırlar, - deyə qadın dilləndi.

Bu anda o biri qadın Herakla yanaşıb danışmağa başladı:

-Mən də sənin yanına gəlmişəm, Herakl, deyirəm biləsən, sənin ata-ananı da tanıyıram, səndə anadangəlmə olan yaxşı nə varsa bilirəm, sonradan səni nələrə alışdırıblar, onları da dərindən öyrənmişəm. Elə buna görə də, inanıram, sən mən göstərdiyim yolu tutsan, ağır əməklərə qatlaşıb, çox yüksək insanlıq dəyərlərinə çatan, böyük igidliklər göstərən bir kimsə ola bilcəksən, sənin qazancın bunlar, mənimki isə, sənə aşılaya bildiyim yaxşılıqlara görə, insanların gözündə bir az da artıq ad-san, sayğılar qazanmağım olacaq. Sənin başını, yüngül əyləncələrdən doğan düşkün duyğularla tovlamayacağam, tanrıların qurduqları yaşamın gerçəklərini sənə necə varsa, eləcə də anladacağam. Yaşamda insan üçün gərəkli, ona başucalığı gətirən çoxlu işlər yaradan tanrılar, əməyə qatlaşmayan, qayğı çəkməyən insanlara nəyisə boş-boşuna verməzlər: istəyirsən tanrının verimindən yarıyasan, onlara sayğı göstərməlisən; arxadaşlarının istəklisi olmaq istəyirsənsə, onların işinə yarımalısan; hansısa şəhərin adlı-sanlı yurddaşı olmaq istəyirsən, onda bu şəhər üçün gərəkli olan işlər görməlisən; bütün Elladanın sənə vurğunluqla baxmasını istəyirsən, onda Ellada üçün böyük işlər

görməlisən; istəyirsən torpaq sənin üçün bol, tükənməz azuqlar yetirsin, ona yaxşıca qulluq eləməlisən; mal-qara yetişdirib yaxşı dolanmaq istəyirsən, onun qayğısını çəkməlisən; savaşlarda başıuca olmaq, arxadaşlarını yağı caynağından qurtarmaq, yağını darmadağın eləmək istəyirsənsə, onda savaş işini yaxşı bilənlərdən öyrənməli, öyrəndiklərinə çalışmaqla dərindən-dərinə yiyələnməlisən; sağlam, güclü olmaq istəyirsənsə, bədənini öpözünə qulaq asmağa öyrətməli, qan-tərə batıb çalışdırmalı, onu dözümlü eləməlisən.

Bu yerdə, Prodikin deməyinə görə, Sapqın deyilən qadın onun sözünü kəsib dedi:

-Herakl, sən başa düşürsənmi, hansı ağrı-acılı, uzun bir yolla, səni ağgünlü olmağa çağırır bu qadın? Mən isə səni çox kəsə, yüngül bir yolla, ağ günə çıxarmaq istəyirəm.

Sapqın belə deyəndə, adı Ərdəmlik olan o biri qadın onun üstünə kükrədi:

-Ay iyrənc, qurd-quş törəməsi! Sənin yaxşılıq adına üzə çıxarılası nəyinsə varmı? Sən əlini ağdan-qaraya vurmadan necə əylənməyimi bilirsən? Sən adamları könlü oldu-olmadı, pozğun istəklərə sürükləməyəmi əyləncə deyirsən?—ürəyin istəmədən, əlinə keçəni gözünə təpirsən: acmamış yeyirsən, susamamış içirsən; yeməyin dadlı olsun deyə, bilmirsən ona nə qatasan, içkin ürəyəyatımlı olsun deyə baş sındırıb, bahalı çaxırlar düzəldirsən, onu soyuq içəsən deyə, yayda da dağa-daşa dırmaşıb qar dilənirsən; dərin yuxuya gedəsən deyə, nəinki yorğan-döşəyini yumşaq eləyirsən, üstəlik yataq taxtının altını qalın eləyirsən, axı sən işləyib, yorğun düşüb, yatmırsan, işsizlikdən yatırsan; qadınla yaxınlıq eləmək istəyini özündə, ürəyin istəməyə-istəməyə, güclə yaradırsan, bunun üçün iyrənc yollar düşünüb tapırsan, kişiləri yatağa sürükləyib, onlarla qadın kimi davranırsan; sən öz arxadaşlarını beləmi öyrədirsən: gecələr onları arsızlığa sürükləyirsən, gündüzlər adamlar işdə-gücdə olanda, onları yuxuya verirsən?! Baxmayaraq sən ölməzlik qazanmısan, ancaq tanrılar səni öz yanlarından biryolluq qovublar, elə yaxşı kimsələr də səni özlərinə yaraşdırmazlar. Bu dünyanın ən gözəl sözü: görülən yaxşı işinə görə öyülməksə, sən onu eşitməmisən; ürəyi qanadlandıran gözəl görünüş: əlinin əməyi ilə görüb qurtardığın işdirsə, onu da görməmisən, əlindən bircə dənə də olsa yaxşı iş gəlmir. Başı işləyən kimsə, sənin sözünə inanarmı? Sənə kim yardım eləmək istəyər? Az-maz qanacağı olan da, sənin dediklərinə uyarmı? Sənə qoşulan, gəncliyində bədənini üzüb əldən salır, qocalığında da başı yaxşı işləmir; onların

bütün gəncliyi başqasının əməyindən yarınıb, işsiz-gücsüz yaşamaqla keçir, qocalıqlarında əldən-dildən düşür, yaman günlərə qalırlar: onlar yalnız indi öz keçmişlərindən utanmağa başlayırlar, gənclik illərini boşuna keçirib, qara günləri üçün nəsə qablaşdırmadıqlarından, indiki üzgün qocalıqlarında, yaşam bütün ağırlığı ilə onları basıb əzməyə başlayır.

Mən isə tanrılara sığınıb yaşayıram, yaxşı adamların arasında dolanıram; tanrıca, insanca olan bir yaxşı iş də mənsiz görülmür; tanrıların da, anlayan insanların da yanında məni saya salırlar, mən yaradıcı adamların yardımçısı, evinə yiyəlik eləyənlərin qoruyucusu, yaxşı qulluqçuların əlindən tutan, dinc əməklə yaşayanlara arxa duran, yağıyla savaşda çiyin yoldaşı, arxadaşlıqda ən yaxın kimsəyəm. Mənimlə arxadaşlıq eləyənlər, ağız dadı ilə, qulağıdinc yeyib-içirlər, onlar yeməyi sağlamlıqlarına yaramaq üçün yeyirlər. Onların yuxusu, işsiz adamların uyqusundan dərindir; ancaq işlərini görüb qurtarmağa gərək varsa, onlar yuxuya dalmaqdan qaçına da bilirlər. Mənim yolumda, gənclər qocaların öyünclərindən qanadlanırlar, qocalar gənclərin sayğısından sevinirlər; onlar keçmişlərini yaxşı duyğularla anırlar, mənə inandıqları üçün, tanrıların sevimlisi, arxadaşları üçün dəyərli, yurdlarında sayılan-seçilən kimsələr olurlar. Ömürləri sona yetəndə də, biriləri kimi unudulmuş, adlarını batırmış kimsələr olmurlar, yurddaşları onların adına şərqilər oxuyur, uzun illər boyunca anırlar. Herakl, mən dediyim əməklərə qatlaşsan, ata-ananın adını da ucaldacaqsan, özün də tanrıların sənə göndərəcəyi ağ günlərə çatacaqsan!

Prodikin, Ərdəmliyin Heraklı yaxşılıqlara necə öyrətməsindən danışdıqlarının özəti budur; ancaq Prodik bu danışığını ürəklərə işləyən gözəl sözlərlə bəzəyib danışırdı, mən isə beləcə quru sözlərlə dedim. Sənə isə, Aristipp, bu sözləri qulağında sırğa eləməyi, indidən gələcək ömründə işinə yarayacaq bir yol tutmağı diləyirəm.

II BAŞLIQ

{Lamproklla, ata-anaya sayğı bəsləməyə çağıran danışıq}

Günlərin bir günü, Sokrat böyük oğlu Lamproklun öz anasına qarşı acıqlı olduğunu duyub, ondan soruşdu:

-Oğlum, mənə de görüm, bir çox adamlara yaxşılq itirən deyildiyini bilirsənmi?

-Bilirəm,- gənc dilləndi.

-Bilmirsən, hansı işlərinə görə adamları belə adlandırırlar?

-Bilirəm, - oğlu dedi,- başqasının elədiyi yaxşılığa qarşı yaxşılıq eləməyə gücü çatan, ancaq bunu eləməkdən boyun qaçıranlara belə deyirlər.

-Onda, sənin deməyinə görə, yaxşılıq itirənləri əyri adamların sırasına qatırlar, eləmi?

-Elədir.

-De görüm, haçansa belə bir konunu araşdırdığın olubmu: tutalım, arxadaşını qul eləyib satmaq yamanlıq, ancaq yağılarla belə davranmaq düzgünlük sayıldığı kimi, onda arxadaşların yaxşılığını itirmək yamanlıq, yağıların yaxşılığını itirmək isə düzgünlük sayıla bilərmi?

-Mən bunu düşünmüşəm,- Lamprokl dedi,- ancaq mənə elə gəlir, istər arxadaş, istərsə də yağı olsun, yaxşılıq eləyənə qarşı yaxşı davranmayan əyri adamdır.

-Bu belədirsə, onda yaxşılığı itirmək, sözə necə boyaq versən də, onu hara yozsan da, ancaq əyrilikmi sayılmalıdır?

Lamprokl bu sözlə anlaşdığını bildirdi.

-Elədirsə, onda birisi ona edilən çoxlu yaxşılıqların qarşısında bircə yaxşılıq belə eləməzsə, o, qat-qat artıq əyrilik eləmirmi?

Lamprokl bununla da anlaşdığını bildirdi.

-De görüm,-Sokrat sözünün ardını dedi,- kimsə birisinə onun ata-analarının elədiyindən artıq yaxşılıq eləyə bilərmi? Uşaqlarını bu yaşama ata-analları gətirmiş, onları, bu yaşamda olan, tanrıların yaratdığı bütün gözəl, yaxşı olan nə varsa hamısından yarındırmağa çalışmışlar; onların bizi gətirdikləri bu yaşamda ömür sürmək necə gözəldirsə, bizim ömrümüzdə ən çox qorxduğumuz da, bizi ondan ayıra biləcək ölümdür; görürsən, dövlət də ən ağır suç işlədənlərə ölüm kəsir, bununla da ölüm qorxusunun suç işlətməyin qarşısını ala biləcək yamanlıq olduğunu gözə çarpdırır. Düşünürəm, ata-analların uşaq doğurmasının, onların pozğun əyləncələrə uymasına görə olmadığını anlayırsan: belə əyləncələrə dalmaq üçün, bu istəklərini soyutmaq üçün, küçələrdə də, ellik evlərində(fahişəxanalarda) də, ürəyin istəyəni tapa bilərsən. Bunu hamı bilir, biz uşaqlarımızın yoldan keçən birisindən yox, hansı qadından sağlam doğula biləcəyinin belə qayğısına qalırıq; ancaq belə qadınlarla evlənib, uşaqlarımızı dünyaya gətiririk. Bunun üçün də kişi, onun gələcək uşaqlarının anası olacaq qadını öz qanadı altına alıb dolandırır, gələcək uşaqları üçün qabaqcadan, onların yaşamına yarayacaq nə varsa, bacardıqca çoxlu-çoxlu toplamağa çalışır. Qadın isə, boyuna düşən uşağın yükünü bədənində daşıyır, sağlamlığına qorxu yarada bilməsindən çəkinməyib, yediyi yeməyin bir payını uşağına ayırır, sonra doğuşun ağrı-acılarına qatlaşıb, onu bu ışıqlı yer üzünə gətirir, bundan sonra onu əmizdirir, gecə-gündüz qayğısını çəkir, baxmayaraq, öz uşağından hansısa yaxşılıq da görməyib; körpə bu yaxşılqları ona kimin elədiyini anlamasa da, özünə gərək olanı dil ilə deyə bilməsə də, ana onun gərəksələrini duya, onları ödəyə bilir; beləcə uzun illər onu əmizdirirərək, yolunda gecə-gündüz ağrı-acılara qatlaşaraq, bunun qarşılığında gələcəkdə uşağından nəsə bir yaxşılıq görəcəyini düşünmür də. Ancaq iş təkcə uşağı yedirib-içirməklə qurtarmır: ata-ana uşağın söz anladığını bilincə, yaşam üçün gərəkli olan nəyi bilirlərsə, ona öyrədirlər; bundan sonra

onun gələcək ömür yolunda gərəyi olacaq bilikləri yaxşı öyrənməsi üçün, axçaya qızırğanmadan bilikli öyrətmənlərin yanına göndərirlər.

Burada Sokratın oğlu dilləndi:

-Anam mənim üçün bunları, başqa işləri artıqlaması ilə eləyibsə də, yer üzündə bir kimsənin onun bu dözülməz qılığına duruş gətirə biləcəyinə mən inanmıram.

Onda Sokrat belə dedi:

-Səncə, hansının acımazlığı(amansızlığı) artıq dözülməz olar: bir yırtıcınınmı, yoxsa ananınmı?

-Məncə, ana necə olsa da, bir yırtıcı kimi acımasız olmaz.

-Yaxşı, o səni incidəndə yırtıcıların elədiyi sayaq: səni qapır, yoxsa sənə şıllaq atır?

-Yox, belə bir iş tutmayıb, ancaq and olsun Zevsə, elə acıdildir, onun dediklərini eşitməkdənsə, mən ömrümü yelə verməyi üstün tutardım.

-Elə bilirsən, sən onu az incitmisən: körpəliyində gecə də, gündüz də qışqırıb ağlamağınla, uşaqlığında saysız şıltaqlarınla, ağrınanda onu günlərlə yuxusuz qoymağınla, ona nələr çəkdirdiyini düşündüyün olurmu?

-Axı, mən indiyəcən onu başıaşağı eləyəcək bir söz deməmişəm, bir iş tutmamışam.

-Bu nə deməkdir? - Sokrat dedi. - Onun sənə dediyi sözlər, teatrda gördüyün aktyorların yeri düşəndə, biri-birini acıladıqları sözlərdən də dözülməzdir, yəni?

-Yox, ancaq mənə elə gəlir, teatrda aktyorlar bilirlər, bu oyundur, yəni qarşısındakı onu yalandan söyür, acılayır, aşağılayır, qorxudur, özlüyündə isə onun sarıdan hansısa yamanlıq baş verməyəcək, ona görə də bu sözləri ürəklərinə almırlar.

-Sən isə gözəlcə bilə-bilə, anan səni söyüb yamanlayanda da, qarğış eləyəndə də, onun ürəyindən sənə qarşı azacıq da olsa pislik eləmək keçmir, onun ürəyində sənin yaxşılığını istəməkdən başqa bir dilək yoxdur, yenə də anana acığın tutur? Yoxsa sən düşünürsən, anan sənin yamanlığını istəyir?

-Yox, mən belə düşünmürəm.

Onda Sokrat dedi:

-Deməli, anan ancaq sənin yaxşılığını istəyir, sən ağrınanda sağalmağın üçün əlindən gələni eləyir, ürəyindən keçənləri bacardıqca yerinə yetirməyə çalışır, bundan başqa, tanrılara yalvarıb, onlardan səni uğura çatdırmağı diləyir, sənin işinin düz gətirməsi üçün qurbanlar boyun alır, bütün bunları bilə-bilə, yenə ananın dözülməz birisi olduğunu deyirsən? Mənə elə gəlir, sənin anana qarşı belə dözümsüzlüyün, bugünkü göydəndüşmə olan ağ günlərinə arxa çevirməyindir elə.

Mənə bir de görüm,- Sokrat sözünün ardını gətirdi,- sən bu yaşamda kiməsə sayğı göstərməyin gərəkliyini duyursanmı, yoxsa düşünürsən, yer üzündə sənin nə bəyənilmək, nə də bəyənmək deyilən bir qayğın olmamalıdır,- elə lap deyək, hansısa bir qoşun başçısını, habelə başqa bir yönətimçini bəyənməyi gərəkli saymırsanmı?

-Mənim sayğı duyduğum belə böyüklər var.

-Deməli, sən qonşunla ona görə yaxşı yola gedirsən, gərək olanda o sənə ocağını alışdırmaq üçün od versin, yeri gələndə işini qabağa salmaq üçün yardım göstərsin, birdən işin düz gətirməsə, yaxşı qonşu kimi əlindən tutsun, eləmi?

-Elədir.

-Yol yoldaşı necə, quruda, dənizdə olsun, yoxsa yaşamda üzləşdiyin başqa birisi olsun,- onların sənlə arxadaşmı, yağımı olmasının önəmi yoxdur,- yoxsa, çalışırsan onlarla aranda bir yaxınlıq olsun?

-Sözsüz, çalışıram aramız yaxşı olsun.

-Belələrinə sayğı göstərməyə gərək duyursan, ancaq səni bu yer üzündə hamıdan çox sevən ananı gözdən salırsan? Sən bilirsənmi, elə dövlət də başqalarının yaxşılığını itirənləri gözardı eləyir, düzdür, buna görə kimisə qaralayıb məhkəməyə göndərmir, eləcə bu yaxşılıq itirənləri saya salmır; ancaq ata-anasına saymazlıq göstərənləri dövlət suçlayıb, tutuqlayır, onları mənliksiz olduqları üçün dövlət qulluğuna götürmür, dövlətə elədiyi yardımları da, birdən bu tanrıların acığına gələr deyə, yaxın qoymurlar, bir də dövlətin başında duranlar, öz doğma ata-anasına sayğı göstərməyən adamın başqalarına ürəkdən yaxşılıq eləyə biləcəyinə də inanmırlar. Afinada, dövlət qulluğuna girmək istəyən kimsənin bu işə yararlığını öyrənmək üçün, ilk olaraq, onun ata-anasının sonevinin(məzarının) baş daşının nə gündə olduğunu yoxlamırlarmı? Beləliklə də, oğlum, sən özünü anlaqlı sayırsansa, onda anana göstərdiyin sayğısızlığa görə,

tanrılardan suçundan keçmələrini dilə, qoy onlar səni yaxşılıq itirən kimi tanıyıb, ver əllərini üstündən əsirgəməsinlər, adamların da səni ata-anasına sayğısızlıq göstərən birisi kimi tanımalarından sakın, yoxsa hamı sənə yuxarıdan aşağı baxar, arxadaşsız, yoldaşsız qalarsan. Adamlar səni ata-anasına saymazlıq göstərən birisi kimi tanısalar, yaxşılıqitirən olduğunu düşünüb, sənə yaxşılıq eləməkdən də çəkinəcəklər.

III BAŞLIQ

{Herekratla, qardaşlar arasındakı sevgisiylə bağlı danışıq}

Bir gün Sokrat çoxdankı tanışları olan iki qardaşın: Herefontla, Herekratın biri-biri ilə yola getmədiklərindən duyuq düşmüşdü. Herekratla üz-üzə gələndə ondan soruşdu:

-Herekrat, mən bilən sən o adamlardan deyilsən də axçanı doğma qardaşlarından üstün tuturlar, baxmayaraq axça anlaqsız, qardaş isə anlaqlı bir gerçəklikdir; ancaq biriləri nədənsə elə sanırlar, axça üçün əlləşib vuruşmağa dəyər, qardaş üçünsə yox, olmaya, axça çoxlu, qardaş isə tək olduğuna görə, belə düşünürlər? Burada çöçün(təəcüblü) görünən bir də odur, birisi qardaşını varlı görəndə, sanasan ona çatası nəyinsə qardaşının əlinə keçdiyini düşünür, ancaq özgələrin varlı olduğuna baxanda, belə qıcıqlanmır. Başqasının varına baxanda adamların çoxusunun anladığı bu olur, yaxşısı özünün qazancınla dolanmaqdır,- başqasının varına göz dikməyin, onların varını əllərindən çıxarıb öz əlində toplamağın, adamı çox qorxunc bir duruma saldığını bilirlər; ancaq qardaşlarına çatanda, nədənsə bunu anlamaq istəmirlər! Adamlar işlərinə yarısın deyə, özlərinə qulluqçu alırlar, yeri gələndə arxalı-dayaqlı olsunlar deyə, yurddaşlarının içindən özlərinə arxadaşlar tapırlar; ancaq qardaşlarını saya salmırlar, elə bil yurddaşdan arxadaş olar, qardaşdan olmaz! Ancaq deyəsən, bir ata-anadan doğulub, bir böyükdən

öyüd almış kimsələr, biri-biriylə arxadaşlığa başqalarından artıq yaramalıdır, heyvanlarda belə, onlarla bir yerdə boya-başa çatan qandaşlarına qarşı anadangəlmə sevgi olur. Bundan başqa da, toplumda kimin qardaşı varsa, onu arxalı bilib çəkinirlər, qardaşı olmayana isə ilişməkdən qorxmurlar.

Bu yerdə Herekrat dilə gəldi:

-Elədir Sokrat, boş yerə qardaşdan inciyib uzaqlaşmağa dəyməz, belədə ona qarşı dözümlü olmaq yaxşıdır: düz deyirsən, qardaşa yaman günün yarağı da demək olar, ancaq o da, qardaşlıq adına yaraşan birisidirsə, bu belə olur. Onda qardaşlığa yarayan dəyərlər yoxsa, bundan da pisi, onunla dil tapıb anlaşmaq olmursa, belə qardaşla doğmalığını qorumağa çalışmaq, baş tutmayan bir işə qoşulmaq deyilmi?

Sokrat ona qulaq asıb dedi:

-Sən nə danışırsan, Herekrat? Herefontu təkcə sənmi bəyənmirsən, yoxsa onu səndən başqa da bəyənməyənlər var?

-İnan mənə Sokrat, məni yandıran da elə budur, onu bəyənən, oturub-duran yetərincə arxadaşları da var, ancaq mənimlə harda üzləşsə, elə bil bilərəkdən, ara vuran sözlər danışmağa, işimi əyməyə çalışır.

-Kim atlarla davranmağı bacarmayıb, at saxlamağa girişirsə, bundan qazanc götürmək bir yana qalsın, olan-qalan axçası da əlindən çıxır, - deyə Sokrat dilləndi.- Olmaya, qardaşınla davranmağı bacarmadığından, onunla necə anlaşmağı bilmədiyindən, qardaşın da sənlə yola getmir?

-Necə ola bilər, mən qardaşımla davranmağı bacarmayım?- Herekrat mızıldandı,- sözüyləsə, işiyləsə olsun,- kimin mənə yaxşılığı keçib, mən də ona yaxşılıq eləməkdən qalmamışam. Yox, birdən kimsə mənə sözdəmi, işdəmi, pislik eləyərsə, mən ona nəinki yaxşılıq eləmirəm, onu adam yerinə də qoymuram.

Onda Sokrat dedi:

-Necə də gülməli danışırsan, Herekrat! Sənin sürünü qoruyan köpəyin, çobanlara isnişib, ancaq səni görəndə üstünə cumub, qapmaq istərdisə, sən ondan inciməzdin, çalışardın, onu özünə öyrədəsən. Qardaşa gələndə, sən özün deyirsən o, böyük bir yatırdır(xəzinədir), yaxşı, onda qardaşın sənin ona belə soyuq yanaşmağına baxıb, səncə,

nə eləməlidir?- bir yandan da özün deyirsən, ürəyin istəyəndə adamlara yanaşıb, onları özünə yovuşdura bilirsən!

Bu yerdə Herekrat dilləndi:

-Sokrat, qorxuram Herefontla aranı düzəltməyə çalışam, ancaq buna gücüm çatmasın.

-Sənə deyim, - Sokrat dilləndi, - qardaşına qarşı nəsə bir qurğu qurmaq, nə də hansısa tapmaca düşünməyə gərək yoxdur: düşünürəm, özünü ona necə istətməyi də, onun da sənə qanı qaynasın deyə, nə etməli olduğunu da, sən çox yaxşı bilirsən.

-Di, de görək, - Herekrat qızışdı,- deyəsən sən məndə hansısa, adamlarda özümə qarşı sevgi oyatmaq bacarığı görürsən, ancaq nədənsə mən onu görə bilmirəm.

-Yaxşı, onda de görək, sənin tanışlarından birisinin, tanrılara qurban verəndə səni də unutmayıb, açdığı yemək süfrəsinə çağırması üçün, sən nə edərdin?

-Sözsüz, mən birinci olaraq, onu qurban süfrəmə çağırardım.

-Uzağa yolçuluğun olanda, hansısa arxadaşına, evindən göz-qulaq olmağı tapşırmaq üçün, öncədən nə eləyərdin?

-Sözsüz, o bir yerə gedəndə, mən də onun evindən göz-qulaq olardım.

-Başqa şəhərdə yaşayan birisinin yanına gedəndə, onun səni yaxşı qarşılaması üçün, nə eləyərdin?

-Bundan öncə çalışardım, Afinaya gələndə onu yaxşı qarşılayım, burada işlərini yoluna qoymaq üçün əlimdən gələn yardımları eləyim, o da mən ora gedəndə, işlərimə əl yetirsin, üzümə yaxşı baxsın.

-Görünür, sən lap çoxdan, adamların sevgisini necə qazanmağı bacarırmışsan, ancaq bunu bizdən gizlədirmişsən. Yoxsa, qardaşınla aranı düzəltmək üçün, birinci addım atmağı özünə əskiklik sayırsan? Bilməmiş deyilsən, o kimsəni sayğıyla anır, adına öyünclər deyirlər, yağılarını- pislik eləməkdə, arxadaşlarını- yaxşılıq eləməkdə qabaqlaya bilsin. Mən bilsəydim, Herefont adamlarla arxadaşlıq qurmaqda səndən zirəkdir, onda onu dilə tutardım, sənlə aranı düzəltsin; ancaq mənə elə gəlir, bu işi sən ondan yaxşı bacarırsan.

Burada Herekrat özündən çıxdı:

-Bu nə saçmalıqdır! Səndən gözləməzdim, Sokrat! Sən məni, kiçik qardaşı, birinci başlamağa çağırırsan; baxmayaraq bunu hamı bilir, sözdə də, işdə də yol böyüyündür!

-Necə yəni?- Sokrat çımxırdı.- Hamının bildiyi bu deyilmi, kiçiklər gərək bütün ömürləri boyu böyüklərin yolunu gətirsinlər; oturubsa, böyük gələndə ayağa durmalı, sayğı göstərib yumşaq döşəkcəsini ona verməlidir; indi deyirsən böyük gələndə, kiçik oturub qalmalı, böyük də dillənib onu yerindən tərpətməlidir? Yox, istəkli arxadaşım, sən gəl özünün bu vasvasılığını bir qırağa qoy, qardaşının ürəyini almağa çalış: çox keçməz, o da sənin səsinə səs verər, yoxsa, sən onun necə ufutlu, könlüaçıq olduğunu bilmirsən? Qanıyava kimsələrə nə versən, yenə də özünə yovuşdura bilməzsən; ancaq arı soylu kimsəni istiqanlılıqla özünə doğmalaşdıra bilərsən.

-Yaxşı, birdən mən çalışdım, ancaq o mənə qarşı yaxşı olmadı?

-Lap belə olsa da, sən nə itirirsən?- Sokrat dedi.- Sən özünü oda-közə vurmaqdan çəkinməyib, qardaşını sevən, onun üçün çalışan bir ufutlu kimsə olduğunu göstərirsən, o, birdən bunu anlamasa, çox əskik, yaxşılıqqanmaz birisi olduğunu göstərəcək. Ancaq mənim bildiyimə görə, belə olmayacaq. Düşünürəm, o, sənin bu işə ürəklə girişməyini görüncə, səninlə yarışa girib, elədiklərini sözdə də, işdə də birəbeş sənə qaytarmağa çalışacaq.

Sizin indiki doğmalıq durumunuz bilirsənmi nəyə oxşayır?- Tanrılar əllərimizi ona görə yaradıblar, onlar əl-ələ verib, ən ağır işləri görsünlər, ancaq əllərdən biri nədənsə yapışıb güc eləyəndə o biri əl özünü qırağa çəkib yapışmazsa, nə olar? Eləcə də tanrılar ayaqlarımızı biri-birinə dayaq olub yeriyə bilmək üçün yaradıblar, indi düşün, birdən ayağın biri addımlayanda, o biri dayanıb durarsa, nə baş verər? Biri-birinin işinə yarımaq üçün yaradılan varlıqların bundan qaçınıb, biri-birinin işini pozmağa çalışması, saçmalıq sayılmazmı? Tanrılar qardaşları biri-birinin işinə yarayacaq, qoşa nəsnələrdən: əllərdən, ayaqlardan, gözlərdən, habelə belə üyələrdən, qat-qat artıq bacarıqla biri-birinə yardımçı ola bilımək üçün yaratmışlar. Birdən əllər birləşib iki metrlik uzaqlıqda olan nəyisə götürmək istələr, bunu bacarmazlar; ayaqlar iki metrdən az uzunluğu da, bir addımla keçə bilmirlər; gözlər necə iti olur olsun, ən yaxında belə, arxa ilə önü, bir anda görə bilmirlər; ancaq qardaşlar arasında doğmalıq varsa, onlar haracan uzaqda olsalar belə, biri-birinin işinə yaraya bilirlər.

IV BAŞLIQ

{Arxadaşlığın nə demək olduğunu aydınlaşdıran danışıq}

Bir gün Sokratın, arxadaşlığın nə demək olduğunu aydınlaşdıran bir danışığına qulaq asmışdım, mənə elə gəlir, arxadaş seçməklə, onlarla davranmaqla bağlı, bu danışıqda çox gərəkli öyüdlər vardır. Sokrat deyirdi: “Bunu çoxlarından eşitmişəm, insanın ömrü boyu özü üçün seçə biləcəklərindən ən yaxşısı- yaxınlarına arxa çevirməyən, könlüaçıq bir arxadaşdır; mənim bildiyimə görə, insanlar özlərinə arxadaş axtarmaqdan çox, başqa nələrinsə dalınca düşüb, onların qayğısını artıq şəkirlər. Ev, torpaq, qullar, mal-qara, ev avadanlıqlarını adamlar qan-tər axıdıb toplayır, onları bacardıqca qorumağa çalışırlar; arxadaşlara gəlincə, çoxları nə onları tapmağa, nə də olanları qoruyub saxlamağa çalışırlar. Bu azmış kimi, onlar qulluqçuları ağrınanda həkim çağırır, onu sağaltmaq üçün axçaya qızırqanmırlar, əllərindən nə gəlirsə eləyirlər, arxadaşları ağrınanda isə durub qıraqdan baxırlar; qulluqçuları öləndə bunu çox ağır itki sayır, yanıb yaxılırlar, arxadaşlarının ölümünü isə özləri üçün ağır itki saymırlar; özlərinin olan nə varsa qayğısını çəkirlər, baxımsız qoymurlar, ancaq qayğıya yardımı

olan arxadaşlarını yoluxmurlar. Bundan başqa, adamlar öz varının, axçasının sayını, onlar lap çoxlu olsa belə, sonuncu dənəsinə kimi bilirlər, ancaq onlardan arxadaşlarının sayını soruşanda, birində bir, başqasında ayrı say deyirlər, onları öncə saya salır, sonradan çıxarırlar: deməli, arxadaşlar onlar üçün belə az dəyərlidir! Ancaq özlüyündə yaxşı arxadaşı, nə iləsə tutuşdursan, görərsən onun dəyəri ölçüyəgəlməzdir: hansı bir yaxşı minik verən at, əkin-biçinə yarayan güclü qoşa kəllər, yaxşı arxadaşın yerini verə bilər? Hansı qul arxadaş kimi sənə doğma ola, arxa-dayaq dura bilər? Hansı bir kimsə, yeri gələndə bütün işlərinə yaraya bilər? Yaxşı arxadaş isə, arxadaşının bütün işlərinə yarayır, istər yaşamıyla bağlı, istər toplumla bağlı olsun: onun gücü çatmayan bir işmi var, arxadaş yardıma gəlir; onun qorxub-üşəndiyi nəsə var, arxadaş çiyin-çiyinə dayanır; onun işinə axçamı gərəkdir, arxadaş tapıb verir; kimniləsə dil tapmalısan, arxadaş yanındadır, kiməsə güc göstərməlisən arxadaş hayında-harayındadır; onun uğuruna özündən çox sevinir, uğursuzluğa düşəndə isə, işlərini yoluna qoymaq üçün var gücü ilə çalışır. Adam iş görmək istəyəndə əllərinə arxalanırsa, özünü qorumaq üçün gözlərinə arxayındırsa, qulaqları onu yan-yörəni dinşəyib, yerinə görə davranmağa yönəldirsə, ancaq yaxşı arxadaş bu işlərin hamısını birdən, onlardan da yaxşı yerinə yetirə bilir. Bu harasıdır, o, özü üçün eləməyə ərindiyini də arxadaşı üçün eləməkdən qalmır. Buna baxmayaraq, biriləri ağaclara onların veriminə(məhsuluna) görə qulluq eləməkdən yorulmaq bilmir, ancaq qat-qat verimli olan arxadaşına qulluq göstərməyə ərincəklik eləyir.”

V BAŞLIQ

{Antisfenə, arxadaşları necə seçməyi anladan danışıq}

Mən Sokratın başqa bir danışığını da eşitmişdim, mənə elə gəlir, o bu danışığında dinləyicilərinə öz arxadaşlarını yüksək dəyərləndirməyi öyrətməyə çalışırdı. Məncə Sokrat, dinləyicilərinin arasında olan birisinin, çox korluq çəkən arxadaşına qayğı göstərmədiyini bildiyindən, bu sözü açmışdı. Çoxlu dinləyicilərinin arasında arxadaşını unudan kimsənin də olduğunu görüb, ona eşitdirmək üçün, Sokrat üzünü Antisfenə tutub soruşdu:

-Antisfen! Necə bilirsən, qulluqçunun axça ilə ölçülən dəyəri olduğu kimi, arxadaşın da dəyərini axça ilə ölçmək olarmı? Deyək, hansısa qulluqçunun dəyəri iki mindir*, başqası yarım min, üçüncü beş min, on minə dəyəni də olur; deyirlər, Nikeratın oğlu Nikiy gümüş çıxaran işçilərinin üstündə baxıcı qoyduğu qulluqçusunu bir talanta* alıb. Bax belə, mən bilmək istəyirəm, arxadaşların da dəyərini, bu sayaq, axça ilə ölçmək olarmı?

-And olsun Zevsə, bunu sınamaq olar, - Anisfen dilləndi,- eləsi var, mən iki min axça qazanmaqdansa onunla arxadaş olmağı üstün tutardım, eləsi də var, yarım mini onunla arxadaşlıqdan üstün sayaram, başqa birisiylə arxadaşlığı on min axça

qazanmaqdan üstün tutardım, ancaq eləsi də var, onunla arxadaş olmaq üçün ən ağır əməklərə qatlaşar, bu işin baş tutmasına sayagəlməz axçalar yatırardım.

Sokrat ona qulaq asıb dilləndi:

-Dediklərinə mən də qoşuluram, görünür, özümüzü belə bir sınağa da çəkməyə dəyər: biz özümüz arxadaşımız üçün hansı dəyərdəyik?–buna görə də, arxadaşlarımız bizdən qolayca üz döndərməsinlər deyə, biz də öz arxadaşlıq dəyərimizi artırmaq üçün əlləşib vuruşmalıyıq! Yoxsa mən elə hey eşidirəm: biri deyir, arxadaşı ona arxa çevirmiş, başqası deyir, arxadaşı onu bir min axçalıq qazancın ayağına vermiş, habelə bunun kimi qınaqlar... Məni belə bir sorğu da çox düşündürür: işə-gücə yaramayan qulluqçunu yiyəsi dəyər-dəyməzinə satıb, onu başından eləməyə çalışır, pis arxadaşdan yaxa qurtarmaqdan gələn qazancı da bu sayaq ölçmək olarmı? Ancaq mən bilən, bir kimsə də yaxşı qulluqçusunu satmaq istəməz, bunun kimi də yaxşı arxadaşından üz döndərən birisinin də ola biləcəyinə inanmıram.

VI BAŞLIQ

{Kritobulla, arxadaş seçmək konusunda danışıq}

Mənə elə gəlir, Sokrat kimləri arxadaş olaraq seçmək üçün də dəyərli öyüdlər verməyi bacarırdı, onun Kritobulla olmuş aşağıdakı danışığı da bunu göstərməkdədir.

-Kritobul, deyə bilərsənmi, birdən yaxşı bir arxadaş tapmaq istəsək, onu necə axtarardıq? Sənə elə gəlmirmi, beləsini: qarınqulu, içkiyə qurşanan, qadın düşkünü, yuxucul, ərincək olmayanların arasında axtarmalıyıq? Belə öyrəncələrə qapılmış kimsənin nə özünün, nə də arxadaşının işinə yaramayacağı hamıya bəllidir.

-And olsun Zevsə, düz deyirsən,- Kritobul dedi.

-Deməli belə düşkünlüklərə qapılanlardan uzaq gəzmək gərəkdir?

-Elədir.

-Birdən eləsi oldu, özünü dolandıra bilməyib, yan-yörəsindəkilərdən axça dilənir, alanda da qaytarmağa gücü çatmır, ala bilməyəndə isə verməyəni görməyə gözü olmur, beləsini arxadaş eləyib, özünə yük artırmağa dəyərmi?

-Yox, dəyməz.

-Demək beləsindən də uzaq gəzmək gərəkdir?

-Sözsüz, bacardıqca uzaq gəzmək yaxşıdır.

-Birdən eləsi oldu, axça qazanmağı, onu yığmağı bacarır, ancaq gərəyin üçün ağız açanda, verməyə əli gəlmir, almağı sevir, verməyi bacarmır, beləsinə necə baxırsan?

-Məncə beləsi, bundan qabaq dediklərindən də pisdir,- Kritobul dilləndi.

-Birdən elə bir axça düşkünü oldu, başında ancaq haradan, necə axça qazanmağı dolandırsın, bundan başqa bir düşüncəsi olmasın, buna nə deyirsən?

-Mənə elə gəlir, beləsinin yanından lap baş götürüb qaçmaq yaxşıdır, ondan tanış-bilişə yaxşılıq eləyəcəyini gözləməyə dəyməz.

-Birdən dalaşqan, arxadaşlarına bir yığın yağı qazandıran birisi oldu, onda necə?

-And olsun Zevsə, ondan da uzaq!

-Birdən birində bu yaramazlıqlardan birisi də yoxdur, özünə yaxşılıq eləyəndə bunu bəyənir, ancaq özünün başqasına yaxşılıq eləməklə arası yoxdur?

-Beləsi də arxadaşlığa yaramaz. Yaxşı, Sokrat, səncə arxadaşları hansı adamların arasında aramalıyıq?

-Düşünürəm, bayaqdan sadaladığım yaramazlıqları olan kimsələrdən yan keçib, bunlardan iraq olan adamların arasında, yəni iyrənc əyləncələrə uymayan, bununla yanaşı evyığan, qonaqsevər, yaxşılıq eləyənə neçə qat qarşılığını qaytarmağa çalışan, bir sözlə, əlindən yaxşılıq eləmək gələn kimsələri aramalıyıq.

-Onlarla yovuşmazdan qabaq, bunu necə sınayıb öyrənmək olar?

-Heykəl yonan kimsəyə iş buyuranda, biz onun nə danışdığına baxmırıq, buna kimi gördüyü işlərə baxırıq, indiyə kimi gördüyü işləri bəyənəriksə, bizim üçün görəcəyi işin də gözəl olacağına inanırıq.

-Sən demək istəyirsən, kimin qabaqkı arxadaşları ilə yaxşı davrandığı bəllidirsə, onun bundan sonrakılarla da yaxşı arxadaş olacağına güvənmək olar, eləmi?

-Elədir, - bunu Sokrat dedi, - mən birisinin öz atına yaxşı baxdığını görmüşəmsə, onun sonradan alacağı atıyla da belə davranacağına inanıram.

-Yaxşı,- Kritobul soruşdu,- özümüzə arxadaş olmaq üçün seçdiyimiz adamla necə yovuşmalı?

-Öncə, tanrıların istəmini öyrənməli, onların bu arxadaşlığı alqışlayacağına inanmalıyıq.

-Yaxşı, tanrıların da bu arxadaşlığa qarşı olmadığını öyrəndiksə, onunla arxadaş olmaq üçün, sonra nə eləməliyik?

-And olsun Zevsə, onu dovşanı tutan kimi bərk qaçmaqla, quş kimi cələ qurmaqla, qaban kimi güclə ələ keçirmək olmaz. Kimisə onun könlü olmadan özünə arxadaş eləmək alınan iş deyil; onu ələ keçirib, qul kimi qandallayıb da yanında saxlaya bilməzsən, bu yolla qamarladığından arxadaş yox, yağı alınar.

-Onda desənə, adamlar necə arxadaş olurlar? - Kritobul soruşdu.

-Deyirlər bir şərqi var, onu oxuyanda adamlarda sənə qarşı sevgi oyadır, bilənlər onu oxumaqla istədiklərini özlərinə arxadaş eləyirlər; bir də deyirlər, tovlayıcı içki(eliksir) var, onu düzəldə bilənlər, kimə istəsələr içirib, özlərini sevdirirlər.

-Bu dediklərini haradan tapmaq olar?

-Sirenlərin* şərqiləri ilə Odisseyi necə bağladıqlarını(tilsimə saldıqlarını) Homerdən oxumusan; Belə başlayırlar:

Yanımıza gəlsənə, çox sayğılı, üzüağ, axeylərin başını, uca edən Odissey!

-Sokrat, Sirenlər bu şərqini bağladıqları bütün adamlar üçünmü oxuyurdular, kimliyindən asılı olmayaraq hamınımı tutub saxlayırdılar?

-Yox, onlar bu şərqini ancaq, yaxşılıqlarla adını ucaldan kimsələr üçün oxuyurdular.

-Sən demək istəyirsən, bu şərqini arxadaş olmaq istədiyimiz kimsəyə oxuyasıyıq, o da qulaq asıb bunu ələsalmaq yox, öyünc kimi anlayasıdır?

-Yox, bu sayaq eləsən, özünə çoxlu yağı qazanarsan, adamları özündən ürküdərsən, sən durub, boyca kiçik, suyumsuz, gücsüz kimsəyə: böyük, göycək, güclü desən, onu ələ saldığını düşünüb, sənə acığı tutar.

-Olmaya, sənin bildiyin başqa bir şərqi də var?

-Yox, ancaq eşitmişəm Perikl belə şərqilərdən çoxlu bilirmiş, onları oxuyub yurddaşlarında özünə qarşı sevgi duyğuları oyadırmış.

-Onda Femistokl*, yurddaşlarının sevgisini necə qazanmışdı?

-And olsun Zevsə, Femistokl bunun üçün şərqi oxumurdu, o eləcə yurddaşlarını ağ günə çıxarmaqla onların sevgisini qazanmışdı.

-Belə görünür, Sokrat, sən demək istəyirsən, hansısa yaxşı kimsəni özümüzə arxadaş tutmaq üçün, biz özümüz, sözdə də, işdə də yaxşı olmağa çalışmalıyıq, eləmi?

-Yoxsa sən düşünürsən, pis adam olub, yaxşı adamla arxadaş olmaq da olar?

-Mən çox görmüşəm, əlindən bir iş gəlməyən sözçülər(oratorlar) xalq yığıncağı başçıları ilə arxadaşlıq eləyirlər, bir də görürsən, kiçik bir qoşun bölüyünü yönətməyi bacarmayan birisi, qoşun başçısının sevimlisi olur.

-Beləsini necə, görmüsənmi: başqalarına yaxşılığı keçmir, ancaq ona yaxşılığı keçəsi adamlardan özünə arxadaşlar tuta bilir?

-And olsun Zevsə, beləsini görməmişəm,- Kritobul dedi.- Yaxşı, pis adam yaxşı adamı özünə arxadaş tuta bilməzsə, onda yaxşı adamlar necə biri-biriylə arxadaş olurlar?

-Səni çaşdıran bilirsənmi nədir, Kritobul?—bir çox ufutlu, başqasına yamanlıq eləməyən kimsələrin, öz aralarında yola getmədiklərini, biri-birilərinə pis üz göstərdiklərini görməyin!—adamı ağrıdan da odur, onlar biri-birinə qarşı bu elədiklərini, başqa alçaq kimsələrə qarşı eləmirlər.

-Təkcə ayrı-ayrı insanlar belə olsaydılar nə vardı, baxırsan, birdən dövlətlər də öz aralarında belə davranırlar; Görürsən, yüksək insanlıq dəyərlərindən dilboğaza qoymadan danışan dövlətlər də biri-biriylə didişirlər. Bunları gördükcə məndə yaxşı arxadaş tapmağa bir inamsızlıq yaranır. Pis adamların, birdən durub biri-birinə arxadaş deməsi də olur, ancaq mən buna inanmıram: yaxşılıq itirən, qayğı çəkməyi sevməyən, əldəgöz(təmənnalı), tanrıtanımaz, düşkün adamlar necə arxadaş ola bilərlər? Mənə elə gəlir, pis adamlar elə anadangəlmə, hamı ilə yağılıq eləmək üçün doğulurlar. Sənin də sözündən belə çıxır, yaxşı adamla da pislərin arxadaşlığı tutmur: arını yeyib, namusunu satan birisinin davranışını, ufutlu adam necə bəyənə bilər? İndi yaxşı adamlar da durub, dövlət qulluğunda birincilik qazanmaq üçün, biri-birindən üstün görünməkdən yana didişsələr, biri-birini gözləri götürməsə, yola getməsələr, onda hansı adamlar arxadaşlıq eləyəcəklər, kimlər bir-birinin yaxşılığına çalışacaq, biri-birinə güvənəcəklər?

-Düz deyirsən, Kritobul, bu çox çalpaşıq bir konudur. İnsanlarda anadangəlmə, biri-birinə yovuşma duyğusu vardır: onlar biri-birindən ayrı keçinə bilmirlər, biri-birinə acıyırlar, biri-birilərinə işlərində yardımçı olurlar, sonra bu qarşılıqlı yaxşılıqlardan duyğulanıb da doğmalaşırlar; ancaq insanların elə, anadangəlmə yağılıqları da olur:

nəyisə bu da, o da bəyəndimi, onu ələ gətirmək üçün biri-birini qırırlar; sözləri düz gəlmədimi, acıqları tutdumu, tutaşırlar; əldəgözlükdən, acgözlükdən araları dəyir, gözügötürməzlikdən biri-birini aşağılayırlar. Ancaq təkcə arxadaşlıq, araya girib, adamları ayıran bu keçilməzlikləri adlayıb, yaxşılıqsevər kimsələri doğmalaşdıra bilir. Yaxşılıqsevərlər, özlərinin toxgözlüyünə görə, axça qazanmaqda ölçü gözləyirlər, var-yatırı özlərinə yük eləməkdən qaçınırlar, başqalarının varında gözləri olmur; aclıq, susuzluq olarsa, onlar əllərində olan az-azacıq nə varsa, başqaları ilə bölüşürlər; kimlə gəldi yatağa girib, adlarını batırmaqdan çəkinirlər. Onlar düzlüklə, gözütoxluqla, biri-birinə əl tutub, birgə işləyə də bilirlər; birdən sözləri düz gəlməsə, onu da qanqaraçılıq salmadan, birgə gördükləri işi korlamadan yoluna qoyurlar, acıqlarının yüyənini buraxıb, özlərini sonradan utanacaqları durumlara salmırlar. Gözügötürməzlikdən daşına bilirlər, öz axçalarını arxadaşlarından əsirgəmirlər, arxadaşlarının varına da özününkü kimi yanaşırlar. Gözləmək olar, belə yaxşılıqsevər kimsələr dövlət qulluğunda da kimin hansı yeri tutmasına görə savaşmayacaqlar, yeri gələndə biri-birini yola verəcəklər. Kimlər, dövlət qulluğuna xalqdan axça oğurlamaq üçün girəvə kimi baxırsa, adamları sıxıntılara salıb özünün əyləncələrinə qapılırsa, onların alçaq, onursuz biriləri olduğu da bəlli, arxadaşlığa yaramayacağı da bəlli! Yox, birisi dövlət qulluğuna toplumdakı əyriliklərə qarşı dayana bilmək, arxadaşlarının düzlüyə bağlı işlərinə yardımçı olmaq, yurdunun gəlişməsinə yarayayacaq işlər görə bilmək üçün girəvə kimi baxırsa, nəyə görə belə kimsələr öz aralarında arxadaşlıq eləməyə çalışmasınlar? Özü kimi yaxşılıqsevərlərlə işbirliyi, arxadaşlarının işinə bir az da artıq yaramaq deyilmi? Özünə uyğun kimsələrlə işbirliyinə qatılmaq, yurda qulluq göstərməkdə, yurddaşlarının işinə yarımaqda onların gücünü birə-beş artırmazmı? Bir gimnastika yarışlarına baxın, tutalım, orada güclülərlə, onlardan geri qalanlar, öz aralarında anlaşıb, biri-birini ötməsələr, onda bütün ödüllər də onların hamısına çatmazdımı? Bu, sözsüz, gimnastika yarışlarının düzəninə görə yol verilməzdir, ancaq dövlət qulluğunda yurdun, yurddaşların yararı üçün, kimin kimlə olur olsun, işbirliyinə girməsi yasaqlanmayıb: yəni dövlət adamının işinin irəli getməsi üçün, onun,- yaxşılıqsevər kimsələrin arxadaşlığına güvənməsimi yararlıdır, yoxsa, onunla didişən adamların çevrəsində olmağımı? Başqa bir dövlətlə savaşa başçılıq eləməli olan kimsəyə də, onunla işbirliyində olan çoxlu yardımçılar gərəkdir, birdən yağılar öz yaxşı,

güclü adamlarını bir yerə toplaya biliblərsə, onda onlara qarşı savaşa - bacardıqca qat-qat artıq yaxşı adamların birliyi qarşı qoyulmalıdır. Kim belə bir iş birliyinə qoşulursa, onun yaxşılığını gözdə bilmək, qarşılığını verməyə çalışmaq gərəkdir, yoxsa o da özünə saymazlıq duyub, yaxasını qırağa çəkər. Ən düzgünü, azlıqda olan yaxşılarla işbirliyinə yönəlmək, onların işinə yaramağa çalışmaqdır, onlar yaxşılığı azlıq-çoxluq ölçüləri ilə dəyərləndirmirlər, onu unutmurlar da, yoxsa pislərin çox olmağına baxma, onlara olunan yaxşılığı az bir sürədə unudub, yenisini istəyirlər. Yox, Kritobul, sən bu işin ağırlığından qorxma, birincisi çalış, özün yaxşı adam olasan, bunu bacardınsa, onda özün kimiləri arxadaş olmaq üçün "ovlaya" bilərsən!

İstəsən, bu arxadaş "ovunda" mən sənin əlindən tuta bilərəm, bilməmiş olmazsan, mənim adamlarla doğmalaşmağa bir yanğım var: kiməsə bağlandımmı, var gücümlə çalışıram, özümə doğma sandığım adam da mənə eyni duyğular bəsləsin, kiminçün darıxırımsa, çalışıram o da mənim üçün darıxmağa başlasın, kiminlə oturub durmaq istəyirəmsə, onda da bu istəyi oyatmağa çalışıram. Bilirəm, bu işə başlayanda sən də, sadaladığım bu qarşılıqlı anlaşmalara gərəksəyəcəksən: gəl, məndən gizlətmə, kiminlə arxadaş olmaq istədiyini de, mən də bəyəndiyim kimsələrlə arxadaşlıq qurmaqdan qazandığım çoxillik öyrəncəmlə, sənə yardımçı olmağa çalışaram.

Kritobul qulaq asıb, dilləndi:

-Mən lap çoxdan, belə bir bilik qazanmaq istəyirəm, sonra bu biliklə də, istər gözəl könüllü, istərsə də gözəl bədənli kimsələrin ovuna çıxmaq istəyirəm.

Onda Sokrat dedi:

-Yox, Kritobul, mənim öyrətməmdə gözəl bədənli kimsələri ələ alıb, onlarla əylənməkdən danışılmır: Skilladan* da adamlar ona görə baş götürüb qaçırdılar, o qadın, pozğun istəklərilə kişiləri bezdirirdi; Sirenlər isə kimsəyə pis gözlə baxmır, əl atmır, uzaqdan-uzağa özlərinin gözəl şərqilərini oxuyurdular, elə bu şərqilərlə də dinləyənlərin könlünü ovlayıb, onları öz yanlarında saxlaya bilirdilər.

Bu yerdə Kritobul Sokratın söylədikləri ilə anlaşaraq, dedi:

-Kiməsə əl atmayacağıma söz verirəm; ancaq sən mənə arxadaş olmaq yollarını öyrət.

-Kimsəni öpməyəcəyinə də, söz verirsənmi?

-Qorxma, mənim onsuz da gözəl olmayanlarla öpüşmək öyrəncəm yoxdur.

-Bax indi, Kritobul, sən bir az danışdığımız konuya yaxınlaşmağa başlayırsan, görkəmcə, könülcə gözəl olan kişi başqa kişi ilə öpüşmək kimi pozğunluğu özünə sığışdırmaz, gözəl olmayanların içində isə buna yol verənlər olsa da, sən onlardan uzaq gəzəcəyinə söz verirsən.

Bu yerdə Kritobul sözü gülməyə saldı:

-Yaxşı da, mən gözəlləri öpərəm, yaxşıları lap öpüşlərlə boğaram: ona görə də qorxma, mənə arxadaş ovlamağı öyrət.

Onda Sokrat dedi:

-Kritobul, gəl sənlə belə anlaşaq: birisiylə arxadaş olmaq istəsən, olarmı mən onun qulağını doldurub deyim, sən onun vurğunusan, onunla arxadaş olmaqdan yana əldən-ayaqdan gedirsən?

-Lap yaxşı, mən bilən, bu sayaq danışsan, elə mənim yaxşılığıma şalışarsan.

-Birdən mən sözarası desəm, sən onun da özünə vurğun olduğunu düşündüyündən ona yaxınlaşırsan, bununla sənin adına qara yaxmaram?

-Yox, qorxusu yoxdur, onsuz da mənə yovuşmaq istəməyən kimsəyə, mənim də qanım qaynamır.

-Demək sən, arxadaş olmaq istədiyin kimsələrlə bu sayaq danışmağıma qarşı deyilsən; yaxşı, birdən mən sənin adından danışıb desəm: sən yaxşı arxadaş yolunda əməyə qatlaşmaqdan duyduğun sevinci, başqa bir işdən duya bilmirsən, arxadaşlarının sənə elədiyi yaxşılıqla, özünün onlara elədiyindən çox öyünürsən, onların uğuruna, öz uğurundan az sevinmirsən, yorulmadan arxadaşlarına uğur gətirəcək yollar düşünürsən, insanın ərdəmliyini, arxadaşlarına—onların elədiyindən artıq yaxşılıq, yağılarına—onların əlindən gələndən çox yamanlıq eləməsində görürsən, belə eləyərəmsə, düşünürəm, sənə yaxşı arxadaş ovlamaqda yardımçı ola bilərəm, deyilmi?

-Sən bunları məndən niyə soruşursan, - Kritobul dilləndi,- yoxsa, məni öyməyinə, kimsə yasaq qoyub, nədir?

-And olsun Zevsə, yox, günlərin birində Aspasiya* mənə bir söz demişdi, indi onu sənə deyim, özün hamısını başa düşərsən. Onun deməsinə görə: yaxşı elçi odur, elçilik elədiyi adamı, yalandan şişirtməyə çalışmır, sözün düzünü deyir, bununla da adamların

uğurla evlənə bilməsinə yol açır, yalançı öyünclər deyib, adamları biri-birinə doğmalaşdırmaqdan çəkinir, sonucda yalanın üstü açılıb, qudalar biri-biri ilə dalaşsalar, onların ikisinin də bu elçini görməyə gözləri olmayacağını anlayır. Məncə bu belədirsə, onda sənin üçün də kiməsə, sonradan düz çıxmayacaq söz deməyim yaxşı olmazdı.

-Ax, sən belə arxadaş imişsən, Sokrat!- Kretobul deyinməyə başladı.- Demək, məndə arxadaş olmağa yarayacaq dəyərlər varsa, sən mənə yardım edəcəksən, birdən bunlar məndə çatışmazsa, sən mənim yaxşılığım üçün, özündən nə isə qoşub deməyəcəksən?

-Mən sənə nə ilə artıq yaxşılıq eləmiş olaram, ay Kritobul: səni yalandan başqasına öyməkləmi, yoxsa sənə öyülməyə yaraşan birisi olmağı, aşılamaqlamı? Burada sənin üçün qaranlıq qalan nəsə varsa, onda səni anlatmaq üçün, deyəcəklərimə yaxşıca qulaq as. Bir anlıq düşün, mən səni hansısa gəmi yiyəsi ilə arxadaş eləmək üçün, ona yalandan deyirəm, sən yaxşı gəmi yönətimçisisən, o da mənə inanıb, öz gəmisini yönətməyi sənə tapşırır: belə olarsa, sən gəmini də, özünü də batırmazsanmı? Götürək elə dövlət işini, mən yurddaşların başını bişirib, onları yalandan inandırıram da, sən çox yaxşı qoşun başçısısan, onlar da yurdumuz dara düşəndə götürüb, səni qoşun başçısı qoyurlar: sən özünü də, dövləti də yaman günlərə salmazsanmı? Tutalım, mən adamları aldadıb deyirəm, sən ev-eşik işlərini yönətməyi yaxşı bacarırsan, onlar da buna aldanıb, götürüb ev-eşiklərini yönətməyi sənə tapşırırlar: onda sən əlindən iş gəlməyən birisi kimi, gülünc günlərə qalmazsannmı? Yox, Kritobul, ən kəsə, qorxusuz, düzgün yol - əməyə qatlaşıb, yaxşı bacarmaq istədiyin işi, bütün incəliklərinəcən öyrənməkdir. Sən adamların hansı dəyərlərinə görə ərdəmli sayıldıqlarını araşdırsan, onda görərsən, bu dəyərləri qazanmaq üçün, öncə onları öyrənmək, sonra da qan-tərə batıb özünü onlara öyrətmək, alışdırmaq üçün, gecə-gündüz çalışmaq gərəkdir. Mənim bildiyimə görə, Kritobul, biz özümüzdə yüksək insanlıq dəyərləri yetişdirmək üçün, bütün ömrümüz boyu çalışmalıyıq, yox, sən başqa bir yol bilirsənsə de, biz də bilək.

Bu yerdə Kritobul dedi:

-Yox, Sokrat, sənin bu sözlərini danmaq arsızlıq olardı: mən sənin bu sözlərinə qarşı çıxmaq istəsəm, pis üzünə salıb, düz sözü danmaq istəyən yaramazın birisi olardım.

VII BAŞLIQ

{Aristarxla, yaxınlarına necə yardım etməklə bağlı danışıq}

Arxadaşlarının ağır günlərində Sokrat onların işinə yaramağa çalışardı: bilməzlikdən bu günə qalan arxadaşlarına, düşdükləri durumdan çıxmaq üçün öyüdlər verərdi; yox, durumları yoxsulluq ucbatından ağırlaşsa, onlara biri-birinə gücüçatan yardımları etməyi öyrədərdi. Onun bu yöndə gördüyü işlərdən, bildiklərimi danışmaq istəyirəm.

Günlərin bir günü Sokrat, Aristarxın çox qanıqara olduğunu görüb soruşdu:

-Deyəsən sənin ürəyində ağır bir yük var, Aristarx, sən gəl onu arxadaşlarınla bölüş, ola bilsin az da olsa, sənin yükünü yüngülləşdirə bildik.

Aristarx dedi:

-Elədir Sokrat, yaman çıxılmaz duruma düşmüşəm. Bizim şəhərdə qarışıqlıq düşəndə, bacım, bacım uşaqları, əmiqızlarım qaçıb bura, mənim yanıma gəldilər, beləliklə də, indi mənim evimdə on dörd adam qalır. Bir yandan da gəlirimiz yox,-bu qarışıqlıqda torpağımız əlimizdən çıxdı, evlərimizi kiməsə yaşamaq üçün verib, axça qazana da bilmirik, qarışıqlığa görə adamlar qaçıb dağılışıblar, ev istəyən də yoxdur.

Əlimizdə qalan ev nəsnələrini alan yox, bilmirəm, axça almaq üçün kimin üstünə gedim, indi yoldan axça tapmaq, kimdənsə istəyib axça almaqdan qolay görünür. Sokrat, sözün düzü, belə getsə doğmalarım acından qırılacaqlar, bunu düşünüb yaşamaq isə çox ağırdır, ancaq bu çıxılmaz durumda onların qarnını doyurmaq üçün nəsə bir yol da tapa bilmirəm.

Sokrat onun danışığına qulaq asıb dedi:

-Onda Keramona necəsən, bir yığın adamı dolandırır, özünü də, onları da ürəyi istəyən kimi keçindirir, üstəlik əlində yetərincə axçası da var, sən nədən, öz doğmalarını acından qıracağından qorxursan?

-And olsun Zevsə, onun saxladığı qullardır, mənim yanımdakılar isə hamısı özgür adamlardır.

-Səncə, kimin ad-sanı uca olar, sənin yanındakı özgürlərinmi, yoxsa onun yanındakı qullarınmı?

-Düşünürəm, mənim yanımdakıların.

-Yaxşı, sən bundan utanmırsanmı, o öz yanındakı ad-sanı olmayan adamlara arxalanıb belə yaxşı yaşayır, sən isə bir bölük adlı-sanlı kimsələrlə belə yoxsul yaşayırsan?

-And olsun Zevsə, utanmağına utanıram, ancaq nə etməli, onun yanındakılar uzmanlardır(sənətkarlardır), mənimkilər isə özgürcə böyüyüb boya-başa çatmış adamlardır.

-Uzmanlar, yəni dəyərli bir iş görməyi bacaranlardır, deyilmi?

-Elədir, - Aristarx dedi.

-Səncə, unun nəsə bir dəyəri varmı?

-Deyə bilərəm, lap çox dəyəri var.

-Çörək bişirməyin necə?

-O da, çox dəyərli bir işdir.

-Kişi, qadın bürüncəkləri, köynəklər, döyüşçülər üçün sırıqlılar, işçi paltarları necə?

-Bunlar hamısı çox dəyərli sayılır, - Aristarx dedi.

-Yəni doğrudanmı, sənin yanındakılar bunlardan birinisə də düzəltməyi bacarmazlar?

-Ola bisin, lap hamısını düzəldə bilərlər.

-Yoxsa sən bilmirsən, bu işlərdən ancaq birini, yəni un çəkməyi bacarmaqla, Navsikid nəinki özünü, qulluqçularını da yaxşı dolandırır, hələ desən çoxlu donuz, inək də saxlayır, bunlardan qazandığından şəhərin işlərinə yarayacaq axçalar ayırmağı da çatdırır; çörək bişirməklə Kireb bütün ev-eşiyini olduqca gözəl keçindirir; Kolliatlı Demey - döyüşçü sırıqlıları tikir, Menon - incə qadın donları, meqarlıların çoxu isə işçi paltarları tikirlər, onların bu işiərlə necə yaxşı dolandıqlarını bilmirsənmi?

-And olsun Zevsə, düz deyirsən: onlar yadelli qullar alıb evlərində saxlayır, sonra da onları belə gözəl işlər görməyə qoşurlar, mənim evimdə yaşayanlarsa özgürdürlər, üstəlik də doğmalarımdır.

-Yəni doğrudanmı, onlar özgürdürlər deyə, bir iş görməməli, ancaq yeyib yatmalıdırlar? Başqa özgür yurddaşlarını görmürlərmi? Qıraqdan baxıb görməmiş olmazsan, səncə, kimlər yaxşı yaşayır, kimləri sən ağgünlü sayırsan,- sənin yanında işsiz-gücsüz gün keçirənlərimi, yoxsa gərəkli bir iş görüb başını dolandıranlarımı? Yoxsa sən elə sanırsan: gərəkli bir işi öyrənmək, öyrəndiklərini işdə yoxlayıb bərkitmək, sağlamlığını qorumaq üçün ərincəklik eləməmək, yaşama yarayan gərəkli nəsnələri yığıb toplamaq kimi işlərdən uzaq qaçmaq, işsiz-gücsüz gəzib, öz çörəyini qazanmaq üçün çalışanlara yuxarıdan aşağı baxmaq yaxşıdır,–ancaq əməyə qatlaşmaq, dolanışığının qayğısını çəkmək isə çox gərəksiz işlərdir? Sənin doğmaların bacardığı işləri nəyə görə öyrəniblər, hansı günə qoruyub saxlayırlar? Onlar bu öyrəndiklərini, yaşamlarına yararı olmayacaq biliklər olduğu üçünmü öyrənmişlər, yoxsa yeri gələndə onunla öz dolanışıqlarını qura bilmək üçünmü? Adamlardan işsiz-gücsüz gəzənəmi, yoxsa gərəkli bir işlə gününü keçirənəmi başadüşən kimsə deyirlər? Onlardan əməyə qatlaşanlarmı, yoxsa bir iş görməyib, ancaq oturub necə yaşamaq üçün boş düşüncələrə dalanlarmı, düzgün adamlar sayılmalıdır? Bu harasıdır, sənin danışdıqlarından sonra mən düşünürəm, nə sən doğmalarını sevirsən, nə də onlar sənə sayğı ilə yanaşırlar: sən onlara,–səni dartıb saxlayan yüyən kimi, onlar sənə,–yüklərini çəkməyi bacarmayan yük yabısı kimi baxırsınız. Buradan da bəllidir, getdikcə sizin aranızdakı bu soyuqluq artıb

yağılığa çevrilə bilər. Ancaq birdən, sənin yönəltməyinlə onlar işləməyə başlasalar, sən onları öz ocağının işinə yarayan doğmaların kimi sevməyə başlayacaqsan, sənin onların gördüyü işə baxıb sevindiyini görüncə, onlar da sənə sayğı duyacaqlar; sizlər biri-birinizə göstərdiyiniz bu qarşılıqlı yardımları andıqca, bir az da çox anlaşacaq, sizi biri-birinə bağlayan qan birliyinin, doğmalığın üstünlüyünü bir az da artıq duyacaqsınız. Birdən sənin doğmaların, - qadının adını batıran işlərlə axça qazanmağa girişərdilərsə, onların ölməyi bundan yaxşı olardı; ancaq göründüyü kimi, onların biliyi, bacarığı, bütünlüklə ar-namusa uyğun, qadın adına yaraşan, hamının dəyərləndirdiyi işlər görməyə yarayır; adamları bacardıqları işə qoş, onda görərsən onlar necə qolayca, yeyin, yaxşı, ürəklə işləyirlər. Beləliklə də uzun-uzadı düşünmədən onları, sənə də, özlərinə də gün ağlayacaq bir iş görməyə çağır; mən onların bu çağırışı, ürək açıqlığı ilə qarşılayacağına inanıram.

-And olsun tanrılara,- Aristarx dilləndi,- sənin bu öyüdlərin lap mənim ürəyimdən oldu, Sokrat; indiyəcən mən kimdənsə axça almağa ürək eləmirdim, bilirdim, onları dolanışığıma dağıdıb qurtarıb, sonra da qaytara bilməyəcəyəm; indi düşünürəm, hansısa işə başlamaq üçün bunu eləmək olar.

Bu danışıqdan sonra, Aristarx işə başlamaq üçün axça tapdı, yun alıb parça toxumağa, paltar tikməyə girişdilər, iş yerindəcə günorta yeməklərini yedilər, işi qurtarıb axşam yeməyi yedilər, çoxdan qaraqabaq dolanan doğmalarının üzü gülməyə başladı; bayaqdan biri-birinə yanakı baxan adamlar, biri-birinin gözünün içinə dik baxdılar; evinə sığınanlar Aristarxa, onlara arxa durduğuna görə, könül bağladılar, Aristarx da onları, ocağının işinə yarayan doğmaları kimi, ürəkdən sevməyə başladı. İşləri düzələndən sonra o, bir gün Sokratın yanına gəlib, indi necə yaxşı dolandıqlarını ona danışdı, sözarası, evindəkilərin gülməyə salıb, onun özünü bu evdə işləmədən dişləyən tək kimsə olmaqda qınamağa başladıqlarını da söylədi.

Onda Sokrat dedi:

-Onlar belə deyəndə, sən də onlara itlə bağlı qoşulan eşitdirməni(təmsili) danışardın. Heyvanlar danışmağı bacaran çağlarda, bir gün qoyunlar öz yiyələrinə deyirlər: “Sənin işindən baş açmaq olmur: biz sənə yun yetiririk, quzular doğuruq, ağartı veririk, sən isə bizim üçün bir iş görmürsən, yemimizi də örüşdən özümüz otlayırıq; bu

it isə, sənə gərək olan nəsə vermir, ancaq sən ona öz yeməyindən verirsən”. İt bunu eşidincə dilləndi: “And olsun Zevsə, o düz eləyir: sizləri kimsə oğurlamasın, qurd parçalamasın deyə, mən gecə-gündüz keşik çəkirəm; mən sizləri qorumasam, ölüm qorxusundan otlamağa da getməzsisniz”. Deyilənə görə bunu eşidən qoyunlar, itin düz dediyini boyunlarına alıb, ona böyük sayğı göstərməyə başladılar. Belə də de, sən də o it kimi, onları qoruyur, böyüklük eləyirsən, sənə görə onları kimsə incidə bilmir, onlar qorxusuz, qulağıdinc işləyib yaşayırlar.

VIII BAŞLIQ

{Evfer ilə, özünə necə iş seçməklə bağlı danışıq}

Bir gün Sokrat uzun sürədə görmədiyi, çoxdankı tanışı ilə üz-üzə gəldi:

-Haralarda qalmısan, görünmürsən, ay Evfer? - deyə Sokrat soruşdu.

-Savaş bitəndən sonra, mən yurddışından qayıdıb gəldim,- Evfer dedi,- indi buralardayam. Varım-yoxum, nəyim vardısa yurddışındaydı, hamısı əlimdən çıxdı, atam da Attikada* mənə nəsə qoyub getməyib: ona görə də yurda qayıdan gündən qara işlərdə çalışıb, dolanmaqdayam. Mənə elə gəlir bu, kimdənsə axça dilənməkdən çox-çox yaxşıdır, onsuz da elə axça götürmək üçün ödək(girov) qoymağa da nəyimsə yoxdur.

-Necə bilirsən, belə gündəlik çörək qazanmaqla yaşamağa, gücün çoxmu yetər?

-And olsun Zevsə, elə bilirəm, çox çəkməz.

-Öz aramızdır, sənə qocalanda da axça gərək olacaq, ancaq onda, gücün çatmadığı ücün, səni bu qara işlərə də götürməyəcəklər.

-Düz sözə nə deyəsən, - Evfer Sokratın dediyi ilə anlaşdığını bildirdi.

-Belədirsə, çalışıb indidən özünə elə iş tapmalısan, qocalığında da keçinə biləsən: eləyə bilərsən, bir varlı adamın yanında onun ev-eşyində yönətimçi olaraq işə düzələsən,

əkin-biçininə baxasan, taxıl yığımına yardım edəsən, var-yatırını qoruyasan, ona qazanc gətirəsən, özün də dolanışığından arxayın olasan.

-Bilirsən, Sokrat, düzünü desəm, belə bir qul əməyinə qatlaşmağı, özümə sığışdıra bilmirəm.

-Ancaq nədənsə dövlətə başçılıq eləyən adamlar, yurddaşlarının yaşamlarının, var-yatırlarının keşiyini çəkib, onların dolanışığını yönətsələr də, öz işlərini qul əməyi saymırlar, özlərinin də özgür yurddaşlarından yuxarıda dayandıqlarını düşünürlər.

-Bilirsən, Sokrat, mənim kiminsə qınağını eşitməyə, sözünü götürməyə, dözümüm yoxdur.

-Ancaq onu da biləsən, Evfer, qınaq eşitməyəcəyin bir iş tapa biləcəyinə də inanmıram: hansısa bir işi azacıq da olsa yanılmadan görmək olmur; yanılmasan belə, işini dəyərləndirəcək adamların içində yersiz danışan kimsələr tapılır, sənin indiki işində də kimdənsə qınaq eşitməməyin mənə doğrudan çöçün gəlir. Ona görə də, işləyəndə ağızdanyava adamların sözünü qulaqardına vurub, düz danışanlara qulaq asmaq gərəkdir; bir də gərək gücün çatan işin qulpundan yapışasan, gücün çatmayan işi boynuna götürməyəsən; girşdiyin işləri ürəklə, zirəkliklə görməyə çalışasan. Belə işləsən, onda qat-qat az qınağa tuş gələrsən, özünə yarayan iş tapıb, qocalığında da öz dolanışığından arxayın ola bilərsən.

IX BAŞLIQ

{Kritonla, sikofantlardan* necə qorunmaqla bağlı danışıq. Arxedem}

Mənə bəlli olan bir olayı da sizlərə danışmaq istəyirəm. Bir gün Sokrat, Kritonun yana-yana deyinib: bu Afinada adamı başını aşağı salıb, qulağıdinc işləməyə də qoymurlar, dediyini eşitdi.

-İndi,- o, deyinirdi,- məni ayrı-ayrı fırıldaqçılar gündə məhkəmələrə çəkib, işdən-gücdən qoyurlar, adamı yandıran da odur, mənim bir dənə də suçum yoxdur, bunların istəyi isə mənim başımı ağrıdıb, bezdirib, axça qoparmaqdır.

Sokrat ondan soruşdu:

-Mənə bax, Kriton, sən iti ona görə saxlayırsan, qoyunlarını qurddan qorusun, eləmi?

-Elədir, onları saxlamasam, qoyun saxlamaqdan da qazancım olmaz.

-Onda, nədən elə bir kimsəni qulluğa götürmürsən, başını ağrıdan bu adamlardan yaxanı qurtarsın?

-Ürəkdən elə bir qulluqçqumun olmasını istərdim, ancaq qorxuram, sonra o da mənim üstümə ayaq alıb, baş ağrısı verə.

-Bunu bilməyə nə var: sənin kimi adamla yaxşı davranıb, qarşılığında səndən axça qazanmaq yaxşıdır, yoxsa sənə başağrısı verib, yağı olmaq, nəsə qazana bilməmək? Mənim bu sözlərimə inan, Afinada səninlə arxadaş olmaqdan böyük sevinclər duyacaq çoxlu adamlar tapa bilərsən.

Bundan sonra Sokrat da Kritona qoşuldu, birlikdə axtarıb Arxedemi tapdılar, o, dildən iti, sözü kəsərli bir sözçü(orator, natiq), zirək bir adam idi, ancaq yoxsulluq içində yaşayırdı; korluq içində yaşamağının nədəni də: ona tapşırmaq istədikləri məhkəməlik işlərin yaxşı-yamanlığına, düz-əyriliyinə yanaşanda vasvasılıq eləməsi, alçaq yollarla axça qazanmağı özünə sığışdırmaması idi; O, ancaq düzgün saydığı işlərdə kiminsə hayına-harayına yetərdi, onu da deyərdi, bu sikofantları uduzdurub, axça qazanmaqdan da qolay bir iş yoxdur.

O gündən sonra Kriton, taxıl yığımında, yağ, çaxır, yun toplanışında, Arxedem üçün də pay ayırıb, ona göndərdi, tanrılara qurban verəndə, onu da yemək masasına oturtdu, bir sözlə, ona sayğı ilə yanaşmağa başladı. Arxedem də Kritonun evinə özünün sığınacağı kimi baxmağa, ona böyük sayğı ilə yanaşmağa başladı. Sonra Arxedem, Kritona qara yaxıb, onu bezdirən bir sikofantın çoxlu dolaşıq işlərini tapıb üzə çıxardı, onunla arası olmayam çoxlu kimsələri də tapıb, bu işə qoşdu; beləliklə bu adama qarşı özü məhkəmə açıb, onun suçlarını üzə çıxarıb, tutuqlatdı, üstəlik ona məhkəmədə, çoxlu görkolma(cərimə) axçası ödətdirdi. İndi artıq boğazacan dolaşıq-bulaşıq işlərdə əli olan bu sikofant, özü qaçıb Arxedemdən yaxasını qurtarmağa çalışırdı. Ancaq Arxedem də oçağacan ondan əl çəkmədi, o öz əli ilə gətirib, Arxedemə axça da verdi, bir də Kritonla işi olmayacağına da and içdi. Onun bu sayaq işləri yaxşı bacardığını görən arxadaşları, Kritona yalvar-yaxar eləyib, öz işlərini yoluna qoymaq üçün, Arxedemin onlara da yardım göstərməsini dilədilər; onların bu istəklərini: hansısa çobanın sürüsünü qurddan yaxşı qoruyan itinin olduğunu bilən qonşu çobanların da, öz sürülərini onun sürüsünün yaxınlığında otarıb, onun itinə arxalanmalarına da bənzətmək olardı. Arxedem uzun ullər, beləcə Kritonun da, onun arxadaşlarının da işinə yaradı, bundan o da, Kriton da böyük qazanclar götürdü. Kimsə Arxedemə ilişib, Kritondan axça qazandığına görə, ona yarınmaqda qınasaydı, o, deyərdi: “ Deyin görək, hansı yaxşıdır,- ərdəmli adama yaxşılıq eləyib, onunla arxadaşlıq eləmək, onun yağıları ilə çəkişmək, onları yerində

oturdub, bu işdən özünün də, qulluq göstərdiyinin də nəsə qazanması, yoxsa, yaxşı adamın işini əyməyə çalışmaq, onunla yağlıq eləmək, ona ilişən yaramazlara qoşulub, onların sırasında olmağı ilə tanınmaq?” O gündən sonra Arxedem, Kritonun ən yaxın arxadaşı oldu, onun başqa arxadaşlarının işlərinə də yarayb, onların da sayğısını qazandı.

X BAŞLIQ

{Diodorla, özünə necə arxadaş tapmaqla bağlı danışıq. Hermogen}

Sokratın yaxın yoldaşlarından olan Diodorla, belə bir danışığını da eşitmişdim.

-Diodor, mənə de görüm, sənin qulun qaçanda, onu tapıb, geri qaytarmaq üçün çalışırsanmı?-deyə Sokrat sözə başladı.

-Elədir, and olsun Zevsə,- Diodor dedi,- mən başqalarını da bu axtarışa qoşuram, onu tapıb qaytarana ödül də boyun oluram.

-Birdən qulun bərk ağrınırsa, onu sağaltmaq üçün axça ödəyib, həkim çağırırsanmı?

-Sözsüz, belə də eləyirəm.

-Birdən sənin tanışlarından birisi, sənə öz qulundan qat-qat çox yaxşılığı dəyə biləcək bir kimsə, yoxsulluq ucbatından acından ölmək qorxusu ilə üz-üzə qalsa, necə bilirsən, onu bu durumdan qurtarmaq üçün çalışmağa dəyər, yoxsa yox? Sən Hermogeni yaxşı tanıyırsan, bilirsən, o, yaxşılıqitirən adam da deyil, necə bilirsən, ona indiki bu ağır günüdə yaxşılıq eləsən, sonra da onun bütün ömrü boyu sənə yaxşılıq eləməyə çalışacağını görsən, bundan duyduğun sevincdən də böyük qazancın olarmı? Öz

aramızdır, sənə könüllü olaraq yardım göstərən kimsə, özü də səni ancaq yaxşı diləklərlə anan, sənə bağlı olan, ancaq sənin buyuruğuna görə yox, ürəyinin istəyi ilə sənə gərəkli olmağa çalışan, sənin gözündən yayınanları da gözdən qaçırmayıb, yaxşılığına çalışan kimsə - sənə çoxlu qullarının olmasından da irəli deyilmi? Var-yatırına yaxşı yiyəlik eləməyi bacaran adamlar deyərlər: "Çox dəyərli bir nəsnəni ucuz satırlarsa, onu əldən buraxmayıb, al!" Bunu da biləsən, yaşamın çox ağırlaşdığı indiki çağlarda, azacıq axça yatıraraq, çoxlu yaxşı arxadaşlar qazanmaq olar.

-Çox düz deyirsən, Sokrat,- Diodor dilləndi.- Hermogenə de, mənə dəysin.

-And olsun Zevsə, yox,- Sokrat onun sözünü tutmadı,- sənin böyüklüyünə yaraşan iş bu olardı, onu çağırmaqdansa, özün Hermogenə baş çəkəydin, mən bilən bu görüşün baş tutmasına o səndən az önəm verməz.

Beləliklə də, Sokratın dediyinə qulaq asan Diodor Hermogenin yanına getdi, azacıq axça qoyub, onun işlərini yoluna saldı, Hermogenlə arxadaşlığa başladı, bundan sonra Hermogen bütün ömrü boyu, sözdə də, işdə də ona yaxşılıq eləmək üçün əldən ayaqdan gedərdi.

ÜÇÜNCÜ KİTAB

I BAŞLIQ

{Dionisodorun öyrəncisi ilə, strateq görəviylə bağlı danışıq}

İndi isə mən sizlərə, Sokratın dövlət qulluğunda işləmək istəyənlərə verdiyi öyüdlərindən, bu işi dərindən öyrənməyi onlara necə aşıladığından danışmaq istəyirəm.

Bir gün Sokrat,- özünün strateqliyin bilicisi, onun ən yaxşı öyrətməni olduğunu deyib, səs-küy qaldıran, Dionisodor adında birisinin, Afinaya gəldiyini eşitmişdi. Sokrat öz dinləyicilərindən,- Afinanın strateqi olmaq umdusu ilə yaşayan birisinə, üz tutub dedi:

-Gənc arxadaşım, dövlətimizin başında dayanmaq istəyənlər üçün, strateqliyi öyrənməyə belə gözəl bir girəvə yaranmışkən, sən nədən yaxanı qırağa çəkirsən? Dövlət gərək sənin kimilərini, yəni öz gələcək işinin incəliklərini öyrənməyə belə başısoyuq

yanaşanları tutub damlasın, birdən kimsə heykəl yonmaqdan başı çıxmadan, adamları aldadıb onlardan heykəl yonmaq üçün axça alırsa, onu da belə bir yaman gün gözləyir. Eləcə də savaş başlayanda, dövlət öz varlığını qorumağı bütünlüklə strateqin əllərinə tapşırır, strateq düzgün işləyə bilirsə, dövləti uğura çatdırır, onun yanlışından dövlət yaman günlərə qalır. Ona görə də, bu işi dərindən öyrənməyib, özünün strateq seçilməsinə çalışan adamlarla da, oğru-quldurluq üstündə tutulan kimsələrlə olduğu təki davranılmalıdır.

Bu sözləri ilə Sokrat, gənci Dionisodorun yanına, strateqliyi öyrənməyə getmək üçün inandıra bildi.

Gənc öz öyrənciliyini başa vurub qayıdandan sonra, Sokrat onunla üz-üzə gələndə, sözü gülməyə salıb soruşdu:

-Homer, Aqamemnonu başıuca kimsə adlandırırdı, sizə elə gəlmirmi, arxadaşlar, o, bu başıucalığa, strateqliyi öyrənəndən sonra çatmışdı? Kifara çalmağı öyrənən birisi, onu çalmadığı anlarda da kifaraçı sayılmırmı? Tutalım, həkimliyi öyrənən birisi, kimisə sağaltmamışdan da həkim sayılırsa, deməli, gənc arxadaşımız da strateqliyi öyrəndiyi üçün, onu indilikdə bu görəvə seçməsələr belə, bu gündən strateq sayılmalıdır. Kimsə həkimliyi, strateqliyi öyrənməyibsə, ancaq bütün xalqın yığışıb onu bu görəvə seçməsini umursa, bundan onlar nə həkim olasıdır, nə də strateq.

İndi, gənc arxadaşım, yeri gələndə savaş işlərindən yaxşı baş açıb, sənin əlinin altında döyüşə bilməyimiz üçün, bizi də bir az öyrət, birinci ondan danış, sənin öyrətmənin Dionisodor strateqliyi öyrətməyi nədən başlamışdı?

-Nədən başlamıdısa, - gənc dilləndi,- onunla da qurtarmışdı: mənə ancaq taktikanı öyrətdi, özgə nəsə anlatmadı.

-Bildiyimiz kimi taktika, strategiyanın kiçicik bir bölümüdür. Strateq savaş aparmaq üçün gərəkən çoxlu işləri yoluna qoymağı bacarmalıdır, ordununun azuqunu toplamalı, yaranmış durumlardan yaxşı baş açmalı, yorulmaz, qayğı çəkən, dözümlü, gözüaçıq olmalıdır; bundan başqa onun kimliyində: yumşaqlıq da amansızlıq da, sayalıq da çoxbilmişlik də, ölçü-biçilik də saymazyanalıq da, əliaçıqlıq da əldənbərklik də,- yağı üzərinə yeriyəndə isə,- götür-qoyluluq da qorxubilməzlik də,–bir sözlə, biri-biriylə uyuşmayan çoxlu belə dəyərlər olmalıdır; bir də yaxşı strateq olmaq üçün insanın,–

biriləri anadangəlmə, o biriləri sonradan qazanılan çoxlu üstünlükləri də olmalıdır. Taktiki gedişlər eləməyi bacarmaq da, çox gərəkli bir işdir, örnək üçün, yaxşı düzülmüş qoşunla, başıpozuq səpələnmiş qoşun, biri-birindən seçilirlər: daşı, kərpici, ağac dirəkləri, savalları(kirəmidləri), necə gəldi, biri-birinin üstünə yığsaq, işə yaramayan bir qalaq alınır, ancaq bu deyilənləri, öz yerinə görə düzə biləndə, olduqca dəyərli bir tikili,–ev yaranır.

-Elədir, Sokrat, sənin bu bənzətmən çox yerindədir, - gənc dedi.- Savaşda da, ön ilə arxa sıralarda yaxşı döyüşçüləri, orta sıralarda isə bacarıqsız döyüşçüləri düzürlər, öndəkilər bunları arxalarınca çəkib aparır, arxadakılar isə qabağa itələyirlər.

-Bu düz, - Sokrat dilləndi,- ancaq öyrətmənin, yaxşı ilə pis döyüşçünü necə ayırd eləməyi sənə öyrətməyibsə, onda sənin bu biliyin, bir qara quruşa da dəyməz. Birdən sənə, altdan da, üstən də düzgün, ortadan yalançı gümüş külçələri düzməyi tapşırsalar, sən də düzgünlə, yalançı gümüşü ayırd eləməyi bilməsən, onda bu işi necə görərdin?

-And olsun Zevsə, öyrətmən bizə döyüşçüləri yaxşı-pisliyinə görə sağ-çürük eləməyi öyrətməyib, görünür, yeri gələndə, belə bir seçimi özümüzün aparmalı olduğumuzu sanıb.

-Yaxşı, onda gəl, sənlə belə bir konuya baxaq: onları ayırd edəndə çaşmamaq üçün nə etməli?

-Gəl, baxaq.

-Tutalım, biz bir bölük adamla, axça kömlüyünü(xəzinəsini) talamağa getmək istəyirik: ön sıraya acgöz kimsələri düzsək, bölüyümüzü yaxşımı düzmüş olardıq?

-Mənə elə gəlir, bu düz olardı.

-Qorxulu, ölüm-itimli döyüşə gedənlərlə necə etməli? Ön sıralara öz adını uca tutanlarımı düzməliyik?

-Elədir, - gənc dedi, - belələri öz adlarını batırmamaq üçün qorxuya üstün gəlməyi bacaran döyüşçülərdir; savaşın qələbəliyində də onlar gizlənməyib göz qabağında olacaqlar, döyüşün gedişində onları yönətmək də qolay olacaq.

-Yaxşı bunu bildik, - Sokrat dilləndi. - Öyrətmənin sənə qoşunu düzməkdən başqa nə öyrədib, döyüşdə ayrı-ayrı qoşun bölüklərinin görəcəyi işləri anladıbmı?

-Yox, bundan da bir söz deməyib.

-Yaranmış durumlara görə, qoşunu necə düzməyi, ayrı-ayrı qoşun bölüklərinə hansı tapşırıqları verməyi bacarmadan, savaşda uğur qazanmaq da baş tutası iş deyil.

-And olsun Zevsə, o belə konuları bizə öyrətməyib.

-Elədirsə, yenidən onun yanına qayıdıb soruş: o, utanmaz adam deyilsə, bu danışdıqlarımızı bilirsə, onda bunları sənə niyə öyrətməyib, nədən axça alaraq, işinə yaramayacaq yarımçıq biliklərlə səni yola salıb?

II BAŞLIQ

{Strateqin görməli olduğu işlərlə bağlı danışıq}

Bir gün necə oldusa, Sokrat artıq strateq seçilmiş birisi ilə üz-üzə gəldi.

-Necə düşünürsən, - Sokrat ondan soruşdu,- Homer nədən, Aqamemnona xalqların çobanı adını vermişdi? Çoban gərək çalışa qoyunları qırılmasın, onların yemi bol olsun, sonra da onlardan yararlana bilsin, bunun kimi də, strateq döyüşçülərinin sağ qalmasına, onların qarnının tox olmasına çalışmalı, sonra da bundan yararlanıb, yürüşdə uğur qazanacağına güvənməlidir, deyilmi? Yürüşə isə yağını yenməkdən başqa, ələ keçənləri yağmalayıb, varlanmaq üçün də gedirlər. Yoxsa, Homer Aqamemnonu belə sözlərlə öyərdimi:

O bir yaxşı xaqan idi, savaşlarda süngüsünü, düz tuşlayıb atardı.

Homer ona, yağıyla təkbaşına, yaxşı döyüşməyi bacardığına görəmi, güclü süngü(nizə) atan deyir, yoxsa, başında dayandığı qoşunu yaxşı yönətə bildiyinə, ona savaşmaq üçün çılğınlıq aşılaya bidiyindən yana, belə deyir? Yoxsa, Homer bunumu demək istəyirdi: xaqanın yaxşılığı təkcə onun öz yaşamını gözəl qurmasında yox, bir də başçılıq elədiyi kimsələri yaxşı dolandıra bilməsindədir? Doğrudan da, kimisə xaqanlığa təkcə ona görə seçmirlər, o ancaq özü üçün çalışsın, bir də ona səs verənləri yaxşı dolandıra bilməsi üçün seçirlər; adamlar savaşa da, öz yaşamlarını ağırlaşdıa biləcək nədənləri aradan qaldırmağa görə gedirlər; strateqləri də ona görə seçirlər, bu işi görməyə yarayan ən

düzgün yolu göstərsin. Beləliklə də strateq, onu seçənləri ağ günə çıxarmağı bacarmalıdır: bunu eləyə bilirsə başucalığına çatır, eləmirsə adını batırır.

Yaxşı başçının üstünlüyünün nədə olduğunu araşdıran Sokrat, onun görməli olduğu bütün çoxyönlü işlərini bir qırağa qoyub, ən başlıcasını götürürdü – başçılıq elədiyi adamları ağ günə çıxarmaq!

III BAŞLIQ

{Hipparxın* görməli olduğu işlərlə bağlı danışıq}

Hipparx seçilmiş birisi ilə, Sokratın bu danışığını da eşitmişdim.

-Gənc arxadaşım, sən nədən hipparx olmaq istədin, bunu bizə danışa bilərsənmi? Düşünürəm, təkcə atlı qoşun bölüyünün başında çapıb getmək üçün yox, başlıcası bu deyil, ona qalsa, atlı qoşunun ox atanları da, öz başçılarından öndə çapıb gedirlər?

-Düzdür, - hipparx seçilən gənc dedi.

-Yəni başqalarının səni tanıması üçün də seçilməmisən, yoxsa dəliləri də hamı barmaqla göstərir?

-Bunu da düz deyirsən.

-Deməli sən, say-seçmə atlı qoşun yaradıb, onu dövlətin savaş işlərinə çox yaxşı yarayacaq bir duruma gətirəcəyinə inanırsan, eləcə də, yağı basqını olarsa, bu yaratdığın qoşunun başında dayanaraq, yurdu qorumaq istəyirsən, eləmi?

-Elədir.

-And olsun Zevsə, sən bunu bacara bilsən, çox gözəl iş görmüş olarsan! Sən bu görəvə seçilmisənsə, deməli, indi sənin əlinin altında atlar da, atlılar da var, eləmi?

-Var!

-Onda lap öncə, bizə de görək, atların savaşa yaxşı yaraması üçün nə edirsən?

-Mən buna baş qoşmuram, düşünürəm, bunun qayğısını atların minicisi olacaq döyüşçülər özləri çəkməlidir.

-Birdən, gərək olan anda, sənin atlıların—gücsüz, axsaq, ayaqlarını soyuq vurmuş, bir yerdə dayanmağa öyrədilməmiş, şıllaq atıb sıranı qarışdıran atlarla yanına gəldilər, belə atlı qoşunla döyüşə girməyə dəyərmi? Sənin belə sınıq-salxaq atlı bölüyünə başçılıq eləməyinə, yurda qulluq göstərmək demək olarmı?

-Sən düz deyirsən, mən indən belə, atların sağlamlığı qayğısına qalmağa çalışacağam.

-Atlı döyüşçülərinin savaş bacarıqlarını artırmaq üçün çalışırsanmı? İlk olaraq onlara, yaxşı at çapmağı öyrədirsən, eləmi?

-Elədir, bu çox gərəkli işdir, yoxsa savaş çağı kimsə atdan yıxılarsa, bu da elə itki deməkdir.

-Birdən savaş başlasa, sən öz atlılarına: yağını qumluq bir yerə çəkib aparmağı, onunla orada savaşmağımı buyuracaqsan,- mənim bildiyimə görə, siz döyüş öyrənmək çalışmalarınızı, ancaq qumluq yerdə aparırsınız,- yoxsa, öz atlı qoşununa başqa yerlərdə döyüşə bilməyi də öyrədirsən?

-Sözün düzü, bunu düşünməmişdim, ancaq sən deyən kimi eləməyə çalışıram, bu döyüşdə işimizə yarayar.

-Döyüşçülərinə, at çapa-çapa yaxşı süngü atmağı, öyrədirsənmi?

-Bu da yaxşı sözdür, çalışaram öyrənsinlər.

-Döyüşçülərinin ürəklərini, döyüş üçün necə coşdurmağı bilirsənmi, onlara yağıya qarşı amansız olmağı aşılayırsanmı? Bəlli olduğu kimi, bu onların gücünü artırır, döyüşdə də qat-qat artıq qorxmaz eləyir.

-Yox, ancaq indən belə buna da çalışaram.

-Atlı döyüşçülərini, sənin buyuruqlarını sözsüz yerinə yetirməyə öyrədirsənmi? Axı bunsuz nə yaxşı atın, nə də qorxmaz döyüşçünün bir dəyəri var.

-Bunu da düz deyirsən, Sokrat, ancaq bunu onlara necə aşılamağı bilmirəm.

-Bunu bilməmiş olmazsan, adamlar ancaq özlərindən üstün saydıqları kimsələrə qulaq asırlar. Deyək, bərk ağrınan adam, ən yaxşı saydığı həkimin sözünə, gəmidəkilər -

ən yaxşı yönətimçinin sözünə, torpaqla bağlı iş görənlər,- ən yaxşı əkinçinin sözünə qulaq asırlar.

-Bunu bilirəm.

-Onda belə çıxır, atlı qoşun bölüyündə də, bu işi hamıdan yaxşı bilən kimsənin sözünü, başqasından yaxşı eşidəcəklər.

-Yaxşı Sokrat, mənim bu işdə üstünlüyüm bəlli olarsa, bu onların, mənim buyuruqlarımı sözsüz yerinə yetirməsi üçün yetərli olacaqmı?

-Olmağına olacaq, ancaq bundan başqa da, döyüşçülərini: sənin buyruqlarını sözsüz yerinə yetirərlərsə, ölümdən qurtulacaqlarına, uğur qazanacaqlarına da inandıqmağı bacarmalısan.

-Onları buna necə inandırmalıyam?

-And olsun Zevsə, çox qolayca, sən onlara nəyin yaxşı, nəyin pis olduğunu başa sala bilsən yetər.

-Sən demək istəyirsən, hipparx, bütün başqa işlərdən başqa, bir də kəsərli danışmağı da bacarmalıdır?

-Yoxsa sən elə bilirdin, atlı qoşuna susub durmaqla da başçılıq eləmək olar? Bax belə bir konuda düşündüyün olubmu: ulularımızın ötədən-bəriyə qazandıqları dəyərli bilikləri öyrənə-öyrənə, biz öz yaşamımızı qat-qat yaxşı qurmağa başlayırıq, ancaq bu gözəl bilikləri də, sözlərin yardımı olmadan öyrənmək olmaz; hansısa bilimi(elmi) götür, onun öyrətdiyi bilgiləri ancaq sözlə açıqlamaq olur; yaxşı öyrətmən,- kəsərli, yerinə düşən sözlərlə danışmağı bacaran kimsələrdən olur; kim çoxlu gərəkli biliklər öyrənir, o da gözəl danışır, deyilmi? Yoxsa bilmirsən, neçə illərdir ancaq bizim afinalılardan düzəlmiş xor Delosa*, başqa bir yerə getsə, başqa şəhərlərdən gəlmiş xorların hamısını üstələyir, bu isə bizim bu işə yaxşı yiyələnə bildiyimizi göstərir, yoxsa kim deyə bilər, başqa şəhərlərdə də bizdəki kimi, yaxşı səsi olan gözəgəlimli kişilər yoxdur?

-Mən də elə düşünürəm.

-Öz aramızdır, afinalılar başqa şəhərlilərdən nə səslərinin artıq gözəl olmasıyla, nə boy-buxunları, nə də güclü olmaları ilə seçilirlər, onları belə yenilməz eləyən ancaq bu işdə, öz adlarını uca tutmağa öyrəncəli olmalarıdır, onları birincilik qazanmağa yönəldən gücün qaynağı da elə budur.

-Bunu düz deyirsən.

-Necə düşünürsən, bizim atlı qoşunla da bu sayaq çalışan olsa, onda bizim döyüşçülərimiz də öz yaraq-yasaqları, atları, düzənə uyarlığı, yağılarla savaş bacarığı ilə, hamıdan üstün olmazlarmı, bunun üçünsə onların elliyini, öz ad-sanlarnı uca tutmağa alışdıra bilmək yetərli olmazdımı?

-Büsbütün düz deyirsən, Sokrat!

-Onda gecikmədən, - Sokrat dedi,- öz atlılarında belə duyğuları oyandırmağa giriş, bundan sən də qazanacaqsan, ancaq bunu bacarsan, qat-qat artıq qazanan bütün yurddaşlarımız olacaq.

-And olsun Zevsə, günü bu gündən, bunun üçün bütün varlığımla əlləşib-vuruşacağam,- deyə gənc sevinclə səsləndi.

IV BAŞLIQ

{Nikomaxidlə, strateqin dirilikçidən(təsərrüfatçıdan) ayırd edilməsi ilə bağlı danışıq}

Bir gün Sokrat, seçkidən qayıdan Nikomaxidi görüb soruşdu:

-Sən bilərsən, Nikomaxid, kimi strateq seçdilər?

-Sən bu afinalıları tanımırsanmı, Sokrat? - Nikomaxid söyləndi. - Məni seçmədilər, baxmayaraq mən, ordu qulluğunda bütün gücümü, nəyim varsa qoymuşam, loxaq* da olmuşam, taksiarx* da, yağılarla döyüşdə saysız yaralar almışam.

Burada o, köynəyini qaldırıb, aldığı yaraları göstərdi, sonra sözünün ardını gətirdi:

-Antisfeni seçdilər, o nə yayaq(piyada) qoşunda qulluq eləyib, nə atlı qoşunda sayılıb-seçilən döyüşçü olub, yaxşı bacardığı bir iş varsa, o da axça qazanmaqdır!

-Bunun nəyi pisdir?- Sokrat ona dedi.- Demək, onun döyüşçülər üçün gen-bol azuq toplamaq bacarığı vardır.

-Alverçilər də axça qazanmağı yaxşı bacarırlar, ancaq buna görə onları strateq seçmirlər.

-Bildiyimə görə, Antisfendə bundan başqa da, strateqlik görəvinə çox yarayan, öz ad-sanını yerə vurmamaq, başını uca tutmaq ərdəmliyi də var, bilməmiş olmazsan o, dönə-dönə xoreq* olmuş, hamısında da öz xoru ilə başqalarını üstələmişdir?

-And olsun Zevsə, xoru yönətməklə, qoşuna başçılıq eləmək, biri-biriylə uyğun gəlməyən işlərdir.

-Ancaq burası da var, Antisfenin nə yaxşı oxumaq bacarığı var, nə də xor yönətməklə bağlı biliyi yoxdur, bununla belə o, gözəl oxuyanları tapıb bir yerə yığa bilmişdi.

-Demək istəyirsən, o strateq olaraq da, öz yerinə qoşunu yönətəcək, vuruşacaq adamları tapa biləcək, eləmi?

-O, savaşla bağlı işlərdə də, xoru yönətəndə elədiyi təki, bu işi yaxşı bacaran adamları tapıb yanına toplayacaqsa, burada da onun uğur qazanacağına söz ola bilməz; bir də o, savaşda uğur qazanmağa bir az da artıq önəm verəcək, bu işdə təkcə özündən yox, dövlətin axçasından da yararlana bilməsi onun əlini-qolunu açacaq, necə olsa xorda üstünlük qazananda onun arxasında təkcə öz uruğu(tayfası) dayanırdı, burada isə dövlət boyda arxası-dayağı olacaq.

-Sokrat, yəni sən demək istəyirsən, bir adam xoru da yaxşı yönətə, qoşuna da yaxşı başçılıq eləyə bilər, eləmi?

-Mən ancaq onu deyirəm, bu işləri yönətən kim olur olsun, o yaranan duruma görə nəyi necə eləməyi gərəyincə bilirsə, ondan yaxşı başçı çıxacaq, - istər xor olsun, istər ev, dövlət, istərsə də qoşunu yönətmək!

-And olsun Zevsə, mən düşünməzdim, sən yaxşı dirlikçini(təsərüffatçını), yaxşı strateqlə bir tutasan!

-Elədirsə, onda gəl onların görməli olduqları işlərə baxaq: görək bunlar biri-birinə uyğun gəlir, yoxsa büsbütün ayrı-ayrı işlərdir.

-Sözüm yoxdur, gəl baxaq.

-Bax belə, öz işçilərinə dediklərini eşitməyi, buyuruqlarını sözsüz yerinə yetirməyi aşılamağı, onlar ikisi də bacarmalı deyilmi?

-Elədir.

-Adamları bacarığına görə ayırd edib, sonra iş tapşırmaq necə?

-Bunda da uyğunluq var.

-Pis işçini sıxışdırıb tərpəşdirmək, yaxşı işçinin axça ilə ürəyini alıb, qol-qanad vermək necə, ikisinin də belə bacarığı olmalıdır, yoxsa yox?

-Bu da düzdür.

-Öz işçilərinə ürək yandırmağı, onların qayğısına qalmağı, ikisi də bacarmalı deyilmi?

-Bunu da düz deyirsən.

-Özü ilə iş birliyinə yarayası kimsələrlə anlaşmağı bacarmaq, sonra da çoxlu işəyarayan yardımçılarının olmasına çalışmaq, ikisi üçün də varmı?

-Sözsüz, vardır.

-Əldə olanları qoruyub saxlamaq, ikisinin də işi deyilmi?

-Məncə də elədir.

-Bütün işlərinə ürəyiyananlıqla, əməksevərliklə, çalışqanlıqla girişməyi, ikisi də bacarmalı deyilmi?

-Bunu da düz deyirsən, ancaq yağı ilə savaşa çıxmaq, ikisinin də görəcəyi iş deyildir.

-Ancaq ikisinin də yağısının olduğu düzdür?

-Bu belədir.

-Onları yenmək, ikisinə də gərək deyilmi?

-Bu düzdür, ancaq sən mənim bu sorğumdan yayınırsan: yaraq-yasaqla vuruşmaq gərək olanda, burada dirilikçi olmağın ona nə yararı olacaq?

-Burada olduqca çoxlu yararlardan söz açmaq olar,- Sokrat dilləndi.- Yaxşı dirilikçi gözəl bilir, yağını savaşda yenməkdən də qazanclı bir iş ola bilməz, uduzmaq isə böyük itkilər vermək deməkdir, ona görə də uğur qazanmaq üçün bütün bilik-bacarığını toplayıb, var gücü ilə savaşa atılacaq; onu uduzdura biləcək bütün nəsnələri, dərindən-dərinə götürqoy edib onlardan qaçmağa çalışacaq; görsə, əlinin altında olan güclə yağını yenmək olar, onda var gücünü toplayıb döyüşə girəcək; yağını yenməyə gücünün yetməyəcəyini bilərsə, savaşa qatılmaqdan çəkinib, itkilərə uğramaqdan da qoruna biləcək.

Sən gəl, yaxşı dirilikçilərə belə yuxarıdan aşağı baxma, Nikomaxid! - deyə Sokrat sözünün ardını gətirdi.- Öz evinin diriliyinə bacarıqla böyüklük eləmək, dövlət işlərini yönətməkdən olsa-olsa görülən işin böyük-kiçikliyinə görə ayrılır, ancaq bütün başqa yönlərdən yanaşanda, onlar biri-birinə çox oxşayır; ən başlıcası, onların ikisində də adamlarsız keçinmək olmur, bundan da önəmlisi, bu işləri görəcək adamların hamısının bir toplumun yetişdirmələri olmasıdır, dövlət işində işləyən özüylə haradansa ayrı adamlar gətirmir, dirilikdə işləyən də, elə bu adamlarla işləməli olur. Kim adamlarla yaxşı davranmağı bacarır, o öz diriliyində də, dövlət işində də uğur qazanır, kim bunu bacarmır, ikisində də yarıtmaz işləyir.

V BAŞLIQ

{Oğul Perikllə, afinalıların durumu ilə bağlı danışıq}

Bir gün Sokrat adlı-sanlı Periklin oğlu olan gənc Perikli görüb, onu danışığa tutdu.

-Mənə elə gəlir, Perikl, -Sokrat belə başladı, - sən yaxınlarda strateq olsan, yurdumuz savaşla bağlı işlərində çox güclənər, ad-san qazanar, yağılarının hamısını yenə bilər.

-Elə mən də bunu umuram Sokrat,- Perikl dedi, - ancaq indidən deyə bilmərəm, bunu bacararam, yoxsa yox.

-İstəyirsən, elə bundan da danışaq, baxaq görək, bunu bacarmaq üçün nələrdən yararlana bilərik?

-Çox yaxşı, gəl danışaq.

-Sən bilməmiş olmazsan, afinalıların sayı beotiyalılardan az deyil, eləmi?

-Elədir, çox olar, az olmaz.

-Necə bilirsən, güclü, yaraşıqlı kişilər Afinada çox olar, yoxsa Beotiyada?

-Elə bilirəm Afinada az olmaz, çox olar.

-Adamların biri-biriylə yaxşı yola getməsinə görə, necə?

-Afina bunda da Beotiyadan üstündür, Beotiyada çoxları, onlara sığınmış fivanlılara yuxarıdan aşağı baxırlar, onlarla didişirlər; Afinada belə bayağılıqlar görməzsən.

-Bundan başqa, afinalılar deyərdim, yer üzündə öz adlarını ən uca tutan, özlərinin yerini tanıyan kimsələrdir; belə duyğularla yaşayan adamlar isə, adlarını da, Yurdlarını da qorumaq üçün ölüm-dirim savaşından çəkinməzlər.

-Düz deyirsən, belə işlərdə kimsə afinalıları qınaya bilməz.

-Bundan başqa, ulu babalarımızın göstərdiyi igidliklər elə böyükdür, sayagəlməzdir, bunda da kimsə afinalılardan üstün ola bilməz; bu isə onların ürəklərini qanadlandırır, qorxmazlığa, ərənliyə yönəldir.

-Bütün bunları düz deyirsən, Sokrat; ancaq minbaşı Lebadinin Tolmidada, bundan sonra Hippokratın başçılığı ilə Delidə yenilməyimiz, afinalıların ad-sanını beotiyalıların qarşısında aşağı salmışdır, iş o yerə gəlib çatıb, fivanlılar da bizə yuxarıdan aşağı baxmağa başlayıblar: spartalıların, başqa peleponneslilərin yardımı olmadan, öz ölkələrində belə afinalıların qarşısına savaşla çıxmağa ürək eləməyən bu beotiyalılar, indi Attikaya təkbaşına basqın edəcəkləri ilə bizə qara-qorxu gəlməyə başlayıblar; keçmişlərdə Beotiyanı darmadağın eləyən afinalılar, indi beotiyalıların Attikanı yerlə bir eləməsindən qorxub çəkinirlər.

-Bunun belə olduğunu mən də bilirəm,- Sokrat dilləndi,- ancaq ötən çağların sınaqlarından örnək götürəndə, afinalıların bu gün yaxşı bir başçı taparlarsa, ona qat-qat artıq sayğı göstərəcəklərinə də inanıram. Yersiz mənəm-mənəmlikdən törəyən başıpozuqluq, adamları sıxıntılara salıb sarsıdır, onların arasında çaşqınlıq, ürkəklik, özbaşınalıq yaradır, belə bir qorxunc durumun yaratdığı özünüqoruma duyğusu isə adamları yenidən: gözüaçıq, sözəbaxan olmağa, yasalara uyğun yaşamağa yönəldə bilər. Bunu dənizçilərin gəmidəki davranışları ilə də tutuşdurmaq olar: onların nədənsə qorxusu olmayanda bir arxayınçılıq, düzənsizlik içində yaşayırlar; ancaq fırtına qopanda, yağı basqısı olanda, onlar təkcə başçının verdiyi bütün buyuruqları çaparaq yerinə yetirməklə qalmırlar, bir də gərginlik içində susub, ayıq-sayıq dayanıb, veriləcək sonrakı buyuruğu gözləyirlər, belədə lap, deyiləni bir himdən anlayan xora oxşayırlar.

-Tutalım, afinalılar indi onlara başçılıq eləyəcək bacarıqlı bir kimsənin buyuruğundan çıxmayacaqlar; onda sən gecikdirmədən bizə anlat görək, onların ürəyini necə alovlandıraq da, ötən çağlardakı kimi qorxmaz, adlarını uca tutan kimsələrə çevrilsinlər, birləşməyə, çiyin-çiyinə verməyə çalışsınlar.

-Bax belə, - deyə Sokrat sözə başladı,- tutalım, biz afinalıları başqasının var-yatırını, torpağını əlindən almağa çağırsaydıq, gərək öncə, bütün bunların ata-babadan qalıb onlara çatası nəsnələr olduğunu, ancaq sonradan başqalarının girəvəyə salıb bunları qapıb aldığını, onların başına yeridəydik, bundan sonra bunları geri qaytarmağın gərəkliyini də anladaydıq. Yox, birdən biz istəyiriksə, onlar qorxmazlıqda, igidlikdə üstün olsunlar, onda gərək bu sayaq yetkinliklərin ötədən bəriyə onların ata-babalarından qalma, indi əldən çıxmış dəyərlər olduğunu onlara aşılayaq, bundan sonra, onları da öz uluları təki hamıdan üstün olmaq üçün, unutduqları bu dəyərləri özlərinə qaytarmağa inandıraq.

-Bütün bu dediklərini, onlara necə öyrətmək olar?

-Elə bilirəm, ilk öncə onların ən uzaq ulularından danışmağa başlayıb, bizim bir xalq kimi elə ilkinliyimizdən başlayaraq, qorxmaz döyüşçülər olduğumuzu önə çəkmək gərəkdir, onlar ulularının ad-sanı ilə bağlı olanları öncələr də eşitdiklərindən, bu sözlərimizin kəsəri olacaq.

-Sən yəni, tanrıların arasındakı söz güləşdirməsinin sonucunda onların anlaşıb, üstünlüyü qorxmaz, dönməz olduqlarına görə Kekropla* onun arxadaşlarına vermələrinimi deyirsən?

-Elədir, bundan başqa Erexteyin* doğulması, öyüd alması, onun bütün yörədəki xalqlarla apardığı uğurlu savaşlarını, Heraklidin* bütün Peleponnes elləri ilə savaşlarını, ya da Teseyin* apardığı savaşları da anmağa dəyər, axı onda attikalılar bütün başqa xalqlardan üstün olduqlarını göstərə bilmişdilər. İşimizə yarayarsa, mən onlara ulularının bizə yaxın çağlardakı uğurlarından da danışa bilərəm. Onların bütün Asiyanı, Avropanı, Makedoniyaya kimi, basqıda saxlayan, oçağacan olmuş xalqların hamısından üstün olan, çoxlu ünlü işlər görməyi bacaran güclü bir xalqla, parslarla təkbaşına apardıqları savaşlarından; ulularımızın başqa peloponnesilərlə birgə, quruda, dənizdə

baş verən savaşlarda qazandıqları ad-sandan da danışardım: onlar bu döyüşlərdə bütün çağdaş xalqlardan üstün olduqlarını göstərə bilmişdilər.

-Elədir, bunları hamı bilir, - Perikl deyilənlərə ortaq çıxdığını bildirdi.

-Elə buna görə də, Elladada neçə-neçə köçlər olmuşsa da, attikalılar öz torpaqlarında duruş gətirə bilmişlər, çoxları öz didişmələrini onların yardımı ilə çözmüş, bir başqaları da onları sıxışdıran güclü yağılarının əlindən qaçıb, attikalılara sığınmışlar.

-Elədir, - Perikl dedi,- ancaq mən baş açа bilmirəm, Sokrat, indi nədən bizim şəhərimiz belə uçuruma yuvarlanmaqdadır!

-Deyim nədən, - Sokrat ona üz tutdu,- gimnastika yarışlarında görmüş olarsan, bir çox gimnastlar, özlərinin başqalarından qat-qat güclü olduqlarını anlayınca, sayıqlığını itirib arxayınlaşır, buna görə də yarışı uduzurlar, afinalılar da beləcə, başqalarından üstün olmalarına arxayınlaşıb, öz işlərinə qayğı göstərməkdən soyudular, buna görə də, günü-gündən gücsüzləşir, başqa xalqlardan geri qalmağa başlayırlar.

-Görəsən, biz öz keçmiş yenilməzliyimizi, necə qaytara bilərik?- Perikl soruşdu.

-Məncə, burada baş sındırıb tapmaca açmağın yeri deyil, yurddaşlarımıza ulularının hansı törəylə yaşadıqlarını anlatsaq, onları yenidən bu törəylə yaşamağa alışdırsaq, səni inandırıram, onlar ulularından geri qalmayan kimsələrə çevriləcəklər. Bu alınmazsa, onda bizdən üstün olan başqa bir xalqın törələrinə uyğun olaraq yaşamağa çalışmalıyıq: sanıram, afinalıları bunun düzgünlüyünə inandıra bilsək, onlar nəinki bu xalqın üstünlüyünə çatarlar, lap onu ötüb keçməyi də bacararlar.

-Mənim anladığıma görə, sən onu demək istəyirsən, bizim şəhərimiz indi öz yetkinliyindən çox uzaqlaşıb, yəni afinalılar da spartalılar kimi öz böyüklərinə sayğı göstərməlidirlər! Bizdə isə, ağsaqqallardan tutmuş, öz atalarımızacan, bütün böyüklərə yuxardıdan aşağı baxırlar. Yurddaşlarımız gimnastika ilə yetərincə çalışmayınca yetkinləşməyəcəklər, eləmi? Yoxsa, onlar sağlamlıqlarının qayğısına qalmaq bir yana, bunun üçün çalışanları da ələ salıb gülürlər. Onlar dövlətin buyuruqlarını yerinə yetirəndəmi, üstün olacaqlar? Bilirsən, indi çoxları, dövlət buyuruqlarına saymamazlıq göstərməsi ilə öyünür. Ürəkləri, könülləri bir olandamı, onların birliyi sarsılmaz olacaq? Onlar deyilmi, biri-birinə əl tutmaqdansa, biri-birinin işini pozur, yadelliləri qoyub biri-birinə qarşı gözügötürməzlik eləyirlər, öz aralarında da, xalq yığıncaqlarında da

didişirlər, gecə-gündüz biri-biriylə dalaşırlar, biri-birinə yardım göstərməkdənsə, başqasının əlində olanı qapıb almağı qazanc sayırlar; xalqın hamısının olan dəyərli nəsnələrə özgə malı kimi baxırlar, kimin qolu güclüdür, hamı üçün olandan böyük əlcə qoparsın deyə, gücsüzləri basıb əzməkdən belə çəkinmir. Bütün bunlara görə də, bizim şəhərimiz büsbütün bir qarmaqarışıqlığa düşüb, yaman güclərin at oynatdığı yerə çevrilib, yurddaşlar arasında yağılıqlar, çəkişmələr, didişmələr baş alıb gedir, ona görə də, indi mənim qorxum ondandır, bunların ardınca da, bizim gözəl yurdumuzu yoxluğa sürükləyəcək çox böyük uğursuzluqlar gələ bilər!

-Yox Perikl,- Sokrat onunla anlaşmadığını dilə gətirdi,- sən çox yersiz olaraq, afinalıları belə yaramazlıqlara yoluxmaqda qınayırsan! Yoxsa, gəmiçilikdə onların necə bir düzənlə işləməyi bacardıqlarını, gimnastika yarışlarında başçıların göstərişlərini necə yaxşı yerinə yetirdiklərini, xorda yönətimçinin tapşırıqlarını necə bir himdəncə anladıqlarını, görmürsənmi?

-Məni çaşdıran da elə budur, bu adamlar toplumdakı işlərdə öz başçılarının buyuruqlarını belə ayıq-sayıq yerinə yetirirlər, ancaq bu qoplitlər*, atlı döyüşçülər bir az da artıq sözəbaxan olmalıykən, sanasan, hamısı öz başçılarını saya salmamaqda yarışa giriblər!

Onda Sokrat dedi:

-Aeropaq* necə, onu sınaqlardan üzüağ çıxmış qurum saymaq olarmı?

-Olar,- Perikl dedi.

-Sən belə hakimlər tanıyırsanmı, məhkəmə işində, elə başqa bütün işlərində də, yaxşılıqsevər, yasanı pozmayan, adını uca tutan, nə olursa olsun öz düzgünlüyündən əl çəkməyən kimsələr olaraq ad çıxarmışlar?

-Sözün düzü, onlardan gileyli deyiləm.

-Onda afinalıların arasında özbaşınalıqdır deyib, özünü belə darıxdırma.

-Ancaq burası da var,- deyə Perikl Sokratla anlaşmadığını dilə gətirdi,- ordu qulluğunda hamısından çox, öz istəminin ipini yığmaq, düzənə, buyuruqlara sözsüz boyun əymək gərəkirsə də, yurddaşlarımız da elə ən çox orduda özbaşınalıq eləyirlər.

-Yoxsa bu, onlara başçılıq eləyən kimsələrin anlamazlığından törəyir? Görmürsənmi, çalğıçıları, oxuyanları yönətməyi, bu işdən baş açmayan adam boynuna

götürmür, güləşi, yumruq döyüşünü öyrətmək də bunun kimi. Nəyisə öyrətmək istəyən bunu, harada, necə öyrənibsə, elə də öyrədir; bizim strateqlərin öyrətdiklərinin yanlışlığı isə, onların özlərinin biliklərinin dayazlığından törəyir. Mən səni onların sırasına qatmıram: bilirəm, sən güləşi öyrənməzdən öncə, strateqliyi öyrənməyə başlamısan, öyrəndiklərini yetərincə incələyə biləcəyindən də arxayınam; elə bilirəm, savaşla bağlı çoxlu gərəkli bilgiləri, adı anılası atandan, bütün dərinliyinəcən elə öyrənmisən, ömrün boyu unutmazsan, bundan başqa yaxşı strateq olmağa yarayan nə varsa, arayıb-axtarıb tapıb, öyrənməyə çalışmısan. Düşünürəm, strateq olarkən qarşılaşa biləcəyin ağır durumları adlaya bilmək üçün, çoxlu gərəkli çəmləri də özün düşünüb tapmısan; bunu da bilirəm, nəyisə yaxşı bilmədiyini duyunca, onu sənə öyrədə biləcək adamları axtarmağa da ərinməmisən, onlara çox dəyərli sovqatlar verməkdə, bacardığın yaxşılıqları eləməkdə əlini sıxmamısan, bununla da gərəkəndə, onlardan işinə yaraya biləcək yardımçılar yetirmisən.

Bu yerdə Perikl qımışdı:

-Səni yaxşı anlayıram, Sokrat, belə danışsan da, gözəlcə bilirsən, mən sən dediyin təki, gecəni gündüzə qatıb strateqliyi öyrənmək üçün çalışmıram; sən mənə gələcək strateqin özünü bu iş üçün necə yetirməli olduğunu anladırsan; onu da deyim, bu dediklərinin, özüm üçün çox gərəkli öyüdlər olduğunu sanıram.

-Elə bilirəm, bu sənin baxışlarından yayınmayıb, Perikl, Beotiya ilə bizim sınırlarımız boyu, çox uca sıra dağlar uzanır, bu dağlardan bizim ölkəyə, ancaq çox dar, əyri-üyrü keçidlərlə gəlmək olar, bu keçidlər də çox yerlərdə keçilməz dağlara dirənib qırılır.

-Mən bunu bilirəm.

-Eşitmisənmi, misiylərlə, pisidiylər adlanan xalqlar, Persiya şahının ölkəsində yaşaya-yaşaya, keçilməz yerlərdə özlərinə sığınacaq qurublar, yüngülcə yaraqlanaraq, onun üstünə basqın eləyirlər, ölkəsini çalıb-çapıb talayır, ancaq özləri bağımsız olaraq yaşaya bilirlər?

-Bunu da eşitmişəm.

-Necə bilirsən, afinalıların arasından, qıvraq, çevik yurddaşlarımızdan yığılan bir döyüş bölüyünü, yüngülcə yaraqlandırıb, sınırımızdakı dağlarda yerləşdirsək, onlar da

ara verməyən basqıları ilə yağılarımıza göz verib işıq verməsələr, onları yorub əldən salsalar, bu, yurdumuzun barış içində yaşamasına yardım etməzmi?

-Düşünürəm, bu çox gözəl olardı, Sokrat.

-Bu dediyim sözü bəyəndinsə, onda istəkli arxadaşım, özünü bu işdə yoxla: bu işi gərəyincə bacarsan, özün də ad-san qazanarsan, dövlət də barış içində yaşayar; bacarmasan, dövlət də itki verməz, özün də əlindən gələni eləməyə çalışdığın üçün, toxdaqlıq taparsan.

VI BAŞLIQ

{Qlavkonla, dövlət qulluqçusunun yetərincə oxuyub öyrənməli olduğunu anladan danışıq}

Aristonun oğlu Qlavkon, öncə Xalq yığıncağında sözçü(natiq) olmaq, bundan sonra da dövlətə başçılıq eləmək umdusuna düşmüşdü, baxmayaraq, onun iyirmi yaşı belə yox idi. Onu dönə-dönə sözçü kürsüsündən qovmuş, ələ salıb, hoydu-hoyduya götürmüşdülər, ancaq bütün bunlara baxmayaraq, nə doğmaları, nə də arxadaşları onu bu saçmalığından daşındıra bilirdilər; Bu Qlavkon - Sokratın öyrəncilərindən, olan o biri Qlavkonun oğlu Harmidlə, bir də Platonla arxadaşlıq eləyərdi, Sokrat da onu buradan tanıyırdı. Ancaq Sokrat, özünün saçmalığı ilə hamını bezdirmiş, bu ipə-sapa yatmayan gənci yola gətirməyi bacarmışdı.

Bir gün Qlavkonla üz-üzə gələn Sokrat, o, danışıqdan qaçmasın deyə, sözü uzaqdan başlayıb, onu danışığa çəkdi:

-Qlavkon, eşitmişəm sən dövlət başçısı olmaq istəyirsən?

-Elədir, Sokrat.

-And olsun Zevsə, yer üzündə bundan da yaxşı bir iş ola bilməz: bunu bacara bilsən, ürəyindən keçənləri yerinə yetirəcəksən, arxadaşlarına yardım eləyə biləcəksən, ata ocağının adını göylərə qaldıracaqsan, yurda başucalığı gətirəcəksən, qabaqca bizim şəhərimizdə, sonra bütün Elladada, kim bilir, ola bilsin lap Femistokl kimi varvarların

içində də ən tanınmış kimsə olacaqsan, bir sözlə, hara getsən, səni barmaqla göstərəcəklər.

Bu sözləri ilə Sokrat Qlavkonun boş damarını tuta bilmişdi, bu danışıq,- özünü çox böyük, adlı-sanlı adamların sırasında görmək istəyən gənci elə tutmuşdu, Sokratın yanından əl çəkmək istəmirdi.

Bundan sonra Sokrat dedi:

-Belə bilirəm, Qlavkon, sənə sayğı bəsləsinlər deyə, dövlət üçün çoxlu yararlı işlər görəcəksən, eləmi?

-Elədir,- Qlavkon bu sözlə anlaşdığını bildirdi.

-Onda, səni and verirəm tanrıların adına, bizdən gizlətmə, danış görək, sən dövləti irəli aparmaq üçün nədən başlayacaqsan?

Qlavkon susub durdu, sanasan o ancaq indi, nədən başlayacağını düşünüb tapmaq istəyirdi, bunu görən Sokrad dilləndi:

-Sən hansısa arxadaşının işini irəli aparmaq üçün, ilk öncə onun varlanmasına çalışardın, deyilmi? Buna uyğun olaraq da, öz işinə, ilk öncə dövləti varlandırmaqdanmı başlayacaqsan?

-Düzdür, bundan başlayacağam.

-Dövlətin qazancı artanda o varlı olacaq, elə deyilmi?

-Məncə, elədir,- Qlavkon dedi.

-Mənə de görüm, bizim dövlətin hansı gəlir qaynaqları var, onlardan gözəyarı(təqribən) hansı qazancı götürür? Sözsüz, sən bunun üstündə çox düşünmüsən, yəni, az qazanc verən qaynaqların gəlirini artırmaq üçün də, indi işlədilməyən yeni qaynaqları işə salmaq üçün də, nə edəcəyini artıq bilirsən.

-Yox, and olsun Zevsə, mən bunu düşünməmişəm.

-Ola bilsin, bu iş sənin baxışlarından yayınıb, onda bizə dövlətin hara, hansı axçaları yatırmasından danış, sözsüz sən indidən, hansı qazanc gətirməyən yatırımların olduğunu araşdırmış, onları qazanclı işlərə yönəltməyi də düşünmüsən.

-Yox, and olsun Zevsə, bunun üstündə düşünməyə macalım olmayıb.

-Elə isə, bir sürə(müddət) üçün, dövləti necə varlandırmaq konusunu da bir qırağa qoyaq, yoxsa dövlətin gəlirini-çıxarını bilmədən onu necə varlandırmaq olar?

-Yox, Sokrat, dövləti varlandırmaq üçün ayrı yollar da var, deyək, onunla yağı olan başqa dövləti yenib, yağmalamaqla da dövləti varlandırmaq olar.

-Çox da düz deyirsən, and olsun Zevsə, - Sokrat dilləndi,- ancaq bu dediyin, dövlət yağısından güclü olanda baş tutur; ondan güclü olmayıb bu işə girişəndə isə, olan-qalanı da əlindən çıxır.

-Bunu düz deyirsən.

-Demək, dövlət başçısı başqa bir dövlətlə savaşa başlamazdan öncə, gərək öz dövlətinin də, yağı dövlətin də gücünü ayırd eləsin: əgər dövlət yağısından güclüdürsə, onda savaşa girsin, yoxsa, savaşdan yayınmağa çalışsın.

-Düzdür.

-Elə isə, ilk öncə bizə de görək, dövlətimizin quru, dəniz qoşunlarının gücü yetərlidirmi, sonra da bizim yağılarımızın gücündən danış.

-Yox, and olsun Zevsə, mən bunu bilcəyimə(yaddaşıma) arxalanıb deyə bilmərəm.

-Çox da yaxşı, sən bunu yazmısansa, onu oxu, mənim üçün onları eşitmək çox önəmlidir.

-Yox, and olsun Zevsə, bunları indiyəcən çatdırıb yazmamaşam da.

-Deməli, sənin savaşda verəcəyin buyuruqları eşitməyi də, bir az gözləməli olacağıq: ola bilsin bu olduqca geniş bir konu olduğundan, bunu araşdırmağa macal tapmamısan, necə olsa, sən dövlətə başçılıq eləməyi indi-indi başlamaq istəyirsən. Ancaq ölkənin sınırlarını necə qorumağı, sözsüz, araşdırmısan, artıq bilirsən, harada neçə keşikçi bölükləri qoyulub, haralara da qoyulmalıdır, yan-yörədəki yaşayış yerlərini qorumağa yetərli olan neçə qaytaqlar(qarnizonlar) qoyulmalıdır; gərəkən yerlərdə qurulmuş pusquları(postları) gücləndirməyi, gərəksiz olanları yığışdırmağı da artıq götür-qoy eləmisən.

-Yox, and olsun Zevsə, bunun üstündə də düşünməmişəm, ancaq mənə elə gəlir, bu pusquların hamısını yığışdırıb atmaq gərəkdir, bizdə bu qoruqçuluq işi elə yaman gündədir, taxılı tarladan oğurlayıb aparırlar.

-Pusquları yığışdırsan, onda oğruların əl-qolunu açmazsanmı, onlar əllərinə keçəni açıq-aydın daşıyıb aparmazlarmı? Ancaq səndən bunu da öyrənmək istərdim, sən bu

pusquları gedib özün gəzib, yoxlayıb, sonra da onların yararsız olduğunu bilmisən, yoxsa bunu ağızdan eşitmisən?

-Düzü, belə danışırlar, ona görə də mənə elə gəlir, burada işlər çox pisdir.

-Yaxşı bu işi yoluna qoymağı da, sənin düşüncələrinin: “mənə elə gəlirdən” adlayıb, “mən bunu belə bilirəmə” çatacağı çağlaracan, qatlayıb qoyaq qırağa.

-Məncə də, belə eləsək yaxşı olar, - Qlavkon dedi.

-Bizim bu gümüş çıxarılan qaynaqların durumunu səndən soruşmuram, bilirəm, onları gəzib dolanıb, öyrənməmisən, onların indi nədən belə az gəlir verdiyini də bilmirsən.

-Düzdür, ora da gedib baxmamışam.

-Düz də eləmisən, and olsun Zevsə, deyirlər oranın dözülməz iqlimi var; ona görə dövlət başçısı olanda, səndən oranı necə işlətməyi soruşsalar, deyərsən, ora yaşamalı yer deyil, yaxandan əl çəkərlər.

-Sən deyəsən, məni ələ salmağa başlamısan a, - Qlavkon incik-incik dilləndi.

Sokrat özünü eşitməzliyə vurub, sözünün ardını gətirdi:

-Mən bircə bundan arxayınam, sən xalqın çörəkdən korluğu olmasın deyə, bununla bağlı işləri, artıq yerli-yataqlı öyrənmisən, özümüzün əkib-biçdiyimiz taxıl neçə aya çatır, ili başa vurmaq üçün qıraqdan, hansı ölçüdə taxıl gətirməliyik; bu çox gərəkli konunu, sən artıq düşünüb-daşınmısan, yoxsa birdən bunu unutsan, yurddaşlarımız çörəksiz qalar, ona görə də, məncə, sən bunu elə dərindən öyrənib, götür-qoy eləmisən, çörəklə bağlı ağır bir durum yaranarsa, yurddaşlarımızı da, dövləti də belə gözlənilməz darlıqlardan qurtara bilərsən.

-Elədir, bu çox böyük, geniş bir konudur, gərək bunun üstündə də düşünəm!

-Ancaq, öz ev diriliyini yaxşı qurmaq üçün belə, gərək ilk öncə bu işə yarayacaq bütün nə varsa biləsən, sonra da onların hamısını tapıb yığasan. Bizim dövlət isə, bu gün on mindən artıq evə başçılıq eləyir, belə çox sayda diriliklərin(təsərrüfatların) işini yoluna qoyacaq adam, ən azından, öncə, bir diriliyin işini yoluna qoymağı bacarmalıdır, deyək, elə sənin dayınınkı kimi,- başlı-başına qalmış birinin diriliyini. Get, yoxla gör, onun işini yoluna qoya bilirsənsə, onda çoxlu diriliklərlə də işləməyi bacaracaqsan; sənin bir diriliyi yönətməyə yarayacaq bacarığın yoxsa, çoxunu necə yarıdacaqsan?

Kimsə bir talant ağırlığında yükü daşıya bilmirsə, onun bir neçə talantlıq yükü daşımağa girişməsi saçmalıq sayılmazmı?

-Dayım mənim dediyimə qulaq assaydı, mən onun diriliyinin işlərini çoxdan yoluna qoyardım, - Qlavkon dilləndi.

-Sən tək bir dayını dilə tutub yola gətirə bilmirsən, ancaq istəyirsən bütün afinalılar, içi dayın qarışıq, sənə qulaq assınlar! Özünü gözlə, Qlavkon, ad-san qazanmaq istəyirsən, ancaq çalış olan-qalan adını da batırmayasan! Sən yəni, doğrudanmı görmürsən, bilmədiyi sözü danışmaq, bacarmadığı işə girişmək, necə qorxuludur? Bu sayaq adamlardan tanıdıqlarını yadına sal, bilmədiklərini danışan, bacarmadıqlarını eləyən bu adamlar səncə, öyüncmü qazanırlar, yoxsa qınaqlara tuş olurlar, adlarını ucaldırlar, yoxsa alçaldırlar? Bir də dön, bildiyini danışan, bacardığını eləyən adamlara bax, onda sənə bir yolluq, onların kimliyi bəlli olacaq: bu, ad-san qazanmış, sayqılı adamların, öz işlərini çox dərindən öyrənib bildiklərini anlayacaqsan, saya salınmayan, alçaldılan adamlara baxsan, onların hamısının biliksiz, anlamaz, bacarmadığı işlərə girişən kimsələr olduğunu görəcəksən. Ona görə də, bizim şəhərdə ad-san qazanmaq istəyirsənsə, görmək istədiyin işləri dərindən-dərinə öyrən: gördüyün işdə hamıdan üstün olmağı bacarsan, onda dövlət başçılığına çatmağa da əl atarsan,– sənin istəklərinə çatmaq üçün əməklərə qatlaşan birisi olduğunu görsəm, onda mən də sənin belə bir umduna çata biləcəyinə inanaram.

VII BAŞLIQ

{Harmidlə, dövlət işlərinə qatılmağın gərəkliyi ilə bağlı danışıq}

Qlavkonun oğlu Harmidin çox yetkin, öz bilginliyi ilə o çağın yüksək dövlət çinlərindən qat-qat üstün bir kimsə olmasına baxmayaraq, Xalq yığıncağının sözçüsü olmaqdan, dövlətin işlərinə yardım eləməkdən yaxasını qırağa çəkdiyini görən Sokrat, ona üz tutub dedi:

-Harmid, mənə de görüm, birisinin Olimpiya yarışlarında birincilik qazanmaq üçün yetərincə gücü olsaydı, orada veriliən ödülü almaqla yanaşı, özü də ad-san qazana, doğma şəhərinin adını da bütün Elladada ucalda bilsəydi, ancaq buna baxmayaraq, bu yarışlara qatılmaqdan boyun qaçırsaydı, sən beləsinə nə deyərdin?

-Mən onun qanmaz, qorxaq bir kimsə olduğunu düşünərdim, - Harmid dedi.

-Birdən kimsə, dövlət işlərinə qatılmaqla yurdunun adını ucalda, özü də sayğı qazana bilərsə, ancaq bunu eləməkdən çəkinərsə, odamı qorxaq sayılmalıdır?

-Sözsüz, - dedi Harmid,- ancaq bunları nədən soruşduğunu anlamadım!

-Deyim nəyə görə, mən düşünürəm, sənin dövlət işlərinə qatılıb, yararlı işlər görmək bacarığın var, ancaq nədənsə bundan çəkinirsən, baxmayaraq, bir yurddaş olaraq sən bunu boynundan atmalı deyilsən.

-Sokrat, sən mənim belə bir bacarığım olduğunu haradan bilirsən, mən düzü anlaya bilmirəm, nədən belə yanlış düşüncələrə qapılmısan?

-Mən gördüyümü deyirəm, sən yüksək dövlət çinlərinin də olduğu yığıncaqlara qatılanda, onlar səndən nəyisə soruşarlarsa, çox gözəl yollar göstərə bilirsən, birdən onlar yanlış bir iş görmək istəsələr, sən onları çox kəsərli sözlərlə qınayıb, bundan çəkindirə də bilirsən.

-Bunlar ayrı-ayrı işlər deyimi, Sokrat?- bir var, dar bir çevrədə, beş-on adamla, nəyisə götür-qoy edəsən, bir də var, bir yığın adamın qarşısında kiminləsə söz güləşdirəsən?

-Ancaq birisi saymağı yaxşı bacarırsa, təklikdə də, kütlənin qarşısında da çaşmadan sayır, kim kifarada yaxşı çala bilirsə, o kütlənin qarşısında bir az da gözəl çalır.

-Sokrat, sən bilməmiş deyilsən, utancaqlıq, çəkingənlik, anadangəlmə olan duyğulardır, kiçik çevrələrdə ondan qaçınmaq olursa, kütlənin qarşısında adam özünü itirir.

-Gör sənə nə deyirəm, sən–anlaqlı, güclü adamların qarşısında utancaqlıq, çəkingənlik eləmirsən, ancaq onlardan qat-qat gücsüz, anlaqsız adamların qarşısında tutulursan. Sən doğrudanmı bu, keçəçilərdən, ayaqqabı tikənlərdən, doğramaçılardan(dülgərlərdən), dəmirçilərdən, əkinçilərdən, alverçilərdən, aralıq satıcılarından, işləri-gücləri ancaq necə ucuz alıb, necə dəyərindən artıq satmaq olan bu kütlədən utanıb çəkinirsən? Elə Xalq yığıncağı deyilən də, bu adamların toparlanmasından yaranmırmı? Sənin bu sayaq davranışın, yetkin atletləri yenməyi bacaran, ancaq onların çəpikçilərinin(fanatlarının) hay-küyündən qorxub, yarışmağa qatılmayan atletin işinə oxşamırmı? Yeri düşəndə, sənə yuxarıdan aşağı baxan yüksək çinli dövlət adamları ilə qolayca dilləşə bilirsən, illərlə çalışıb Xalq yığıncağının sözçüləri olmuş kimsələri yerində oturda bilirsən, ancaq sənə yuxarıdan aşağı baxmayan, dövlət işlərindən baş açmayan adamların qarşısına çıxsan, birdən özünü itirib, gülünc görünəcəyindən qorxursan.

-Sən yaxşı bilirsən, bu Xalq yığıncaqlarında ən yetkin sözçüləri də ələ salıb gülürlər!

-Bu dediyin, elə başqa yerlərdə də olur. Ancaq sən başqa durumda bunu eləyənləri qolayca yerində oturda bilirsən, onlar çoxalıb topayla bunu eləyəndə özünü itirirsən. Yox, ağrın alım, özünü, özünə qarşı belə korluğa vurma; bir çoxlarının da düşdüyü bu yanlışlığa qapılma; adamların çoxunda başqalarının işinə baş qoşmağa, onların gizlinlərini öyrənməyə yönəlik, bir ucuz istək olur, ancaq ən yaxşı işin,- özünə baş qoşmaq, özündən baş açmağa çalışmaq olduğunu anlamırlar. Sən bu işdə ərincəklik eləmə, bütün gücünlə özündən baş açmağa çalış. Dövlətin işlərini yaxşılaşdıra biləcək bacarığın varsa, onda buna baş qoşmaqdan çəkinmə: bu işlər öz axarına düşüb, yaxşı gedərsə, bundan ancaq toplum qazanmır, sənin arxadaşların da, elə özün də qazanırsan.

VIII BAŞLIQ

{“Yaxşılıq” ilə “gözəllik” anlayışları üzrə, Aristipplə olmuş danışıq}

Günlərin bir günü, sofist Aristipp yenə də Sokrata ilişib, onu yanıltmaq istədi, axı bundan öncə Sokrat dönə-dönə onun yanlışlarını açıb-ağartmış, yersiz davranışlarının gülünclüyünü üzünə vurmuşdu. Ancaq bu dönə Sokrat, bu danışığa qulaq asan dinləyicilərin də yararlana bilməsi üçün, onun sorğularını,- sözlərinin düzgün anlaşılmayacağından çəkinməyərək, dolayısı ilə yanıtlamağa başladı. Bu danışıq belə olmuşdu: öncə, Aristipp Sokratdan nəyi yaxşı saydığını soruşmuşdu. Sokrat birdən, yeməkmi, içkimi, axçamı, sağlamlıqmı, gücmü, qorxmazlıqmı, habelə bunun kimi başqa nələrinsə adlarını çəksəydi, Aristipp də, qabaqcadan düşündüyü kimi, sadalananların yerinə görə, yamanlıq da törədə biləcəyini deməklə, Sokratı çaşdırmaq istəyəcəkdi. Yaxşılığın, insan öpözünə ağırlıq gətirən nədənsə qurtulmaq, özü də bunun yerinə, ona yüngüllük gətirən nəyisə tapmaq demək olduğunu anaraq, Sokrat burada, çox tutarlı bir söz dedi:

-Sən məndən nəyin, qızdırıb-titrətmədən yaxşı olduğunumu soruşursan?

-Yox, onu soruşmuram.

-Yoxsa göz ağrısından yaxşı olanı?

-Onu da yox.

-Yoxsa aclıqdan yaxşısını?

-O da deyil.

-Sən məndən, nədən yaxşı olduğu bəlli olmayan bir nəsnə soruşursansa, mən eləsini bilmirəm, bilmək də istəmirəm.

Atmacası boşa çıxan Aristipp, bir başqa gün Sokratdan nələri gözəl saydığını soruşdu.

-Olduqca çoxlu, gözəl sayıla biləcək nəsnələr saya bilərəm,- Sokrat dilləndi.

-Onlar hamısı biri-birinə oxşayırmı?

-Yox, ancaq ola bilsin, azacıq oxşar olanları da var.

-Elə isə de görək, bu necə olur, hansısa nəsnə, gözəl sayılan başqa bir nəsnəyə oxşamır, ancaq buna baxmayaraq gözəl sayılır?

-Deyim necə, birisinin gözəl qaçmağı, o birinin gözəl güləşməyinə oxşamır; döyüşçünü ölümdən qorumaqla gözəl olan qalxan, çox iti uçub, yağını yenməklə gözəl olan süngüyə oxşamır.

-Sənin bu sözün də elə, mənim bundan qabaq soruşduğum, sənin isə, nəyin yaxşı oladuğunu deməkdən yayındığın, danışığına oxşadı.

-Yoxsa sən, yaxşılıqla gözəlliyin ayrı-ayrı nəsnələr olduğunu düşünürsən? Bunudamı bilmirsən, nəsnələri biri-biri ilə tutuşduranda, yaxşı olana elə gözəl də deyirlər? Götürək elə, könülə bağlı duyğularımızı, onların yaxşı bilib bağlandığı nəsə varsa, o elə gözəl də sayılır; adamları da hansısa bir duruma görə dəyərləndirəndə, onların ürəyəyatan işlərindən söz açanda, yaxşı deyilənə dönüb gözəl də, gözəl deyilənə durub yaxşı da deyirlər; insan bədənini dəyərləndirəndə də, yaxşı olana gözəl, gözəl olana yaxşı deyirlər; bir sözlə, adamların işinə yarayan nə varsa, gərəkli olduğu iş üzrə yaxşı da, gözəl də adlana bilər.

-Peyin daşımaq üçün işlədilən səbəti, gözəl saymaq olarmı?

-And olsun Zevsə, onu gözəl saymaq olar, eləcə də qızıldan düzəlmiş qalxanı gözəl saymamalıyıq, - birincisi, görməli olduğu işə gözəl yarayır, ikincisi isə görməli olduğu iş üçün yararsızdır.

-Sən demək istəyirsən, bir nəsnə yerinə görə gözəl də, syuymsuz da ola bilər?

-And olsun Zevsə, elədir, eləcə də bunun kimi, yerinə görə, yaxşı da, yaman da ola bilir: aclığı yatırmağa yaxşı olan, qızdırma üçün yararsız sayılır, tərsinə, qızma üçün yaxşı olan, aclıq üçün yararsız olur; qaçış üçün yaxşı sayılan öyrəncələr, güləş üçün yararsız olur, güləş üçün yaxşı olanların qaçış üçün yararsız olması da olur: ona görə də, gərək olduğu işə yarayan nə varsa, yaxşıdır da, gözəldir də, yaramayan isə, yamandır da, suyumsuzdur da.

Sonradan bu danışığının ardı kimi, Sokrat öz dinləyicilərinə, bir evin gözəl də, yaxşı da olması üçün, onu necə tikmək gərəkliyini öyrətmişdi. Onun bu dediklərinin özəti belə idi:

-Kimsə, ev adına bütünlüklə yarayacaq nəsə tikmək istəyirsə, onda çalışıb onu elə tikməlidir, bu evdə yaşamaq gözəl olduğu kimi, yaxşı da olsun.

Dinləyicilərin deyilən sözlərlə anlaşdığını görən, Sokrat soruşdu:

-Evlərin ən yaxşısı, yayda sərin, qışda isti olanı deyilmi?

Bu sözlərinin də dinləyicilərinin ürəyincə olduğunu görən Sokrat, ardınca dedi:

-Hamınız bilirsiniz də, üzü güneyə tikilmiş evlərdə, qışda günəş birbaşa eyvana düşüb, onu ışıqlı da eləyir, qızdırır da, yayda günəş ucadan ötüb keçdiyinə görə, onun işığı evin damına düşüb, evi kölgəlik eləyir. Demək, evi bu quruluşda tikmək gözəl sayılmalıdır, bir də onun güneyə baxan bölümünü hündür eləsək, qış günəşi onu yaxşı tutacaq, quzey bölümünü, soyuq küləklər evə dolmasın deyə, alçaq eləmək yaxşıdır. Sözün qısası, ev yiyəsinin ilin bütün çağlarında oturub-durması, ev avadanlığını yaxşı saxlaya bilməsi üçün yarayan ev, düzgün olaraq, ən gözəl, ən yaxşı yaşayış yeri sayılmalıdır. Evi şəkillərlə, başqa bu sayaq nəsnələrlə bəzəmək isə, onu yararlı eləməkdən çox, ev adamının dincliyini pozur.

-Tanrı evləri(məbədlər) də, Tanrıya qurban veriləsi üçün tikililər də, uzaqdan yaxşı görünən, ancaq adamların yolunun üstünə düşüb ayaqaltı olmayan təpəlikdə tikilsə yaxşıdır,- Tanrı evininin, yolüstündə olub, kirli-pasaqlı kimsələrin ayaqaltısı olmasındansa, ona uzaqdan baxıb dua eləmək gözəl sanılmalıdır, ona görə də Tanrı evinin, başdan ayağa arınıb-durulan adamların sayğı ilə yollandığı bir yer olması düzgün sayılmalıdır.

IX BAŞLIQ

{“İgidlik”, “bilgəlik”(müdriklik), habelə başqa bir çox anlayışlara aydınlıq gətirilməsi}

Bir gün Sokratdan: igidlik nədir, igidliyi insana sonradan öyrətmək olarmı, yoxsa bu anadangəlmə olur?- deyə soruşdular. Sokrat bunları dedi:

-Birinin bədəni başqasına baxanda, öz doğuluşundan,- güclü, əməyə qatlaşmağa dözümlü olduğu kimi, düşünürəm, birinin öpözü(ruhu) də başqasına baxanda, doğuluşdan, güclü, qorxmaz olur: bunu ondan deyirəm, baxıb görürsən, yasaların, törələrin(adət-ənənələrin) bir olduğu toplumda böyüyüb boya-başa çatan adamlar, ürəkli omalarına görə biri-birindən seçilirlər. Ancaq mən belə də düşünürəm, anadan necə doğulmasından asılı olmayaraq, insan öyrənməklə, çalışmaqla da özünü igidliyə alışdıra bilər: belə olmasaydı, skiflərlə frakiyalılar böyük qalxanlarla, uzun nizələrlə yaraqlanmış spartalılarla döyüşməyə ürək eləməzdilər, eləcə də spartalılar, nə kiçik qalxanlarla, mızraqlarla yaraqlanmış frakiyalılarla, nə də ox-yayla yaraqlanmış skiflərlə vuruşmağa ürək eləyərdilər. Buna oxşar olaraq, mən bildiyimə görə, insanlar anadan doğulanda bir-birindən ayırd olunurlar, ancaq çalışıb-vuruşmaqla öz istədikləri yetkinliyə çata da bilirlər. Bu da onu göstərir, insanlar anadan necə doğulmaqlarına baxmayıb, ürəkləri istəyən işi yaxşı bacarmaq üçün, öyrənməli, çalışmalıdırlar.

Sokrat, bigəliklə, ərdəmlik(mənəvilik) arasında ayrı-seçkilik aparmırdı, “bilgəlik”, “ərdəmlik” anlayışlarının ikisinin də bir anlamı verdiyini deyirdi: insana anlaqlı deyilirsə, doğrudan da o belədirsə, deməli o elə ərdəmlidir də, insan,- gözəlliyin, yaxşılığın nə olduğunu anlayırsa, gördüyü işləri bu biliyinə uyğun tutursa, habelə o, arsızlığın nə demək olduğunu bilib ondan qaçınırsa, deməli ona bilgə də, ərdəmli də demək olar. Ondan soruşanda: nəyin yaxşı olduğunu bilən, ancaq öz işində bunu yürütməyən adamlarda ərdəmlik, bilgəlik olurmu? - Sokrat dedi:

-Az-maz olur, ancaq anlaqsız, yaramaz adamlarda olan ölçüdə: özünü insan sayan kimsə, ona verilən girəvələrdən ən yararlısını ceçib götürməlidir. Ona görə də, yaxşını yamandan ayıra bilib, ancaq buna baxmayaraq, düzgün yol tutmayan adamı mən nə bilgə, nə də ərdəmli sayıram.

Sokrat bunu da deyirdi: düzgünlük, habelə bunun kimi başqa yüksək insanlıq dəyərləri də, bilgəlik sayılmalıdır. Düzgün addım atmaq, yüksək dəyərlərə uyğun işlər görmək,- gözəldir də, yaxşıdır da. Ona görə də, bu işlərin yüksək dəyərini anlayan insanlar, başqa sayaq iş tutmazlar, bunu anlamayanlar isə, yaxşı iş tutmağı bacarmazlar, lap görmək istəsələr belə, yanlışlıqları ucbatından onu korlayarlar. Düzgünlük, habelə bütün başqa, ərdəmliyə uyğun işlər, gözəl də, yaxşı da, olduqlarından, onda düzgünlüyü də, onu doğuran ərdəmliyi də, elə bilgəlik saymaq olar.

Dəlilik,- Sokrat deyirdi,- büsbütün ərdəmliyin tərsinədir; ancaq anlamazlığı dəlilik saymaq olmaz; Sokrat–özünün kimliyini gərəyincə dəyərləndirə bilməməyin, habelə özünü bilmədiklərinin bilicisi kimi göstərməyin, dəliliyə çox yaxın olduğunu deyirdi. Loru dillə danışsaq, Sokratın dediklərindən bu çıxırdı: kütlə kiminsə ömrünü yanlış yaşamasından baş açmırsa, o adamlara dəli demir; yanlışı üzdə olan, onu çoxluqdan gizlətməyi bacarmayan adamları isə dəli sayır. Tutalım, birisi özünü elə azman sayır, qala qapısından keçəndə başı yarılmasın deyə əyilirsə, yoxsa özünü elə güclü sayır, evi təkbaşına yerindən qaldırıb apara biləcəyini düşünürsə, habelə bunun kimi gülünc görünən işlər tutursa, ona dəli deyirlər. Ancaq kimsə kiçik yanlışlıqlar eləyirsə, ona dəli demirlər, çılğın istəyə sevgi deyildiyi kimi, eləcə də böyük yanlışlığa da dəlilik deyirlər.

Gözügötürməzliyin(paxıllığın) nə olduğunu araşdıranda, Sokrat onun necəsə bir qüssə ilə bağlı olduğunu tapmışdı, ancaq bu qüssə, nə arxadaşların uğursuzluğundan, nə də yağının uğurundan törəyir: gözügötürməzlər,- arxadaşlarının uğurundan da yanıb yaxılanlardır. Dinləyiciləri, birinin başqası ilə arxadaşlıq eləyib, sonra da onun uğurlarına necə qüssələnə biləcəyini soruşanda, Sokrat örnək gətirərək, anladırdı: çoxlu elə admlar var, başqasının uğursuzluğuna acıyır, ona yardım eləməyə də çalışır, ancaq birisi uğur qazandımı, baxıb qüssələnir. Onu da deyərdi, anlağı olan adamda belə duyğular ola bilməz, anlaqsızların isə hamısında bu duyğu var.

Boşuna yaşamağı(asudəçiliyi) araşdırarkən, Sokrat bunu tapıb üzə çıxarmışdı: adamlar boşuna yaşayanda da nəsə eləyirlər, zər atıb qumar oynayanlar da, təlxəklər də nəsə eləyirlər; ancaq bu özlüyündə işləməmək deməkdir, onlar istəsəydilər, boş-boşuna gəzməkdənsə, gərəkli bir iş görə bilərdilər. Ancaq, öz işinə ürəkdən bağlı olan kimsənin, belə boşuna gəzməyə vaxtı olmur; beləsi tapılarsa da, bunu onun saçmalığı saymalı,–yaxşı, gərəkli işi olanın boş vaxtı nə gəzir!

Sokratın deməsinə görə, xaqanlar, dövlət başçıları, əlində ağalıq çomağı gəzdirənlər,- yanlış olaraq bu görəvə seçilənlər, habelə çöp atmaqla, güclə, yalanla ağalığı ələ keçirənlər yox,- dövləti düzgün yönətənlər sayılmalıdır. Dövlət başçısının ən böyük üstünlüyünü, onun düzgün buyuruqlar vermək bacarığında görən Sokrat, bunun ardınca deyərdi: baxın, gəmini bu işi dərindən bilən adam yönətir, gəmi yiyəsindən tutmuş, gəmidə olan bütün kimsələr də onun buyuruqlarına boyun əyirlər. Bunun kimi də, torpaq yiyəsi əkin-biçin işində, ağrınanlar sağalmaq üçün, gimnastika yarışına qatılanlar, gimnastika çalışmalarında, özlərindən üstün saydıqları adamların sözünə qulaq asırlar,–bir sözlə, kiməsə hansısa işini görmək üçün yardım gərəkirsə,–bu işi özləri bacarırlarsa, onda qollarını çırmayıb ona girişirlər, bilmirlərsə, bilənlərdən soruşur, bununla da qalmayıb, bu işi bacaran adamları işə götürüb, onların yönətiminə arxalanırlar. Əyiricilik işində, Sokrat deyirdi, qadınlar kişiləri yönətirlər, ona görə, kişilərin bu işdən yaxşı başı çıxmır, qadınlar isə bu işi incəliklərinəcən bilirlər.

Birdən kimsə, Sokratın sözləri ilə anlaşmayıb deməydi, tiranlar bilgin kimsələrin öyüdlərinə qulaq asmırlar, onda Sokrat deyərdi:

-Bilgin insanların yaxşı öyüdlərinə qulaq asmayan adam, sonucda bununla uduzursa, korluqlar çəkirsə, onda niyə belə eləməlidir? Bilgin adamların öyüdlərini qulaq ardına vuranlar, yanılırlar, anında-sonunda bu yanlışlarının altını çəkməkdən də qaçıb qurtula bilmirlər.

Birisi, tiranın bilgələri öldürtməkdən belə çəkinmədiyini göstərəndə, Sokrat deyərdi:

-Kiminsə, özünün gərəkli öyüdlər ala biləcəyi yardımçılarını öldürüb, bundan sonra sudan quru çıxa biləcəyini düşünürsünüzsə, bərk yanılırsınız, bələləri anında-sonunda çox böyük itkilərlə üzləşirlər, sonucda, öz başlarını da çiyinləri üstündə saxlaya bilmirlər! Necə düşünürsünüz, özünü gərəkən öyüdlərdən aralı tutan kimsənin: qulağı dinc yaşaması, yoxsa başının qovğalarda olması, çox gözlənilməndir?

Kimsə, Sokratdan necə yaşamağı, insan üçün ən yaxşı saydığını soruşanda, o demişdi:

-Yaxşı yaşamağı!

Onda bu adam qayıdıb Sokratdan, onun "yaxşı yaşamaq" ilə "günə çıxmaq" sözlərini birmi tutduğunu soruşdu. Sokrat dedi:

-Yox, mənim baxışıma görə, uğuru gətirməklə, əməksevərlik - büsbütün ayrı-ayrı anlayışlardır: insan gözlənilmədən uğura çatırsa, bunu, günə çıxmaq sayıram; ancaq kimsə öyrənməklə, çalışmaqla, bir sözlə əməksevərliklə özünə gərək olanı əldə eləyirsə, bu sayaq dolanan adamın yaxşı yaşadığını düşünürəm.

Ən yaxşı, o sıradan tanrıların da bəyəndiyi adamlar,- Sokrat deyərdi,- öz işini yaxşı görməyi bacaranlardır: əkinçidirsə- öz əkin-biçin işini, dövlət işindədirsə- öz dövlət qulluğunu, gərəyincə yoluna qoya bilən kimsələrdir; kiminsə əlindən yaxşı bir iş gəlmirsə, o, insanların yanında yarıtmaz, tanrıların qulluğunda yaramaz olan birisi sayılır.

X BAŞLIQ

{Parrasiy, Kliton, Pistiy ilə, onların əl işlərinə bağlı danışıqlar}

Sokrat hansısa yaradıcı adamla, özü də yaradıcılığı ilə çörəkpulunu çıxaran birisi ilə görüşərdisə, onların işinə yarayan çox yaxşı sözlər danışardı.

Bir gün o, rəssam Parrasiyin yanına gəlib, onunla danışmağa başladı:

-Parrasiy, bu rəsm deyilən–bizim gördüklərimizin üzünün çıxarılmasıdır, eləmi? Sizin rəsmlər boyalardan yararlanmaqla: insan bədəninin türlü görüntülərini, yəni onun bükük, qabarıq, tutqun, işıqlı, düz, donqar, gənc, qoca durumlarını göstərir,- məncə siz gerçəklikdə bu sayaq görünən bədənlərə baxıb, çəkdiklərinizi onlara oxşatmağa çalışırsınız, deyilmi?

-Elədir,- Parrasiy dedi.

-Mən bilən ancaq bir adamda bədənin bütün üyələri(üzvləri) bitkin olmur, ona görə də, siz gözəl görkəm yaratmaq üçün ayrı-ayrı adamlardan, kimdə nə gözəldirsə, götürüb, onları bir kimlikdə birləşdirirsiniz, beləliklə də gözəl boy-buxunlu bir insan rəsmi yaradırsınız.

-Düz deyirsən, biz belə eləyirik.

-Siz insanın rəsmini çəkəndə, onun özlüyünü açıb göstərən,- baxanlarda gözəl duyğular oyadan, onlarda sevgi, çılğın istəklər yaradan, tutuqlayan(sehrləyən) nəsnələri, yəni insan könlünün gizlinlərini də göstərə bilirsinizmi? Yoxsa, bunları çəkmək olmaz?

-Sokrat, mən düzü bilmirəm necə deyim, ölçüsü, boyası, bu sayaq ayırdedici görüntüləri olmayan nələrisə, necə çəkmək olar, sənin bu dediklərinin demək olar hamısı gözəgörünməz deyillərmi?

-Biz insanın baxışlarından, onun kiməsə istiqanlımı, acıqlımı baxdığını duya bilirikmi?

-Düzdür, mən də bunu bilirəm.

-Yaxşı, insanın gözünü çəkəndə, bunu göstərmək olmazmı?

-Olar.

-Arxadaşların yaxşı günündə, yaman günündə, onun yaxınlarının üzlərinin görünüşü ayırd olunmurmu?

-And olsun Zevsə, elədir, yaxşı gündə üzləri sevinc içində, yaman gündə qüssəli olur.

-Bunu, rəsm çəkəndə göstərmək olmazmı?

-Olar.

-Sonra, tutalım: ağayanalıq, yaxşılıqsevərlik, alçaqlıq, yaramazlıq, ağırtaxtalıq, götür-qoyluluq, sırtıqlıq, kobudluq, insanın üzündə də, bütün görkəmində də iz qoyur, bunu onun duruşundan da, tərpənişindən də duymaq olur.

-Düzdür.

-Bunu rəsmdə göstərmək olmazmı?

-Düşünürəm, olar.

-Sən yaxşı bilərsən, hansı adamlara baxmaq insanda yaxşı duyğular oyadır, -Sokrat soruşdu,- gözəl, yaxşılıqsevər, üzügülər, yoxsa suyumsuz, alçaq, iyrənc görünüşlülərə?

-And olsun Zevsə, Sokrat, bunlar doğrudan da biri-birindən kəskin ayırd olunan kimsələrdir.

Bir gün Sokrat hekəlyonan Klitonun yanına gəlib, onunla danışmağa başladı:

-Çox gözəl yaradırsan, Kliton,- qaçışçılar, güləşçilər, yumruq döyüşdürənlər, tutaqlaşanlar; sən heykəllərindəki bu özümlüyü: onların ürəyindən keçənlərin baxışlarından oxunmasını, bir sözlə, onları belə diri göstərməyi, necə bacarırsan?

Kliton, Sokratın dediklərindən yaxşı baş açmadığından, bir anlıq nə deyəcəyini kəsdirə bilməyib, susdu. Onda Sokrat sözünün ardını gətirdi:

-Yoxsa, yonduğun heykəllərin belə diri görünməsi, sənin onları yaşayışda gördüyün adamlara oxşatmağına görədir?

-Elədir, ondandır.

-Bax belə, insan əyilib düzələndə, onun bədən üyələri yığılıb açılır, gərginləşib boşalır, sən də bu gerçək görüntüləri olduğu kimi verməyi bacardığından, yaratdığın heykəllər belə ürəkçəkicidir.

-Düz deyirsən, - Kliton dilləndi.

-Adamların ayrı-ayrı durumlarda yaşadıqları duyğuları da göstərə bilsən, bu, sənin yonduğun heykəllərə baxanların könüllərini oxşamazdımı?

-Mən də belə düşünürəm.

-Belədirsə, onda yonulan heykəldə: döyüşən kimsənin baxışında kiməsə yönələn acıq, qara-qorxu, oxunmalı, başqasını yenən adamın üzü sevinc içində olmalı deyilmi?

-Çox da düz deyirsən.

-Heykəl yonanın bacarığı, onun heykəlini yonduğu kimsənin öpözünün(ruhunun) durumunu göstərə bilməsindədir məncə,- deyə Sokrat sözünü bitirdi.

Başqa bir gün Sokrat afşinçi(**afşin-türkcə dəmirdən hörülmə zirehə deyirrlər**) Pistiyin iş yerinə gəldi. Pistiy də ona öz əl işlərini göstərməyə başaldı.

-And olsun Heraya, - Sokrat dedi, - bu afşin çox gözəl tapıntıdır: bir yandan adamın bədənini yaralanmaqdan qoruyur, o biri yandan da əlini qolunu tutub saxlamır, onları ürəyin istəyən kimi tərpədə bilirsən!

Ancaq mənə de görüm, Pistiy, sən öz afşinlərini başqalarının düzəltdiyindən bərk düzəltmirsənsə, elə onların işlətdiyi dəmirdən toxuyursansa, necə olur, sənin əl işlərin onlarınkından qat-qat artıq axçaya satılır?

-Ona görə, mənim düzəltdiyim bu afşinlər, onu geyəcək döyüşçülərin əyninə yaxşı oturur, uyğunsuzluq yaratmır.

-Sən düzəltdiyin afşinlərin alıcılarının əyninə uyğunluğunu onlara necə anladırsan, ölçü iləmi, çəki iləmi, sonra buna görə də artıq axçamı istəyirsən? Bax, mənə görə, sən onların hamısını oxşar düzəldirsən, yoxsa, onlar adamların əyin ölçülərinə görə seçilirlər?

-And olsun Zevsə, düz deyirsən, başqa sayaq düzəldəndə, bu afşinlər alıcıların işinə yaramır.

-Axı adamların əyni biri-birinindən ayırd olunur, birinin boy-buxunu düz, o birininki kələkötür olur?

-Elədir.

-Onda necə eləyirsən, onların ölçüləri, boy-buxunu düz olana da, kələkötür olana da uyuşur?

-Mən bu afşinləri, biri-birindən seçilib-ayrılan, başqa-başqa əyinlərin ortalama ölçülərinə uyğun olaraq biçirəm, düzgün biçilən afşinlər isə uyğun gələn əyinlərə yatımlı olurlar.

-Sən görünür, uyğunluğu necə gəldi yox, qabaqcadan düşünüb daşınıb, ayrı-ayrı əyin quruluşlarına görə götürüsən, necə deyərlər, qalxan kimin boy-buxununu qoruya bilirsə, deməli, onun da ölçüsünə uyğundur; sənin uyğunluğu bu sayaq gözləməyini düzgün saysaq, onda bu bütün döyüş yaraqlarında da olmalı idi, yəni döyüşçülərin bütün yaraq-yasağında, büründəklərinə kimi, bu uyğunluğu gözləmək gərək deyilmi? Yoxsa, burada duruma başqa sayaq yanaşmalıyıq, yəni afşinin əyin ölçüsünə uyğunluğu başqa nəsnələrdən artıqmı olmalıdır?

-Düzü mən bunu bilmirəm, sən bilirsənsə, de görək.

-Ölçüyə uyğun düzəldilmiş afşin, əyinə yaxşı oturduğundan, onu geyinən adama, ölçüyə uyğun olmayanından yüngül gəlir, baxmayaraq ikisinin də çəkisi birdir. Ölçüyə uyğun olmayan afşinin bütün ağırlığı duyulur, o əyini bir neçə yerdən bərk sıxır, buna görə də onu geyinən adam, əynində ağırlıq duyur, tərpənişlərində sıxıntı çəkir. Ölçüyə uyğun afşin əyinə yatımlı olduğundan, o az qala bədənin bir üyəsinə(üzvünə) çevrilir, ona görə də ağırlığı duyulmur.

-Sokrat, sən mənim əl işlərimin üstünlüyünü olduqca gözəl açıqlaya bilirsən, ancaq görürsənmi, çoxusu gedib ölçüyə uyğun olmayan, bir başqaları da bər-bəzəkli, parlaq boyaqlı, qızıla tutulmuş, afşinlər alırlar.

-Onlar ölçülərinə uyğun olmayan belə afşinləri almaqla, məncə, özlərinə bəzəkli, qızıla tutulmuş, ağır yük alırlar.

Pistiy, səndən bir söz də soruşum, insanın bədəni bir anlıq da olsa tərpənməz qalmır, o, əyilir, düzəlir, ara vermədən hey tərpəşir: adamın ayaqdan-başa bütün əynini tutan ölçüdə afşin düzəltmək olarmı, yəni, tərpənəndə onun əlinə-ayağına dolaşmasın?

-Yox, beləsini düzəltmək baş tutan iş deyil.

-Sən demək istəyirsən, ölçüyə uyğun düzəldilən afşin, insanın bütün əynini tutmaq üçün deyil, əl-ayağına dolaşmayıb da işinə ən çox yarayanıdır, eləmi?

-Bu bilməcəni nə yaxşı açdın, Sokrat, sən mənim işimi bütün incəliklərinə kimi anlayırsanmış!

XI BAŞLIQ

{Feodota ilə, kişi-qadın arxadaşlığı ilə bağlı danışıq}

Ötən çağlarda Afinada, Feodota adında çox gözəl bir qadın yaşayardı, kişilərdən kim ona vurulduğunu dilə gətirsəydi, götür-qoy eləmədən onu öz yatağına buraxardı. Bir gün dinləyicilərindən biri, Sokratın yanında bu qadından söz açıb, onun dillə deyiləsi olmayan sonsuz gözəlliyindən, çoxlu rəssamların gəlib, onun özünün yolverilən ölçüdə göstərdiyi bədən gözəlliklərini çəkdiklərindən danışdı.

-Gərək biz də gedib ona baxaq, - Sokrat dilləndi,- belə bitkin gözəlliyi eşitməklə yox, görməklə duymaq yaxşıdır.

-Gəlin elə indicə, mən sizi onun yanına aparım,- danışan adam Sokrata üz tutdu.

Sokratgil, Feodotanın evinə gəlib, onun geyim-gecimli dayandığını, bir rəssamın isə ona baxıb, şəkil çəkdiyini gördülər. Onlar da dayanıb, vurğun baxışları ilə, uzun uzadı bu gözəl qadını süzdülər.

Rəssam işini qurtarandan sonra Sokrat dilləndi:

-Arxadaşlarım! İndi görəsən, burada kim kimə sağ ol deməlidir,–öz gözəlliyini açıb göstərdiyinə görə, bizmi Feodotaya, yoxsa ona belə vurğunluqla baxdığımıza görə, omu bizə? Onun gözəlliyini açıb göstərməkdən qazancı varsa,- o bizə sağol deməlidir, onun gözəlliyinə baxmaq bizim qazancımızdırsa,- biz ona, deyilmi?

Oradakılardan kimsə, Sokratın bu sözlərinin çox tutarlı olduğunu dedi.

-Bax belə,- Sokrat dilləndi,- Feodota elə indidən istədiyini alıb: biz bayaqdan vurğunluqla ona baxırıq, gözəlliyini öyürük, sonra biz gedib bunu başqalarına danışanda, onun qazancı bir az da artacaq; bizi isə gördüyümüz bu gözəlliyə toxunmaq, onu oxşamaq istəyi çulğayıb, görünür, hamımız buradan çılğınlaşıb gedəcək, sonradan bu gözəlliyin əlçatmazlığını anıb da qüssələnəcəyik. Bu isə o deməkdir, artıq biz onun vurğunlarına çevrilmişik, o da bizim vurğunluğumuzun qaynağı olmuş.

-And olsun Zevsə, - Feodota dilləndi,- dediyiniz düzdürsə, onda mənə vurğunluğunuza görə, sizə sağol demək, mənim boynuma düşür.

Sokrat yan yörəyə göz gəzdirib, Feodotanın yaraşıqlı, gözəl paltarlarla çox yaxşı geyinib gecindiyini də, başında çoxlu yaxşı geyinmiş gözəl qulluqçuların olduğunu da, evinin çox varlı gözə dəydiyini də, ayırd edə bildi. Sonra Sokrat ona üz tutub soruşdu:

-Feodota, mənə de görüm, sənin çoxlu torpağınmı var?

-Bir azı da yoxumdur.

-Bu evin sənə qazanc gətirirmi?

-Yox, bundan qazancım yoxdur.

-Onda sözsüz, sənin nəsə bir əlyerin(emalatxanan) var?

-Sözün düzü, yoxumdur.

-Onda sən necə dolanırsan?

-Mənimlə arxadaşlıq eləyənlər əl tuturlar, onunla dolanıram.

-And olsun Heraya, Feodota, - Sokrat dedi,- nə gözəl işin var sənin: arxadaşlar sürüsü saxlamaq, qoyun-keçi sürüsü, inək naxırı saxlamaqdan çox qazanclı imiş! Yaxşı, onda de görək, sən oturub hansısa arxadaşının, çibin bala uçub qonan kimi, gəlməsini gözləyirsən, yoxsa onları bura dadandırmaq üçün bir yol da bilirsən?

-Yəni, arxadaşlarını özünə bağlamaq üçün bir yolmu da olur?

-And olsun Zevsə, belə bir yol var, lap desən, hörümçəyin elədiyindən də yaxşısı, sən bilirsən də, onlar yaşamaq üçün öz ovlarını necə ələ keçirirlər?—çox incə bir tor toxuyub qururlar, tora düşənlər də onların yemi olur.

-Demək istəyirsən, mən də tor toxuyub, qurmalıyam?

-Yox, sən arxadaş ələ keçirmək kimi uğurlu ovu belə qolay sanma. Sən bilmirsənmi, çox da elə dəyərli olmayan dovşanı ovlamaq üçün, adamlar neçə-neçə

qurğular düşünürlər? Dovşanlar yemlənmək üçün gecə gəzirlər, bunu bilən ovçular gecə ovuna çıxmağı bacaran itlər yetişdirirlər, onlarla da dovşanları yaxalayıb tuturlar. Gündüzlər isə dovşanlar yuvalarına çəkilib gizlənirlər, onda ovçular başqa itləri, iyinə görə dovşanın izinə düşüb onu axtaran, gəlib onu yuvasında yaxalamağı bacaran itləri ova qoşurlar. Dovşanın bərk qaçdığını, bir anda aradan çıxıb gözdən itdiyini bildiklərindən, bu ovçuların bir də çox bərk qaçan itləri də olur, yeri gələndə onları qısqırıb, dovşanı tuturlar. Ancaq olur, dovşanlar bu itlərdən də qaçıb, qurtula bilirlər, onda ovçular dovşanın yolunun üstündə tor qururlar, bərk qaçan dovşan tora ilişib qalır.

-Yaxşı, desənə bir, mən öz arxadaşlarımı necə tutum?

-And olsun Zevsə, bax belə,- it yerinə sən elə bir adam tapırsan, o, gözəllik vurğunu olan varlı kişiləri axtarıb tapır, tapanda da elə bir qurğu qurur, onlar özləri gəlib sənin toruna düşürlər.

-Mənim torum nə gəzir, ay Sokrat!

-Bir torun var sənin, insana dolaşıb onu saran, bir yana çıxmağa qoymayan tor, sənin gözəl bədənin, onda yer alan gözəl könlün ola bilər: o könül sənə, insanların ürəyinə od salmaq üçün onlara necə baxmağı, bununla da onlara, çox dadlı duyğular yaşatmağı öyrədə bilər; könlün, sənə ürəkdən vurğun olanları istiqanlılıqla, sevgi ilə qarşılamağı, yalançı "vurğunlardan" uzaq gəzməyi anladacaq; öz könlündən yaxşı baş açа bilsən, arxadaşın ağrınırsa, onu yoluxub qayğısını çəkməyi də, onun işində böyük bir uğuru varsa, sevincinə ortaq olmağı da, sənə ürəkdən bağlanıb, yanından əl çəkmirsə, ona ürəkdən bağlanmağı da, habelə bunun kimi çoxlu incəlikləri də bacaracaqsan. Qaldı yataqda oynaqlaşıb, arxadaşlarını yetərincə əyləndirməyinə, sənin bu işdə, incə olduğun kimi, öyrəncəli də olduğuna inanıram; elə bilirəm, arxadaşlarının sənin üçün necə dəyərli olduğunu, təkcə sözdə yox, işdə də onlara göstərə bilirsən.

-Yox, and olsun Zevsə,- Feodota dedi,- mənim bu işdə azacıq da olsa öyrəncəm yoxdur.

-Ancaq ən yaxşısı, adamların qılığına girməyi bacarmaqdır: kimisə güclə tutub özünə arxadaş eləmək olmaz; bu "yırtıcını" elə oxşamaq, əyləndirmək gərəkdir, o öz istəyiylə ilişsin, ələ öyrəşsin, sonra da qaçmaq istəməsin.

-Sən düz deyirsən, - Feodota Sokratla anlaşdığını bildirdi.

-Sən gərək öz işinə belə başlayasan, sənə yaxınlaşan kişilərdən elə qulluq göstərməyi umasan, bu onlara çox da başağrısı verib bezdirməsin, sonra da özün onlara göstərdikləri qulluğun qarşılığını qaytarmalısan: belə qarşılıqlı anlaşma ilə adamlar arxadaş ola bilirlər, biri-birini sevə, yaxşılıq eləyə bilirlər. Onların ən çox bəyəndiyi isə, sözsüz, səndən yana-yana istədiklərini, onlara verməyin olacaq: bilirsən, ən dadlı yeməyi belə, aclığın olmadan yeyəndə ağıza dadsız gəlir; adam tox olanda, ən dadlı yeməkdən belə iyrənə bilər; ancaq adam ac olanda, yemək dadlı olmasa belə, ona yapışır.

-Düzünə qalsa, mən bilmirəm, adamlarda necə özümə qarşı aclıq duyğusu yarada bilərəm?

-And olsun Zevsə, bax belə. Öncə, onlar tox olduqca, sən özündə olanları, yəni onların səndən almaq istədiklərini sezdirməyəcəksən, onların bir az da bərk acmağını, səndə olanlara qarşı istəklərinin coşmasını gözləyəcəksən; onlarda bu istək yarandımı, onda sən özündə olanları gözə soxmadan, ağıryanalıqla andıracaqsan,- yəni, sən özünü onlara sırımırsan, sənin üçün bu iş elə də önəmli deyil,- beləliklə də onların bu istəklərinin çılğınlaşmasını gözləyəcəksən: bu anda sənin, onların çılğın istəklərinə görə verdiklərinin dəyəri, onların istəkləri yetərincə olmayanda verə biləcəyindən qat-qat artıq olacaq.

Bu yerdə Feodota dedi:

-Sokrat, gəlsənə bu arxadaş ovunda mənim yardımçım olasan?

-Məni dilə tuta bilsən, bu da olan işdir.

-Səni yola gətirmək üçün, mən nə etməliyəm?

-Mənim bu işdə sənə yardımçı ola biləcəyimi düşünürsənsə, məni bu işə qoşmağın yolunu da özün tapmalısan.

-Onda sən bacardıqca, mənim yanıma tez-tez gəlsənə.

Burada Sokrat, günlərini boş-boşuna keçirən dövlət qulluqçularına sataşmaq üçün, sözü gülməyə salıb, sanasan başının bərk qarışdıq olduğundan söz saldı.

-Yox, Feodota, mənim boş vaxtım nə gəzir: öz işlərim, üstəlik dövlətin işləri, bütün günümü əlimdən alır. Bundan başqa, mənim çoxlu arxadaşlarım var, onlar məni

gecə-gündüz öz yanlarından qırağa buraxmırlar: onlar məndən tovlayıcı (ovsunlayıcı) sevgi içkiləri düzəltməyi, istədiklərini ələ keçirmək üçün qapqanlar qurmağı öyrənirlər.

Sokratın sözü gülməyə saldığını anlamayan Feodota soruşdu:

-Doğrudanmı, sən belə işlərdən baş açırsan, Sokrat?

-Sən nə bilmişdin, - Sokrat sözünün ardını gətirdi,- nədən bu Apollodorla, Antisfen məndən uzaqlaşa bilmirlər? Nədən Kebetlə, Simmiy durub Fivadan mənim yanıma gəlirlər? Tovlayıcı içkilər, gizlin qurğular, dönərgə(bəxt) diyircəkləri olmadan bunu necə eləmək olar?

-Nə olar, Sokrat, o dönərgə diyircəyinin birini də mənə versənə, mən onunla, birinci elə səni özümə bağlamaq istərdim!

-Yox, and olsun Zevsə, istəmirəm sən məni özünə sarı çəkəsən; sənin mənim yanıma gəlməyinə isə sözüm yoxdur.

-Yaxşı gələrəm, - Feodota dedi, - ancaq söz ver, məni evinə buraxacaqsan!

-Niyə də olmasın, ancaq burada bir iş də var, qabaqcadan deyim biləsən: sən bizə gələndə, mənim yanımda səndən də qat-qat sevimli olan bir qadın olmasa, onda səni evimə buraxaram!

XII BAŞLIQ

{Epigenlə, bədənin sağlamlığı ilə bağlı danışıq}

Bir gün Sokrat, gənc olsa da, çox cılız bədən quruluşu olan, arxadaşı Epigenə üz tutub dedi:

-Sən necə də gücsüz görünürsən, ay Epigen!

-Sözün düzü, mən güclü olmağı ummuram da, Sokrat, - Epigen dedi.

-Düz eləmirsən, sənə ən azından Olimpiya yarışlarına qatılanlar kimi güclü olmaq gərəkdir. Yoxsa birdən, indi afinalıların yeri gəldi, gəlmədi tutaşdıqları ölüm-dirim savaşlarına düşsən, neynərsən? İndi çoxları, gücsüz olduqlarından yağı ilə savaşlarda ölüb gedirlər, gücsüz olduğuna görə döyüşdən qaçıb, öz adlarını batıranlar da az deyil; eləsi də var, gücsüz olsa da, ölümdən qurtulur, ancaq tutuqlanıb, qalan bütün ömrünü qul olaraq yaşayır, sonra da görürsən, özünü qul olmaqdan qurtarmaq üçün elə axça ödəməli olur, varı-yoxu əlindən çıxır, qalan ömrünü yoxsuluqla, ağrı-acılarla yaşamalı olur; bir çoxları da öz gücsüzlüyünə görə gözüqıpıq olur, qorxaq olduqları üçün, yurddaşları da onları saya salmırlar.

Sən yəni doğrudanmı, gücsüz olduğuna görə üzləşə biləcəyin bu qara günləri qulaq ardına vurub, düşə biləcəyin belə yamanlıqlara dözə biləcəyini düşünürsən? Məncə, belə alçalmağı boynuna götürməkdənsə, yaxşısı, bədənini sağlam, güclü edəcək əməklərə qatlaşmaqdır.

Yoxsa elə düşünürsən, gücsüz olmaq sağlam olmaq deməkdir, olmaya elə sanırsan, bədənini çalışdırmadan da sağlam olmaq olar? Bunu da deyim, güclü adamla gücsüz adamların ömürləri də biri-birinə oxşamaz. Bədənləri sağlam, güclü olanlar yağılarla savaşdan sağ çıxırlar, savaşın bütün ağrı-acılarına dözə bilirlər; belələri arxadaşlarına da yardımçı olurlar, yurdu üçün də yararlı işlər görüb, ad-san qazanır, hamının gözündə ucalırlar, ömürlərinin yaşlı çağlarını da dinc yaşayırlar, desən, öz uşaqlarının dolanışıqları üçün də nəsə qoyub gedirlər.

Afina dövləti xalqa, savaşda işə yarayacaq döyüş bacarıqlarını öyrətməyin qayğısına qalmır, ancaq bu o demək deyil, hamı bu işə barmaqarası baxmalıdır: yox, tərsinə, hamı da bu döyüş bacarıqlarına yiyələnməyə çalışmalıdır. Buna da arxayın ola bilərsən, bədənini ağırlıqlara dözməyə alışdıranda, nə Olimpiya yarışlarında, nə də ayrı durumlarda başıaşağı olarsan. İnsan bütün gördüyü işlərdə, bədənindən yararlanmadan keçinə bilmir; eləcə də ağır əməklərə qatlaşmaqla başa gələn işlərdə bədənin sağlamlığı bir az da artıq işə yarayır. Birbaşa əl əməyinə bağlı olmayan işlərdə, elə götürək yaradıcılığı, bədənin sağlamlığından çox nəsnələr asılı olur, -bunu kim bilmir?- yaradıcı adamların böyük yanlışları, çox vaxt sağlamlıqlarının pozulmasına görə olur. Bundan başqa, unutqanlıq, sarsıntılar, qanı qaralıq, dəlilik kimi düşkünlüklər, çoxunda, bədənin sağlam omamasından törəyir, belələri isə, bildiyin kimi, az-çox bildiklərini də unudurlar. Ancaq kimin bədəni sağlamdırsa, belə çatışmazlıqlardan qorxusu yoxdur; yaşamda qazanılan uğurların bir ucu da sağlamlığa, güclü bədənə bağlıdır. Sağlam, güclü olub, belə üstünlüklər qazanmaq olursa, bunu eləməmək saçmalıq sayılmazmı?

Sonuncu sözüm: yan-yörənin sənin gücsüz, cılız bədəninə baxıb irişməsi yaxşıdır, yoxsa bədənini çalışdırmaqla gücləndirmək, gözəlləşdirmək, sonra da, vurğunluqla sənə dikilən baxışları görmək? Sağlamlığına başısoyuq yanaşmaqla bunu ömründə görə bilməzsən: bu öz-özünə yaranan üstünlük deyildir.

XIII BAŞLIQ

{Sokratın, çoxlu başqa konularla bağlı dedikləri}

Bir gün kimsə, bir tanışına alqış(salam) desə də, ancaq onun,–alqışını saya salmadan ötüb keçdiyini danışıb, incik-incik söyüb-söylənirdi.

-Çox gülməlidir, - Sokrat ona üz tutub dedi,- birdən sənin yoluna salxaq(şikəst), yəni bədənində çatışmazlığı olan birisi çıxardısa, sən özündə də bu çatışmazlığın olmadığına görə, ondan inciməzdin; indi qanacağı yerində olan sənin kimisinin qarşısına, qanacağı çatışmayan birisi çıxıbsa, sən nədən, buna görə yanıb yaxılırsan?

Başqa birisi, aclığı oldu-olmadı, özünü saxlaya bilməiyib, elə hey yediyindən, gileylənirdi.

- Bunun qabağını, ancaq qanacaqla almaq olar,- Sokrat ona dedi.

-Necə yəni?

-Yeməyini azaltmaqla. Bunu elədinmi, yaşayışın gözəl olacaq, ucuz başa gələcək, özün də sağlam olacaqsan.

Başqa birisi, vasvasılıq eləyib, qapısındakı içməli suyun isti olduğu üçün, içməyə yaramadığından gileylənirdi.

-Belədirsə,- Sokrat ona dedi,- onda sən isti suyla yuyunmaq istəyəndə, bu su sənin işinə çox yarayar.

-Yox ey, bu su yuyunmaq üçün soyuqdur.

-Qulluqçuların üçün necə, bu su içməyə, yuynmağa yarayırmı?

-And olsun Zevsə, mən düzü baş açа bilmirəm, necə olursa, onlar bu suyu içirlər də, onunla yuyunurlar da.

-Səncə, hansı su isti olar, sənin qapındakı, yoxsa Askelepin* ocağındakı(məbədindəki)?

-Askelepin ocağındakı isti olar.

-Çimmək üçün, sənin qapındakı, yoxsa Amfiray* ocağındakı su soyuq olar?

-Amfiray ocağındakı soyuqdur.

-Onda belə çıxır, sən burada boş-boşuna hay-küy salırsan, özünü: qulluqçularından da, ağrınan kimsələrdən də, dözümsüz aparırsansa, belə çıxır, sən vasvasılıq eləyirsən, bunun başqa adı yoxdur!

Birisi öz qulluqçusunu, amansızcasına döymüşdü. Sokrat ondan, qulluqçusunu nədən belə döydüyünü soruşdu.

-Bu yaramaz, sucuqqarın(şirniyeyən), iş yarıtmayan, əliəyri, çox da ərincəkdir, ona görə.

Sokrat başını bulayıb dedi:

-Sən bir dərindən düşün, belə bir qulluqçun olduğuna görə, sənimi döymək gərəkdir, yoxsa onumu?

Birisi yolun uzunluğundan ərinib, Olimpə qalxmaqdan çəkinirdi.

-Sən bu yola çıxmağa, niyə belə ərinirsən? - Sokrat ondan soruşdu.- Bütün günü evdə o baş bu başa var-gəl eləmirsənmi? Orayacan keçib gedəcəyin yolun da belə olmayacaqmı?- bir az gedib, obaşdanlığını yeyəcəksən, sonra bir az da gedib, günortanı yeyib, dincələksən, habelə bunun kimi. Sən elə evdə beş-altı günə addımladığın yolu uc-uca düzsən, Afinadan Olimpəcən çatar! Bundan başqa, bir gün tez yola çıxsan, gecikməzsən də: gündüzlər, istidə çox yol getmək adamı yorur, bir gün tez çıxsan: arxayınca, özünü yormadan gedərsən; ona görə də yolu yeyin getməkdənsə, evdən bir gün qabaq çıxmaq yaxşıdır.

Başqası, keçib gəldiyi uzaq yolda, çox yorğun düşdüyündən gileylənirdi. Sokrat ondan yolda yük daşıyıb daşımadığını soruşdu.

-Yox, and olsun Zevsə,- o, dedi,- çiynimdə büründəkdən başqa nəsə olmayıb.

-Yola tək çıxmışdın, yoxsa qulluqçun da vardı?

-Qulluqçu ilə çıxmışdım.

-O da yüksüz idi?

-Yox, and olsun Zevsə, yorğan-döşək, yeyəcək, bir az da başqa yükümüz vardı, hamısını da o daşıyırdı.

-Yolda təntiyib eləmədi, qulluqçun?

-Yox, məndən də yaxşı yeriyib gəlirdi.

-Birdən bu yol boyu, onun daşıdığı yükü sən daşısaydın, necə olardı?

-Yaman günə qalardım, and olsun Zevsə, doğrusu bu yüklə o yolu keçib gəlməyə gücüm də çatmazdı.

-Öz qulundan az dözümlü olmaq, sənin kimi özgür bir kimsəyə yaraşarmı, özün də gimnastika çalışmalırına qatıldığını deyirsən?

XIV BAŞLIQ

{Yeməkdə ölçü gözləmək}

Bir gün, bir neçə adamın düzəltdiyi ellik günorta yeməyində, Sokrat yemək gətirən adamların birilərinin az, o birilərinin çox yemək gətirdiklərini, özü də çox yeməklə gələnlərin gətirdiklərini masanın özlərinə yaxın yerlərinə düzdüklərini görəndə, qulluqçuları çağırıb buyurdu: çalışın, bütün yemək ləri bir yerə toplayıb, ortaya qoyun, bu da olmasa, onları qıraqda bir yerə yığıb, oturanların arasında tən bölün, qoy çox yemək gətirənlərin, hamı üçün olan yeməkdən özünə çox götürməyə qanacaqları yol verməsin. Ellik günortasında, öncə çox yemək gətirməklərini gözə soxub, sonradan öz yemək ləri ilə qarınqululuq eləyənlər, bundan sonra, özlərini başqalarına göstərmək üçün elədikləri belə yersiz davranışlarından çəkindilər.

Başqa bir gün, qonaqlıqda, bir acgöz gəncin çörək yeməyib, qarnını ancaq ətlə doyurmağa çalışdığı Sokratın gözünə sataşdı. Bu anda qonaqlıqdakı adamlar arasında, qrammatikadan: sözlərin biri-birinə necə qoşula biməsi konusunda, danışıq qızşmışdı. Sokrat da sanasan, bu danışığa qoşulurmuş kimi dilləndi:

-Biz adama hansı işinə görə “ətyeyən” adını veririk? Çörək qurtarmayana kimi, hamı əti çörəyə yavanlıq eləyib yeyir; ancaq məncə buna görə adama “ətyeyən” demək düz olmazdı.

-Düzdür, buna görə adama “ətyeyən” deyilməz,- oradakılardan biri dilləndi.

-Onda biri əti çörəksiz yeyirsə, özü də bunu bədənini atletika yarışlarına uyarlı etmək üçün yox, qarınqululuqdan eləyirsə, ona “ətyeyən” demək olarmı?

-Buna da deməyib, kimə deyəsən,- yenə bayaqkı adam dilləndi.

-Kimsə azacıq çörəklə çoxlu ət yeyirsə necə?- bir başqası soruşdu.

-Mənə elə gəlir, - Sokrat dilləndi,- elə onu da “ətyeyən” adlandırmaq düzgün olardı; görünür bütün adamlar tanrılardan çörək bolluğu diləyəndə, bunlar tanrılardan ancaq ət bolluğunu diləyirlər.

Sokratın bu sözlərindən sonra, acgözlük eləyən gənc suçunu anlayaraq, ət yeməkdən çəkilməyib, ancaq bir az şörək də götürdü. Bunu görən Sokrat dözməyib, yanındakılara onu göstərdi:

-Ona göz qoyun, görün o çörəyi ət kimi yeyəcək, yoxsa əti çörək kimi.

Ayrı bir qonaqlıqda, Sokrat birinin ağzına bir tikə çörək atıb, sonra acgözlüklə masanın üstündəki bütün yeməklərdən üst-üstə, bacardıqca ağzına doldurduğunu gördü.

-Belə bir durumu göz önünə gətirə bilərsinizmi, - Sokrat dedi,- bir neçə, ayrı-ayrı yeyilən yemək ləri, ağzında biri-birinə qatıb, beləliklə də qızlı(bahalı) yemək yediyini düşünən birisiylə, bütün acı-ucuların (ədviyyatların) hamısını birdən ağzına töküb yaxşı dad duyacağını düşünən adamı yanaşı qoymaq? Birincilər, aşçıların biri-birinə qatmağı düzgün saymadıqlarını qarışdırıb, sanasan özlərinə, qızlı(bahalı) yemək düzəldir; o birilər isə biri-birinə qatışmayan nəsnələri qatışdırıb, aşçıların “bacarmadığını” eləyir, onların yanlışını “düzəldirlər”. Aşçıların öz işlərini dərindən bilən kimsələr olduğu hamıya bəllidirsə, onda başı çıxmayanların onların işlərinə düzəliş verməsi, gülünc deyilmi? Bundan başqa, bir neçə yeməyi biri-birinə qatıb birdən yeyənin, bir çatışmazlığı da olur: birdən onun qabağına ancaq bir yemək qoysalar, bu yemək ona doyumlu görünmür, qarnı doyur, ancaq gözü doymur. Ancaq kimsə bir yeməyi, çörəyinə yavanlıq eləyib yeməyə alışıbsa, qabağına gələni yeyib, gözütox durub gedir.

DÖRDÜNCÜ KİTAB

I BAŞLIQ

{Oxuyub öyrənməyin gərəkliyi ilə bağlı danışıq}

Sokrat harada olur olsun, nə eləyir eləsin, hamısında oracan işə yarayan adam idi, onunla oturub durmağın, yanında olub dediklərinə qulaq asmağın gərəkliyini, oxuyub-yazması olmayanlar belə duya bilirdilər. Özü olmayanda belə, Sokratla keçən günləri anmağın özü, onunla danışmağa, onu eşitməyə alışmış adamların işinə yarayırdı. Onun gülməyə salıb dediyi sözlər də, çox dərin konularda olan danışdıqları kimi, dinləyicilərinin ürəyinə yatır, onlara nəyisə öyrədir, hansısa bir yaxşılığa sarı yönəldirdi.

Birdən Sokrat durub desəydi, kiməsə vurulub, hamı onun bədəncə gözəl olan birinə yox, könülcə yetkin olan kimsəyə bağlandığını anlayırdı. Sokrat kiminsə yaxşı oxuyub-öyrənmək bacarığı olduğunu deyəndə, onun öyrənmək istədiyi biliklərin incəliklərini tez qavraya bilməsini, öyrəndiklərini unutmamasını; bir də onun, ev-eşik qurmaqdan, dövləti yönətməkdən tutmuş, adamların bütün qalan işlərinəcən yararlı olan bilikləri öyrənməkdə çalışqan olmasını anladırdı. Kim belə biliklər qazana bilirsə,

Sokratın deməsinə görə, o təkcə öz işlərini yaxşı aparmaqla, ancaq özünü ağ günə çıxarmaqla qalmır, çoxlu adamları, o sıradan dövləti də uğura çatdırmağı bacarır.

Ancaq Sokrat adamlara yanaşanda, onların hamısına bir gözlə baxmağı da sevməzdi: kimsə anadangəlmə vergili olduğunu deyib, oxuyub-öyrənmək üçün çalışmazdısa, onlara üz tutub, anadangəlmə vergisi olanların başqalarından artıq oxuyub öyrənməli olduğunu deyərdi. Sözünü doğrultmaq üçün belə bir örnək gətirərdi: yaxşı qandan olan atlar, doğuluşlarından çox qızğın, diribaş olurlar, onları erkən yaşından öyrətməyə başlayanda, başqa atlardan qat-qat üstün olurlar, ancaq onları doğuluşundan başlı-başına buraxanda, sonradan ipə-sapa yatmayan, miniyə yaramayan olurlar, onları sonradan öyrətmək də olmur. Bunun kimi, yaxşı qanlı sayılan itlər də, onları erkən yaşlarından alışdıranda, yorulmaq bilməyən, yırtıcılarla boğuşda basılmayan, ovda çox zirək olurlar, alışdırmayanda isə sümsük, quduz, azğın olub, bir işə də yaramırlar. Eləcə də, yüksək vergili kimsələrin anadangəlmə güclü öpözləri olduğundan, başladıqları işə ürəklə girişdiklərindən, onlar yaxşı oxuyarlarsa, insanı yaxşı işlərə alışdıran gərəkli biliklərə yiyələnərlərsə, çox yetkin, hamının işinə yarayan adamlar olurlar, bir sözlə böyük işlər görməyi bacarırlar. Ancaq oxumayanda, anlamaz olaraq qalanda, onlar olduqca saçma, yaramaz adamlara çevrilirlər: insanca yaşamağın nə demək olduğunu bilməzlikdən, oğurluğa, quldurluğa qurşanırlar; onlar öz qılıqlarına görə, ötkəm, yekəbaş, tərs olurlar, onları başlarına batan hansısa yanlış düşüncədən qoparıb ayırmaq olmur, buna görə də, belələrinin yamanlıq eləməkdə də böyük “bacarıqları” olur.

Kimsə özünün varlı olmasına güvənib, oxuyub-öyrənməyə soyuq yanaşardısa, axçasına güvənib bütün işlərini yoluna qoyacağını, üstəlik toplumda sayğı yiyəsi ola biləcəyini düşünərdisə, Sokrat onlara yanıldıqlarını anladar, bilik qazanmadan, yaxşını yamandan ayıra biləcəyini düşünməyin, qanmazlıq olduğunu başa salardı; ancaq axça gücünə, yaxşı yaşayış qura biləcəyini düşünməyi o, qanacaqsızlıq sayırdı. Onun deməyinə görə, ancaq başı düzgün işləməyən adamlar, əllərindən bir iş gəlməsə də, öz işlərini yoluna qoya bilməsələr də, bütün işlərinin yerli-yerində olduğunu düşünərlər; yenə də, ancaq qanmaz adamın ürəyindən keçə bilər, o ancaq elə varlı olduğu üçün də istədiyi yetkinliyə çata bilər, habelə gərəkli bir iş görməsə belə, ad-san yiyəsi ola bilər.

II BAŞLIQ

{Evtidemlə, oxumağın yararları ilə bağlı danışıq}

İndi isə sizə, Sokratın özünü yalandan oxumuş kimi göstərib öyünənləri, necə yerində oturtduğundan danışmaq istəyirəm. “Gözəl” ayamalı Evtidem, görkəmli şairlərin, filosofların kitablarını toplayıb evində saxlayırdı, onları oxuyub-öyrənməyə çalışmır, ancaq çoxlu kitab toplaya bildiyinə görə də, yaşıdları arasında özünü dartıb, çox bilikli birisi kimi aparır, yan-yörəsinə özünün sözçülükdə(oratorluqda), dövlət yönətimçiliyində, dərin biliyi olduğunu aşılamağa çalışırdı, Sokrat da bunu bilirdi. Sokrat onu da bilirdi, Evtidem gəncliyindən buçağacan, Xalq yığıncaqlarına getmir, oralara gedib çıxanda da, uzaqbaşı yaxınlıqdakı yəhər-yüyən düzəldilən əlyerində(emalatxanada) oturub laqqırtı vurmaqla gününü keçirir. Sokrat da bir gün, öz arxadaşları ilə bura gəlib çıxdı.

Sokratın arxadaşlarından biri, Femistoklun nədən belə ad-san qazandığını, dövlətin ağır günlərində, niyə bütün yurddaşlarının ona güvəndiklərini soruşdu: görəsən, o anadangəlmə vergili olduğuna görəmi, bu işləri yaxşı bacarırdı, yoxsa hansısa bilici adamın yanında olub, bunları ondan öyrənmişdi? Sokrat Evtidemi danışığa çəkmək üçün, ortaya söz atdı: ən yüngül əl işini öyrənmək üçün də, hansısa əlişçinin(ustanın) yanında öyrənçi olmaq gərəkirsə, onda dövləti yönətmək təki ağır bir işi, kiminsə öz-özünə öyrənə biləcəyini düşünmək anlamazlıq olardı.

Başqa bir gün, Sokrat Evtidemin yenə də bu əlyerində olduğunu gördü, Evtidem isə özünü elə aparırdı, sanasan Sokratın danışdıqlarını dinləmək onu ilgiləndirmir, o, yaxınlaşanda durub getmək istədi. Sokrat onu dayandırıb dedi:

-Arxadaşlar, buna inanın, bir az da keçsə, dövlətin ən ağır işlərinin yoluna qoyulmasında başlıca sözü Evtidem deyəcək: bu onun oturuşundan-duruşundan da açıq görünməkdədir. Mənə elə gəlir, o, Xalq yığıncağında eləyəcəyi çıxışını da yazıb bitirib, indi də bizim yanımızda dayanmaq istəmir, birdən deyərlər, dediklərini kimdənsə öyrənib. Mənə elə gəlir, o, Xalq yığıncağındakı çıxışını belə başlayacaq: "Mən haçansa, kimsədənsə, nəyisə öyrənməmişəm, ay afinalılar, baxmayaraq, eşitdiyimə görə adamlar, uzun illər çalışandan sonra bilikli sözçülər, yetkin dövlət qulluqçuları kimi yetişirlər, ancaq mən onlarla görüşüb, nəsə öyrənməyi özümə yaraşdırmadım; mən ona da çalışmadım, hansısa işin bilicisi, mənim öyrətmənim olsun; mən kimdənsə nəsə öyrənmək bir yana qalsın, kiminsə mənim başqasından bilik ala biləcəyimi düşünməsindən belə qorxuram. Buna baxmayaraq, mənim sizə verəcəiyim dəyərli öyüdlər, öz-özünə gəlib mənim başıma dolur, mən də indi onları sizə deyəcəyəm". Belə bir çıxış məncə, dövlət qulluğuna girmək istəyən həkimin də işinə yarayardı, o bir az dəyişikliklə belə deyərdi: " Mən bir gün də olsa belə, həkimliyi öyrənməyə çalışmamışam, ay afinalılar, nə də yol verməmişəm, hansısa bilikli bir həkim mənə bu işi öyrətsin, qorxum təkcə ondan olub, birdən mənim həkimliyi kimdənsə öyrəndiyimi düşünən olar. Buna baxmayaraq, siz məni dövlət həkimi qulluğuna işə götürün, mən də qolumu çərmayıb, sizlərin sağlamlığınızı qoruyum".

Toplaşanlar Sokratın bu sözlərinə uğundular.

Evtidemin də artıq, Sokratın sözlərinə qulaq kəsildiyi duyulurdu, ancaq yenə özünü o yerə qoymur, ağıryana görünmək istəyirdi. Sokrat onu yerindən tərpətmək üçün, sözünün ardını gətirdi:

-Doğrudan da bu, mənə çox anlaşılmaz görünür, kimsə kifara çalmağı, fleyta çalmağı, habelə at sürməyi öyrənibsə, çalışır, yetkinləşmək üçün bir az da artıq çalışsın, özü də bunu təklikdə yox, bu işin bilicilərinin yanında eləməyə çalışır; bu yolda ən ağır əməklərə qatlaşır, bütün gücü ilə çalışır, yalnız bircə istəyi olur: nə ola, bilicilərin ona verdiyi öyüdləri yerinə yetirə biləydi, o, öz işində başqa sayaq ad-san qazana

bilməyəcəyini anlayır. Ancaq Xalq yığıncağının sözçüsü olmaq, yüksək dövlət qulluğunda işləmək istəyən biriləri düşünürlər, bunun üçün nə çalışıb-vuruşub bu işi öyrənmək, nə də özünü bu işə öyrəşdirmək gərək deyil, bu bacarıq onlarda öz-özünə yaranacaq. Öz aramızdır, dövlət qulluğu yuxarıda sadaladığım işlərdən qat-qat ağırdır,- oracan ağırdır, burada işləməyə başlayanların çox azı uğur qazana bilirlər, buradan aydın deyilmi, dövlət qulluğunda işləməyi öyrənmək istəyən, bu işin incəliklərinə yiyələnmək üçün, gərək başqa işləri öyrənmək istəyənlərdən də qat-qat artıq çalışsın?

Evtidemin yanında Sokrat qabaqca belə sözlər danışmaqdan başladı; Evtidemin onun sözlərinə getdikcə artıq qulaq kəsildiyini, danışıqdan yayınmadığını duyan Sokrat, bir gün yəhər-yüyən əlyerisinə təkcə gəldi.

Evtidem gəlib onunla yanaşı oturanda, Sokrat soruşdu:

-Evtidem, de görüm, mən düzmü eşitmişəm, deyirlər, sən ünlü bilgələrin çoxlu sayda kitablarını toplaya bilmisən?

-And olsun Zevsə, elədir Sokrat,- çalışıram bundan sonra da çoxluca toplayam.

-And olsun Heraya, -Sokrat dedi, - mən sənin bu işini alqışlayıram, sən qızıl-gümüş yığmaqdansa, özünə bilik saxlancı düzəldirsən: görünür sən artıq bilirsən, qızıl-gümüş adamı yetkinləşdirə bilməz, ancaq kim bilgələrin öyüdlərini eşidərsə, oxuyub öyrənərsə, o da özünü yaxşı insan kimi yetişdirə bilər.

Evtidem Sokratın bu sözlərinə çox sevindi, ona elə gəldi, Sokrat onun oxuyub-öyrənmək işində düzgün yolda olduğunu düşünür.

Evtidemin sevincdən üzünün güldüyünü görən Sokrat soruşdu:

-Sən bu kitabları toplamaqla hansı işin yiyəsi olmaq istəyirsən?

Evtidem nə deyəcəyini kəsdirə bilmədiyindən susdu.

Onda Sokrat yenə də soruşdu:

-Yoxsa, həkimmi olmaq istəyirsən? Həkimliklə bağlı kitablardan da çox toplamış olarsan?

-Yox, and olsun Zevsə, həkim olmaq istəmirəm, - Evtidem dilləndi.

-Yoxsa tikinti uzmanı(memar) olmaq istəyirsən, axı bunun üçün də çoxlu kitab oxumaq gərəkdir?

-Yox!

-Yoxsa, sən də Feodora kimi yerölçmədə(həndəsədə) ad-san qazanmaq istəyirsən?

-Yox, yerölçmə mənlik deyil.

-Yoxsa, göybilim(astronomiya) səni özünə çəkir?

Evtidem yenə yox dedi.

-Yoxsa, yanşaq olmaq istəyirsən? - Sokrat soruşdu.- Deyirlər səndə Homerin bütün poemaları var.

-Yox, and olsun Zevsə,- Evtidem söyləndi,- yanşaqlar bütöv poemaları bilcəklərində(yaddaşlarında) saxlaya bilirlər, ancaq özləri, mən bildiyimə görə, başdan ayağa biliksiz, anlamaz adamlar olurlar.

Onda Sokrat dedi:

-Evtidem, olmaya sənin istəyin yaxşı dirilikçi(təsərrüfatçı) olmaqdır, yoxsa dövlət qulluğunda işləmək, dövləti yönətib, özünün də, başqlarının da işinə yaramaqmı istəyirsən?

-Bax indi tapdın, Sokrat, mənim istədiyim elə budur, - Evtidem dilləndi.

-And olsun Zevsə, sən düz yol tutmusan, ən gərəklisi elə sən görmək istədiyin işdir: ağalıq eləməyi öyrənmək, elə ağayanalıq deyilmi? Sən dövlətə başçılıq edəcəyini götür-qoy eləyəndə, özün düzgün adam olmadan bu işdə uğur qazana bilməyəcəyini necə, düşünmüsənmi?

-Düşünmüsən də sözdür, məncə, düzgünlüyü gözləməyəndən yaxşı yurddaş belə olası deyil.

-Demək, sən artıq bütün işlərində düzgün olmağı bacarırsan?

-Elə bilirəm, mənim düzgünlüyüm başqalarından az olmaz.

-Düzgünlük də, səncə, deyək, elə bu doğramaçılıq(dülgərlik) kimi bir işmi sayılır?

-Elədir, bu özü də bir işdir.

-Düzgün adam da, bu doğramaçılar sayaq, soruşulanda, nə iş gördüyünü deyə bilərmi?

-Düzgünlükdən danışmaq, mənim əlimdə su içmək kimi yüngül bir iş deyilmi? Qaldı əyriliyin nə olduğu, onları indiyiəcən başımın tükü sanı görmüşəm, günlərlə danışsam qurtarmaz.

-İstəyirsən, belə bir iş görək, gəl burada delta, burada isə alfa yazaq. Düzgünlük saydıqlarımızı deltanın altından, əyrilik saydıqlarımızı alfanın altında sıralayıb yazaq.

-Bunun nəyəsə yararı olacaqsa, yaz getsin.

Sokrat hərfləri dediyi kim yazaraq, soruşdu:

-Bu yer üzündə, yalan deyilən bir nəsnə varmı?

-Vardır, sözsüz.

-Onu hansı sıradan yazaq?

-Düşünmədən, alfa(əyrilik) sırasına.

-Aldatmaq deyilən bir nəsnə də olurmu?

-Olur.

-Onu hara yazmalı?

-Onu da, əyrilik olan sıraya.

-Yamanlığı necə?

-O da alfalıqdır.

-Adamları zorla tutub, qul kimi satmaq necə?

-O da alfanın sırasındadır.

-Demək, indiyə kimi sadaladıqlarımızdan birini də delta(düzgünlük) deyə ayırd elədiyimiz sıradan yaza bilmərik?

-Bunları oradan yazmaq anlamazlıq olrardı.

-Birdən, strateq seçilmiş birisi, onun şəhərinə uzun illər quldur basqınları eləmiş yağıları yenəndən sonra, onları tutub qul kimi satarsa, budamı əyrilik sayılır?

-Yox, bu əyrilik sayılmaz.

-Onun bu işini, düzgünlükmü saymalıyıq?

-Sözsüz.

-Strateq yağılarla döyüşündə, onları aldadaraq yenibsə, bunu nə saymalıyıq?

-Bunu, düzgün iş saymalıyıq.

-Onların var-yatırını çapıb talasa, budamı düzgünlük sayılmalıdır?

-Sözsüz, düzgünlük sayılmalıdır,- Evtidem dilləndi,- ancaq sən məndən bayaq söz soruşanda elə bildim, ancaq arxadaşlarla bağlı işləri soruşursan!

-Deməli, indi biz bu baxdığımız duruma görə, əyrilik sırasında yazdıqlarımızı götürüb, düzgünlük sırasında yaza bilərik, deyilmi?

-Belə çıxır, oradan yazmalıyıq.

-Onda istəyirsən, gəl belə eləyək, biz bundan sonra, bayaqdan dediklərimizi yerinə görə anlamağa çalışaq, bunları yağıya qarşı düzgünlük, arxadaşlara qarşı əyrilik sanaq, onda belə çıxır, arxadaşlarla ancaq düzgünlüklə davranmalıyıq, deyilmi?

-Ancaq düzgünlüklə, başqa sayaq yox.

-Yaxşı, birdən savaşın gedişində strateq döyüşçülərinin sarsıldığını görüb, onları ürəkləndirmək üçün yalandan, yandaşlarının(müttəfiqlərinin) tezliklə yardıma yetəcəyini deyirsə, bununla da onları döyüşü atıb qaçmaqdan çəkindirirsə, bu yalanı hansı sıradan yazmalıyıq?

-Mənə elə gəlir, düzgünlük sırasında yazmalıyıq.

-Birdən uşaq dərmanı yemək istəmir, atası da yalan danışıb, bu dərmanı yemək adı ilə ona yedirirsə, bu yalanı haradan yazaq?

-Bunu da düzgünlüyə.

-Birisi, dostunun qüssədən başını itirib çılğınlaşdığını görürsə, özünü öldürə biləcəyindən qorxub, onun qılıncını, başqa yaraqlarını oğurlayıb gizlədirsə, onun bu oğurluğunu haradan yazmalıyıq?

-And olsun Zevsə, bunu da düzgünlük sırasından yazmalıyıq.

-Sən demək istəyirsən, yeri gələndə arxadaşları aldatmaq da olar?

-Yox, and olsun Zevsə, olmaz, mən sözümü geri götürə bilərəmmi?

-Olar, niyə olmur, yoxsa arxadaşlıq adına yaraşmayan söz danışmaqdansa, yaxşısı sözünü geri götürməkdir. Onda gəl, belə bir durumu da gözdən keçirək, arxadaşının işlərini korlayan adamın elədiyi, hansı halda düzgünlükdür, hansı halda əyrilikdir: bunu bilərəkdən eləyəndə, yoxsa bilməyərəkdən?

-Ah, Sokrat, mən artıq özüm öz dediklərimə inanmıram, bir az bundan qabaq mənə bir sayaq görünənlər, indi büsbütün başqa sayaq görsənir, ancaq yenə deyirəm, bunu bilərəkdən eləyən əyri, bilməyərəkdən eləyən düzgün adamdır.

-Necə düşünürsən, düzgünlüyü də bilim(elm) kimi öyrənmək, yəni düzgünlüyün bilicisi olmaq, olarmı?

-Məncə, olar.

-Sən kimi bilikli sayırsan, bilərəkdən yanlış yazıb, yanlış oxuyanı, yoxsa bilməyərəkdən?

-Bunu bilərəkdən eləyən biliklidir, o istəsə, düzgün yazıb-oxuya bilər.

-Demək, səncə, kim bilərəkdən düzgün yazıb-oxumur, o, bilikli, kim bilməyərəkdən bunu eləyirsə, o, biliksizdir, eləmi?

-Başqa necə ola bilər?

-Səncə düzgünlüyün bilicisi bunlardan hansı sayılmalıdır: onu bilə-bilə, yalan danışan, aldadan birisi, yoxsa onu bilməzlikdən düz danışmayan, yanılan başqası?

-Sözsüz, onu bilən kimsə,- bilici sayılmalıdır.

-Demək, sənin sözünə görə, oxuyub yazmağı bilən, onu bilməyəndən biliklidir?

-Elədir.

-Eləcə də düzgünlüyün nə olduğunu bilən, onu bilməyəndən düzgündür?

-Bunun belə olduğu gün kimi aydındır; ancaq sözün düzünə qalsa, mən indi danışıram, özüm də öz dediyimi yaxşı anlamıram.

-Bax, birdən birisi sözün düzünü demək istəyir, ancaq bir olayı dönə-dönə danışanda sözü üst-üstə düşmür, belə də deyir, elə də? Tutalım, o hansısa şəhərə gedən yolu birdən doğuya sarı, birdən də batıya sarı göstərir? Durub, o şəhərə gedən yolun uzunluğunu birdən az, birdən də qat-qat çox deyir? Belə adam üçün nə deyə bilərsən?

-And olsun Zevsə, sözsüz, o nəyisə bidiyini düşünür, özlüyündə isə bunu bilmir.

-Eşitmisənmi, bir çox adamların anadangəlmə qul olmaq üçün doğulduqlarını deyirlər?

-Eşitmişəm.

-Səncə, onların qul doğulmuşlar deyə çağırılmasının nədəni, bu kimsələrin biərəkdən, yoxsa bilməyərəkdən, belə olduqlarına görədir?

-Sözsüz, bilməyərəkdən belə olduqları üçün.

-Dəmirçiliyi bilmədiklərinə görəmi, onları belə çağırırlar?

-Yox.

-Yoxsa, doğramaçılığı(dülgərliyi) bilməməkdən?

-Yox, bundan deyil.

-Çəkməçiliyi bilməməkdənmi?

-Buna görə də deyil; anadangəlmə qul olmaq üçün doğulanların çoxu, bu dediyimiz işlərin gözəl biliciləri olurlar.

-Yoxsa bu adı, gözəlliyin, yaxşılığın, düzgünlüyün nə olduğunu bilməyən adamlara qoşurlar?

-Məncə belədir.

-Bunu biliriksə, onda bizə bircə o qalır, qul olmayaq deyə, gecə-gündüz əlləşib-vuruşaq!

-And olsun tanrılara, Sokrat, - Evtidem dilləndi,- mən elə bilirdim, özümün, anadangəlmə olan, filosofluq bacarığım vardır, belə gülünc düşüncələrimə arxalanıb, bilici bir kimsə olduğumu sanırdım, buna görə də mənə elə gəlirdi, yaxşı insan olmağa yarayan bilikləri də büsbütün öyrənmişəm. İndi özün yaxşı görürsən, mən çaş-baş qalmışam, artıq bütün aydınlığı ilə görürəm, indiyə kimi öyrəndiklərim, mənim özlüyündə bilməli olduğum ən qolay sorğuları yanıtlamağa belə yetərli deyilmiş, sözün düzü, bundan sonra hansı yolla gedəcəyimi də kəsdirə bilmirəm!

Onda Sokrat soruşdu:

-Evtidem, mənə de görüm, haçansa Delfdə* olmusanmı?

-And olsun Zevsə, iki dönə olmuşam.

-Oradakı ocağın(məbədin) üstündəki: ”Özü özünü tanı” yazısı necə, gözünə sataşıbmı?

-Görmüşəm o yazını.

-Bu yazının gəlişigözəl bir söz olaraq yazıldığını düşündün, yoxsa onu oxuyandan sonra, özünü öyrənməyə, kim olduğunu araşdırmağa başladın?

-And olsun Zevsə, yox, mən elə düşünürdüm, özümü yetərincə tanıyıram; elə sanırdım, başqa nəsnələri tanımağım, bilməyim də, özümü tanıyıb bilməyimə görədir.

-Sən özünü tanımaq deyəndə nəyi başa düşürsən: öz adının kim olduğunu bilən kimsəni, yoxsa özünün bacarıqlarından baş açan, öpözünü araşdırıb, hansı insanlıq dəyərləri ilə seçildiyini öyrənən kimsənimi? - tutalım, at alan birisi özünü at bilicisi sayırsa, onda almaq istədiyi ata baxanda, onun toxdaqmı, qızğınmı, güclümü, gücsüzmü, dəlisoymu, yorğamı olduğunu,- bir sözlə onun bütün yaxşısını-pisini sonacan

araşdırmalı deyilmi? Ona görə də, mənə elə gəlir, kim özünün çatışmazlıqlarını bilmirsə, demək özünü tanımır. Bu, açıq-aydın görünmürmü yəni, - Sokrat sözünün ardını gətirdi,- özünü tanımaq adamlara uğur qazanmaqda yardımçı olur, özündən baş açmamaq isə onları qaragünlü eləyir. Kim özünü tanıyır, o özünə nələrin yararlı olduğunu da bilir, bütün aydınlığı ilə anlayır: nəyi eləyə bilər, necə eləyə bilər. Ona görə də bacardığı işlərə baş qoşub, öz yaşamını düzgün qura bilir, ağ günlərə çıxır, bacarmadığı işlərə girişib yanlışa qapılmır, uğursuzluqlardan yayına bilir. Bu bildikləri, ona başqa adamları tanımaqda da yardımçı olur, bundan yararlanıb, onlarla ilişgilərini də düzgün qurub, özünü baş verə biləcək itkilərdən qoruya bilir. Özünü tanımayan kimsə, öz bacarıqlarını dəyərləndirməkdə yanlışlara uyur, bu özünü,- onun başqaları ilə ilişgilərində də, insan yaşamına bağlı bütün işlərində də göstərir: o özünə nələrin yararlı olduğunu bilmir, nə elədiyini anlamır, işbirliyində olduğu adamları tanımır, bütün bu yanlış düşüncələri ilə ağır itkilərlə üzləşib, qaragünlü bir kimsə olur. Nə elədiyini bilən kimsə, işlərində qazandığı uğurlara görə ad-san da qazanır; öz işini bilən adamlar da, onunla işbirliyinə qatılmağa çalışır, işi düz gətirməyənlər isə onun ətəyindən yapışıb yardım diləyir, bir sözlə ağ günə çıxmaq umdularını onun göstərişlərinə bağlayıb, onu özləri üçün ən dəyərli bir kimsə sayırlar. Nə elədiyini bilməyən kimsə, özünə gərəkən işi tapmağı belə bacarmır, hansı işdən yapışırsa batırır, ara vermədən itkilər verir, sonunda özünü də işə də salır, adını batırıb hamının gözündən də düşür, özünü gülünc günlərə qoyub, pis adla, üzüqara yaşayır. Sən özün də bunu bilməmiş deyilsən, öz gücünü düzgün ölçə bilməyən dövlət, özündən güclü dövlətlə savaşa başlayanda başına nələr gəlir: birində, torpaqlarında baş verən dağıntılardan bir də özünə gələ bilmir, o birində, bağımsızlığını itirib, yenildiyi dövlətin əlaltısına - quluna çevrilir.

Bu yerdə Evtidem dedi:

-Sokrat, mən sənin dediklərindən bunu başa düşdüm: özünü tanımaq, insanın ən başlıca işi imiş, bunu anladığımdan arxayın ola bilərsən; Ancaq özünü öyrənməyi nədən başlamalı? Sənin bu işdə də mənə yardımçı olacağına güvənirəm.

-Bax belə,- Sokrat dilləndi,- düşünürəm, yaxşılıqla yamanlığın nə olduğunu sən bütün incəliklərinə kimi artıq bilirsən, deyilmi?

-And olsun Zevsə bilirəm, bunu da bilməsəm onda ən alçaq quldan da əskik olaram.

-Onda bunların nə demək olduğunu mənə anlat, görüm.

-Burada nəsə baş çatladası bir tapmaca yoxdur. Öncə mən sağlamlığı yaxşılıq, ağrınmağı(xəstəliyi) yamanlıq sayıram; sonra da bunlara yol açan nəsnələri, deyək, içkiləri, yeməkləri, dolanışıq yolunu, bir sözlə sağlamlığa yarayan nə varsa bunları yaxşılığa sayıram, ağrınmağa gətirib çıxaran nə varsa yamanlığa.

-Deməli, sağlamlıqla, ağrınmaq işə yarayırsa, onlara - yaxşılıq, uğursuzluq törədirsə, onlara - yamanlıq deyə bilərik, eləmi?

-Bu necə ola bilər, sağlamlıqdan yamanlıq törənsin, ağrınmaqdan yaxşılıq?

-Deyim biləsən, sağlam olduğuna güvənib, yaramaz işlər dalınca gedənlər, dəniz quldurluğuna, ya da bunun kimi alçaq işlərə qurşananlar, sonucda ölüm-itimlə üzləşirlər, ancaq sağlam olmadığından bu işlərə qoşula bilməyənlər sağ qalırlar.

-Bunu düz deyirsən, ancaq gərəkli işləri görəndə də, biriləri sağlam olduqları üçün ona qoşulurlar, başqaları ağrındıqlarından evdə otururlar.

-Bu belədirsə, onda yeri düşdükcə dəyişən: bir yerdə dəyərli, başqa yerdə dəyərsiz ola bilən nəsnəni, biz hansı anlaqla yamanlıq yox, yaxşılıq saymalıyıq? And olsun Zevsə, burada arın-arxayın gediləsi bir doğru yol görünmür, bir az dərindən düşünsən, bunun belə olduğunu görərsən.

-Yaxşı, götürək bilgəliyi(müdrikliyi), Sokrat, bu sözsüz yaxşılq deməkdir: elə bir iş olarmı, anlamaz onu bilgədən yaxşı bacarsın?

-Necə yəni ola bilməz? - Sokrat dilləndi.- Dedalın* başına gələnləri eşitmədinmi, Minosun onu bilgə olduğuna görə ilişdirib, özündən asılı eləməsi, onu yurdundan ayırıb, öz sarayında qul kimi sxlaması, sonra Dedalın öz bilgəliyinə arxalanıb qaçmaq istəməsi, burada oğlunu itirməsi, bu harasıdır, qaçıb varvarların əlinə keçməsi, yenidən qul olması, bunların hamısı onun başına bilgələyindən gəlmədimi?

-And olsun Zevsə, mən də bu olayı eşitmişəm.

-Palamedin* başına gələnləri necə, eşitmisənmi? Hamı deyir, Odissey onu bilgəliyini gözü götürmədiyindən, qurğu qurub öldürtmüşdü.

-Bu olayı da eşitmişəm.

-Neçələrini ancaq çox bilikli olduqlarına görə, pars şahının güclə tutuqlayıb, özünə qul eləmək üçün apardığını da eşitmiş olarsan?

-Buna nə sözün, Sokrat, ağgünlülük yaxşılıq sayılmazmı?

-Elədir Evtidem, ancaq o qarışıq-dolaşıq yaxşılıqlardan törəməyibsə.

-Başa düşmürəm, insanı ağ günə çıxaran bir yol, necə qarışıq-dolaşıq ola bilər?

-Başqa birilərini demirəm, ancaq bura: gözəlliyi, gücü, varlılığı, ad-sanı qatmasaq, ola bilsin qalan yaxşılıqlar qarışıq-dolaşıq olmasın da.

-Yox, and olsun Zevsə, bunlarsız keçinmək olmaz! Bunlar olmadan hansı ağgünlükdən danışmaq olar?

-Sənin deməyindən belə çıxır, biz ağgünlüyün, insanlara başağrısı gətirən çoxlu nəsnələrdən doğulduğunu sanmalıyıq: çoxları öz gözəlliyinə görə, alçaq adamların əlinə düşüb pozğunlaşırlar, sən özün də neçələrini tanıyırsan, göyçək oğlan uşaqları ilə yatmaq üçün nə oyunlardan çıxırlar; habelə güclü olduğuna güvənən adamların çoxu, gücüm çoxdur deyə baştutmaz işlərə girişib, özlərini qaragünlü eləyirlər; çoxları varlı olduğundan ərköyünləşir, kimlə gəldi tutaqlaşır, çəkişir, günlərin birində kiminsə əlində də ölürlər; bir çoxları da dövlətdə böyük ad-san qazandığına, onun işlərini yönətməyə əli çatdığına görə, ağrı-acılara tuş gəlirlər.

-Mənim ağgünlüyü bəyənməyim də yanlış olacaqmışsa, onda boynuma alıram, bundan sonra tanrılara nəyə görə dua eləyəcəyimi də bilmirəm,- bunu Evtidem dedi.

-Ola bilsin, sən dərindən düşünüb-daşınmadığından, bu konuları yaxşı bildiyinə özünü inandırmısan. Ancaq sən demokratik bir dövlətə başçılıq eləmək istərkən, sözsüz, götür-qoy eləyib, demokratiyanın nə demək olduğunu özün üçün aydınlaşdırmısan, deyilmi?

-Bunu bilməyə nə varmış!

-Səncə, demosun nə olduğunu bilmədən, demokratiyanın nə olduğunu bilmək olurmu?

-And olsun Zevsə, bilmək olmaz.

-Yaxşı, sən demosun nə demək olduğunu bilirsən?

-Məncə, bunu bilirəm.

-Onda de görək, demos nə deməkdir?

-Məncə bu, yoxsul yurddaşların toplusudur.

-Yoxsulların kim olduğunu bilirsən?

-Necə yəni bilmirəm?

-Varlıların da kim olduğunu bilirsən?

-Yoxsulları bilirəmsə, demək onları da bilməmiş deyiləm.

-Onda de görək, hansı adamları yoxsul, hansılarını varlı sayırsan?

-Kimin dolanışığına yetəcək axçası yoxsa, o yoxsuldur, kimin axçası onun dolanışığını gen-bol görür, bundan başqa artıq da qalır, o varlıdır.

-Bunu necə, görmüsənmi: kimsə az-azacıq qazancı ilə dolanışığını keçindirə bilir, üstəlik qara günü üçün də nəsə yığır, ancaq eləsi də olur, çoxlu varı ilə də dolana bilməyib, onu tükədir?

-And olsun Zevsə elədir, yaxşı elədin bunları dedin, yoxsa unutmuşdum, mən tiran tanıyıram, özünü elə günə salıb, axça çatışmazlığından ən yolverilməz, alçaq işlərə əl atmalı olub.

-Bu belədirsə, onda dediyin tiranı demos, azacıq qazancla keçinməyi bacaran evyığan kimsəni isə varlı saymalı deyilikmi?

Burada Evtidem dedi:

-Mənim bu sözlə barışmaqdan başqa yolum qalmır, görünür, məndə anlaq çatışmazlığı varmış; düşünürəm, ən yaxşısı mənim susmağım olardı: açığını desəm, bu işlərdən mənim baş açdığım nəsə yox imiş.

Bu danışıqdan sonra, Evtidem bütünlüklə sarsılmış, özü-özünü görməyə gözü olmayan bir durumda çıxıb getdi, o artıq özünün anadangəlmə qul olmaq üçün doğulduğunu belə düşünməyə başlamışdı.

Sokratın bu günə saldığı yekəbaşların çoxu, sonradan ondan gen gəzirdilər; Sokrat da buna görə, onları qanmaz adamlar sayırdı. Ancaq Evtidemlə belə olmadı, o, Sokratla oturub-durmağın, onun danışıqlarına qulaq asmağın, özünün insan kimi yetkinləşməyinə yararını anlamışdı. Ona görə də, bundan sonra o, başqa bir işi yoxsa, Sokratın yanından əl çəkməzdi, iş o yerə çatmışdı, Evtidem Sokratın yaşamını bütünlüklə yamsılamağa da keçmişdi. Bunları görən Sokrat, onu sorğuları ilə çaşdırmaqdan əl çəkdi, ancaq Sokrat

bundan sonra da, ona da, başqa dinləyicilərinə də, insanın yetkinliyinin özünü tanımaqdan, özünü yönətməkdən başladığını dönə-dönə deməkdən yorulmazdı.

III BAŞLIQ

{Evtidemlə, tanrılarla bağlı danışıq}

Sokrat öz arxadaşlarına söz danışmağın incəliklərini öyrətməkdə, onları söz deyişmələrinə çəkib, tutarlı danışıq öyrəncələrinə alışdırmaqda, tələsməyi sevməzdi: öyrəncilərinin ərdəmli olmadan, belə bacarıqlara yiyələnməsini gərəksiz bir iş sayardı. Ərdəmli olmayıb, belə bilikləri öyrənənlər, onun düşüncəsinə görə, bir az da çox əyriliyə yuvarlanırlar, yamanlıq eləməkdə də qat-qat artıq zirək olurlar.

O, hamısından öncə, dinləyicilərinə, tanrılara yüksək sayğı göstərməyi aşılamağa çalışırdı. Tanrılara sayğı göstərməklə bağlı, Sokratın neçə-neçə danışıqlarını eşitdiklərini deyən çoxlu adamlar vardır; mən isə onun Evtidemlə bu konuda danışığına tanıq olmuşdum.

-Mənə de görüm, Evtidem,- Sokrat soruşdu,- tanrıların insana gərək olan nə varsa, necə qayğı ilə, yerli yerində yaratdıqlarını, oturub özün üçün düşünüb, ayırd etmisənmi?

-And olsun Zevsə, düşünməməişəm.

-Sən bunu bilməmiş deyilsən, hamısından(hər şeydən) gərəkli olan işıq, tanrıların bizə sovqatıdır!

-And olsun Zevsə, elədir,- Evtidem dedi,- işıq olmasaydı, gözlərimizin görməyinə baxma, hamımız korlar kimi gəzərdik.

-Sonrası, bizə dincəlmək gərək olduğunun qayğısına qalıb, bunun üçün ən yaxşı yarayan qaranlıq gecəni də, tanrılar bizə ərməğan eləyiblər.

-Elədir, buna görə də biz tanrılara sayğılarımızı yetirməlyik.

-Görürsən, günəş öz işığı ilə bizə günün hansı çağının olmasını, başqa bu sayaq nələrisə anlamaqda yardım eləyir, gecənin qaranlığında yan-yörəmizi görüb ayırd eləmək üçünmü, gecənin hansı çağı olmasını, habelə bu kimi başqa gərəkən nələrisə ayırd edə bilməyimiz üçünmü, tanrılar ulduzların ışığı ilə də bizə yardım eləyirlər!

-Mən bilən bunlar, elə buna görədir də var.

-Sonra, tanrıların yaratdığı ay,- bizə gecənin hansı çağı olmasından başqa, bir də ilin aylarını ayırd eləməkdə də yardım eləyir.

-Elədir, - Evtidem dedi.

-Buna nə deyirsən, tanrıların verimi ilə, torpaq bizim bütün yeyəcəklərimizi yetirir, bunun üçün də tanrılar ilin əkin-biçinə yarayan çağlarını ayırd eləmişlər, bu çağlarda biz özümüzü il uzunu doyuracaq yeyəcəkləri bol-bol yetişdirə bilirik.

-Bütün bunlarda, tanrıların insanlara böyük sevgisi duyulmaqdadır,- bunu Evtidem dedi.

-Eləcə də tanrılar bizə çox gərəkli olan suyu vermişlər, onun içirib, dirçəltdiyi torpaq, ilin uyğun çağlarında üstündə minbir gözəlliklər, o sıradan bizim yeməyimizi də yetirir; suyu özümüz də içirik, yemək-içməyimizi də onunla bişiririk, hara tərpənsən, susuz keçinmək olmur, deyəsən, yer üzündə suyun belə çoxluğunu da, tanrılar elə buna görə eləmişlər?

-Bunda da tanrıların insanlara qayğısı görünməkdədir.

-Tanrılar bizə odu verməsəydilər, soyuqdan qorunmağı, qaranlığı qovmağı, bütün işimizə yarayacaq ürətimləri(istehsalatı) bacarardıqmı? Bir sözlə, yaşamımıza gərəkən nə varsa, az-çox işimizə yarayanların hamısı, od olmadan başa gəlmir.

-Elə bunu da tanrıların insanlara olan sevgisinin adına yazmaq olar, - Evtidem dilləndi.

-Günəşin qışdan sonrakı dönüşünə bax, yerə oracan yaxınlaşır da, bitkilərin birilərini göyərdib boy atdırır, o birilərini yetişdirib soluxdurur; bu işləri yerinə yetirib, yerə bundan artıq yaxınlaşmaqdan çəkinir, sanasan bizi ölçüyəgəlməz istisi ilə yandırıb yaxmamaq üçün geri dönüb, uzaqlaşır. Ancaq haracan uzaqlaşacağını da, eləbil qabaqcadan ölçüb-biçir, qışda dönüb qayıtdığı yerdən, bir az da o yana keçərsə,

soyuqdan donub ölərdik, ancaq o nə etdiyini bilirmiş kimi, yenidən dönüb bizə sarı qayıdır, göydə ancaq bizim işimizə yaramaq üçün dolanır.

-And olsun Zevsə, görünən budur, tanrılar bunu da insanların yararı üçün eləyirlər.

-Bu da aydın görünmürmü, birdən gözlənilmədən düşsəydilar, biz nə istiyə, nə də soyuğa dözə bilərdik, ancaq günəş elə yavaş yaxınlaşıb, elə də yavaş uzaqlaşır, biz istinin-soyuğun ən çoxuna da alışa bilirik. Buna nə deyəsən?

-Mən indi artıq düşünməyə başlayıram, görəsən tanrıların insanların işini-gücünü yoluna qoymaqdan başqa da bir qayğıları varmı? Bu sözümün üstündə dayanmaqdan məni azacıq çəkindirən, tanrıların bizim üçün yaratdıqlarının, başqa varlıqların da işinə yaramasıdır.

-Sən yoxsa, başqa varlıqların insanın, dolanışığına yardımçı olmaq üçün yaradıldığını da bilmirsən? Hansı başqa varlıq, qoyun-keçidən, mal-qaradan, at-eşşəkdən insan kimi yararlana bilir? Bitkilərdən insan kimi yararlana bilən başqa bir varlıq tanıyırsanmı?—insanlar göyərtilərdən tutmuş ağaclara kimi, bitkilərdən elə yararlar götürürlər, deyəsən bu heyvanlardan götürdükləri yararlardan az deyil, bir də görürsən yaşadığı yerdən asılı olaraq, insanlar heyvanlardan çox bitkilərdən yararlanıb yaşayırlar, başqa biriləri ağartı ilə: süd, qatıq, pendir, bir də ətlə keçinirlər; bundan başqa insanlar bir çox heyvanları ələ öyrədirlər, onlardan dolanışıqlarında, desən lap savaşlarında da yararlanırlar.

-Bunları çox da düz deyirsən, Sokrat. Mən bunu da demək istəyirəm, bizdən qat-qat güclü olan heyvanları da insan ələ öyrədə bilir, onlarla öz gərəyincə, istəyincə davrana bilir.

-Bu yer üzündə, neçə-neçə biri-birindən ayrı olan, gözəl, gərəkli nəsnələr vardır, tanrılar insana: onları ayırd etmək, onların öz işlərinə gərəyini anlamaq, onlardan yararlana bilmək bacarığını vermişlər. Bunları bacarmaq üçünsə tanrılar bizlərə anlaq vermişlər, biz onun yardımı ilə duyduqlarımızı düşünüb-daşınaraq, hansı nəsnələrin nəyə yaraya biləcəyini anlaya bilərək, onların gərəkli olanlarından yararlana, gərəksizlərindən qoruna bilirik. Tanrılar bizə danışa bilmək bacarığı vermişlər, biz ona arxalanıb, biri-birimizdən gərəkli olan bilgiləri öyrənə, sonra bunu başqalarına da öyrədə

bilirik, öz yaşamımızı düzənləmək üçün yasalar düzəldib, dövlət yaradıb, beləliklə də işlərimizi elliklə qabağa apara bilirik. Buna nə deyəsən?

-Ancaq bir söz demək olar: tanrılar insanlara, ölçüyəgəlməz qayğı göstərirlər.

-Biz gələcəkdə nə baş verəcəyini bilmədiyimizdən, uğurumuza çıxacaqları öyrənmək istəyirik, tanrılar bu işdə də bizə yardımçı olurlar, fal açmaqla soruşuruq, onlar bizə olacaqları da, onları necə qabaqlamağı da öyrədirlər.

-Səni isə Sokrat, mən deyərdim, tanrılar başqalarına baxmış bir az da üstün tuturlar: sən durub soruşmamış, onlar sənə nəyi eləməyi, nəyi isə eləməməyi öyrədirlər.

-Mənim dediklərimin doğruluğuna inanmaq üçün, tanrıların sənin gözünə öz görkəmlərində görünməsini gözləməyə dəyməz, sənin eləcə onların yaratdıqlarına dərindən-dərinə baxmağın da yetər, onlara tapınıb, sayğı duyasan. Bunu da biləsən, tanrılar özləri də bunun yolunu göstərirlər: onlar gözümüzə belə görünmədən, bütün gərəkən yaxşılıqlarını bizə göndərirlər, kainatı belə gözəl, bitkin qurub, yaradıb, onu bu durumda saxlayan da onlardır, elə bu yaşamın yararsızlaşdırdığı nəsnələrin çürüməsi, ağqrınmaq(xəstəlik), qocalıq, habelə, ildırım yeyinliyi ilə,- özü də yanılmadan doğulan düşüncələrimiz də, onların istəmi ilə baş verir, bax beləcə, sayagəlməz yaratdıqlarını gördüyümüz, kainatı yönətdiyini duyduğumuz tanrılar, bizim üçün gözəgörünməz olaraq qalırlar. Bunu, az qala, günəşlə bizim aramızdakı durumla da tutşdurmaq olardı: özlüyündə hamıya görünür, ancaq başını qaldırıb ona dik baxmağa qoymur, baxanda, gözlərin görməkdən qalır. Tanrının qulluqçuları da, elə bilirəm sən də buna inanırsan, gözəgörünməzdir: görürsən, ildırım bir anın içində necə göydən yerlərə düşür, qabağına çıxanları aşıb keçir; ancaq bir kimsə onun necə gəldiyini, necə nəyisə vurduğunu, necə qayıdıb getdiyini görə bilmir; küləklərin də özlərini görmürük, ancaq əsdiyini duyuruq, elədiklərini görürük. Lap sonuncu, insanın öpözü(ruhu): insanda olanlardan tanrılara ən çox yaxın olanı, bizim bütün elədiklərimizi yönətdiyi aydınca bilinsə də, ancaq özü gözəgörünməz deyilmi? Bütün bunları biləndən sonra, gözəgörünməz nəsnələrə inamsız yanaşmaqdan daşınıb, tanrılar özlərinin varlığını necə göstərirlərsə, elə bu gerçəklərə baxmaqla, onların güclərini anlamalı, tanrıları böyük sayğılarla anmalıyıq.

-Mənə gəlincə, Sokrat,- Evtidem dilə gəldi,- tanrılara sayğızılığımdan danışıq belə ola bilməz, mən bundan arxayınam; ancaq məni şaşırdan bilirsənmi nədir?- mənə elə

gəlir, yer üzündə, tanrıların elədiklərinin qarşılığında, onların ulu adlarına insanların göstərdikləri sayğılar yetərli deyil, sözün düzü, insanların haçansa, tanrıların ad-sanına yaraşan sayğılar göstərməyi bacaracağına, inanmağım gəlmir.

-Yox, Evtidem, buna görə sarsılmağa dəyməz. Haçan Delf tanrısından soruşursan: “tanrıların bəyənməsi üçün nəyi, necə eləyək?” - bilirsənmi O, nə deyir: “Dövlətinizin öyrətdiyi kimi eləyin”; dövlətlər isə öyrədir: hamı öz gücü çatandan tanrılara qurbanlar verib, bununla da onlara öz sayğılarını yetirməlidir. Tanrıları, onların özlərinin istədiyindən də yaxşı anmaq, sayğı duyurmaq olarmı? Ancaq tanrıların adına verilən bu qurbanlara axça qızırqanmağa dəyməz: beləsi varsa, deməli, o tanrılara sayğısılıq eləyir. Beləliklə də tanrıları, olanından, gücün çatandan, verdiyin qurbanlarla andınsa, onda qorxmadan onların göndərəcəyi yaxşılıqları da gözləməyə dəyər: sağlam düşüncəsi olan kimsə yaxşılıqları bir başqasından yox, onu eləməyi bacarandan gözləməlidir, bu yaxşılığı da öz istədiyinə görə yox, onun istəminə görə aldığını anlamalıdır; tanrıların istəmini özünə yaramağa yönəltməyin isə bir yolu var, onlara bacardıqca artıq tapınmaq.

Belə danışıqları ilə də, özünün yaşamında göstərdiyi örnəklərlə də, Sokrat yan-yörəsindəki adamları, tanrıqanlığa(möminliyə), ərdəmliyə yönəldirdi.

IV BAŞLIQ

{Hippiy ilə, düzgünlüyün nə demək olduğu üzrə danışıq}

Düzgünlüyün nə demək olduğuna gəlincə, Sokrat bu konudakı düşüncələrini də açıqlayar, ancaq dediklərini ən çox, özünün yaşamında elədikləri ilə anlatmağa çalışardı: öz ömründə o, hamı ilə dözümlü davranar, hamının işinə yaramağa çalışardı; toplumla bağlı işlərində, yasaları bütün incəliklərinə kimi yerinə yetirməkdə,- istər şəhərdə görməli olduğu, istərsə də yağılarla savaşlarda olsun,- dövlətin buyuruqlarını yerinə yetirməkdə, elə çalışqanlıq göstərərdi, onun bu işlərdəki yorulmazlığı, qayğısı, istər-istəməz gözə çarpardı. Keçənlərdə Xalq yığıncağının başçısı olanda, o, çılğınlaşmış kütləni yasanı pozmağa qoymasın deyə, elə bərk dayanıb dura bilmişdi, yer üzündə başqa birisinin belə qara-qorxunun qabağında duruş gətirə biləcəyinə inanmağım gəlmir. Otuzların yönətim yığıncağının görəvlilərindən kim olur olsun, ona yasanı pozan buyuruqlar verərdisə, o bunları eləməkdən boyun qaçırardı: ona gənclərlə danışmağı yasaq eləyəndə də belə olmuşdu, sonra ona bir neçə adamla birgə, birisini öldürmək üçün tutub gətirməyi buyuranda, yalnız o, bunu eləməkdən boyun qaçırmış, buyuruğun yasaya uyğun olmadığını deməkdən qorxub çəkinməmişdi. Melet onu məhkəməyə verəndə də, o, yasalara uyğun olmayan nələrisə eləməkdən qaçınmışdı: öyrəncəyə görə məhkəməyə düşənlər, hakimlərin ürəyincə olan sözlər danışmağa, onlara yarınmağa,

onlara yalvarmağa başlayırlar, bunlar hamısı yasanı pozmaq sayılsa belə, bu yolla çoxları, sudan quru çıxmağı bacarırlar; bu sayaq yarınarsa, hakimlərin ona ölüm kəsməyəcəklərini bilə-bilə, Sokrat bunu eləyib yasaları pozmaq istəmədi, o ölməyi, yasaları pozub yaşamaqdan üstün tutdu.

Yeri düşəndən düşənə, Sokratın çoxları ilə bu konuda öz düşüncələrini açıqlayan danışıqları olmuşdu; mən onun Elidalı Hippiy ilə, düzgünlüyün nə demək olması ilə bağlı danışığını eşitmişdim.

Uzun bir sürədə Afinada olmamış Hippiy, bura qayıdanda Sokratın danışığına qulaq asmaq üçün gəlmişdi, gəlib çatanda, Sokratın başına toplaşanlara aşağıdakı sözləri dediyini eşitmişdi: kimsə öz qulluqçusunamı, ya uşağınamı, doğramaçılığı(dülgərliyi), çəkməçiliyi, ya at minməyi öyrətmək üçün öyrətmən axtarırsa, çox da baş sındırmadan beləsini tapa bilir; (bir çoxunun deməsinə görə atı miniyə, kəli boyunduruğa öyrədə biləcək adamlar tapmaq, az qala su içmək kimi bir işdir); adama çöçün gələn isə budur: birdən kimsə, özümü düzgünlüyü öyrənmək istəsə, yoxsa oğlununmu, qulluqçusununmu düzgünlüyü öyrənməsini istəsə, bunu öyrədə biləcək adamı haradan tapacağını kəsdirə bilmir.

Bunu eşidən Hippiy qımışa-qımışa dilləndi:

-Sokrat, deyəsən elə yenə də, mənim səndən lap çoxdan eşitdiklərimi danışmaqla gününü keçirməkdəsən?

-Bu harasıdır, - Sokrat dedi, - mən lap çoxdan, ancaq bir konudan söz açıb, onu dönə-dönə danışıb, durmaqdayam; ancaq sən deyəsən, çox dərin, geniş, tükənməz biliyinə arxalanıb, danışıqlarında ancaq yeni-yeni konulardan söz açırsan, özü də bir dönə danışdığın konunu bir də yenələmirsən(təkrarlamırsan).

-Elədir, mən çalışıram, indiyəcən söyləmədiyim, büsbütün yeni olan konulardan danışam.

-Yəni, sən bütün incəliklərinəcən bildiyin bir konuda da, bu sayaq eləyirsən?- Sokrat soruşdu.- Birdən biri səndən soruşsa “Sokrat” sözündə neçə hərf var, sən öncə bir söz demişdinsə, indi ayrı sözmü deyirsən? Yoxsa biri səndən ikini ona vuranda nə alındığını soruşursa, sən bundan qabaq iyirmi alındığını demisənsə, indi başqamı sayılan(rəqəm) deyirsən?

-Belə sorğular üçün, Sokrat, mən də sənin kimi ancaq bir söz deyirəm; ancaq düzgünlüyün nə olduğuna gəlincə, mən buna arxayınam, bu konuda elə sözlər danışa bilərəm, nə sən, nə də bir başqası, dediklərimi dana bilməz.

-And olsun Heraya, sənin bu tapıntın insanları ağ günə çıxaracaq: hakimlər artıq biri-birinə oxşamayan buyuruqlar verməyəcəklər; yurddaşlar düzgünlüyün nə demək olduğu konusunda söz güləşdirməyəcəklər, məhkəmədə çəkişməyəcəklər, dövlətə qarşı çıxmayacaqlar; dövlətlər də düzgünlük uğrunda savaşmaqdan əl çəkəcəklər. Mənə gəlincə, bu böyük tapıntının nə demək olduğunu sonacan eşidib öyrənməyənə kimi, sənin yaxandan əl çəkməyəcəyəm.

-Yox, and olsun Zevsə,- Hippiy dedi,- sən özünün düzgünlüyü necə başa düşdüyünü danışmayınca, məndən bunu eşidə bilməyəcəksən: başqalarını ələ salıb oynatdığın yetər, sənin işin bu deyilmi?—kimdənsə nəsə soruşursan, sonra onu danışığa tutub yanıldırsan, ürəkdən inandıqlarını özünəcə dandırırsan, sonunda onu düşdüyü bu çaşqın durumda qoyub, özündən yeni bir söz demədən, aradan çıxırsan!

-Sən nə danışırsan, Hippiy?- Sokrat dilləndi.- Sən yəni, doğrudanmı görmürsən, mən ara vermədən adamlara, düzgünlüyün nə demək olduğunu necə anladığımı danışmaqdayam?

-Sən bunu hansı sözlərlə göstərirsən?

-Lap sözlə göstərməsəm belə, öz elədiklərimlə göstərirəm. Yoxsa sən adamın dediklərinə, onun elədiklərindən artıq önəm verirsən?

-Yox, mən adamın elədiyinə artıq inanıram, görürsən çoxunun dilindən düzgünlük düşmür, ancaq gördüyü işlər başdan ayağa əyridir; düzgün adamlar isə, əyrilik eləməyi bacarmayanlardır.

-Sən mənim yalandan kiminsə üzünə durduğumu, kimdənsə çuğulluq elədiyimi, arxadaşlarımla dilləşməyimi, habelə bunun kimi başqa bir əyri işimi görmüsənmi?

-Yox, görməmişəm.

-Düzgün olmayan işləri görməkdən çəkinmək, elə düzgünlük sayılmazmı?

-Sokrat, mən belə görürəm, sən yenə sözü yana atırsan, düzgünlüyün nə demək olduğunu necə anladığını danışmaqdan yayınırsan: sən düzgünlük sayılan işlərdən danışmırsan, düzgün olmayan işlərdən danışmaqla baş qatırsan.

-Mənsə düşünürəm, düzgün olmayan işlərə qoşulmamaq elə düzgün olmağın göstəricisidir. Sən belə düşünmürsənsə, onda bax, ola bilsin bu dediklərim döşünə yatdı: yasaya uyğun olan nə varsa, düzgünlük sayılmalıdır.

-Səncə, Sokrat, yasaya uyğun olanla, düzgünlük, ayırd olunmur?

-Yox, bunlar biri-birindən ayrı deyillər.

-Onda mən anlamıram, sən hansı adama yasaya uyğun yaşayan, hansına düzgün yaşayan deyirsən?

-Dövlət yasalarının nə demək olduğunu bilirsənmi?, - Sokrat soruşdu.

-Bilirəm.

-Səncə onlar nə deməkdir?

-Onlar,- yurddaşların yığışıb ellikcə anlaşdıqları, yazıya aldıqlarıdır, burada nələri eləmək, nələri eləməmək göstərilmişdir.

-Demək, yasaya uyan, öz yaşamında bunları gözləyir, ancaq yasaya uymayan gözləmir, eləmi?

-Elədir.

-Deməli, düzgün davrananlar yasanı gözləyir, düzgün olmayanlar isə onu pozur, eləmi?

-Sözsüz, elədir.

-Deməli, yasaya görə düzgün davrananlar, düzgün adamlardır, düzgün davranmayanlar isə əyrilərdir, eləmi?

-Başqa sayaq necə ola bilər?

-Belə çıxır, yasanı gözləyən kimsə düzgündür, gözləməyən düzgün deyil.

Burada Hippiy coşdu:

-Sokrat, yasalara, onları gözləməyə, belə böyük önəm verməyə dəyərmi, bunu hamı da bilir, yasaları yaradanlar onları sonradan dəyişirlər də, ola bilsin lap bütünlüklə qırağa da qoyurlar!

-Dövlət də görürsən, başqa dövlətlə savaşa başlayır, sonradan barışıb anlaşır.

-Düzdür.

-Sən, yasalar dəyişilə, ortadan götürülə bilər deyə, onları gözləyən kimsələri bəyənmirsən,- Sokrat dedi. Onda sən savaş çağlarında qoyulan yasaları gözləyən

kimsələri də bəyənməzsən, axı savaş bitib, barış olanda bu yasaları gözləməyə gərək qalmır, deyilmi? Yoxsa savaş başlayanda bu yasaları gözləyib, yurdu yağıdan qoruyanlar, düzgün yolda deyillər, səncə?

-And olsun Zevsə, mən belə düşünmürəm.

-Bunu necə, düşünmüsənmi: spartalı Likurq*, yurddaşlarını,- qanlarına işləyənəcən yasaları gözləməyə alışdırmasa,- Spartanı başqa dövlətlərdən güclü eləyə bilməzdi! Dövlətə başçılıq eləyənlərin, -sanasan sən bunu bilmirsən?- ən yaxşısı, yurddaşlarını yasaları gözləməyə yönəldə bilənidir. Bir dövlətin yurddaşları, yasaları gözləməyi ilə seçilirsə, o dövlət dinc çağlarında çiçəklənir, savaşda yenilməz olur. Bundan başqa, yurddaşların hamılıqla anlaşdıqları dəyərlərə arxalanıb yaşaması, dövlətin gücünü artırır; belə dövlətlərdə ağsaqqalar yığıncağından tutmuş, ən adlı-sanlı kimsələrəcən, yurddaşlarını anlaşmağa çağırırlar, buna alışdırırlar; Elladadanın bütün dövlətlərində belə bir yasa var: gərək bütün yurddaşlar barış içində yaşayacaqlarına and içsinlər. Düşünürəm, bu düzəni ona görə qoymayıblar, yəni yurddaşların hamısı: ancaq bir xora ödül versinlər, ancaq bir fleytaçının çalğısını bəyənsinlər, ancaq bir şairin şeirlərini sevsinlər, hamı ancaq bir nəsnəni bəyənib, ancaq ondan yararlansın,–yox, bu düzəni hamının yasaları gözləməsi üçün qoyublar. Yurddaşlar hamılıqla anlaşıb yasaları gözləyirsə, dövlət çox güclü olur, xalqı da yaxşı dolandıra bilir; anlaşma olmadan, dövlət nədir, bir ev belə güclənə, çiçəklənə bilməz. Gəlin adamların gündəlik yaşamlarına baxaq: dövlət kimləri suçlayıb, görkoldu(cərimə) alır, kimləri bəyənib, ödüllər verir? Birincilər, yasaları pozanlar, ikincilər, onları gözləyənlərdir. Məhkəmələrə düşənlərdən kimlər işi uduzur, kimlər udur? Gərəkərsə, var-yatırını, oğlunu-qızını qorumağı kimə tapşırmaq olar? Dövlətin qulluğunda olanların içində hamıdan artıq güvəncli kim sayılır, yasaları gözləyənlər, deyilmi? Ürək qızdırıb saxlamaq üçün verdiyi nəsnəni: ata-analar, doğmalar, qulluqçular, arxadaşlar, yurddaşlar, yadellilər, -kimdən arın-arxayın geri ala bilirlər? Barış anlaşması bağlayanda, yağılar kimə artıq inanırlar? Kiminlə işbirliyinə, hamı ürəkdən qoşulur, yasaları gözləyənlərlə deyilmi? Savaşda işbirliyi qurmuş dövlətlər, savaşı kimin başçılığı ilə aparmağı istəyirlər, öz şəhərlərini qorumağı kimə ürək qızdırıb tapşırırlar? Kimdən elədiyin yaxşılığa görə, sayğı gözləməyə dəyər, yasaları gözləyənlərdən deyilmi? Kiminlə savaşmaq istəyənlər

az olur, barış, anlaşma içində yaşamaq istəyənlər çox olur? Kiminlə arxadaşlıq eləmək, işbirliyində olmaq istəyənlər çox olur, yağılıq eləyib, üz-üzə gəlib döyüşmək istəyənlər az? Beləliklə də, Hippiy, mənim bildiyimə görə, yasanı gözləməklə düzgünlük, ikisi də bir anlamdadır; sən başqa sayaq düşünürsənsə, buyur de.

-Yox, and olsun Zevsə, Sokrat, mənim düzgünlük adına yazdıqlarım, sənin dediklərindən büsbütün ayrıdır.

-Yoxsa sən, yazılmamış, ancaq insanların çoxluğunun gözlədiyi yasalarımı demək istəyirsən, Hippiy?

-Elədir, bilirsən də, o yasaları ucdantutma bütün ölkələrdə gözləyirlər.

-Bu yasaları, insanların yaratdığını deyə bilərsənmi?

-İnsanlar, nə hamısı bir yerə toplaşa biləsi, toplaşsalar da biri-birilərinin dillərini anlamayası, onlar bunu necə eləyəsidilər?

-Onda, səncə, bu yasaları kim yaradası?

-Mənə elə gəlir, bu yasaları insanlar üçün tanrılar yaratmış, elə buna görə də bütün yer üzündə ən birinci yasa, tanrılara sayğı göstərmək olmuşdur.

-Ata-anaya sayğı göstərmək də, bütün insanların gözlədiyi yasa deyilmi?

-Elədir.

-Ata-anaların öz uşaqları ilə yatağa girib, yaxınlıq eləməyəsi də, bütün insanların gözlədiyi yasa deyilmi?

-Yox, Sokrat, mənə elə gəlir bu artıq tanrıların verdiyi yasa deyil.

-Nədən belə düşünürsən?

-Ona görə, bu yasanı pozanlar da olur.

-Elə başqa yasaları da pozurlar, - Sokrat dedi.- Ancaq inan mənə, kim tanrıların qoyduğu yasaları pozur, bunun altını çəkməkdən yaxasını qurtara bilmir, baxmayaraq, insanların qoyduğu yasaları pozanlar,- qaçıb aradan çıxmaqla, ya da qolugüclülüklə, suçlarının altını çəkməkdən yayına bilirlər.

-Yaxşı, sən deyən kimidirsə, onda de görək, tanrıların qoyduğu yasaları pozub, öz uşaqları ilə yaxınlıq eləyən ata-analar, habelə ata-anaları ilə yaxınlıq eləyən uşaqları, bunun altını necə çəkirlər?

-And olsun Zevsə, onlar bunun altını elə çəkirlər, gəl görəsən. Anadangəlmə saçmalıqla, türlü çatışmazlıqlarla uşaq doğmaqdan da ağrı-acılı bir iş olurmu?

-Əkib-doğanlar sağlamdırsa, onların uşaqları niyə də sağlam olmasın?

-And olsun Zevsə, uşaq əkib-doğanların sağlam olmasından başqa, onların ikisi də bu işə yarayan, çiçəklənən yaşlarında olmalıdırlar. Özlərinin çiçəklənən çağında doğub törəyənlərin uşaqlarını, nə bu yaşa çatmayan, nə də bu yaşı artıq keçmiş olanların törəmələri ilə yan-yana qoymaq olar, yoxsa bunu da bilmirsən?

-And olsun Zevsə, deyəsən düz deyirsən.

-De görək, hansıların uşaqları yaxşı doğulur?

-Sən deyən kimi, çiçəklənən çağında olanların.

-Demək, bu yaşda olmayanların uşaqları sağlam doğulmur?

-Elə bilirəm, yox.

-Deməli, bu yaşda uşaq doğurmaq düzgün deyil?

-Sözsüz, düzgün deyil.

-Deməli, bu yaşda uşaq əkib-doğanlar, yaramaz iş tuturlar?

-Düzdür.

-Onda bəlli olurmu, onların nədən, çatışmazlığı olan uşaqları doğulur?

-Bunu düz deyirsən,- Hippiy dilləndi.

-Onda səndən bir söz də soruşum: yaxşılığa qarşı yaxşılıq eləməyi, bütün insanların gözlədiyi yasa saymaq olarmı?

-Saymaq olar, ancaq bu yasanı pozanlar da az deyil.

-Kİm bu yasanı pozursa, bunun altını da çəkir, duymadınmı, buna görə bütün arxadaşları onu atıb gedir, o da çıxılmazlıqdan onu istəməyən adamların qoltuğuna sığınmağalı olur. Yan-yörəsindəkilərə yaxşılıq eləyənlər, yaxşı arxadaş sayılırlar, onun yaxşılığına dəyər verməyənlər, özlərini gözdən salır, ancaq bu yaxşılıq yiyəsi onların işinə yaradığından, ondan əl çəkmirlər də, necə olur-olsun özlərini ona sırımağa çalışırlar.

-And olsun Zevsə, Sokrat,- Hippiy dedi,- belə görünür, bunlar hamısı tanrıların buyuruğudur; bu yasaları tanrıların verdiyi bir də ondan görünür, onu pozanlar sonucda dara düşürlər, insanların yaratdığı yasalar belə bitkin olmur.

-Necə düşünürsən, Hippiy, tanrıların verdiyi yasalar düzgünlük yaratmaq üçündür, yoxsa düzgünlükdən başqa da, nəyəsə qulluq eləyir?

-And olsun Zevsə, ancaq düzgünlük yaratmağa yarayır, -Hippiy dilləndi.- Düzgünlüyə ən çox yarayan yasaları, tanrılardan başqasının yaratmasına inanmağım gəlmir.

-Demək, Hippiy, tanrılar istəyirlər, yasanı gözləməklə, düzgünlük elə bir iş sayılsın, deyilmi?

Sokrat, bax beləcə: sözlə də, işlə də,–ona yaxın olan kimsələrə də, onunla söz güləşdirmək istəyənlərə də, düzgünlüklə ömür sürməyi aşılamağı bacarırdı.

V BAŞLIQ.

{Ölçü gözləməklə bağlı danışıq}

İndi isə sizə, Sokratın öz arxadaşlarına, gerçək yaşamlarında işlərinə yarıyasılarını necə aşıladığından danışmaq istəyirəm. İstənilən kimsə üçün, ad-sanını ucaltmağın ağgünlük olduğunu, buna isə onun ancaq ölçü gözləməklə çata biləcəyini anlatmaq üçün ən yaxşı örnək, elə Sokratın özünün yaşayışı idi,- ölçü gözləməkdə kiminsə ondan üstün ola biləcəyinə inanmağım gəlmir; bundan başqa, apardığı çoxlu danışıqları ilə də o, arxadaşlarını ölçü gözləməyə inandırmağa çalışmaqdaydı. Sokrat özünün uzun sürən ömrünün bütün anlarında, yaxşılıq eləməkdən usanmaz, bunu arxadaşlarına aşılamaqdan da yorulmazdı. Onun Evtidemlə, ölçü gözləməklə bağlı apardığı danışığı, mənim yanımda olmuşdu.

-Evtidem, deyə bilərsənmi, özgürlük tək bir adam üçün böyük üstünlük sayılmalıdır, yoxsa bütünlüklə dövlət üçün də?

-Məncə, bu elə dövlətin də üstünlüyü sayılmalıdır, - Evtidem belə dedi.

-Kimsə düşkün istəklərinə uyaraq, onlardan aldığı, özü üçün dadlı saydığı duyğuların qulu olarsa da, bu sayaq pozğunluğu özü üçün ömür yolu seçərsə də, səncə o, özgürdürmü?

-Yox, beləsini özgür saymaq olmaz.

-Görünür, sənin baxışına görə özgürlük, insanın yaşamında düzgün yol seçməsidir, bundan yayınmağı isə sən özgürlük saymırsan, deyilmi?

-Çox da düz deyirsən, Sokrat.

-Deməli, sən ölçü gözləməyən adamları da ağına-bozuna baxmadan özgür saymırsan, eləmi?

-Elədir, başqa sayaq ola da bilməz.

-Necə düşünürsən, ölçü gözləyə bilməmək, ancaq düzgün yoldan sapmaqdır, yoxsa üstəlik adamları alçaldır da?

-Mən belə düşünürəm, bu elə yoldan sapdığı yerəcən də alçalmaq deməkdir.

-Qulluqçularına yaxşı işlər görməyi yasaqlayıb, ancaq yaramazlıq eləməyi buyuran bir ağa, səncə necə adamdır?

-And olsun Zevsə, bundan da pisi ola bilməz.

-Qul kimi yaşamağın ən pisi hansıdır, səncə?

-Ən pis ağanın qulu olmaq—ən pis qulluq budur, məncə.

-Onda ölçü gözləyə bilməmək, özünün düşkün istəklərinin qulu olmaq deyilmi?

-Düşünürəm, belə demək olar.

-Ölçü gözləməməyin, insanı bilgə olmaqdan yayındırıb, onu qanmaza çevirdiyini necə, sezmisənmi? Ölçü gözləyə bilməmək, insanın baxışlarını gərəkli olanlardan yayındırır, öyrənməkdən qoyur, bütünlüklə düşkün əyləncələrə yönəldib, anlağını azdırır, bir sözlə, yaxşını yamandan ayırmalı olan insan, durub göz görə-görə, yaxşını yamanın ayağına verir.

-Düzdür, beləsi də olur.

-Özünə yiyəlik eləməyi bacarmamaq! - ölçü gözləməyi bacarmayanlarda, ən çox gözə çarpan bu deyilmi? Bu kimə aydın deyil: özünə yiyəlik eləyən adamın elədikləri hara, yiyəlik eləyə bilməyənki hara?

-Düz deyirsən, Sokrat.

-Hansısa işin qulpundan yapışmaqdan yayınmağı, ölçü gözləməyən kimsədən yaxşı “bacaran” tapılarmı, yəni?

-Düşünürəm, ondan “bacarıqlısı” olmaz.

-Necə düşünürsən, insana,- yaxşını qoyub yamanı seçməyi; özü üçün pislik olana qapılıb, yaxşı olanı unutmağı; bir sözlə, özünə yiyəlik eləməyi başlı-başına buraxmağı öyrətməkdən də böyük yamanlıq eləmək olarmı?

-Bundan da böyüyü inanmıram, olsun.

-Yəni, aydın deyilmi, ölçü gözləmək insanı elə böyük, yaxşı, işlərə yönəldir, bunlar ölçü gözləməyən adamın yuxusuna da girə bilməz!

-Elədir, - Evtidem dedi.

-Ölçü gözləyən adamın, durmadan artan üstünlüyü göz qabağında deyilmi?

-Belə görünür.

-Elə isə, ölçü gözləməyin, ən yüksək insanlıq dəyərlərindən biri olduğunu danmaq olarmı?

-Sözsüz, danmaq olmaz.

-Gəl səndən bir söz də soruşum, görüm bunu düşünmüsənmi, Evtidem?

-Nəyi deyirsən?

-Ölçü gözləməyənlər elə sanırlar, onların ömrü-günü əyləncələr, sevinclər içində keçir, sanasan onlar insana sevinc gətirən bu əyləncələrdən genbol, gözləri doyanacan yararlana bilirlər, ancaq onlar yaşadıqları duyğuların hamısının yarımçıq olduğunu anlamırlar, bütöv ölçüdə duyğulanmağı da, sevinməyi də, ancaq ölçü gözləyən adamlar bacarırlar,- bax bunu düşündüyün olubmu?

-Bu sən dediklərin, necə ola bilər?

-Ölçü gözləyə bilməməkdən: aclığa-susuzluğa dözümsüzlük, qadınla yaxınlıqda sağlamlığı üzüb əldən salan aşırılıq, yuxusuzluğa qatlaşa bilməmək kimi çatışmazlıqlar törəyir, ancaq ölçüyə uyub, bu dediklərimizin ən çox gərək olduğu anı gözləməyi bacaranlar, onların dadını-duzunu yetərincə duya bilirlər; beləliklə də, ölçü gözləyə bilməmək, insanı ən sevimli əyləncələrində belə, gərəyincə duyğulanmağa qoymur. Ölçü gözləyənlər isə, gərəkən ağırlıqlara dözməyi bacardıqlarından, ancaq yetişən anında çox dadlı olan bu əyləncələrdən, gərəyincə yararlana bilirlər.

-Dediklərin bütünlüklə doğrudur, - bunu Evtidem dedi.

-Sonra, gərəkli bilgiləri öyrənərək, öz sağlamlığını qorumaq, ev işlərini düzgün qurmaq, arxadaşlarının, yurdunun işlərinə gərəyincə yaramaq, yağılarla döyüşə çıxıb, onları yenməyi bacarmaq kimi yüksək insanlıq dəyərlərindən doğan dadlı duyğuları, ancaq bu işləri görmək yükünü çiyninə götürənlər,- bunlar ölçü gözləməyi bacaranlardır,- anlayıb duya bilərlər, ölçü gözləməyənlər belə bir duyğuların olduğunu bilməzlər də. Bu sadaladığımız yüksək insanlıq dəyərləri, onlara bütünlüklə yad

deyilmi? Onları, düşkün istəklərin yetirdiyi bayağı duyğuların bataqlığı udmuşdur, özünü bu sayaq aşağılamaq üçün, nə əməyə qatlaşmaq, nə də yaşamın ağır sınaqlarına dözmək gərəkir.

Burada Evtidem dedi:

-Deyəsən, sən demək istəyirsən, Sokrat, düşkün duyğulara qapılıb, bunlardan ayrılmağa güçü çatmayan kimsələrə, bütün yaxşılıqlar da yaddır eləmi?

-Elədir Evtidem, ölçü gözləməyi bacarmamaq, elə anlaqsız olmaq deməkdir. Kimsə yüksək amaclar ardınca qoşmursa, ancaq düşkün əyləncələrin dalınca sürünürsə, onun anlaqsız mal-qaradan nəyi yaxşıdır? Görünən isə budur: ancaq ölçü gözləməyi bacaran adamlar, yüksək amaclara doğru yürüyə bilirlər, istər bilikləri, istərsə də yaşam sınaqlarından qazandıqları öyrəncələri ilə, yaxşını yamandan ayırmağı bacarırlar, yaxşılıqlara bağlanıb, yamanlıqlardan qaçınırlar.

Belə bir yol tutmaqla da,- Sokrat deyirdi,- insanlar ərdəmli, ağgünlü, o sıradan dialektikanı duymaqda da üstün olurlar. “Dialektika” sözü də, o deyirdi, adamların yığıncaqlarda biri-biri ilə gənəşib, bütün nəsnələri yaxşı-yamanlığına görə ayırd etməsindən yaranıb. Yaxşını yamandan ayırd etməyi öyrənmək üçün, bacardıqca artıq çalışmaq, bu işə ürəkdən bağlanmaq gərəkdir: bu yolla insanlar ərdəmli olurlar, yönətimçilik bacarığı qazanırlar, eləcə də dialektikanın incəliklərini də gərəyincə duya bilirlər.

VI BAŞLIQ

{Tanrıqanlıq(möminlik), düzgünlük anlayışlarının, dialektika yolu ilə ayırd edilməsi}

Mən indi Sokratın, öz arxadaşlarını dialektika yolu ilə araşdırmalar aparmağa necə alışdırdığından danışmaq istəyirəm. Bununla bağlı Sokrat belə düşünürdü: kimsə hansısa konunu düzgüncə anlayırsa, deməli bunu başqasına da doğruca anlatmağı bacarmalıdır; bunu eləyə bilmirsə, deməli o özü də yanılır, başqalarını da çaşdırır. Buna görə də o, yorulmaq bilmədən, arxadaşları ilə birgə, ayrı-ayrı konuları öyrənib, incələməyə çalışardı. Sokratın, anlayışları ayırd etməklə bağlı bütün araşdırmalarından danışsam, çox uzun çəkər, ona görə də bir neçə anlayışların ayırd edilməsi üzərində dayanıb, onun araşdırma yolunu anlatmağa çalışacağam.

Onun tanrıqanlıq(möminlik) anlayışını araşdırması, ortalama götürsək, belə idi.

-Evtidem, bir mənə de görüm,-Sokrat soruşdu,- səncə bu tanrıqanlıq nə deməkdir?

-Onu deyə bilərəm, bu insanda olan çox gözəl bir üstünlükdür, - Evtidem dedi.

-Yaxşı, onda deyə bilərsənmi, hansı adama tanrıqan deyirlər?

-Mənə elə gəlir, tanrılara gərəkən bütün sayğıları göstərən adam tanrıqandır.

-Tanrılara sayğı göstərməyi, kim necə anlayırsa, o sayaq da eləməlidir, yoxsa bunun bəlli bir yolu vardır?

-Sözsüz, tanrılara sayğı göstərməyi anladan bəlli yasalar vardır.

-Belə çıxır, kim bu yasaları bilirsə, onda tanrılara necə sayğı göstərməyi də bilir, eləmi?

-Məncə, belədir.

-Deməli, kim tanrılara necə sayğı göstərməyi bilirsə, o belə düşünür: bunu başqa sayaq yox, ancaq o bildiyi sayaq eləmək olar?

-Sözsüz, o düzgün olaraq belə düşünür.

-Kimsə tanrılara sayğı göstərməyi, özünün düzgün saydığından ayrı sayaq eləyirmi?

-Düşünürəm, eləmir.

-Deməli belə çıxır, kim tanrılarla bağlı yasaları bilir, o, tanrılara sayğısını yasaya uyğun olaraq da göstərə bilir?

-Sözsüz, belədir.

-Demək, yasaya uyğun olaraq sayğı göstərənlər, düz eləyirlər?

-Başqa necə ola bilər?

-Kim tanrılara yasaya uyğun sayğı göstərirsə, o da tanrıqandır, eləmi?

-Elədir, - Evtidem dedi.

-Onda, bizim araşdırdığımız anlayışın düzgün anlamı beləmi olur: tanrılarla bağlı yasaları bilən adam tanrıqandır?

-Mənə elə gəlir, ən azı belə demək olar, - Evtidem dilləndi.

-Adamlarla ilişkilərində, kim onlarla necə istəsə, elə də davrana bilərmi?

-Yox, adamlara yanaşmanın da öz yasaları vardır.

-Onda, biri-biriylə ilişkilərində bu yasaları gözləyənlər, gərək olan təki davranmış olurlar, eləmi?

-Başqa sayaq ola bilərmi, yəni?

-Onda gərək olan təki davrananlar, düzgün davranmağı bacarırlar, deyilmi?

-Elədir.

-Demək belə çıxır, adamlarla düzgün davrananlar, öz adamlıqlarını düzgün yerinə yetirirlər?

-Düşünürəm, bu belədir.

-Onda yasaları gözləyən kimsə, düzgün iş tutur, eləmi?

-Sözsüz.

-Hansı işlərin düzgün olduğunu bilirsənmi?

-Bunlar, yasaya qarşı olmayan işlərdir.

-Demək, yasaya uyğun olan işləri görənlər, düzgün iş tutur, gərəkən işi görür, deyilmi?

-Sözsüz, belədir.

-Kim düzgün iş görürsə, deməli o da düzgün adamdır, deyilmi?

-Elədir.

-Kimsə yasaları bilmədən, onları gözləyə bilərmi, necə düşünürsən?

-Düşünürəm, beləsi ola bilməz.

-Eləsi olurmu, nəyisə necə düzgün eləməyin yolunu bilir, ancaq düşünür, gərək belə eləməsin?

-Məncə, beləsi olmur.

-Elə adam tanıyırsanmı, bir sayaq düşünsün, ancaq başqa sayaq eləsin?

-Yox, tanımıram beləsini, - Evtidem dilləndi.

-Belə çıxır, insanlar üçün qoyulmuş yasaları bilənlər, öz işlərini düzgün yerinə yetirirlər?

-Düzdür.

-Bu o deməkdirmi, düzgün iş tutan da elə düzgün adamdır?

-Başqası, necə düzgün ola biər?

-Belə çıxır, biz indi burada düzgünlük anlayışını ayırd eləyə bilərik, yəni belə: insanlar üçün qoyulmuş yasaları bilən, düzgün insandır, elə deyilmi?

-Məncə, belə demək olar.

-Onda bilgəlikdən(müdriklikdən) nə danışmaq olar? Nə deməkdir bilgəlik? Mənə de görüm, səncə bilgə, bildiklərini bildiyinə görəmi bilgə sayılır, yoxsa, bilmədiklərini bildiyinə görə?

-Məncə o, bildiklərinə görə bilgə sayılmalıdır, - Evtidem dedi.- Bilmədiklərinə görə necə bilgə olmaq olar?

-Bilgələr ancaq bildiklərinə görəmi, bilgə olurlar?

-Bilikdən başqa da bir nədəndən, bilgə olmaq olarmı?

-Demək, bilgəlik biliciliklə bağlıdır?

-Məncə, belədir.

-Necə düşünürsən, insan yer üzündə olan biliklərin hamısını öyrənə bilərmi?

-And olsun Zevsə, düşünürəm, azacıq payını belə öyrənib qurtara bilməz.

-Deməli, insan bütün konular üzrə bilgə ola bilməz?

-And olsun Zevsə, ola bilməz.

-Onda adamlar, ancaq öz bildikləri konular üzrə bilgə ola bilərlər, deyilmi?

-Düşünürəm, belədir.

-Evtidem, necə bilirsən, yaxşılıq anlayışını da bu sayaq araşdırmağa dəyərmi?

-Necə yəni?

-Necə düşünürsən, gərəkli olduğunu sandığımız nəsnə, elə hamı üçünmü gərəklidir?

-Yox.

-Birinə gərəkli olan, başqası üçün yararsız ola bilərmi?

-Beləsi çox olur.

-Sən gərəkli olmayan bir yaxşılıq adı çəkə bilərsənmi?

-Yox, mən düzü, beləsini bilmirəm.

-Belə çıxır, gərəkli olan, kimin üçün gərəklidirsə, elə onun üçün də yaxşılıqdır, belə deyilmi?

-Məncə, elə belədir də var.

-Bizim gözəl sandığımızı, başqaları gözəl sanmaya bilərmi? Yoxsa yer üzündə hansısa bədən quruluşunu, necəsə bir qabı, biz gözəl sayırıqsa, onları elə hamının da gözəl sayacağına güvənmək olar?

-Yox, and olsun Zevsə, nəyinsə hamı üçün gözəl olması başıma batmır.

-Bütün nəsnələr öz yararına görə işlədiləndə gözəl olmurmu?

-Elədir.

-Bir işə yaradığına görə gözəl sayılan nəsnə, yaramadığı başqa bir işə görə də gözəl sayıla bilərmi?

-Məncə, ancaq yaradığı işə görə gözəl sayıla bilər.

-Onda belə çıxır, gözəl sayılan, ancaq yaradığı işə görə gözəl sayıla bilər, eləmi?

-Başqa sayaq ola da bilməz.

-İgidlik necə, Evtidem, səncə bu da gözəl nəsnə sayılmalıdırmı?

-Gözəl yox, çox gözəl sayılmalıdır, - Evtidem dedi.

-Demək, səncə, igidlik gərəkli nəsnədirsə də, ancaq bu önəmsiz, ötəri işlər üçün deyil, düzdürmü?

-And olsun Zevsə, ancaq ən böyük, ən önəmli işlər üçündür.

-Necə bilirsən, görmək istədiyi işin içində, qorxu-ürkünün, ölüm-itimin ola biləcəyini qabaqcadan bilməyərək ona girişmək, igidlik sayıla bilərmi?

-Düşünürəm, bu igidlik sayılmamalıdır.

-Deməli, bu işlərin qorxu-ürkülü, ölüm-itimli olduğunu bilmədiyindən ona girişənləri, igid saymaq olmaz?

-And olsun Zevsə olmaz: onda çoxlu dəlilər də, qorxaqlar da, igid sayılardı.

-Qorxulasılardan ürpəşənlərə nə deyirsən?

-Onlarda igidliklə bağlı nəsə olduğunu düşünmək, çox gülünc olardı!

-Belə çıxır, sən qorxulu, ölüm-itimli durumlarda duruş gətirən, özünü yerə vurmayanları igid sayırsan, belə durumdan sarsılanları isə qorxaq?

-Elədir.

-Belə durumda qorxmayanların hamısınımı igid sayırsan, yoxsa durumdan baş çıxarıb, onu qabaqlaya bilənimi?

-Kim baş açа bilib, qabaqlaya bilirsə, onu igid sayıram.

-İgid olmayan isə, düşünürsən, durumdan baş açmayıb, özünü itirəndir, eləmi?

-Ancaq o, başqa kim ola bilər?

-Kim bu durumdan baş açа bilirsə, gördüyü işi qabaqcadan necə yoluna qoymağı da bilir, deyilmi?

-Elədir, bildiyinə görə də bunu bacarır.

-Kim bu durumdan baş açmırsa, gərək olan anda nə eləmək olduğunu bilirmi?

-Sözsüz, bilmir.

-Belə çıxır, yerinə görə nə eləmək olduğunu bilən, elə bu işi bacarır da?

-Ancaq o bacarır, düzdür.

-Bu işin gedişində yanılmayan kimsə, bu durumdan baş açmaya bilərmi?

-Düşünürəm, yox.

-Onda durumdan baş açmayan, bu işin gedişində yanılan kimsədirmi?

-Belə çıxır.

-Buradan o çıxmırmı, kimsə qorxulu, ölüm-itimli durumdan baş açıb, düzgün çıxış yolu tapa bilirsə, o da igiddir, belə durumdan baş aça bilməyən, yanılan isə qorxaqdır?

-Büsbütün düzdür, - bunu Evtidem dedi.

Monarxiya ilə tiraniyanı Sokrat dövləti təkbaşına yönətməyin biçimlərindən saysa da, onları biri-birindən ayırd eləyirdi: xalqın könüllü anlaşmasına, yasaların gözlənilməsinə arxalanaraq, kiminsə təkbaşına yönətdiyi respublikanı- monarxiya, xalqın istəminə qarşı olan, yasaları gözləməyən, ancaq hakimiyyət başında duran kimsənin özbaşınalığına bağlı olan yönətimi isə tiraniya sayırdı. Dövlət qulluqçularının,- yasanı qorumağı, gözləməyi yaxşı bacaran adamların arasından seçilməsinə söykənən dövlət quruluşunu o, aristokratiya adlandırırdı; toplumda öz var-yatırına görə yer tutmağı bacaran adamların arasından seçilmişlərin yönətdiyi dövləti - plutokratiya, yurddaşları toplumda tutduqları yerə görə seçib ayırmadan, onların hamısının arasında aparılan seçkiylə qurulan dövləti - demokratiya adlandırırdı.

Birdən kimsə Sokratla söz güləşdirməyə başlayıb, dəyərli bir söz danışa bilmədən, dediklərini inandırıcı tutarqalara anlada bilmədən, eləcə üyüdüb-töküb desəydi: onun bildiyinə görə, onun tanıdığı birisi, nəyisə yaxşı bilir, dövlət işlərindən yaxşı baş çıxarır, igiddir, habelə bunun kimi sözlər..., onda Sokrat bu söz dartışmasını toxdaqlıqla geriyə qaytarıb, konunun kökünə gətirib çıxarardı, örnək üçün bax belə:

-Sən, öydüyün bu yurddaşımızın, mənim üstün saydığım yurddaşımızdan, çox artıq üstünlüklərinin olduğuna, bizləri inandırmaq istəyirsən, eləmi?

-Elədir, mən dediyimin üstündə dururam.

-Onda gəl öncə baxaq görək, hansısa yurddaşın üstünlüyü nədən bilinir.

-Gəl, baxaq.

-Axça ilə bağlı işlərin yönətimində, dövlətin qazancını artıran kimsə üstün yurddaş sayılmalı deyilmi?

-Sözsüz.

-Savaşda isə, kim dövlətin yağıları yenməsində başlıca işi görə bilir, onu üstün saymalıyıq eləmi?

-Bu da düzdür.

-Diplomatiyada, dövləti keçmiş yağıları ilə barışdırmağı bacaran kimsə, üstün sayılmazmı?

-Mən də belə düşünürəm.

-Xalq yığıncağında çıxış eləyən sözçülərdən(oratorlardan), partiyaların qarşıdurmalarını kəsib, hamını anlaşmağa gətirməyi bacaranmı üstündür?

-Sözsüz, o üstündür.

Söz dartışmasını bu sayaq yönəltikcə, araşdırmalar da getdikcə konunun özlüyünə(mahiyyətinə) yönəlir, öncə Sokratla anlaşmayan kimsə üçün də, gerçək durum addım-addım üzə çıxıb, aydınlaşırdı.

Sokrat özünün başladığı danışıqlarında, hansısa konunu araşdırmağa başlarkən, sözünün gücünü—hamının inandığı gerçəklikləri ortaya atmaqla artırar, bunu ən inandırıcı araşdırma yolu sayardı. Ona görə də, bunu ürəklə deyə bilərəm, dinləyicilərini özünün dediklərinə inandırmaqda Sokratdan üstün olan birisini mən görməmişdim. Sokratın sözüdür: Homer də Odisseyin gözəl danışıq bacarığının olmasını, dinləyicilərini inandıra bilməsi üstünlüyünü, onun, eşidənlərin hamısının bildiyi, inandığı sözləri ortaya qoya bilməsində görürdü.

VII BAŞLIQ

{Biliklərin gerçək yaşamda gərəkliyi ilə bağlı danışıq}

Beləliklə də Sokrat öz dinləyicilərinə sözünü açıq, birbaşa deyərdi; bu, məncə yuxarıda mənim danışdıqlarımdan da görünməkdədir. İndi isə mən, onun öz dinləyicilərinə, görəsi işlərini yerinə yetirməkdə necə özgürlük aşılamasından danışmaq istəyirəm. Mənim tanıdığım çoxlu adamlarla danışığında o, ilk öncə onların hansı konuda bilgili olduğunu öyrənməyə çalışardı; bundan sonra ərdəmli insanın bilməsi gərəkən konuları haracan bilirsə oracan, dinləyicilərinə öyrədərdi; öz bildikləri yetərli olmayanda isə, dinləyicilərini bu konunu yaxşı bilən adamlarla tanışdırardı. Onlara bir də, gerçəkdən aydın(ziyalı) olan kimsənin bilməsi gərəkən konuların hansılar olduğunu da anladardı.

Örnək üçün, deyərdi, yerölçməni(həndəsəni), oracan bilmək gərəkdir, yeri düşəndə hansısa torpaq parçasını düzgün ölçərək götürməyi, gərəkəndə onu qaytara bilməyi, bölməyi, kağız üzərində göstərməyi bacarasan; bunu bacarmaq üçün, ölçüləri yaxşı bilməyin gərək olduğunu deyərdi, yerölçməni yaxşı bilməklə evdə oturub, hansısa torpaq parçasının böyüklüyünü də, onun enini-uzununu da tapa bilməyin, insanların işlərinə yüngüllük gətirdiyini anladardı. Ancaq yerölçmədə(həndəsədə) ağır anlaşılan çertyojlar çəkməyə gəlib çıxmağı gərəksiz iş sayardı; bunun nəyə yaradığı görünmür deyərdi; özü yerölçməni yetərincə öyrənsə də, ancaq deyərdi, bunu öyrənməyə dərindən

girişməyə dəyməz, bu, insanın bütün ömrünü əlindən alıb, onu başqa çoxlu gərəkli bilgilər almaqda geri sala bilər.

Dinləyicilərini, göybilimi(astronomiyanı) öyrənməyə də yönəldərdi, ancaq bunu da gərəkəndən artıq eləməməyə çağırardı, burada: quruda, suda yol gedə bilmək üçün düzgün yönün seçilməsi, adamların əkin-biçinlə, başqa işləri ilə bağlı ayın, ilin çağlarını düzgün ayırd eləməsi kimi,- insan yaşamına yarayan bilgiləri öyrənməyi yetərli sayardı. Bunları öyrənməsi gərəkən kimsələrin: gecə ovçularının, gəmi yönətimçilərinin, elə başqalarının da, çalışmaqla bu işləri qolayca öyrənə biləcəklərini deyərdi. Ancaq, göybilimin üstündə baş sındırıb, insanın işinə yaramayan: ulduzların necə fırlandıqlarını öyrənməyi, yerdən göydəki ulduzlaracan olan yolun uzunluğunu ölçməyə çalışmağı, ulduzların nədən fırlandığını araşdırmağı, habelə bunun kimi işləri gərəksiz sayıb, dinləyicilərini bunlara baş qoşmaqdan çəkindirərdi; özünün göybilimdən yetərli biliyi vardısa da, bütün ömrünü bu yolda qoyub, başqa gərəkli bilikləri öyrənməkdən qalmağı düzgün saymazdı. O göydə baş verən olayları öyrənməyə, tanrının onları necə yaratdığını araşdırmağa qarşı çıxırdı, dediyinə görə, onsuz da insan bu işləri anlaya bilməz, bir də belə işlərə baş qoşmağı tanrılar da bəyənmirlər, açmaq istəmədikləri gizlinlərə kiminsə əl aparması onları acıqlandırır.

Belə işlərə baş qoşanlar, dəliliyə üz tuturlar, necə, ötənlərdə tanrıların gördüyü işləri incələməyi ilə öyünən Anaksaqor sonucda dəli olmuşdu. Bu Anaksaqor deyirmiş, günəş də alov kimidir; ancaq nədənsə, insanların alova baxa bilib, günəşə baxa bilmədiklərini yozmağı unudurmuş; günəşin işığı insanların dərisini qaraldır, ancaq alovun işığından bu olmur, o, nədənsə bundan da söz açmır; onun baxışından bu da yayınmışdı: günəşin işığı olmadan bitkilər boy atıb böyümürlər, ancaq alovun işığından onlar saralıb solurlar; onun deməsinə görə, günəş alovun istisində közərmiş daşdır, ancaq yenə də bunlar, onun baxışından yayınırdı: birincisi, daş alovda qızanda işıq saçmır, ikinci, daşı alovda çox qızdıranda ovulub tökülür, günəş isə neçə illərdir göydən özünün tükənmək bilməyən işığını saçmaqdadır.

Sokrat saymanı(hesabı) öyrənməyi də yararlı sayırdı, ancaq burada da başqa bilimləri öyrənməkdə olduğu kimi, bu işə aşırı qapılmaqdan çəkindirirdi. Bir sözlə, o öz

arxadaşları ilə araşdırdıqlarını, öyrəndiklərini, insanın işinə yarayandan artıq bilməyi, yersiz sayırdı.

Sokrat arxadaşlarını öz sağlamlıqlarını qorumağın gərəkliyinə inandırmağa da çalışırdı,- bacardıqca bu işin bilicilərindən öyrənməyi , sonra bütün ömrü boyu öz sağlamlığına göz yetirib, hansı yeməyin, hansı içkinin, hansı işin sağlamlığına yaradığını aydınlaşdırmağı, sağlamlığını qorumaq üçün bunlardan hansı ölçüdə yararlanmağı ayırd etməyi, bir sözlə özü-özünün həkimi olmağı aşılayırdı. Sokratın deməsinə görə, bütün ömrü boyu bədənini gözdən qoymayan adam, öz sağlamlığı üçün nəyin yararlı olduğunu, istənilən bilikli həkimdən də qat-qat yaxşı bilir. İnsanın özünün anlaya bilmədiklərini, fal açmaqla tanrılardan öyrənməyə çağırardı, tanrıların göstərdikləri yolu tutmağın, işə yarayacağına, uğur gətirəcəyinə ürəkdən inanardı.

VIII BAŞLIQ

{Sokrata çor* dəyməsinin(cin-şeytan yoluxmasının) ağ yalan olması. Çıxarış}

Sokratın, tanrıdan gələn səsin ona: nəyi eləyib, nəyi eləməməyi buyurduğunu deməsini, çoxları onun uydurması saydılar, Sokrata ölüm kəsilməsini də bununla doğrultmağa çalışdılar. Bu adamlar aşağıdakı bəlgələri(faktları) anlaya bilməmişdilər: birincisi, Sokrat artıq yetərincə yaşlı idi, onu öldürməsəydilər belə, onsuz da çox yaşamayacaqdı; ikincisi, o öz ömrünün ən ağır dönəmini yaşamağa başlamışdı, bu çağlarında insanların anlaqları gücdən düşməyə başlayır, ancaq bütün bunlara baxmayaraq, Sokrat öpözündə gərəkən gücü tapa bilib, bir də onunla adını ucaltmağı bacardı da, məhkəmənin gedişindəki özünü doğrultma çıxışında, deyərdim, yer üzündə bir kimsənin də bacara bilməyəcəyi: düzgünlük, qorxmazlıq, ufutluq göstərdi, öz ölümünü də kimsəyə acıq duymadan, sarsılmaz bir kişi toxdaqlığı ilə qarşıladı.

Hamının bir səslə deməsinə görə, ölümü onun kimi qorxub-çəkinmədən qarşılayan kimsəni buçağacan görən olmamışdı. Məhkəmədən sonra o, bir ay da yaşamışdı, bu bir ay Delos* bayramına düşmüşdü, bu bayramda isə Delosa sayğı bidirməyə getmiş elçilər qayıtmayınca, kimsəni öldürmək yasaq idi. Bu bir ayı,- bunu onun bütün yaxınları da görürdü,- buçağacan necə yaşamışdısa eləcə də yaşadı; onun yenə də qabaqlarda olduğu kimi, hamıyla ürəyi açıq, gülərüzlə davranması adamları büsbütün şaşırmışdı. Bundan da gözəl ölməyi necə bacarmaq olar, görəsən? İnsanın öz böyüklüyünü endirmədən qarşıladığı belə ölümdən də gözəl bir ölüm, ola bilərmi?

Ölümün uğurlusu, böyüyü olurmu? Yoxsa elə tanrıların istəminə görə, Sokrat büsbütün başıucalıqla yaşadığı ömrünü, özünün bənzərsiz böyüklüyünə, bilgəliyinə yaraşan bir ölümlə də başa vurdu?

Mən Hipponikin oğlu Hermogenin Sokratla olmuş danışığını, ondan eşitdiyim kimi sizlərə çatdırmaq istəyirəm. Melet Sokratı məhkəməyə verəndən sonra, Sokratın özünü o yerə qoymayıb, yenə də hamı ilə çoxlu konulardan danışıb, ancaq onu gözləyən məhkəməni sanasan unutduğunu görüncə, Hermogen Sokratı, onu gözləyən məhkəmədə deyəcəklərini düşünüb-daşınmağa çağırmışdı.

Sokrat öncə demişdi:

-Səncə, mən bütün ömrüm boyu, elə bunun üçün çalımırammı?

Hermogen bunu necə anlamalı olduğunu soruşmuşdu.

Sokrat demişdi: O, bütün ömrü boyu düzgünlüyün nə, əyriliyin nə demək olduğunu araşdırmış, ancaq düzgün olan yolla getmiş, əyrilikdən qaçınmışdır, bunu da istənilən məhkəmədə özünü doğrultmaq üçün ən yaxşı çalışma sayır.

-Görmürsənmi, Sokrat,- Hermogen demişdi,- Afinalı hakimləri sözlə yanıltmaq olur, bir də görürsən, suçu olmayana ölüm kəsdilər, suçlunu doğruya çıxardılar?

-Yox, and olsun Zevsə,- Sokrat demişdi,- mən istəyirdim, məhkəmədə özümü doğrultmaq üçün nəsə düşünüb-daşınım, tanrıdan gələn səs, buna gərək olmadığını buyurdu.

-Bu çox anlaşılmaz görünür!- Hermogen dedi.

-Sən yəni anlaya bilmirsənmi, tanrıların istəyinə görə mənim indi ölməyim yaxşıdır? Yoxsa sən bilmirsən, mən indiyə kimi, bir başqasının məndən üstün, məndən gözəl yaşadığını deyə biləcəyinə, yol verməmişəm? Hamıdan üstün yaşamaq, mən belə düşünürəm, bacardıqca çox yaxşı işlər görmək üçün çalışıb-vuruşmaqdır, hamıdan gözəl yaşamaq isə, yaxşılıq eləməyi bacardığından duyduğun sevinclərlə ömür sürməkdir. Mən özümü tanıyan gündən, ancaq bunun üçün yaşamışam; başqaları ilə görüşəndə, onlarla özümü tutuşdurub, bir az da artıq yaxşı olmağı düşünmüşəm; bunu ancaq mən demirəm, arxadaşlarım da məni belə tanıyırlar, ancaq elə təkcə məni istədiklərindən yox(onsuz da arxadaşını ürəkdən istəyən belə düşünür), mənimlə oturub-durmaqdan özlərinin də yaxşılığa çatacaqlarını bildiklərindən, belə düşünürlər. Ola bilsin, bir az da

artıq yaşasam, qocalıqla gələn qaçılmaz çatışmazlıqlarla üzləşəm – yaxşı görüb-eşidə bilməyəm, pis anlamağa başlayam, yeni bilikləri qavramaq bir yana, bildiklərimi də unudam, bir sözlə, qabaqlar üstün olduğum kimsələrdən aşağı görünəm. Mən bunu anlamasam, demək ömrümü boşuna yaşamışam; ancaq bunu anlayandan sonra, gözgörəti, ömrünün öz bitkinliyini, gözəlliyini itirməsinə necə dözmək olar? Bundan başqa, mənə düzgün olmayaraq ölüm kəssələr, bu adamlar öz əyriliklərinə görə adlarını batırmış olacaqlar: əyrilik eləmək ad batırmaqdırsa, onda elə ad batırmağın da ancaq əyrilik eləməkdən törədiyi bəlli deyilmi? Burada mənim adımı nə batıra bilər: bunların mənə düzgün məhkəmə qura bilməməsi, yoxsa mənə qarşı əyrilik eləmələri? Necə görürəm, elə ötən çağların adamlarını ananda da, ən başlıcası, onların əyriliklərdə əli olduğunumu, yoxsa əyriliklə öldürüldüyünümü ayırd eləyirlər. Mən bunu yaxşı bilirəm, düzgün olmayaraq öldürülsəm, bunun üçün yanıb-yaxılanlar çox olacaq- bunlar məni ölümə göndərən adamların içində olmayacaq, bundan arxayınam,- ancaq məni tanıyanların hamısı bir ağızdan, mənim bir yol da əyrilik eləmədiyimi, özümü yamanlıq eləməkdən çəkindirib, ancaq yaxşılıq eləməyə çalışdığımdan danışacaqlar.

Öz gözlənilən məhkəməsi ilə bağlı Sokrat Hermogenə də, başqalarına da belə sözlər deyirdi. Mənliyini itirməyən çağdaşları, Sokratı yaxından tanıyanların hamısı, onun, - ərdəmli olmaq istəyənlərə necə bacarıqla yol göstərə bildiyini, indiyənəcən də yana-yana anmaqdadırlar.

Sokrat mənim sizə danışdığım kimi yaşamışdı,- oracan tanrıqan(mömin) idi, tanrıların istəminə uyğun olmayan bircə iş də tutmazdı, oracan düzgün idi, bir adama azacıq da olsun korluq(zərər) verməzdi, onun dinləyicisi olanlara ölçüyəgəlməz yararları vardı, oracan ölçü gözləyən idi, bircə an da olsa belə gərəkli olanı qoyub ötəri duyğulara qapılmazdı, oracan bilgə idi, “yaxşı nədir, pis nədir?” konularını araşdıranda onun çaşdığını görən olmamışdı, bu incələmələrində onun kimsənin yardımına gərəyi olmazdı, bu konuları düzgün açıqlamaqda yetərincə güclü idi, bu yöndə danışmağı da, anlayışları bütün dərinliyi ilə ayırd eləməyi də, başqalarının dediklərinə qulaq asıb onları dəyərləndirməyi də, yanlışlarını yerindəcə göstərməyi də, ən başlıcası, dinləyicilərini ərdəmliyə, yaxşılıqsevərliyə yönəltməyi də çox gözəl bacarırdı. Mənim özümə gəlincə, onda görüb duyduğum yetkinliklərə baxdıqca, mənə elə gəlirdi, ən yaxşı, ən ağgünlü

adam, ancaq belə ola bilər. Kimsə mənim Sokratla bağlı dediklərimə qarşı çıxırsa, onda qoy başqalarının ərdəmliyini, Sokratın ərdəmliyi ilə tutuşdursun, sonra da kimin kim olduğunu görsün!

SON

AFINALI KSENOFONT

Sokratın məhkəmədə özünü doğrultmaq üçün dedikləri

Mənə elə gəlir, Sokrata qurulan məhkəmə öncəsi, sonra da məhkəmənin gedişində, onun özünü doğrultmaq, ömrünü necə başa vurmaq üzrə düşündüklərini anmaq da yerinə düşərdi. Onun məhkəmədəki çıxışından başqaları da çox yazmışlar, hamısı da onun bu çıxışında necə kəskin, sarsılmaz, yenilməz olduğunu göstərmişlər, onu tanıyanlar bir səslə deyirlər, Sokratın bu durumdakı davranışı da, danışığı da, ondan başqa birisinin bacarmayacağı bir yetkinlik örnəyi idi. Ancaq Sokratdan yazanlar, Sokratın artıq bu çağlarında ölümü yaşamaqdan üstün tutduğunu gərəyincə açıb göstərə bilməmişlər, dediyim bu durumu da göz önündə tutandan sonra, onun çıxışındakı dönməzlik, əyilməzlik bir az da yaxşı anlaşılır. Ancaq Sokratın arxadaşı olmuş, Hipponikin oğlu Hermogen onunla baş tutmuş danışıqlarını üzə çıxarandan sonra, Sokratın başını dik tutaraq elədiyi bu çıxışının, onun atdığı addımın düzgünlüyünə olan inamından doğduğu açıq-aydın bəlli olur.

Sokratın öyrəncəsi üzrə, yenə də dinləyicilərini başına toplayıb, gündəlik konulardan danışmasını, ancaq qarşıda onu gözləyən məhkəmədən söz belə açmamasını görüncə, Hermogen ondan soruşmuşdu:

-Sokrat, sənə elə gəlmirmi, məhkəmədə özünü doğrultmaq üçün nə deyəcəyini indidən düşünməyə dəyər?

-Səncə, mənim ömrüm büsbütün, bu özünü doğrultmağa çalışmaq deyil də, nədir?

-Necə yəni? - Hermogen soruşdu.

Sokrat dedi:

-Mən bütün ömrüm boyu, bir dənə də olsun əyri iş tutmamışam, səncə bu özünü qorumaq üçün ən böyük sayıqlıq deyilmi?

-Sokrat, yoxsa sən Afina məhkəmələrini tanımırsan? - yenə Hermogen dilləndi.- Çox olur, kiminsə çıxışından acıqlanan hakimlər, onu suçu olmadan ölümə göndərirlər; bir də görürsən, suçu olanı doğruya çıxarırlar, nədir-nədir onların yalvarışlarına acıyırlar, yarınmaq üçün dediyi sözlərinə uyurlar.

-Niyə bilmirəm, and olsun Zevsə, bunu bilirəm, ancaq neynim, iki dönə məhkəmədə özümü doğrultmaq üçün nəsə düşünmək istəmişəm, ikisində də tanrılar məni bundan daşındırıblar.

-Mən bunu anlaya bilmirəm! - Hermogen dedi.

-Tanrıların, indi mənim üçün ölümün yaxşı olduğunu buyurmaları, sənə anlaşılmazmı gəlir? Yoxsa sən bilmirsən, mənim indiyə kimi tək çalışdığım o olub, bu yer üzündə bir kimsə məndən artıq insanca yaşadığını deyə bilməsin? Mənim ömrümün gözəlliyi də bu uca, gözəl duyğularla yaşamağım olub,- mən bütün ömrümü tanrıqanlıqla(möminliklə), düzgünlüklə yaşaya bilmişəm; ona görə, mən özüm də yaşadığım ömrü bəyənmişəm, elə yan-yörədəkilərin də belə düşündüyünü sezmişəm. Ancaq mən bir az da artıq yaşasam, qocalığın yarıtmazlıqları ilə üzləşməli olacağam,- görüb-eşitməyim korlanacaq, yeni biliklər öyrənmək bir yana, bildiklərimi də unutmağa başlayacağam. Mən özümün özümdən əskik olmağa başladığımı duyub, özümü qınamağa başlasam, belə bir ömrün nə dadı-duzu qalacaq? Ona görə də, ola bilsin tanrılar mənə ömrümü qolayca, yerinə düşən bir anda sona vurmağı, sovqat göndərmişlər. Mənə ölüm kəsənlərin düşüncəsinə görə, mən yer üzündən yüngül bir ölümlə köçəcəyəm, bu ölüm arxadaşların dincliyini pozmayacaq; ancaq mən bunu bilirəm, arxadaşlarım da bütün anlayan adamlar kimi, sözsüz, mənim bu sayaq ölümümə görə, yanıb-yaxılacaqlar. İnsan yan-yörəsindəkilərin bilcəyində(yaddaşında) yaramaz, pis anılar buraxmadan; öz ağrıları ilə kimsəni incidib, dincliyini pozmayan,- sağlam bədəni ilə, güclü öpözü ilə ölürsə, onun ölümündən hamının yanıb-yaxılacağı aydın

deyilmi? Məhkəmədə özümü doğrultmaq üçün çıxışımı qabaqcadan düşünmək istəyəndə, tanrılar çox düzgün olaraq, məni bundan çəkindirdilər. Məhkəmədə mənə əskiklik gətirəcək sözlər danışıb, özümü bu sayaq doğruldaraq sağ qalsam, indi aydın bir anlaqla ölüb getməkdənsə, qocalıqla gələn bütün çatışmazlıqların ağrı-acılarını dadıb, onsuz da sonucda yenə də ölməliyəm. And olsun Zevsə, Hermogen, mən ölümdən qorunmağa çalışmayacağam da; hakimlər mənim dediklərimdən acıqlansalar belə, mən yenə sözün düzünü deyəcəyəm: öz ömrümdə tanrılardan payıma düşən ərməğanlardan, insanlardan gördüyüm yaxşılıqlardan danışacağam, mənim özümün özümü necə tanıdığımı, ufutlu ölümü - dilənçi kimi dilənib qazanılan ömürdən üstün saydığımı deməkdən çəkinməyəcəyəm; başıuca ölmək, özünü alçaldıb qazanılan ömürdən yaxşı deyilmi?

Hermogenin deməsinə görə, Sokrat bu düşüncələrlə də məhkəməyə gəlib, onu qaralamaq istəyənlərin: “deməyəsən Sokrat dövlətin tanıdığı tanrıları danır, özündən yenilərini uydurur, gəncləri pozğun yola çəkir”- deyənlərin ağ yalanlarına qarşı danışmağa başladı:

-Ay afinanılar, düzünü desəm, məni burada çaşdıran odur, Melet nədən belə deyir, sanasan mən dövlətin sayğıladığı tanrıları saya salmıram: bütün ellik bayramlarında, xalqın tapındığı ocaqlarda mənim qurban gətirdiyimi orada olanların hamısı görüb, elə bu Melet də istəsəydi, görə bilərdi. Mənim yeni tanrılar uydurmağıma gəlincə, mən deyirəmsə tanrılar öz səsləri ilə mənə nəyi eləyib, nəyi eləməməyi öyrədirlər, onda mən tanrıları necə dana bilərəm? Bizim şəhərimizdə düzgün sayılan qulaq falına çıxanlar da: quşlardanmı, ya da kimdənsə eşitdikləri səslərə görə, tanrıların istəmini ayırd eləyirlər. Göy gurultusuna nə deyirsiniz? Yoxsa onun, tanrıların səsi ilə bizə çatan öncəgörmələr olduğuna inanmırsınız? Delfada, tanrı araçıları üçayaqdan çıxan səslərə qulaq asıb, tanrının istəmlərini açıqlamırlarmı? Tanrılar gələcəyi bilirlər, bildiklərini də kimə istəsələr öyrədirlər, mən də elə bunu deyirəm, yoxsa siz belə düşünmürsünüz? Sizlər, tanrıların gələcəyi deyən elçilərinin: quşlar, gözlənilmədən eşidilən sözlər, hansısa kərtiklər(əlamətlər) olduğunu deyirsiniz, mən isə bu elçiliyi tanrılardan eşitdiyim səsə bağlayıram, belə deməklə də ən doğru, tanrıqanlığa yaraşan sözü tapıb deyirəm, durub tanrının gücünü quşlara bağlamıram! Mənim yalan

demədiyimə sizləri inandıra biləcək, sözlərinə güvənə biləcəyiniz tanıqlarım da var: mən çoxlu arxadaşlarıma onların tutmaq istədikləri işlərin necə başa çatacağını demişəm, bir yol da yanıldığım olmayıb.

Bunu eşidən hakimlər səs-küy salmağa başladılar: biriləri onun yalan danışdığını söyləyir, bir başqaları tanrıların Sokratı onlardan üstün tumasından cırnayırdılar. Onda Sokrat yenə danışmağa başladı:

-Yaxşı, kim istəyirsə ardına qulaq assın, görsün, tanrılar doğrudan da məni necə üstün tutmuşlar. Günlərin birində Herofont, Delfa tanrısından mənim kimliyimi soruşmuş, tanrı da ora yığışanların gözü qabağında bunları çatdırmışdı: Yer üzündə Sokratdan da gözütox, düzgün, bilgə bir adam yoxdur.

Bunu eşidən hakimlər, bir az da artıq hay-küy qaldırdılar. Sokrat yenə danışmağa başladı:

-Ancaq, afinalılar, Spartanı yenilməz eləyən yasalar toplusunun yaradıcısı Likurqu, tanrı məndən də üstün tutmuşdu, o, Delfa ocağının qapısından girəndə tanrı orakulun dili ilə ona demişdi: “Bilmirəm səni necə çağırım,- tanrımı deyim, yoxsa insanmı?” Delfa tanrısı məni tanrılara tay tumayıb, eləcə başqalarından çox yetkin olduğumu deyib. Yox, indi kor-koruna tanrıya inanmırsınızsa, onda gəlin, onun dediklərinə birgə baxaq. Bədəninin yaramaz istəklərinə məndən az uyan birisini tanıyırsınızmı? Yoxsa elə bir gözütox adam: mənim kimi, elədiklərinə görə kimsədən bir qara quruş da götürməyən tanışınızmı vardır? Siz elə bir düzgün adam göstərə bilərsinizmi, mənim kimi: olanı ilə keçinib, özgənin əlində gözü olmasın? Bilgəliyə gəlincə, bunu: mənim təki, söz anlamağa başladığı gündən, ara vermədən, haracan bacarırsa, ən gərəkli bilikləri araşdırıb öyrənən kimsəyə demək düzgün olmazdımı? Mənim bilgəlik yolunda çəkdiyim əməklərin boşuna getməməsi bundan bilinmirmi: ərdəmli olmaq istəyən çoxlu yurddaşlarım, elə çoxlu yadellilər də, öyrənmək üçün başqasının yanına yox, ancaq mənim yanıma gəlirlər? Deyə bilərsinizmi nədən, mənim onsuz da onlara axça ilə yardım etməyə gücüm çatmayacağını bilə-bilə, çoxlu adamlar hey bir ucdan mənə ərmağanlar verməyə çalışırlar? Mənə elədikləri yaxşılıqlara görə axça götürməmələri bir qırağa, üstəlik onlar çox böyük sayğılarla, mənim onlara elədiyim yaxşılıqların qarşılığını ödəyə bilməyəcəklərindən danışırlar! Afinanı yağılar

qapsayanda(mühasirə eləyəndə), az qala hamı necə dolanacağını düşünüb sarsılanda, mən savaş olmayan çağlardakı kimi korluq çəkmədən dolanmırdımmı? Hamı bazara gedib, dadı damaqlarında qalası nəsnələrə çoxlu axçalar dağıdırlar, mənim "çoxbilmişliyimə" baxın, az-azacıq axça ilə, onlardan da artıq ağız dadı ilə yediyim nəsnələr tapıb, yaşaya bilirəm. Özüm üçün bu dediklərimin, yalan olduğunu deyə bilən bir kimsə belə sizin aranızda yoxsa, onda məni tanrıların da, insanların da öyünclərlə anması düzgün olmazdımı? Bütün bunlara baxmayaraq, Melet, sən yenə deyirsən, mən bu elədiklərimlə gəncləri pis yollara çəkirəm, eləmi? Biz hamımız da yaxşı bilirik, gəncləri pis yollara çəkmək nə deməkdir; onda de görüm, mənim: yetkin olan birisini yaramaza çevirdiyimi, ağır oturuşlu olan birisini sırtığa çevirdiyimi, ölçülü-biçili birisini axça dağıdan birisinə döndərdiyimi, gərəyindən artıq içməyəni içki düşkününə çevirdiyimi, əməksevər olan birini ərincəyə çevirdiyimi, kimisə, hansısa bir alçaq, düşkün yollara çəkdiyimi, haçan, harada görmüsən?

-Yox ey, and olsun Zevsə,- Melet dilləndi, - mən elələrini tanıyıram, sən onları atalarından çox səni eşitmək üçün dilə tutmusan.

-Bunu danmıram, - Sokrat dedi,- yetkin insan olmaq konusunu başqalarından çox bildiyimdən, dinləyicilərimi, məni başqalarından çox eşitməyə çağıra bilərəm. Sağlamlıqla bağlı da, adamlar həkimləri atalarından çox eşidirlər; bilirsiniz, Xalq yığıncaqlarında afinalılar düzgün danışan sözçüləri(oratorları) öz doğmalarından çox eşidirlər. Yoxsa sizlər, strateq seçəndə üstünlüyü,- savaşın bütün incəliklərini bilən adamı qoyub, atalarınıza, qardaşlarınıza verirsiniz?

-Düzdür, Sokrat,- Melet söz atdı,- ancaq biz bunu, törəyə(adətə) uyğun olduğu üçün, bir də toplumun işinə yarayacağına görə belə eləyirik.

-Belədirsə, - Sokrat sözünün ardını gətirdi,- onda bu sənə çöçün gəlmirmi: hamılıqla görülən işlərdə, bu işin bilicilərinin dediklərinə artıq önəm verilməzmi, sayğı göstərilməzmi? Ancaq mən adamlara yaxşılıq eləməyi, başqalarından artıq öyrətməyi bacarırkən, özü də çoxlarının deməsinə görə mən bu işin bilicisiyəm, sən məni məhkəməyə çəkib, suçlu çıxarmaqmı istəyirsən?

Sözsüz, bu məhkəmənin gedişində Sokrat da, hakimləri onun düzgünlüyünə inandırmaq istəyən arxadaşları da, çoxlu sözlər dedilər, ancaq mənim istəyim

məhkəmədə baş verənləri yerli-yataqlı danışmaq deyil: mən ancaq onu göstərməyi yetərli sayıram, Sokrat məhkəmədə sözü yan salmadan, yastılamadan, başlıca olaraq, tanrılara sayğısız olmadığını, insanlara qarşı düzgün olmayan bir addım atmadığını, tutarlı sözlərlə anlatmağa çalışdı; ona ölüm kəsməsinlər deyə, hakimlərə yalvarmağa gərək duymadı, özünün ölüm çağının yetişməsini toxdaqlıqla qarşıladı. Ölümə bilərəkdən getdiyi, onun işi ilə bağlı səsvermə başa çatanda açıq-aydın bilindi. Hakimlər ona ölümdən qaçına bilmək üçün, özünə görkoldu(cərimə) kəsməsini buyuranda, o nə özü bunu elədi, nə də onun yerinə axça ödəmək istəyən arxadaşlarının bunu eləməsinə yol verdi, onun deməsinə görə, görkolduya qol qoymaq, onun suçlu olduğunu boynuna alması demək olardı. Bundan sonra, arxadaşları onu dustaqlıqdan qaçırmaq istəyəndə o, gülərək soruşmuşdu, Attikadan qıraqda, ölümün insana əli çatmayan bir yer tanıyırlarmı?

Məhkəmənin sonunda Sokrat dedi:

-Ancaq, ay afinalılar, bu tanıqları(şahidləri) yalandan and içib mənim üzümə durmağa öyrədənlər də, onların sözünə uyub bunu eləyənlər də, özlərinin alçaqlıqlarını, əyri yolda olduqlarını, onsuz da bir gün anlayacaqlar. Məhkəmə qurub, məni alçaltmaq istəyirsinizsə, onda nədən, mənim suçlu olmağım üzrə deyilən sözlərdən biri də burada doğrulmadı? Mənim Zevslə, Heradan, onlarla bağlı olan tanrılardan başqa hansısa tanrılara qurban verməyimi görən bir adam da burada ortaya çıxmadı, mənim haçansa başqa bir tanrıya and içdiyimi deyən də tapılmadı. Mən gənclərə, əməyə qatlaşmaqdan, bütün istəklərində ölçü gözləməkdən başqa nəsə öyrətmirəmsə, onları necə pis yola çəkə bilərəm? Ölüm kəsilən suçlara gəlincə, deyək, bunlar: tanrıları danmaqdır, ev yarmaqdır, adam oğurluğudur, yurda dönüklükdür,- məni istəməyənlər də, belə işlərə qatıldığımı demirlər. Ona görə də, bir məni başa salın, siz mənə hansı suçuma görə ölüm kəsirsiniz? Ancaq mənə düzgün olmadan ölüm kəsməyinizdən sonra da mən özümü alçaldılmış saymıram: bu mənim adımı batırmır, mənə ölüm kəsənlərin adını batırır. Ölümü mənimkinə oxşayan Palamedi anıb da toxdaqlıq tapıram: günü bu gün də şairləri, şərqi oxuyanları, gözəl duyğularla coşduran odur, onun suçsuz ölümündə əli olan Odissey yox. Bilirsinizmi, mən nəyə arxayınam? - Necə keçmiş çağlar bugünümüzə ancaq doğru olanları gətirib çıxarır, elə gələcək çağlar da, bu sayaq tanıqlıq eləyib, mənim kim

olduğumu o çağlara olduğu kimi çatdıracaqdır, bir kimsəni incitmədiyimi, kimsəni əyri yola çəkmədiyimi, məni dinləyən insanların işinə yaradığımı, onları axça almadan, bildiyim-bacardığım kimi yaxşılğa öyrətdiyimi, andıracaqdır.

Bunları deyib, Sokrat sözünü bitirdi; özü də yenə, öyrəncəsi üzrə, yan-yörəsindəkilərlə şuxluq eləyir, üzündən, duruşundan, yerişindən, bir sevinc, toxdaqlıq duyulurdu. Birdən arxadaşlarının ağlamağa başladığını eşidib dedi:

-Bu nə deməkdir? Siz ancaq indi ağlamağa başlayırsınız? Yoxsa yaşamın elə doğulduğum gündən mənə ölüm kəsdiyini, ancaq indi anlamısınız? Düzdür, mən tez ölsəydim, umdularımdan yarımasaydım, onda mənim yaxınlarımın ölümümə görə yanıb-yaxılmasına dəyərdi; ancaq mən ömrümün elə bir çağında ölürəm, qarşıda məni qocalığın gətirəcəyi çatışmazlıqlar, ağrı-acılar gözləyirdi, buna görə də mənim onları dadmadan ölə bildiyimə sevinməlisiniz.

Orada olanlardan biri, Sokratı ürəkdən sevən, çox da saya(sadə) ürəkli Apollodor dedi:

-Sokrat, mənə ağır gələn odur, sənə düzgün olmayaraq ölüm kəsdilər.

Deyirlər, Sokrat onun saçlarını oxşayıb demişdi:

-İstəkli arxadaşım Apollodor, yoxsa mənə düzgün olaraq ölüm kəsilməsini görmək istəyirdin?

Bunu deyəndə o gülümsəmişdi.

Deyirlər, Sokrat yaxınlıqdan keçən Aniti* görüb demişdi:

-Ona baxın, başını elə dik tutub gedir, deyəsən hansısa böyük qoçaqlıq eləyib, mənim ona ürəyim yandığından, bunu adam sayıb demişdim, oğlunu dabbaqlıq öyrənməyə göndərmə, indi o da bu sözümdən acığa düşüb, mənə ölüm kəsilməsi üçün dəridən-qabıqdan çıxır. Ona bərk yazığım gəlir! Görünür, anlamır, bizdən hansısmızın adı bütün çağlarda anılacaq; gərəkli, elin gözündə sayılıb-seçilən işlər görən kimsənin adını batırmağa çalışmaqdan da böyük anlamazlıq olurmu?! Homerin deməsinə görə, bir çox adamlarda ölümdən qabaq öncəgörmə vergisi olur; mən də indi sizə ürəyimə daman bir sözü demək istəyirəm. Mən keçənlərdə ayaqüstü, Anitin oğlu ilə görüşmüşdüm; mənə elə gəldi o çox zirək, bacarıqlı bir gəncdir; ona görə də düşünürəm, atasının onu güclə işləməyə göndərdiyi dabbaqlıq kimi qul əməyinə o, çox dözməyəcək; bir yandan

da yaxşı yolgöstərəni, başbiləni olmadığından, onun çox alçaq düşkünlüklərə qapılacağını, bu yaramazlığı ilə çox uzaqlara gedib çıxacağını gözləyirəm.

Sokrat necə demişdisə, elə də oldu: Anitin oğlu içki düşkünü oldu, gecə-gündüz dayanmadan içib, sonunda əlindən iş gəlməyən yolsuzun birisinə çevrildi, ondan nə yurdu, nə arxadaşları, nə də özü yarıdı. Beləliklə də Anit, oğlunu düzgün böyüdə bilmədiyinə görə, özünün anlaqsızlığına görə, lap öz ölümünə görə də, yaman ad qoyub getdi.

Sokrat isə məhkəmədə mənliyini uca tutmaqla, hakimləri qıcıqlandırmış, onları özünə ölüm kəsmələri üçün qızışdırmışdı. Mənə elə gəlir, bununla da onun uğuruna tanrıların yaxşılığı çıxmışdı: o ömrünün yaşa dolmaqla bağlı ən ağır çağlarını görmədən öldü, ölümü də çox qolay oldu. Bununla yanaşı, o öpözünün gücünü də göstərə bildi: özünü bu anlarında, ölümün yaşamaqdan yaxşı olduğuna inandıra bildi, o burada da yenə, ancaq yaxşı olanı seçmişdi, ölümündən qabaq azacıq da olsa öpözünün sarsılmasına yol vermədi; ölümü sevinclə gözləyib, ürəklə qarşıladı.

Beləliklə də insan bilgəliyinin, öpözünün böyüklüyünü düşündükcə, Sokratı anmaya bilmirəm, andıqca da onu öyməyə bilmirəm. Ərdəmlik yetkinliyinə çatmaq üçün çalışan kimsələrdən hansı birisə, insanlığa Sokrat təki gərəkli olmağı bacararsa, mən onun da öz ömründə ən böyük bir ağgünlüyə çatdığını deməkdən çəkinməzdim.

DUYDURMALAR(ŞƏRHLƏR)

Orakul—Tanrıqanların sorğuları üzrə, tanrıların gələcəkdə eləyəcəklərini öyrənib, deyən görücü kimsələr.

Perikl—Bizim çağdan qabaq(b.ç.q.) 490-429-cu illərdə yaşamış, ünlü dövlət başçısı, onun dönəmində Afina dövləti güclənmiş, varlanmış, savaşlarda yenilməz olmuşdur.

Strateq—Afinada ən yüksək dövlət çini, dövlət başçısı. Savaş çağında qoşuna başçılıq eləyər, dövlətin bütün yönətimini əlində toparlayardı, o sıradan qoşunda yasavericilik, məhkəmə işləri də onun əlində olardı.

Pifiy—Delfdəki Apollon tanrı evində, orakul görəvini yerinə yetirən kimsə.

Sofist—Əski yunancada, “bilgə(müdrik) anlamındadır. Sokratın yaşadığı çağlarda sofistlər, öyrəncilərindən axça alıb, bilikləri, gözəl danışmağı öyrətməkdə ad çıxarmışdılar. Sofistlik fəlsəfi axın olaraq da tanınmışdır. Sonradan sofistlər, söz incələməyi—yersiz dilləşmələrə, necə olur olsun, qarşısındakını yolverilməz çəmlərlə olsa belə, yenməyə gətirib çıxarmışdılar. Onların, yalanı doğruya, doğrunu yalana çıxaran söz oyunları qurması, sonucda sofistliyi gözdən salmışdır.

Sinis, Skiron, Prokrust—yarımifik, yarıgerçək, yolkəsən quldurlar olduqları deyilir.

Prodik—B.ç.q. 465-395-ci illərdə yaşamış, sofist olsa da, onlardan seçilmiş, yaxşı sözçü(orator), bacarıqlı öyrətmən kimi tanınmışdır.

Min, talant—Min ilə talant əski çağlarda Yunanıstanda çəki bildirən anlayışlar olmuş, bir də axça ölçüsü olaraq da işlənmişdir. Bir talant-16,8 kq, bir min-280 qramlıq çəkini bildirmişdir.

Sirenlər—Dənizdə yaşadığı deyilən, mifik varlıqlar, çox ürəkçəkici, gözəl səsləri olduğu deyilir. Oxumaqla dənizçiləri tora salıb, sonradan onları yedikləri də sanılmışdır.

Femistokl—B.ç.q. 537-459-cu illərdə yaşamış, uzun sürədə Afinanın dövlət başçısı, qoşun böyüyü olmuşdur. Yunan-Pars savaşlarında qoşun başçıısı kimi dönə-dönə parsları yenə bilmiş, Afinada demokratiyanın gəlişməsinə böyük əməklər qoymuşdur.

Skilla—Dənizdə yaşadığı deyilən, mifik büke(əjdaha), gözəl qadın görkəminə girib, dənizçiləri aldatdığı, sonra da onları yediyi sanılmışdır.

Aspasiya—B.ç.q. 470-400-cü illərdə Afinada yaşamış, çox bilikli, oxumuş, gözəl bir qadın olmuşdur. Periklin ikinci evləndiyi qadın kimi də tanınır. Onun evində rəssamlar, şairlər, filosofların yığıncaqları olmuş, Plutarxın yazdığına görə, Sokrat da bu yığıncaqlara dinləyici olaraq qatılmışdır.

Attika—Üzdən anlamı, dənizqırağı torpaqlar deməkdir. Qısaca desək, Afina şəhər dövlətinin buyuruğunda olan torpaqlar anlaşılır.

Sikofant—Deyilənə görə, çox əski çağlarda Yunanıstandan ölkə dışına əncir aparmaq yasaq olanda, sikofantlar bu işə göz qoyan kimsələrə deyilmiş, sonradan isə çuğul, yalançı, fırıldaqçı adamları belə çağırmışlar.

Hipparx—Afina ordusunda, atlı bölüyünün başçısı.

Delos—Egey dənizində şəhər, mifik baxışlara görə tanrılardan: Apollonla, Artemida burada doğulmuşlar. Burada yunanların böyük sayğı duyduqları tapınaqları: Apollon ilə Dionisin tanrı evləri olmuşdur.

Loxaq—Afina ordusunda sayılan döyüşçülərin arasından seçilən, 16-dan 100-ə kimi döyüşçülərə başçılıq eləyən kimsə.

Taksiarx—Afina ordusunda strateqdən sonra gələn yüksək görəv, onlar Xalq yığıncağında seçilər, strateqin buyuruğunda olardılar. Savaşda alaya(polka) başçılıq eləyər, ordunun sursatını yetirmək də onların boynuna düşərdi.

Xoreq—Varlı afinalılardan, xor, teatr işlərinin axçasını ödəyən, onları yönətən kimsələrə deyilmişdir.

Kekrop—Afinanın birinci mifik çarı, deyilənə görə, Zevs Attikanı yönətmək üstündə, tanrılar: Afina ilə Poseydonun çəkişməsini ayırd etmək üçün qurduğu məhkəməyə onu da çağırmış, o isə üstünlüyü Afinaya vermişdi.

Erextey—Mifik Afina çarı, onacan dini-siyasi yönətim bir olmuş, o isə ekiz qardaşı Butla bunu ikiyə ayırıb, siyasi yönətimi-çarlığı özü götürmüş, dini yönətimi qardaşına vermişdir.

Heraklid—Afinanın mifik çarlarındandır.

Tesey—Afinanın onuncu mifik çarı, Heraklsayağı çoxlu igidlikləri ilə anılır.

Qoplit—Yunan ordusunda ağır yaraqlı yayaq(piyada) döyüşçü, onlar öz axçaları ilə yaraqlanan dinc adamlar idilər, savaşlarda ordunun özəyini yaradırdılar, özlüyündə bütün yurddaşlar elə qoplitlər sayılırdı.

Aeropaq—Üzdən anlamı Ares təpəsi deməkdir, mifolgiyaya görə, Poseydonun oğullarını öldürmüş tanrı Aresə burada məhkəmə qurulubmuş, Afinada isə, bu təpədə yığışan: ömürlük seçilən sayğılı adamlardan düzəlmiş toplantılar olardı, bu adamlar siyasi, dini, məhkəmə işlərinə baxardılar.

Askelap—Yunanların sağlamlıq tanrısı.

Amfiray—Yunan mifologiyasında tanrıların istəmindən baş açan, ən güclü baxıcı olmuşdur.

Delf—Bu şəhər, yunan mifoligiyasına görə “yerin göbəyində” yerləşir, bütün yunanların ortaq tapınaq yeri sayılmaqla, burada Apollonun tanrı evi vardı, yunanlar gələcəyi öyrənmək üçün buradakı orakulun(gələcəyi deyən kimsənin) dediklərinə çox inanırdılar.

Dedal—Afinalı, çox böyük rəssam, çoxlu texniki yeniliklərin yaradıcısı, o sıradan Krit adasındakı labirinti də onun qurduğu deyilir. Gözügötürməzlikdən, qardaşı oğlu olan öyrəncisini öldürüb, Afinadan Kritə qaçıb oranın çarı Minosa sığınır, sonra çarın onu buraxmayacağını görüncə, qanad düzəldib oğlu İkarla Kritdən qaçır, yolda oğlu çox yuxarıdan uçmaq istədiyindən, qanadlarını gün istisindən əridib yerə düşüb ölür, özü Siciliyaya uçub gəlir.

Palamed—Deyilənə görə Troya savaşını Homerdən qabaq yazıya alan şairdir. Troya savaşından yayınmaq istəyən Odisseyin işinin üstünü açıb, savaşa göndərdiyinə görə aralarında yağılıq yaranır. Deyilənə görə, Odissey onun alaçığına Troya çarı Priamın adından yazdığı yalançı məktubla, axça dolu torba qoyub tutdurur, sonra da satqın adıyla daşqalaq elətdirir.

Likurq—Uzun illər Spartanın yüksəlişinə yarayan yasaların yaradıcısı sayılır.

Çor—Bu söz əski türkcədə “çura” kimi işlənərək, insana yoluxan yaman güclərə deyilmişdir. Yaxşılıq daşıyıcısı olan güclərə akçura deyilmişdir.

Anit—Məhkəmədə yalandan Sokratın üzünə durub, ona ölüm kəsilməsinə çalışan, dabbaqçılıqla keçinən, çox varlı afinalı olmuşdur.